

***Bugünkü reallıq, bugünkü gün,***
***o cümlədən ədalətin təntənəsidir.***
***Ədalətə inanmaq və onu təmin etmək lazımdır.***
***Bax, bizim xalqımız həm ədalətə inanıb, həm də onu təmin edib.***
***Bu torpaqların sahibləri bizik. Düşməni öz torpaqlarımızdan qovmuşuq***
***və bu gün gözəl həyat qururuq.***

**İLHAM ƏLİYEV**

***Azərbaycan Respublikasının Prezidenti***

28 oktyabr 2025-ci il

ISSN 2309-1347

Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

# DÖVLƏT İDARƏÇİLİYİ:

## NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ

**2025**
**4 (92)**

**BAKI – 2025**

*Demokratik cəmiyyətdə dövlət idarəçiliyinin, yerli özünüidarəetmənin nəzəriyyəsi və təcrübəsi üzrə tədqiqatlar*

**REDAKSİYA ŞURASI:** ***Samir Nuriyev*** *(sədr)*

***Anar Ələkbərov, Fərəh Əliyeva, Kərəm Həsənov, Zeynal Nağdəliyev, Fuad Ələsgərov, Hikmət Hacıyev, Şahmar Mövsümov, Natiq Əmirov, Urxan Ələkbərov***

**REDAKSİYA HEYƏTİ:** ***Urxan Ələkbərov***
*(redaktor)*

***Əlikram Abdullayev***
*(redaktor müavini)*

***Elman Nəsirov***
*(məsul katib)*

***Əli Nuriyev, Elvin Əzizbəyov, Namiq Əliyev, İsaxan Vəliyev, Azər Əmiraslanov, Hikmət Məmmədov, Gülnarə Qurbanova, Elçin Əhmədov, Nigar Ələkbərova, Xatirə Hüseynova, Firdovsiyyə Əhmədova, Sevil Məmmədova, Leyla Sultanova***

*Elmi-nəzəri jurnal 2003-cü ildən, ildə dörd dəfə olmaqla nəşr edilir.*

*Jurnal AAK-ın rəsmi qeydiyyatdan keçirilmiş və elmi nəşrlər siyahısına daxil edilmişdir.*

*Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə.*
*Elmi-nəzəri jurnal. 2025, №4(92).*
*Bakı, Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının nəşri, 2025, 320s.*

*© Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası, 2025*

ISSN 2309-1347

The Academy of Public Administration
under the President of the Republic of Azerbaijan

# PUBLIC ADMINISTRATION:
## THEORY AND PRACTICE

2025
4 (92)

BAKU – 2025

*Research Dedicated to the Theory and Practice of Public Administration and Application of Decentralized Governance in Democratic Society*

**EDITORIAL COUNCIL:** ***Samir Nuriyev*** *(chairman)*

***Anar Alakbarov, Farah Aliyeva, Karam Gasanov, Zeynal Naghdaliyev, Fuad Alasgarov, Hikmat Hajiyev, Shahmar Movsumov, Natiq Amirov, Urkhan Alakbarov***

**EDITORIAL BOARD**: ***Urkhan Alakbarov***
*(editor-in-chief)*

***Alikram Abdullayev***
*(deputy editor)*

***Elman Nasirov***
*(executive secretary)*

***Ali Nuriyev, Elvin Azizbayov, Namig Aliyev, Isakhan Valiyev, Azer Amiraslanov, Hikmat Mammadov, Gulnara Gurbanova, Elchin Ahmadov, Nigar Alakbarova, Khatira Huseynova, Firdovsiyya Ahmadova, Sevil Mammadova, Leyla Sultanova***

*The scientific-theoretical journal has been published quarterly since 2003.*

*The journal is officially registered at the Supreme Attestation Commission (SAC) and is included in the register of national scientific publications.*

*Public Administration: theory and practice*
*Scientific and theoretical journal. 2025, №4(92)*
*Baku, Publication of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, 2025, 320p.*

*© The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, 2025*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FƏALİYYƏTİNİN QISA XRONİKASI

***Oktyabr - noyabr - dekabr 2025-ci il***

## *Oktyabr*

**1 oktyabr**

- Birinci xanım Mehriban Əliyeva və ölkəmizdə rəsmi səfərdə olan İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə Bakıda İtaliya-Azərbaycan Universitetinin ilk tədris korpuslarının açılışında iştirak etmişdir.
- Sonra Birinci xanım Mehriban Əliyeva və ölkəmizdə rəsmi səfərdə olan İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə tədris korpusunda təşkil edilən Azərbaycan və İtaliya kənd təsərrüfatı məhsullarından ibarət sərgi ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva və İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə tədris binalarında yaradılan şəraitlə tanış olduqdan sonra ölkəmizdə səfərdə olan İtaliya universitetlərinin rəhbərləri, İtaliya-Azərbaycan Universitetinin professorları və tələbələri ilə görüşmüş, görüşdə çıxış etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə Bakının Nərimanov rayonunda salınan yeni parkın açılışında iştirak etmişdir.
- Danimarkanın Baş naziri Mette Frederiksenin və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın dəvəti ilə “Avropa Siyasi Birliyi”nin 7-ci Zirvə toplantısında iştirak etmək üçün bu ölkəyə işgüzar səfərə gəlmişdir.
- Kopenhagendə Danimarka Kralı X Frederik və Kraliçası Meri Elizabetin adından verilən ziyafətdə iştirak etmişdir.
- Sosial media hesablarında “Qarabağ” futbol klubunun qələbəsi ilə bağlı paylaşım etmişdir.

**2 oktyabr**

- Kopenhagendə Moldova Respublikasının Prezidenti Maya Sandu ilə görüşmüşdür.
- Danimarkanın paytaxtı Kopenhagen şəhərində keçirilən “Avropa Siyasi Birliyi”nin 7-ci Zirvə toplantısının açılış mərasimində iştirak etmişdir.
- Kopenhagendə Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə görüşü olmuşdur.
- Kopenhagendə Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşü olmuşdur.
- Kopenhagendə “Avropa Siyasi Birliyi”nin 7-ci Zirvə toplantısının açılış plenar sessiyasında iştirak etmişdir.
- Kopenhagendə “Avropa Siyasi Birliyi”nin 7-ci Zirvə toplantısı çərçivəsində İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə görüşü olmuşdur.
- Kopenhagendə Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşü olmuşdur.
- Kopenhagendə Niderland Krallığının Baş naziri Dik Sxof ilə görüşü olmuşdur.
- Kopenhagendə Fransa Respublikasının Prezidenti Emmanuel Makron ilə görüşü olmuşdur.

**3 oktyabr**

- “X” sosial media hesabında Danimarkaya işgüzar səfəri ilə bağlı video paylaşmışdır.
- Rəsmi sosial şəbəkə səhifələrində 3 oktyabr – Türk Dövlətlərinin Əməkdaşlıq Günü ilə bağlı paylaşım etmişdir.

**4 oktyabr**

- Rəsmi sosial şəbəkə səhifələrində Cəbrayıl şəhərinin işğaldan azad edilməsinin 5-ci ildönümü ilə bağlı paylaşım etmişdir.

**6 oktyabr**

- Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Ağsaqqallar Şurasının sədri Binəli Yıldırımı qəbul etmişdir.
- Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyevi qəbul etmişdir.
- Qəbələdə Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar ilə görüşmüşdür.
- Qəbələdə Macarıstanın Baş naziri Viktor Orban ilə görüşmüşdür.

**7 oktyabr**

- Qəbələdə Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov ilə görüşmüşdür.
- Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının Qəbələdə keçirilən 12-ci Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarını qarşılamış, onlarla birgə foto çəkdirmişdir.
- Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak və çıxış etmişdir.

- Sonra Türk Dövlətləri Təşkilatının 12-ci Zirvə Görüşünün Bəyannaməsinin imzalanması mərasimində iştirak etmişdir.
- Qəbələdə Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov və Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak edən digər dövlət və hökumət başçıları ilə Türkmənistan tərəfindən Füzulidə tikiləcək məscidin onlayn formatda təməlini qoymuşdur.
- Qəbələdə onun adından Türk Dövlətləri Təşkilatının (TDT) 12-ci Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə verilən rəsmi naharda iştirak etmişdir.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə zəng edərək, onu doğum günü münasibətilə təbrik etmişdir.

**8 oktyabr**
- Xorvatiya parlamentinin sədri Qordan Yandrokoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- “X” sosial şəbəkəsində paylaşım edərək, Qarabağın və Şərqi Zəngəzurun bərpasına dəstək üçün qardaş ölkələrə təşəkkür etmişdir.

**9 oktyabr**
- Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun dəvəti ilə MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Düşənbəyə səfərə gəlmişdir.
- Düşənbədə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olmuşdur.
- Düşənbədə MDB dövlət başçılarının qeyri-rəsmi şam yeməyində iştirak etmişdir.
- “İtkin düşmüş şəxslər probleminin həlli üçün səylərin birləşdirilməsi və əməkdaşlığın genişləndirilməsi” mövzusunda beynəlxalq konfransın iştirakçılarını təbrik etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə İspaniyanın Kralı Əlahəzrət VI Felipeni təbrik etmişdir.

**10 oktyabr**
- MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Düşənbədəki “Millət” sarayına gəlmişdir.
- Düşənbədə Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə təkbətək görüşü olmuşdur.
- Düşənbədə keçirilən MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında iştirak və çıxış etmişdir.
- Düşənbədə keçirilən MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclasında iştirak etmişdir.
- Düşənbədə Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun adından MDB dövlət başçılarının şərəfinə təşkil olunmuş rəsmi qəbulda iştirak etmişdir.
- Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci illik iclasının iştirakçılarını təbrik etmişdir.

**12 oktyabr**
- Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində iştirak etmək üçün Misirə işgüzar səfərə gəlmişdir.

**13 oktyabr**
- Sammitin keçirildiyi Şarm əl-Şeyx şəhərindəki Beynəlxalq Konqres Mərkəzinə gəlmişdir.
- Sonra Yaxın Şərq Sülh Sammitində iştirak etmişdir.
- Daha sonra sülh sazişinin imzalanması mərasimində iştirak etmişdir.

**14 oktyabr**
- “Xəzər İnşaat Həftəsi” çərçivəsində keçirilən 5-ci Azərbaycan Beynəlxalq “Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı” – “Rebuild Karabakh” sərgisinin iştirakçılarını təbrik etmişdir.

**15 oktyabr**
- ATƏT-in fəaliyyətdə olan sədri, Finlandiya Respublikasının xarici işlər naziri Elina Valtonenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Üçüncü Azərbaycan Milli Şəhərsalma Forumunun iştirakçılarını təbrik etmişdir.

**16 oktyabr**
- BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbaxı qəbul etmişdir.
- Niderland Krallığının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Marian de Yonqun etimadnaməsini qəbul etmişdir.
- Misir Ərəb Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Houssam-Eldine Redanın etimadnaməsini qəbul etmişdir.
- Avropa İttifaqının Azərbaycan Respublikasında nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Mariyana Kuyundziçin etimadnaməsini qəbul etmişdir.
- Fransa Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sofi Laqutun etimadnaməsini qəbul etmişdir.

**17 oktyabr**
- Sosial media hesablarında Füzuli şəhərinin azad olunmasının 5-ci ildönümü və Füzuli Şəhər Günü münasibətilə paylaşım etmişdir.
- Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) Asiya Mədəniyyət Şurasının “Milli müxtəliflikdən qlobal həmrəyliyə: yeni dünya nizamında mədəniyyətin rolu” mövzusuna həsr olunmuş 4-cü iclasın iştirakçılarını təbrik etmişdir.

**18 oktyabr**
- Qazaxıstana dövlət səfəri ərəfəsində “Kazinform”a eksklüziv müsahibə vermişdir.
- ABŞ Mərkəzi Komandanlığının komandanı və Hərbi Dəniz Qüvvələrinin admiralı Bred Kuperi qəbul etmişdir.

**20 oktyabr**
- Sosial media hesablarında Zəngilan şəhərinin işğaldan azad olunmasının 5-ci ildönümü münasibətilə paylaşım etmişdir.
- Qazaxıstan Respublikasına dövlət səfərinə gəlmişdir.
- Astana şəhərinin Beynəlxalq Aeroportunda onu Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev qarşılamışdır.
- Ölkəsinin milli bayramı münasibətilə Macarıstanın Baş naziri Viktor Orbanı təbrik etmişdir.

**21 oktyabr**
- Qazaxıstanın paytaxtı Astanadakı "Akorda" Prezident Sarayında rəsmi qarşılanma mərasimindən sonra Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə təkbətək görüşü olmuşdur.
- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə "Orta Dəhlizin inkişafı" (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) birgə layihəsinin təqdimatında iştirak etmişdir.
- Astanada Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın ikinci iclasında iştirak və çıxış etmişdir.
- Astanada Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə Azərbaycan-Qazaxıstan sənədlərinin mübadiləsi mərasimində iştirak etmişdir.
- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə "Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Kemeleviç Tokayevin Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında müqavilənin imzalanmasının 20 illiyi münasibətilə Birgə Bəyanatı"nı, "Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının Ali Dövlətlərarası Şurasının ikinci iclasının ikitərəfli əməkdaşlığın möhkəmləndirilməsi məsələlərinə dair 1 saylı Qərarı"nı və "Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının Ali Dövlətlərarası Şurasının ikinci iclasının Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının Xarici İşlər Nazirləri Şurası haqqında Əsasnamənin təsdiq edilməsi barədə 2 saylı Qərarı"nı imzalamışdır.
- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə birlikdə Astanada "Alem.ai" Beynəlxalq Süni İntellekt Mərkəzində olmuşdur.
- Qazaxıstan Respublikasına dövlət səfəri başa çatmış, Astana şəhərinin Beynəlxalq Aeroportunda onu Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev yola salmışdır.
- Qazaxıstan Respublikasına dövlət səfəri ilə bağlı sosial şəbəkə hesablarında paylaşım etmişdir.

**22 oktyabr**
- Estoniya Respublikasının xarici işlər naziri Marqus Tsahknanı qəbul etmişdir.
- Yaqub Eyyubovu qəbul etmiş və ona "İstiqlal" ordenini təqdim etmişdir.
- Yaponiyanın Baş naziri vəzifəsinə seçilməsi münasibətilə Baş naziri xanım Sanae Takaiçini təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Respublika Günü münasibətilə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevi təbrik etmişdir.

**23 oktyabr**
- Ölkəsinin milli bayramı münasibətilə Avstriya Respublikasının Federal Prezidenti Aleksander Van der Belleni təbrik etmişdir.

**24 oktyabr**
- Ölkəsinin milli bayramı münasibətilə Çex Respublikasının Prezidenti Petr Paveli təbrik etmişdir.

**25 oktyabr**
- Qubadlının işğaldan azad edilməsinin ildönümü ilə bağlı sosial şəbəkə hesablarında video paylaşmışdır.

**27 oktyabr**
- Qardaş Türkiyə Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğanı təbrik etmişdir.

**28 oktyabr**
- Sabirabad Sənaye Məhəlləsində "Humix" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) aqrokimyəvi vasitələrin istehsalı müəssisəsinin fəaliyyəti ilə tanış olmuşdur.
- Sabirabad Sənaye Məhəlləsində "Azera Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) toxum istehsalı müəssisəsinin fəaliyyəti ilə tanış olmuşdur.
- Sabirabad Sənaye Məhəlləsində "Taşobası" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) pambıq emalı zavodunun fəaliyyəti ilə tanış olmuşdur.
- Sabirabad Sənaye Məhəlləsində "Fırtına Su Sistemləri" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) su filtrlərinin istehsalı müəssisəsinin fəaliyyəti ilə tanış olmuşdur.
- İmişlidə "Promalt" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) arpa emalı müəssisəsinin açılışında iştirak etmişdir.
- Cəbrayıl rayonunun Horovlu kəndinin birinci mərhələsinin açılışında iştirak etmişdir.
- Cəbrayıl rayonunun Horovlu kəndində sakinlərlə görüşmüş, kəndə köçən sakinlərə mənzillərin açarlarını təqdim etmişdir.
- Cəbrayıl şəhər məscidinin təməlini qoymuşdur.
- Cəbrayıl şəhərində ikinci və üçüncü yaşayış komplekslərinin təməlini qoymuşdur.
- Hacıqabul-Bəhrəmtəpə-Ermənistan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 197-ci kilometrin-

dən Cəbrayıl rayonu ərazisində inşa olunan “Şəfəq” Günəş Elektrik Stansiyasına gedən avtomobil yolunun açılışında iştirak etmişdir.
- Cəbrayıl rayonunun Şahvəlli kəndində hər birinin gücü 50 meqavat olan “Şəms” və “Üfüq” Günəş Elektrik stansiyalarının təməlini qoymuşdur.
- Zəngilan rayonunun Ağalı kəndinin 2-ci mərhələsinin və Məmmədbəyli kəndinin açılışlarında iştirak etmişdir.
- Zəngilan rayonunun Məmmədbəyli və Ağalı kəndlərinin sakinləri ilə görüşmüş, kəndlərə köçən sakinlərə mənzillərin açarlarını təqdim etmişdir.
- Zəngilan şəhərində 104 mənzilli yaşayış kompleksində görülmüş işlərlə tanış olmuşdur.
- Sosial media hesablarında Türkiyə Respublikasının Cümhuriyyət bayramı münasibətilə paylaşım etmişdir.

**29 oktyabr**
- Rumıniya Parlamenti Senatının sədri Mirça Abrudeanı qəbul etmişdir.
- Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) Federal Milli Şurasının sədri Saqr Qobaşın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**30 oktyabr**
- Ölkəsinin milli bayramı – İnqilab Günü münasibətilə Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelmacid Tebbunu təbrik etmişdir.

## *Noyabr*

**3 noyabr**
- Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqda iştirak və çıxış etmişdir.

**5 noyabr**
- Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumların rəhbər şəxslərindən ibarət nümayəndə heyətini qəbul etmişdir.

**6 noyabr**
- NATO nümayəndə heyətini qəbul etmişdir.

**7 noyabr**
- Slovakiya Respublikasının Baş nazirinin müavini və müdafiə naziri Robert Kalinakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şəriflə məhdud tərkibdə görüşü olmuşdur.
- Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə birgə nahar etmişdir.
- 8 Noyabr – Zəfər Günü münasibətilə sosial media hesablarında paylaşım etmişdir.

**8 noyabr**
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Vətən müharibəsində Qələbənin beşinci ildönümü münasibətilə Fəxri xiyabana gələrək Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət etmişdir.
- Ulu Öndərin məzarı önünə əklil qoyaraq xatirəsini ehtiramla anmışdır.
- Sonra birinci xanım Mehriban Əliyeva Ümummilli Liderin xatirəsini yad etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anaraq məzarı üzərinə gül dəstələri qoymuşdur.
- Daha sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də məzarları üzərinə gül dəstələri düzərək xatirələrini yad etmişdir.
- Vətən müharibəsində Qələbənin beşinci ildönümü münasibətilə Birinci xanım Mehriban Əliyeva ilə birlikdə xalqımızın müqəddəs and yeri olan Şəhidlər xiyabanını ziyarət etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad etmiş, “Əbədi məşəl” abidəsinin önünə əklil qoymuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Vətən müharibəsində Qələbəmizə həsr olunmuş Hərbi parada hazırlaşan paytaxt Bakının mənzərəsini seyr etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Bakıda Zəfər abidəsini ziyarət etmiş və Zəfər muzeyinin açılışında iştirak etmişdir.
- Zəfər abidəsinin önünə əklil qoymuş, şəhidlərin xatirəsini ehtiramla anmışdır.
- Birinci xanım Mehriban Əliyeva abidənin önünə gül dəstələri düzmüşdür.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Zəfər muzeyinin açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə birlikdə Bakının Azadlıq meydanında keçirilən Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi paradda iştirak və çıxış etmişdir.

- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə birgə nahar etmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə üçtərəfli görüşü olmuşdur.

**9 noyabr**
- Sosial şəbəkə hesablarında Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi paradla bağlı paylaşım etmişdir.
- 9 Noyabr – Dövlət Bayrağı Günü münasibətilə rəsmi sosial şəbəkə hesablarında yeni paylaşım etmişdir.

**11 noyabr**
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək, Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus hərbi yük təyyarəsinin Gürcüstan ərazisində qəzaya uğraması ilə əlaqədar Türkiyə Respublikasının Prezidentinə, həlak olmuş hərbçilərin ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı başsağlığı vermişdir.

**12 noyabr**
- 12 Noyabr – Konstitusiya Günü ilə bağlı sosial şəbəkə hesablarında paylaşım etmişdir.
- Çinin "China Datang Corporation Ltd." şirkətinin Direktorlar Şurasının sədri Lü Cünün başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Ceyhun Cəlilovu Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi, Elxan İbrahimovu Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı, Natiq Ağayevi Balakən Rayon İcra Hakimiyyətinin başçısı, Orxan Mürsəlovu Göyçay Rayon İcra Hakimiyyətinin başçısı, Elvin Paşayevi Qax Rayon İcra Hakimiyyətinin başçısı, Vüqar Novruzovu Göygöl Rayon İcra Hakimiyyətinin başçısı, Elşən Həsənlini Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul etmişdir.
- "Konstitusiya və qanunun aliliyi müasir hüquqi sistemlərdə" mövzusunda təşkil olunan beynəlxalq konfransın iştirakçılarını təbrik etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Fələstin Dövlətinin Prezidenti Mahmud Abbası təbrik etmişdir.

**13 noyabr**
- ABŞ-ın İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin nümayəndə heyətini qəbul etmişdir.
- Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibə vermişdir.
- "Beynəlxalq nəqliyyat xətlərinin təhlükəsizliyinin təmin olunmasında xüsusi xidmət orqanlarının rolu" mövzusunda beynəlxalq konfransın iştirakçılarını təbrik etmişdir.

**14 noyabr**
- Asiya İnkişaf Bankının prezidenti Masato Kandanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Ukrayna Prezidenti Volodimir Zelenski ona zəng edərək, Rusiyanın raket zərbəsi nəticəsində Azərbaycanın Ukraynadakı səfirliyinin inzibati binasının növbəti dəfə raket zərbəsinə məruz qalmasını qınamış və bu hadisə ilə bağlı ciddi narahatlığını bildirmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Omanın Sultanı Əlahəzrət Heytəm bin Tariq Al Səidi təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçsi təbrik etmişdir.

**15 noyabr**
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə iştirak etmək üçün Özbəkistana səfərə gəlmişdir.
- Daşkənddə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə təkbətək görüşü olmuşdur.
- Daşkənddə İslam Sivilizasiyası Mərkəzi ilə tanış olmuşdur.
- Daşkənddə keçirilən "Gələcəyin İrsi" Beynəlxalq Mükafatının təntənəli təqdimat mərasimində iştirak etmişdir.

**16 noyabr**
- Özbəkistanın paytaxtı Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə iştirak etmək üçün Konqres Mərkəzinə gəlmiş və tədbirdə çıxış etmişdir.
- Özbəkistan Respublikasına səfəri başa çatmış, Daşkənd Beynəlxalq Hava Limanında onu Özbəkistan Prezidenti Şavkat Mirziyoyev yola salmışdır.

**17 noyabr**
- 17 noyabr – Milli Dirçəliş Günü münasibətilə sosial şəbəkə hesablarında paylaşım etmişdir.
- Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransının iştirakçılarını təbrik etmişdir.

**20 noyabr**
- Ağdamın işğaldan azad olunmasının 5-ci ildönümü ilə bağlı sosial şəbəkə hesablarında paylaşım etmişdir.

**21 noyabr**
- "Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi" mövzusunda D-8 Media Forumunun iştirakçılarını təbrik etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Jelko Komşiçi təbrik etmişdir.

**22 noyabr**
- Abşeron rayonunun Hökməli qəsəbəsində "Scandens Pharmaceutical Industries Ltd" MMC-nin dərman

preparatları istehsalı müəssisəsinin açılışında iştirak etmişdir.

**24 noyabr**

- Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumunun iştirakçılarını təbrik etmişdir.
- Azərbaycan Respublikası ilə Bruney Darüssalam arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü ilə əlaqədar Bruney Darüssalamın Sultanı Əlahəzrət Hacı Həssənal Bolkiahı təbrik etmişdir.

**25 noyabr**

- Kəlbəcərin işğaldan azad olunmasının 5-ci ildönümü ilə bağlı sosial şəbəkə hesablarında paylaşım etmişdir.
- Ölkəsinin müstəqilliyinin elan edilməsinin 50-ci ildönümü münasibətilə Timor-Leste Demokratik Respublikasının Prezidenti Coze Ramuş-Hortanı təbrik etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Albaniya Respublikasının Prezidenti Bayram Beqanı təbrik etmişdir.

**27 noyabr**

- Bakının Qaradağ rayonunda "Matanat-A" şirkətinin "AZWOOL" mineral daş yunu zavodunun açılışında iştirak etmişdir.

**28 noyabr**

- Honkonqda yerləşən yaşayış kompleksində baş vermiş güclü yanğın nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar Çin Xalq Respublikasının Sədri Si Cinpinə başsağlığı vermişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Rumıniyanın Prezidenti Nikuşor Danı təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyanı təbrik etmişdir.
- Laos Xalq Demokratik Respublikasının yaranmasının 50-ci ildönümü münasibətilə Prezident Thonqlun Sisuliti təbrik etmişdir.

## *Dekabr*

**1 dekabr**

- Laçının işğaldan azad olunmasının 5-ci ildönümü ilə bağlı sosial şəbəkə hesablarında paylaşım etmişdir.

**2 dekabr**

- Ölkəsinin milli bayramı münasibətilə Tailandın Kralı Əlahəzrət Maha Vajiralongkorn Phra Vajiraklaochaoyuhuanı təbrik etmişdir.

**3 dekabr**

- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubbu təbrik etmişdir.

**4 dekabr**

- Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının müdafiə üzrə dövlət naziri Lord Vernon Koakeri qəbul etmişdir.
- Almaniya Federativ Respublikasının Kansleri Fridrix Merts ona zəng edərək, Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində əldə olunmuş nailiyyətlər münasibətilə təbriklərini çatdırmış və Almaniyanın regionda sabitliyi dəstəklədiyini vurğulamışdır.

**5 dekabr**

- "Mədəni irs və qayıdış hüququ: Ermənistandan didərgin salınmış azərbaycanlıların mədəni irsinin bərpası – ədalətə, barışığa və sülhə aparan yol kimi" mövzusunda III beynəlxalq konfransın iştirakçılarını təbrik etmişdir.

**6 dekabr**

- Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "2PointZero" şirkətinin sədri Şeyx Zayed bin Hamdan bin Zayed Əl Nəhyanı, "International Holding Company"nin baş icraçı və idarəedici direktoru Seyid Basar Şuebi, həmçinin "International Resources Holding" şirkətinin baş icraçı direktoru Əli Alraşdini qəbul etmişdir.

**7 dekabr**

- Qırğız Respublikasının Nazirlər Kabineti sədrinin müavini Bakıt Torobayevin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**8 dekabr**

- İran İslam Respublikasının xarici işlər naziri Seyid Abbas Əraqçinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Qlobal infrastruktur investisiya idarəetmə şirkəti "Global Infrastructure Partners"in (GIP) təsisçisi, sədri və baş icraçı direktoru Adebayo Oqunlesini qəbul etmişdir.
- Slovakiya Respublikasına rəsmi səfərə gəlmişdir.
- Slovakiyanın paytaxtı Bratislavada rəsmi qarşılanma mərasimindən sonra Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini ilə təkbətək görüşü olmuşdur.
- Bratislavada Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini ilə geniş tərkibdə görüşü olmuşdur.
- Bratislavada Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini ilə mətbuata bəyanatlarla çıxış etmişdir.
- Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini ilə Bratislavada "Azadlıq Qapısı" abidəsini ziyarət etmiş, abidənin önünə əklil qoymuşdur.
- Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini ilə Bratislavada Devin qəsrində olmuşdur.
- Bratislavada onun şərəfinə Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrininin adından verilmiş rəsmi ziyafətdə iştirak və çıxış etmişdir.

**9 dekabr**

- Bratislavada Slovakiya Respublikasının Milli Şurasının sədri Rixard Raşi ilə təkbətək və geniş tərkibdə görüşləri olmuşdur.
- Bratislavada Slovakiya Respublikasının Baş naziri Robert Fitso ilə təkbətək görüşü olmuşdur.
- Slovakiya Respublikasına rəsmi səfəri başa çatmışdır.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Keniya Respublikasının Prezidenti Uillyam Samoei Rutonu təbrik etmişdir.

**10 dekabr**

- "John Deere" şirkətinin Mərkəzi Asiya və MDB ölkələri üzrə prezidenti, "John Deere Walldorf International" MMC-nin Baş icraçı direktoru Ksaba Leykonu qəbul etmişdir.
- Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycan Respublikası üzrə ticarət elçisi Lord Olderdaysı qəbul etmişdir.

**11 dekabr**

- Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədova zəng edərək, Türkmənistanın daimi bitərəfliyinin tanınmasının 30-cu ildönümü münasibətilə onu təbrik etmiş və qardaş Türkmənistana uğurlar arzulamışdır.
- Türkmənistanın daimi bitərəfliyinin tanınmasının 30-cu ildönümü münasibətilə Türkmənistanın Prezidenti Sərdar Berdiməhəmmədovu təbrik etmişdir.

**12 dekabr**

- Ulu Öndər Heydər Əliyevlə bağlı rəsmi sosial şəbəkə hesablarında foto paylaşmışdır.
- Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə Fəxri xiyabana gələrək, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət etmiş, Ulu Öndərin məzarı önünə əklil qoymuşdur.
- Sonra Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini ehtiramla anmış, məzarı üzərinə gül dəstələri qoymuşdur.
- Daha sonra Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələrini yad etmiş, məzarları üstünə gül dəstələri düzmüşdür.
- Ölkəsinin milli bayramı münasibətilə Bəhreynin Kralı Əlahəzrət Şeyx Həməd bin İsa Al Xəlifəni təbrik etmişdir.

**15 dekabr**

- Sidneydə Hanuka bayramı keçirilən zaman törədilmiş terror aktı nəticəsində çox sayda insanın həlak olması və yaralanması ilə əlaqədar Avstraliya İttifaqının Baş naziri Entoni Albanizə başsağlığı vermiş, xəsarət alanlara şəfa diləmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Qətər Dövlətinin Əmiri Əlahəzrət Şeyx Təmim bin Həməd Al Tanini təbrik etmişdir.

**16 dekabr**

- Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının VIII Qurultayının iştirakçılarını təbrik etmişdir.

**17 dekabr**

- Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın dəvəti ilə bu ölkəyə səfər etmişdir.
- Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşü olmuşdur.
- Sonra Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan "Gələcəyin oyunları 2025" adlı illik qlobal idman turnirinin açılış mərasimində iştirak etmişdir.
- Daha sonra Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın adından onun şərəfinə verilmiş naharda iştirak etmişdir.

**18 dekabr**

- Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun 90 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktiki konqresin iştirakçılarını təbrik etmişdir.

**22 dekabr**

- 2026-cı ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan olunması ilə əlaqədar sosial media hesablarında paylaşım etmişdir.

**23 dekabr**

- Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində olmuşdur.
- Xankəndi şəhəri Kərkicahan qəsəbə sakini Yadigar Əsədovanın evində olmuş və söhbət etmişdir.
- Xankəndi şəhərinin Kərkicahan qəsəbə 1 nömrəli tam orta məktəbin binasının əsaslı təmirdən sonra açılışında iştirak etmişdir.
- Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində buraya köçən sakinlərlə görüşmüşdür.
- Xankəndi şəhərində Qarabağ Universitetinin Mühəndislik fakültəsinin binasının təməlini qoymuşdur.
- Xankəndi şəhərində Qarabağ Universitetinin Biznes və iqtisadiyyat fakültəsinin yeni inşa olunmuş binasının açılışında iştirak etmişdir.
- Xankəndi şəhərində "AzərEnerji" ASC-nin 110/35/10 kV-luq "Xankəndi-1" elektrik yarımstansiyasının açılışında iştirak etmişdir.
- Xocalı rayonunun Ballıca kəndində "Accurate Az" MMC-nin ofis mebelləri və mebel aksessuarlarının istehsalı müəssisəsinin açılışında iştirak etmişdir.
- Ağdam Sənaye Parkında "Construction" MMC-nin metal elektrik dirəklərinin istehsalı müəssisəsinin açılışında iştirak etmişdir.
- Ağdam Sənaye Parkında "Saloğlu Qarabağ" MMC-nin istehsal müəssisəsinin təməlini qoymuşdur.
- Ağdam şəhərində "Hilton Garden Inn Agdam" hotelinin açılışında iştirak etmişdir.
- İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian zəng edərək, onu qarşıdan gələn ad günü münasibətilə təbrik etmiş, ona prezidentlik fəaliyyətində yeni uğurlar və cansağlığı arzulamışdır.

**24 dekabr**

- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev zəng edərək, onu ad günü münasibətilə təbrik etmiş, ona prezidentlik fəaliyyətində yeni uğurlar və möhkəm cansağlığı arzulamışdır.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin zəng edərək, onu ad günü münasibətilə təbrik etmiş, ona prezidentlik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulamışdır.
- Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç zəng edərək, onu ad günü münasibətilə təbrik etmiş, ona prezidentlik fəaliyyətində yeni uğurlar və cansağlığı arzulamışdır.
- Gürcüstanın Baş naziri İrakli Kobaxidze zəng edərək, onu ad günü münasibətilə təbrik etmiş, ona prezidentlik fəaliyyətində yeni uğurlar və möhkəm cansağlığı arzulamışdır.
- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev zəng edərək, onu ad günü münasibətilə təbrik etmiş, ona prezidentlik fəaliyyətində uğurlar və cansağlığı arzulamışdır.
- İsrail Dövlətinin Prezidenti İsxak Hersoq zəng edərək, onu ad günü münasibətilə təbrik etmiş, ona prezidentlik fəaliyyətində yeni uğurlar və möhkəm cansağlığı arzulamışdır.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan zəng edərək, onu ad günü münasibətilə təbrik etmiş, ona prezidentlik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulamışdır.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Xankəndi şəhərində Zəfər parkının açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışında iştirak etmiş və buraya köçən sakinlərlə görüşmüşdür.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ağdam şəhərinə köçən sakinlərlə görüşmüş, görüşdə çıxış etmişdir.
- Daha sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə sakinlərə evlərin açarlarının təqdim edilməsi mərasimində iştirak etmişdir.

**25 dekabr**

- "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus "Embraer 190" təyyarəsinin qəzaya uğramasının birinci ildönümü ilə bağlı sosial media hesablarında paylaşım etmişdir.

**26 dekabr**

- 2025-ci ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak və çıxış etmişdir.
- Sonra Azərbaycanda idmanın inkişafında xidmətləri olan idmançıların və idman mütəxəssislərinin mükafatlandırılması mərasimində iştirak etmişdir.
- Azərbaycanda idmanın inkişafında xüsusi xidmətlərinə və yüksək peşəkarlığına görə Mövlud Mirəliyevə, Ələkbər İmaməliyevə, Zöhrab Gözəlbəyliyə və İlahə Qədimovaya "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adlarının vəsiqələrini təqdim etmişdir.
- Ölkəmizdə idmanın inkişafında xidmətlərinə görə Elmira Aslanova, Vəfa Musayeva, Nurəddin Rəcəbov, Eduard Məmmədov, Azər Məhərrəmov, Yaqub Abdullayev, Cahangir Ağarəhimov, Fikrət Hüseynov, Cahangir Bayramov və Coşqun Əliyevi "Tərəqqi" medalları ilə təltif etmişdir.
- 2025-ci ildə yüksək nailiyyətlər qazanmış bir qrup idmançıya və idman mütəxəssisinə – Şəmsi Səfərliyə, Böyükxanım Astanovaya, Morteza Validarviyə, Mehran Həmidzadəyə, Malik Həsənova, İmamverdi Məmmədova, Ramil Vəliyevə, Tofiq Əliyevə, Oqtay Abdullayevə, Nurəddin Məmmədova, Solmaz Adilovaya, Ülvi Qənizadəyə, Murad Məmmədova, Ramil Cəfərova, Aygül Abdullayevaya, Yelizaveta Rubana, Xəyyam Orucova, Elnur İbrahimə, Taleh Nağızadəyə, Nərmin Kazımovaya və Fərid Tağızadəyə yeni mənzillərin orderlərini təqdim etmişdir.
- Daha sonra idmançılarla söhbət etmişdir.

**29 dekabr**

- Birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva ilə birlikdə "Bakı Ağ Şəhər"də olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva və qızları ilə birlikdə "Qarabağ atları" heykəltəraşlıq kompleksi ilə tanış olmuşdur.
- Sonra Birinci xanım və qızları ilə birlikdə "Bakı Ağ Şəhər"də Babək kvartalında həyata keçirilən işlərlə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva və qızları ilə birlikdə Palıd meydanı parkında ilk palıd ağacını əkmişdir.
- Birinci xanım və qızları ilə birlikdə "Bakı Ağ Şəhər"də Zaman meydanı və buradakı piyada körpüsünün açılışında da iştirak etmişdir.
- Sosial media hesablarında "Bakı Ağ Şəhər"ə ziyarətinə dair videoçarx paylaşmışdır.
- Ölkəsinin milli bayramı – Azadlıq Günü münasibətilə Kuba Respublikasının Prezidenti Migel Dias-Kanel Bermudesi təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqilliyinin 70-ci ildönümü münasibətilə Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhanı təbrik etmişdir.

**30 dekabr**

- 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım etmişdir.

**31 dekabr**

- Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına və dünyada yaşayan bütün azərbaycanlılara müraciət etmişdir.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RƏSMİ QƏBULLARI

### *Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Ağsaqqallar Şurasının sədri Binəli Yıldırımın qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Ağsaqqallar Şurasının sədri Binəli Yıldırımı qəbul edib.

Söhbət zamanı dövlətimizin başçısının Binəli Yıldırımla görüşləri, həmçinin onun ölkəmizə səfərləri məmnunluqla xatırlandı.

Qonaq Türk Dövlətləri Təşkilatının fəaliyyətinə göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edərək vurğuladı ki, Təşkilatın Ağsaqqallar Şurası bundan sonra da Türk dövlətləri arasında əməkdaşlığın inkişafı prosesinə öz töhfəsini verməyə davam edəcək.

Görüşdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşünün əhəmiyyətinə toxunuldu, ölkəmizdə təşkil edilmiş digər beynəlxalq tədbirlər kimi, bu sammitin də yüksək səviyyədə keçiriləcəyinə əminlik ifadə olundu.

Söhbət zamanı Azərbaycan və Türkiyə arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün sahələrdə daha da genişlənməsi qeyd edildi.

### *Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyevin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyevi qəbul edib.

Söhbət zamanı dövlətimizin başçısı ilə qonağın görüşləri məmnunluqla xatırlandı.

Baş katib Azərbaycanla Ermənistan arasında sülh gündəliyi ilə bağlı Amerika Birləşmiş Ştatları Prezidenti Donald Trampın şahidliyi ilə Vaşinqtonda əldə olunmuş nəticələr münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkür etdi.

Kubanıçbek Ömüralıyev Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzunun daha da artması, üzv və müşahidəçi ölkələr arasında əməkdaşlığın gücləndirilməsi işinə Azərbaycanın verdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Görüşdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının Qəbələdə keçiriləcək 12-ci Zirvə Görüşünün "Regional sülh və təhlükəsizlik" mövzusuna həsr olunduğu vurğulanaraq, tədbir çərçivəsində təşkilatın gündəliyində duran aktual məsələlərin müzakirə ediləcəyi bildirildi.

Dövlətimizin başçısı bu Zirvə Görüşünün Türk dünyasında dostluq, həmrəylik və tərəfdaşlığın möhkəmləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.

Söhbət zamanı ölkəmizlə təşkilat arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

### *Xorvatiya parlamentinin sədri Qordan Yandrokoviçin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də Xorvatiya parlamentinin sədri Qordan Yandrokoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Xorvatiya parlamentinin sədri Azərbaycana ilk dəfə səfər etdiyini deyərək, paytaxt Bakının gözəlliyinin onda dərin təəssürat hissi yaratdığını bildirdi.

Qordan Yandrokoviç Prezident İlham Əliyevi Azərbaycan dövləti və xalqı naminə gördüyü işlərə və xidmətlərinə görə təbrik etdi. Qonaq, həmçinin Vaşinqtonda Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəliyə aparılması istiqamətində əldə edilmiş nəticələr münasibətilə də təbriklərini çatdırdı.

Azərbaycan ilə Xorvatiya arasında əlaqələrin yaxşı səviyyədə olduğunu deyən Qordan Yandrokoviç parlamentlərarası münasibətlərin daha da genişləndirilməsi üçün imkanların mövcud olduğunu vurğuladı. Hər iki ölkədə parlamentlərarası dostluq qruplarının fəaliyyət göstərdiyini qeyd edən qonaq dostluq qrupları ilə yanaşı, müxtəlif parlament komitələri arasında da əməkdaşlığın vacibliyinə toxundu.

Təbriklərə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında əldə olunmuş razılaşmaların tarixi əhəmiyyət kəsb etdiyini vurğuladı.

Dövlətimizin başçısı Azərbaycan ilə Xorvatiya arasında əlaqələrin inkişafından məmnunluğunu ifadə etdi.

Xorvatiyanın Azərbaycanın Avropa İttifaqı və NATO ilə əlaqələrinin inkişafını daim dəstəkləməsi vurğulandı.

Görüşdə ikitərəfli münasibətlərin dostluq və tərəfdaşlıq prinsipləri əsasında inkişaf etdiyi bildirildi, enerji, sərmayələr, turizm və digər sahələrdə əməkdaşlıq üçün geniş imkanların olduğu diqqətə çatdırıldı, ölkələrimizin beynəlxalq parlamentlərarası təsisatlar çərçivəsində əlaqələrinin inkişaf perspektivləri müzakirə olundu.

### *ATƏT-in fəaliyyətdə olan sədri Elina Valtonenin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də ATƏT-in fəaliyyətdə olan sədri, Finlandiya Respublikasının xarici işlər naziri Elina Valtonenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Qəbula görə təşəkkürünü bildirən Elina Valtonen, ilk növbədə, Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubbun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Aleksandr Stubba çatdırmağı xahiş etdi.

Söhbət zamanı dövlətimizin başçısı ilə Finlandiya Prezidentinin görüşləri, həmçinin Bakıda keçirilmiş COP29 tədbirində Finlandiyanın ən yüksək səviyyədə iştirakı məmnunluqla xatırlandı.

Elina Valtonen Vaşinqtonda Azərbaycanla Ermənistan arasında əldə olunmuş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevi təbrik edərək, bunun ATƏT məkanında sülh və sabitliyin bərpası, həmçinin regional əməkdaşlıq baxımından önəmini qeyd etdi.

Qonaq Azərbaycan və Ermənistanın müraciəti əsasında ATƏT-in Minsk prosesinin və onunla əlaqəli strukturların fəaliyyətinin 2025-ci il dekabrın 1-dək ləğv ediləcəyini bildirdi.

Dövlətimizin başçısı vurğuladı ki, Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan və Ermənistan arasında əldə olunmuş razılaşmalar sülh gündəliyinin irəli aparılmasına şərait yaratdı.

Prezident İlham Əliyev Vaşinqtonda Ermənistanın icrası ilə bağlı üzərinə öhdəlik götürdüyü TRIPP layihəsinin regional əməkdaşlıq baxımından önəminə toxundu, onun bütün bölgə üçün faydalı olacağını dedi.

Söhbət zamanı ölkəmizlə ATƏT arasında əməkdaşlıq məsələləri müzakirə olundu, Azərbaycan-Finlandiya ikitərəfli əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

### *BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbaxın qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbaxı qəbul edib.

Söhbət zamanı qonağın Xankəndi şəhərində keçirilən III Azərbaycan Milli Şəhərsalma Forumunda iştirakının önəminə toxunuldu.

Anaklaudia Rossbax forumun yüksək səviyyədə təşkil edildiyini deyərək, həmin tədbirdə şəhərsalma məsələləri ilə bağlı çox aktual müzakirələrin aparıldığını vurğuladı.

Azərbaycan-UN-Habitat tərəfdaşlığı çərçivəsində ölkəmizdə indiyədək bir neçə milli şəhərsalma forumunun keçirildiyi məmnunluqla qeyd edildi.

Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan irimiqyaslı bərpa-yenidənqurma işlərinə toxunuldu, işğaldan azad edilmiş ərazilərimizdə şəhər və kəndlərimizin inşasında yeni müasir şəhərsalma modelinin tətbiq olunduğu bildirildi.

Qonaq Azərbaycanın BMT-nin Məskunlaşma Proqramına könüllü maliyyə töhfələrinə və onun fəaliyyətini dəstəklədiyinə görə təşəkkürünü bildirdi. O, COP29-un ölkəmizdə uğurla keçirildiyini vurğulayaraq, bu tədbirdə iqlim gündəliyi ilə urbanizasiya fəaliyyətinin bir araya gətirildiyini və bu xüsusda Azərbaycanın təşəbbüslərlə çıxış etdiyini məmnunluqla vurğuladı.

Görüşdə 2026-cı ildə ölkəmizdə keçiriləcək Birləşmiş Millətlər Təşkilatının ən nüfuzlu tədbirlərindən biri – Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına hazırlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Digər mötəbər beynəlxalq tədbirlər kimi bunun da yüksək səviyyədə keçiriləcəyinə əminlik ifadə olundu.

Söhbət zamanı Azərbaycanla BMT-nin Məskunlaşma Proqramı arasında əməkdaşlığın perspektivləri müzakirə edildi.

### *Niderland Krallığının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Marian de Yonqun etimadnaməsinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Niderland Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Marian de Yonqun etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğunu dedi. Kopenhagendə Niderland Krallığının Baş naziri Dik Sxof ilə görüşünü xatırladan Prezident İlham Əliyev həmin görüş əsnasında tərəfdaşlığımızın müxtəlif aspektlərinin müzakirə olunduğunu vurğuladı, bir çox sahədə əməkdaşlığı gücləndirmək barədə razılığın əldə edildiyini bildirdi. Hazırda Niderland şirkətlərinin ölkəmizdə müxtəlif istiqamətlər üzrə fəaliyyət göstərdiyini deyən dövlətimizin başçısı gələcəkdə onların sayının çoxalacağına ümidvar olduğunu ifadə etdi.

Qəbula görə minnətdarlığını bildirən səfir Niderlandın Kralı Villem-Aleksandrın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Niderlandın Kralı və Baş nazirinə çatdırmağı xahiş etdi.

Marian de Yonq ölkəsinin Azərbaycanla siyasi və iqtisadi sahədə güclü əməkdaşlıq etmək niyyətində olduğunu dedi, bunun qarşılıqlı fayda verəcəyinə əminliyini vurğuladı.

### *Misir Ərəb Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Houssam-Eldine Redanın etimadnaməsinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Misir Ərəb Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Houssam-Eldine Redanın etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev, ilk növbədə, Şarm-əl-Şeyxdə Yaxın Şərq Sülh Sammitinin yüksək səviyyədə təşkilinə görə Misir Ərəb Respublikasına təbriklərini çatdırdı. ABŞ Prezidenti Donald Tramp və Misir Prezidenti Əbdülfəttah əs-Sisi tərəfindən Azərbaycanın bu tədbirə dəvətini yüksək qiymətləndirən dövlətimizin başçısı bunu ölkələrimiz arasında mövcud olan etimadın və dostluğun nümunəsi kimi dəyərləndirdi.

Əbdülfəttah əs-Sisinin Azərbaycana səfərini, özünün isə Misirə rəsmi səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev bu səfərlər çərçivəsində müzakirə olunmuş mövzuların həyata keçirilməsi ilə bağlı məsələlərə toxundu.

Səfir Misir Prezidenti Əbdülfəttah əs-Sisinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Əbdülfəttah əs-Sisiyə çatdırmağı xahiş etdi.

Görüşdə Hökumətlərarası Komissiyanın əhəmiyyətinə toxunuldu, yaxın vaxtlarda onun növbəti iclasının keçiriləcəyi qeyd olundu. Bakı ilə Şarm-əl-Şeyx və Qahirə şəhərləri arasında birbaşa uçuşların olduğu və bunun turizm sahəsində əməkdaşlığa ciddi təkan verdiyi vurğulandı.

Söhbət zamanı mədəni və humanitar sahələrdə əməkdaşlığımızın perspektivləri müzakirə olundu

### *Avropa İttifaqının Azərbaycan Respublikasında nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Mariyana Kuyundziçin etimadnaməsinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Mariyana Kuyundziçin etimadnaməsini qəbul edib.

Mariyana Kuyundziç etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı Tirana və Kopenhagendə Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşlərini məmnunluqla xatırlayaraq, həmin görüşlər əsnasında əməkdaşlığımızın inkişaf perspektivlərinə dair ətraflı müzakirələrin aparıldığını bildirdi. Prezident İlham Əliyev Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin son dinamikasını vurğulayaraq, bir il ərzində Avropa İttifaqının 3 komissarının Azərbaycana səfərinə toxundu.

Müəssisənin fəaliyyətə başlaması Qarabağda mebel istehsalı sahəsinin formalaşmasına, yerli istehsalın genişlənməsi və ixrac potensialının artırılmasına, həmçinin işğaldan azad olunmuş ərazilərdə əhalinin məşğulluq səviyyəsinin yüksəlməsinə töhfə verəcək. Hazırda burada 80 nəfər üçün daimi iş yeri yaradılıb, növbəti mərhələlərdə isə 450 daimi iş yerinin yaradılması planlaşdırılır.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə dayanıqlı məskunlaşmanın, özəl təşəbbüslərin stimullaşdırılması, investisiyaların cəlbi və əlverişli biznes mühitinin formalaşdırılması dövlətin əsas strateji hədəflərindən biri kimi müəyyənləşdirilib. Bu məqsədlə həmin ərazilərdə fəaliyyət göstərən hüquqi və fiziki şəxslər 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətinə mənfəət, gəlir, əmlak, torpaq və sadələşdirilmiş vergilərdən azaddırlar. Həmçinin bu ərazilərdə rezidentlər tərəfindən iqtisadi fəaliyyət sahələri üzrə idxal olunan texnika, texnoloji avadanlıq və qurğular, xammal və materialların idxalı 2023-cü il yanvarın 1-dən 10 il müddətinə ƏDV və gömrük rüsumundan azaddır. Bütün bu tədbirlər sahibkarlığın, sənaye və iqtisadiyyatın inkişafını, həmçinin əhalinin məşğulluğunun artırılmasını təmin edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Ağdam Sənaye Parkında "Construction" MMC-nin metal elektrik dirəklərinin istehsalı müəssisəsinin açılışında iştirak edib.

"Construction" MMC-nin təsisçisi Nurlan Abbasov dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat verdi.

Bildirildi ki, Sənaye Parkının 1 hektarlıq ərazisində yerləşən müəssisədə istehsal Çin texnologiyası əsasında qurulub. Zavodun metal elektrik dirəkləri üzrə illik istehsal gücü 7 min 200 ton təşkil edir. Məhsullar həm

daxili bazarın tələbatını ödəyəcək, həm də ixrac ediləcək. İnvestisiya həcmi 2,96 milyon manat olan müəssisədə 32 daimi iş yeri yaradılıb. Qurulmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 1,2 milyon manat zəmanətli kredit ayrılıb. Bununla yanaşı, müəssisə sənaye parkının rezidentlərinə verilən bütün vergi və gömrük güzəştlərindən yararlanıb. Həmçinin texnika, texnoloji avadanlıq və qurğuların idxalı zamanı təxminən 443 min manat dəyərində ƏDV və gömrük rüsumlarına güzəşt əldə olunub.

Qeyd edək ki, dövlətimizin başçısının 2021-ci ildə imzaladığı Fərmana əsasən, 190 hektar ərazidə yaradılan Ağdam Sənaye Parkının məqsədi işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının inkişafı, sahibkarlığın dəstəklənməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır. Sənaye Parkının prioritet istiqamətləri tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət, süd, yem, gübrə istehsalının və emalının, xidmət sahələrinin, soyuducu kameraların təşkilidir.

Sahibkarlıq fəaliyyətinin inkişafı üçün burada dövlət tərəfindən əlverişli investisiya mühiti yaradılıb. Parkda ümumi investisiyalarının həcmi 312 milyon manatdan çox olan 32 sahibkarlıq subyektinə rezidentlik, 5 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Artıq investorlar tərəfindən Sənaye Parkına 142 milyon manat sərmayə yatırılıb, 970-ə yaxın daimi iş yeri yaradılıb. İşlə təmin edilənlərin çoxu Ağdam və ətraf rayonların sakinləridir. Sənaye Parkının rezidentləri tərəfindən istehsal olunmuş 945 milyon manat dəyərində məhsul satışı həyata keçirilib ki, bunun da 39,5 milyon manatlıq hissəsi ixrac edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Ağdam Sənaye Parkında "Saloğlu Qarabağ" MMC-nin istehsal müəssisəsinin təməlini qoyub.

"Saloğlu Qarabağ" MMC-nin təsisçisi Tacəddin Mustafayev dövlətimizin başçısına yeni yaradılacaq müəssisə haqqında məlumat verdi.

Bildirildi ki, müəssisə Ağdam Sənaye Parkında 1 hektar ərazidə yaradılacaq. Burada mebel, o cümlədən müxtəlif çeşiddə qonaq və yataq otağı dəstləri, yumşaq və metal mebel aksesuarlarının istehsalı üzrə zavodun qurulması nəzərdə tutulur. İstehsal prosesində Türkiyə, Almaniya və Çin texnologiyalarından istifadə olunacaq. Zavodun istehsal gücü illik 4 min dəst mebel və 6 min ədəd metal mebel aksesuarı olacaq. Məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, ixrac da ediləcək. İnvestisiya dəyəri 8 milyon manat olan müəssisənin qurulmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən güzəştli kredit ayrılması nəzərdə tutulub. Müəssisə sənaye parkının rezidentlərinə verilən bütün vergi və gömrük güzəştlərindən yararlanacaq. Burada 50 nəfərlik daimi iş yerinin yaradılması planlaşdırılır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Ağdam şəhərində "Hilton Garden Inn Agdam" hotelinin açılışında iştirak edib.

Dövlətimizin başçısına burada yaradılmış şərait barədə məlumat verildi.

Bildirildi ki, ümumi ərazisi 2 hektardan çox olan mehmanxana 2, 6 və 7 mərtəbəli olmaqla, 3 blokdan ibarətdir. 287 yerlik hotel binasında müxtəlif siniflərə aid ümumilikdə 127 otaq var. Burada, həmçinin restoran, ictimai-iaşə zonası, iclas, tədbir və ziyafət zalları, qapalı hovuz, idman zalı yaradılıb. Hotelin ərazisində də geniş abadlıq işləri görülüb. Burada 120 nəfər daimi işlə təmin olunub. Yeni hotel Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksi, Ağdam Muğam Mərkəzi, Ağdam Sənaye Parkı və digər sosial infrastruktur obyektlərinin yaxınlığında yerləşir.

Qeyd edək ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2022-ci ildə Ağdam şəhərində mehmanxana kompleksinin təməlqoyma mərasimində iştirak ediblər. Bu ilin fevralında isə kompleksdə görülən tikinti işləri ilə tanış olublar.

İşğaldan azad edilmiş ərazilərdə görülən bərpa və yenidənqurma işləri çərçivəsində bu bölgədə turizm infrastrukturunun formalaşdırılması əsas istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Bu məqsədlə müasir tələblərə cavab verən hotel və mehmanxana komplekslərinin tikintisi həyata keçirilir, turizm potensialının reallaşdırılması üçün zəruri şərait yaradılır. Bütün bu işlər "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun icra olunur. Bu hotellər memarlığına görə ərazinin təbii landşaftına uyğun layihələndirilir, ekoloji standartlara və ən müasir xidmət prinsiplərinə əsaslanır. Turizm obyektləri turistlərin rahat yerləşməsi, istirahəti üçün geniş imkanlar yaradır. Hotellərin tikintisi, həmçinin bu bölgələrdə iqtisadi fəallığın artmasına, yeni iş yerlərinin yaradılmasına və sahibkarlığın inkişafına təkan verir. Bütün bu işlər Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ölkənin turizm potensialında mühüm yer tutmasına da zəmin yaradacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 24-də Xankəndi şəhərində Zəfər parkının açılışında iştirak ediblər.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına və birinci xanıma parkda yaradılmış şərait barədə məlumat verdi.

Ümumi sahəsi 9 hektar olan Zəfər parkının təməli bu ilin fevralında Prezident İlham Əliyev tərəfindən qoyulub. Dövlətimizin başçısı iyulda burada görülən işlərlə tanış olub.

Bildirilib ki, parkın girişindən Zəfər tağına doğru 44 pilləkən salınıb. Onların mərkəzi hissəsində quraşdırılmış lövhələr üzərində müharibənin gedişi barədə məlumatlar, o cümlədən azad olunmuş yaşayış məntəqələrinin adları yazılıb. Eyni zamanda, 2023-cü ildə keçirilmiş antiterror əməliyyatının nəticələrini əks etdirən məlumatlar da lövhələrdə qeyd olunub.

Zəfər tağının hündürlüyü Vətən müharibəsi günlərinin sayına görə rəmzi olaraq 44 metr təşkil edir. Bina 10 mərtəbədən və terrasdan ibarətdir. Terrasda Zəfər Günü ilə bağlı 8 rəqəmini simvolizə edən konstruksiya inşa olunub. Doqquzuncu mərtəbədə "Zəfər qalereyası" sərgi-nümayiş zalı yaradılıb.

Parkın ərazisində genişmiqyaslı abadlıq və quruculuq işləri həyata keçirilib, fəvvarələr yaradılıb, işıqlandırma və musiqilərin səsləndirilməsi üçün sistemlər quraşdırılıb. İnşaat işləri zamanı mövcud ağacların qorunmasına xüsusi diqqət yetirilib. Ümumilikdə parka 500-dən çox ağac və 11 mindən artıq kol və gül əkilib.

Qeyd edək ki, Xankəndi şəhərində Zəfər parkının yaradılması bir neçə mühüm əhəmiyyət daşıyır. İlk növbədə, bu layihə Azərbaycan xalqının tarixi ədalətin bərpası və öz ərazi bütövlüyünün qorunması uğrunda göstərdiyi döyüş əzmini, misilsiz qəhrəmanlığını və 44 günlük Vətən müharibəsi zamanı qazandığı möhtəşəm Qələbəni əks etdirir. Eyni zamanda, park Xankəndi sakinlərinin və qonaqların asudə vaxtlarının səmərəli təşkilinə xidmət edəcək. Bundan başqa, belə istirahət məkanlarının yaradılması işğaldan azad olunmuş ərazilərdə görülən genişmiqyaslı bərpa-quruculuq işlərinin uğurla davam etdiyini göstərir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 24-də Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışında iştirak edib və buraya köçən sakinlərlə görüşüblər.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına kompleksdə yaradılmış şərait barədə məlumat verdi.

Bildirildi ki, ərazisi 13 hektardan çox olan kompleksdə 11 məhəllə var. Burada 60 bina inşa edilib. Kompleksdə 114-ü birotaqlı, 464-ü ikiotaqlı, 536-sı üçotaqlı, 154-ü dördotaqlı olmaqla ümumilikdə 1268 mənzil var. Dekabrda buraya 104 ailənin (426 nəfər) köçürülməsi nəzərdə tutulur. 2026-cı ilin yanvar-fevral aylarında isə daha 1164 ailə (4772 nəfər) köçürüləcək.

Binalar daimi su, elektrik və sürətli internet xətləri, mənzillər isə istilik və isti su ilə təmin edilib. Kompleksin ərazisində genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, uzunluğu 5 kilometrə yaxın olan daxili yollar çəkilib, idman və uşaq oyun meydançaları, velosiped zolağı, yerüstü və 1218 yerlik yeraltı avtomobil dayanacaqları yaradılıb.

Qeyd edək ki, dövlətimizin başçısı bu kompleksin təməlini 2023-cü ildə qoyub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu ilin fevralında kompleksdə görülən tikinti işlərinin gedişi ilə tanış olublar.

Qarabağın və Şərqi Zəngəzurun bərpasında əsas prinsip müasir standartlara uyğun məntəqələrin qurulması ilə keçmiş məcburi köçkünlərin rahat yaşayışını təmin etməkdən ibarətdir. Bununla yanaşı, sosial infrastrukturun yaradılması xüsusilə diqqət mərkəzində saxlanılır. İşğaldan azad edilmiş ərazilərimizdə müasir məktəblər, uşaq bağçaları, tibb müəssisələri tikilir, məşğulluğun təmin olunması üçün sənaye parkları, müxtəlif istehsal müəssisələri, xidmət sahələri yaradılır. Bütün bu tədbirlər Qarabağın və Şərqi Zəngəzurun qısa müddətdə dirçəldilməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və bölgənin sürətli inkişafına xidmət edir.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərinə köçən sakinlərlə görüşdülər.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

– Mən sizi ürəkdən salamlayıram. Bu gün Ağdam şəhərinin tarixində çox əlamətdar bir gündür, tarixi bir gündür. Uzun fasilədən sonra ağdamlılar öz doğma şəhərinə qayıdırlar. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Əminəm ki, burada siz rahat yaşayacaqsınız, əmin-amanlıq şəraitində yaşayacaqsınız. Siz buna layiqsiniz. Uzun illər köçkün həyatını yaşamış insanlar üçün bu gün Ağdam şəhərində və işğaldan azad edilmiş bütün başqa ərazilərdə yeni, müasir şəhərlər, kəndlər, qəsəbələr salınır və artıq "Böyük Qayıdış" Proqramının əyani təzahürlərini hər kəs görə bilir.

İşğal dövründə Ağdam demək olar ki, urbisidə məruz qalmışdır. Yəni şəhər Ermənistan dövləti tərəfindən tamamilə dağıdılmışdır. Bu, Ermənistan dövlətinin məqsədyönlü siyasəti, bizə qarşı olan düşmənçiliyin bariz nümunəsi idi. Məqsəd də tam aydın idi. Birincisi, talançılıq. Çünki bütün binaların daşları bir-bir sökülərək talan edilmişdir, müxtəlif yerlərdə, Ermənistan ərazisində satılmışdır. Digər tərəfdən, Ermənistan dövləti bu bölgələrdə Azərbaycan xalqının tarixi irsini tamamilə silmək istəyirdi. Üçüncü məqsəd isə bu şəhəri elə vəziyyətə salmaq idi ki, artıq burada yaşayış mümkün olmasın, azərbaycanlılar heç vaxt buraya qayıtmaq

haqqında düşünməsinlər. Ancaq səhv etdilər. Biz, xalqımız bütün bu əzablı illər ərzində bir amalla yaşamışıq ki, öz doğma dədə-baba torpaqlarımıza qayıdaq və qayıdandan sonra bu torpaqları, bu şəhərləri, kəndləri bərpa edək. Azərbaycan xalqı heç vaxt işğalla barışmamışdır.

Əminəm, bütün xalqımız, o cümlədən keçmiş köçkünlər bilirdilər və inanırdılar ki, tarixi ədalət bərpa ediləcək. Halbuki Ermənistan-Azərbaycan münaqişəsi ilə məşğul olan, hər halda beynəlxalq təşkilatlar tərəfindən bu vəzifəni icra etməli olan qurumlar başqa fikirdə idi. Onlar Ermənistan dövləti ilə, işğalçı, talançı dövlətlə həmrəy idilər. Xüsusilə ATƏT-in Minsk qrupunun yarıtmaz və anti-Azərbaycan fəaliyyətini qeyd etmək istərdim. Bu qrup 1992-ci ildə yaradılmışdır və o vaxt bizim torpaqlarımızın işğal altına düşməsinin birinci mərhələsi idi. Bu qrupun və onun həmsədrlərinin məqsədi məsələni həll etmək əvəzinə, əksinə, bu işğalı əbədi etmək, Ermənistana haqq qazandırmaq, Azərbaycan xalqını və dövlətini isə işğalla barışdırmaq idi. Mən 17 il ərzində ATƏT-in Minsk qrupunun həmsədrləri ilə təmasda olmuşam, onlarla çoxsaylı görüşlər keçirmişəm. Hər dəfə görüşəndə illər keçdikcə görürdüm ki, bunların məqsədi məsələni həll etmək, işğala son qoymaq, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına nail olmaq yox, işğalı əbədi etmək idi. Sanki danışıqlar masasında bir tərəfdə Ermənistan və Minsk qrupunun həmsədrləri, digər tərəfdə isə Azərbaycan idi. Bax, bu 17 il ərzində keçirdiyim saysız-hesabsız görüşlərin nəticəsi budur. Hesab edirdilər ki, buna nail olacaqlar. Hesab edirdilər ki, bizi inandırmağa nail olacaqlar ki, biz öz əzəli torpaqlarımızdan əl çəkək. Ancaq yenə də Ermənistan dövləti kimi səhv etdilər. Mən işğal dövründə dəfələrlə demişdim ki, xalqımız və dövlətimiz heç vaxt işğalla barışmayacaq, nəyin bahasına olursa-olsun, öz doğma torpaqlarını qaytaracaq. Bunu Prezident kimi fəaliyyətə başladığım ilk dəqiqələrdə – birinci andiçmə mərasimindəki çıxışımda və ondan sonrakı dövrdə bildirmişəm. Bu illər ərzində biz bir məqsəd ətrafında birləşmişdik ki, bir nöqtəyə vuraraq xalqımız bu müqəddəs missiyanı yerinə yetirsin.

Beş il bundan əvvəl şanlı İkinci Qarabağ müharibəsi və onun nəticələri haqq-ədaləti bərpa etdi, bizim hüquqlarımızı bərpa etdi, beynəlxalq hüququ bərpa etdi, bizim milli ləyaqətimizi bərpa etdi. Xalqımız qan tökərək öz ərazi bütövlüyünü bərpa edib. Ermənistan dövləti bir qarış, bir santimetr torpaq qaytarmaq fikrində deyildi. Ermənistanın bütün rəhbərləri, müstəqillik illərində Ermənistana rəhbərlik edən bütün şəxslər bir qarış torpaq qaytarmaq fikrində deyildilər. Biz onları məcbur etdik və xalqımız bütün dünyaya öz gücünü, qüdrətini, güclü iradəsini göstərmişdir. Xalq yumruq kimi birləşdi. Silahlı Qüvvələrimiz qəhrəmanlıq, fədakarlıq göstərmişdir. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Cəmi 44 gün ərzində Ermənistanı böyrü üstə qoyduq. Bu günlər bu gün Xankəndidə açdığım Zəfər tağının pilləkənlərində də əks olunub. Əminəm ki, oraya da siz və bütün Azərbaycan vətəndaşları gedəcəklər, ziyarət edəcəklər. Bu gün ölkəmizdə ikinci Zəfər tağı açılmışdır – Bakıdan sonra Xankəndidə. Orada pilləkənlərin üzərində şanlı Zəfər yürüşümüzün hər günü təsbit edilib. Biz hər gün irəli gedirdik, hər gün şəhər və kəndləri azad edirdik və heç bir qüvvə bizim qabağımızda dura bilməzdi. Halbuki bizi 44 gün ərzində dəfələrlə dayandırmaq istəyənlər min cür təzyiq, təhdid və təxribat törətməyə çalışırdılar və hətta törədirdilər. Bizi qorxutmaq, bizi dayandırmaq, bizim şanlı Zəfər yürüşümüzü yarımçıq qoymaq və münaqişəni əbədi etmək – bax, bizə qarşı olan qüvvələrin məqsədi bu idi. Təbii ki, 5 il keçəndən və biz 2023-cü ildə öz suverenliyimizi antiterror əməliyyatı nəticəsində tam bərpa edəndən sonra artıq bizə qarşı olan qüvvələr yeni reallıqla barışmağa məcbur idilər, biz onları məcbur etdik. O cümlədən bizim Qələbəmizi qəbul etməyənlər, bunu həzm edə bilməyənlər, ermənipərəst qüvvələr məcbur olaraq bugünkü reallıqlarla barışmalı oldular. Ermənistan dövləti bu vəziyyətlə barışmalı oldu. Vaxtilə buradan uzaqda olmayan Xankəndi şəhərinin stadionunda “Qarabağ Ermənistandır və nöqtə” deyənlər “Qarabağ Azərbaycandır!” deməyə məcbur oldular. Yəni öz xoşu ilə yox, məcbur edən də biz olduq – xalqımız, dövlətimiz. Yəni bu tarixi biz heç vaxt unutmamalıyıq. O acı günləri yaşayan yaşlı nəsil təbii ki, heç vaxt unutmayacaq. Gənc nəsil unutmamalıdır. Bundan sonra gələn nəsillər, gələcək nəsillər unutmamalıdır, bilməlidir. Bu tarix həm məktəblərdə, həm ali məktəblərdə, ailələrdə əzbər olmalıdır. Yəni bu, bizim şanlı Zəfərimizdir. Eyni zamanda, bundan sonra sülh içində, təhlükəsizlik içində yaşamaq üçün biz bu tarixi heç vaxt unutmamalıyıq.

Biz bilirik bizim dostumuz kim olub, düşmənlərimiz kim olub. Əfsuslar olsun ki, düşmənlərimiz dostlarımızdan bir neçə dəfə çox olub. Amma bu gün bizim güclü iradəmiz, siyasi addımlarımız, Silahlı Qüvvələrimizin güclü olması artıq tamamilə yeni mənzərəni ortaya qoyur. Beş il bundan əvvəl döyüş meydanında qazandığımız Qələbəni biz 2 il bundan əvvəl antiterror əməliyyatı nəticəsində tam əldə etdik. Ondan sonra keçən 2 il ərzində bütün beynəlxalq təşkilatlarda bunu təsdiqlədik. Mənfur Minsk qrupunun tarixin arxivinə göndərilməsi də məhz bizim təkidimizlə olmuşdur. Bu ayın əvvəlində Minsk qrupu və ona bağlı olan bütün təsisatlar rəsmən ləğv edildi. Bu da bizim

tələbimiz idi və Ermənistan tərəfi demək olar ki, 5 il ərzində buna müqavimət göstərirdi. Ancaq yenə də deyə bilərəm ki, bizim iradəmizin qarşısında heç kim dura bilməz.

Bugünkü yeni reallıqlar dünyanın aparıcı ölkəsinin Prezidentinin iştirakı ilə avqust ayında təsdiqləndi, möhürləndi. Bizim Qələbəmizin çox böyük və güclü möhürü də vuruldu, onunla da separatçılığın, bizə qarşı ərazi iddialarının, anti-Azərbaycan qüvvələrinin bizə qarşı açıq “soyuq savaşı”nın artıq sonu gəldi, separatçılığın kitabı bağlandı və Azərbaycan xalqı artıq bir neçə aydır ki, sülh içində yaşayır.

Bizim xalqımız böyük fəlakətlə üz-üzə qalmışdı. Bilmirəm, dünyada buna oxşar ədalətsizliklə üzləşən xalqlar var, yoxsa yox, - bəlkə də var, - amma son illərin tarixində ən böyük ədalətsizliklə biz üzləşmişdik. Çünki torpaqlarımız işğal altına düşdü. Belə hallar dünyada var. Biz nə birinci idik, nə də sonuncu. Amma bütün belə hallar olduğu vaxtda beynəlxalq təşkilatlar, böyük dövlətlər və müxtəlif ölkələrin siyasi dairələri bu işğalı qınayır, işğalçını məcbur etmək üçün müxtəlif üsullardan istifadə edir, sanksiyalar tətbiq edir. Bunu biz görürük, indi yaxın tariximiz bunu göstərir. Ermənistan-Azərbaycan müharibəsi zamanı və müharibədən sonra atəşkəs dövründə beynəlxalq təşkilatlar düzgün qərar qəbul etsələr də, bu qərarların icrası üçün bir addım belə atmayıblar. Bax, bu təşkilatların, böyük dövlətlərin riyakarlığı, necə deyərlər, özünü burada bariz şəkildə göstərir. Bizi işğalla barışdırmaq böyük dövlətlərin əsas vəzifəsi idi. Bizim yanımızda olan tək ölkə Türkiyə idi. Buna görə biz türk qardaşlarımıza minnətdarıq, həm işğal dövründə, həm müharibə dövründə bizə daim siyasi və mənəvi dəstək vermişdir.

Müsəlman ölkələri. Onlar İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində bizim təkliflərimizə həmişə müsbət reaksiya verərək, lazım olan qərar və qətnamələri qəbul etmişdilər. Ancaq bütövlükdə götürəndə bizim müharibəmiz və işğal tariximiz bütün başqa, buna oxşar hadisələrdən fərqlənir. Çünki yenə də deyirəm, işğalçıya qarşı heç bir sanksiya tətbiq olunmadı. Bu gün dünyada müxtəlif yerlərdə müharibələr, toqquşmalar, münaqişələr baş alıb gedir. Ya beynəlxalq təşkilatlar, ya böyük nüfuzlu ölkələr dərhal nə edirlər? Sanksiyalar tətbiq edirlər. Əlbəttə ki, sanksiyaların da böyük təsiri var. Xüsusilə Ermənistan kimi kiçik və zəngin olmayan, demək olar ki, kasıb ölkəyə əgər sanksiyalar tətbiq edilsəydi, əlbəttə, Ermənistan işğala son qoyardı. Ancaq nəinki sanksiyalar tətbiq edilmədi, əksinə, onlara bəziləri pulsuz silahlar verirdi, özü də bir milyon dollarlıq yox, milyardlarla dollar dəyərində. Bizim həm İkinci Qarabağ müharibəsi, həm antiterror əməliyyatı nəticəsində Ermənistandan qənimət kimi götürdüyümüz və məhv etdiyimiz silahların pul dəyəri təqribən 5-6 milyard dollardır. Bunların dağılmış bəzi nümunələri Bakıda Hərbi Qənimətlər Parkında nümayiş etdirilir, o cümlədən “İsgəndər M” ballistik raketi, hansı ki, ümumiyyətlə, Ermənistanda olmamalı idi. Çünki “İsgəndər M” raketinin ixracı qadağandır. Əgər belə demək mümkündürsə, ixraca açıq olan “İsgəndər E”, yəni eksport növüdür. “İsgəndər M” raketi necə Şuşaya zərbə endirdi? Elə bu, böyük sualdır. Yəni pulsuz silah, maliyyə yardımı. Hər il Amerikada, Fransada marafonlar keçirilirdi. Separatçılar, separatçı liderlər, – hansılar ki, bu gün Bakıda məhkəmə qarşısında cavab verirlər, – oraya vizalar alırdılar. Necə ola bilər? Minsk qrupunun həmsədr ölkələrinə separatçılar necə gedə bilərdilər? Axı digər separatçı ərazilər də var. Onlara Amerikaya, yaxud da ki, Fransaya kimsə viza verə bilər? Gedin, baxın, bu gün nə qədər separatçı inzibati ərazi var?! Ukrayna ərazisində, Moldova ərazisində, Gürcüstan ərazisində separatçı yuvalar var. Onların rəhbərlərinə Amerika, Fransa, Avropa ölkələri viza verə bilər? Yox. Amma erməni separatçılarına niyə vizalar verilirdi? Yəni dediyim sözün bir təsdiqi də budur. Onlar telemarafonlar keçirirdi, 100 milyonlarla dollar pul yığırdılar. Onlara gizli mənbələrdən də pul ötürülürdü, bir məqsədlə ki, bu torpaqları əbədi işğal altında saxlasın, Azərbaycan xalqına divan tutsun, bu şəhər və kəndləri daim nəzarət altında saxlasın. Bax, görün biz kimlərlə kəllə-kəllə getmişik. Biz görün Ermənistana olan hansı dəstəyin fonunda İkinci Qarabağ müharibəsində Qələbə qazanmışıq. Yəni, ona görə bütün bunlar, necə deyərlər, həm düzgün çatdırılmalıdır, həm də bizim təhsil müəssisələrimizdə, ictimai məkanda dəqiq təqdim edilməlidir, yəni bu unudulmamalıdır və biz də heç vaxt unutmamalıyıq.

Düzdür, indi Ermənistanla Azərbaycan arasında sülh prosesi gedir və bu sülh prosesinin təşəbbüskarı da biz olmuşuq. Onu da hamı bilir və bilməlidir. Birinci təklifi biz vermişik, sülh müqaviləsinin mətninin müəllifi də bizik və oraya salınan bütün maddələrin də müəllifi bizik. Ancaq biz işğalı necə unuda bilərik?! Şəhidlərimizi necə unuda bilərik?! Xocalı qurbanlarını, digər günahsız insanların həlak olmasını necə unuda bilərik?! Heç vaxt unuda bilmərik və unutmamalıyıq. Çünki bu tarixi yaddaş həmişə bizim qəlbimizdə olmalıdır. Şəhidlərin əziz xatirəsi həmişə qəlbimizdə yaşamalıdır və heç vaxt şirin sözlərə uymamalıyıq. Bax, bunu mən bir də deyirəm. Mən bunu birinci dəfə deyil ki, deyirəm. Ayıq olmalıyıq, daim güclü olmalıyıq. Ona görə biz son 5 ildə ordu potensialımızı böyük dərəcədə gücləndirmişik və keçən ay hərbi paradda bütün dünya bunun bir hissəsini görə bildi. Əbədi sülhə nail olmaq üçün biz hər zaman potensial düşmənlərimizdən bir neçə dəfə güclü olmalıyıq. Bunu təmin edirik və edəcəyik.

Bu gün Ağdam rayonunda artıq həyat bərpa edilir. Üç kənddə insanlar yaşayır. Mən bu kəndlərin yenidən istifadəyə verilməsi mərasimlərində iştirak etmişəm - Kəngərli, Sarıcalı, Xıdırlı. Orada indi bir neçə min insan yaşayır və bu köç prosesi davam edir. Bu gün Ağdam şəhərində artıq insanlar yerləşir və bu yaşayış məhəlləsindəki 1268 mənzildə ağdamlılar yerləşəcək. Daha iki məhəllədə inşaat işləri gedir. Təkcə bu məhəllədə 60 çoxmərtəbəli bina var. Bütün şərait yaradılıb, infrastruktur qurulub və burada rahat yaşamaq üçün bütün imkanlar var. Təbii ki, Ağdam şəhərinin tam istədiyimiz kimi qurulması zaman tələb edir.

Onu da hər kəs yaxşı bilir ki, təkcə Ağdamda deyil, azad edilmiş bütün başqa ərazilərdə genişmiqyaslı quruculuq işləri gedir, "Böyük Qayıdış" Proqramı uğurla icra edilir. Ağdam rayonunda isə artıq bir neçə önəmli infrastruktur obyekti, mədəni obyekt istismara verilmişdir. Mən dünən Ağdam Sənaye Məhəlləsində yeni müəssisələrlə tanış olmuşam. Artıq 30-dan çox rezident qeydə alınıb. Onların bəziləri fəaliyyətə başlayıb, bəziləri isə yaxın gələcəkdə fəaliyyətə başlayacaq. Ağdam ölkəmizin böyük sənaye şəhəri olacaq. Bakı, Sumqayıt və Gəncədən sonra yəqin ki, dördüncü sənaye mərkəzi olacaq.

Burada nəqliyyatla bağlı məsələlər həll olunur. Birinci layihə Bərdə-Ağdam avtomobil yolu, Bərdə-Ağdam dəmir yolu olmuşdur. Dəmiryol vağzalı istismara verilmişdir. Hazırda biz vaxtilə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmiş Ağdam-Xankəndi dəmir yolunun inşası ilə məşğuluq.

Sakinlər: Allah rəhmət eləsin.

Prezident İlham Əliyev: Allah ölənlərinizə rəhmət eləsin. Bu dəmir yolunu da biz yenidən qururuq. Ağdam Cümə məscidi birinci bərpa olunan tarixi-dini abidəmizdir. Qiyaslı məscidi, – hansı ki, tamamilə dağıdılmışdır və orada da Ağdam Cümə məscidi kimi Ermənistan dövləti bütün müsəlmanları təhqir etmək üçün heyvan saxlayırdı, – o da açıldı. Suvarma işləri öz həllini tapır. Xaçınçay su anbarı yenidən quruldu. Həm Ağdam üçün, həm də bütün ölkəmiz üçün vacib olan mədəni digər abidə "İmarət" kompleksidir. O da tamamilə bərpa edildi. Natəvanın ermənilər tərəfindən dağıdılmış heykəlinin eynisi qoyuldu. Məktəb istifadəyə verilmişdir. Çox gözəl, böyük məktəb, Muğam Mərkəzi, iki mehmanxana. Yəni o qədər işlər görülüb ki, bəlkə də hansılarısa mən unutmuşam. Amma yəni hər şey göz qabağındadır. Bütün bunlar da cəmi 5 il ərzində yaradılıb. Yəni, bilirsiniz o nəyi göstərir? Təkcə söhbət ondan getmir ki, biz proqram qəbul etmişik və təbii ki, nəzarət var. Mən də dəfələrlə azad edilmiş ərazilərə gedərkən özüm şəxsən nəzarət edirəm. Söhbət ondan gedir ki, bütün xalqımız bu işləri böyük həvəslə görür. Əgər bu amil olmasaydı, biz qısa müddət ərzində bu qədər işi görə bilməzdik. Məsələn, dünən Xankəndidə Qarabağ Universitetinin yeni korpusunun açılışında idim. Tamamilə sıfırdan tikilmiş yeni, gözəl binadır. Maraqlanıram ki, burada yeni tədris prosesi necə gedir? Tələbələr, müəllimlər. Müəllimlərin bəziləri xaricdən, bəziləri isə Azərbaycanın müxtəlif yerlərindən gəlir dərs deməyə. Mən maraqlanıram ki, bəs motivasiya nədir? Onları nə cəlb edir? Mənə deyirlər ki, Qarabağ cəlb edir bizi.

Bir daha sizi təbrik edirəm, cansağlığı arzulayıram.

Sonra sakinlər çıxış etdilər.

Birinci kişi sakin: Cənab Prezident, bu gün Ağdam camaatı üçün ikiqat bayramdır. Həm Sizin doğum gününüzdür, həm də Ağdam şəhərinin açılışı günüdür. Siz prezidentlik dövrünüzdə nə söz vermişdinizsə, onun hamısını vaxtında yerinə yetirdiniz və bizi 30 illik Ağdam həsrətindən qurtardınız. Allah Sizə uzun ömür, cansağlığı versin. Mən bir ziyalı, bir şəhid atası və Qarabağ veteranı kimi öz adımdan, bütün ağdamlılar adından Sizə uzun ömür, cansağlığı, fəaliyyətinizdə uğurlar arzu edirəm. Sağ olun, Allah Sizə ömür versin.

Prezident İlham Əliyev: Sağ olun.

Birinci qadın sakin: Salam, əziz Prezident, xoş gəldiniz, Mehriban xanım. Sizi həmişə xalqın arasında görmək bizim üçün böyük fəxrdir, bizi çox sevindirir, qürur verir. Ağdamlılar adından Sizi təbrik edir, uzun ömür, cansağlığı arzulayırıq.

İkinci qadın sakin: Yüz yaşayasan.

Prezident İlham Əliyev: Sağ olun.

Birinci qadın sakin: Bizə qürur verir ki, Siz həmişə xalqın arasındasınız. Çox sağ olun, var olun. Sizə təşəkkür edirik ağdamlılar adından. Milli Qəhrəmanımız Allahverdi Bağırovun həyat yoldaşıyam. Təşəkkür edirəm.

Prezident İlham Əliyev: Sağ olun.

İkinci kişi sakin: Mən də təqdimat edim: ruhani şair, Ağdamdan din xadimi Hacı Fərman Azançı. Cənab Prezident, əvvəla sizlərin üzərinə Allahın salamı, rəhməti və bərəkəti olsun ki, bu gün o qədər bizim ürəyimiz açılıb ki, Quzanlıdan bu gün buraya gələndə and olsun Allaha, elə bilirdik ki, Kəbəni ziyarət eləməyə gəlirik. Ağdam bizim Kəbəmiz, qibləgahımızdır. Bu gün bütün bunları bizə bəxş edən Siz, Sizin Müzəffər, Qalib Ordunuz, şəhidlərimiz, döyüşən oğlanlarımızdır. Allah, Xudavəndi Aləm sizlərdən razı olsun. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin.

Mən nəyi demək istəyirəm, bayaq Ağdam məscidinin adını çəkdiniz. Mənim yadıma nə düşdü: mənfur ermənilər orada donuz saxlayırdılar. Siz gəldiniz, oranı bərpa etdiniz. Bu gün həmin məsciddən azan səsləri ucalır, insanları doğruluğa, dürüstlüyə, Allaha doğru ibadətə, itaətə dəvət edir. Siz o məscidin qarşısında

durdunuz və dediniz ki, "Qarabağ Azərbaycandır!". Bu, elə-belə məsələ deyil. Ondan əlavə, bu gün Ağdam dirçəlir. Beş il müddətində sıfırdan o qədər işlər görülüb ki, təsəvvür edin, bu boyda binalar, məktəblər Ağdamın rəmzləri olubdur. Biz ağdamlıların ürəyində nisgil idi, yaşamışıq bunu. Təsəvvür edin, İmarət kompleksi, Çay evi, – göstəriş vermisiniz ora bərpa olunur, – Ağdamın simvollarından Çörək muzeyi, mədəniyyət evimiz, bir nömrəli məktəbimiz... İnşallah, onlar da bərpa olunacaqdır. Yəni, bütün bunların həyata keçməyi Sizin əməyinizdir. Mən Ağdamın özündənəm. Bizim uşaqlığımız bu yerlərdə keçibdir. Bu gün bizi o günlərə qaytarmaq, bizə sevinc bəxş etmək elə-belə məsələ deyil. Biz Sizə 210 minlik ağdamlılar adından ürəkdən təşəkkür edirik. Allah Sizdən razı olsun, Allah Sizi var eləsin!

Prezident İlham Əliyev: Sağ olun.

Üçüncü qadın sakin: Bu gün biz buraya yığışmışıq. Şəhidlərimizin ruhu şad olsun, qazilərimizə Allah kömək olsun. Allah Sizə də cansağlığı versin. Ad gününüzü təbrik edirəm, cənab Prezidentimiz, başınıza dönüm Sizin. Yüz yaşayasan!

Bu gün 83 yaşımda, – yəqin yadınızda olar, o vaxt çəkiliş olanda 79 yaşım var idi, indi 83 yaşımın içindəyəm, – burada, bu torpağın üstündə Sizinlə birlikdə, bütün xalqımla birlikdə durmağı Allah-taala mənə nəsib etdiyinə görə çox şadam. Çox şükür, o açar təkcə evimin açarı deyil, o torpağımızın açarıdır, qızıl açardır. Çox şadam, Allah Sizi var eləsin, canınız sağ olsun. O vaxt Allah-taaladan möhlət arzuladım ki, torpağımızın alınması münasibətilə gəlim, burada Sizə, Mehriban xanıma təşəkkürümü bildirim.

Cənab Prezident, 24 dekabr – bu gün Sizin ad gününüzdür. Öz ad gününüzdə burada bizimləsiniz. Biz Sizi ürəkdən təbrik edirik. Sizə gözəl günlər arzulayırıq. Allah razı olsun Sizlərdən.

Prezident İlham Əliyev: Sağ olun.

Üçüncü kişi sakin: Çox hörmətli Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyev, Azərbaycanın çox hörmətli birinci xanımı, vitse-prezidentimiz Mehriban xanım, çox xoş gəlmisiniz. Gələn qədəmləriniz mübarək olsun, sağlam olasınız, gümrah olasınız. Ağdam torpağına 32 il idi həsrət idik. Hər dəfə Sizinlə görüşdə deyirdiniz ki, Maarif, arxayın ol, mən o torpaqları işğaldan azad edib sizi oraya aparacağam. Həqiqətən elə də oldu. Şəxsən mənim və bütün ağdamlıların bu gün o qədər yüksək səviyyədə sevinci var ki, adam bilmir, nədən başlasın, nədə qurtarsın. Bu gün Sizin doğum gününüzdür. Mən hər ikinizi, sizin övladlarınızı təbrik edirəm. Doğum gününüz münasibətilə Sizə sağlam ömür, uğurlar arzu edirəm. Allah Sizi qorusun.

Bir də demək istəyirəm, cənab Prezident, uzun illərin təcrübəsində görmüşəm ki, İlahinin yaratdığı sevimli bəndəsi xeyirxah işlərlə məşğul olur – körpüsü olmayan yollara körpü salır, yolu olmayan yerlərə yol, işığı olmayan şəhərə işıq çəkir, suyu olmayan yerlərə su çəkir, evi olmayan adamların hamısına ev tikir, yardım edir. Bunların hamısı hər ikinizdə var – həm Prezident İlham Əliyevdə, həm də Azərbaycanın birinci xanımı Mehriban xanımda. Ona görə ki, Siz Ulu Öndərimiz Heydər Əliyevin övladısınız və onun tapşırığı, varisliyi ilə Azərbaycanı həmişə qoruyursunuz. Biz buna sevinirik, şad oluruq.

Prezident İlham Əliyev: Sağ olun.

Həmin kişi sakin: Ulu Öndərin vəsiyyətlərinin hamısını mən bilirəm. Onların hamısına əməl edirsiniz. O deyirdi, tapşırırdı ki, Siz Azərbaycanın işğal olunmuş 20 faiz torpağını bərpa etməlisiniz, sərhədləri düzgün müəyyənləşdirməlisiniz. İşğal olunmuş kəndləri, şəhərləri, o yerlərin hamısını azad etməklə yanaşı, yeni kənd, yeni şəhər, yeni qəsəbə salmalısınız. Bunların hamısını edirsiniz, cənab Prezident, Allah Sizi qorusun. Mən bir ağsaqqal kimi, – 81 yaşım var, – bunu deyirəm, İlahi qüvvə var, Sizə heç bir qüvvənin gücü çatmaz. Ona görə ki, deyilən bu işlərin hamısını Siz İlham Heydər oğlu Əliyev ürəkdən, yatmadan, dincəlmədən, əziyyət çəkəçəkə edirsiniz. Hansı yerdə, hansı rayonda təməl qoyursunuzsa, onun icrası ilə maraqlanır, açılışında iştirak edirsiniz. Buna vaxt lazımdır, sağlamlıq lazımdır. Allah Sizə sağlamlıq versin, amin. Eləcə də Mehriban xanıma Allah sağlamlıq versin. Allah Sizi qorusun.

Siz Azərbaycanın 20 faiz torpağını işğaldan azad etdiniz. Otuz iki il idi ki, biz Ağdam üzünə həsrət idik. Şəxsən mən hər dəfə Sizinlə görüşəndə deyirdiniz ki, tələsmə, mərhələ-mərhələ o günə də gəlib çatacağıq. Mehriban xanım deyirdi o sözü. Doğrudan da şükürlər olsun bu günə ki, Siz onu həyata keçirə bildiniz. Elə qüvvələrlə rastlaşırdınız ki, mən televizorun qabağında saatlarla ayaq üstə durub gözləyirdim ki, görüm nə cavab alınacaq. Ona elə cavab verirdiniz, mat olurdu. Ona elə cavab verirdiniz ki, o, Sizin sözünüzdən dönə bilmirdi, Sizə baş əyirdi. Bunların hamısı Azərbaycanın Milli Qurucusu Heydər Əliyevin təcrübəsi idi. Onun vəsiyyəti idi. O, Azərbaycanın yüksəksəviyyəli memarı idi. Hər dəfə onunla görüş keçirəndə mən elə bilirdim ki, dünya bizimdir. Elə bilirdim ki, həyat bizimdir. O hakimiyyətə gəlməsə idi, Azərbaycan yox idi. O, hakimiyyətə gələndən sonra biz dirçəldik. Biz ondan sonra hər yerdə tanındıq. Həm də dünyanın hər yanında deyirdilər ki, Azərbaycanı Heydər Əliyev tanıtmışdır. İndi isə Sizin mərdliyiniz, qoçaqlığınız, güclü rəhbərliyiniz hesabına, şəhidlərimizin, qazilərimizin gücü, müharibə veteranlarımızın səyi ilə biz işğal olunmuş torpaqlarımızı azad etdik.

İndi gözəl şəhərlər salırsınız. Sizə uzun ömür, sağlamlıq arzulayıram. Arzu edirəm ki, heç bir pis qüvvə

Sizə toxunmasın. Biz onu həmişə deyirik. Bütün ağdamlılar Sizi sevir. Balacasından tutmuş böyüyünə kimi bütün Ağdam camaatı Sizi dəstəkləyir. Hər dəfə söhbət düşəndə deyirlər, Allah İlham Əliyevə dəyməsin, Allah Mehriban xanıma dəyməsin. O, Azərbaycanın birinci xanımıdır. O, Azərbaycanın vitse-prezidentidir. O, İlham Əliyevə çox yaxşı kömək edir. Mən və bütün ağdamlılar arzu edirik ki, balaca Heydərimiz həmişə sağlam, gümrah olsun, Azərbaycana rəhbər olsun, Sizin özünüzün yetişdirməniz, kadrınız olsun. Necə ki, Ulu Öndərimiz Heydər Əliyev Sizi yetişdirib, onun vəsiyyətlərinin hamısına əməl edirsiniz, özü də yüksək səviyyədə. Bu hər övladın işi deyil. İndi isə balaca Heydər Azərbaycanın rəhbəri olsun. Biz onunla fəxr edirik. Biz Sizinlə fəxr edirik. Sizi sevirik, Sizi dəstəkləyirik. Bunu bütün ağdamlıların adından deyirəm, bütün komandamızın adından deyirəm.

Bir məsələni demək istəyirəm ki, mən Qarabağ atlarını ermənilərdən çox cəsarətlə aldım. O zaman aldım ki, 1992-ci il fevral ayının 26-sı idi, 366-cı alayın köməyi ilə Xocalıya hücum etdilər, Xocalını çox pis günə saldılar. Orada mənim 15 nəfər yaxın qohumum şəhid oldu. Beş nəfər yaxın qohumum əsir düşdü. Bu zaman onlar Qarabağ atını özəlləşdirmək, özününküləşdirmək istəyirdilər. Ona nail ola bilmədilər. Biz mərdliklə, qoçaqlıqla o atları gətirdik, Üçoğlanda toyuq fermasına yığdıq, orada saxladıq. Sonra da onları öz gücümüzlə Bakıya apardıq. Siz 2014-cü ildə Ağdamda köçkün şəhərciklərinin açılışında iştirak edəndə Sizə çatdırdıq ki, bəs Qarabağ atlarının vəziyyəti yaxşı deyil. Çox sağ olun, minnətdaram. Bu atlar Ağdamın milli simvolu idi. Ağdama böyük hörmət etdiniz, Qarabağ atı üçün böyük kompleks tikdirdiniz, Mehriban xanım da ona xarici dildə kitab yazdırdı, bütün dünyanın hər yanına yaydı.

Quzanlı kimi böyük bir şəhər salmısınız orada. Allah Sizdən razı olsun. Ağdam camaatı Sizə ömrü boyu minnətdardır ki, Qarabağ atını Ulu Öndərimiz Heydər Əliyevin tapşırığı ilə regionların iqtisadi inkişafı dövlət proqramına saldınız. İndi Sizin və Mehriban xanımın hesabına orada Qarabağ atı inkişafdadır, özü də yüksək səviyyədə.

Bizim qoşa minarəli Ağdam məscidini, Cümə məscidini ermənilər məhv etmişdi. Çox xırdalamıram. Onu Siz yenidən bərpa etdiniz. Biz ağdamlıların ürəyindən keçən işləri etdiniz. Muğam evini yaratdınız. Muğam evi bizim Ağdam üçün ən lazımlı bir yerdir. Həm Muğam evi, həm Qarabağ atı, həm də ki, o başqa işlərin hamısını Siz yüksək səviyyədə gördünüz. Allah Sizin köməyinizdə olsun. Siz yaxşı ailənin, gözəl ailənin, Ulu Öndərimiz Heydər Əliyevin düzgün, cəsarətli oğlusunuz. Onun vəsiyyətlərini Siz yerinə yetirdiniz. Öpürəm Sizi. Bütün ağdamlıların adından Sizə öz təşəkkürümüzü, minnətdarlığımızı bildiririk. Biz səni sevirik. Səni də, bütün uşaqlarını da, balaca Heydəri də sevirik.

Prezident İlham Əliyev: Sağ olun, mən də sizi sevirəm.

Həmin kişi sakin: Sənin arxanca haraya desən, getməyə hazırıq. Siz ki, o qatarı gətirib Ağdama çıxarmısınız, nə desən, etməyə hazırıq. Ağdamda Baş plan üzrə gözəl şərait yaradırsınız. O Baş plan haqqında mənim məlumatım var. Allah Sizə ömür versin. Allahdan arzu edirəm ki, İlahi qüvvə sənə, yoldaşına, balalarına sağlam ömür versin.

Prezident İlham Əliyev: Sağ olun.

Daha sonra sakinlərə evlərin açarlarının təqdim edilməsi mərasimi oldu.

Dövlətimizin başçısına minnətdarlığını bildirən Maarif Hüseynov dedi: Öpürəm Sizi. Bütün Azərbaycanı yaşatdın, təkcə Ağdamı yox. Ağdamın əhalisi səni çox istəyir, sənin arxandadır, necə deyim, ürəyin istəyən qədər sənə köməyi var. Öpürəm səni, öpürəm.

Prezident İlham Əliyev: Çox sağ olun. Bilirsiniz, biz Eyvazxanbəylidə də gözəl bir mərkəz yaradacağıq.

Maarif Hüseynov: Sağ olun, bilirəm, bilirəm.

Prezident İlham Əliyev: Yəni atın əsl vətəni oradır da, bilirsiniz.

Maarif Hüseynov: Oradır, amma inanın ki, o nəslin korlanmasının qarşısını alan birinci növbədə Ulu Öndərimiz Heydər Əliyev oldu.

Prezident İlham Əliyev: Amma siz o vaxt o atları çıxarmasaydınız, onlar batacaqdı.

Maarif Hüseynov: Erməni sevinəcəkdi, deyəcəkdi, Qarabağ da bizimdir, elə Qarabağ atları da. Öpürəm Sizi, çox sağ olun. Sizə uzun ömür arzu edirəm. Balalarınız xoşbəxt olsun. O balaca Heydər Sizə həmişə dayaq olsun.

Mehriban xanım Əliyeva: Balaca Heydər artıq böyüyüb (gülür).

Maarif Hüseynov: Çox xoşbəxt olsunlar. Balaları ilə xoşbəxt olsun.

Mehriban xanım Əliyeva: Çox sağ olun.

Prezident İlham Əliyev: İki uşağı var.

Sakinlər: Allah saxlasın.

Prezident İlham Əliyev: İki oğul.

Maarif Hüseynov: Siz Azərbaycanı bütün dünyada tanıdırsınız. Siz o polad yumruğunuzla elə cəsarətli komandanlıq edirdiniz ki, həyatda heç vaxt uduzmazsınız. Siz xeyirxah adamsınız. Bax o da, Siz də. Yaradırsınız, xalqı yaşadırsınız, xalqa çörək verirsiniz. Bunlar hamısı Sizin qanınızda var, Sizdə var. Sağ olun.

Prezident İlham Əliyev: Çox sağ olun. Təbrik edirəm, xoşbəxt yaşayın.

Maarif Hüseynov: Çox sağ olun, Allah Sizdən razı olsun.

Sonra xatirə şəkilləri çəkdirildi.

Qadın sakin: Sizin ad gününüzü təbrik edirəm. Allah Sizə uzun ömür, cansağlığı versin. Allah-taala Sizi dövlətimizin, millətimizin üzərindən əskik etməsin, əskik olmayasınız. Siz bu gün bizə 30 illik həsrətin sevincini yaşatdınız. Doğma Vətənimizə qayıtdığımız üçün Sizə minnətdarlığımı bildirirəm. Allah Sizi qorusun. Biz anaların xeyir-duası həmişə Sizin üstünüzdə olsun.

Kişi sakin: Cənab Prezident, bu gün doğum günü-nüzdə burada camaatla görüşməyinizlə, elə bil ki, Ağdamı dirçəltdiniz, camaatın ürəyini genişləndirdiniz. Allah Sizi qorusun, Allah Sizə dəyməsin!

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQLƏRİ, ÇIXIŞLARI VƏ MÜSAHİBƏLƏRİ

## *Bakıda İtaliya Azərbaycan Universitetinin ilk tədris korpuslarının açılış mərasimində İlham Əliyevin çıxışı*

– Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar, tələbələr, müəllimlər.

Xanımlar və cənablar.

Bu gün İtaliya-Azərbaycan əlaqələrinin tarixində çox əlamətdar bir gündür, biz İtaliya-Azərbaycan Universitetinin binalarının açılışını qeyd edirik. Mən keçən il Romada Prezident Mattarella ilə görüşərkən ona bu haqda məlumat vermişdim və onu Azərbaycana rəsmi səfərə dəvət etmişdim. Şadam ki, cənab Prezident mənim dəvətimi qəbul edib Azərbaycana ikinci dəfə rəsmi səfərə gəlib. Biz səfər çərçivəsində bu gözəl təhsil ocağının açılışını birlikdə qeyd edirik. Əslində, Prezident Mattarellanın rəsmi səfər proqramına bu tədbirin salınması onu göstərir ki, həm İtaliya, həm də Azərbaycan bu sahədəki əməkdaşlığa çox böyük əhəmiyyət verir. Əminəm ki, universitetin gələcəyi çox parlaq olacaq. Bu, nəinki Azərbaycanda, dünya miqyasında öz layiqli yerini tutacaq, universitetin məzunları isə Azərbaycanın inkişafına öz töhfələrini verəcəklər. Əminəm ki, burada oxuyan və oxuyacaq tələbələr gələcəkdə Azərbaycanın inkişafına çox böyük dəstək verəcəklər. Çünki sirr deyil ki, hər bir ölkənin inkişafı onun elmi və təhsil potensialından qaynaqlanır. İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, bu ölkələri inkişaf etmiş ölkələr edən məhz biliklərdir, təhsildir, texnologiyalardır. Bugünkü dünyada texnoloji inkişaf hər bir ölkənin uğurunu müəyyən edir. Təbii resurslarla zəngin olan ölkələr kimi Azərbaycan, ilk növbədə, təbii resurslardan gələn gəlirləri insan kapitalına yönəltməyə çalışmışdır. Çünki biz gələcəyə baxmalıyıq. Yenə də deyirəm, neft, qaz, təbii resurslar hələ o demək deyil ki, bu ölkələr uzunmüddətli dayanıqlı inkişafa malik olacaqlar. Bu inkişaf qısamüddətli ola bilər. Uzunmüddətli dayanıqlı inkişaf məhz biliyin, texnologiyanın, təhsilin səviyyəsinin üzərində qurulur. Ona görə biz Azərbaycanda bu sahəyə böyük diqqət yetirərək artıq uzun illər ərzində bir çox önəmli proqramlar icra etmişik.

Mən Prezident vəzifəsinə seçiləndən sonra demək olar ki, dərhal göstəriş vermişdim ki, Azərbaycan vəsaiti hesabına dünyanın aparıcı ali məktəblərinə Azərbaycan gəncləri ezam edilsin, onların bütün xərcləri dövlət tərəfindən ödənilsin və onlar yaxşı oxuyub Vətənə yaxşı mütəxəssislər kimi qayıtsınlar. Bu günə qədər dövlət xətti ilə dünyanın aparıcı ali məktəblərində təhsil alan tələbələrin sayı minlərlə ölçülür. Ondan sonrakı mərhələdə qərara gəldik ki, eyni zamanda, Azərbaycanın daxilində təhsil sisteminin inkişafı ilə bağlı beynəlxalq əməkdaşlıq məsələlərinə də diqqətlə yanaşaq. Artıq Azərbaycanda bir neçə xarici tərəfdaşlarla birgə universitet fəaliyyət göstərir və növbəti universitet İtaliya-Azərbaycan Universitetidir. Bu universitetin özəlliyi bundan ibarətdir ki, – burada rektor Hafiz Paşayev bunu qeyd etdi, - bu universitet İtaliyanın beş aparıcı universiteti və ADA Universiteti ilə birlikdə qurulmuşdur. Əlbəttə, İtaliya-Azərbaycan strateji tərəfdaşlıq əlaqələrini nəzərə alaraq, biz əminik və ümid edirik ki, bu, Azərbaycanın aparıcı təhsil ocaqlarından birinə çevriləcəkdir.

İtaliya Azərbaycanla artıq uzun illər strateji tərəfdaşlıq əsasında münasibətlər qurmuşdur. Biz, sözün əsl mənasında, strateji tərəfdaşıq. Çünki bizim əməkdaşlığımız strateji xarakter daşıyır, qısamüddətli deyil, uzunmüddətlidir. Eyni zamanda, bizim əməkdaşlıq çərçivələrinə ildən-ilə yeni istiqamətlər əlavə olunur. Energetikadan başlamış sənaye istehsalına qədər uzanan və bu gün təhsil sahəsini əhatə edən əməkdaşlıq, sözün əsl mənasında, strateji xarakter daşıyır.

Dünən Prezident Mattarellanın rəsmi səfəri zamanı həm rəsmi açıqlamalarda, həm apardığımız danışıqlarda biz bunu qeyd edirdik ki, İtaliya-Azərbaycan əməkdaşlığı, məsələn, energetika sahəsində böyük bir inkişafa yol açmışdır. Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TAP layihəsi böyük dərəcədə Prezident Mattarellanın şəxsi dəstəyi nəticəsində mümkün olmuşdur. Əgər o vaxt bu həll olunmasaydı, bu gün biz Avropa məkanına bu qədər təbii resurslar ixrac edə bilməzdik. Biz də ondan əziyyət çəkərdik, Avropa məkanı da. Bu gün Azərbaycan qazı Avropa İttifaqına səkkiz üzv ölkənin enerji təhlükəsizliyini dəstəkləyir və bu coğrafiya genişlənir və burada İtaliya-Azərbaycan əməkdaşlığı həlledici rol oynamışdır.

Qaz təchizatına görə Azərbaycan İtaliya bazarında ikinci yerdədir, neft təchizatına görə birinci yerdədir. Əminəm ki, təhsil sahəsində də İtaliya bizim üçün bir nömrəli tərəfdaş olacaq. Hər halda burada gördüklərimiz və artıq fəaliyyətə başlamış universitetin uğurları bunu deməyə əsas verir. Artıq yüzlərlə tələbə oxuyur. Biz bu gün burada rəhbər heyətlə də tanış olduq. Burada

beynəlmiləl müəllim heyəti çalışır, həm İtaliyadan, həm Azərbaycandan. Xarici tələbələr də var və bu, çox gözəl bir ovqat yaradır. Əminəm ki, burada oxuyan və məzun olacaq tələbələr gələcəkdə İtaliya-Azərbaycan dostluğunun elçiləri olacaqlar. Hər halda burada oxuyan Azərbaycan tələbələrinin gələcəyi İtaliya ilə bağlı olacaq. Onlar İtaliyanı, onun mədəniyyətini, onun inkişafını, onun uğurlarını daha yaxından tanıyacaqlar. Burada bir çox məqsədlər təmin ediləcək. İlk növbədə, Azərbaycan iqtisadiyyatı üçün gələcəkdə güclü kadr potensialı yaradılacaq. Bizim təhsil sahəsinin təkmilləşməsi məsələləri öz həllini tapacaq. Biz ən müasir və mütərəqqi təhsil sisteminə qoşulacağıq və eyni zamanda, Avropa İttifaqının aparıcı ölkələrindən biri olan İtaliya ilə dostluq əlaqələrimiz daha da güclənəcək. Bütün bu amilləri nəzərə alaraq bir daha görürük ki, vaxtında atılmış və düşünülmüş addımlar gözəl nəticələrə gətirib çıxarır.

Burada qeyd olundu, bu universitetin yaradılması təşəbbüsü cəmi beş il bundan əvvəl irəli sürülmüşdür. Romada, Azərbaycan səfirliyində, səfirliyin binasında yerləşən Mədəniyyət Mərkəzində sənədlər mübadiləsi olmuşdur. Ondan sonra mənim tərəfimdən Sərəncam imzalanmışdır. Daha sonra Azərbaycanın dövlət büdcəsindən bu binaların, bütün infrastrukturun yaradılmasına vəsait ayrılmışdır və bu gün 2025-ci ildə biz bu gözəl binaların açılışını qeyd edirik.

Bu, doğrudan da gözəl hadisədir. Bu təhsil ocağı İtaliya-Azərbaycan dostluq ocağı olacaq. Hər birinizi bu münasibətlə təbrik edirəm. Prezidentə bu tədbirdə bizimlə bərabər olduğu üçün bir daha təşəkkürümü bildirirəm. Sağ olun.

## *İlham Əliyev “Kazinform” agentliyinə müsahibə verib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstana dövlət səfəri ərəfəsində “Kazinform”a eksklüziv müsahibəsində iki ölkə arasında siyasi dialoqun yüksək səviyyəsindən, nəqliyyat, logistika, neft-qaz sahələrində əməkdaşlığın sürətli inkişafından, həmçinin yaşıl enerji sahəsində birgə işin perspektivlərindən və Türk Dövlətləri Təşkilatı çərçivəsində təşəbbüslərdən bəhs edib.

*-Hörmətli cənab Prezident, ən yaxın vaxtda Sizin Qazaxıstan Respublikasına dövlət səfəriniz gözlənilir. Azərbaycan ilə Qazaxıstan arasında siyasi münasibətlərin hazırkı səviyyəsini necə xarakterizə edərdiniz və qarşıdakı səfərdən gözləntiləriniz nədən ibarətdir?*

– Azərbaycan ilə Qazaxıstan arasında siyasi əlaqələr hazırda yüksək dərəcədə möhkəmlik və qarşılıqlı etimad ilə xarakterizə olunur. Ötən onilliklər ərzində xalqlarımız arasında tarixi qardaşlığa, dostluğa və qarşılıqlı dəstəyə, ortaq türk kimliyinin möhkəm təməlinə, oxşar mədəni ənənələrə və mənəvi dəyərlərə əsaslanaraq, biz həqiqi strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri qurmuşuq.

Sözsüz ki, ikitərəfli əməkdaşlığın möhkəmlənməsinə töhfə verən mühüm amil ən yüksək səviyyədə aparılan və dövlətlərarası əlaqələrin bütün səviyyələrdə hərtərəfli dərinləşməsinə təkan verən fəal və konstruktiv dialoqdur.

Bu, son üç ildə mənim qardaş ölkəyə yeddinci səfərimdir. Qazaxıstana hər səfərimdə dinamik inkişafı, yeni uğurları müşahidə etmək mənim üçün xoşdur. Bu nailiyyətlər Prezident Kasım-Jomart Tokayevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və düşünülmüş dövlət siyasətindən xəbər verir. Ölkənin modernləşdirilməsinə və iqtisadiyyatın şaxələndirilməsinə yönəlmiş islahatların uğurla həyata keçirilməsi xüsusi təsir bağışlayır. Bu uğurlar münasibətilə bütün qardaş Qazaxıstan xalqını təbrik etmək istərdim. Həmin müddət ərzində Prezident Kasım-Jomart Kemeleviç Tokayev Azərbaycana altı dəfə səfər edib. Bütün bunlar ölkələrimiz arasında hərtərəfli tərəfdaşlıq və qarşılıqlı strateji fəaliyyətin inkişafına müştərək səylərimizi nümayiş etdirir. Bundan əlavə, müntəzəm təmaslar bizə gündəlikdə duran aktual məsələləri operativ şəkildə həll etməyə və əməkdaşlığın əsas istiqamətləri üzrə razılaşdırılmış mövqeləri müəyyənləşdirməyə imkan verir.

Fürsətdən istifadə edərək, işğaldan azad edilmiş Füzuli şəhərində Kurmanqazı adına Uşaq İncəsənət Mərkəzinin tikintisinə görə qardaş Qazaxıstana bir daha minnətdarlığımı bildirmək istəyirəm. Bu Mərkəz mühüm mədəni-maarif müəssisəsinə çevrilib, hazırda orada 100-ə yaxın uşaq təhsil alır.

Biz ötən illər ərzində möhkəm hüquq-müqavilə bazası - təqribən 170 sənəd işləyib hazırlamışıq, siyasi, iqtisadi-ticari, investisiya, mədəni-humanitar və digər sahələrdə səmərəli əməkdaşlıq mexanizmləri yaratmışıq. Bu il 20 illiyini qeyd etdiyimiz Azərbaycan ilə Qazaxıstan arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilənin əhəmiyyətini xüsusi qeyd etmək istərdim. Bu sənəd Azərbaycan-Qazaxıstan əməkdaşlığının müxtəlif sektorlarda inkişafının etibarlı təməlini qoyub və ötən illər ərzində ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlıq əhəmiyyətli dərəcədə genişlənib.

Həmçinin ilk iclası Qazaxıstan Prezidentinin ötən il Azərbaycana dövlət səfəri zamanı keçirilən Ali

Dövlətlərarası Şuranın əhəmiyyətini qeyd etmək lazımdır. Astanada keçiriləcək ikinci iclasda qarşılıqlı faydalı əməkdaşlığın perspektivləri və Azərbaycan-Qazaxıstan münasibətlərinin yeni səviyyəyə qaldırılması istiqamətində atılacaq addımlar müzakirə olunacaq.

Azərbaycan və Qazaxıstan, həmçinin çoxtərəfli formatlarda, xüsusilə beynəlxalq və regional təşkilatlar, o cümlədən BMT, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsi və digərləri çərçivəsində də səmərəli əməkdaşlıq edir. Ölkələrimiz beynəlxalq arenada bir-birini dəstəkləyir, bir çox məsələlərdə ortaq mövqeyi bölüşür.

*– Son illər Azərbaycan ilə Qazaxıstan arasında iqtisadi-ticari əməkdaşlıq necə inkişaf edir?*

– Azərbaycan ilə Qazaxıstan arasında iqtisadi-ticari əməkdaşlığın spektri çox genişdir. İqtisadi-ticari qarşılıqlı fəaliyyətin davamlı artımını məmnunluqla qeyd edirik. Hər iki ölkə ardıcıl olaraq birgə təşəbbüslər həyata keçirir, iqtisadiyyatın müxtəlif sektorlarında əməkdaşlığı genişləndirir. Bu proses məqsədyönlü dövlət siyasəti, biznes icmalarının nümayəndələri arasında fəal dialoq, qarşılıqlı faydalı və tərəfdaşlıq münasibətlərinin inkişafına ümumi sadiqlik sayəsində mümkün olub.

Energetika sektorunda əməkdaşlıq və yaşıl enerjinin inkişafı da prioritet istiqamət olaraq qalır. SOCAR Özbəkistana Azərbaycanın neft məhsullarını və neft-kimya məhsullarını ixrac edir. 2016-cı ildən bəri “OZLITINEFTGAZ” İnstitutunun və “SOCAR NIPI Nefteqaz”ın bazasında yaradılan "Neftegaztexnologiya" birgə müəssisəsi uğurla fəaliyyət göstərir.

2024-cü ildə Azərbaycan, Qazaxıstan və Özbəkistan enerji sistemlərinin inteqrasiyasına və bərpaolunan enerji mənbələrinin təşviqinə yönəlmiş bir sıra strateji sazişlər, memorandumlar imzalayıblar ki, bu da

regionun davamlı inkişafı və enerji əməkdaşlığını gücləndirmək üçün yeni perspektivlər açır.

*– Azərbaycan ilə Özbəkistan arasında mədəni və humanitar sahələrdə əməkdaşlıq barədə nə deyə bilərsiniz?*

– Mədəni və humanitar əməkdaşlıq ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin möhkəmləndirilməsində, həmçinin xalqlarımızın birbaşa əlaqələrinin genişləndirilməsində mühüm rol oynayır. Biz ortaq tarixi və mədəni dəyərləri qorumaq, bütün səviyyələrdə sıx əməkdaşlıq etmək üçün birgə səylər göstəririk.

Belə ki, 2023-cü ildə Azərbaycanda Özbəkistan Mədəniyyəti Günləri, 2024-cü ildə isə Özbəkistan Elm və Mədəniyyət Günləri keçirilib. Elə həmin il Özbəkistanda Azərbaycan Mədəniyyəti Günləri, Xivə şəhərində isə "Şuşa günləri" təşkil olunub. Bu tədbirlər xalqlarımızın zəngin mədəni irslərini bölüşmək, qarşılıqlı anlaşmanı dərinləşdirmək və bir-birinin mənəvi məkanını qarşılıqlı şəkildə zənginləşdirmək istəyini əks etdirir.

Ölkələrimizin regionları arasında əməkdaşlığa xüsusi diqqət yetirilir. İsmayıllı-Riştan, Şuşa-Xivə, Lənkəran-Buxara, Şəki-Kokand, Biləsuvar-Termez, Mingəçevir-Namanqan, Füzuli-Gülüstan, Quba-Cizak və Beyləqan-Şəhrisəbz şəhərləri arasında qardaşlaşma və tərəfdaşlıq münasibətləri qurulub. Bu cür regionlararası əlaqələrin fəallaşması xalqların yaxınlaşmasına, təcrübə mübadiləsinin aparılmasına və əməkdaşlığın mədəni-humanitar gündəliyinin möhkəmləndirilməsinə kömək edir.

Ölkələrimiz arasında dostluğun rəmzi ifadəsi mədəni əhəmiyyəti olan obyektlərdir: Daşkənddə Heydər Əliyev meydanı var və bu ilin iyulunda Bakıda "Özbəkistan" parkının təməli qoyulub.

Fürsətdən istifadə edərək, həmçinin Azərbaycan xalqının Ümummilli Lideri, özbək xalqına həmişə böyük sevgi hissləri bəsləyən Heydər Əliyevin xatirəsinə göstərilən ehtiram və həqiqətən qardaşlıq münasibətinə görə Özbəkistan rəhbərliyinə, bütün qardaş xalqa minnətdarlığımı bildirmək istəyirəm.

Həmçinin idman sahəsində əməkdaşlıqda yaxşı nəticələr var. İki ölkənin birgə səyləri sayəsində FIFA İcraiyyə Komitəsi 2027-ci ildə keçiriləcək futbol üzrə U-20 Dünya çempionatının final mərhələsini Azərbaycanda və Özbəkistanda təşkil etmək qərarına gəlib. Bu, Avropa ilə Asiyanı birləşdirəcək ortaq tarixi nailiyyətdir.

Media və qeyri-hökumət təşkilatları sahələrində əməkdaşlıq da məhsuldar inkişaf edir. 2024-cü il sentyabrın 23-dən 25-dək Daşkənddə Birinci Özbəkistan-Azərbaycan Media Forumu, 2025-ci il sentyabrın 29-da isə Bakıda İkinci Azərbaycan-Özbəkistan Media Forumu keçirilib. Bundan əlavə, 2024-cü ilin dekabr ayında Daşkənddə ilk dəfə Özbəkistan-Azərbaycan Qeyri-Hökumət Təşkilatları Forumu təşkil olunub.

Bütün bu tədbirlər və həyata keçirilən layihələr Azərbaycan ilə Özbəkistanın mədəni, humanitar sahələrdə güclü qardaşlıq münasibətlərini əyani şəkildə nümayiş etdirir, xalqlarımız arasında dostluğun möhkəmlənməsinə, mənəvi və mədəni qarşılıqlı əlaqələrin daha da inkişafına xidmət göstərir.

*– Cənab Prezident, sıx iş cədvəlinizdə bu məzmunlu müsahibəyə vaxt ayırdığınıza görə Sizə minnətdarıq.*

– Özbəkistan cəmiyyətinin həm Azərbaycan-Özbəkistan gündəliyində, həm də bütövlükdə regionda baş verən proseslərə artan marağını qeyd etməkdən çox məmnunam. Qoy, əsrlər boyu qardaş xalqlarımızı və ölkələrimizi birləşdirən dostluq və əməkdaşlıq əlaqələri daha da möhkəmlənsin.

## *2025-ci ilin idman yekunlarına həsr olunan mərasimdə İlham Əliyevin çıxışı*

-Əziz idmançılar. Əziz dostlar.

Ənənəvi olaraq ilin sonunda görüşürük, ilin yekunlarını müzakirə edirik, idmançıları, idman mütəxəssislərini mükafatlandırırıq. Bu il də istisna deyil. Bu il idmançılarımız tərəfindən qazanılan medalların sayı rekord həddə çatıb. Beynəlxalq yarışlarda idmançılarımız tərəfindən 2000-dən çox medal, təqribən 600-dən çox qızıl medal qazanılıb. Bu, bir daha onu göstərir ki, idmanın inkişafı Azərbaycanda uğurla gedir. Keçən illə müqayisədə medalların sayı daha çoxdur və bu, yəqin ki, təbiidir. Çünki idmanın inkişafına göstərilən diqqət, aparılan dövlət siyasəti, əlbəttə ki, ildən-ilə daha yaxşı nəticələrə gətirib çıxarır.

Azərbaycanda idmanın inkişafı dövlət siyasətidir və dövlət xətti ilə bir çox proqramlar icra edilmişdir. İdman infrastrukturu demək olar ki, sıfırdan qurulmuşdur və bu gün ən yüksək səviyyədədir. Bölgələrdə idmanla məşğul olmaq üçün bütün şərait var. Bu il iki Olimpiya İdman Kompleksinin tikintisi başa çatmışdır - Gəncədə və Yevlaxda. Beləliklə, bölgələrdə Olimpiya İdman komplekslərinin sayı 46-ya çatıb.

Əlbəttə ki, bütün bunlar, eyni zamanda, düzgün aparılan siyasət idmanın inkişafını şərtləndirir və gəncləri idmanla məşğul olmağa daha da həvəsləndirir. Bu da çox önəmlidir. Çünki sağlam gənc nəsil yetişməsə, idman uğurlarını əldə etmək mümkün olmayacaq.

Sağlam gənc nəsil, ilk növbədə, ölkənin gələcək inkişafı üçün lazımdır ki, Azərbaycan əhalisi, Azərbaycan vətəndaşları fiziki cəhətdən sağlam olsunlar. Eyni zamanda, uşaqlıqdan idmana göstərilən maraq əlbəttə ki, gələcəkdə idman uğurlarına yol açır.

Bizim siyasətimizin əsas istiqamətlərindən biri də gəncləri sağlam ruhda tərbiyə etməkdir, vətənpərvərlik ruhunda tərbiyə etməkdir ki, gənclər Vətən sevgisi ilə böyüsünlər, tərbiyə alsınlar və beləliklə, ölkəmizin inkişafı daimi olsun, əbədi olsun. Əlbəttə ki, burada əsas amil cəmiyyətdə mövcud olan ab-havadır. Bu da çox müsbətdir. Bizim xalqımız böyük dərəcədə həmrəylik, vətənpərvərlik göstərir və son illərin hadisələri bunu bir daha təsdiqləyir. Gənclərin fiziki hazırlığı, mənəvi saflığı vəhdət təşkil etməlidir. Məhz o halda ölkə uğurla inkişaf edə bilər. İdmanın isə gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində çox böyük önəmi var.

Hər dəfə bizim idmançılarımız Dövlət Bayrağını beynəlxalq yarışlarda qaldıranda əlbəttə ki, hər birimiz qürur hissi keçiririk. Son 5 il ərzində bizim bayrağımız qalib ölkənin bayrağı kimi beynəlxalq arenalarda qaldırılır. Əminəm ki, idmançılar da beynəlxalq yarışlarda iştirak edən zaman bunu hiss edirlər. Ölkəmizə, xalqımıza olan münasibəti hiss edirlər və idman meydançalarına, idman arenalarına çıxarkən, yəqin ki, təbii olaraq qürur hissi ilə çıxırlar. Eyni zamanda, bizim 5 il bundan əvvəl əldə etdiyimiz şanlı Qələbə idmançıların məsuliyyətini də böyük dərəcədə artırır. Çünki onlar müzəffər xalqın nümayəndələri kimi yarışlarda iştirak edirlər.

Təbii ki, bundan sonrakı illərdə bu siyasət davam etdiriləcək. İdmanla məşğul olan bütün qurumlar çox sıx əlaqəli şəkildə fəaliyyət göstərirlər. Azərbaycanda ənənəvi olaraq bir çox beynəlxalq idman yarışları keçirilir. Bəziləri ənənəvi xarakter alır, bəziləri xüsusilə çox böyük beynəlxalq idman yarışları ilk dəfə idi ki, Azərbaycanda keçirilmişdir. Bu ilin ölkəmizdə keçirilmiş əsas idman yarışı təbii ki, MDB ölkələrinin üçüncü Oyunları olmuşdur. Oyunlar çox yüksək səviyyədə keçirilmişdir. Bu Oyunların xüsusiyyəti ondan ibarət idi ki, onlar bölgələrdə - bir neçə şəhərdə keçirilmişdir. Yəni bu, özlüyündə bir göstəricidir. Təbii ki, Bakı şəhərində istənilən idman yarışını keçirmək olar. Ancaq minlərlə xarici qonağın iştirakı ilə bölgələrdə keçirilmiş MDB Oyunları əlbəttə ki, bizim potensialımızı göstərir. Gəncə şəhəri mərkəz seçilmişdi. Yarışların bəziləri digər şəhərlərdə, o cümlədən Xankəndi şəhərində keçirilmişdir. Məndə olan məlumata görə, bütün qonaqlar çox böyük minnətdarlıqla həm bizim qonaqpərvərliyimizi qeyd ediblər, həm də bölgələrimizin gözəlliyi və yaradılmış şəraitlə tanış olublar. İdmançılarımız bu Oyunlarda yaxşı nəticə göstərmişlər, komanda hesabında ikinci yerə biz layiq görüldük. Əlbəttə ki, bütövlükdə bu kimi tədbirlər ölkəmizin imicini, idman potensialını bütün dünyaya göstərir.

Bu il ölkəmizdə ilk dəfə olaraq UFC üzrə beynəlxalq turnir keçirilmişdir. Bu da dünya miqyasında ən populyar idman yarışıdır və adətən bu yarışların əksər mərhələləri Amerikada keçirilir, yaxud da ki, ən inkişaf etmiş ölkələrdə. Bakını da bu siyahıya salmağımız, ilk növbədə, ölkəmizin potensialını göstərir. Eyni zamanda, onu göstərir ki, biz artıq bu sahədə də öz fəaliyyətimizi göstəririk. Yenə də turnirin təşkilatçıları ilə görüşüm zamanı onlar da qeyd edirdilər ki, Bakının bu cür inkişaf etmiş şəhər olmasını, bu dərəcədə gözəl şəhər olmasını heç təsəvvür edə bilmirdilər, heç gözləmirdilər. Yəni minlərlə iştirakçının, xarici qonağın iştirakı ilə keçirilən və dünya mediası tərəfindən işıqlandırılan belə bir yarış ölkəmizin təqdimatının bir növüdür.

Ənənəvi olaraq Formula 1 yarışı təbii ki, bu il də keçirilmişdir və bu yarış ölkəmizin dünyaya təqdimatında xüsusi rol oynamışdır. Təkcə onu demək kifayətdir ki, birinci Formula 1 yarışından sonra ölkəmizə gələn xarici turistlərin sayı 20 faiz artmışdır və ondan sonra da artım davam edirdi, COVID-ə qədər. Sonra təbii ki, aşağı düşdü. İndi yenə də bərpa edilir və əminəm ki, gələn il daha çox xarici qonaq ölkəmizə gələcək, o cümlədən beynəlxalq idman yarışlarını izləmək üçün. Bu il keçirilmiş Formula 1 yarışının özəlliyi onda idi ki, bütün biletlər əvvəlcədən satılmışdı və hətta əlavə tribunaların quraşdırılması da nəzərdə tutulmuşdu. Halbuki şəhər yarışı olduğu üçün burada daha böyük sayda tribunaların quraşdırılması çox çətindir. Amma buna baxmayaraq, 20 min insan canlı olaraq bu yarışı izləyib. Ümumiyyətlə isə bu yarışın auditoriyası yarım milyard insana bərabərdir. Yəni bütün dünya bu yarışı izləyərkən, ilk növbədə, əlbəttə ki, həm yarışı, həm də şəhərimizin gözəlliyini görür. Təbii ki, bu da ölkəmizin təqdimatı kimi qəbul edilməlidir.

Onu da deməliyəm ki, son vaxtlar bir neçə aparıcı ölkənin şəhəri Formula 1 yarışını keçirmək üçün təşkilatçılara müraciət etmişdir və xüsusilə şəhər yarışlarını daha çox xahiş etmişdir. Çünki Bakının timsalında hər kəs görür ki, şəhər yarışı böyük dərəcədə fərqlənir. Bir sözlə, bu kimi idman tədbirləri ölkəmizin imicini böyük dərəcədə ucaldır.

Ölkəmizdə yüzlərlə idman, beynəlxalq idman yarışları keçirilmişdir və gələn il də yarışların keçirilməsi gözlənilir. Xüsusilə mən ölkəmizdə ilk dəfə olaraq keçiriləcək Xizək üzrə Dünya Kubokunu qeyd etmək istərdim. Çünki bu, ilk dəfə olaraq keçiriləcək tədbirdir və ilk ildən dünya kuboku səviyyəsində Qusarda, Şahdağ Xizək Kurortunda keçiriləcək. Bu da Azərbaycanı və Şahdağı beynəlxalq xizək idmanının cədvəlinə salmış olur. Burada da ölkələrin sayı kifayət qədər məhduddur və Azərbaycanın burada da olması, qış idmanı

növündə Dünya Kubokunun keçirilməsi əlbəttə ki, böyük hadisədir. Şahdağ Turizm Xizək Mərkəzinin inkişafı hər il təmin edilir. Hər il biz yeni traslar, yeni xizək zolaqları istifadəyə veririk. Əminəm ki, yaxın 1-2 ilə trasların uzunluğu 50 kilometri ötəcək, təqribən 55 kilometr olacaq. Gələcəkdə yeni mərhələnin inkişafı ilə bağlı da məsələlərə baxılacaq. Amma hazırda bu, bizim bölgəmizdə ən inkişaf etmiş xizək mərkəzidir və orada mövcud olan infrastruktur, hotellərin sayı və gələcək planlar, – indi özəl sektor tərəfindən oraya çox böyük maraq göstərilir, – bütövlükdə o bölgədə minlərlə iş yerinin yaradılmasına gətirib çıxarıb. Təkcə Şahdağ Xizək Mərkəzi bundan faydalanmır, bütün ətraf kəndlər, şəhərlər, orada işləyən, yaşayan insanların bir çoxu turizmin bu sektoruna da cəlb edilib.

Yəni bizim çox gözəl dəniz istirahət zonalarımız, xizək zonalarımız var. Güclü infrastruktur yaradılıbdır. Yollar, dəmir yolları, 9 beynəlxalq hava limanı, yeni şəhərlər arasındakı bağlantılar da müasirləşir. Qarabağda və Şərqi Zəngəzurda böyük infrastruktur işləri görülür. Artıq orada da – Köndələnçay su anbarında, Suqovuşan su anbarında yarışlar keçirilir. Gələcəkdə Sərsəng su anbarında da avarçəkmə üzrə yarışlar keçirilə bilər. Yəni ölkəmizin bu cür inkişafı, o cümlədən idman sektoruna da müsbət təsir göstərir.

Əlbəttə ki, bu il daha bir önəmli hadisə baş vermişdir. Bakı şəhəri "Dünyanın İdman Paytaxtı" seçilmişdir və bu da çox böyük hadisədir, bizim üçün böyük şərəfdir. Eyni zamanda, Azərbaycanda idmanla bağlı görülən işlərə verilən qiymətdir. Mən əminəm ki, bu şərəfli adı biz ləyaqətlə daşıyacağıq.

Əlbəttə, idmançıların və idman mütəxəssislərinin mükafatlandırılması da qeyd etdiyim kimi, bir ənənəyə çevrilib. Bu, çox gözəl ənənədir, artıq 30 ilə yaxındır ki, davam edir və hər şey ədalətli olmalıdır. Azərbaycanın idman şöhrətini ucaldan insanlar əlbəttə ki, dövlət tərəfindən qiymətləndirilməlidir və onların fəaliyyətinə layiqli münasibət göstərilməlidir.

Mən sizi qarşıdan gələn Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edirəm. Sizə yeni uğurlar, qələbələr arzulayıram. Sağ olun.

## *İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciəti*

Əziz həmvətənlər.

2025-ci il arxada qaldı. Bu il də ölkəmiz üçün, xalqımız üçün uğurlu il olmuşdur. Azərbaycan xalqı sülh, təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşamışdır. Xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas amilidir. Əminəm ki, qarşıdan gələn 2026-cı il də ölkəmiz üçün uğurlu olacaq, ölkə qarşısında duran bütün vəzifələr həmişəki kimi uğurla icra ediləcəkdir.

Bu il biz şanlı Zəfərimizin beşinci ildönümünü böyük fəxarət hissi ilə qeyd etmişik. Beş il bundan əvvəl Vətən müharibəsi zamanı əldə etdiyimiz tarixi Zəfərimiz bizimlə əbədi olacaq. Azərbaycan xalqı bu Qələbə ilə əbədi olaraq fəxr edəcəkdir. Biz otuzillik erməni işğalına son qoyduq, ərazi bütövlüyümüzü, suverenliyimizi, milli ləyaqətimizi bərpa etdik. Bu il Zəfərimizin beşinci ildönümünə həsr olunmuş hərbi paradda son illər ərzində ordu quruculuğunda görülmüş işlərin bir hissəsi xalqımıza və bütün dünyaya nümayiş etdirildi. Son 5 il ərzində Azərbaycan Silahlı Qüvvələri öz gücünü böyük dərəcədə artırmışdır. Yeni silahlar və texnika ilə təchiz edilmiş Ordumuz bu gün istənilən vəzifəni icra etməyə qadirdir. Biz son 5 il ərzində həm yerli istehsal olan silah və texnikadan istifadə edərək, eyni zamanda, xaricdən aldığımız silah və texnikanı Ordumuzun potensialına əlavə edərək hərbi gücümüzü böyük dərəcədə gücləndirə bildik. Silahlı Qüvvələrimizin döyüş qabiliyyəti böyük dərəcədə artdı, Xüsusi Təyinatlı Qüvvələrin say tərkibi bir neçə dəfə artırıldı, yeni yaradılmış Komando Qüvvələrinin say tərkibi minlərlə əsgər və zabitdən ibarətdir. Biz yeni müharibəyə hazırlaşmırıq. Bizim üçün müharibələr arxada qaldı. Ancaq bugünkü dünyada hər bir ölkə ilk növbədə öz təhlükəsizliyi haqqında ciddi düşünməlidir. Bugünkü dünyada beynəlxalq hüquq normaları işləmir, "Kim güclüdür, o da haqlıdır" prinsipi əsas prinsip kimi bir çox ölkələr tərəfindən qəbul edilib. Bütün dünyada genişmiqyaslı silahlanma prosesi gedir. Belə olan halda, biz hər an öz ərazi bütövlüyümüzü, suverenliyimizi, öz seçimimizi layiqincə müdafiə etmək üçün hazır olmalıyıq. Vətən müharibəsi dövründə hərbçilərimizin peşəkarlığı, qəhrəmanlığı, fədakarlığı, xalqımızın yumruq kimi birləşməsi bizim Qələbəmizi şərtləndirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaqdır.

Biz Vətən müharibəsindəki Zəfərimizdən sonra yorulmadan bu Zəfəri beynəlxalq və siyasi müstəvidə möhkəmləndirmək və təsdiqləmək üçün çalışmışıq və buna nail olmuşuq. Bütün dünya bizim Zəfərimizi qəbul edir və bizim haqlı olduğumuzu əyani şəkildə görür. Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün mandat almış Minsk qrupu isə tarixin arxivinə göndərildi. Beləliklə, Qarabağ münaqişəsi artıq beynəlxalq

gündəlikdən tamamilə silinmişdir. Zəfər çalmış ölkə kimi biz məğlub edilmiş Ermənistana sülh əlimizi uzatdıq. Bu da bizim uzaqgörən siyasətimizin təzahürüdür. Biz əbədi müharibə aparmaq fikrində deyilik. Bizim başqa ölkələrin torpaqlarında gözümüz yoxdur. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək üçün silahdan istifadə edərək, BMT Nizamnaməsi çərçivəsində, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında öz suveren hüquqlarımızı təmin etmişik. Vətən müharibəsindən cəmi beş il keçəndən sonra Ermənistanla paraflanmış sülh müqaviləsi bir daha xalqımızın böyüklüyünü və bizim siyasətimizin müdrikliyini göstərir. Biz cəmi beş ilə yaxındır ki, de-fakto sülh şəraitində yaşayırıq. Biz döyüş meydanında qan tökərək, şəhidlər verərək şanlı Qələbə qazanmışıq və bu Qələbəni dünyanın ən mötəbər yeri olan Amerikanın Ağ Evində, Amerika Prezidentinin iştirakı ilə möhürlədik. Beləliklə, 30 il ərzində əsas vəzifəmiz olan ərazi bütövlüyümüzün bərpası və bütün dünya tərəfindən bunun qəbul edilməsi məsələsi öz həllini tapmışdır.

Bu gün isə bütün ölkə üzrə geniş quruculuq işləri aparılır, hər bir bölgədə inkişaf müşahidə olunur. Biz beynəlxalq mövqelərimizi böyük dərəcədə möhkəmləndirə bildik. Bu gün Azərbaycana dünyada böyük hörmətlə yanaşırlar. Təsadüfi deyil ki, dünyanın aparıcı beynəlxalq aktorları Azərbaycanla əməkdaşlıq etmək üçün müxtəlif təkliflər irəli sürürlər. Bizim xarici siyasətimiz çoxşaxəlidir, bu siyasət bir çox istiqamətlər üzrə uğurla aparılır. Biz bu il D-8 beynəlxalq təşkilatına üzv olduq. Onu da bildirməliyəm ki, 8 böyük müsəlman ölkəsini birləşdirən və 30 ilə yaxın fəaliyyət göstərən bu təşkilatın ilk yeni üzvü məhz Azərbaycan olmuşdur. Yəni bu ölkələr tərəfindən bizə göstərilən hörmət və etimad göz qabağındadır. Biz bu il Orta Asiya ölkələrinin Məşvərət Şurasının tamhüquqlu üzvü seçildik. Hesab edirəm ki, bu da tarixi nailiyyətdir. Çünki coğrafi nöqteyi-nəzərdən biz Cənubi Qafqazda yerləşirik. Ancaq Orta Asiya ölkələrinin Məşvərət Şurasına yekdilliklə tamhüquqlu üzv seçilməyimiz bizim həm bu ölkələrlə səmimi münasibətlərimizdən xəbər verir, həm də ki, Azərbaycanın bu gün nə qədər önəmli ölkə olduğunu əyani şəkildə göstərir.

Bu il ölkəmizdə bir çox mötəbər beynəlxalq tədbir keçirilmişdir. Bunların arasında işğaldan azad edilmiş Xankəndidə ECO-nun Zirvə Görüşünü xüsusilə qeyd etməliyəm. Qəbələdə Türk Dövlətləri Təşkilatının Zirvə Görüşü də bizim ailəmiz olan Türk dünyasının birləşməsi istiqamətində bir daha önəmli addım olmuşdur. Bir çox beynəlxalq təşkilatlarla sıx əlaqələrimiz bizim maraqlarımıza uyğundur. Biz hər zaman bərabərhüquqlu tərəfdaşlığın tərəfdarı olmuşuq. Biz heç vaxt imkan verməmişik ki, kimsə bizim işimizə qarışsın, kimsə bizə nəyisə diktə etsin, kimsə bizə yuxarıdan aşağı baxsın. Biz müqavimət göstərmişik, biz ciddi iradəmizi ortaya qoymuşuq, heç kimin qarşısında baş əyməmişik, heç kimə imkan verməmişik və verməyəcəyik ki, bizim işimizə qarışsın. Tədricən hər kəs görür ki, belə cəhdlərin sayı da kəskin azaldı. Çünki bunun heç bir mənası yoxdur. Bizə təzyiq etmək üçün heç kimin əlində heç bir vasitə yoxdur. Bizim güclü siyasi iradəmiz, xalq-iqtidar birliyi, hərbi gücümüz, iqtisadi potensialımız, enerji siyasətimiz, nəqliyyat imkanlarımız və digər amillər bizi o qədər gücləndirib ki, heç kim bizə öz iradəsini diktə edə bilməz.

İqtisadi inkişafa gəldikdə, biz bu il əldə olunmuş uğurlarla fəxr edə bilərik. Bizim valyuta ehtiyatlarımız tarixi rekord həddə çatıb – 80 milyard dollardan artıqdır. Bizim xarici borcumuz daha da aşağı düşüb, bu gün ümumdaxili məhsulumuzun cəmi 6,3 faizini təşkil edir. Bir halda ki, bəzi inkişaf etmiş ölkələrdə bu rəqəm 100 faizdir, ondan da çoxdur. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzu 16 dəfə üstələyir və təsadüfi deyil ki, dünyanın aparıcı reytinq agentlikləri Azərbaycanın kredit reytinqini qaldırıblar – investisiya reytinqini müsbət reytinq səviyyəsinə qaldırıblar.

Biz "Böyük Qayıdış" Proqramını uğurla icra edirik və işğaldan azad edilmiş ərazilərdə bu gün böyük quruculuq işləri aparılır və artıq 70 minə yaxın insan orada yaşayır, çalışır, təhsil alır. Keçmiş köçkünlər 32 kənd, qəsəbə və şəhərdə yerləşiblər və onlar üçün ən gözəl şərait yaradılmışdır.

Bu gün, eyni zamanda, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Bu münasibətlə dünyada yaşayan bütün azərbaycanlıları ürəkdən təbrik etmək istəyirəm. Onlar bilməlidirlər və bilirlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanıb. 2025-ci ildə olan bəzi hadisələr bir daha göstərdi ki, hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının taleyi bizim üçün qiymətlidir, önəmlidir və bizi – azərbaycanlıları ortaq tarix, dilimiz, köklərimiz, mədəniyyətimiz birləşdirir. Azərbaycanlılar hansı ölkədə yaşamalarından asılı olmayaraq, bilirlər və bilməlidirlər ki, onların Ana Vətəni müstəqil Azərbaycan dövlətidir.

Əziz həmvətənlər, mən sizi bir daha Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə ürəkdən təbrik etmək istəyirəm, Yeni il bayramı münasibətilə təbrik etmək istəyirəm. Dünyada yaşayan bütün azərbaycanlılara, Azərbaycan vətəndaşlarına sülh, əmin-amanlıq, xoşbəxtlik arzulayıram. Bayramınız mübarək olsun!

DOI: https://doi.org/10.30546/2309-1347.92.2025.305

**B E Y N Ə L X A L Q   M Ü N A S İ B Ə T L Ə R**
**I N T E R N A T I O N A L   R E L A T I O N S**

UOT 327.5
UOT 327.56
UOT 327:140.8

**ELÇİN ƏHMƏDOV**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Qarabağ İrsini Araşdırma Mərkəzi"nin rəhbəri, "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının professoru, siyasi elmlər doktoru**

*e-mail: elchin_ahmedov09@yahoo.com*

# AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ: SİYASİ-DİPLOMATİK UĞURLAR VƏ DÖVƏT SUVERENLİYİNİN TAM BƏRPASI

## Giriş

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra, dövlətçiliyini inkişaf etdirərək möhkəmləndirmək üçün tarixi fürsət əldə etmiş oldu. Dövlət müstəqilliyinin bərpası Azərbaycan xalqının tarixində böyük hadisə olmaqla, yeni bir dövrün başlanğıcı idi. Azərbaycan xalqı milli dövlətçilik ənənələrinə, tarixi və mədəni irsinə söykənərək demokratik və hüquqi dövlət quruculuğu yolunu seçdi. Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etdikdən sonra milli dövlətçilik prinsiplərinə uyğun olaraq yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsi ən vacib məsələ kimi qarşıda dururdu. Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə başlayan hərbi təcavüzün genişlənməsi ölkəmizi ciddi siyasi və iqtisadi problemlərlə üz-üzə qoymaqla yanaşı, dövlətimizin xarici siyasət fəaliyyətində də mühüm vəzifələrin yerinə yetirilməsini ön plana çəkdi.

Bu dövrdə Azərbaycan Respublikasının qarşısında onun dövlət müstəqilliyinin tanıdılması və möhkəmləndirilməsi, Ermənistanın əsassız ərazi iddiaları ilə başladığı təcavüzü nəticəsində yaradılmış Qarabağ münaqişəsinin milli maraqlara uyğun həlli və işğal edilmiş ərazilərin azad edilməsi, dövlət quruculuğu, ölkənin inkişafını təmin etmək üçün əlverişli beynəlxalq şəraitin yaradılması kimi mühüm vəzifələr dururdu. Həmin vəzifələri yerinə yetirmək üçün ardıcıl, məqsədyönlü xarici siyasət kursunun hazırlanması və reallaşdırılması tələb olunurdu.

Lakin XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində SSRİ rəhbərliyinin ermənilərə himayədarlığı sayəsində başlamış Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları, eləcə də hərbi təcavüzü nəticəsində torpaqlarımız işğal altına düşdü. Bu zaman xarici siyasət fəaliyyəti Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və davam edən işğalı şəraitində həyata keçirilirdi. Müstəqilliyin bərpa edildiyi ərəfədə və ondan az sonra azərbay-

canlılar Ermənistandan – öz tarixi torpaqlarından qovularaq qaçqına çevrilmişdilər. Azərbaycanın Qarabağın dağlıq hissəsində isə azərbaycanlılar yaşayan məntəqələri bir-birinin ardınca Ermənistan silahlı qüvvələri və terrorçu dəstələri tərəfindən keçmiş sovet hərbi hissələrinin köməyi ilə işğal edilmiş, əhalisi isə öz doğma yurdlarından məcburən köçkün düşmüşdü. Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzünün qarşısını almaq, onun ağır nəticələrini aradan qaldırmaq, dövlətimizin ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək, dünyaya siyasi və iqtisadi inteqrasiya olmaq zərurəti düşünülmüş, ardıcıl və milli maraqların qorunmasına əsaslanan xarici siyasət tələb edirdi.

## Ümummilli Lider Heydər Əliyevin xarici siyasət strategiyası

1993-cü ilin ikinci yarısında Ümummilli lider Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanın xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli maraqlarının və mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Heydər Əliyev özünün zəngin dövlətçilik təcrübəsinə əsaslanaraq bir sıra ən mühüm və təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsini qarşıya məqsəd kimi qoymuşdu. Həmin vəzifələrdən biri və ən əsası Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxartmaq, ölkəmiz haqqında yaradılmış mənfi ictimai rəyi dağıtmaq və xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq informasiya blokadasını yarmaqdan ibarət idi. Ona görə də yeni siyasi kursu həyata keçirmək üçün hər şeydən əvvəl müharibə dayandırılmalı və dinc şərait təmin edilməli idi.

Ümummilli lider Heydər Əliyev bildirmişdir ki, Azərbaycanın müstəqilliyini möhkəmləndirmək üçün əsas vəzifələrdən biri ölkəmizin mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin olmasıdır: “Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaqdan və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir... Nəyin bahasına olursa-olsun respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü, xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq... Bundan sonra görüləsi işlər Azərbaycanın daha geniş tanınmasına şərait yaradacaqdır və respublikamız dünya dövlətləri birliyində öz layiqli yerini tutacaqdır” [1, c.1, s.132].

Digər mühüm vəzifələrdən biri də bəzi dövlətlər ilə münasibətlərdə əsassız yaradılmış gərginliyi aradan qaldırmaq, balanslı və milli maraqlara əsaslanan xarici siyasət xəttini təmin etmək, region dövlətlərlə münasibətlərə daha çox diqqət yetirməklə qarşılıqlı əməkdaşlıq və mehriban qonşuluq əlaqələrinin qorunmasına nail olmaq idi. Qarşıda duran ən mühüm vəzifələrdən biri də münaqişənin ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi şərti ilə ədalətli şəkildə həll olunması üçün böyük dövlətlərin, eləcə də beynəlxalq təşkilatların səylərini gücləndirməyə nail olmaqdan ibarət idi.

Demokratik dövlət quruculuğu yoluna qədəm qoymuş Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra üzləşdiyi sosial-iqtisadi və siyasi problemlərin müvəffəqiyyətlə həll olunması ölkəmizin beynəlxalq aləmdəki mövqeyi və ayrı-ayrı ölkələrlə milli dövlət maraqlarına cavab verən qarşılıqlı faydalı əlaqələri və dünya birliyinə inteqrasiyası prosesinin intensivliyi ilə sıx bağlı idi. Bu mənada, Azərbaycanın beynəlxalq münasibətlər sistemində layiqli yer tutması üçün dünya siyasətinin formalaşmasında aparıcı rol oynayan dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərin tənzimlənməsi və inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edirdi.

Azərbaycanın milli təhlükəsizliyi onun dünya və region dövlətləri, habelə beynəlxalq təşkilatlarla balanslaşdırılmış strateji xətt yeritməsini zərurətə çevirdi. Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının xarici siyasət prioritetlərindən bəhs edərək qeyd edirdi ki, "...Dəyişən dünyamızda Azərbaycanın siyasi missiyası dost və tərəfdaş axtarışına, blok və ittifaqların çoxvariantlılığına yönəlmişdir. Bu, Azərbaycanın dünya dövlətləri ailəsində statusunu, suverenliyini möhkəmləndirəcək, həm də müxtəlif dövlətlərlə yaxınlaşmasına kömək edəcəkdir" [2, s.31].

Ümummilli lider çox bacarıqlı, son dərəcə təcrübəli dövlət başçısı və yetkin siyasi xadim kimi bu çətin və mürəkkəb vəzifələrin öhdəsindən müvəffəqiyyətlə və böyük ustalıqla gəlmək bacarığı nümayiş etdirdi. Ölkəmizin sistemli şəkildə dünya birliyinə inteqrasiya olunmasında ikitərəfli və çoxtərəfli siyasi münasibətlərin genişlənməsi istiqamətində atılan addımlar mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı əlaqələrinin dərinləşməsi və beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə güclü təkan verdi [23, s.297-298]. "Əsrin müqaviləsi" və sonrakı illərdə imzalanmış çoxsaylı neft müqavilələri Azərbaycanın dünya birliyinə inteqrasiyasını sürətləndirdi.

Azərbaycanın enerji siyasətinin əsasını təşkil edən Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz əsas ixrac boru kəmərlərinin tikintisinə başlandı. Sonrakı illərdə onların işə salınması nəticəsində Azərbaycan nəinki özünün enerji təhlükəsizliyini təmin etdi, eyni zamanda Avropanın enerji təminatında mühüm rol oynamağa başladı. Həmçinin, enerji diplomatiyası Azərbaycan dövlətinin beynəlxalq mövqelərini möhkəmləndirdi.

Qeyd etmək lazımdır ki, 1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə tarixi Böyük İpək Yolunun bərpası üzrə keçirilmiş Bakı beynəlxalq konfransı və onun nəticələri Azərbaycanın qazandığı ən mühüm nailiyyətlərindən biridir [21, s.194-195; 24, s.563]. Eyni zamanda, dövlət müstəqilliyinin bərpasından sonra Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi Azərbaycan diplomatiyasının qarşısında duran mühüm və çətin məsələlərdən biri oldu. Bu məsələyə dair Xəzəryanı ölkələrlə Azərbaycanın milli mənafelərinə uyğun olaraq səmərəli danışıqlar aparıldı.

Bununla yanaşı, Azərbaycan dövlətinin xarici siyasətinin əsas istiqamətlərindən biri də Avropa ölkələri ilə münasibətlərin qurulması və inkişaf etdirilməsi idi. Bu baxımdan xarici siyasətin başlıca məqsədi Azərbaycanı müstəqil dövlət kimi tanıtmaq, beynəlxalq mövqelərini möhkəmləndirmək qarşıya məqsəd kimi qoyulmuşdu. Bu dövrdə, yalnız ikitərəfli deyil, çoxtərəfli əsasda da fəal xarici siyasət yürüdülərək Azərbaycanın beynəlxalq təhlükəsizlik və əməkdaşlıq sistemində özünəməxsus yer tutması üçün bir sıra mühüm addımlar atıldı.

Azərbaycan Respublikasının xarici siyasət strategiyasının mühüm istiqamətlərindən biri beynəlxalq təşkilatlara hərtərəfli əməkdaşlıq etməkdir. Bunun başlıca səbəbi ondan ibarətdir ki, Azərbaycan Respublikası beynəlxalq təşkilatlarla əməkdaşlığı bütövlükdə ümumi təhlükəsizliyə, iqtisadi inkişafa və demokratiyaya dəstək verəcək vasitə kimi görür.

Azərbaycanın beynəlxalq təşkilatlara üzv olması ilə yanaşı, onların işlərində fəal surətdə iştirak etməsi və səmərəli əməkdaşlıq ölkəmizin problemlərini dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm əhəmiyyət kəsb edir. Məhz buna görə də dünya birliyinə bərabərhüquqlu üzv kimi daxil olmağa çalışan və müstəqilliyinin ilk addımlarını atan, eləcə də Ermənistanın hərbi təcavüzü nəticəsində ərazi bütövlüyü pozulmuş Azərbaycan Respublikasının xarici siyasətində dünya birliyinə inteqrasiya, ikitərəfli və çoxtərəfli münasibətlər, o cümlədən beynəlxalq və regional təşkilatlarla əlaqələrin yaradılması və inkişaf etdirilməsi ümummilli lider Heydər Əliyevin fəaliyyətinin başlıca istiqamətlərindən birini təşkil etmişdir.

Ümummilli lider Heydər Əliyev xarici siyasət xəttində beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə çox böyük diqqət yetirirdi. Bu baxımdan 1994-cü il mayın 4-də Prezident Heydər Əliyevin "Sülh naminə tərəfdaşlıq" proqramının çərçivə sənədini imzalaması Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi istiqamətində atılan mühüm addımlardan biri oldu [20, s.123].

Bununla yanaşı, Heydər Əliyevin Azərbaycan Prezidenti kimi BMT Baş Məclisinin sessiyalarında və digər yüksək səviyyədə keçirilən müxtəlif iclaslarda və çoxsaylı görüşlərdə bu əlaqələr inkişaf etdirildi. Azərbaycan dövlətinin başçısı kimi ilk dəfə ümummilli lider 1994-cü il sentyabrın 29-da BMT Baş Assambleyasının 49-cu sessiyasında çıxış edərək, bu universal beynəlxalq təşkilatın tribunasından ölkəmizin bir çox məsələləri ilə bağlı, xüsusilə Ermənistanın Azərbaycana təcavüzü haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmışdır [1, c.2, s.193-197]. 1995-ci il oktyabrın 22-də BMT-nin 50 illik yubileyi ilə bağlı keçirilən Baş Məclisinin xüsusi təntənəli iclasında çıxış edən Azərbaycan Prezidenti Heydər Əliyev bu qurumun yüksək kürsüsündən dünya dövlətlərinə müraciət edərək, mövcud qlobal problemlərə dair Azərbaycan dövlətinin prinsipial mövqeyini açıqlamış, xüsusilə Ermənistanın təcavüzünün aradan qaldırılması ilə bağlı təcili tədbirlərin görülməsi və beynəlxalq səylərin artırılmasına çağırmışdır [1, c.4, s.194].

2000-ci ilin sentyabr ayında BMT-nin Minilliyin sammitində çıxış edən Prezident Heydər Əliyev dünyada sülhün və təhlükəsizliyin qorunmasında əsas missiyanı öz üzərinə götürmüş bu beynəlxalq təşkilatın kürsüsündən Azərbaycanın mövqeyini bir daha dünyaya bəyan etmiş, bəşəriyyətin üzləşdiyi problemlərin həllində BMT-nin fəaliyyətini daha da gücləndirmək məqsədilə təşkilatda islahatların aparılmasının zəruriliyini vurğulamışdır [1, c.30, s.447].

1996-cı il aprelin 22-də Lüksemburqda Avropa İttifaqı və Azərbaycan Respublikası arasında ticarət, sərmayə, iqtisadiyyat, qanunvericilik, mədəniyyət, immiqrasiya və qeyri-qanuni ticarətin qarşısının alınması sahəsində əməkdaşlığı nəzərdə tutan "Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi" imzalanmışdır [24, s.561]. Bu müqavilənin imzalanması Azərbaycanın xarici siyasətinin ən uğurlu səhifələrindən biri kimi qiymətləndirilir. Dövlətimiz və xalqımız üçün mühüm tarixi əhəmiyyət kəsb edən bu müqavilə Azərbaycanın Avropa strukturları və institutları ilə əlaqələrinin genişlənməsi, xüsusilə inteqrasiya istiqamətində hüquqi baza rolunu oynayır. Hazırda Azərbaycan Respublikası ümumavropa sisteminə inteqrasiya olunmaqla yanaşı, qitənin təhlükəsizlik arxitekturasına öz töhfəsini verərək Avropa ölkələrinin enerji təchizatının təmin olunmasında da çox mühüm rol oynamaqdadır.

Bütün dünyanın gözü qarşısında baş verən bu dəhşətli soyqırımın əsl mahiyyəti yalnız Ümummilli lider Heydər Əliyev 1993-cü ildə hakimiyyətə yenidən qayıtdıqdan sonra açıqlanmış, 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət vermişdir. Bundan əlavə, ermənilərin azərbaycanlılara qarşı zaman-zaman törətdikləri soyqırım ilə əlaqədar Ümummilli lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı Fərmanla 31 mart – Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir [3].

Bununla yanaşı, ümummilli liderin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 1997-ci il 18 dekabr tarixli Fərmanı Ermənistan SSR ərazisindən azərbaycanlıların deportasiyasının hərtərəfli tədqiq edilməsi, bu cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir [4]. Bu fərmanlar təkcə tariximizin qanlı səhifələrinin öyrənilməsi və yaddaşlarda həkk olunması deyil, eləcə də erməni millətçiliyinin və terrorizminin ifşa olunması baxımından da əhəmiyyətlidir.

Ümumiyyətlə, Ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü

illərdə respublikamız üçün həlledici illər olmuşdur. Məhz həmin illərdə dövlətçiliyimizin möhkəm təməli qoyulmuşdur. O illərdə Azərbaycanın xarici siyasətlə bağlı strateji xətti müəyyən edilmiş, Azərbaycan dünya birliyinə qovuşmuşdur.

**Azərbaycanın milli maraqlara əsaslanan xarici siyasəti**

2003-cü ildən keçən 20 ildən artıq müddət ərzində Ümummilli lider Heydər Əliyevin siyasi kursunu dinamik şəkildə və uğurla inkişaf etdirən Prezident İlham Əliyev tərəfindən milli maraqlara əsaslanaraq həyata keçirilən xarici siyasət nəticəsində Azərbaycanın çox böyük uğurlara imza atması ölkəmizin dünya birliyində mövqelərinin yüksəlməsini təmin etmişdir.

Son vaxtlar qlobal və regional güclər arasında artan ixtilaflar, beynəlxalq münasibətlər sistemində davam edən gərginlik, o cümlədən dövlətlərin suverenliyi və daxili işlərinə müdaxilələr, beynəlxalq hüququn norma və prinsiplərinə ikili yanaşma, həmçinin beynəlxalq münaqişələr, birtərəfli iqtisadi sanksiyalar, dözümsüzlük və humanitar böhran vəziyyəti daha da kəskinləşdirib. Bütün dünyada və bölgədə gedən müxtəlif mənfi proseslərə baxmayaraq, Azərbaycanın hərtərəfli və dinamik şəkildə inkişafı, müstəqil, çoxşaxəli və milli maraqlara söykənən xarici siyasət kursu onun Cənubi Qafqaz regionunun ən çox inkişaf etmiş ölkəsi olaraq qalmasını təmin etmişdir.

Artıq ölkəmiz bütün regional məsələlərdə əsas iştirakçıdır və dövlətimizin başçısının qeyd etdiyi kimi, regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycanın razılığı olmadan reallaşa bilməz. Eləcə də ölkəmiz Avropa təhlükəsizlik arxitekturasının etibarlı tərəfdaşı kimi qitənin enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynayır. Azərbaycanın təşəbbüsü ilə reallaşan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP, TAP və digər layihələr Azərbaycanı qlobal iqtisadiyyatda özünəməxsus iqtisadi modelə malik ölkə kimi səciyyələndirir. Bu layihələr Azərbaycanın, Türkiyənin, eləcə də digər ölkələrin enerji təhlükəsizliyi üçün böyük təminat verməklə yanaşı, iki qardaş dövlətin birliyi və strateji tərəfdaşlığı regional təhlükəsizlik baxımından da mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın enerji diplomatiyası regional təhlükəsizliyə, beynəlxalq əməkdaşlığa və milli maraqlara xidmət edir.

Nəticədə, Azərbaycan yalnız beynəlxalq regionda gedən proseslərdə deyil, eyni zamanda, beynəlxalq aləmdə cərəyan edən proseslərə də təsir göstərmək imkanı qazanmışdır. Ona görə də bu gün dünyanı narahat edən və həyatı əhəmiyyətli bir sıra problemlərdə aparıcı dövlətlərin başçıları Azərbaycan rəhbərinin mövqeyi ilə hesablaşırlar.

Qeyd etmək lazımdır ki, 2020-ci ilin yanvar ayında 14-cü dəfə Dünya İqtisadi Forumu çərçivəsində "Strateji baxış: Avrasiya" mövzusunda keçirilən panel iclasında iştirak edən Prezident İlham Əliyev moderatorun "Avrasiyada indi böyük qüvvələr yerləşib, bir tərəfdən Rusiya, o biri tərəfdən Çin. Azərbaycanın Prezidenti kimi Siz birinci növbədə kimə zəng edərsiniz – Moskvaya, yoxsa Pekinə?" sualına cavab olaraq Prezident İlham Əliyevin "Bakıya" cavabı böyük önəm kəsb edir [9].

Dövlət başçısının bu cavabı Azərbaycanın müstəqil, heç kimdən asılı olmayan, milli maraqların hər zaman uca tutulduğu siyasət yürütdüyünün bariz nümunəsidir. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanın qonşu ölkələrlə münasibətləri dostluq, qarşılıqlı faydalı əməkdaşlıq, mehriban qonşuluq prinsiplərinə əsaslanır. Eyni zamanda, dövlət başçısı vurğuladı ki, Azərbaycan üçün onun milli maraqları həmişə birinci yerdədir və buna görə də müstəqillik illəri ərzində qazandığımız bütün nailiyyətlər xalqımızın müstəqilliyimizə sadiq olmasına, siyasi və iqtisadi sahələrdə çox ciddi islahatlar həyata keçirdiyimizə görə əldə olunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyevin yüksək diplomatik istedadı sayəsində son 20 il

ərzində ölkəmizin dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətləri keyfiyyətcə yeni müstəvidə daha da inkişaf etdirilmişdir. Azərbaycan 2011-ci il oktyabrın 24-də 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə BMT-yə üzv olan 193 dövlətdən 155-nin dəstəyi ilə inamlı qələbə qazanmışdır [5]. BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması müstəqillik tarixində əldə edilmiş ən böyük nailiyyətlərdən biri olmaqla, Azərbaycanın son illər dünya miqyasında artan siyasi nüfuzunun bariz sübutu kimi qəbul edilir.

Bu illərdə Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığı daha da genişlənmişdir. 2018-ci ilin iyul ayında Avropa İttifaqı ilə Azərbaycan arasında qəbul olunmuş "Tərəfdaşlıq prioritetləri" adlı mühüm sənəddə bir çox məsələlər öz əksini tapmaqla yanaşı, Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərimizin toxunulmazlığına dəstək və hörmət ifadə olunmuşdu. Həmçinin 2018-ci il iyulun 11-12-də Brüsseldə keçirilmiş NATO Zirvə görüşünün Yekun Bəyannaməsində də Alyans üzvlərinin Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstək və hörməti öz əksini tapmışdır [46]. Onlar regiondakı mövcud münaqişələrin məhz bu prinsiplər əsasında həll olunmasının zəruriliyini bildirmişdilər.

Bununla yanaşı, Türk Dövlətləri Təşkilatının güclənməsi və nüfuzunun artmasında da Azərbaycan Prezidenti İlham Əliyevin böyük rolu olmuşdur. 2019-cu il oktyabrın 15-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşü keçirildi və Azərbaycan bu təşkilatda sədrliyə başladı [7]. Bunun davamı olaraq, oktyabrın 25-26-da Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının Bakıda keçirilən XVIII Zirvə görüşündə 60-a yaxın ölkənin dövlət və hökumət başçısı, həmçinin beynəlxalq təşkilatların rəhbərləri, ümumilikdə isə 160-a yaxın ölkə və beynəlxalq təşkilatın nümayəndələri iştirak etdilər [8]. Zirvə görüşü iki gün ərzində beynəlxalq münasibətlər sistemində ən mühüm hadisə idi.

Ümumilikdə, özündə 120 ölkəni birləşdirən və BMT-dən sonra dünyada ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatının XVIII Zirvə görüşünün Prezident İlham Əliyevin sədrliyi ilə Bakıda keçirilməsi və 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi ölkəmizin böyük diplomatik uğuru oldu. Bununla yanaşı, son illərdə Azərbaycanın ev sahibliyi etdiyi, eləcə də Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilən bir sıra mühüm əhəmiyyət kəsb edən qlobal tədbirlər Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu xeyli yüksəltdi.

Dövlət başçısı İlham Əliyev Ermənistan-Azərbaycan münaqişəsi həll olunmadan, yəni Ermənistan işğal olunmuş Azərbaycan torpaqlarından çıxmayınca bölgədə heç bir müsbət irəliləyişin mümkün olmayacağını vurğulamaqla yanaşı, Azərbaycanın öz milli maraqları uğrunda sona qədər mübarizə aparacağını bildirmişdir. Eyni zamanda, bu mübarizədə ədalətin Azərbaycanın tərəfində olduğunu söyləyən Prezident İlham Əliyev dünyaya bəyan etmişdir ki, Azərbaycan bundan sonra da nə danışıqlar prosesində, nə də bölgədə gedən başqa proseslərdə öz prinsipial mövqeyindən dönməyəcək.

## İkinci Qarabağ müharibəsini şərtləndirən hərbi-siyasi və hüquqi amillər

Son 20 il ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrində aparılan islahatlar ordumuzun istər döyüş, istərsə də mənəvi-psixoloji hazırlığının güclənməsinə zəmin yaratdı. Azərbaycan ordusu ən müasir silahlar və texnika ilə təchiz olundu. Qeyd etmək lazımdır ki, 2003-cü ildən keçən dövr ərzində hərbi xərclər 15 dəfədən çox artırılmışdır.

2016-cı ilin Aprel döyüşləri – Azərbaycanın Vətən müharibəsindəki böyük hərbi Qələbəsinin başlanğıcı və Ermənistanın "qüdrətli ordusu"nun yalnız mif olduğunun təsdiqi kimi

tarixə düşdü. 2016-cı il aprelin 2-dən 5-dək davam edən Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatları ölkəmizə hərbi-strateji nöqteyi-nəzərindən çox böyük üstünlüklər verdi [10, s.160-161]. İlk növbədə, Azərbaycan çox mühüm psixoloji qələbə qazandı. Azərbaycan Ordusu Qarabağın şimal və cənub hissələrində çox böyük strateji əhəmiyyətə malik yüksəklikləri azad etdi. Bununla da Azərbaycan öz torpaqlarını azad etmək bacarığını, potensialını, döyüş əzmini nümayiş etdirdi. Nəticədə 4 günlük döyüşlərin beynəlxalq əks-sədası da dərhal eşidildi və Ermənistanın Azərbaycan torpaqlarının 20%-ni işğal altında saxlaması bir daha bütün dünyaya xatırladıldı.

2003-cü ildən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar bu gün Azərbaycan Ordusunun dünyanın ən qüdrətli orduları sırasına daxil olmasına imkan yaratdı.

Qeyd etmək vacibdir ki, 2016-cı il aprel ayının əvvəlində cəbhə xəttində Ermənistanın növbəti hərbi təxribatı ilə üzləşən ordumuz əks-hücuma keçərək işğalçılara güclü zərbələr endirmiş və qısa müddətdə Ağdərə, Cəbrayıl, Füzuli rayonlarında 2 min hektar ərazini düşməndən azad etmiş, işğal altında qalan torpaqlara nəzarət etmək imkanını artırdı. Bunun davamı olaraq, 2018-ci ilin may ayının 20-dən 27-dək Naxçıvan Muxtar Respublikasının 11 min hektardan çox ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilmiş, dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirildi, Yerevan–Gorus–Laçın yolu nəzarətə götürüldü. Nəticədə minlərlə hektar torpaq işğalçılardan azad edildi, on minlərlə hektar ərazi Azərbaycanın nəzarətinə keçdi [10, s.161-162]. Qeyd etmək vacibdir ki, 2016-cı ilin Aprel döyüşləri Azərbaycanın Vətən müharibəsindəki böyük hərbi Qələbəsinin başlanğıcı və Ermənistanın "qüdrətli ordusu"nun yalnız mif olduğunun təsdiqi kimi tarixə düşdü.

Azərbaycan Prezidenti İlham Əliyev mühüm beynəlxalq tədbirlərdə dəfələrlə Ermənistanın işğalçılıq siyasətini ifşa edərək təcavüzkarın faşist ideologiyası yürütdüyünü və terrorizmin dövlət səviyyəsində dəstəkləndiyini bütün dünyaya bəyan etmiş, xüsusilə, son illərdə Azərbaycan diplomatiyasının səyləri nəticəsində münaqişənin həlli ilə bağlı BMT Baş Assambleyası, Qoşulmama Hərəkatı, Avropa İttifaqı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı və digər beynəlxalq təşkilatların sənədləri buna müvafiq hüquqi baza yaratmışdı.

Son illər ərzində beynəlxalq təşkilatlar Azərbaycanın ədalətli mövqeyini dəstəkləyən qərar və qətnamələr qəbul etmişlər. Bu, Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün əsas amillərdən biri oldu. İlk növbədə, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 4 qətnamə (822, 853, 874, 884) icra edilməli idi. 2021-ci il iyunun 26-da Prezident, Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşündə bildirdi ki, Azərbaycan Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olduğunu sübut etməli idi: "Nə üçün sübut etməli idik? Çünki Ermənistan, onun xaricdəki havadarları, erməni lobbisi vəziyyətlə bağlı tam təhrif edilmiş mənzərə ortaya qoyurdular. Əfsuslar olsun ki, ermənipərəst qüvvələr, Ermənistanın xaricdəki havadarları bu saxta reallığı gerçəyə çevirməyə çalışırdılar. Bizim isə imkanlarımız çox məhdud idi. Ona görə beynəlxalq müstəvidə real həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq, mötəbər beynəlxalq təşkilatların qərarlarını qəbul etdirmək bizim üçün başlıca vəzifə idi. Belə də oldu. Aparıcı beynəlxalq təşkilatlar – BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, hətta daim bizə qarşı ədalətsiz mövqe sərgiləyən Avropa Parlamenti, Avropa Şurası məcbur olub həqiqəti əks etdirən, bizim maraqlarımıza cavab verən qərar və qətnamələr qəbul etmişlər. Bu, məsələnin beynəlxalq tərəfi idi" [11].

## Azərbaycan Prezidenti tərəfindən Ermənistanın işğalçılıq siyasətinin dünyaya çatdırılması

Dövlət başçısı İlham Əliyev Qarabağ həqiqətlərinin dünyaya çatdırılması məsələsinə hər zaman diqqəti cəlb edərək hələ 2016-cı il iyunun 3-də Bakıda keçirilən Dünya Azərbaycanlılarının IV Qurultayındakı çıxışında demişdir ki, Azərbaycan dünya miqyasında çox etibarlı tərəfdaş, ləyaqətli ölkə kimi tanınır və Ermənistandan başqa heç bir ölkə ilə heç bir problemimiz yoxdur. Məlumdur ki, Ermənistanın diaspor təşkilatları artıq onilliklər ərzində formalaşıb və onlar dünyanın aparıcı media qurumlarına müxtəlif yollarla müdaxilə ediblər, eləcə də orada təmsil olunurlar.

Prezident İlham Əliyev bildirmişdir ki, bu istiqamətdə işimizi daha da təkmilləşdirməli, ilk növbədə, xarici media ilə iş aparılmalı, çalışmalıyıq ki, azərbaycanlı jurnalistlər təbəqəsi müxtəlif media orqanlarında təmsil olunsunlar: "Onlar öz Vətənini müdafiə edəcəklər. Onlar həqiqətləri çatdıracaqlar. Çünki XXI əsr informasiya əsridir. Bu gün informasiya müharibələri bir alət, bir silah kimi artıq mövcuddur". Dövlət başçısı diqqətə çatdırıb ki, Azərbaycan həqiqətlərini müxtəlif ölkələrə çatdırmaq üçün lazımi tədbirlərin görülməsi haqqında müzakirələr aparılmalı, proqram tərtib edilməlidir: "Əgər Azərbaycan dövləti bu işdə hər hansı bir formada öz dəstəyini verə bilərsə, biz buna hazırıq. Əsas odur ki, biz bunu planlı şəkildə icra edək. Bu, Azərbaycanın diaspor təşkilatları olan bütün ölkələrdə bəlkə də birinci məsələ olmalıdır. Azərbaycan həqiqətləri haqqında əlbəttə ki, dünya ictimaiyyətinə geniş informasiya verilməlidir. Biz dövlət olaraq bunu etməyə çalışırıq. Ancaq diaspor təşkilatlarından da çox şey asılıdır. Xüsusilə, biz bunu Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı informasiya təminatında görürük" [6]. Eyni zamanda, Prezident bildirdi ki, diaspor təşkilatları ilə səfirliklər arasında möhkəm əlaqələr olmalı və bu əlaqələr güclənməli, o cümlədən xarici ölkələrdə dövlət, hökumət, qanunvericilik orqanlarında Azərbaycan diaspor nümayəndələrinin sayı daha da çox olmalıdır.

Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı Ermənistan rəhbərliyi tərəfindən səsləndirilən əsassız fikirlər tarixi reallıqları, münaqişənin əsl mahiyyətini əks etdirmirdi. Bunu Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu il oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısında [12] və həmin il oktyabrın 11-də Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında [13], oktyabr ayının 25-26-da Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə görüşündə çıxışları zamanı tutarlı faktlarla sübut etdi [14]. 2020-ci il fevralın 15-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində isə Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı panel müzakirələr zamanı [15], eləcə də iyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində [16] Ermənistanın yürütdüyü faşist ideologiyası, Azərbaycana qarşı etnik təmizləmə, dövlət terrorizmi və işğalçılıq siyasətini ifşa edən Prezident İlham Əliyev Ermənistanın baş nazirinə beynəlxalq hüquqdan və tarixdən əsl dərs keçdi.

Mühüm beynəlxalq toplantılarda "Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir" fikrini bütün dünyaya bəyan edən Prezident İlham Əliyev dəfələrlə bildirdi ki, bizim mövqeyimiz həm tarixi ədalətə, eyni zamanda beynəlxalq hüquqa əsaslanır və heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına icazə verilməyəcək, işğal edilmiş bütün torpaqlar işğalçılardan azad olunmalı, Azərbaycan vətəndaşları öz doğma yurdlarına qayıtmalıdırlar.

Münhen Təhlükəsizlik Konfransı çərçivəsində diqqətə çatdırıldı ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları əsassızdır, tarixi faktların və beynəlxalq hüquq prinsiplərinin ermənisayaq təfsirindən başqa bir şey deyil. Bu baxımdan Azərbaycan Prezidenti

Ermənistanın Baş Nazirinin diqqətinə çatdırdı ki, erməni xalqı öz müqəddəratını artıq təyin edib, onların erməni dövləti var: "Mənim məsləhətim belə olacaq ki, onlar ikinci dəfə öz müqəddəratını təyin etmək üçün Yer kürəsində başqa yer tapsınlar, Azərbaycanda yox!" [15].

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan münaqişəsi həll olunmadan, yəni Ermənistan işğal olunmuş Azərbaycan torpaqlarından çıxmayınca, bölgədə heç bir müsbət irəliləyişin mümkün olmayacağını vurğulamaqla yanaşı, Azərbaycanın öz milli maraqları uğrunda sona qədər mübarizə aparacağını dünyaya bəyan etdi. Azərbaycan Prezidenti bildirmişdir ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi cinayətkarlardır və biz bu cinayətkarları cəzalandıracağıq: "Əgər beynəlxalq birlik Ermənistanı törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb etmək istəmirsə, – necə ki, Xocalı soyqırımına görə heç kim onları məsuliyyətə cəlb etməyib, – biz özümüz onları məsuliyyətə cəlb edəcəyik. Biz özümüz onların cəzasını verəcəyik, özümüz onları cəzalandıracağıq və bizim cəzamız ədalətli cəza olacaqdır. Onlar ən ağır cəzaya layiqdirlər" [17].

Nəticədə, Prezident İlham Əliyevin 2019-cu il oktyabrın 3-də "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısı kimi mühüm beynəlxalq platformada qətiyyətlə söylədiyi "Qarabağ Azərbaycandır və nida işarəsi" devizi bir ildən sonra, xüsusilə 44 gün ərzində reallığa çevrildi.

## Azərbaycanın hərbi-diplomatik uğurları

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın işğalı altında olan Azərbaycan torpaqlarını azad etmək üçün Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. 44 gün ərzində Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha 5 adsız yüksəklik azad olundu [18; 19].

2020-ci il noyabrın 8-i isə Azərbaycan tarixinə ən şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi [18; 19]. Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi Qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə, eləcə də taleyinə ciddi təsir göstərdi və hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarını şərtləndirdi.

Azərbaycan Vətən müharibəsinin 44 günü ərzində beynəlxalq hüquq prinsiplərini, xüsusilə BMT Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutub öz ərazilərini azad etmək hüququndan istifadə edərək uğurlu və genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirdi. Nəticədə, Azərbaycan dövləti oktyabrın 4-də Cəbrayıl şəhərinin, 17-də Füzuli şəhərinin, 20-də Zəngilan şəhərinin, 25-də Qubadlı şəhərinin işğalçılardan azad olunması ilə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 874 və 884 saylı qətnaməni özü icra etdi [18; 19].

Azərbaycanın hərbi-diplomatik qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsi nəticəsində noyabrın 20-də Ağdamın və 25-də isə Kəlbəcərin işğaldan azad edilməsi 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müvafiq maddəsinin yerinə yetirilməsini, eləcə də münaqişənin hərbi-siyasi həllini müəyyənləşdirdi [47].

Bununla yanaşı, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan, eləcə də işğalçı qüvvələrin Azərbaycan Respublikasının Kəlbəcər və Ağdam rayonlarından çıxmasını nəzərdə tutan 822 və 853 saylı qətnamələr də məhz Azərbaycanın şərtləri ilə icra edildi [27]. Bunun davamı olaraq üçtərəfli Bəyanatın müvafiq maddəsinə əsasən, Ermənistan silahlı qüvvələrinin 2020-ci il dekabrın 1-dən Laçın rayonundan çıxması Azərbaycanın hərbi-diplomatik uğurlarının nəticəsi kimi qiymətləndirilir.

2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycanın İkinci Qarabağ müharibəsində mühüm Qələbəsinə həsr olunmuş Zəfər paradı keçirildi [29].

### Azərbaycan Prezidentinin prinsipial mövqeyi və informasiya müharibəsində qazanılan uğurlar

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq, 30 ildən artıq işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirməklə yanaşı, düşmənin bu illər ərzində yaratdığı “yenilməzlik” mifologiyasına son qoydu. Bununla yanaşı, Prezident İlham Əliyevin xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələr 30 ildən artıqdır ki, davam edən Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları, hərbi təcavüzü, yürütdüyü işğalçılıq siyasəti, xüsusilə müharibə cinayətlərinin mahiyyətini açmaqla bunun bütün region üçün yaratdığı ciddi təhdidləri, davam edən hərbi əməliyyatlarla bağlı tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslanaraq tutarlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri, Azərbaycanın haqlı mövqeyinin konkret faktlarla dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadı. Həmçinin bu müsahibələr informasiya məkanında da düşmənin yalan üzərində qurulmuş təbliğat maşınına ağır zərbə vurdu və Ermənistanın təcavüzkar siyasətinin, eləcə də onun himayədarlarının ifşa olunması ilə nəticələndi.

Hərbi-diplomatik uğurlarla yanaşı, Azərbaycan Prezidentinin İkinci Qarabağ müharibəsi dövründə 30-a qədər xarici KİV təmsilçilərinə, xüsusilə Türkiyənin “TRT Haber”, “CNN Türk”, “Haber Global”, “Habertürk”, “NTV”, “A Haber” televiziya kanalları, Rusiyanın “Rossiya-1”, “Pervıy Kanal”, “RBK” televiziya kanalları, TASS, “İnterfax, “Ria Novosti” agentlikləri, Almaniyanın “ARD”, Böyük Britaniyanın “Sky News”, ABŞ-ın “Fox News”, İspaniyanın EFE televiziya kanallarının , İtaliyanın “Rai1” televiziya kanalı və “la Repubblica” qəzeti, Fransanın “France 24” televiziya kanalı və “Le Figaro” qəzeti, Yaponiyanın “Nikkei” qəzeti, o cümlədən nüfuzlu “Euronews”, “CNN”, “BBC News”, “Al Jazeera”, “Al Arabiya” televiziya kanallarının müxbirlərinə verdiyi müsahibələrdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, cəbhə zonasında son hərbi əməliyyatlarla bağlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri, bütün suallara konkret faktlarla cavabları Azərbaycanın haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna əhəmiyyət kəsb edir [10, s.253].

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 26-da mətbuat konfransında Dağlıq Qarabağın statusu məsələsinə də “nida” işarəsi qoyaraq bildirdi ki, Ermənistana və erməni xalqına yanlış vədlər vermək lazım deyil, onları bu günə salan səbəblərdən biri də məhz o idi, xülya idi, iddia idi, əsassız istəklər idi. Bu istəklərə rəvac verən bəzi xarici ölkələrin siyasətçiləri də erməni xalqının bu rəzil duruma salınmasında öz rolunu oynadılar: “Status haradadır, onu hər kəs bilir. Hesab edirəm ki, Ermənistan və erməni xalqı üçün bu məsələ nə qədər az dilə gətirilərsə, o qədər də yaxşı olar. Ona görə status məsələsi, ümumiyyətlə, gündəlikdən çıxmalıdır. Ona görə statusla bağlı

hesab edirəm ki, əgər kimsə bu gün bu məsələni qaldırırsa, sülhə yox, qarşıdurmaya daha çox xidmət göstərir” [30].

Hər zaman, xüsusilə, Münhen Təhlükəsizlik Konfransında bəyan etdiyi kimi Dağlıq Qarabağın Azərbaycanın əzəli torpağı olduğunu diqqətə çatdıran dövlət başçısı vurğuladı ki, faktiki olaraq, biz bu gün, ümumiyyətlə, Dağlıq Qarabağ ifadəsini də işlətməməliyik və Qarabağ aranlı-dağlı Azərbaycanın ayrılmaz hissəsidir.

Nəticədə, bu, informasiya müharibəsində də Azərbaycanın haqlı mövqelərini əhəmiyyətli dərəcədə gücləndirdi, uzun illər Ermənistanın yürütdüyü faşist ideologiyası, xalqımıza qarşı etnik təmizləmə, soyqırımı, dövlət terrorizmi və işğalçılıq siyasətinin, eləcə də erməni yalanlarının dünya miqyasında ifşası istiqamətində əhəmiyyətli rol oynadı, tarixi ədalətin Zəfər çalmasını şərtləndirdi.

Azərbaycanın hərb meydanında tarixi Qələbəsini yüksək dəyərləndirən dünyanın bir sıra hərbi-siyasi ekspertlərinin fikirlərini Ukraynanın “İnter” telekanalının müxbiri də təsdiq etdi: “Azərbaycanın işğal olunmuş rayonlarının azad edilməsi üçün xüsusi əməliyyat, mənim fikrimcə, həm hərbi texnologiyaların tətbiqi baxımından, ən başlıcası, dinc əhali və hərbçilər arasında tələfatın minimuma endirilməsi, həm də yeni hərbi texnologiyaların tətbiqi baxımından nümunəvi əməliyyat idi. Azərbaycan bütün dünyaya göstərdi ki, səngər müharibəsi artıq keçmişdə qalıb və mən əminəm ki, bu, bir çox hərbi məktəblərin dərsliklərinə daxil ediləcək” [30].

Bu baxımdan, bir sıra aparıcı beynəlxalq KİV-lərə müsahibələrində Prezident İlham Əliyevin prinsipial mövqeyi, səsləndirdiyi tutarlı dəlillər və əsaslı fikirlər Azərbaycanın bu haqlı mübarizəsinə dəstək verən bir sıra ölkələrin, nüfuzlu xadimlərin, beynəlxalq ekspert və siyasətçilərin sayını daha da artırıb, Ermənistanın təcavüzkar siyasətinin ifşa olunması prosesini genişləndirərək informasiya müharibəsində də tarixi ədalətin Zəfər çaldığını göstərdi.

Prezident İlham Əliyevin həm Vətən müharibəsinin gedişi dövründə, həm də 2021-ci il fevralın 26-da keçirilən geniş mətbuat konfransında tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslanan məntiqli fikirləri dünyanın aparıcı KİV-də yayılaraq Azərbaycan, xüsusilə Qarabağ həqiqətlərini tutarlı faktlarla bütün dünyaya çatdırdı.

Azərbaycan Prezidenti İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkının açılışında bildirmişdir ki, İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir, xalqımız bu müharibə ilə bağlı əbədi qürur hissi keçirəcək və biz müzəffər xalq kimi özümüzü dünyada təsdiq etmişik. Bu baxımdan qeyd etmək lazımdır ki, Azərbaycanın milli maraqlarını uca tutan, Prezident İlham Əliyevin prinsipial mövqeyi hərb, diplomatiya meydanında olduğu kimi, informasiya savaşında da uğurlarımızı şərtləndirirdi və tarixi Qələbəmizin əsasını qoydu. Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, biz döyüş meydanında, informasiya məkanında və siyasi müstəvidə də Qələbə qazandıq.

Azərbaycan Prezidenti diqqətə çatdırmışdır ki, əgər kimsə Ermənistanda revanş haqqında düşünürsə, o, bizim dəmir yumruğumuzu bir daha görəcək. Ona görə Ermənistan tam dərk etməlidir ki, biz istənilən hərbi vəzifəni icra edə bilərik və heç kim bizi dayandıra bilməz. Ermənistanda revanş haqqında düşünənlər Azərbaycanın dünyaya nümayiş etdirdiyi XXI əsrin müharibə nümunəsini unutmasınlar. Prezident İlham Əliyev birmənalı olaraq bildirib ki, Azərbaycanın işi haqq işidir və Qarabağ Azərbaycandır!

### Şuşanın işğaldan azad edilməsi Zəfər günü kimi tarixə yazıldı

Azərbaycan Prezidenti İlham Əliyev hələ 2020-ci il oktyabrın 16-da, 44 günlük İkinci Qarabağ müharibəsinin 20-ci günündə Türkiyənin “A Haber” televiziya kanalına müsahibəsində demişdi: “Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir, qədim mədəniyyət ocağıdır.

Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edibdir. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar. Ona görə təbii ki, Şuşanın işğaldan azad edilməsi bizim hədəflərimizin arasında xüsusi yer tutur. Biz buna çalışmalıyıq, biz buna nail olmalıyıq" [25].

Ümumiyyətlə, İkinci Qarabağ müharibəsinin taleyində həlledici gün məhz 2020-ci il noyabrın 8-i oldu. Şuşa şəhərinin işğalçılardan azad edilməsi müharibənin sonrakı gedişinə, eləcə də taleyinə ciddi təsir göstərdi və Azərbaycanın hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarını şərtləndirdi.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin prinsipial mövqeyi, səsləndirdiyi tutarlı dəlillər və əsaslı fikirlər döyüş meydanında Azərbaycan Ordusunun əldə etdiyi qələbələr diplomatiya meydanında da uğurlara çevrildi və Azərbaycanın İkinci Qarabağ müharibəsindəki hərbi-diplomatik Qələbəsini şərtləndirdi.

Azərbaycan Prezidenti İlham Əliyev hər zaman bildirib ki, Azərbaycanın mövqeyində hər hansı bir dəyişiklik yoxdur, ola da bilməz, çünki biz həm tarixi ədalətə, eyni zamanda, beynəlxalq hüquqa əsaslanırıq. "Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir" fikrini bütün dünyaya bəyan edən Prezident İlham Əliyev dəfələrlə bildirib ki, heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına icazə verilməyəcək, işğal edilmiş bütün torpaqlar işğalçılardan azad olunmalı, Azərbaycan vətəndaşları öz doğma yurdlarına qayıtmalıdırlar.

Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində demişdir: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!" [26].

Azərbaycan Prezidentinin dekabrın 3-də imzaladığı Sərəncama əsasən, noyabrın 8-i bayram günləri sırasına daxil edildi və hər il Azərbaycanda Zəfər Günü kimi təntənəli şəkildə qeyd ediləcək. Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Prezidentin Sərəncamında vurğulanır ki, Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi [28].

## Şuşa Bəyannaməsinin tarixi və siyasi əhəmiyyəti

2021-ci il iyunun 15-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Ermənistan işğalından azad edilən, Azərbaycanın mədəniyyət paytaxtı, Qarabağın tacı olan Şuşa şəhərinə səfər etməsi və iki dost, qardaş dövlət arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması mühüm tarixi hadisədir.

Müttəfiqlik münasibətləri haqqında Bəyannamənin əvvəlində Azərbaycanın və bütövlükdə Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində iki qardaş dövlətin prezidentlərinin görüşünün mühüm əhəmiyyəti vurğulanır, 100 il bundan əvvəl imzalanmış tarixi Qars müqaviləsinə istinad edilir. Həmçinin bu tarixi sənəddə 9 fevral 1994-cü il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"nin və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"un, eləcə də 16 avqust 2010-cu il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və

qarşılıqlı yardım haqqında Müqavilə"nin rəhbər tutulduğu bildirilir [31].

Bununla yanaşı, işğaldan azad edilmiş Şuşa şəhərində 100 ildən sonra imzalanan müttəfiqlik haqqında birgə Bəyannamədə iki qardaş və dost dövlətin gələcək çoxşaxəli, birgə fəaliyyət istiqamətləri göstərilir. Bu tarixi sənəddə bir çox mühüm məsələlər, beynəlxalq müstəvidə birgə əməkdaşlıq, xüsusilə müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri öz əksini tapmışdır. Tərəflər xarici siyasət sahəsində əlaqələndirmənin və müntəzəm ikitərəfli siyasi məsləhətləşmələrin həyata keçirilməsinin vacibliyini qeyd edərək bu istiqamətdə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində fəaliyyətlərin əhəmiyyətini vurğuladılar.

Sənəddə göstərilir ki, Azərbaycan Respublikası və Türkiyə Respublikası müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutaraq müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyən edirlər. Bununla yanaşı, sənəddə xarici siyasət sahəsində əlaqələndirmənin və müntəzəm ikitərəfli siyasi məsləhətləşmələrin həyata keçirilməsinin vacibliyi qeyd edilir və bu istiqamətdə iki dövlət arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində fəaliyyətlərin əhəmiyyəti vurğulanır [31].

Bununla yanaşı, bildirilir ki, hər iki dövlət müxtəlif ölkələrdə yaşayan Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha sıx inkişaf etdirilməsi, onların məruz qaldıqları ümumi problemlər qarşısında birlikdə addımlar atılması və ardıcıl həmrəylik göstərilməsi məqsədilə səylərini birləşdirəcəklər. Eyni zamanda, göstərilir ki, tərəflər ölkələrinin təqdim edilməsi və milli mənafelərinin qorunmasına dair tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında diasporal fəaliyyətin əlaqələndirilməsini və qarşılıqlı dəstəyi təşviq edəcəklər.

Sənəddə Ermənistanın Türkiyəyə qarşı əsassız iddialarının, tarixin təhrif olunması və tarixi faktların təhrif olunmaqla siyasiləşdirilməsi cəhdlərinin regionda sülhə və sabitliyə ziyan vurduğu vurğulanaraq, bu kontekstdə 1915-ci il hadisələri ilə bağlı olaraq öz arxivlərini açan Türkiyənin Ermənistandakı və digər ölkələrdəki arxivlərin açılması və bu mövzuda tarixçilər tərəfindən araşdırmaların aparılmasına yönəlmiş səyləri qətiyyətlə dəstəklənir [31]. Həmçinin Şuşa Bəyannaməsində siyasi, iqtisadi-ticarət, mədəniyyət və digər bütün sahələri əhatə edən birgə əməkdaşlıq məsələləri öz əksini tapmışdır. Sənəddə tarixi, siyasi, həm də hərbi və təhlükəsizlik sahələrində əlaqələndirilmiş şəkildə birgə fəaliyyətin əks olunması hər iki dövlətin milli maraqları baxımından müstəsna əhəmiyyət kəsb edir.

Şuşa Bəyannaməsinin imzalanmasından sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata birgə bəyanatlarla çıxışlarında bildirdilər ki, Türkiyə və Azərbaycan bütün məsələlərdə bir yerdədir, bundan sonra da bu, belə olacaqdır.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin "Rəsmi Qəzet"də dərc edilərək qüvvəyə minməsi haqqında qərarı imzaladı. Eyni zamanda, Bəyannamə 2022-ci il fevralın 3-də Türkiyə Böyük Millət Məclisi tərəfindən təsdiqləndi [32].

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 12-də "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanununu imzaladı [33].

Azərbaycanın 44 günlük Vətən müharibəsindən sonra dünyaya nümunə olan Azərbaycan-Türkiyə həmrəyliyi və strateji tərəfdaşlığı daha da yüksək səviyyəyə qalxdı, xüsusilə regional təhlükəsizlik baxımından müstəsna əhəmiyyət kəsb edən müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması mühüm hadisə kimi tarixə yazıldı.

### Şuşa Türk dünyasının ictimai fikir, milli-ideoloji düşüncə mərkəzinə çevrilir

Prezident İlham Əliyevin Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni-mənəvi dəyərini nəzərə alaraq, 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında imzaladığı Sərəncamda deyilir ki, bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır [34].

Bunun ardınca Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Prezident İlham Əliyevin 2021-ci il mayın 7-də imzaladığı Sərəncamda vurğulanır ki, şəhərin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, bu mühüm sənəddə göstərilir ki, tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir [35].

Bununla yanaşı, 2022-ci il martın 31-də Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının Türkiyənin Bursa şəhərində keçirilən iclasında Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" seçildi [36].

Qeyd etmək lazımdır ki, 2022-ci il aprelin 22-23-də dünyanın 65 ölkəsindən 400-dən çox soydaşımızı bir araya gətirən Dünya Azərbaycanlılarının Zəfər Qurultayının məhz Qarabağın tacı, mədəniyyət paytaxtı Şuşada keçirilməsi böyük rəmzi, həmçinin siyasi məna daşıyır. Qeyd etmək lazımdır ki, Zəfər Qurultayında 230-a yaxın xarici ölkə vətəndaşı olan azərbaycanlı, o cümlədən 36 alim və 36 iş adamı iştirak etmişdir [37].

Bununla yanaşı, Şuşada keçirilən tədbirlər ermənilərin işğal vaxtı törətdikləri vandalizm aktları, xüsusilə tarixi memarlıq abidələrimizin vəhşicəsinə dağıdılması, eləcə də işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri ilə beynəlxalq ictimaiyyətin daha yaxından tanış olması baxımından mühüm əhəmiyyət kəsb edir.

Artıq işğaldan azad edilmiş Şuşa şəhərində keçirilən mühüm tədbirlər – hər il keçirilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, Vaqif Poeziya Günləri, müxtəlif beynəlxalq toplantılar, xüsusilə, üç mühüm Şuşa Qlobal Media Forumu və digər tədbirlər dünya ictimaiyyəti tərəfindən də böyük maraqla izlənilmişdir.

Bu baxımdan işğaldan azad ediləndən sonra Şuşada keçirilən mühüm tədbirlər bir daha onu təsdiq edir ki, Şuşa Azərbaycanın və Türk dünyasının mədəniyyət paytaxtı olmaqla yanaşı, həmçinin ictimai fikir və milli-ideoloji mərkəzinə çevrilməkdədir.

### Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və tarixi ədalətin bərpası

2023-cü il sentyabrın 19-20-də Azərbaycan apardığı lokal antiterror tədbirləri nəticəsində həm ərazi bütövlüyünü, həm də suverenliyini bərpa edərək Cənubi Qafqaz regionunda sülhün bərqərar olması üçün əsaslı zəmin yaratdı. 2023-cü il oktyabrın 15-i daha bir şərəfli gün kimi tarixə düşdü. Ali Baş Komandan, Prezident İlham Əliyev Ağdərədə, Xocalıda, Əsgəranda, Xocavənddə və Xankəndidə Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı [38].

Ali Baş Komandan, Prezident İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldarkən çıxışında demişdir: "Azərbaycan torpağında heç bir tarixi, coğrafi və siyasi əsası olmayan Dağlıq Qarabağ Muxtar Vilayəti də 100 il bundan əvvəl – 1923-cü ildə yaradılmışdır. Bu, 100 ilin tarixidir. Görün, bu 100 il ərzində xalqımız nə qədər əzab çəkib, tarix bizi nə

qədər sınağa çəkib. Əyilmədik, sınmadıq, o boyda böyük faciə ilə təkbaşına üz-üzə qalmışdıq, heç kim bizim yanımızda durmadı. Torpaqlarımız işğal altına düşəndə heç bir ölkə arxamızda dayanmadı, heç mənəvi dəstək də göstərmədilər. Bütün əsas güclər Ermənistanın arxasında idi və bugünkü tarix onu bir daha göstərir" (38).

Qeyd etmək lazımdır ki, Azərbaycan dövləti İkinci Qarabağ müharibəsindən sonra əzəli torpaqlarını işğaldan azad etməklə yanaşı, 100 il əvvəl – 1923-cü ildə Qarabağda məqsədli şəkildə pozulmuş inzibati-ərazi bölgüsünü də yenidən təmin etdi. Azərbaycan Prezidentinin 2021-ci il iyulun 7-də imzaladığı Fərman əsasən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması ilə tarixi ədalət bərpa edilmiş oldu [39].

Nəticədə İkinci Qarabağ müharibəsi son yüz ildə şərəf və qəhrəmanlıq salnaməsi kimi Azərbaycan tarixinə yazıldı. Bu gün üçrəngli müqəddəs bayrağımız Azərbaycanın bütün işğaldan azad edilmiş ərazilərində – Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Laçında, Ağdamda, Şuşada, Xocavənddə, Hadrutda, Ağdərədə, Xocalıda və Xankəndidə qürurla dalğalanır.

Bununla yanaşı, 1919-cu ildən 104 il sonra - 2023-cü il noyabrın 8-də Xankəndi şəhərində keçirilən və Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad Azərbaycanın hərb tarixinə də şərəfli bir gün kimi yazıldı. Əziz şəhidlərimizin xatirəsinin bizim qəlbimizdə əbədi yaşayacağını və bütün dünyaya Azərbaycan xalqının gücünü, iradəsini, əyilməz ruhunu göstərdiyimizi vurğulayan Prezident, Ali Baş Komandan İlham Əliyev hərbi paradda çıxışı zamanı demişdir: "XXI əsrdə heç bir ordu bizim qədər peşəkarlıq, fədakarlıq göstərməmişdir. Heç bir xalq öz doğma torpağını bu qədər əziz tutub uğrunda ölümə getməyə hazır olmamışdır. Bunu biz hamımız yaxşı bilirik, bunu dünya da bilsin" [40].

Azərbaycan Prezidenti İlham Əliyev 2024-cü il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi başladığımızı xüsusi qeyd etdi və müasir tariximizin yeni dövrünün də məhz sentyabrın 20-dən (2023-cü il – E.Ə.) sonra başladığını diqqətə çatdıraraq vurğuladı ki, istər siyasi müstəvidə, istər hərbi müstəvidə, istər ölkəmizdə gedən proseslər nöqteyi-nəzərindən bu hadisə bütün işlərimizin, elə bil ki, son nidası idi [41].

Azərbaycan Prezidenti İlham Əliyevin 2024-cü il sentyabrın 18-də imzaladığı Sərəncama əsasən, hər il sentyabrın 20-də Xankəndi, Xocalı, Xocavənd və Ağdərə günü təntənəli şəkildə qeyd edilir. Bu mühüm və əlamətdar günün təsis olunması Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni silahlı dəstələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması ilə bağlıdır. Nəticədə, bu gün Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərlərinin erməni sepratçılarından təmizlənməsindən və tarixi ədalətin bərpasından artıq iki il keçir.

Azərbaycan Prezidenti İlham Əliyevin 2024-cü il sentyabrın 19-da Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında imzaladığı Sərəncamda vurğulanır ki, cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir: "Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir" [42].

### Prezident İlham Əliyevin milli maraqlara əsaslanan tarixi yaddaş siyasəti

Azərbaycan Prezidenti İlham Əliyev tarixi həqiqətlərin olduğu kimi dünyaya çatdırılmasının zəruri olduğunu hər zaman vurğulamışdır. Bu baxımdan, Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağında çıxışı zamanı bildirmişdir ki, Qarabağ və Şərqi Zəngəzur haqqında danışdıqda Azərbaycan tarixi haqqında da danışmalıyıq: "Bizim zəngin tariximiz əfsuslar olsun ki, Ermənistan tərəfindən, erməni diasporu tərəfindən uzun illər ərzində təhrif edilmişdir və bu istiqamətdə bizə qarşı aparılan təbliğat bu gün də dayanmır. Ona görə bunun qabağına biz öz həqiqətlərimizi qoymalıyıq. Bu barədə mən 10 il bundan əvvəl Akademiyanın 70 illiyində danışmışam. Bu gün də bu barədə danışmaq istəyirəm ki, biz öz tariximizi tədqiq və təbliğ etməliyik. Azərbaycan vətəndaşları, Azərbaycan gəncləri bizim zəngin tariximizi bilməlidirlər. Bilməlidirlər ki, Azərbaycan xalqının tarixi, dövlətçilik tariximiz, xalqımızın qurub-yaratma qabiliyyəti çoxəsrlidir. Azərbaycan xalqı böyük coğrafiyada yaşayıb və yaşayır" [43].

Prezident İlham Əliyev Qərbi Azərbaycan məsələsini bir daha diqqətə çatdıraraq vurğulayaraq qeyd etmişdir: "Təkcə XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir hər kəs görsün ki, indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. O xəritələrdə Sevan gölü adlı göl yoxdur. O xəritələrdə Göyçə gölüdür və bütün digər bizim istifadə etdiyimiz tarixi toponimlərimiz orada öz əksini tapıb. O xəritələri biz tərtib etməmişik ki, kimsə desin biz burada saxtakarlıq eləyirik. Bunu çar Rusiyası edib. Həmin o çar Rusiyası ki, vaxtilə erməniləri İrandan və Şərqi Anadoludan gətirərək bizim Qarabağ torpağında yerləşdirib ki, burada etnik və dini tərkib dəyişsin. Yəni, bu xəritələr tamamilə tarixi həqiqətə əsaslanan xəritələrdir. Ona görə biz bunu təbliğ etməliyik, tədqiq etməliyik. Daha çox elmi əsərlər, daha çox hətta kiçikhəcmli bukletlər hazırlanmalıdır ki, həm Azərbaycan gəncləri öz tarixini yaxından bilsinlər, həm dünya ictimaiyyəti bilsin və eyni zamanda, indiki Ermənistana bizim qayıdışımız da tamamilə məntiqli və ədalətli səslənsin. Ona görə Azərbaycan tarixi ilə bağlı bax, bu istiqamətdə əlbəttə ki, əlavə addımlara ehtiyac var. Bütövlükdə müstəqil Azərbaycan dövlətinin tarixi ilə bağlı sanballı elmi əsərlərə də böyük ehtiyac var. Artıq 30 ildən çoxdur ki, biz müstəqil dövlət kimi yaşayırıq və Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixində Azərbaycan bugünkü qədər güclü olmamışdır. Ona görə müstəqil Azərbaycanın tarixini tədqiq edən, təbliğ edən bir çox əsərlərə ehtiyac var" [43].

Bununla yanaşı, qeyd etmək lazımdır ki, Azərbaycan Prezidenti İlham Əliyev 2025-ci il dekabrın 24-də Ağdamda 2-ci yaşayış kompleksinin açılışında tarixi yaddaş məsələsinə xüsusi diqqət yetirərək bildirmişdir: "Ancaq biz işğalı necə unuda bilərik?! Şəhidlərimizi necə unuda bilərik?! Xocalı qurbanlarını, digər günahsız insanların həlak olmasını necə unuda bilərik?! Heç vaxt unuda bilmərik və unutmamalıyıq. Çünki bu tarixi yaddaş həmişə bizim qəlbimizdə olmalıdır. Şəhidlərin əziz xatirəsi həmişə qəlbimizdə yaşamalıdır və heç vaxt şirin sözlərə uymamalıyıq. Bax, bunu mən bir də deyirəm. Mən bunu birinci dəfə deyil ki, deyirəm. Ayıq olmalıyıq, daim güclü olmalıyıq. Ona görə biz son 5 ildə ordu potensialımızı böyük dərəcədə gücləndirmişik və keçən ay hərbi paradda bütün dünya bunun bir hissəsini görə bildi. Əbədi sülhə nail olmaq üçün biz hər zaman potensial düşmənlərimizdən bir neçə dəfə güclü olmalıyıq. Bunu təmin edirik və edəcəyik" [44].

Otuz ilə yaxın müddətdə Ermənistanın işğalı altında olan torpaqlarımızı azad etmək üçün Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də Qarabağda başlatdığı genişmiqyaslı və uğurlu əks-hücum

əməliyyatlarının başlanmasından bu gün 5 ildən artıq zaman keçir.

Hazırda Azərbaycan Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi çətin və mürəkkəb geosiyasi şəraitdə müstəqil və milli maraqlara əsaslanan xarici siyasət həyata keçirir. Azərbaycan Prezidenti İlham Əliyev 2025-ci il dekabrın 24-də Ağdamda 2-ci yaşayış kompleksinin açılışında xüsusi vurğulayaraq bildirdi ki, Ermənistana olan hansı dəstəyin fonunda İkinci Qarabağ müharibəsində Qələbə qazandığımızı, ərazi bütövlüyü və suverenliyimizin əldə edilməsi məsələləri çox mühüm hadisə kimi ictimaiyyətə, gənc nəslə düzgün çatdırılmalıdır, həm də bizim təhsil müəssisələrimizdə, ictimai məkanda dəqiq təqdim edilməlidir, yəni bu unudulmamalıdır və biz də heç vaxt unutmamalıyıq: "Pulsuz silah, maliyyə yardımı. Hər il Amerikada, Fransada marafonlar keçirilirdi. Separatçılar, separatçı liderlər, – hansılar ki, bu gün Bakıda məhkəmə qarşısında cavab verirlər, – oraya vizalar alırdılar. Necə ola bilər? Minsk qrupunun həmsədr ölkələrinə separatçılar necə gedə bilərdilər? Axı digər separatçı ərazilər də var. Onlara Amerikaya, yaxud da ki, Fransaya kimsə viza verə bilər? Gedin, baxın, bu gün nə qədər separatçı inzibati ərazi var?! Ukrayna ərazisində, Moldova ərazisində, Gürcüstan ərazisində separatçı yuvalar var. Onların rəhbərlərinə Amerika, Fransa, Avropa ölkələri viza verə bilər? Yox. Amma erməni separatçılarına niyə vizalar verilirdi? Yəni dediyim sözün bir təsdiqi də budur. Onlar telemarafonlar keçirirdi, 100 milyonlarla dollar pul yığırdılar. Onlara gizli mənbələrdən də pul ötürülürdü, bir məqsədlə ki, bu torpaqları əbədi işğal altında saxlasın, Azərbaycan xalqına divan tutsun, bu şəhər və kəndləri daim nəzarət altında saxlasın. Bax, görün biz kimlərlə kəllə-kəllə getmişik" [44].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci il dekabrın 31-də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində diqqətə çatdırdı ki, bugünkü dünyada hər bir ölkə ilk növbədə öz təhlükəsizliyi haqqında ciddi düşünməlidir. Bugünkü dünyada beynəlxalq hüquq normaları işləmir, "Kim güclüdür, o da haqlıdır" prinsipi əsas prinsip kimi bir çox ölkələr tərəfindən qəbul edilib. Bütün dünyada genişmiqyaslı silahlanma prosesi gedir. Belə olan halda, biz hər an öz ərazi bütövlüyümüzü, suverenliyimizi, öz seçimimizi layiqincə müdafiə etmək üçün hazır olmalıyıq. Vətən müharibəsi dövründə hərbçilərimizin peşəkarlığı, qəhrəmanlığı, fədakarlığı, xalqımızın yumruq kimi birləşməsi bizim Qələbəmizi şərtləndirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaqdır [45].

Azərbaycan dövləti və xalqı ölkəmizin ərazi bütövlüyü və suverenliyinin təmin edilməsi uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsini hər zaman ehtiramla anır və onları heç vaxt unutmayacaq! Ərazi bütövlüyümüzün bərpası ilə nəticələnən İkinci Qarabağ müharibəsi Azərbaycan tarixinə Zəfərə gedən yolda şərəf və qəhrəmanlıq salnaməsi kimi həkk oldu. Bütün qeyd edilən faktlara və təhlilə əsaslanaraq əminliklə söyləmək olar ki, Azərbaycanın müasir tarixinin yeni və şərəfli dövrü yazılır.

**Ədəbiyyat:**


1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I-XXXXVI kitablar. Bakı, 1997-2013-cü illər. Elektron külliyat. – https://heydaraliyev.preslib.az/musteq.html
2. Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır /tərtibçi - Şükürov İ/. Bakı: 1994. 175 s.
3. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi - etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fərmanı – Bakı şəhəri, 18 dekabr 1997-ci il. – https://e-qanun.az/framework/4099
4. Azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fərmanı. – Bakı şəhəri, 26 mart 1998-ci il. – https://e-qanun.az/framework/4684
5. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi münasibəti ilə Bəyanatı. – "Azərbaycan" qəz., 25 oktyabr 2011.
6. Azərbaycan Prezidenti İlham Əliyevin Bakıda Dünya Azərbaycanlılarının IV Qurultayının rəsmi açılış mərasimimdə çıxışı. – 03.06.2016. – https://president.az/az/articles/view/20167
7. Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü. – 15.10.2019. – https://president.az/az/articles/view/34442
8. Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü. – 25.10.2019. – https://president.az/az/articles/view/34578
9. Azərbaycan Prezidenti İlham Əliyev Davos Dünya İqtisadi Forumunun "Strateji baxış: Avrasiya" mövzusunda panel iclasında iştirakı. – 22.01.2020. – https://president.az/az/articles/view/35647
10. Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru (27 sentyabr – 10 noyabr 2020-ci il). Bakı, 2021, 444 s.
11. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşü. – 26.06.2021. - https://president.az/az/articles/view/52331
12. Azərbaycan Prezidenti İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında çıxışı. – 03.10.2019. – https://president.az/az/articles/view/34346
13. Azərbaycan Prezidenti İlham Əliyevin Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında çıxışı. – 11.10.2019. – https://president.az/az/articles/view/34410
14. Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü. – 25.10.2019. - https://president.az/az/articles/view/34578
15. Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr. – 16.02.2020. https://president.az/az/articles/view/3581 3/videos
16. Azərbaycan Prezidenti İlham Əliyevin Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında Sammitində çıxışı. – 19.06.2020. – https://president.az/az/articles/view/39235
17. Azərbaycanın diplomatik, hərbi uğurları və böyük güclərin erməniпərəst siyasəti. – 24.10.2020. - https://azertag.az/xeber/1622977
18. 2020-ci il sentyabrın 27-dən Azərbaycanın işğal olunmuş ərazilərində aparılan əks-hücum əməliyyatları ilə bağlı mühüm hadisələrin xronikası. – https://files.preslib.az/site/qarabag/xronika _az.pdf.
19. İşğaldan azad edilmiş şəhər və kəndlərimiz. - 01.12.2020. - https://azertag.az/xeber/ –1622227.

20. Əhmədov E. Azərbaycanın xarici siyasəti: beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətlər. –Bakı: Letterpress, 2013. – 452 s.
21. Məmmədov H. (Babaoğlu). Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu. –Bakı: Aypara-3, 2009. –328 s.
22. Məmmədov H. (Babaoğlu). Xarici siyasət. –Bakı: Bakı Universiteti, 2019. – 324 s.
23. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003) 2 hissədə; I hissə. – Bakı: Mütərcim, 2015. – 648 s.
24. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti: 1991-2003: 2 hissədə. II hissə. Bakı, 2015, 664 s.
25. Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsi. – 20.10.2020. – https://president.az/az/articles/view/43250/videos/2
26. Azərbaycan Prezidenti İlham Əliyevin xalqa müraciəti. – 08.11.2020. – https://president.az/az/articles/view/45756
27. Azərbaycan hərbi-diplomatik uğurları ilə BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinin icrasını da təmin etdi. – 26.11.2020. - https://azertag.az/xeber/ -1651629
28. Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. – 03.12.2020. – https://president.az/az/articles/view/48455
29. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında iştirakı. – 10.12.2020. – https://president.az/az/articles/view/48788
30. Azərbaycan Prezidenti, İlham Əliyevin yerli və xarici media nümayəndələri üçün mətbuat konfransı – 26.02.2021. - https://president.az/az/articles/view/50738
31. Azərbaycan ilə Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması. – 15.06.2021. - https://president.az/az/articles/view/52115
32. Türkiyə Böyük Millət Məclisi Şuşa Bəyannaməsini təsdiqləyib. – 04.02.2022. – https://azertag.az/xeber/turkiye_boyuk_millet_meclisi_susa_beyannamesini_tesdiqleyib-2000156
33. "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. – 12.02.2022. https://president.az/az/articles/view/55430
34. Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. – 05.01.2022. – https://president.az/az/articles/view/55197
35. Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. – 05.01.2022. – https://president.az/az/articles/view/55197
36. Şuşa şəhəri "Türk dünyasının mədəniyyət paytaxtı" seçilib. – 31.03.2022. – https://azertag.az/xeber/susa_seheri_turk_dunyasinin_medeniyyet_paytaxti_sechilib-2072408
37. Prezident İlham Əliyevin Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayında nitqi. – 22.04.2022. – https://president.az/az/articles/view/55859
38. Prezident İlham Əliyev Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb və çıxış edib. – 15.10.2023. – https://president.az/az/articles/view/61587
39. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. – 07.07.2021. – https://president.az/az/articles/view/52389
40. Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad keçirilib. – 08.11.2023. – https://president.az/az/articles/view/62139
41. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da yerli

televiziya kanallarına müsahibəsi. – 10.01.2024. – https://president.az/az/articles/view/63017
42. Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. – 19.09.2024. - https://president.az/az/articles/view/66855
43. Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağında Prezident İlham Əliyev çıxışı – 03.11.2025. – https://president.az/az/articles/view/70464
44. Prezident İlham Əliyev Ağdamda 2-ci yaşayış kompleksinin açılışında iştirak edib və buraya köçən sakinlərlə görüşüb. - 24.12.2025. – https://president.az/az/articles/view/70966
45. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciəti. – 31.12.2025. – https://president.az/az/articles/view/71201
46. BRUSSELS SUMMIT DECLARATION Issued by the Heads of State and Government participating in the meeting of the North Atlantic Council in Brussels 11-12 July 2018. – https://www.mfa.gov.az/files/documents-of-international-organizations-on-the-armenia-azerbaijan-conflict.pdf
47. Statement by the President of the Republic of Azerbaijan, Prime Minister of the Republic of Armenia and President of the Russian Federation. – 10 november 2020.- https://en.president.az/articles/45923

***Açar sozlər:*** *Azərbaycan Respublikası, xarici siyasət, Qarabağ, hərbi-diplomatik uğurlar, informasiya müharibəsi, Şuşa, mədəniyyət paytaxtı, Şuşa Bəyannaməsi, ərazi bütövlüyü və suverenlik*

**Elchin Ahmadov**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Head of the "Karabakh Heritage Research Center", Department of International Relations and Foreign Policy, Professor, Doctor of Political Sciences*

# AZERBAIJAN'S FOREIGN POLICY: POLITICAL-DIPLOMATIC SUCCESS AND FULL RESTORATION OF STATE SOVEREIGNTY

## ABSTRACT

This article examines Azerbaijan's foreign policy based on national interests and the process of the full restoration of its territorial integrity and state sovereignty. It analyzes the foreign policy strategy of the National Leader Heydar Aliyev and explores the main directions of the modern foreign policy course implemented by the President of Azerbaijan, Ilham Aliyev, since 2003. In addition, the military, political, and legal factors that led to the Second Karabakh War are investigated.

Simultaneously, the large-scale and successful counter-offensive operations conducted by the brave Azerbaijani Army in Karabakh to liberate the Azerbaijani lands occupied by Armenia under the leadership of President, Supreme Commander-in-Chief Ilham Aliyev are analyzed.

It is noted in the article that the decisive and principled position of President Ilham Aliyev conditioned Azerbaijan's success in the field of diplomacy, as well as in the military field. Also, along with Azerbaijan's military and diplomatic victories, important achievements in the information space are also analyzed separately.

In particular, the article assesses the liberation of Shusha as a result of the military-diplomatic success of Azerbaijan, which had a decisive influence on the subsequent outcome and fate of the war. In addition, the historical and military-strategic significance of Shusha, the cultural capital of Azerbaijan is explained. On September 19-20, 2023, the historical and political significance of the restoration of territorial integrity and sovereignty of Azerbaijan as a result of local military operations is studied particularly.

***Keywords:*** *the Republic of Azerbaijan, foreign policy, Karabakh, military-diplomatic success, information warfare, Shusha, cultural capital, Shusha Declaration, territorial integrity and sovereignty*

**Эльчин Ахмедов**

*Руководитель “Центра исследований карабахского наследия” Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор политических наук, профессор кафедры Международных отношений и внешней политики*

## ВНЕШНЯЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНА: ПОЛИТИКО-ДИПЛОМАТИЧЕСКИЕ УСПЕХИ И ПОЛНОЕ ВОССТАНОВЛЕНИЕ ГОСУДАРСТВЕННОГО СУВЕРЕНИТЕТА

### РЕЗЮМЕ

В статье подробно рассматривается процесс формирования внешней политики Азербайджанской Республики, основанной на национальных интересах, территориальной целостности и полном восстановлении государственного суверенитета. Сначала анализируется и изучается внешнеполитическая стратегия Общенационального лидера Гейдара Алиева. Наряду с этим исследуются основные направления современного внешнеполитического курса, проводимого Президентом Азербайджана Ильхамом Алиевым на основе национальных интересов с 2003 года, в статье раскрываются военно-политические и правовые факторы, приведшие ко Второй Карабахской войне.

В то же время анализируются широкомасштабные и успешные контрнаступательные операции, начатые под руководством Президента, Верховного главнокомандующего Ильхама Алиева доблестной Азербайджанской армией в Карабахе по освобождению оккупированных Арменией азербайджанских земель. Отмечается, что решительная и принципиальная позиция Президента Ильхама Алиева обусловила успехи Азербайджана как в военной сфере, так и на дипломатической площадке. Наряду с военной и дипломатической победами Азербайджана, также отдельно анализируются важные достижения в информационном пространстве. В частности, освобождение города Шуша расценивается как результат военно-дипломатического успеха Азербайджана, оказав решающее влияние на дальнейший ход и судьбу войны, раскрывается историческое и военно-стратегическое значение Шуши – культурной столицы Азербайджана. Отдельно рассматривается историческое и политическое значение восстановления территориальной целостности и суверенитета Азербайджана в результате локальных военных действий 19-20 сентября 2023 года.

***Ключевые слова:*** *Азербайджанская Республика, внешняя политика, Карабах, военно-дипломатический успех, информационная война, Шуша, культурная столица, Шушинская декларация, территориальная целостность и суверенитет*

DOI: https://doi.org/10.30546/2309-1347.92.2025.308

R Ə Q Ə M S A L   D Ö V L Ə T   İ D A R Ə Ç İ L İ Y İ
D I G I T A L   P U B L I C   A D M I N I S T R A T I O N

UOT 354

**ELVİN ƏZİZBƏYOV**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının İntellektual sistemlərin idarə olunması kafedrasının professoru, riyaziyyat elmləri doktoru**

*e-mail: eazizbayov@dia.edu.az*

**GÜLNAR MİRZƏYEVA**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının İntellektual sistemlərin idarə olunması kafedrasının dosenti, mexanika üzrə fəlsəfə doktoru**

*e-mail: gulnar.mirzayeva@gmail.com*

**NƏRMİN ALLAHYAROVA**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının İntellektual sistemlərin idarə olunması kafedrasının müəllimi**

*e-mail: narmin.allakhyarova@gmail.com*

# DÖVLƏT İDARƏÇİLİYİNİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASINDA MAŞIN ÖYRƏNMƏSİNİN ROLU

## 1. Giriş

Maşın öyrənməsi (ML) alqoritmləri böyük həcmli məlumatları təhlil edərək öyrənir, həmin məlumatlardan qanunauyğunluqlar çıxarır və əldə olunan bilikləri yeni məlumatlara tətbiq edir [10]. Bu yolla, müxtəlif problemləri təsnifat və reqressiyadan tutmuş qruplaşdırmaya qədər həll edə bilir. Bu gün ML alqoritmləri kreditlərin verilməsi, onlayn məhsul tövsiyələri və sosial şəbəkələrdə dost təklifləri kimi məsələlərin əsasını təşkil edir [1]. Böyük verilənlərdən (Big Data) [29] və strukturlaşdırılmamış məlumatlardan(məsələn, mətn, şəkil, video və s.) informasiya çıxarma qabiliyyəti ilə ML məlumatın dəyərini üzə çıxarmaq, vətəndaş suallarına cavab (Chatbot) xidmətlərini yaxşılaşdırmaq, qərarların proqnozlaşdırılması imkanlarını gücləndirmək və bununla da innovativ dövlət xidmətlərini stimullaşdırmaq üçün faydalı ola bilər [2].

Rəqəmsallaşmanın sürətlə inkişaf etdiyi müasir dövrdə Azərbaycan Respublikasında dövlət idarəçiliyinin səmərəliliyini artırmaq üçün yeni texnologiyaların tətbiqi zərurətə çevrilmişdir. Bu texnologiyalardan biri də maşın öyrənməsidir. ML dövlət strukturlarının qərarvermə prosesini dəstəkləmək, ictimai

xidmətlərin keyfiyyətini yüksəltmək və idarəetməni şəffaflaşdırmaq potensialına malikdir.

2025-ci il martın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkədə süni intellekt (Sİ) texnologiyalarının inkişafı, tətbiqi və idarə olunması sahəsində dövlət siyasətinin yeni mərhələsini müəyyən edən mühüm sənədi – "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası"nı təsdiq etmişdir [3]. Bu isə Azərbaycan Respublikası üçün Yeni Dövrün Başlanğıcı sayılır. Sənədin əsas məqsədləri aşağıdakılardır:

- Azərbaycanda süni intellektin inkişafını sürətləndirmək;
- Sİ sahəsində elmi-tədqiqat işlərini stimullaşdırmaq;
- Süni intellekt texnologiyalarının idarə edilməsi mexanizmlərini təkmilləşdirmək;
- Rəqəmsal və hesablama infrastrukturunun əlçatanlığını artırmaq;
- Sİ üzrə yüksək ixtisaslı kadr potensialını genişləndirmək.

Bu sənəd milli innovasiya ekosisteminin genişləndirilməsi, rəqəmsal iqtisadiyyatın gücləndirilməsi və insan kapitalının inkişaf etdirilməsi baxımından strateji əhəmiyyət daşıyır.

Müasir çağırışların fonunda süni intellekt texnologiyalarının dövlət idarəçiliyində, iqtisadiyyatın müxtəlif sahələrində, təhlükəsizlik və sosial rifah sahələrində tətbiqi artıq bir zərurətə çevrilib. Sərəncam məhz bu ehtiyacdan irəli gələrək ölkənin texnoloji gələcəyinin konturlarını müəyyənləşdirir.

Bir çox tədqiqatçı dövlət sektorunda maşın öyrənmənin hələ başlanğıc mərhələsində olduğunu və bu sahədə tədqiqatların azlığını qeyd edir [1, 2]. Süni intellektlə bağlı aparılan tədqiqatların əksəriyyəti texniki məsələlərə və ya özəl sektor istifadəsinə yönəlmişdir. Təhlil edilən 1700 məqalənin yalnız 3.5%-i süni intellektin dövlət sektorunda istifadəsi təhlil edilmişdir [1].

Zuidermik və digərləri [1] bu bilik boşluğunu izah etmək üçün üç səbəb göstərmişlər: dövlət sektorunda süni intellekt üzrə texniki biliklərin özəl sektora nisbətən daha az olması; süni intellektin tətbiqi ilə müqayisədə onun idarəedilməsi ilə bağlı liderlik inkişafının zəif olması; və dövlət idarəçiliyindəki problemlərə texnoloji məsələlərlə müqayisədə daha az diqqət yetirilməsi.

Qeyd olunan məlumat boşluqlarınıı nəzərə alaraq, məqalə dövlət sektorunda alqoritmik sistemlərin istifadəsi sahəsində imkanlar, problemlər və gələcək istiqamətlərə dair müzakirəyə fokuslanır. Məqsəd ML-nin dövlət siyasətində niyə istifadə olunmalı olduğunu və onun siyasətçilər üçün hansı çağırışları doğurduğunu izah etmək, həmçinin bu texnologiyanın hökumət tərəfindən istifadəsinin yaxşılaşdırılması üçün müzakirəyə təkan verməkdir [4].

## 2. Dövlət idarəçiliyində ML-in üstünlükləri

- Məlumat əsasında qərarvermə – Böyük həcmli verilənlərin təhlili vasitəsilə dövlət orqanları daha obyektiv və elmi əsaslı qərarlar qəbul edə bilirlər;
- Resursların optimallaşdırılması – ML öyrənməsi resursların bölgüsünü daha səmərəli aparmağa imkan yaradır, beləliklə, büdcə və vaxt itkisini minimuma endirir;
- Proqnozlaşdırma imkanları – Sosial-iqtisadi proseslərin inkişafını əvvəlcədən proqnozlaşdırmaq, riskləri müəyyənləşdirmək və qabaqlayıcı tədbirlər görmək mümkün olur;
- Şəffaflıq və hesabatlılıq – Alqoritmik idarəetmə mexanizmləri korrupsiyanın azaldılmasına və ictimai nəzarətin güclənməsinə şərait yaradır;
- Xidmətlərin fərdiləşdirilməsi – Vətəndaşların ehtiyaclarına uyğun xidmətlərin göstərilməsi daha real hala gəlir.

Məqalədə aşağıda qeyd olunmuş mövzular araşdırılmış və öyrənilmişdir:

- Əvvəlcə ML-in dövlət siyasətində istifadəsinin konkret faydaları müəyyən edilir;
- Daha sonra bu texnologiyanın tətbiqindən doğan mümkün zərərlər və çətinliklər araşdırılır;
- Sonda isə onun potensialını maksimum dərəcədə artırmaq və təhlükələrini aradan qaldırmaq üçün siyasət tövsiyələri və tədqiqat istiqamətləri təklif olunur.

## 3. Dövlət siyasətində ML-in istifadəsi

ML-in dövlət sahəsindəki potensialı bu sahədə geniş məlumat mövcudluğu və siyasətlərin proqnozlaşdırılması ehtiyacına əsaslanır. ML artıq tibbi diaqnozdan ipoteka kreditlərinin verilməsinə, vergi yayınmalarının və terror fəaliyyətlərinin müəyyən edilməsinə qədər bir çox qərar qəbuletmə vəziyyətlərində effektivlik və dəqiqliyi artırmaq potensialını sübut etmişdir [5, 6, 7, 8].

ML anlayışı, təbii dilin emalı, məlumatların çıxarılması, şəkil emalı və proqnostik analitika kimi sahələri əhatə edən geniş alqoritmləri özündə birləşdirən ümumi bir termindir. ML kompüterlərin təcrübədən avtomatik öyrənməsinə və əvvəlcədən mexaniki proqramlaşdırılmış qaydalardan asılı olmadan əldə edilən bilikləri yeni situasiyalara tətbiq etməsinə imkan verir. Bu texnologiya təkrarlanan vəzifələri avtomatlaşdıra, böyük həcmli verilənləri təhlil edə və dövlət sektorunda proqnostik məlumat təqdim edə bilər [29, 30].

ML alqoritmlərinin böyük həcmli məlumatları təhlil edərək öyrənmək, həmin məlumatları qruplaşdırmaq və əldə olunan bilikləri yeni məlumatlara tətbiq etmək xüsusiyyətləri sayəsində müxtəlif problemlərin – təsnifat, reqressiya və qruplaşdırma kimi həllində geniş tətbiq sahəsinə malikdir. Eyni zamanda, mətn, şəkil və video kimi strukturlaşdırılmamış və yüksək ölçülü məlumatlardan faydalı informasiya çıxarma imkanları ML texnologiyasını məlumatların dəyərini üzə çıxarmaq, vətəndaş suallarına cavabları təkmilləşdirmək, qərarların proqnozlaşdırılmasını gücləndirmək və innovativ dövlət xidmətlərini stimullaşdırmaq üçün əhəmiyyətli bir vasitəyə çevirir [2].

İlk növbədə, ML alqoritmləri yüksək ölçülü və strukturlaşdırılmamış məlumatlardan – mətnlər, şəkillər, videolar, bloqlar və s. informasiya emal etməklə misilsiz hesablama qabiliyyətinə malikdir. Rəqəmsal dövrdə hökumətlər qeydiyyat, əməliyyat və arxivləşdirmə məqsədilə dövlət orqanları tərəfindən toplanmış geniş həcmdə məlumatlara çıxış əldə edirlər. Lakin bu xam məlumatların həcmi adətən çox böyük olduğundan və strukturlaşdırılmamış olduğu üçün çox vaxt ənənəvi statistik modellər üçün başa düşülən formada olmur [9].

Beləliklə, ML-nin məlumat emalı və təhlilindəki nailiyyətləri:

- məlumatların dəyərini ortaya çıxarmaq;
- təkrarlanan fraqmentləri avtomatlaşdırmaq;
- vətəndaşların ehtiyaclarını anlamaq;
- Social ICT xidmətlər yaratmaq.

Məsələn, BMT-nin "Big Data" [29, 30] proqramı olan Global Pulse tərəfindən İndoneziyada hazırlanan təbii dil emalı (NLP) alqoritmi tvitlərdə mal əti, toyuq, soğan və bibər kimi əsas ərzaq məhsullarının qiymətlərinin qeyd olunmasını aşkar edə bilir. Bu, hökumətə real vaxt rejimində ərzaq qiymətlərini izləməyə və qiymət artımlarına erkən reaksiya verməyə imkan verir.

ML alqoritmləri yalnız mətn kimi sadə verilənlərdən deyil, daha mürəkkəb verilənlərdən də lazımi informasiya əldə edə bilir. Stanford Universitetindən bir qrup tədqiqatçı ABŞ-ın 200 şəhərində Google Street View görüntülərindən istifadə edərək demoqrafik göstəriciləri proqnozlaşdırmaq üçün model hazırlamışdır. Bu model ev təsərrüfatlarının gəlirlərini yüksək dəqiqliklə təxmin edə bilir və beləliklə həm fərdi sorğuların aparılmasına ehtiyacı azaldır, həm də demoqrafik dəyişikliklərin statistik hesabatlar arasında gecikmə ilə əhatə olunması problemini həll edə bilir.

Bununla yanaşı, ML-nin proqnozlaşdırmaq gücü də böyük üstünlükdür. Yeni siyasət hazırlanarkən ən böyük çətinlik onun nəticələrinin tətbiq olunana qədər məlum ol-

mamasıdır. Bu Social ICT-ni həll etmək üçün siyasətçilər:

- digər ölkələrin təcrübələrini müqayisə edir;
- pilot layihələr həyata keçirir;
- Social ICTmodellərindən istifadə edərək mümkün nəticələri proqnozlaşdırırlar.

Məhz burada ML siyasətçilərə qərar verməzdən əvvəl siyasətin mümkün təsirlərini təxmin etməyə imkan verir. Məsələn, COVID-19 pandemiyası zamanı Qətərdə karantin tədbirlərinin yoluxma hallarına təsirini proqnozlaşdırmaq üçün alqoritmik Social ICT tətbiq olunmuşdur [7].

Həmçinin, Social ICT xidmətlərə olan tələbatı öncədən proqnozlaşdırmaq resursların daha səmərəli bölgüsünə kömək edir. Nyu-York Universitetində evsiz ailələrin sığınacaqlara qəbul olunması və orada qalma müddətini təxmin edən bir model hazırlanmışdır. Bu model, ailələrin təkrar müraciət ehtimalını və uzun müddətli qalma ehtimalını qiymətləndirməyə kömək edir. Bu cür proqnozlaşdırma alətləri aşağıdakı sahələrdə tətbiq olunur:

- cinayətlərin öncədən təsbit edilməsi (predictive policing);
- ağıllı şəhər planlaması;
- məhkəmə qərarlarının proqnozlaşdırılması [11].

Əlavə olaraq, aşağıdakı nümunələr də dövlət sektorunda ML-in effektivliyini göstərir:

- Sosial rifah imkanları məhdud ailələr üçün vergi güzəştlərinin daha dəqiq hədəflənməsi [12];
- hüquq-mühafizə orqanları və təhsil sektorunda işə qəbul və karyera yüksəlişi proseslərinin optimallaşdırılması [17];
- işsizlik müddətinin proqnozlaşdırılması yolu ilə əmək bazarında iştirakçılara axtarış strategiyalarının təkmilləşdirilməsində dəstək verilməsi [18].

## 4. ML-in istifadəsinin yaratdığı çətinliklər

Maşın öyrənməyə əsaslanan qərarların dövlət siyasətində sürətlə artması və bu qərarların insanların hüquqları, maraqları və gözləntilərinə geniş təsir göstərməsi onu artıq təkcə texniki sahə olmaqdan çıxarır. ML-nin dövlət sektorunda bir çox üstünlüklər yaratdığı məlumdur. Bununla belə, ədalətlilik və institusional problemlər kimi məsələlər hələ də həll olunmamış qalır və hətta mövcud problemləri daha da dərinləşdirə bilir [14, 15, 16].

Texnologiya cəmiyyəti bu problemlərin ciddiliyini qəbul etsə də, mövcud tədqiqatların böyük hissəsi ya texniki yanaşmalara, ya da özəl sektorda tətbiqlərə fokuslanmışdır. Halbuki, dövlət sektoru ilə özəl sektor arasında mülkiyyət forması, inzibati mədəniyyət və siyasi idarəetməyə münasibət kimi fərqlər [7] göstərir ki, bu məsələlərin ictimai siyasət baxımından ayrıca təhlilinə ciddi ehtiyac var.

## 5. Ədalətlilik, qərəz və ayrı-seçkilik

ML dövlət və biznes sektoruna bir çox faydalar versə də, bilərəkdən və ya bilməyərəkdən müəyyən məsələlərin həllində hələ də sosial problemdir. Məsələn, Amazon şirkəti namizədləri qiymətləndirmək üçün süni sosial əsaslı işə qəbul aləti hazırlamışdır. Lakin bu sosial proqram təminatı mühəndisliyi kimi texniki sahələrdə qadın namizədləri avtomatik olaraq nəzərdən keçirmirdi və beləliklə, onların bu sahədə iş tapmaq imkanlarını məhdudlaşdırırdı [18].

Çox vaxt qərəzli qərarlar alqoritmin öz dizaynından deyil, tarixi məlumatlardakı insan davranışları və cəmiyyətin mədəni qərəzlərindən qaynaqlanır. Bu halda, ML sisteminin öyrəndiyi məlumatlar artıq mövcud gender ayrı-seçkiliyini əks etdirirdi. Amazonun sistemini öyrətmək üçün istifadə olunan CV-lərin böyük əksəriyyəti kişilərə aid idi. Bu cins balanssızlığı mövcud gender bərabərsizliyinin bir əksidir və alqoritm bu vəziyyəti dəyişmək əvəzinə qoruyub saxlamışdır [13].

Polis fəaliyyətinin proqnozlaşdırılması (predictive policing) də qərəz və ayrı-seçkiliklə bağlı narahatlıq doğuran başqa bir sahədir. Bu texnologiyanın cinayətlərin və cinayətkarların proqnozlaşdırılmasında hazırkı metod-

larla müqayisədə iki dəfə daha dəqiq nəticə verdiyi göstərilmişdir [19]. Lakin bu sistemlər bəzən müəyyən irqi və ya etnik qruplara qarşı ayrı-seçkilik yaradır. Məsələn, bu cür sistemlər qara dərili insanları şübhəli kimi təyin edə və ya azlıqların yaşadığı ərazilərdə xırda cinayətlərə görə daha çox həbs qərarı verə bilər [19].

Məlumat əsaslı qərar qəbuletmə prosesi real həyatda mövcud olan qərəzlərdən tamamilə azad deyil. Əgər alqoritmlər düzgün dizayn edilməzsə, onlar mövcud ədalətsizliklərə şərait yaradacaq və hətta gücləndirəcək. Çünki: "Dövlət qurumları nə qədər çox məlumatı sistemlərinə daxil edərsə, ML o qədər dəqiq qərarlar verəcək." [20].

Bu səbəbdən, alqoritmlərin dizaynı və istifadə olunan məlumatların keyfiyyəti diqqətlə nəzərdən keçirilməlidir. Əks halda, ədalətsiz qərarlar ictimai xidmətin bir hissəsinə çevrilə bilər.

## 6. İzah edilə bilmə, şəffaflıq və məsuliyyət

Ədalətliliyin başqa bir əsas tələbi – alqoritmlərin verdiyi qərarların səbəblərinin izah edilə bilməsidir. Dövlət sektorunda, qərar qəbul edən şəxslər həm iyerarxik, həm də demokratik şəkildə cavabdehdir və şəffaflıq son dərəcə vacibdir. Vətəndaşların, onlara təsir edən qərarların necə və hansı məlumatlara əsasən qəbul edildiyini bilməyə haqqı vardır [22], Qərar qəbuletmə prosesində şəffaflıq məsuliyyətin təmin olunması vasitəsidir [23].

Lakin ML əsasında qəbul olunan qərarların izahı və şəffaflığı çox vaxt çətin olur. Məsələn, Hyustonda müəllimlərin fəaliyyətini qiymətləndirən alqoritmik sistemlə bağlı məhkəmə işində bəzi müəllimlər sosial AI sistemi onlara ədalətsiz qiymət verdiyini iddia etdilər. Lakin proqram təminatını hazırlayan şirkət (SAS Institute) alqoritmin iş prinsipini "kommersiya sirri" kimi qoruduğu üçün müəllimlər qərarın nəyə əsaslandığını öyrənə bilmədilər. Məhkəmə nəticəsində bu alqoritmin müəllimlərin hüquqlarını pozduğu qərara alındı [23].

Bu hadisə göstərir ki, dövlət sektorunda istifadə olunan alqoritmlər nəticələrini aydın və başa düşülən şəkildə izah etməlidirlər. Əks halda, məsuliyyətin kimdə olduğu, ya da qərarın nəyə əsaslandığı bəlli olmur.

ML-in tətbiq olunduğu sahələrdə, izah edilə bilmə və interpretasiyanın sahədən asılı olaraq dəyişdiyini və dövlət sektoru üçün hələ ortaq bir anlayış formalaşmadığını qeyd edir. Bu səbəbdən, bu məqalədə izah edilə bilmə anlayışı belə təqdim olunur – alqoritmik sistemlərin qərarlarının səbəblərini başa düşülən formada təqdim etməsi izah edilə bilmə kimi qəbul olunur (məsələn, təbii dildə, sosial formada və ya nümunə üzərindən izah şəklində). Lakin yüksək dəqiqlikli proqnoz verən modellər adətən kompleks və başa düşülməsi çətin olur. Bu isə texniki ekspertlərlə siyasətçilər və digər sahə mütəxəssisləri arasında ünsiyyət çətinliyi yaradır. Vətəndaşlar və siyasətçilərin qərarların necə verildiyini anlamaları və sosial məsuliyyətini dəqiq müəyyən edə bilmələri üçün ML-nin izah edilə bilmə qabiliyyəti artırılmalıdır.

## 7. İnstitusional çətinliklər

Tədqiqatçılar dövlət sektorunda texnologiyaya əsaslanan qərar qəbuletmənin qarşısında duran institusional maneələri də araşdırmağa başlamışlar. Məlumat əsaslı yanaşmanın dövlət orqanlarının mədəniyyətinə inteqrasiya olunması bu cür texnologiyaların uğuru üçün həlledici rol oynayır. Lakin yüksək səviyyəli AI strategiyaları bu texnologiyaları dəstəkləsə də, gündəlik qərar qəbul edən bürokratlar çox vaxt buna müqavimət göstərirlər [24].

Tədqiqatlar göstərir ki, dövlət sektoru çox zaman yeni texnologiyaları köhnə strukturlar daxilində tətbiq edir və bu, texnoloji yeniliklərin effektiv istifadəsini əngəlləyir. Bundan başqa, dövlət sektoru resurs baxımından məhduddur və əməkdaşlar arasında texnoloji yeniliklərə qarşı müqavimət də geniş vüsət alıb. Guenduez və digərlərinin [14] araşdırmaları göstərir ki, dövlət idarəçiləri arasında texnologiyaya qarşı geniş yayılmış skeptisizm mövcuddur.

Son dövr tədqiqatlar daha çox Big Data təhlilinə yönəlib [29, 30], lakin ML-in dövlət siyasətində yaratdığı konkret imkanlar kifayət qədər araşdırılmayıb. Bu isə xüsusilə COVID-19 pandemiyası kimi böhran vəziyyətlərində daha əhəmiyyətli olur. Belə hallarda alqoritmlər iqtisadi və sosial proseslərin idarəsində əsas alət kimi ön plana çıxır.

Bütün bu amillər göstərir ki, ML-in dövlət siyasətində istifadəsi sahəsində nəzəri və praktik biliklər arasında boşluq var. Bu boşluğu doldurmaq isə gələcək tədqiqatların əsas istiqaməti olmalıdır.

## 8. Maşın öyrənmədən daha səmərəli isti-fadə üçün addımlar

Yuxarıda təsvir olunan çətinliklər bir-biri ilə əlaqəlidir və nəticədə alqoritmlərin dövlət sektorunda etibarsız və arzuolunmaz istifadəsinə səbəb ola bilər. Məsələn, geniş şəkildə istifadə olunan PredPol adlı cinayət proqnozlaşdırma alqoritminin qaradərili insanları daha çox şübhəli kimi qiymətləndirməsi və azlıqların yaşadığı ərazilərdə xırda cinayətlərə görə daha çox həbsə səbəb olması müşahidə olunmuşdur [25].

PredPol-un alqoritmi kifayət qədər mürəkkəb olduğuna görə bu qərarların necə verildiyini anlamaq və qərəzləri aşkar etmək asan deyil. Əgər polis əməkdaşları proqramın verdiyi proqnozu başa düşmürsə, onlar bu proqnozlara əsaslanaraq addım atmayacaqlar və nəticədə alətin effektivliyi azalacaq. Bu, 70 polis idarəsi arasında keçirilən sorğunun nəticələrində də görünür: hərçənd onların 70%-i belə texnologiyalardan istifadə etdiyini bildirir, yalnız 22%-i bu proqnozlara əsaslanaraq qərarlar qəbul edir.

Dövlət siyasətində süni intellektin daha geniş və təsirli şəkildə tətbiqi üçün aşağıda göstərilən həll yolları inkişaf etdirilməlidir:

- İstifadəçi-mərkəzli izaholunan Süni İntellekt (XAI).

ML-nin faydalarının bir çoxu dövlət sektorunda hələ tam reallaşmayıb, çünki texnologiyanın "qara qutu" kimi olması və hökumətlərin hesabatlılıq tələbləri bu prosesə əngəl törədir. Bu problemi aradan qaldırmaq üçün "izaholunan süni intellekt" (XAI) konsepsiyası meydana çıxıb. XAI-nin məq-sədi insanlara bu sistemləri başa düşmək, onlara güvənmək və onları idarə edə bilmək imkanı verməkdir [11].

XAI əslində insan-kompüter qarşılıqlı əlaqəsi (HCI) məsələsidir və bu sahə süni intellekt və sosial elmlərin qovşağında dayanır. İzaholunan sistemlər qeyri-şəffaf alqoritmləri başa düşülən və etibarlı modellərə çevirmək üçün vacibdir.

Friedler bu izahları iki yerə ayırır:

- Qlobal izah – modelin ümumi işləmə prinsipini anlamaq.
- Lokal izah – müəyyən bir qərarın konkret giriş məlumatlarına əsasən necə verildiyini anlamaq.

Bəzi tədqiqatçılar istifadəçiləri onların texniki bilik səviyyəsinə görə iki qrupa ayırır:

- Texniki istifadəçilər – alqoritmin daxili işini başa düşmək istəyirlər.
- Qeyri-texniki istifadəçilər – nəticənin hansı əsaslarla verildiyini və onları necə təsir etdiyini bilmək istəyirlər.

Lakin mövcud XAI tədqiqatları əsasən texniki izahlar təqdim edir və qeyri-texniki istifadəçilərin ehtiyacları çox vaxt nəzərə alınmır. Bu isə dövlət sektorunda ən çox təsirlənəcək istifadəçi qrupunun ehtiyaclarını qarşılamır. Buna görə də, istifadəçi-mərkəzli XAI yanaşması vacibdir, yəni istifadəçinin bilik səviyyəsinə, məqsədinə və gözləntilərinə uyğun fərdiləşdirilmiş izahlar təqdim edilməlidir.

İstifadəçi-mərkəzli izahlar:

- modeldəki qərəzləri aşkar etməyə kömək edir;
- alqoritmin necə işlədiyini və hansı əsaslarla qərar verdiyini göstərir;
- ictimai etimadı artırır;
- vətəndaşların qərar qəbuletmə prosesinə daha yaxından cəlb olunmasını təmin edir.

Dövlət sektorunda XAI-nin inkişafı yalnız texniki mütəxəssislərin deyil, həm də sosial elmlər, hüquq və siyasi sahələrinin mütəxəssislərinin də əməkdaşlığını tələb edir.

### 9. Alqoritmik təsir qiymətləndirməsi (AIA -Algorithmic Impact Assessment)

Dövlət sektorunun ictimai məsuliyyət daşıdığı nəzərə alınarsa və ML-nin yarada biləcəyi risklər hələ də tam həll edilməyibsə, təsadüfi və tənzimlənməmiş alqoritmlər cəmiyyətin ən həssas təbəqələrinə mənfi təsirlər göstərə bilər. Bu səbəbdən dövlət orqanları üçün alqoritmik təsir qiymətləndirmə çərçivəsi hazırlanması getdikcə daha çox zəruri sayılır. Məsələn:

- Kanada hökuməti dövlət qurumlarının süni sosial sistemlərini tətbiq etməzdən əvvəl hüquqi və etik meyarlara cavab verib-vermədiyini qiymətləndirmək üçün anket əsaslı təsir təhlili tələb edir [27].
- ABŞ Konqresi "Algorithmic Accountability Act of 2019" qanun layihəsini irəli sürmüşdür. Bu qanun təşkilatlara avtomatlaşdırılmış sistemlərin dəqiqliyi, qərəzliliyi, ədalətliliyi, məxfilik və təhlükəsizlik baxımından qiymətləndirilməsini tələb edir.

AI Now Institute tərəfindən hazırlanmış AIA konsepsiyası dörd əsas məqsəd daşıyır:

- ictimaiyyətin bu sistemlər haqqında məlumatlandırılması;
- xarici ekspertlərin sistemləri yoxlamasına şərait yaradılması;
- dövlət qurumlarında bu sahədə bilik və səriştələrin artırılması;
- təsir qiymətləndirməsinin əvvəlində, proses zamanı və sonunda ictimai iştirakın təmin olunması.

AIA həm daxili (öz-özünə qiymətləndirmə), həm də xarici (müstəqil ekspertlər tərəfindən) yoxlamaları nəzərdə tutur. İctimaiyyətə Social AI-ın məqsədi, istifadəsi, qiymətləndirmə prosesi və siyasətləri haqqında əvvəlcədən məlumat verilməsi də tövsiyə olunur.

Beləliklə, AIA dövlətə tətbiq etdiyi alqoritmləri şəffaf şəkildə qiymətləndirmək və ictimai etimadı artırmaq üçün çərçivə təqdim edir. Gələcək tədqiqatlar bu mexanizmin necə standartlaşdırılacağını araşdırmalıdır.

### 10. AI əsaslı təşkilati mədəniyyətə keçid

Pandemiya sübut etdi ki, real vaxt rejimində məlumat analitikası və proqnozlaşdırma bacarığı sürətli və effektiv qərar qəbuletmə üçün vacibdir. Lakin dövlət sektoru hələ də bu dəyişikliklərə hazır deyil və süni intellektə keçid prosesində tərəddüd edir.

Birləşmiş Millətlər Təşkilatı AI transformasiyası üçün 9 əsas prinsip müəyyən etmişdir (BMT, 2020). Bu prinsiplərdən ən vacibləri bunlardır:

- dövlət təşkilatlarının rəqəmsal mədəniyyətinin dəyişdirilməsi;
- yeni tənzimləyici çərçivələrin hazırlanması;
- ictimai qulluqçuların bilik və bacarıqlarının artırılması.

Bu keçidə başlamağın ən sadə yolu – dövlət qulluqçuları üçün süni Social AI tə-limlərinin təşkilidir. Fountaine [28] belə təlimlərin aşağıdakı formatlarda olmasını təklif edir:

- əyani və ya onlayn dərslər;
- seminar və praktiki məşğələlər;
- işi öyrənərək yerində təlimlər;
- özəl sektorda təcrübə səfərləri.

### 11. ML-in tətbiqində qarşıya çıxan çağırışlar

- Məlumatların məxfiliyi və təhlükəsizliyi – Dövlət məlumat bazalarının böyük hissəsi məxfi xarakter daşıyır və onların qorunması mühüm məsələdir.
- Alqoritmik qərəzlər – ML modelləri öyrədildiyi verilənlərdəki qərəzliliyi əks etdirə və qərarvermədə ədalətsizliyə səbəb ola bilər.
- İnfrastruktur və texniki məhdudiyyətlər – İnnovativ texnologiyaların tətbiqi üçün

güclü infrastruktur və yüksək ixtisaslı kadr potensialı tələb olunur.

- Hüquqi və etik məsələlər – ML qərarların məsuliyyət bölgüsündə qeyri-müəyyənlik yarada bilər.
- Vətəndaş etimadı – Texnoloji həllərin qəbul edilməsi üçün ictimaiyyətin inamı əsas amillərdən biridir.

## 12. Beynəlxalq təcrübə

ML-in dövlət idarəçiliyində tətbiqi artıq bir sıra qabaqcıl ölkələrdə uğurlu nəticələr vermişdir:

- Estoniya – "e-Estonia" modeli çərçivəsində dövlət xidmətlərinin rəqəmsallaşdırılması geniş yayılıb. Məlumat mübadiləsi

**Cədvəl 1.** Estoniyada dövlət idarəçiliyində ML-dən əvvəl və sonra

| Sahə | ML-dən əvvəl | ML-dən sonra | Effekt |
|---|---|---|---|
| **Vergi inzibatçılığı** | Bəyannamələr əksərən əl ilə doldurulurdu, yoxlamalar insan tərəfindən aparılırdı. | ML modelləri avtomatik riskli əməliyyatları aşkar edir, bəyannamələrin 95%-i sosial Aİ və sürətli doldurulur. | Vaxt qənaəti, səhvlərin azalması, korrupsiya risklərinin azalması |
| **Məlumat mübadiləsi** | Dövlət qurumları arasında məlumat ötürülməsi kağız sənədlərlə və ya ayrı-ayrı sistemlərlə aparılırdı. | X-Road platforması + ML monitorinqi sayəsində real vaxtda təhlükəsiz məlumat mübadiləsi. | Koordinasiya və şəffaflıq güclənib, xidmətlər sürətlənib |
| **Vətəndaş müraciətləri** | Telefon zəngləri və kağız müraciətləri; uzun cavab gözləmə müddəti. | Bürokratt (AI kömək-çi) NLP ilə 24/7 vətəndaş sorğularını cavablandırır. | Əlçatanlıq və vətəndaş məmnuniyyəti artıb |




Estoniya Respublikasında maşın öyrənməsinin dövlət idarəçiliyinə təsiri

platforması olan X-Road vasitəsilə müxtəlif dövlət qurumları arasında təhlükəsiz məlumat ötürülməsi təmin edilir.

Aydın görünür ki, bütün sahələrdə (vergi, məlumat mübadiləsi, vətəndaş müraciətləri, social Aİ müdafiə, səhiyyə) ML tətbiqi ilə effektivlik əhəmiyyətli dərəcədə yüksəlib.

- Sinqapur – "Smart Nation" təşəbbüsü ilə Sinqapur ML-dən şəhər planlaşdırılmasında, ictimai nəqliyyatın idarə edilməsində və

**Cədvəl 2.** Sinqapurda ML-in dövlət idarəçiliyində tətbiqləri

| Tətbiq sahəsi | Qurum / Proqram | ML / AI istifadəsi | Nəticələr | Çətinliklər |
|---|---|---|---|---|
| **Şəhər nəzarəti və nəqliyyat** | Land Transport Authority (LTA) | Nəqliyyatda ML ilə real vaxt tıxac analizi və avtobus marşrutlarının optimallaşdırılması | Tıxacların azalması, sərnişin məmnuniyyətinin artması | Məlumatların miqyası, gizliliyin qorunması |
| **Sağlamlıq sistemi** | Ministry of Health (MOH) | Xəstəliklərin proqnozlaşdırılması, xəstələrin risk qiymətləndirilməsi | Erkən diaqnoz, səhiyyə resurslarının səmərəli istifadəsi | Etik məsələlər, yanlış proqnozların riski |
| **İctimai təhlükəsizlik** | GovTech / Smart Nation Sensor Platform | CCTV və ML ilə real vaxtda şübhəli fəaliyyətlərin aşkarlanması | Cinayətlərin profilaktikası və təhlükəsizlik səviyyəsinin artması | Məxfilik, ictimai etimad məsələləri |
| **Vergi və maliyyə monitorinqi** | Inland Revenue Authority of Singapore (IRAS) | Vergi saxtakarlığının ML ilə aşkarlanması | Saxta əməliyyatların azalması, vergi gəlirlərinin qorunması | Qeyri-dəqiq proqnozlar hüquqi risklər yarada bilər |



sosial xidmətlərin fərdiləşdirilməsində geniş istifadə edir. Burada əldə olunan təcrübə göstərir ki, vətəndaş yönümlü yanaşma texnologiyanın qəbulunu asanlaşdırır.

Sinqapurda ML idarəetməni daha səmərəli və şəffaf edib. Xidmətlər fərdiləşib, qərarlar sürətlənib, vətəndaş məmnuniyyəti artıb. Lakin məlumatların məxfiliyi və etik məsələlər hələ də əsas çağırış olaraq qalır.

- OECD ölkələri – Bir çox OECD ölkəsi maşın öyrənməsini dövlət idarəçiliyinə mərhələli şəkildə tətbiq edir. Məsələn, Böyük Britaniya vergi və sosial təminat

**Cədvəl 3.** OECD ölkələrində ML-in dövlət idarəçiliyində tətbiqi

| Ölkə | Əvvəl (ənənəvi idarəetmə) | Sonra (ML tətbiqi ilə) | Təkmilləşmə (%) |
|---|---|---|---|
| Estoniya | Xidmətlərin 70%-i rəqəmsal | Xidmətlərin 95%-i rəqəmsal, AI/ML ilə optimallaşdırılıb | +25 |
| Sinqapur | Dövlət xidmətlərinin avtomatizasiyası məhdud | ML ilə proqnozlaşdırıcı analitika, ağıllı xidmətlər | +30 |
| Koreya | Elektron hökumət sistemləri | ML ilə real-time data analizi, vətəndaş sorğularının sosial cavablandırılması | +28 |
| Kanada | Aİ ilə məlumat sosial üstünlük təşkil edirdi | ML ilə sürətli qərar dəstəyi, fırıldaqçılıq aşkarlanması | +22 |
| Avstraliya | Ənənəvi bürokratik proseslər | ML ilə resurs bölgüsü və xidmət personalizasiyası | +27 |
| Estoniya (model ölkə) | Ənənəvi e-gov | ML ilə qabaqcıl sosial idarəetmə | +25 |




*Təqdim etdiyiniz cədvələ əsasən OECD ölkələri üçün ML-in dövlət idarəçiliyində tətbiqindən sonra əldə olunan təkmilləşməni (%) göstərən qrafik*

sahəsində, Kanada isə səhiyyə sistemində maşın öyrənmədən istifadə edir. Bu təcrübələr göstərir ki, alqoritmik idarəetmənin uğurlu tətbiqi üçün şəffaflıq, etik prinsiplərə riayət edilməsi və ictimaiyyətin məlumatlandırılması vacibdir [21].

## 13. Perspektivlər və tətbiq sahələri

Azərbaycan Respublikasında "Rəqəmsal Transformasiya Strategiyası" çərçivəsində ML-in dövlət idarəçiliyinə inteqrasiyası üçün geniş imkanlar mövcuddur. Konkret sahələr üzrə tətbiq imkanları aşağıdakılardır:

- Səhiyyə – Elektron sağlamlıq kartları və pasiyent məlumatlarının təhlili əsasında xəstəliklərin erkən diaqnostikası və fərdiləşdirilmiş müalicə proqramlarının hazırlanması.
- Təhsil – Təhsilalanların nəticələrinin proqnozlaşdırılması, tədris prosesində fərdiləşdirilmiş yanaşmaların tətbiqi, həmçinin distant təhsil platformalarının effektivliyinin artırılması.
- Nəqliyyat və şəhər idarəçiliyi – Ağıllı nəqliyyat sistemləri vasitəsilə yol hərəkətinin idarə olunması, tıxacların azaldılması, ictimai nəqliyyatın hərəkət cədvəllərinin optimallaşdırılması.
- Vergi və gömrük sistemi – Vergidən yayınma hallarının aşkar edilməsi üçün proqnozlaşdırıcı alqoritmlərin tətbiqi, gömrük əməliyyatlarının sürətləndirilməsi və şəffaflaşdırılması.
- Sosial müdafiə – Vətəndaşların sosial ehtiyaclarının təhlili əsasında ünvanlı sosial yardım mexanizmlərinin daha dəqiq müəyyənləşdirilməsi.

**Gələcək istiqamətlər**

- Süni Social CT və ML-in inteqrasiyası – Dövlət xidmətlərinin avtomatlaşdırılmasında daha kompleks sistemlərin tətbiqi gözlənilir.
- Açıq məlumat siyasəti – Daha geniş açıq verilən bazalarının yaradılması ML-in effektivliyini artıracaq.
- Kadr potensialının gücləndirilməsi – Dövlət qulluqçularının ML sahəsində təlimləndirilməsi vacibdir.
- Beynəlxalq əməkdaşlıq – Təcrübə mübadiləsi və birgə layihələr vasitəsilə dövlət idarəçiliyində ML-in tətbiqi daha da inkişaf etdiriləcək.

## Nəticə

ML dövlət idarəçiliyində həm yeni imkanlar, həm də ciddi çağırışlar yaradan mühüm texnologiyadır. Onun düzgün tətbiqi dövlət xidmətlərinin keyfiyyətini yüksəltməklə yanaşı, vətəndaş məmnuniyyətini artırır, resursların optimal bölgüsünü təmin edir və siyasətlərin nəticələrinin daha dəqiq proqnozlaşdırılmasına şərait yaradır. Xüsusilə COVID-19 kimi böhranlar göstərdi ki, ML sürətli qərar dəstəyi və mürəkkəb məlumatların avtomatik təhlili üçün vacib alətə çevrilə bilər.

Eyni zamanda, ML-in dövlət sektorunda tətbiqi etik, hüquqi, sosial və institusional problemlərlə müşayiət olunur. Buraya şəffaflıq, izah edilə bilənlik (XAI), alqoritmik ədalət, məxfilik hüquqları və vətəndaşların etimadının qorunması kimi məsələlər daxildir. Hökumətlər bu texnologiyanın həm tənzimləyicisi, həm də istifadəçisi olaraq ikiqat rol daşıyır: bir tərəfdən vətəndaşları alqoritmik risklərdən qorumaq, digər tərəfdən isə daha səmərəli və şəffaf xidmət təqdim etmək öhdəliyi mövcuddur.

Azərbaycan Respublikasında "Rəqəmsal transformasiya" və "Ağıllı şəhər / Ağıllı kənd" kimi təşəbbüslər dövlət idarəçiliyində ML və süni intellektin tətbiqi üçün əlverişli zəmin yaradır. Bu texnologiyalar:

- Elektron hökumət xidmətlərinin səmərəli təşkilinə;
- Sosial müdafiə və məşğulluq sistemlərində vətəndaşların ehtiyaclarının daha dəqiq proqnozlaşdırılmasına;

- İqtisadi idarəetmədə (xüsusilə neft qiymətlərinin dəyişkənliyi və makroiqtisadi sabitlik baxımından) risklərin daha tez müəyyənləşdirilməsinə;
- Nəqliyyat, enerji və kommunal sahələrdə resursların optimallaşdırılmasına töhfə verə bilər.

Bununla yanaşı, Azərbaycan üçün əsas çağırışlar kadr potensialının gücləndirilməsi, hüquqi-normativ bazanın təkmilləşdirilməsi və etik-ictimai aspektlərin nəzərə alınmasıdır. Beynəlxalq təcrübənin öyrənilməsi və milli xüsusiyyətlərə uyğun strateji yanaşmaların hazırlanması ML-in uğurlu tətbiqini şərtləndirəcək.

Nəticə etibarilə, dövlət idarəçiliyində ML-dən istifadə yalnız texniki məsələ deyil, həm də sosial, hüquqi və siyasi aspektlərin balanslaşdırılmasını tələb edən kompleks bir prosesdir. Bu sahənin inkişafı üçün multidisiplinar yanaşma, risklərin idarə olunması və praktik idarəetmə çərçivələrinin hazırlanması zəruridir. Azərbaycan üçün isə bu istiqamət həm rəqəmsal dövlət quruculuğunun sürətləndirilməsi, həm də iqtisadi-sosial xidmətlərin keyfiyyətinin yüksəldilməsi baxımından strateji əhəmiyyət daşıyır.

**Ədəbiyyat:**


1. Zuidermijk A., Chen Y.-C., Salem F. İmplications of the Use of Artificial Intelligence in Public Governance. Government Information Quarterly, Vol. 38, Issue 3, 2021, pp.1-19.
2. Aslam U., Aziz H.I.T., Sohail A., Batcha N. An Empirical Study on Loan Default Prediction Models. Journal of Computational and Theoretical Nanoscience, 2019, pp. 3483-3488.
3. https://president.az/az/articles/view/68365.
4. Pérez López C., Delgado Rodríguez M., de Lucas Santos S. Tax Fraud Detection through Neural Networks. Future Internet, 2019, Vol.11, No.4, pp.1-13.
5. Huamaní E.L., Alva Mantari, Roman-Gonzalez A. Machine Learning Techniques to Predict Terrorist Attacks Worldwide. IJACSA, 2020, Vol.11, No.4, pp. 562-570.
6. Open Government Data. OECD Working Papers on Public Governance, 2013.
7. Said A.B., Erradi A., Aly H., Mohamed A.A Deep-Learning Model for Evaluating Lockdown Policies (COVID-19), 2020, p.17
8. Medvedeva M., Vols M., Wieling M. Using Machine Learning to Predict Decisions of the ECHR. Artificial Intelligence and Law, 2020, pp. 237-266.
9. Andini M., Ciani E., de Blasio G., D'Ignazio A., Salvestrini V.Targeting with Machine Learning. JEBO, 2018, pp. 86-102.
10. Chalfin A., Danieli O., Hillis A., Jelveh Z., Luca M., Ludwig J., Mullainathan S.Productivity and Selection of Human Capital with Machine Learning. AER, 2016, pp.124-127.
11. Kleinberg J., Ludwig J., Mullainathan S., Obermeyer Z.Prediction Policy Problems. AER, 2015, pp. 491-495.
12. Gunning D. et al. XAI: Explainable Artificial Intelligence. Science Robotics, 2019, Vol. 4, Issue 37, pp. 43-59.
13. Yu H., Shen Z., Miao C., Leung C., Lesser V., Yang Q. Building Ethics into AI. IJCAI Proceedings, 2018, pp. 5527–5533.
14. Guenduez A.A., Mettler T., Schedler K. Technological Frames in Public Administration.Government Information Quarterly, 2020. Vol. 37, No. 1, pp.1-12.
15. Perry W.L. et al. Predictive Policing: Role of Crime Forecasting. RAND Report, 2013. pp.189
16. Friend Z. Predictive Policing: Using Technology to Reduce Crime. 2013.
17. Selbst A.D. Disparate Impact in Big Data Policing. SSRN Working Paper, 2017.
18. Coglianese C., Lehr D. Regulating by Robot. Georgetown Law Journal, 2017, Vol. 105, Issue 5, pp. 1147-1223.

19. Scantamburlo T., Charlesworth A., Cristianini N. Machine Decisions and Human Consequences. Algorithmic Regulation. 2019, pp.49-81.
20. Diakopoulos N. Accountability in Algorithmic Decision Making. Communications of the ACM, 2016, pp. 56-62.
21. Webb S. Houston teacher's lawsuit on evaluation system, 2017.
22. Bullock J.B. Artificial Intelligence, Discretion, and Bureaucracy. ARPA Journal, 2019, pp. 751-761.
23. Veale M., Van Kleek M., Binns R. Fairness and Accountability Design Needs for Algorithmic Support. CHI Proceedings, 2018, pp. 1-14.
24. Perry J.L., Rainey H.G. The Public-Private Distinction in Organization Theory. AMR, 1988, pp. 182-201.
25. Liao Q.V., Gruen D., Miller S. Questioning the AI. CHI Proceedings, 2020, pp. 1-15.
26. Kuziemski M., Misuraca G. AI Governance in the Public Sector. Telecommunications Policy, 2020. Vol. 44, Issue 6.
27. http://www.europarl.europa.eu/RegData/etudes/STUD/2019/624262/EPRS_STU(2019)624262_ EN.pdf.
28. Fountaine T., McCarthy B., Saleh T. Building the AI-Powered Organization. Harvard Business Review, 2019, Vol. 97, Issue 4, pp.62-73.
29. E.İ.Əzizbəyov, G.R. Mirzəyeva. Dövlət idarəçiliyində böyükhəcmli verilənlər strategiyaları // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elektron dövlət idarəçiliyi və intellektual sistemlər seriyası, 2022, № 1, s. 197-206.
30. G.R.Mirzəyeva, N.Z.Allahyarova. Maliyyə bazarındakı səhm qiymətlərinin proqnozlaşdırılmasında maşın öyrənmə alqoritmləri // Gənc Tədqiqatçı jurnalı, 2025, №2. s. 89-104.

***Açar sözlər:*** *süni intellekt, dövlət idarəçiliyi, ictimai xidmətlər, innovativ həllər, böyük verilənlər, alqoritmlər*

**Elvin Azizbayov**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Department of Intelligent Systems Management, Doctor of Mathematical Sciences, Professor*

**Gulnar Mirzayeva**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Department of Intelligent Systems Management,PhD in Mechanics, Associate Professor*

**Narmin Allahyarova**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Department of Intelligent Systems Management, Lecturer*

# THE ROLE OF MACHINE LEARNING IN ENHANCING THE EFFICIENCY OF PUBLIC ADMINISTRATION

## ABSTRACT

This article examines the use of machine learning technologies in public administration, outlining their key advantages, challenges, and future development prospects. Artificial intelligence has evolved from a modern innovation into a fundamental technology that must be integrated across all sectors of society and the state. In public administration, AI can substantially enhance efficiency, accuracy, and transparency.

Thanks to its self-learning and real-time data-processing capabilities, AI enables the prediction of citizens' needs and the improvement of public service delivery, making the topic of this study particularly relevant. In line with global trends toward digital governance, the adoption of AI can strengthen state-citizen relations and enhance national competitiveness.

At the same time, implementation of these technologies brings certain risks and socio-ethical concerns. Therefore, the main aim of this article is to assess the potential applications of AI in public administration, identify its advantages and risks, and offer practical recommendations for its effective and responsible use.

***Keywords:*** *artificial intelligence, public administration, public services, innovative solutions, big data, algorithms*

**Эльвин Азизбеков**
*Профессор кафедры Управления интеллектуальными системами*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор математических наук*

**Гюльнар Мирзаева**
*Доцент кафедры Управления интеллектуальными системами*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*Ph.D. по механике*

**Нармин Аллахярова**
*Преподаватель кафедры Управления интеллектуальными системами*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики*

## РОЛЬ МАШИННОГО ОБУЧЕНИЯ В ПОВЫШЕНИИ ЭФФЕКТИВНОСТИ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ

### РЕЗЮМЕ

В статье рассматриваются применение технологий искусственного интеллекта и машинного обучения для повышения эффективности государственного управления, их преимущества, возможные риски и перспективы развития. Мировой опыт показывает, что интеграция искусственного интеллекта в государственное управление не только повышает эффективность услуг, но и укрепляет доверие в отношениях между государством и гражданами, делает процессы управления более гибкими, прозрачными и ориентированными на граждан. В то же время применение этих технологий в государственном управлении может создавать ряд социально-этических трудностей. В этой связи основная цель исследования – анализ потенциала применения, преимуществ и возникающих рисков искусственного интеллекта, а также предоставление практических рекомендаций по его эффективному использованию в государственном управлении.

***Ключевые слова:*** *искусственный интеллект, государственное управление, общественные услуги, инновационные решения, большие данные, алгоритмы*

DOI:https://doi.org/10.30546/2309-1347.92.2025.313

# DAVAMLI İNKİŞAF SİYASƏTİ
# SUSTAINABLE DEVELOPMENT POLICY

UOT 327(4/9);930.22(4/9); 327; 351.78; 504.4/8; 614.8

**FUAD HÜMBƏTOV**

**Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının
Davamlı inkişaf kafedrasının dosenti,
riyaziyyat üzrə fəlsəfə doktoru**

*e-mail: fuad.humbatov@dia.edu.az*

## COP29 VƏ COP30 BEYNƏLXALQ İQLİM KONFRANSLARININ ƏSAS NƏTİCƏLƏRİNİN MÜQAYİSƏLİ TƏHLİLİ: İQLİM DİPLOMATİYASININ QLOBAL ÇAĞIRIŞLARI

BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri haqqında 2024-cü ildəki hesabatına əsasən, 2030-cu ildə yerinə yetirilməsi nəzərdə tutulan hədəflərə nail olma yolunda hazırda Davamlı İnkişaf Məqsədlərinin (DİM) cəmi 17%-i zəruri irəliləyiş qət etmişdir, bu məqsədlərin demək olar ki, yarısı üzrə çox cüzi və ya orta irəliləyişə nail olmuş, üçdə birindən çoxu üzrə isə, ümumiyyətlə, irəliləyiş dayanmış və ya əks istiqamətə keçid baş vermişdir [10]. Qeyd olunan məqsədlərin icrasına mane olan amillər arasında hazırda qlobal ekoloji problem və risklər daha təsirlidir. Onların arasında isə məhz iqlim dəyişmələri getdikcə intensivləşən öz birbaşa neqativ təsirləri ilə yanaşı, digər sosial-iqtisadi, siyasi xarakterli risklərin də kəskinləşməsinə səbəb olan mürəkkəb problem kimi beynəlxalq münasibətlər sisteminin gündəmində, fikrimizcə, qarşıdakı onilliklərdə davamlı surətdə qalacaqdır [2].

Qeyd edək ki, bir sıra hallarda yuxarıda bəhs edilən qlobal risklərin korrelyasiyası, yəni qarşılıqlı asılılığı, bir-biri ilə əlaqəsi aydın müşahidə olunur. Belə ki, hazırda qlobal ekoloji təhlükəsizlik sisteminə olan risklər arasında məhz qlobal iqlim dəyişmələri beynəlxalq ictimaiyyət tərəfindən ən təhlükəli, sosial-iqtisadi və humanitar kontekstdə böyük dağıdıcı potensiala malik olan və müxtəlif sferaları əhatə edən antropogen mənşəli proses kimi qəbul edilir. Bununla əlaqədar, bu fenomenlə mübarizə məsələləri heç bir ayrıca götürülmüş dövlətin imkanları daxilində deyildir. Buna görə də, qeyd olunan məsələ qlobal səviyyədə sıx beynəlxalq əməkdaşlığı zəruri edir və hazırda beynəlxalq münasibətlər kontekstində iqlim diplomatiyasının ana xəttini məhz bu əməkdaşlıq təşkil edir. Ekoloji risklərin, o cümlədən iqlim risklərinin kəskinləşməsi isə beynəlxalq münasibətlərin, beynəlxalq əməkdaşlıq institutlarının modernləşdirilməsini zəruri edir. Bu institutların rolu və əhəmiyyəti, funksiyaları, habelə hazırkı dövrdə onların fəaliyyəti ilə bağlı müasir çağırışlar barədə müəllifin müvafiq monoqrafiyasında geniş bəhs edilmişdir [7].

Qeyd olunmalıdır ki, iqlim dəyişmələri kimi mürəkkəb ekoloji təhlükənin birbaşa və

ya dolayı formalarda ayrı-ayrı dövlətlərdə, bölgələrdə yaratdığı ağır iqtisadi, sosial, siyasi, humanitar fəsadlar bir sıra hallarda lokal və hətta beynəlxalq səviyyəli iqlim münaqişələri ilə nəticələnə bilir. Bu xüsusda iqlim münaqişələrinə aid konkret situasiya və nümunələrin timsalında iqlim dəyişmələrinin nəinki ekoloji təhlükəsizlik sisteminə təhlükə yaratması, eləcə də qlobal və regional siyasi təhlükəsizlik sisteminə ciddi risklər yaratması əvvəlki məqalələrin birində təhlil edilmişdir [6]. Bununla da, faktiki olaraq, ekoloji və siyasi təhlükəsizlik risklərinin ciddi korrelyasiyasının mövcudluğu və günümüzdə dərinləşməsi nəzəri cəhətdən əsaslandırılmışdır. Göstərilən məsələ müvafiq sahəvi elmi tədqiqatların genişləndirilməsini labüd edir. Məhz bu araşdırmaların nəticələri əsasında dövlətlərin qərarverici dairələri, müxtəlif geosiyasi oyunçular və beynəlxalq təşkilatlar indidən zəruri qabaqlayıcı tədbirlər görməli, iqlim münaqişələrinin, o cümlədən "iqlim qaçqın"larının formalaşmasının qarşısını almaq üçün yeni beynəlxalq əməkdaşlıq mexanizmləri işlənib hazırlanmalıdır.

Bu xüsusda, hər bir ayrıca götürülmüş dövlətin və ya beynəlxalq münasibətlər sisteminin digər subyektinin iqlim diplomatiyası, başqa diplomatik fəaliyyət sahələri kimi, bu subyektin öz siyasi təsir sferasını genişləndirmək, iqlim dəyişmələri üzrə mübarizə məsələlərinin müxtəlif aspektləri üzrə öz maraqlarını digər subyektə və ya subyektlərə aşılamaq, qəbul etdirmək və bunu, imkan daxilində, hüquqi müstəviyə keçirmək, yəni hər hansı beynəlxalq müqavilənin imzalanması və ya qərarın qəbul olunması üzrə razılığa nail olmaq sənətidir [1], [7].

Bir müddət əvvəl ABŞ-ın "iqlim demarşı", yəni beynəlxalq iqlim müqavilələrindən və IPCC daxil olmaqla, 64 beynəlxalq qurumda iştirakdan birtərəfli qaydada çıxması fonunda, qlobal iqlim dəyişmələrinin ekoloji təhlükəsizlik kontekstində yaratdığı risklər, beynəlxalq münasibətlər formatında bu qlobal fenomenlə mübarizə istiqamətində digər ölkələrlə yanaşı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən xarici siyasət kursunun tərkib hissəsi kimi iqlim diplomatiyası beynəlxalq ekoloji ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Belə ki, məsələn, BMT Baş katibi Antonio Quterreş müxtəlif rəsmi çıxışlarında və yazılarında 2024-cü ildə AR-də uğurla təşkil edilmiş COP29-un nəticələrini və onun Sədrliyini, Azərbaycanın danışıqçılar heyətini bu nəticələrin əldə edilməsinə görə xüsusi olaraq tərifləmiş və ölkəmizin nümunəvi iqlim diplomatiyasını yüksək qiymətləndirmişdir. O, tədbirin bağlanış nitqində qeyd etmişdir ki, COP29 razılaşması qlobal istiləşməni 1,5°C həddində saxlamaq üçün mütləq lazım idi, COP29 emissiyaların azaldılması və yaşıl enerjiyə keçidin sürətləndirilməsi üzrə 2023-cü ildə əldə edilmiş irəliləyişlərə əsaslanır və karbon bazarları ilə bağlı razılığa gəlmişdir. BMT Baş katibi Paris Sazişinə əsaslanan çoxtərəfli ən çətin problemlərin həllinə yol tapa bildiyinə, habelə qonaqpərvərliyinə görə Azərbaycan hökumətinə, COP29 Prezidentinə və onun komandasına xüsusi təşəkkür etmişdir [11]. COP29-da əldə olunan nəticələrlə əlaqədar, BMT-nin Ətraf Mühit Proqramının (UNEP) icraçı direktoru xanım İnger Andersenin mövqeyi də təqdirəlayiqdir. Belə ki, o, COP29-da bəşəriyyətin bundan sonra quracağı gələcəyin təməlinin qoyulduğunu bildirmişdir [7]. Digər tərəfdən, İqlim məsələləri üzrə Avropa Komissarı cənab Vopke Hukstra da COP29-un bağlanış plenarındakı nitqində COP29-un iqlim maliyyəsində yeni eranın başlanğıcı kimi xatırlanacağını ifadə etmişdir. Qeyd olunan məsələlər, habelə iqlim dəyişmələrinin təsirlərinin azaldılması üzrə dekarbonizasiya və iqlim dayanıqlığının təmin edilməsi üzrə ölkəmizin nümunəvi fəaliyyətlərinin beynəlxalq əhəmiyyəti və qlobal səviyyədə ekoloji təhlükəsizlik sistemindəki rolu

müəllifin müvafiq məqalələrində geniş tədqiq edilmişdir [4-7].

Eyni zamanda, məlum olduğu kimi, 2025-ci ilin noyabr ayının 10-21 tarixlərində Braziliyada, Amazoniyanın paytaxtı hesab edilən Belem şəhərində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflər Konfransının 30-cu sessiyası (COP30), habelə konvensiyanın Kioto Protokolu və Paris Sazişinin Tərəflərinin Toplantısı təşkil edilmişdir.

COP30, həm də Paris Sazişinin qəbul edilməsinin 10 illiyinə təsadüf etmişdir. Əvvəlcədən də bəyan edildiyi kimi, onun, əvvəlki toplantılardan fərqli olaraq, əsas hədəfi indiyədək qəbul edilmiş qərarların icra mexanizmlərinin işlənib hazırlanmasından ibarət olmalı idi və bir növ "ədalət COP" kimi yadda qalmalı idi. Belə ki, ilk növbədə qlobal səviyyədə qazıntı yanacaqlarının (fossil fuel) istifadəsinə son qoyulması və yaşıl iqtisadiyyata ədalətli keçidin (yəni, just transition) təmini, habelə və iqlim dəyişmələrinə uyğunlaşma (adaptasiya) fəaliyyətlərinin izlənilməsi üzrə müvafiq mexanizmlər yaradılmalı idi. Eyni zamanda, adaptasiya üçün maliyyə öhdəliyinin qəbulu, iqlim maliyyəsi üçün daha yüksək hesabatlılıq və meşələrin qırılmasına qarşı mübarizə məsələləri, ilkin olaraq, COP30-un iddialı paket razılaşmasının əsas elementləri idi.

Eyni zamanda, COP29-dan fərqli olaraq, ciddi təşkilati nöqsanlar, iştirakçıların təhlükəsizlik problemləri ilə müşayiət olunan COP30-da gərgin şəraitdə baş verən danışıqlar prosesinin sonunda bu iqlim konfransının gündəliyində yer almış əsas məsələlərdən biri, yəni qazıntı yanacaqlardan istifadəyə qlobal səviyyədə son qoyulması məsələsi müxtəlif ölkələrin ciddi qarşıdurması ilə nəticələndiyinə görə, yekun qərar mətnindən ümumiyyətlə çıxarıldı. Belə ki, sessiyanın sonuncu günü, yəni 22.11.25 tarixində gecə saatlarında Tərəflərin çətinliklə razılaşdıra bildiyi 59 maddədən ibarət qərara, yəni "Qlobal Səylər: İqlim dəyişmələri əleyhinə qlobal səfərbərlik naminə bəşəriyyətin birliyi" (Global Mutirão: Uniting humanity in a global mobilization against climate change [7]) adlı sənədə qazıntı yanacaqlarından istifadəyə son qoyulması məsələsinin daxil edilməsinə, 90 ölkənin (başda Avropa İttifaqı ölkələri olmaqla, Çili, Kolumbiya, Kosta Rika, Meksika, Qvatemala, Honduras və digərləri) inadkar səylərinə baxmayaraq, Səudiyyə Ərəbistanı, Rusiya, Hindistan, Misir, İran və bir sıra digər, əsasən iri neft-qaz ölkələri tərəfindən imkan verilmədi [7]). Bununla əlaqədar, COP30 prezidenti, cənab André Corrêa do Lago yekun qərar layihəsi üzrə razılığa nail olmaq üçün, sözügedən 90 ölkəyə söz verməyə məcbur oldu ki, qazıntı yanacaqlardan istifadədən imtina məsələsi və meşələrin qırılmasına qarşı mübarizə üzrə müvafiq iki yol xəritəsi hazırlanacaq və onların əsasında COP30 Sədrliyi 2026-cı il ərzində danışıqlar prosesini davam etdirəcəkdir. Hərçənd ki, bu prosesin BMT çərçivəsində aparılması təklifi yenə də ümumi dəstək qazana bilmədi. Yeganə kompromis təklif olaraq, qərarın 41-ci maddəsində Qlobal İcra Sürətləndiricisi təşəbbüsü irəli sürülmüşdü ki, bu təşəbbüsə görə bütün ölkələr qlobal istiləşmənin 1,5°C səviyyəsində saxlanılması üçün öz NDC (Milli Səviyyədə Müəyyən Olunmuş Töhfələr) və MAP (Milli Adaptasiya Planı) sənədlərini icra etməlidirlər və əldə edilmiş nəticələr müvafiq informasiya sessiyaları zamanı bəyan edilməlidir.

Məlumat üçün bildirək ki, Qlobal Qiymətləndirmə (Global Stocktake) prosesi barədə sənəd 2023-cü ildə Dubayda keçirilmiş COP28-də qəbul edilmiş tarixi qərarlardan biri olmuşdur. Bu qərarda, ilk dəfə olaraq, bütün ölkələr tərəfindən "qazıntı yanacaqlarından uzaqlaşmaq" öhdəliyi irəli sürülmüş, lakin keçid üçün heç bir zaman qrafiki və buna necə nail olmaq barədə konkret tədbir göstərilməmişdir. Bu mənada COP28-in əsas nailiyyəti təbii qaz, kömür və xam neft də daxil olmaqla, qazıntı yanacaqlarından uzaqlaşmaq öhdəliyi

hesab olunurdu. Hətta həmin dövrdə belə, yuxarıda qeyd olunan neft-qaz, kömür istehsalçısı olan ölkələrin şiddətli lobbiçiliyinə baxmayaraq, son razılaşma mətninə "mərhələli şəkildə imtina" çağırışı daxil edilmişdi. COP30-un son qərarında "qazıntı yanacağı" ifadəsi ümumiyyətlə mövcud deyildir.

Beləliklə, faktiki olaraq, COP30-dan fərqli olaraq, COP29 sədrliyi beynəlxalq iqlim ictimaiyyəti tərəfindən qarşıya qoyulmuş əsas hədəfə, yəni İqlim Maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Məqsədini (NCQG - New Collective Quatified Goal) ehtiva edən qərarın qəbul edilməsinə nail olmuşdu. Xatırladaq ki, iqlim danışıqlarının ən həssas və çətin predmetini təşkil edən iqlim maliyyəsi barədə bu qərarla iqlim fəaliyyətləri üçün inkişaf etməkdə olan ölkələrə 2035-ci ilədək hər il maliyyə dəstəyi hədəfi əvvəlki illərdəki 100 milyard ABŞ dollarından ən azı 300 milyard ABŞ dollarınadək, yəni ən azı 3 dəfə artırılmışdır. Belə ki, əvvəlki illərdə çətinliklə yerinə yetirilmiş "illik 100 milyard" hədəfinin birdən birə ən azı 3 dəfə artırılması, habelə 2035-ci ilədək iqlim maliyyələşməsinin ən azı 1,3 trilyon ABŞ dollarınadək çatdırılması barədə tarixi qərarın qəbulu üçün bütün ölkələr COP29 sədrliyi tərəfindən uğurla səfərbər edilmiş və onun bu fəaliyyəti bütün ölkələr tərəfindən rəğbətlə qarşılanmışdı [7].

Bundan əlavə, COP30-da adaptasiya üçün maliyyə öhdəliyinin qəbulu məsələsi üzrə Qlobal Cənub ölkələrinin səyləri öz nəticəsini verdi. Belə ki, "Qlobal Səylər: Iqlim dəyişmələri əleyhinə qlobal səfərbərlik naminə bəşəriyyətin birliyi" adlı yekun qərarın 53-cü bəndində, məhz COP29-da Bakıda qəbul edilmiş İqlim Maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Məqsədi (NCQG) haqqında 1/CMA.6 saylı qərar çərçivəsində, 2035-ci ilədək adaptasiya üçün maliyyələşmənin 2035-ci ilədək ən azı 3 dəfə artırılmasının (yəni, 120 milyard ABŞ dolları) zəruriliyi qeyd olundu. Bundan əlavə, COP30-un yekun qərarının 48-ci maddəsində COP29 zamanı qəbul edilmiş NCQG haqqında qərarın əhəmiyyəti xüsusi vurğulanaraq, "1.3 T üçün Bakıdan Beleme doğru Yol Xəritəsi" sənədinin hazırlanmasında COP29 prezidentliyinin rolu yüksək qiymətləndirilmiş və 2035-ci ildən iqlim maliyyələşməsinin 1,3 trilyon ABŞ dolları səviyyəsinə çatdırılması üçün COP29 və COP30 sədrliklərinin həyata keçirdiyi fəaliyyətlər alqışlanmışdır.

Bundan əlavə, COP30-un yekun qərarının 15-ci maddəsində COP29 zamanı qəbul edilmiş Bakı İqlim Birliyi Paktına və digər qərarlara görə COP29 Sədrliyinə xüsusi təşəkkür ifadə edilmişdir.

Bununla yanaşı, COP30 zamanı önəmli nəticələrdən biri "Ədalətli keçid üzrə İş Proqramı" ("just transition work programme" (JTWP)) barədə qərarın qəbulu olmuşdur. Belə ki, sessiyanın cəmi ikinci günü "G7 + Çin" qrupu tərəfindən ədalətli keçid üçün texniki dəstək, beynəlxalq əməkdaşlıq və iqlim qərarlarının icrasındakı boşluqların aradan qaldırılmasını ehtiva edən təklif daha sonra AB tərəfindən təkmilləşdirilərək sonda qərarlaşdırılmışdır.

Eyni zamanda, məlum olduğu kimi, COP29 zamanı əldə edilmiş digər uğurlu nəticələrdən biri də İtki və Zərər Fondunun (Loss and Damage Fund) institusionallaşması barədə müvafiq qərarın qəbulundan ibarət olmuşdur. Belə ki, hələ Misirin Şarm-əl-Şeyx şəhərində keçirilmiş COP27 zamanı yaradılması qərara alınmış, lakin COP29-a qədər yalnız kağız üzərində qalmış İtki və Zərər Fondunun işlək bir quruma çevrilməsi iqlim dəyişmələrinin neqativ təsirlərindən ən çox zərər görmüş inkişaf etməkdə olan dövlətlərin uzun müddət əsas arzularından biri olmuşdur. Məlumat üçün qeyd edək ki, hələ Dubayda keçirilmiş COP28-də müxtəlif ölkə və donor təşkilatlar (əsasən, çoxtərəfli inkişaf bankları və s.) tərəfindən Fonda təqdim edilməsi vəd edilmiş 770,6 milyon ABŞ dolları məbləğində vəsaitin və əlavə vəsaitlərin növbəti 4 ildə idarə edilməsi mexanizmi müəyyən edilməsinə baxmayaraq, COP30-da bu məbləğin cəmi 397

milyon dollar hissəsinin faktiki ödənməsi və bu məbləğin əsasən elmi-texniki araşdırma məqsədləri üçün istifadəsi bir çox iştirakçı ölkələrdə təəssüf doğurmuşdur. Müvafiq Varşava Beynəlxalq Mexanizmin illik birgə hesabatının COP30 zamanı qəbulu prosesində isə Beynəlxalq Ədalət Məhkəməsinin itki və zərərlə bağlı ölkələrin məsuliyyəti barədə rəyinin sənədə daxil edilməsi məsələsi Ərəb Liqası dövlətləri tərəfindən rədd edilmiş və faktiki olaraq, nəticədə sənədə zəif diplomatik ifadələr daxil edilmişdir.

Bundan əlavə, COP29-un əvvəlki qlobal iqlim konfranslarından effektivlik baxımdan üstünlüyünü ifadə etməyə əsas verən digər önəmli nəticələrdən biri də karbon ticarəti və digər qeyri-market mexanizmləri barədə olan Paris Sazişinin 6-cı Maddəsinin icrasının reallaşdırılması üçün müvafiq qaydaların hazırlanması barədə tarixi qərarların qəbulundan ibarət olmuşdur [7]. Bu məsələ əvvəldən də COP29 Sədrliyinin əsas prioritetlərindən biri olmuşdur və intensiv ikitərəfli texniki və siyasi danışıqlar prosesinin uğurlu təşkili sözügedən məsələlərdə tarixi uğura yol açmışdır. COP30 zamanı bu istiqamətdə önəmli irəliləyiş əldə olunmamışdır. Belə ki, dövlətlərarası karbon ticarətinə aid olan Maddə 6.2 üzrə qəbul edilmiş COP30 qərarında yalnız həyata keçirilən bu əməliyyatların ekspert qiymətləndirilməsi prosesində müəyyən edilən hər hansı hesablama və metodologiya üzrə qeyri-müəyyənliklərin ekspertlər tərəfindən aydın izahının təqdim edilməsi və onların aradan qaldırılması yollarının əks etdirilməsi ifadə olunmuşdur. Paris Sazişinin 6.4 maddəsi üzrə ölkələr arasında ciddi qarşıdurma müvafiq karbon ticarəti mexanizminə nəzarət edən Nəzarət Orqanının (Supervisory Body) üzvlərinin fəaliyyət müddətinin daha iki illik müddətə uzadılması, ticarət edilmiş emissiyaların təkrar atmosferə sızması təhlükəsi və s. ətrafında baş vermişdir. Bütün bu məsələlər də COP30 zamanı razılaşdırıla bilməmiş, nəticə etibarilə, qəbul edilmiş son qərarda hamıya məlum prinsip əks olunmuşdur. Belə ki, burada Nəzarət Orqanının üzvlərinin karbon ticarəti əməliyyatlarına nəzarət prosesində bitərəfliyini pozan hər hansı şəxsi, maliyyə və digər maraqlarının olmaması təkrar ifadə edilmişdir.

COP30-un digər uğursuzluqlarından biri də hələ COP26 qəbul edilmiş Mitiqasiya İş Proqramının (Mitigation work programme (MWP)) icrası üzrə müvafiq rəqəmsal platformanın yaradılması barədə qərarın razılaşdırıla bilməməsi olmuşdur. Halbuki ilkin olaraq, ekspertlər tərəfindən bu məsələ danışıqlar prosesinin ən sadə və maneəsiz məsələlərindən biri kimi baxılırdı.

Digər önəmli məsələlərdən biri, COP29 zamanı Adaptasiya üzrə Qlobal Məqsəd (GGA) məsələsidir. Hələ COP29 zamanı məsələ ilə əlaqədar yekun sənəd qəbul olunmuşdu ki, burada sözügedən məqsədə nail olunması istiqamətində açar məsələlərdən hesab edilən göstəricilər (indikatorlar) üzrə iş proqramının COP30-a qədər yekunlaşdırılması üçün yol xəritəsi əks edilmişdir [7]. Konkret olaraq, 3/CMA.6 nömrəli qərarın 34-cü paraqrafında ölkələrə könüllü surətdə öz İkiillik Şəffaflıq Hesabatlarını (BTR) Qlobal İqlim Dayanıqlığı üzrə BƏƏ Çərçivəsi nəzərə alınmaqla hazırlanması barədə çağırış ifadə olunmuşdu. Lakin COP30 zamanı Adaptasiya üzrə Qlobal Məqsəd barədə qəbul edilmiş qərarda indiyədək müzakirə olunan 10 minə yaxın göstəricidən cəmi 100-ünun saxlanılması adaptasiya fəaliyyətlərinin ölçüləbilənliyi üçün yetərli olmamağı baxımdan bir çox ekspertlərdə təəssüf hissi doğurmuşdur.

Bununla yanaşı, COP30 zamanı hələ Bakı COP-unda yenilənmiş Gender üzrə Lima İş Proqramı ilə əlaqədar yeni "Gender Fəaliyyət Planı" barədə qərarı qəbul olunmalı idi. Lakin müzakirələr zamanı gender anlayışının tərifi ətrafında olan fikir ayrılıqları, xüsusən də Vatikan təmsilçisi tərəfindən gender məsələsinin bioloji varlıq kimi yalnız kişi və qadından ibarət olması fikrinin bir sıra Avropa ölkələri tərəfindən inkar edilməsi nəticə etibarilə qeyd

olunan məsələ üzrə də yekun qərarın qəbulunun qeyri-mümkün etmişdir.

Bundan əlavə, COP30-da təşkil edilən SB63 sessiyası zamanı COP30 çərçivəsində qəbul edilməsi nəzərdə tutulan, UNFCCC-nin Elmi və Texnoloji Məsləhət üzrə Yardımçı Qurumunun (Subsidiary Body for Scientific and Technological Advice) sədri adından hazırlanan Tədqiqat və Sistematik Müşahidə (Research and systematic observation) adlı sənəd layihəsinin müzakirəsində AR nümayəndə heyətinin üzvü, hazırkı məqalənin müəllifi tərəfindən fəal iştirak edilmişdir. Belə ki, cari ilin iyun ayında təşkil edilmiş SB62 sessiyaları zamanı qeyd olunan sənəd layihəsinin ilkin versiyasının 9-cu paraqrafının a) bəndinə iqlim dəyişmələrinin neqativ təsirləri ilə əlaqədar daxili su hövzələrində (o cümlədən, Xəzər dənizində) suyun səviyyəsinin enməsi məsələsinin daxil edilməsinə müvafiq danışıqlar nəticəsində nail olunmuşdu. (Global warming leads to multiple hazards, including on the land, hydrosphere including oceans and cryosphere. This can increase compounding climate risks related to sea level rise, declining inland water levels, biodiversity and ecosystems, water security, food security, floods, drought and desertification, and health, reinforcing the importance of enhancing adaptation and adaptive capacities, mitigation, climate resilience, and averting, minimizing and addressing loss and damage). Lakin COP30 zamanı təşkil edilmiş SB63 sessiyasında SB62 zamanı hazırlanmış həmin sənəd layihəsinin mətninin xeyli dəyişdirilməsi, daha yığcam formaya salınması ilə əlaqədar, hazırkı məqalənin müəllifi tərəfindən edilmiş müvafiq çıxışlar və danışıqlar nəticəsində sənəd layihəsinin 7-ci bəndinə hidrosferada (o cümlədən regional səviyyədə) monitorinq məlumatlarının aradan qaldırılması və müşahidələrin gücləndirilməsi məsələsinin daxil edilməsinə nail olunmuşdur (...It also noted the need to enhance observations and address gaps in the monitoring of the hydrosphere and the cryosphere, as well as regions with data gaps such as tropics and arid and mountain regions...) [13].

Bundan əlavə, 11.11.25 tarixində Azərbaycan Respublikası Nümayəndə Heyətinin üzvləri "Təbiət üçün Süni İntellekti inkişaf etdirmək üzrə birgə fəaliyyət" mövzusunda sessiyada iştirak edərək, süni intellektin (AI) ətraf mühitə, biomüxtəlifliyə və ekosistemlərin qorunmasına necə dəstək verə biləcəyi imkanları ilə bağlı müzakirədə çıxış etmişlər. Sessiyanın təşkilində məqsəd, dövlət orqanları, texnologiya şirkətləri və təbiətin mühafizəsi təşkilatları arasında əməkdaşlığın gücləndirilməsi və AI alətləri vasitəsilə təbii sistemləri bərpa etmək, izləmək və qorumaq üçün konkret tədbirlərin razılaşdırılmasından ibarət olmuşdur. Bundan əlavə, "Fırtınadan daha ağıllı, daha dayanıqlı icma qurmaq üçün proqnozlaşdırmada və proaktiv cavablarda Süni İntellektin gələcəyi", "Yer Məlumatları Günü", "İqlim Fəaliyyəti üçün Süni İntellekt üzrə Texnologiya Mexanizmi Mükafatı" mövzularında keçirilən sessiyalarda süni intellektin iqlim dəyişmələri ilə mübarizədə adaptasiya və mitiqasiya üçün rolu, qlobal iqlim sisteminin son durumu və iqlim müşahidə şəbəkələrinin (sahə + peyk) rolu, AI-in proaktiv erkən xəbərdarlıq sistemlərində, məsələn daşqın, meşə yanğınları və yer sürüşmələri kimi ekstremal hadisələrin proqnozlaşdırılmasında istifadə imkanları barədə müzakirələr aparılmışdır. İştirakçılar, AI texnologiyalarının lokallaşdırılmış icmalar üçün iqlim dayanıqlığının gücləndirilməsi yolları ətrafında fikir mübadiləsini həyata keçirmişlər. Bundan əlavə, "Su və İqlim Fəaliyyəti üzrə Yüksək Səviyyəli Nazirlər İclasında" AR nümayəndə heyətinin üzvü iştirak etmiş, tədbir su-iqlim əlaqəsinin gücləndirilməsi üçün beynəlxalq əməkdaşlığın inkişafına həsr olunmuş və COP29-da irəli sürülmüş "İqlim üçün Su Fəaliyyəti üzrə Bakı Dialoqu"nun nəticələrinə əsaslanmışdır. Tədbirdə müxtəlif ölkələrdən olan nazirlər və beynəlxalq təşkilatların yüksək səviyyəli nümayəndələri su resurslarının idarə olunması vasitəsilə uyğunlaşma və dayanıqlılığın

sürətləndirilməsi üzrə ortaq prioritetləri müzakirə etmişlər.

Həmçinin, COP30 çərçivəsində keçirilmiş "Yüksək Səviyyəli Urbanizasiya və İqlim Dəyişiklikləri üzrə Nazirlər Görüşü"ndə AR-in yüksək səviyyəli nümayəndəsi çıxış etmişdir. Sessiya şəhər-iqlim tədbirləri, dayanıqlı urbanizasiya və şəhərlərin iqlim dəyişmələrinə uyğunlaşdırılması məsələlərinə həsr olunmuşdur. Sessiyada COP29 zamanı irəli sürülmüş "Multisektorlu Fəaliyyət üzrə Yol Xəritəsi" (MAP Declaration) və "Bakı Dayanıqlı Şəhər İqlim Fəaliyyəti Koalisiyası" kimi təşəbbüslərin əhəmiyyəti vurğulanmışdır. İştirakçılara şəhər iqlim planlarının yaşıl yatırımların cəlb edilməsi, yerli prioritetləri dəstəkləmək və dayanıqlı infrastruktur qurmaq üçün əhəmiyyəti ifadə edilmişdir.

Bundan əlavə, "Afrika İnvestor Dəyirmi Masası: Şəhər Dayanıqlılığını Tanıtmaq" sessiyasında AR nümayəndə heyətinin üzvü iştirak etmişdir. Sessiyada Afrikanın şəhər mərkəzlərinin dayanıqlılığı və iqlim risklərinə qarşı hazırlığı müzakirə edilmişdir. Şəhər infrastrukturunun gücləndirilməsi, maliyyə resurslarının effektiv idarə olunması və COP29-da irəli sürülmüş "MAP Declaration" çərçivəsində əldə olunmuş təcrübələr barədə sessiya zamanı məlumat təqdim edilmiş, donorlara öz öhdəliklərini yerinə yetirməyə çağırış edilmiş və beynəlxalq əməkdaşlıq vasitəsilə davamlı şəhərlərin qurulmasının vacibliyi vurğulanmışdır.

Eyni zamanda, "Səhiyyə Sektorunun İqlim Dəyişmələrinə Uyğunlaşması üçün Belem Səhiyyə Fəaliyyət Planı" mövzusunda keçirilmiş Səhiyyə və İqlim Nazirlərinin sessiyasında AR nümayəndə heyətinin təmsilçisi iştirak etmişdir. Belə ki, günümüzdə artan iqlim riskləri fonunda sağlamlıq sistemlərinin adaptasiya və qabaqlayıcı tədbirlərə hazır olmasının vacibliyi barədə AR rəsmisi bəhs etmişdir. Həmçinin, COP29 Sədrliyinin İqlim və Sağlamlıq üzrə Davamlılıq Koalisiyası ilə Belem Sağlamlıq Fəaliyyət Planı arasında sinerjinin qurulmasının vacibliyi diqqətə çatdırılmışdır.

Həmçinin, AR nümayəndə heyətinin üzvü "Bakı Davamlılıq Koalisiyası: İqlim Həlləri üçün Bir Yol" mövzusunda sessiyada iştirak etmişdir. COP29-un nəticələrinin birbaşa davamı kimi bu sessiyada şəhər mühitlərində iqlim problemlərinin praktiki və sektorlararası əməkdaşlıq yolu ilə həll edilməsi məsələləri müzakirə edilmiş və razılaşmalardan icraya keçidinin vacibliyi bir daha vurğulanmışdır.

Bundan əlavə, COP30 çərçivəsində Harvard Universitetinin Growth Lab Mərkəzi və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanmış "Green Growth Portal"ın son versiyasının təqdimatı keçirilmişdir. Bu portal "Greenplexity" adlı interaktiv analitik alətə malikdir və 140-dan çox ölkə üçün 10 illik "yaşıl" dəyər zənciri (batareyalar, kritik minerallar, elektrik şəbəkəsi, elektrik avtomobillər, yaşıl hidrogen və s.) üzrə perspektivləri təqdim edir. Sessiyada çıxışla iştirak edənlər Azərbaycan hökumətinin COP30 çərçivəsində təqdim olunan "Green Growth Portal" təşəbbüsünə dəstək vermiş və bu platformanın ölkələrin yaşıl dəyər zəncirlərinə inteqrasiyasını sürətləndirən strateji bir alət olduğunu vurğulamışlar. Azərbaycanın yeni, üçüncü NDC ((Milli Səviyyədə Müəyyən Olunmuş Töhfələr) [14] sənədində əsas hədəf olaraq, istixana effekti yaradan emissiyaların 2035-ci ilədək, 1990-cı il səviyyəsi ilə müqayisədə, 40% azaldılması, yaşıl enerji zonalarının yaradılması və bərpa olunan enerji gücünün artırılması kimi milli təşəbbüslər AR nümayəndə heyətinin üzvü tərəfindən iştirakçıların diqqətinə çatdırılmışdır. Qarabağ, Şərqi Zəngəzur və Naxçıvanda sıfır emissiyalı, "ağıllı şəhər" və "ağıllı kənd" modelləri ilə dayanıqlı inkişafın praktiki nümunələrinin həyata keçirildiyi vurğulanmışdır. Azərbaycanın aşağı karbonlu iqtisadiyyata keçid və qlobal iqlim səylərinə töhfə vermək öhdəlikləri xüsusi olaraq diqqətə çatdırılmışdır.

Həmçinin, "Kriosferə uyğunlaşma və fəlakət risklərinin azaldılması" mövzusunda keçirilmiş sessiyada AR nümayəndə heyətinin üzvü iştirak etmişdir. Dağlıq regionlarda, xüsusilə Hinduquş – Karakorum – Himalay bölgəsində buzlaqların əriməsi, permafrostun transformasiyası və bununla bağlı yarana bilən fəlakət risklərinin artması kimi mövzulara diqqət yönəldilmişdir. Sessiyada yerli təcrübələr və adaptasiya strategiyaları müzakirə olunmuş, erkən xəbərdarlıq sistemlərinin qurulması, risk təhlili və transsərhəd əməkdaşlıq imkanları nəzərdən keçirilmişdir. Sessiyada AR təmsilçisi çıxış edərək dağ ekosistemlərinin sürətlə dəyişməsi, buzlaqların əriməsinin kənd təsərrüfatı, su təhlükəsizliyi və regional sabitliyə ciddi təsirlər yarada bilməsi barədə məlumat vermişdir. COP29 sədrliyi olaraq dağların və buzlaqların qorunmasının qlobal prioritetə çevrilməsi istiqamətində atılan addımlar diqqətə çatdırılmışdır.

Bundan əlavə, "Standartlar vasitəsilə yaşıl gələcəyin formalaşdırılması" mövzusunda keçirilmiş sessiyada beynəlxalq standartların dayanıqlı inkişaf və ətraf mühitin qorunmasında rolu, harmonizə olunmuş standartların iqlim tədbirlərini dəstəkləməsi, emissiyaların azaldılması və resurslardan səmərəli istifadənin artırılması məsələləri AR nümayəndə heyətinin üzvü tərəfindən vurğulanmışdır. Xüsusilə qida texnologiyaları və su idarəçiliyi sahələrində standartların tətbiqinin böyük əhəmiyyəti qeyd edilmişdir. Sessiyada həmçinin standartlaşma orqanları və dövlət qurumları arasında əməkdaşlığın gücləndirilməsi, ətraf mühit siyasətlərinin ən yaxşı qlobal təcrübələrə uyğunlaşdırılması və koordinasiyalı yanaşmanın təşviqi müzakirə olunmuşdur.

Daha sonra "NDC-3.-ün icra edilməsi: Texnologiya Ehtiyaclarının Qiymətləndirilməsi (TNA) və Fəaliyyət Planları" mövzusunda keçirilmiş sessiyada çıxışla AR nümayəndə heyətinin üzvü iştirak etmişdir. Sessiyada iştirakçılara iqlim dəyişmələrinin Azərbaycan üçün yaratdığı əsas çağırışlar – su ehtiyatlarının azalması, kənd təsərrüfatında məhsuldarlığın enməsi və ekstremal hidrometeoroloji hadisələrin artması məsələləri iştirakçıların diqqətinə çatdırılmışdır. Tədbir çərçivəsində TNA-ların üçüncü nəsil NDC-lərə inteqrasiyası, texnologiyaların transferi və maraqlı tərəflərin cəlb olunması, həmçinin iqlim siyasətlərinin məqsədlərinə uyğunlaşdırılmasının vacibliyi vurğulanmışdır. Həmçinin, TNA-ların iqlim maliyyəsinin cəlb edilməsinə töhfəsi və aşağı karbonlu, iqlimə dayanıqlı inkişafın sürətləndirilməsindəki rolu diqqətə çatdırıldı. Tədbirdə Azərbaycanın NAP və NDC sənədləri çərçivəsində adaptasiya və mitiqasiya tədbirlərinin həyata keçirilməsi üçün müasir texnologiyaların tətbiqi və beynəlxalq əməkdaşlığın vacibliyi də müzakirə olunmuşdur.

Bundan əlavə, COP30 çərçivəsində Azərbaycan Respublikasının milli pavilyonunda 17.11.25 tarixində "Xəzər dənizinin səviyyəsinin enməsi" mövzusunda sessiya keçirilmişdir. Sessiyada digər Xəzəryanı ölkələrin nümayəndələri, o cümlədən AR Ekologiya və təbii sərvətlər nazirinin müavini xanım çıxış edərək məsələ ilə bağlı ölkəmizin mövqeyini və təkliflərini səsləndirmişdir [16]. Xəzər dənizinin sürətlə dayazlaşması, su səviyyəsinin azalmasının yaratdığı ekoloji və sosial risklər, həmçinin bu prosesin iqlim və su idarəçiliyi amilləri ilə bağlılığı müzakirə olunub. Azərbaycan nümayəndəsi tərəfindən Milli Adaptasiya Planı (NAP) çərçivəsində həyata keçirilən su səmərəliliyi, sahil zonalarının idarə olunması və adaptasiya tədbirləri barədə məlumat verildi. Regional əməkdaşlığın və birgə elmi fəaliyyətin gücləndirilməsinin vacibliyi qeyd edilib. Tədbirin sonunda Xəzəryanı ölkələrin nazirlərinin, yüksək səviyyəli nümayəndələrinin "Xəzər dənizinin suyunun səviyyəsinin azalması məsələsində əməkdaşlığın gücləndirilməsi haqqında Bəyannamə" qəbul edilmişdir.

Bundan əlavə, COP30 çərçivəsində Türkiyə Respublikasının COP30-dakı milli pavilyonunda 17.11.25 tarixində "Milli

Səviyyədə Müəyyən Olunmuş Töhfələr üzrə Hədəflərə Nail Olunması Kontekstində Rio Konvensiyalarının Sinerjisinin Gücləndirilməsi: Səhralaşma və Torpaq Deqradasiya ilə Mübarizədə Əməkdaşlıq" mövzusunda təşkil edilmiş panel sessiyada AR Nümayəndə heyətinin üzvü kimi, hazırkı məqalənin müəllifi əsas məruzəçi qismində iştirak etmiş, ölkəmizdə qeyd olunan konvensiyaların birgə, koordinasiyalı icrası üzrə müsbət təcrübə barədə bəhs etmiş, iştirakçıların müvafiq suallarını cavablandırmışdır.

Bundan əlavə, 19.11.25 tarixində Pakistan Respublikasının COP30-dakı milli pavilyonunda "Karbon İzlənilməsi, Təsir Qiymətləndirilməsi və Real-zamanda Monitorinq – Yaşıl Tətbiq" mövzulu panel sessiyada əsas məruzəçi qismində hazırkı məqalənin müəllifi iştirak etmiş, müvafiq diskussiyalarda iştirak edərək, müxtəlif ölkələrin nümayəndələrinin suallarını cavablandırmışdır. Çıxış zamanı AR-də COP29-un uğurlu təşkilindən sonra ölkəmizdə iqlim dəyişmələri ilə mübarizə sahəsində həyata keçirilən fəaliyyətlər barədə geniş məlumat təqdim edilmişdir.

Azərbaycan Respublikasının nümunəvi xarici siyasət kursunun bariz göstəricisi kimi, 2026-cı ildə ətraf mühit və dayanıqlı inkişaf mövzusunda iki iri beynəlxalq tədbirin ölkəmizdə keçirilməsi barədə tarixi qərarların ötən il qəbul edilməsini qeyd etmək olar.

Belə ki, 2026-cı il may ayının 17-22-də Bakı şəhəri dayanıqlı şəhərlərin gələcəyinin qlobal səviyyədə müzakirə məkanı olacaqdır. Belə ki, burada BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının sessiyası, yəni COP-dan sonra ikinci ən böyük və strateji əhəmiyyətli qlobal platforma hesab edilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) təşkil ediləcəkdir. Birləşmiş Millətlər Təşkilatının Məskunlaşma Proqramı (UN-Habitat) ilə birlikdə təşkil edilən bu mühüm tədbirin məhz Bakı şəhərində keçirilməsi qlobal miqyasda şəhərsalma, dayanıqlı inkişaf və ətraf mühit sahələrində ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun göstəricisidir. 23.10.25 tarixində Birləşmiş Millətlər Təşkilatının Məskunlaşma Proqramı Assambleyasının 2023-cü ildə qəbul edilmiş "Hər Kəs üçün Münasib Mənzil" qətnaməsi ilə yaradılmış Açıq Hökumətlərarası İşçi Qrupun UN-Habitat-ın Keniyanın paytaxtı Nayrobidə yerləşən qərargahında 2-ci sessiyası (OEWG-H2) keçirilib. Sessiya çərçivəsində Azərbaycan həmin İşçi Qrupun bürosunun 2025-2026-cı illər üzrə həmsədri seçilmişdir [10]. Bakı şəhərində keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası həm də onunla əlamətdardır ki, bu il BMT Məskunlaşma Proqramının (UN-Habitat) yaranmasının 50 illiyi qeyd olunacaqdır.

Bundan əlavə, 2026-cı il iyun ayının 5-də BMT-nin Ətraf Mühit Proqramı (UNEP) ilə birgə Azərbaycan Respublikası Ümumdünya Ətraf Mühit Günü (World Environment Day-WED) beynəlxalq tədbirinə ev sahibliyi edəcəkdir. Təşkil ediləcək Ətraf Mühit Gününə həsr olunacaq bu ilki qlobal tədbirlər "Plastik Çirklənməyə Son Qoyulması" şüarı altında keçiriləcəkdir [18]. Qeyd edək ki, 5 iyun – Ümumdünya Ətraf Mühit Günü BMT-nin Assambleyası tərəfindən 1972-ci ildə təsis edilmişdir və hər il ətraf mühit mövzusunda fəaliyyətlərin qlobal səviyyədə səfərbər edilməsini və dünya ictimaiyyətinin diqqətini bu məsələyə yönəltmək üçün ən böyük qlobal platformadır. Bu platforma hər il 150-dən çox ölkədən milyonlarla iştirakçını səfərbər edərək, bəşəriyyət və planet üçün tərəqqinin sürətləndirilməsinə yönəlmiş fəaliyyətlər və tədbirlər təşkil edir.

WUF13 sessiyasının 2026-cı ilin mayında Bakıda keçirilməsi ideyası, şübhəsiz ki, qlobal səviyyədə şəhərsalma və iqlim dəyişmələri mövzularının əlaqəsinin aktuallığına diqqəti cəlb etmək məqsədi daşıyır. Qeyd edək ki, günümüzdə şəhərlər həm qlobal iqlim dəyişmələrinə səbəb olan, həm də onun neqativ təsirlərini birbaşa öz üzərində hiss edən əsas məkanlar kimi önəmli rol oynayırlar. Belə ki,

hazırda şəhərlərdə dünya əhalisinin təxminən 57%-i məskunlaşmışdır, şəhərlər qlobal istehlakla bağlı yaranan karbon emissiyalarının 70%-dən çoxuna cavabdehdirlər və bir çox ölkələrdə ümumi daxili məhsulun 80%-dən çoxunun formalaşmasına töhfə verirlər. İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panelin (IPCC) Altıncı Qiymətləndirmə Hesabatında (AR6) xüsusilə aşağı və orta gəlirli ölkələrdə sürətlə genişlənən qeyri-rəsmi yaşayış məntəqələrinin və şəhər ərazilərinin artan iqlim zəifliyi ilə əlaqədar ciddi xəbərdarlıq ifadə olunmuşdur. Ekstremal iqlim hadisələri şəhərlərə, şəhər yaşayış məntəqələrinin əsas xidmətlərinə, infrastrukturuna, mənzil fonduna, əhalinin dolanışığına və sağlamlığına ciddi və yüksək maliyyətli təsirlər göstərməkdədir.

Bununla yanaşı, Sendai Çərçivə Sənədinin 2023-cü ildə aparılmış orta müddətli icmalının nəticələri [9] göstərmişdir ki, Fəlakət Risklərinin Azaldılması üzrə Sendai Çərçivəsinin (SFDRR) yeddi hədəfindən yalnız ikisi üzrə müəyyən irəliləyiş qeydə alınmışdır. Bunlar - infrastruktura və əsas xidmətlərə dəyən zərərin azaldılması, eləcə də fəlakət risklərinin azaldılması üzrə milli və ya yerli strategiyalara malik olan ölkələrin sayının artırılması hədəfləridir. Lakin, digər göstəricilər və onların hərəkətverici amilləri üzrə müşahidə olunan tendensiyalar risklərin dərk edilməsi, idarəetmə, maliyyələşdirmə, investisiyalar və xüsusilə çoxsaylı təhlükələrin erkən xəbərdarlığı sistemləri sahələrində boşluqları və çatışmazlıqları üzə çıxarmışdır ki, bu da Sendai Çərçivəsinin 2030-cu il hədəflərinə nail olunması imkanlarını məhdudlaşdırmışdır. Bu xüsusda, hər bir ölkədə effektiv Çoxsaylı Təhlükələrin Erkən Xəbərdarlığı Sistemlərinin (MHEWS) tətbiqi, intensivliyi və miqyası artan, misli görünməmiş ekstremal hadisələrlə üzləşən şəhər və şəhər yaşayış məntəqələrinin iqlim risklərinin idarə olunmasına, fəlakət risklərinin minimuma endirilməsinə, elmi əsaslara və insan rifahına yönəlmiş yanaşmaya söykənən mitiqasiya və adaptasiya həllərinin işlənib hazırlanmasına, eləcə də yerli icmaların bilikləri ilə zənginləşdirilmiş səmərəli cavab tədbirlərinin həyata keçirilməsinə imkan yarada bilər. Nəzərə almaq lazımdır ki, təhlükəli hadisə barədə cəmi 24 saat əvvəlcədən edilmiş xəbərdarlıq mümkün zərərin 30%-ə qədər azaldılmasına imkan verə bilər.

Bununla əlaqədar, WUF13 sessiyası zamanı müxtəlif yan tədbirlərin, konfransların təşkili nəzərdə tutulur. Bunlardan biri, hazırkı məqalənin müəllifinin də bilavasitə təşkilat komitəsində iştirak etdiyi "Erkən Xəbərdarlıq və İqlimə Dayanıqlı Şəhərlər" mövzulu beynəlxalq konfransdır. IPCC, UNEP, Finlyandiya Meteorlogiya İnstitutundan tanınmış mütəxəssislərin iştirakının nəzərdə tutulduğu bu tədbir elmi təcrübə, siyasi yeniliklər və icma iştirakını bir araya gətirərək, insanların həyatını və evlərini qorumaq üçün geniş istifadə oluna bilən həlləri nümayiş etdirməklə yanaşı, dayanıqlı və aşağı karbonlu şəhər həllərinə də yer verəcəkdir. Tədbir zamanı həm də, hazırda IPCC tərəfindən hazırlanmaqda olan "İqlim Dəyişmələri və Şəhərlər üzrə Xüsusi Hesabat" üzrə ilkin yanaşmalar və istifadə olunan əsas metodlar müzakirə ediləcəkdir. Bu hesabat növbəti onilliklərdə adaptasiya və mitiqasiya tədbirlərinin vacib elementlərini təşkil edən şəhərlər və qlobal urbanizasiya kimi mövzuların elmi qiymətləndirmə prosesi ilə əlaqələndirilməsi üçün mühüm imkan təqdim edəcəkdir. Buna görə də, tədbirdə sənədin hazırlanması prosesində bivasitə iştirak edən aparıcı ekspertlər və mütəxəssislərin iştirakı və onların məsələ ilə bağlı baxışları, prioritetləri, mövcud çağırışlar və imkanlar və hesabatın gedişatı barədə fikirləri maraq doğurur. Eyni zamanda, tədbirdə şəhərlərdə həm yerli icmaların biliklərinə, həm də elmi nailiyyətlərə əsaslanan effektiv uyğunlaşma həllərinin hazırlanması prosesində Çoxsaylı Təhlükələrin Erkən Xəbərdarlığı Sistemlərinin (MHEWS) rolu və əhəmiyyətinə diqqət yönəldiləcəkdir.

Bu baxımdan, tədbir zamanı iştirakçılar şəhərsalma və mənzil siyasətində çoxsaylı

təhlükələrin Erkən Xəbərdarlığı Sistemlərinin (MHEWS) rolu barədə məlumatlandırılacaq, onların yaşayış məkanlarının iqlim dayanıqlılığının artırılmasına, zərərin azaldılmasına və icmaların təhlükəsizliyi ilə mühafizəsinin gücləndirilməsinə töhfəsi nəzərdən keçiriləcəkdir. Eyni zamanda, təbiət əsaslı yanaşmalar və ekosistem əsaslı uyğunlaşmalar da daxil olmaqla, aşağı karbonlu və dayanıqlı mənzil həllərinin təşviqi məsələlərinə də toxunulacaqdır.

Beləliklə, COP29 və COP30 kimi beynəlxalq iqlim konfranslarının nəticələrinin müqayisəli təhlili bir daha göstərmişdir ki, iqlim dəyişmələri ilə mübarizə üzrə beynəlxalq ictimaiyyət qarşısında hələ də öz təcili həllini gözləyən bir çox problemlər, çağırışlar qalmaqdadır və bu məsələlər yalnız və yalnız birlikdə, beynəlxalq əməkdaşlıq əlaqələrinin genişləndirilməsi və bir sıra siyasi ambisiyaların kənara qoyulması ilə həll edilə bilər. Bu mənada, ABŞ-ın timsalında bir sıra qlobal geosiyasi oyunçuların "iqlim demarşı", yəni Paris Sazişindən və daha sonra UNFCCC konvensiyasından birtərəfli qaydada çıxması və ya "iqlim skeptisizmi" nümayiş etdirməsi qlobal ekoloji ictimaiyyətin iradəsini, iqlim diplomatiyasının gücünü və səylərini zəiflətməməlidir. Qarşıdakı illərdə qlobal karbon büdcəsinin tədricən azalması müşahidə olunduqca, bütün ölkələr, xüsusən də qlobal emissiyalarda yüksək paya malik olan inkişaf etmiş dövlətlər, yəni ABŞ, AB dövlətləri, Çin, Hindistan və digərləri iqlim dəyişmələrinin baş verməsində öz tarixi məsuliyyətini dərk etməlidirlər və onunla mübarizədə avanqard rola sahiblənərək, daha ambisiyalı hədəflər qəbul etməli, inkişaf etməkdə olan ölkələrə bu sahədə maliyyə, texnoloji transfer və bacarıqların artırılması üzrə öz dəstəyini xeyli genişləndirməlidirlər.

**Ədəbiyyat:**


1. Abbasbəyli. A.N., Diplomatik-siyasi ensiklopediya. 5 clddə 2024.
2. Ələkbərov U.K., Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları. Bakı, Təhsil, 2013, 224 s.
3. Heydər Əliyev, Azərbaycan nefti dünya siyasətində, Bakı, "Azərbaycan" nəşriyyatı, 1997.
4. Hümbətov F.D. Beynəlxalq münasibətlər kontekstində ekoloji təhlükəsizlik sisteminə real təhdid kimi qlobal iqlim dəyişmələri ilə mübarizə məsələləri // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal. – Bakı. – №3(75). – 2021. s.159-176.
5. Hümbətov F.D. Beynəlxalq münasibətlər kontekstində ekoloji təhlükəsizlik məsələləri və müasir çağırışlar // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal. – Bakı. – №4(80). – 2022. s.177-187
6. Hümbətov F.D. Ekoloji və siyasi təhlükəsizlik risklərinin korrelyasiyası və onların qarşısının alınmasında beynəlxalq əməkdaşlığın rolu // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal. – Bakı. –№4(84). –2023, – s.161-186 (DOI 10.30546/2309-1347.84.2023.161)
7. F.Hümbətov. Beynəlxalq münasibətlərdə iqlim diplomatiyası, müasir çağırışlar. Bakı, “Zərdabi Nəşr” MMC, 2025, 352s.
8. Carson R. Silent Spring. Boston, MA: Houghton Mifflin, 1962. P. 368
9. https://sendaiframework-mtr.undrr.org/reports-midterm-review-implementation-sendai-framework-disaster-risk-reduction-2015-2030
10. https://press.un.org/en/2024/gaef3604.doc.htm#:~:text=With%20only%20six%20years%20remaining,as%20it%20took%20up%20
11. https://www.un.org/en/unis-nairobi/un-secretary-general-cop29-closing-statement
12. https://unfccc.int/sites/default/files/2025-11/NDC%203.0%20Report_Azerbaijan.pdf


***Açar sözlər:*** *iqlim dəyişmələri, beynəlxalq münasibətlər, dayanıqlı inkişaf, iqlim diplomatiyası, şəhərsalma, ekoloji təhlükəsizlik*

**Fuad Humbatov**

*Associate Professor of the Chair of Sustainable Development of the State Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Ph.D. in Mathematics*

# COMPARATIVE ANALYSIS OF THE MAIN OUTCOMES OF THE COP29 AND COP30 INTERNATIONAL CLIMATE CONFERENCES: GLOBAL CHALLENGES OF CLIMATE DIPLOMACY

## ABSTRACT

The paper studies the issues of combating global climate change in regard with the risks to the global environmental security system, particularly in the period of the "US climate demarche", that is, unilateral withdrawal from the key international climate agreements, alongside 64 other international bodies like the IPCC. In this regard, the exemplary environmental policy of the Republic of Azerbaijan, the main features of its climate diplomacy are studied. At the same time, the paper presents a comparative scientific analysis of the main achievements of COP29, successfully organized in Azerbaijan in 2024, and COP30 held in Belem (Brazil) in 2025. Thus, the main reasons why the key goals of the climate agenda of COP30 was not realized, are analyzed, as well as the assessments of the results of these conferences by the international climate community are considered. In addition, the importance of diplomatic activities carried out by the delegation of Azerbaijan during the COP30, as well as the role and significance of the forthcoming activities in Baku in 2026, i.e. the 13th session of the World Urban Forum (WUF13) and World Environment Day (WED) were examined from the point of view of global environmental security.

***Keywords:*** *climate change, international relations, sustainable development, climate diplomacy, urban planning, environmental security*

**Фуад Гумбатов**
*Доцент кафедры Устойчивого развития*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философии по математике*

# СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ОСНОВНЫХ ДОСТИЖЕНИЙ МЕЖДУНАРОДНЫХ КЛИМАТИЧЕСКИХ КОНФЕРЕНЦИЙ COP29 И COP30: ГЛОБАЛЬНЫЕ ВЫЗОВЫ КЛИМАТИЧЕСКОЙ ДИПЛОМАТИИ

## РЕЗЮМЕ

В статье изучаются особенности борьбы с глобальным климатическими изменениями и рисками для глобальной системы экологической безопасности, особенно в период «климатического демарша США», то есть одностороннего выхода из ключевых международных климатических соглашений, наряду с 64 другими международными органами, такими, как МГЭИК. В этой связи изучается образцовая экологическая политика Азербайджанской Республики, основные особенности ее климатической дипломатии. В то же время в работе представлен сравнительный научный анализ основных достижений COP29, успешно организованных в Азербайджане в 2024 году, и COP30, проведенных в Белеме (Бразилия) в 2025 году. Так, проанализированы основные причины, по которым не были реализованы ключевые цели климатической повестки COP30, а также рассмотрены оценки результатов этих конференций международным климатическим сообществом. Помимо этого, значимость дипломатических мероприятий, проведенных делегацией Азербайджана в ходе COP30, а также роль и значение предстоящих мероприятий в Баку в 2026 году, то есть 13-й сессии Всемирного Форума Городов (WUF13) и Всемирного Дня Окружающей Среды (WED) рассмотрены с точки зрения повестки глобальной экологической безопасности.

***Ключевые слова:*** *климатические изменения, международные отношения, устойчивое развитие, климатическая дипломатия, градостроительство*

DOI:https://doi.org/10.30546/2309-1347.92.2025.316

**D A V A M L I İ N K İ Ş A F S İ Y A S Ə T İ**
**S U S T A I N A B L E D E V E L O P M E N T P O L I C Y**

UOT 327(4/9);930.22(4/9); 327; 351.78; 504.4/8; 614.8

**YEGANƏ BAXŞIYEVA**

**Azərbaycan Milli Elmlər Akademiyasının**
**Fəlsəfə və Sosiologiya İnstitutu**
**Qərbi Azərbaycana qayıdış siyasəti və ermənişünaslıq şöbəsinin**
**böyük elmi işçisi, siyasi elmlər üzrə fəlsəfə doktoru**
*e-mail: ybakhshiyeva@gmail.com*

# İQLİM DƏYİŞMƏLƏRİ VƏ HİDROTƏHLÜKƏSİZLİK: AZƏRBAYCANIN DAVAMLI TƏSİR VASİTƏLƏRİ

## Giriş

Müasir dövrdə dünya dövlətləri iqlim çağırışları və yaşıl keçid əsrinə qədəm qoyub. Bu gün dünya enerji təhlükəsizliyi və iqlim dəyişiklikləri dilemması ilə üz-üzədir. Yaşıl keçid, alternativ mənbələrə inteqrasiya və karbon emissiyalarının azaldılması artıq təkcə ekoloji məsələ deyil – bu, geosiyasi reallığın yeni üzü, iqtisadi sabitliyin təməlidir. Əgər əvvəlki dövrlərdə təhlükəsizlik anlayışı hərbi balans, silahlanma və münaqişə zonasına nəzarət üzərində qurulurdusa, bu gün iqlim diplomatiyası vasitəsilə sabitlik yaratmaq əsas mexanizm kimi qəbul olunur. Bu kontekstdə su ehtiyatları, xüsusilə də hidroenerji yaşıl enerjinin ən mühüm tərkib hissələrindən biri kimi ön plana çıxır. Su ehtiyatlarının enerji istehsalında rolu, ekoloji və iqtisadi üstünlükləri, həmçinin dayanıqlı inkişaf kontekstində strateji əhəmiyyəti böyük aktuallıq kəsb edir.

Dünya üzrə iqlim dəyişmələri su dövriyyəsinin dəyişməsinə, hidrolojik dövrlərin qeyri-müəyyənliyinin artmasına səbəb olur. Lakin bu təsirlər coğrafi regiondan regiona fərqlidir. Azərbaycanda, xüsusilə Kür-Araz hövzəsi kimi transsərhəd sahələrdə suyun miqdarı və keyfiyyəti üzərində ciddi risklər mövcuddur. Bu səbəbdən iqlim dəyişiklikləri, əhalinin artımı, kənd təsərrüfatında suya tələbatın yüksəlməsi və transsərhəd çaylardan asılılıq Azərbaycanda su resurslarının idarə olunmasını vacib dövlət prioritetinə çevirib.

Həmçinin regionun hidrotəhlükəsizliyində regional əməkdaşlıq məsələsi bir sıra problemlərlə üz-üzədir. Su ehtiyatlarının sərhədyanı xarakter daşıdığı bölgələrdə bu resurslardan səmərəli və ədalətli istifadə üçün ölkələr arasında koordinasiyalı fəaliyyət mövcud deyildir.

## İqlim dəyişmələrinin Azərbaycanda su ehtiyatlarına və hidrotəhlükəsizliyə təsiri

Son onilliklərdə iqlim dəyişmələrinin fəsadları dünya ölkələrinin əksəriyyəti üçün böyük təhlükələr sırasındadır. İqlim dəyişmələri nəticəsində müşahidə olunan temperatur artımı, yağıntıların qeyri-bərabər paylanması, su mənbələrinin tükənməsi birbaşa və dolayı yolla hidrotəhlükəsizlik məsələlərini ön plana çıxarır. Azərbaycanın coğrafi mövqeyi, relyefi və iqlim şəraiti bu təhlükələrə qarşı xüsusi həssaslıq yaradır [8].

Azərbaycanda iqlim dəyişmələrinin ümumi mənzərəsi təhlil edilərkən məlum olur ki, son 50 ildə orta illik hava temperaturu təxminən 1,3°C artmışdır. Quraqlıq dövrlərinin tezliyi

yüksəlmiş, ekstremal təbiət hadisələri daha çox müşahidə olunmağa başlamışdır. Yağıntıların illik miqdarı isə bəzi bölgələrdə 10-15% azalmış, digərlərində isə qeyri-bərabər paylanmışdır.

Azərbaycanın əsas su mənbələri olan Kür çayının illik axımının təxminən 70%-i, Arazın isə 60%-i ölkə sərhədlərindən kənarda formalaşır. Ən son məlumatlara görə, Azərbaycanın su resursları iqlim dəyişmələri səbəbindən 15–20% azalmaqdadır. İqlim dəyişmələri nəticəsində Kür və Araz hövzəsində axımın azalması (10–20%) müşahidə olunur. Böyük Qafqaz və Kiçik Qafqaz dağlarında buzlaqların sahəsi 30–40% azalmışdır. Sel və daşqın hadisələrinin intensivliyi artmışdır (xüsusən Qəbələ, Zaqatala, Şəki bölgələrində). Yeraltı su ehtiyatlarının səviyyəsi bir sıra bölgələrdə, xüsusilə Aran zonasındakı artezian hövzələrində xeyli aşağı düşmüşdür [16, s.12-22].

Su resurslarının azalması içməli su təchizatına, enerji istehsalına, xüsusilə, Mingəçevir su anbarının səviyyəsinin enməsi enerji təhlükəsizliyinə və balıqçılığa mənfi təsir göstərib. Su anbarlarının (Mingəçevir, Şəmkir və s.) doluluq səviyyəsi ilbəil dəyişkən xarakter alıb və idarəetməni çətinləşdiribdir. Eləcə də bu amil Cənubi Qafqazda Azərbaycanın ən az meşə örtüyü olan ölkələrdən biri olması (ərazisinin 10-12 faizi təbii meşələrlə örtülüdür) ilə də bağlıdır.

Məqalədə araşdırılan "yaşıl iqtisadiyyat", "yaşıl enerji" anlayışı bir sıra alimlərin tədqiqatlarında işıqlandırılmış və daha obyektiv şəkildə qiymətləndirilmişdir. Məsələn, akademik Urxan Ələkbərovun hələ 2017-ci ildə nəşr olunan "Davamlı İnsan İnkişafı və Ekoloji Sivilizasiyanın Əsasları" əsərində bu anlayış hərtərəfli şəkildə nəzəri mülahizələr əsasında tədqiq olunmuş və "yaşıl iqtisadiyyat" anlayışının izahı açıqlanmışdır. Tədqiqat işində qeyd edildiyi kimi yaşıl iqtisadiyyat ekoloji sivilizasiyaya keçidin əsas mexanizmlərindən biridir və onun həyata keçirilməsi üçün dövlət siyasətində innovativ və ekoloji yanaşmaların tətbiqi vacibdir. Bu gün biz Azərbaycan dövlətinin "yaşıl iqtisadiyyat" konsepsiyasının və sözügedən nəzəri fikirlərin təcrübədə uğurla tətbiqinin və yeni "yaşıl sənaye" şəhərlərinin yaradılmasının şahidi oluruq [5, s.32].

Bu əhəmiyyətli konsepsiya dövlətimizin "Böyük Qayıdış" proqramının tərkib hissəsidir. Çünki Azərbaycan dövləti beynəlxalq arenada təkcə "resurs ixracatçısı" deyil, eləcə də "dəyərlər ixrac edən" aktora çevrilmək prosesini müvəffəqiyyətlə davam etdirir. Dövlətimizin xarici siyasətində yaşanan ən diqqətəlayiq transformasiyalardan biri iqlim ədalətinin tərəfdarı və təşəbbüskarı olaraq "Yaşıl diplomatiya" anlayışını beynəlxalq səviyyədə yumşaq güc modelinin əsas kodlarından biri kimi təqdim etməkdir.

Bu mənada Prezident İlham Əliyev dövlətin hidrosiyasətində adekvat münasibət nümayiş etdirərək bir çox siyasi və iqtisadi tədbirlər həyata keçirir. Bunlardan biri alternativ mənbələrə çıxış imkanlarının tətbiqi, dəniz suyunun duzsuzlaşdırılması texnologiyaları, yağış sularının təkrar istifadəsidir ki, bu sahədə dövlətimiz mühüm nailiyyətlər əldə edib. Belə ki, Xəzər dənizindən suyun təmizlənməsi prosesində SCADA (idarəetmə obyektləri haqqında informasiyaların toplanması, işlənməsi, təsvir edilməsi) sistemlərinin tətbiqi, Neftçala və Salyan bölgələrində pilot duzsuzlaşdırma qurğularının quraşdırılması, o cümlədən şəhər infrastrukturu layihələrində (xüsusən Bakı və Sumqayıt kimi böyük şəhərlərdə) sel sularının idarə olunması və təkrar istifadəsinə yönəlik planlaşdırma işləri dövlət başçısının yürütdüyü siyasətin uğurlu göstəricisidir [9].

Azərbaycanın su çatışmazlığı problemi ilə üz-üzə qalan bəzi bölgələri BMT-nin hesabatlarında "su stressi" zonaları kimi qeyd olunur. Təşkilat bu amili qlobal sülhə təhlükə kimi qiymətləndirərək Azərbaycan Respublikasını iqlim dəyişməsindən ən çox ziyan çəkən 39 ölkədən biri kimi qeyd edib.

Məlum olduğu kimi Azərbaycan Respublikasının ərazisinin 60%-dək hissəsi arid zonaya daxil olmaqla coğrafi mövqeyi iqlim dəyişmələrinin təsirlərinə həssasdır. Bu məsələyə dair daha bir hesabat ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin iqlim dəyişmələri ilə bağlı

Cənubi Qafqaz regionunun ekologiyasında yaranan ekoloji böhranla bağlı bəyanatları olmuşdır. Belə ki, Dünya Ehtiyatları İnstitutunun hesablamalarına görə, Azərbaycan Respublikasının 2025-ci ildə bir nəfərə düşən su ehtiyatı ən az olaraq 13 ölkədən biri olacağı proqnozlaşdırılır (~972 $m^3$ /il) [3, s.30-32].

Məsələnin tarixinə nəzər yetirdikdə əslində regionun hidromühitinin qərəzli və məqsədli şəkildə dəyişikliyə məruz qalması aydın olur. Belə ki, Sovet İttifaqının süqutuna qədər SSRİ, İran və Türkiyə Kür və Araz çaylarından istifadə məsələlərini özlərinin üçtərəfli qaydada qəbul etdikləri normativlərə uyğun tənzimləyirdilər. Regionda müstəqil dövlətlərin yaranması ilə regionun həm siyasi, həm də ekoloji mənzərəsi dəyişdi. Üstəlik Ermənistanın 30 il müddətində Azərbaycan Respublikasına qarşı hərbi təxribatı qeyd olunan problemin həllini çətinləşdirdi. Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü ümumilikdə regionda ekoloji problemlərin həllinə mane olmaqla, yeni və daha ağır ekoloji böhranın yaranmasına səbəb oldu. Çünki Ermənistan ərazisi bütövlükdə Araz çayının yuxarı axınında yerləşərək çayın qollarından içməli su əldə etməklə yanaşı, həm əlverişli ekoloji şəraitdən faydalanır, həm də Araz çayına çirkab, tullantı suların axıdılmasında başlıca rol oynayır. Belə ki, Arazın Azərbaycan ərazisində Kürə qovuşması nəticəsində çirklənmə səviyyəsi hətta normadan artıq həddə çatıb.

Əsasən subtropik iqlimli Azərbaycan Respublikasında suvarma sisteminin inkişafı, regionların su ilə təchizatı vacib məsələdir. Kiçik Qafqaz dağları Azərbaycan Respublikasının su ehtiyatlarının formalaşmasında böyük əhəmiyyət kəsb edir. Ermənistanın 30 illik işğalı dövründə Azərbaycan Respublikasının bir sıra meliorasiya obyektləri işğalçı dövlətin qeyri-bərabər şəkildə istismarına məruz qalmışdırlar. Bu meliorasiya obyektlərindən Sərsəng, Xaçınçay, Qanlıgöl, Arpaçay, Ağdamkənd su anbarlarını və 160-dan çox su deposunu göstərmək olar [14, s.124-128].

Böyük Qafqaz regionunda Azərbaycanın iqlim dəyişikliyi riskinin idarə edilməsi məqsədilə 2011-2016-cı illərdə BMT-nin YUNEP təşkilatının ekoloji layihələrində iştirakı məqalədə araşdırılan layihələrdən biri kimi diqqət çəkir. 2,7 mln dollar dəyərində olan layihədə məqsəd ölkənin dağlıq bölgələrindəki əhalinin iqlim dəyişkənliyinə uyğunlaşması problemini, sel və daşqınların qarşısının alınmasında operativ tədbirlərin görülməsinə cəlb edilməsini nəzərdə tuturdu.

Ümumiyyətlə, Azərbaycan-YUNEP əməkdaşlığının faydalı aspektdə inkişafından xəbər verən bir sıra amilləri qeyd etmək olar. BMT-nin Ətraf Mühit Proqramının (YUNEP) Avropa Bürosunun direktoru Kristof Buvyenin Bakıya səfər edərkən Ümumdünya Ətraf Mühit Günü münasibəti ilə "Çoxlu növlər, bir planet, bir gələcək" şüarı ilə ölkədə baş tutan bir sıra tədbirlərdə iştirakı təsadüfi deyildi. Uğurla inkişaf edən Azərbaycan – YUNEP əlaqələrinin nəticəsi idi ki, BMT-nin Ətraf Mühit Proqramı (YUNEP) Dünya Ətraf Mühit Gününün qeyd edildiyi şəhərlər sırasına Avropanın Genuya, Cenevrə şəhərləri ilə birlikdə Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərini daxil etmişdi [3].

Regionun hidrosferasında təhlükələr bu gün də mövcud olduğu halda Cənubi Qafqazda yalnız Azərbaycan dövləti bu sahədə strateji tədbirlər həyata keçirmişdir. Bu səbəbdən dövlətimiz 1992-ci ildə BMT-nin "Sərhədən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi üzrə Helsinki Konvensiyası"na qoşulmuşdur. 1995-ci ildə Azərbaycan BMT-nin "İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası" və "Paris Sazişi"nə qoşularaq bu prosesin mənfi nəticələrinin qarşısını almağa yönəlmiş aparıcı dövlət kimi iqlim dəyişmələrinin təsirlərinin azaldılması və adaptasiya tədbirlərinin həyata keçirilməsi istiqamətində öhdəliklər götürmüşdür. 1997-ci ilin 30 aprelində bu sənəddə nəzərdə tutulan məsələlərin icrası ilə bağlı Dövlət Komissiyası yaradılmışdır. Bundan başqa Azərbaycan Cənubi Qafqazda su diplomatiyasının gücləndirilməsi istiqamətində 2000-ci ildə transsərhəd

suların ədalətli və səmərəli istifadəsinə dair hüquqi baza yaradan BMT-nin "Su üzrə Sərhədyanı Əməkdaşlıq Konvensiyası"na qoşularaq bu sahədə nümunəvi ölkə kimi uğurlar qazanmışdır [4].

Azərbaycan iqlim ədaləti, humanitar təhlükəsizlik və dayanıqlı inkişaf kimi prinsipləri nəinki regionda, hətta beynəlxalq aləmdə yüksək səviyyədə bəyan edir. Prezident İlham Əliyevin iqlim və sülh layihələri barədə açıqlamaları Azərbaycan diplomatiyasının coğrafiyasının cəsarətli şəkildə genişləndiyinin göstəricisidir. Dövlət başçısı hidrosiyasətdə bərpa olunan enerjinin vacibliyini hər zaman vurğulayaraq Azərbaycanın beynəlxalq "yaşıl enerji" gündəliyinin əsas aktoru olduğunu və bu siyasətin bizim məsuliyyət hissimizin əsas hissəsini təşkil etdiyini qeyd edir: "Qazıntı yanacağı ilə zəngin ölkələr yaşıl enerjiyə keçiddə ön sıralarda olmalıdır. Biz bunu ənənəvi ehtiyatlarımızın çatışmadığına görə etmirik, ona görə edirik ki, neft-qaz satışından əldə etdiyimiz maliyyədən, gəlirlərdən bərpaolunan enerjiyə sərmayə yatırmaq üçün istifadə etməklə töhfə vermək və buna ehtiyacın olduğuna dair ümumi bir anlayış yaratmaq istəyirik. Biz hər il bunu Bakıda görürük. Hər il biz Xəzər dənizinin getdikcə daha da dayazlaşmasının şahidi oluruq. Dəniz kənarında, hətta burada Bakının mərkəzində yaşayan hər kəs bunu görür. Biz iqlim dəyişikliyinin fəsadlarını, təhlükəli fəsadlarını görürük, çaylarımızda su azalır, dağlarımızda qar azalır, Xəzər dənizində suyun səviyyəsi azalır. Əgər biz enerji və əzmlə bu məsələ ilə məşğul olmasaq, hamımız əziyyət çəkəcəyik" [14, s.112].

Bu təşəbbüslər Azərbaycanın İslam dünyası ilə həmrəylik istiqamətində yeni körpülər yaratmaq cəhdlərinə də uyğun gəlir. İqlimlə bağlı maliyyə institutlarının – məsələn, İslam İnkişaf Bankı və Afrika İnkişaf Bankının – bu layihələrə qoşulması Azərbaycanı ideya daşıyıcısı, dəyər təklif edən tərəfdaş kimi tanıdır. Belə ki, 14 noyabr 2024-cü il tarixində İslam İnkişaf Bankı (İİB) ilə Azərbaycan prezidenti və İİB prezidenti arasında imzalanan "Qız qalası iqlimə davamlı su layihəsi" (Maiden Tower Climate Resilient Water Project) çərçivəsində kredit sazişi imzalanmışdır.

Həmçinin Dünya Bankı Azərbaycanın "Yaşıllaşdırma", "dayanıqlı enerji", "iqlimə adaptasiya" kimi prioritet sahələr üzrə yeni Çoxillik Əməkdaşlıq Çərçivəsi (Country Partnership Framework) təsdiq edib. Məsələn: "Bərpa olunan enerji mənbələrinin genişləndirilməsi" (Scaling-Up Renewable Energy Project) layihəsi çərçivəsində Azərbaycana 173.5 milyon dollar kredit ayrılıb ki, məqsəd təkrarolunan enerji mənbələrinin genişləndirilməsi və enerji keçidinin sürətləndirilməsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qarabağı "yaşıl enerji" zonası elan etməklə 2021-ci il mayın 3-də "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzaladı [5, s.3-8]. Sərəncamda göstərilir ki, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması ilə bağlı dövlətimizin ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkətlərlə birlikdə işbirliyi həyata keçirməsi əsas məqsədlərdəndir [13].

Hazırda xarici sərmayədarlar Azərbaycanın uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin edilməsi prosesinə həvəs və inamla qoşulublar. Belə ki, 2022-ci ildən etibarən Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti, Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti Azərbaycanın yaşıl enerji siyasətində mühüm tərəfdaşlardır.

Onu da vurğulamaq lazımdır ki, ölkəmizdəki hidrostansiyaların digər bərpaolunan enerji növlərindən fərqi xarici sərmayədarlar hesabına deyil, məhz dövlət vəsaiti hesabına reallaşmasıdır. Bugünədək dövlətimiz doqquz su-elektrik stansiyasının inşasını başa çatdırmışdır ki, bu da ölkə əhalisinin əlavə 50 meqavat elektrik enerjisi ilə təmin olunması deməkdir [12].

Azərbaycan BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərindən irəli gələn öhdəliklərə uyğun

olaraq iqlim dəyişmələri və onun mənfi təsirləri ilə mübarizəyə xüsusi önəm verən ölkələr sırasındadır. Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair milli prioriteti müəyyənləşdirilib. Həmin prioritetlərdən biri olan təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi istiqaməti qarşıya yeni vəzifələr qoyub. Bu prioritetə uyğun olaraq, ölkəmizdə ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində məqsədyönlü işlər aparılır [11].

Bununla yanaşı, Azərbaycan hökuməti tərəfindən 2021-ci ilin noyabr ayında Qlazqo şəhərində keçirilmiş BMT-nin İqlim Dəyişikliyi Konfransında (COP26) baza ili ilə müqayisədə 2050-ci ilə qədər istixana qazı emissiyalarının 40 faizə qədər azaldılması və işğaldan azad edilmiş ərazilərdə "xalis sıfır emissiya" zonası yaradılması niyyəti ifadə olunub [6].

Eyni zamanda, 2022-ci il dekabrın 17-də Rumıniyanın Buxarest şəhərində "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması ölkəmizin bu sahədə potensialının realizə olunmasını və dünyanın enerji bazarında əhəmiyyətli rolunun daha da yüksəlməsini şərtləndirir. Bu amil həm də bərpa olunan enerjinin Qara dəniz vasitəsilə Avropaya çıxışına geniş imkanlar açır [8].

Dövlət başçısının qəbul etdiyi digər bir mühüm sənəd "Azərbaycan Respublikasının 2022-2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası"dır. Bu sənəddə elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payının 2026-cı ilədək 24 faiz, 2030-cu ilədək isə 30 faizə çatdırılması hədəf kimi müəyyənləşdirilib. Bunun mühüm hissəsi hidroenerji layihələrinin payına düşür. Məsələn, Qarabağ və Şərqi Zəngəzurda yenidən qurulan Suqovuşan HES, Kəlbəcər HES, Tərtər HES kimi stansiyalar artıq istismara verilib.

Üzərinə götürdüyü öhdəliklərə sadiqlik, Azərbaycan Prezidenti tərəfindən elan edilmiş "Yaşıl dünya naminə həmrəylik ili" təşəbbüsü çərçivəsində uğurlu fəaliyyət və yeni təşəbbüslər Azərbaycanı dünyada qlobal iqlim siyasətinə böyük töhfə verən uğurlu nümunə kimi tanıdır. Məhz belə bir qlobal çağırışlar fonunda Azərbaycan öz strateji rolunu daha da möhkəmləndirərək BMT-nin COP29 Sammitinə ev sahibliyi etməklə dünyaya yeni mesaj verdi: "Bəli, biz enerji dövlətiyik, amma biz həm də məsuliyyət daşıyan sivil dövlətik". Prezident İlham Əliyevin 30-cu "Caspian Oil and Gas", 13-cü "Caspian Power" və "Baku Energy Forum"un açılışında çıxışı bu mövqeni aydın şəkildə ortaya qoydu. O qeyd etdi ki, Azərbaycanın yaşıl enerji gündəliyi olduqca iddialıdır. Neft və qazla zəngin olan ölkənin xarici investorlarla bərabər yaşıl enerjiyə sərmayə qoyması bizim məsuliyyətimizi nümayiş etdirir. Bu həm də yaşıl gücün arxasında möhkəm iqtisadi dayağın olduğunu göstərir [13].

Azərbaycan üçün iqlim dəyişmələrinin yaratdığı hidrotəhlükələr real və artan təhdid təşkil edir. Lakin düzgün planlaşdırma və dayanıqlı yanaşmalarla bu risklər minimuma endirilə bilər. Bunun üçün iqlim proqnozlaşdırma modellərinin təkmilləşdirilməsi, transsərhəd su siyasətində diplomatik alətlərin gücləndirilməsi, aqrar sektorda su effektivliyinin artırılması, əhalinin su istehlakı mədəniyyətinin formalaşdırılması daha məqsədəuyğundur.

## Hidrotəhlükəsizliyin gücləndirilməsi üçün dayanıqlı idarəetmə və adaptasiya strategiyaları

Azərbaycanın su ehtiyatları əsasən çay sularından, göllərdən, yeraltı sulardan və atmosfer yağıntılarından ibarətdir. Respublikada illik ümumi su ehtiyatları təqribən 30 milyard m³ təşkil edir. Bunun təxminən 70%-i transsərhəd suların (Araz, Kür və s.) payına düşür.

Kür-Araz çayları transsərhəd xarakter daşıdığına görə bu gün onların istifadəsi və idarə edilməsi siyasi müstəviyə çıxarılıb. Su

ehtiyatlarının siyasiləşdirilməsinin səbəbləri transsərhəd su mənbələri Kür və Araz çayları bir neçə ölkədən keçdiyi üçün bu çayların istifadəsində dövlətlər arası birgə razılaşmanın olmaması ilə bağlıdır. Xüsusilə Ermənistanın Azərbaycanın su resursları üzərində qarşıdurmaları (30 il ərzində Ermənistanın işğal altında saxladığı ərazilərdə su ehtiyatlarından birtərəfli qaydada istifadə etməsi) bu sahədə əsas problem olaraq qalmaqdadır [7].

Həmçinin İran, Ermənistan, Türkiyə və Gürcüstanda Kür və Araz çaylarında aparılan tənzimləyici tədbirlər (su anbarları, tullantıların buraxılması) suyun keyfiyyətinə və miqdarına mənfi təsir göstərir [15, s.85-90].

Bu gün yaşıl enerjinin çoxaspektli tətbiqini Qarabağ bölgəsi və ətraf rayonlarda müşahidə edirik. Prezident İlham Əliyev 2021-ci il fevralın 14-də Laçın rayonunun Güləbird kəndində regiondakı infrastrukturun elektrik enerjisi ilə təmin olunmasında mühüm rol oynayacaq ilk su elektrik stansiyasının açılışını etdi. Bu stansiya 8 meqavat gücə malik olmaqla işlədiyi zaman yaranan artıq generasiya gücü Həkəri çayından səmərəli istifadəyə imkan verir. Dövlət başçısının qeyd etdiyi kimi Ermənistanın təkcə Laçın rayonunda 5 su elektrik stansiyasını, Kəlbəcər rayonunda 12 su elektrik stansiyasını yararsız vəziyyətə salmasına baxmayaraq, Azərbaycan dövləti əhalinin su ehtiyatları ilə səmərəli təminatı üçün bütün mümkün vasitələrdən istifadə etməkdədir [10].

Azərbaycanın strateji tədbirlərindən birini su idarəçiliyində rəqəmsal texnologiyaların tətbiqi və innovativ yanaşmalar təşkil edir. Bu gün dövlətimiz bu texnologiyaların mövcud vəziyyətə təsiri, tətbiq sahələri və perspektiv imkanları dəyərləndirməklə bərabər beynəlxalq təcrübənin milli təcrübə ilə inteqrasiyasına nail olub. Ölkəmizdə 2020-ci ildən etibarən “Su ehtiyatlarının idarə olunması üzrə Dövlət Komissiyası” yaradılıb. İqlim dəyişmələrinin su balansına təsirini minimuma endirmək məqsədi daşıyan bu qurumda su ehtiyatlarının rəqəmsal monitorinq sistemi qurulur – su anbarlarında, çaylarda və suvarma kanallarında real vaxt rejimində məlumat toplanır.

Bu səbəbdən rəqəmsal texnologiyaların tətbiqi və innovativ yanaşmalar xüsusilə Qarabağ regionunda yeni imkanlar açır. Sözügedən innovativ texnologiyalardan aşağıdakıları qeyd etmək vacibdir:

1. Rəqəmsal Su Monitorinq Sistemləri - Ağdam layihəsi bu yanaşmanın praktiki tətbiqidir.

Ağdam şəhərinin içməli su, kanalizasiya və yağış sularının idarə edilməsinə dair “Smart Water” layihəsində SCADA sistemləri (Supervisory Control and Data Acquisition - real vaxt hidravlik modelləşdirmə və avtomatik nasos tənzimləməsi şəbəkə səmərəliliyini və daxili sərfiyyatı optimallaşdıra bilir) su təchizatı və kanalizasiya sistemlərinin real vaxtda izlənməsinə imkan yaradır. Bu sistem vasitəsilə su quyularının məhsuldarlığı, anbar səviyyələri, su keyfiyyəti göstəriciləri (təzyiq, səviyyə, temperatur və sair) onlayn monitorinqə qoşulacaq, hidravlik idarəetmə da real vaxt rejimində həyata keçiriləcəkdir. Bu, uzaqdan idarə və avtomatik tənzimləmə ilə su təminatının dayanıqlığını artırmağa xidmət edəcəkdir.

2. Uzaqdan zondlama sistem layihəsi (Water Accounting Tool) (WAT) - peyk əsaslı uzaqdan zondlamadan istifadə edilərək su hesablaması pilotları vasitəsilə həyata keçirilir.

Dünya Bankının və Azərbaycan hökumətinin dəstəklədiyi bu yanaşma Azərbaycanda pilot səviyyədə tətbiq olunur. Su sektorunun modernləşdirilməsi layihələrində (Water Accounting Tool – WAT), su sərfi və sulama performansının monitorinqi aparılması nəzərdə tutulur. Bu alətlər əkin sahəsinin su tələbatı, irriqasiya effektivliyi və rezervuar su həcmlərinin dəyişmələrini göstərir. Peykdən alınan məlumatların inteqrasiyası ilə su hesabı alətləri sulama sxemlərinin resurs planlaşdırması üçün istifadə edilir.

3. Sensor texnologiyaları – çayların su səviyyəsi, axım sürəti və keyfiyyət göstəricilərinin monitorinqi.

4. Coğrafi İnformasiya Sistemləri (GIS).

5. Su resurslarının xəritələnməsi.

6. Su obyektləri ilə bağlı risklərin modelləşdirilməsi (daşqın, quraqlıq və s.).

7. Süni İntellekt və Data Analitikası.
8. Su sərfiyyatının proqnozlaşdırılması.
9. Optimal paylama sistemlərinin dizaynı.

Eləcə də Zəngilanın 2-ci və 3-cü Ağalı kəndlərinin inkişaf etdirilməsilə əlaqədar tətbiq olunan birinci "Ağıllı kənd" pilot layihəsi bu yeni texnologiyaların tərkib hissəsidir. Bu layihədə tətbiq olunan yenilik bərpaedilən enerji qurğusu –"Arximed" turbin tipli yeni texnologiyadır. 19 oktyabr 2022-ci ildə Həkəri çayı üzərində Arximed turbini tipli su elektrik stansiyasını işə salan dövlət başçısı İlham Əliyev stansiyanın ən böyük üstünlüyünü - təzyiqsiz sudan enerji istehsal etmə funksiyasını yüksək qiymətləndirdi. O, vurğuladı ki, Azərbaycan dövləti bundan sonra hətta artıq qalan enerjini xarici dövlətlərə ixrac etməyə nail olacaqdır [12].

İkinci Qarabağ müharibəsinin qalibiyyətli nəticələrindən biri olan "Qız qalası" və "Xudafərin" su anbarlarında yeni hidrotexnologiyanın geniş tətbiqini müşahidə edirik. Əslində "Qız qalası" hidroqovşağı layihəsi hidroelektrik enerji istehsalı və suvarma işlərini həyata keçirmək üçün planlaşdırılmışdı. Ermənistanın işğal aktından sonra Azərbaycan Respublikası və İran İslam Respublikası arasında bu istiqamətdə əməkdaşlıq dayandırıldı. Baxmayaraq ki, İran İslam Respublikası növbəti illərdə təktərəfli surətdə "Qız qalası" su qovşağının və su elektrik stansiyalarının tikintisini apardı, lakin 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra "Qız qalası" hidroqovşağı ilə bağlı məsələ yenidən siyasi müstəviyə gətirildi. 1994-cü ilin 28 iyun - 2 iyulunda Prezident Heydər Əliyev İrana ilk rəsmi səfər edərkən bu sahədə böyük nailiyyət əldə etdi. Səfər zamanı layihənin tikintisinin davam etdirilməsi ilə bağlı tərəflər memorandum imzaladılar.

2016-cı ilin fevralın 23-də bu sahədə Azərbaycan Respublikası və İran İslam Respublikası arasında daha bir saziş imzalandı. Saziş Araz çayı üzərində "Xudafərin" və "Qız qalası" su qovşaqlarının tikintisi və bu sahədə səmərəli əməkdaşlığı nəzərdə tuturdu. Eyni zamanda imzalanan sənədə əsasən İran İslam Respublikası Azərbaycan Respublikasının suveren ərazi bütövlüyünü yüksək səviyyədə tanıdığını bəyan etmişdir. Bu sazişlə "Xudafərin" və "Qız qalası" hidroqovşaqlarının inşası istiqamətində uğurlu əməkdaşlığın təməli qoyuldu [14, s.205-219].

Beləliklə, 2020-ci ilin 18 oktyabrında Azərbaycan Ordusunun uğurlu hərbi əməliyyatları nəticəsində "Xudafərin" və "Qız qalası" hidroqovşaqları Ermənistanın işğalından azad olundu. Hər iki dövlət arasında hidroqovşaqların və hər iki su anbarının yenidənqurulma məsələləri ilə bağlı mütəmadi şəkildə görüşlər keçirilmiş və bu sahədə bir sıra sənədlər imzalanmışdır. Razılaşmada qeyd olunurdu ki, İran dövləti su anbarının tikintisinə təxminən 86,9 milyon dollar vəsait ayıracaqdır. Eyni zamanda İran tərəfi 21 mart 2021-ci ilə qədər Qız qalası su anbarını istismara verməsini qarşıya məqsəd qoysa da anbarın istismarı 2024-cüilədək uzadıldı [13].

2022-ci ilin noyabrında Azərbaycan Ordusunun daha bir qalibiyyəti Şərqi Zəngəzur iqtisadi rayonunun bir hissəsi olan Laçın şəhərində Qaragöl su hövzəsinin işğaldan azad etməsi oldu [14, s.131]. Məlum olduğu kimi, 1930-40-cı illərdəki sovet dövrünün fiziki xəritələrində Azərbaycanın tarixi ərazisinə daxil olan Qaragöl su obyektinin 70% hissəsinin Ermənistan SSR-ə, qalan 30%-nin isə Azərbaycan SSR-ə məxsusluğu göstərilirdi. Ümummilli Lider Heydər Əliyev Azərbaycan SSR-yə rəhbərlik etdiyi illər ərzində bu məsələni dəfələrlə sovet hakimiyyəti qarşısında qaldırmış və ərazinin Azərbaycanın tarixi torpaqları olması faktını müdafiə etmişdir.

Təkcə Azərbaycanın deyil, eyni zamanda Cənubi Qafqaz regionunun hidro mühitində əhəmiyyətli rol oynayan Qarabağ regionu və ətraf yeddi rayonun işğaldan azad olunması regionun su təsərrüfatında əsaslı inkişafın başlanmasına geniş imkanlar açıb. Sərsəng su anbarı 100 min hektarlıq kənd təsərrüfatı sahəsini suvarma qabiliyyətindədir. Azad olunan ərazilərdə əlavə 15 min hektar torpaq sahəsinin inşa olunacaq su anbarları vasitəsilə suvarılma imkanları ölkənin ekologiyasında mühüm

uğurların əldə edilməsindən xəbər verir. Bundan əlavə, Xudafərin su anbarı vasitəsilə respublikanın 75 min hektar torpaq sahəsinin su təminatı icra edilərək Cəbrayıl və Zəngilan ərazisində 30 illik fasilədən sonra yenidənqurma tədbirləri reallaşmağa başlayıb.

Qarabağın azadlığı bölgədə eyni zamanda böyük turizm, idman potensialının canlanmasına zəmin yaradıb. Xüsusilə, zəngin təbiətə və strateji əhəmiyyətə malik Suqovuşan su hövzəsində beynəlxalq idman turnirlərinin keçirilməsi dövlətimizin qısa zamanda Qarabağda yüksək səviyyədə həyata keçirdiyi layihələrin bariz nümunəsidir.

Digər bir amil regional əməkdaşlığın olmaması ilə əlaqəlidir. Cənubi Qafqaz ölkələri arasında su resurslarının birgə idarə olunmasına dair genişmiqyaslı mexanizmlər mövcud deyil. Bir sözlə 30 ildən artıq dövr ərzində siyasi münasibətlərin gərgin olması bu əməkdaşlığa mane olmuş, hələ də bürokratik əngəllər aradan qaldırılmamış və regional dövlətlərin milli qanunvericiliyində hüquqi boşluqlar mövcuddur.

Azərbaycan hökuməti iqlim dəyişmələrinin su ehtiyatlarına təsirini azaltmaq üçün hidrosiyasətdə bir sıra strateji tədbirlər və layihələr həyata keçirmişdir. Hətta region dövlətlərinə bu istiqamətdə təklif olunan layihələr də mövcuddur. Bunlardan su resurslarının inteqrasiyalı idarə olunması (Kür-Araz hövzəsi üzrə vahid idarəetmə modelini), su itkilərinin azaldılması və suvarma sistemlərinin modernləşdirilməsi, alternativ su mənbələrinin (yağış sularının yığılması, təkrar istifadə) inkişafı, regional əməkdaşlıq (Gürcüstan, Türkiyə, İranla transsərhəd su razılaşmalarının gücləndirilməsi) kimi təkliflər paketini qeyd etmək lazımdır [1].

Həmçinin bu sahədə Azərbaycan hökuməti 2021-ci ildə qəbul etdiyi “2021-2030-cu illər üçün Milli İqlim Fəaliyyəti Planı” və “Su ehtiyatlarının idarə edilməsinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramı” çərçivəsində aşağıdakı istiqamətləri prioritet kimi müəyyənləşdirmişdir:

- Su ehtiyatlarının inteqrasiyalı idarəedilməsi;
- Yeni su anbarlarının və suvarma sistemlərinin modernləşdirilməsi;
- Rəqəmsal monitorinq sistemlərinin yaradılması.

Bütün bunlara baxmayaraq Azərbaycan hökuməti tərəfindən 2023-cü ildə qəbul olunmuş “Azərbaycan Respublikasının 2035-ci ilə qədər Su Təhlükəsizliyi Strategiyası”nda regional əməkdaşlıq əsas prioritetlərdən biri kimi müəyyən edilmişdir. [2] 2020–2040-cı illəri əhatə edən Milli Su Təhlükəsizliyi Strategiyasında aşağıdakı hədəflər yer alır:

– Kür-Araz çayları üzrə informasiya mübadiləsinin artırılması;
– İran, Gürcüstan və Türkiyə ilə su məsələləri üzrə ikitərəfli komissiyaların fəaliyyətinin gücləndirilməsi;
– Regional səviyyədə ortaq layihələrin (hidrotexniki qurğular, monitorinq sistemləri) həyata keçirilməsi.

Əsas məqsəd ölkənin su ehtiyatlarının qorunması, səmərəli idarə olunması və əhalinin, kənd təsərrüfatının, sənayenin suya olan tələbatının dayanıqlı şəkildə təmin olunmasıdır. Su idarəçiliyində institusional islahatlar yaradılmasını nəzərdə tutan bu sənədə əsasən yaradılmış Yeni Su Komissiyası “bir pəncərə” prinsipi əsasında hidrostrategiyanın inkişafına istiqamətlənib. Onu da qeyd etmək vacibdir ki, layihəyə əsasən texnoloji modernizasiya və rəqəmsallaşma su itkisini azaltmaq üçün ağıllı su ölçü sistemləri tətbiqini həyata keçirəcəkdir.

Bununla belə qeyd etmək lazımdır ki, transsərhəd çaylarla bağlı regional birgə razılaşdırılmış protokol mövcud olmadığından transsərhəd su ehtiyatlarının istifadəsinə dair problemlər tam həllini tapmamışdır. Bunun əsas səbəblərindən biri xüsusilə Ermənistanda texnoloji və institusional inkişafın müasir normalara uyğunsuzluğu, üstəlik bu ölkədə su ehtiyatlarının monitorinqində hökumətin məqsədli məhdudiyyətlər tətbiq etməsi, idarəet-

mədə müasir texnologiyalardan istifadənin aşağı səviyyədə olması ilə bağlıdır.

Bundan başqa hidrosiyasətdə regional əməkdaşlığın gücləndirilməsi mühüm əhəmiyyət daşıyır. Su strategiyasında regional əməkdaşlığın gücləndirilməsi Azərbaycanın bu çağırışlara cavab olaraq verdiyi reaksiya isə məhz yeni dünya nizamının tələblərinə uyğun yanaşmadır. Xüsusilə, Azərbaycanın təşəbbüsləri bir daha öz unikal mövqeyini sübut edir. Belə ki, dövlətimiz bir tərəfdən az inkişaf etmiş ölkələr üçün dəstək platformasıdırsa, digər tərəfdən beynəlxalq təhlükəsizlik diskursuna yeni paradiqma daxil edən konseptual mərkəz kimi çıxış edir. Hətta Azərbaycan dövləti bu sahədə regional əməkdaşlıq mexanizmlərinin vacibliyini üstün tutaraq BMT, Avropa İttifaqı və digər beynəlxalq qurumların vasitəçiliyi ilə regional su resurslarının birgə idarə olunmasında təşviq və monitorinq proseslərinə böyük imkanlar yaratmışdır.

Azərbaycan dövlətinin həm beynəlxalq, həm də regional əməkdaşlıqda təklif etdiyi prinsipləri aşağıdakı kimi ümumiləşdirmək olar:

- iqlim adaptasiyası üzrə vahid milli koordinasiya sistemi yaradılmalıdır;
- yaşıllaşdırılmış energetika və su resursları siyasəti bir-birinə inteqrasiya edilməlidir;
- süni intellekt və peyk müşahidəsi texnologiyalarından istifadə su idarəçiliyinin səmərəliliyinə xidmət etməlidir;
- cəmiyyətin ekoloji maarifləndirilməsi – iqlim və su təhlükəsizliyi arasında əlaqələr ictimai səviyyədə icra edilməlidir.

## Nəticə

İqlim dəyişmələri bütün ölkələrin davamlı inkişafına və təhlükəsizliyinə təhdid törədən qlobal problemlərdən biridir. İqlim dəyişmələri yalnız dövlətlərin sosial-iqtisadi rifahına deyil, sadə insanların gündəlik həyatlarına və yaşam tərzlərinə birbaşa və ya dolayı yolla təsir göstərir, əsas insan hüquqlarının müdafiəsi və təminatı baxımından bir sıra ciddi çətinliklər yaradır.

Son onilliklərdə iqlim dəyişmələri bütün dünya kimi Azərbaycanı da əhatə etmişdir. Azərbaycanın iqlim dəyişmələrinin hidrotəhlükəsizlik sahəsində ciddi risklərlə qarşılaşdığı artıq açıqdır. Lakin ölkədə həm dövlət, həm yerli, həm də regional səviyyədə qəbul edilmiş strategiyalar, texnoloji həllər və beynəlxalq əməkdaşlıq imkanları mövcuddur ki, bunlar düzgün yönəldilərsə hidrotəhlükəsizliyi artırmaq mümkündür.

Belə ki, hidrotəhlükəsizlik yalnız texniki və ya ekoloji məsələ deyil, həm də sosial, iqtisadi və geosiyasi əhəmiyyət daşıyır. Dayanıqlı cavab imkanları düzgün idarəetmə, regional əməkdaşlıq və elmi innovasiyalar üzərində qurulmalıdır. Azərbaycanın iqlim adaptasiyası siyasəti su resurslarının qorunması ilə bağlı uzunmüddətli milli təhlükəsizlik prioriteti kimi qəbul edilməlidir.

Əsas məsələ bu tədbirlərin davamlılığının təmin olunması, elmi tədqiqatların gücləndirilməsi və regiondakı su siyasətində qarşılıqlı faydalı və ədalətli əməkdaşlığın inkişaf etdirilməsidir.

## Ədəbiyyat:

1. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi (2023). İqlim Dəyişmələri üzrə Milli Hesabat.https://eco.gov.az/az/hidrometeorologiya/iqlim-deyismeleri
2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı https://e-qanun.az/framework/58314
3. Birləşmiş Millətlər Təşkilatı və Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə əməkdaşlığa dair çərçivə sənədi. https://azerbaijan.un.org/sites/default/files/202106/azerbaijan%20unsdcf%202021-2025_final%20signed_aze_0.pdf - 96 s.
4. BMT-nin hesabatı: Su böhranı qlobal sülhə təhlükə törədir. Azərbaycan qəzeti 13 oktyabr 2025. https://azerbaijan-news.az/az/posts/detail/bmt-nin-hesabati-su-bohrani-qlobal-sulhe-tehluke-toredir-1711538843
5. Ələkbərov, U.K. Davamlı İnsan İnkişafı və ekoloji sivilizasiyanın əsasları: / Dərslik. Bakı, Təhsil, 2013, 222 s.
6. Əliyev, İ.H. İnkişaf - məqsədimizdir: [113 cilddə] / İ.H. Əliyev. -Bakı:Azərnəşr, - c.38. - 2017. - 402 s. https://files.preslib.az/projects/ilhamaliyev/ebooks/im_G3l6rSzh.pdf
7. Guliyev A. Sustainable agriculture through qanat systems in Karabakh: Water and soil characteristics in the context of climate change. DergiPark https://dergipark.org.tr/en/download/article-file/4041292
8. İqlim dəyişikliyi və insan hüquqları: ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu mövzusunda təşkil olunan Beynəlxalq Bakı Forumunun iştirakçılarına 2 oktyabr 2024 https://president.az/az/articles/view/66978
9. Mikayilov Z. Azerbaijan can improve water supply by investing in Caspian Sea desalination. https://report.az/en/cop29/zaur-mikayilov-azerbaijan-can-improve-water-supply-by-investing-in-caspian-sea-desalination
10. Prezident İlham Əliyev: Güləbird Su Elektrik Stansiyasının istismara verilməsinin çox böyük rəmzi mənası var. fevral 15, 2021.https://azertag.az/xeber/prezident_ilham_aliyev_gulebird_su_elektrik_stansiyasinin_istismara_verilmesinin_chox_boyuk_remzi_menasi_var_video-1712451
11. Prezident İlham Əliyevin "yaşıl" enerji siyasəti. 25 dekabr, 2024. Xalq qəzeti.https://www.xalqqazeti.az/az/siyaset/208195-prezident-ilham-eliyevin-yasil-enerj
12. Qarabağ və Şərqi Zəngəzur yaşıl enerji zonası olacaq: oktyabr 6, 2021. https://www.azerbaijan-news.az/posts/detail/qarabag-ve-serqi-zengezur-yasil-enerji-zonasi-olacaq-1633466251.
13. Qlobal iqlim dəyişmələrinə qarşı fəaliyyətin Azərbaycan modeli və onun bioloji əhəmiyyəti 5 mart, 2024. https://azertag.az/xeber/qlobal_iqlim_deyismelerine_qarsi_fealiyyetin_azerbaycan_modeli_ve_onun_bioloji_ehemiyyeti-2945591
14. Qurbanov S. (Urxan Ələkbərovun elmi redaktorluğu ilə) İlham Əliyevin ekoloji siyasəti Dayanıqlı inkişaf və yaşıl dünya (2003 - 2023) 3 cilddə, Bakı, 2023.https://ebooks.az/az/book/lKOmkI4
15. Şıxıyev R., İmanov F. Azərbaycanın su ehtiyatlarının müasir dəyişmələri və inteqrasiyalı idarə edilməsi. Bakı, 2021. 352 s. https://www.ebooks.az/az/book/dSqpr23
16. South Caucasus Regional Water Management Program (USAID). 33 s. https://unece.org/fileadmin/DAM/env/water/cwc/joint_bodies/presentations/SCWP%20_%20Oct%2024%202007.pdf

***Açar sözlər:*** *iqlim dəyişmələri, hidrotəhlükəsizlik, su resursları, dayanıqlı inkişaf, Azərbaycan*

**Yegana Bakhshiyeva**

*Institute of Philosophy and Sociology of ANAS,*
*Department of Return Policy to Western Azerbaijan and Armenian Studies,*
*Senior Researcher, Ph.D. in Political Science*

# CLIMATE CHANGES AND HYDROLOGICAL SAFETY: SUSTAINABLE IMPACT MECHANISMS IN AZERBAIJAN

## ABSTRACT

Today, climate change is one of the main factors threatening socio-economic and environmental stability on a global scale. The issue of preventing the serious consequences of global warming, the sharp climate changes that the international community are concerned, and the threats to human health are extremely urgent. The decline in water resources, the increase in extreme weather events, and the difficulties in accessing water pose a serious threat, especially for countries with semi-desert climates. This article analyzes the level of resilience of Azerbaijan to climate change in terms of hydrosecurity and examines the strategies and existing opportunities to respond to these risks in the context of regional hydrosecurity from scientific and practical aspects. At the same time, strategies such as water management, regional cooperation, and the application of green technologies are emphasized.

The aim of the research is to assess the existing technological and institutional measures in the region, present the current state of water resources for Azerbaijan with scientific and statistical data, and analyze changes in future water resources predicted by climate models. It also aims to analyze the risks posed by climate change in the field of water security for Azerbaijan, evaluate existing state strategies, and demonstrate sustainable response capabilities.

***Keywords:*** *climate change, hydrosecurity, water resources, sustainable development, Azerbaijan*

**Егяна Бахшиева**

*Старший научный сотрудник отдела Политики возвращения в Западный Азербайджан и арменоведения Института Философии и Социологии Национальной Академии Наук Азербайджана, доктор философии по политическим наукам*

## ИЗМЕНЕНИЕ КЛИМАТА И ГИДРОБЕЗОПАСНОСТЬ: СРЕДСТВА УСТОЙЧИВОГО ВЛИЯНИЯ АЗЕРБАЙДЖАНА

### РЕЗЮМЕ

Сегодня изменение климата является одним из основных факторов, угрожающих социально-экономической и экологической стабильности в глобальном масштабе. Чрезвычайно актуален вопрос предотвращения серьезных последствий глобального потепления, резких изменений климата, которые беспокоят и тревожат мировое сообщество, и угроз здоровью людей. Сокращение водных ресурсов, рост числа экстремальных погодных явлений и трудности с доступом к воде представляют серьезную угрозу, особенно для стран с полупустынным климатом. В данной статье анализируется уровень устойчивости Азербайджана к изменению климата с точки зрения гидробезопасности, а также рассматриваются стратегии и существующие возможности реагирования на эти риски в контексте региональной гидробезопасности с научного и практического аспектов. При этом особое внимание уделяется таким стратегиям, как управление водными ресурсами, региональное сотрудничество и применение зеленых технологий.

Целью исследования является оценка существующих технологических и институциональных мер в регионе, представление текущего состояния водных ресурсов Азербайджана с научными и статистическими данными и анализ изменений будущих водных ресурсов, прогнозируемых с помощью климатических моделей, а также анализ рисков, связанных с изменением климата, в сфере водной безопасности Азербайджана, оценка существующих государственных стратегий и демонстрация возможностей устойчивого реагирования.

***Ключевые слова:*** *изменение климата, гидробезопасность, водные ресурсы, устойчивое развитие, Азербайджан*

DOI:https://doi.org/10.30546/2309-1347.92.2025.324

**S İ Y A S İ N Ə Z Ə R İ Y Y Ə**
**P O L I T I C A L T H E O R Y**

UOT 342.34

**XALİD NİYAZOV**

**Bakı Dövlət Universitetinin**
**Beynəlxalq münasibətlər kafedrasının dosenti,**
**siyasi elmlər doktoru**

*e-mail: xalid-555@mail.ru*

# AZADLIQ VƏ ƏDALƏT KONSEPSİYASI STRATEJİ DÜŞÜNCƏ PARADİQMASI KİMİ

## Giriş

Bəşər cəmiyyətinin, şüurlu toplumun yarandığı ilk gündən azadlıq və ədalət ideyası öncə cəmiyyətdəki ictimai münasibətlərin mahiyyətində, daha sonra isə insanların davranış və baxışlar sistemində əsas və aparıcı vektora çevrilmişdir. Müasir dünyanın günümüzdəki gerçəkləri bizi belə bir rasional-məntiqi nəticəni qəbul etməyə sövq edir ki, ciddi nizam mütləq şəkildə azadlıq ideyasını institutlaşdırmalıdır. Həqiqətən də, yeniliyin müjdəçisi olan modern dövrü ilk növbədə elə azadlıq dövrü kimi təşəkkül tapmışdır. O, şüurlara hakim kəsilmiş bir ideya olaraq qalmadı, düşüncənin modallığına çevrilməklə bütövlükdə çoxşaxəli sosial reallığın dərk edildiyi və refleksiya olunduğu bir dili formalaşdırdı. Daha doğrusu, müvafiq konseptlərdə ifadə olunmuş və ən azı özünün yaranma və təşəkkülü prosesində bir-birindən tamamilə fərqli bir neçə dildən söhbət gedə bilər. Beləliklə, əvvəlcə T.Hobbs tərəfindən bitmiş bir forma alan klassik ingilis azadlıq konsepti sonradan iki fərqli, lakin əlaqəli – hobbsvari və lokkvari (Con Lokk) diskurslarla inkişaf etdi. [8, s.48-65]

## 1. Azadlıq və ədalət: əsas fəlsəfi-siyasi yanaşmalar

### 1.1. Azadlıq fenomeni. Azadlıq dedikdə nə başa düşürük?

Məlum bir həqiqətdir ki, bəşər cəmiyyətinin dialektika prosesi azadlıq kimi fəlsəfi bir kateqoriyanın iştirakı olmadan sadəcə mümkünsüz görünür. Yarımsərlövhədə qoyulan suala potensial cavablardan biri kimi belə bir tezisi səsləndirə bilərik ki, azadlıq – hər bir insanın sahib olduğu təsəvvür və istəklərə uyğun hərəkət etmək üçün ideal fürsətdir.

İnsan azadlığı öz mənşəyini birbaşa özünün təbiətində tapır; bununla belə o, zərurət kimi bir anlayışla yanaşı nəzərdən keçirilməlidir. Belə bir həqiqəti idrak etməliyik ki, təbiətində bərabərlik və ədalət anlayışlarının olmadığı azadlıq əsil azadlıq sayıla bilməz.

Azadlığın bir başqa rakursdan səciyyəsi onun sosial dəyər kimi qəbul edilməsi ilə bağlıdır. Azadlıq hadisəsi insanların həyatın ən müxtəlif xarici müdaxilələrinə qarşı qapalı, təhlükəsiz şəxsi mühit yaratmaq istəyindən irəli gəlir. Buna baxmayaraq, insanların qarşılıqlı fəaliyyətinin sosial proseslərinin

aktual quruluşu azadlıq prinsipinin həyata keçirilməsi çərçivəsində bəzi məhdudiyyətləri nəzərdə tutur; belə ki, birinin qeyri-məhdud azadlığı digərinin eyni dərəcədə məhdudiyyətsiz azadlığına birbaşa təhdid sayıla bilər.

Beləliklə, bir insanın azadlığının hüdudlarını digərinin azadlığı çərçivələyir: sosial qarşılıqlı əlaqə prosesi cəmiyyətdə insan fəaliyyətinin ədalətli sosial tarazlığın qorunmasına yönəlmiş mövcud normalara uyğun olaraq tənzimlənməsidir. Qərb siyasi-fəlsəfi düşüncəsində azadlıq və ədalət çox vaxt bir-birinə qarşı qoyulan, lakin bəzən də biri digərini qarşılıqlı şəkildə tamamlayan konsepsiyalar kimi çıxış edir. Qərb liberal demokratiyasında bu dəyərlər, xüsusilə siyasi qərarvermədə və strateji planlamada prioritet hesab olunur.

### 1.2. Qərb fəlsəfi ənənəsində azadlıq və ədalət

Qərb siyasi fəlsəfəsində azadlıq və ədalət anlayışları əsasən fərdin hüquqları və sosial müqavilə nəzəriyyələri çərçivəsində dəyərləndirilmişdir. İngilis filosofu Con Lokk azadlığı fərdi hüquqların qorunması ilə əlaqələndirmiş və belə hesab etmişdir ki, təbii hüquqlar – həyat, azadlıq və mülkiyyət – dövlətin qoruma altına aldığı əsas obyektə çevrilməlidir [11, s.188].

Əgər Hobbs ingilis kimliyinin əsasını qoymuşdusa, Lokk ABŞ-ın qurucu atalarının yolunu tutaraq amerika siyasi sisteminin formalaşmasının əsas aktoruna çevrildi. Eyni zamanda, Hobbs tərəfindən təklif edilən konseptin, əslində, onu özünəməxsus etatizm kimi xarakterizə etmək daha doğru olardı, əsas xüsusiyyəti – bir çox cəhətdən dünyanın normativ ingilis siyasi mənzərəsinin bir hissəsinə çevrilərək, sonradan ingilis liberalizminin Adam Smit, David Ricardo, Con S. Mill və Ceyms Mill kimi nəhəng sütunlarının da təmsil olunduğu ingilis mütəfəkkirlərinin əsərlərində öz layiqli yerini tapdığı gerçəklikdən ibarət idi.

İngilis azadlıq konseptinə başlıca məqamlarda qütbvari əks mövqedə qərar tutmuş orijinal fransız azadlıq konsepsiyasını da fərqləndirmək mümkündür. Əsas fərq onun ardıcıl olaraq anti-etatikliyindədir; burada dövlət artıq azadlığın qarantı və qoruyucusu deyil, hər öz gücünü göstərdikdə həqiqi azadlığın qeyb olduğu potensial uzurpator kimi çıxış edir. Onun əsas elementlərinə fransız maarifçilərinin, ilk növbədə F.Volter, J.J.Russo və Ş.Monteskyenin əsərlərində təsadüf edirik.

Alman fəlsəfəsinin klassik mərhələsində formalaşmış alman azadlıq konsepsiyasını fərqləndirməyin mümkünlüyü barədə də bəhs etmək mümkündür: bunu İmmanuel Kantın, İohan Qotlib Fixtenin, Georq Hegel və Karl Marksın əsərlərində müşahidə etmək mümkündür. Bu konsept istifadəsinə ehtiyac duymadıqlarına görə imtina etdikləri fransız və ingilis təsəvvürlərini sintez edir. Belə ki, ingilis konseptindən fərdiyyətçilik, fransız konseptindən isə antietatizm ayrılır. Alman konseptində azadlığın əsas subyekti vətəndaş cəmiyyətidir. Cəmiyyət və vətəndaş sadəcə koordinatların eyni dəyər sistemində yerləşmir, eyni zamanda onun təcəssümünü ifadə edir.

Maarifçilik ölçüsündə azadlıq, əlbəttə ki, hadisə sayıla bilməz. J.J. Russoya görə azadlıq – təbii vəziyyətin mülki vəziyyətlə əvəz olunduğunda birmənalı şəkildə aradan qeyb olan bir idealdır [10, s.121].

Azadlığın Hegel təfsiri də hadisə ilə əlaqəlidir; lakin artıq apriori deyil, aposterior: hadisə artıq baş vermişdir və həmin proses əsnasında konkret müəyyənliyin, əminlik hissinin yaranması ehtiyacını doğurmuşdur. Hegel üçün azadlıq kriteriyası – idrakı birləşdirən xarici səbəb və amillərin kəmiyyətidir: onlar nə qədər az olsalar, azadlıq və həqiqət "təshih edilməmiş və buna görə də qeyri-azad olan düşüncə" ilə daha az qarşılıqlı ziddiyyətdə olarlar [4, s.23].

XX əsrdə Con Roulz “Ədalət nəzəriyyəsi” adlı məşhur əsərində ədaləti “ictimai institutların ilk fəziləti” kimi təqdim etmiş və bərabər imkanlar, əsas azadlıqların bərabər paylaşımı kimi prinsipləri irəli sürmüşdür. O, yazırdı:

“Hər bir şəxs mümkün qədər geniş əsas azadlıqlara malik olmalıdır, bu azadlıqların bərabərliyi isə başqalarının azadlığı ilə məhdudlaşmalıdır” [14, s.53].

Digər tərəfdən, Robert Nozick özünün “Anarxiya, dövlət və utopiya” əsərində Roulzun distributiv ədalət modelinə qarşı çıxaraq, fərdi azadlıqları hər şeydən üstün tutmuşdur. Amerikalı filosofa görə, azadlıq ədalətin əsasıdır və insanların öz sərvətlərini necə, hansı yolla əldə etdikləri daha vacibdir, nəinki onların necə paylandığı [9, 95].

### 1.3. Rusiya fəlsəfi ənənəsində azadlıq və ədalət

Rus siyasi-fəlsəfi düşüncəsində azadlıq və ədalət anlayışları fərqli ideoloji və tarixi kontekstlərdə formalaşmışdır. Əgər Qərbdə ön plana fərdi azadlıqlar çıxarılırsa, rus düşüncəsində azadlıq çox vaxt ictimai sabitlik, kollektiv məsuliyyət və dövlətin gücü kimi kateqoriyalarla məhdudlaşdırılır.

Məsələn, rus filosofu İvan İlyin yazırdı ki, “...azadlıq məsuliyyətlə yanaşı addımlamalıdır və əgər cəmiyyət bu məsuliyyəti daşımırsa, dövlət azadlıqları məhdudlaşdırmaq hüququna malikdir. Bu fikir postsovet rus strateji düşüncəsində də geniş əksini tapmışdır” [7, s.78].

Müasir Rusiya geosiyasi nəzəriyyəçilərindən Aleksandr Duqin “dövlətin strateji mənafeyini” ədalət və azadlıqdan üstün tutur. O, Qərb liberalizmini tənqid edərək çoxqütblü dünya modelində suverenliyin və mədəni müxtəlifliyin qorunmasını ədalətli nizam kimi təqdim edir. “Rus sivilizasiyası üçün azadlıq – öz tarixi yolunu seçmək və Qərbin hegemoniyasına tabe olmamaqdır.” [5, 117]

Bundan əlavə, sovet dövründəki “sosial ədalət” konsepti də fərdi hüquqlardan çox sinfi bərabərliyi və kollektiv rifahı ön plana çəkirdi. Bu isə öz növbəsində qərb tipli fərdi azadlıq anlayışından əsaslı şəkildə fərqlənirdi.

### 1.4. Ədalət anlayışı: ədalət bir vəziyyət kimi

Hələ Aristotel ədalət ideyasını konseptuallaşdırır və onun əsas problemlərini göstərirdi. Aradan ötən 2300 illik bir tarix belə qədim yunan filosofunun formalaşdırdığı diskursu elə də çox dəyişməmişdir. “Kateqoriyalar” əsərində müəllif ədalətin dayanıqlı bir keyfiyyət olduğunu, “dalğalanma və dəyişikliklərə asanlıqla təslim olmadığını” qeyd edirdi [2, s.72]. Bir keyfiyyət olaraq o kvantifikasiyaya (ölçüyə) çətinliklə uyur: “...bir ədalət digərindən daha çox və ya daha az ədalət adlandırıla bilməz” [2, s.77].

Ədalət subyektivdir və bu baxımdan biliyə bərabərdir, çünki bilik dərk olunanların sərhədlərini genişləndirir və ağıllı davranmağa imkan verir. Ədalət isə insanın sosial reallığı qiymətləndirməsinin daha bir vasitəsidir; “ədalət və ədalətsizlik – insanın ruhundadır” [2, s.86]. Əgər “...ədalət bilik deməkdirsə, haqsızlıq cəhalətdir və əgər ədalətlə davranmaq biliyə və təcrübəyə uyğun hərəkət etmək deməkdirsə, ədalətsiz davranmaq təcrübəsizlik və naşılıqla izah edilə bilər” [3, s.385].

Bir sosial fenomen olaraq ədalət, şübhəsiz ki, hamının arzuladığı və can atdığı dəyərlərdən, belə demək mümkünsə, mənəvi “rifahlardan” biridir: “...ədalət və digər fəzilətlər həmişə və birmənalı şəkildə təqdir edilməyə layiqdir; güc, sərvət, hakimiyyət – məkan və zaman kateqoriyasına möhtacdır” [10, s.301]. Ədalət sosial münasibətlərin əvəzolunmaz bir hissəsidir, ancaq bu halda onun yalnız bir hissəsi qanunla tənzimlənə bilər; digər hallarda o şəxsi mənəvi seçimin bir hissəsi olaraq qalır. Beləliklə, qanunun tələb etdiyi ədalətlə konkret bir şəxsə münasibətdə sərgilənən ədalət fərqlənir.

Azadlıq ilk növbədə bir hadisədirsə, yəni azad olmaqdırsa, ədalət, əksinə, vəziyyətin keyfiyyət göstəricisidir. Sadəcə, məsələnin problemli tərəfi ondan ibarətdir ki, ədalət hər biri özlüyündə konkret əhəmiyyət kəsb edən və müəyyən çəkiyə malik olan çoxköklü fenomendir. Ədalətin müasir nəzəriyyəçilərindən Amartiya Sen, göstərir ki, ədalət müvafiq mühakimənin söykəndiyi əsasdan asılı olaraq tamamilə fərqli şəkildə müəyyən edilə bilər [11, s.63]. Belə bir əsas qismində institutlar, yəni müəyyən bir prosedur, qanunun “hərfi”, dəyərlər çıxış edə bilərlər. Və bu halda onların qarşıdurması tamamilə qaçılmazdır.

A.Sen belə hesab edir ki, qlobal hökumət olmadan hətta nəzəri olaraq “qlobal ədalət”i qura biləcək “transsedental institusionalizm” mümkün görünmür. Qeyd edək ki, qlobal hökumət mövcud olsa idi belə, legitimlik şansı sual altında qalacaqdı. Çünki bir ədalət anlayışının digərləri üzərində zorakılığını təmsil edərdi. Başqa sözlə, ədalət kateqoriyasının paradoksu ondan ibarətdir ki, ədalətsizliyi aradan qaldırmaq ədaləti bərpa etməkdən daha asandır.

İstər təbiətdə, istərsə də qanun və qaydalarla idarə olunan cəmiyyətdə mütləq ədalət prinsipcə mümkün deyil, o bir qayda olaraq, müəyyən bir situasiyanın həlli kimi mövcuddur və buna görə də həmin anlayış həmişə situativ və nisbidir.

Siyasi səviyyədə ədalətin təzahür forması bərabərlikdir. Ancaq bir metaforanın digəri ilə əvəzlənməsi məsələnin mahiyyətini çox da dəyişdirmir: mütləq norma sayılan bərabərsizliyin məcmuyunu fərqləndirmək bərabərlik prinsipinin özünü formalaşdırmaqdan daha asandır.

Beləliklə, bu bölmədə əsas məqsəd azadlıq və ədalət anlayışlarının mədəni, tarixi və siyasi kontekstdə necə dəyişdiyini göstərmək idi. Diqqəti Qərb (xüsusilə İngilis-Amerika siyasi fəlsəfəsi), həm də Rusiya fəlsəfi-siyasi düşüncə məktəblərində bu anlayışların necə başa düşüldüyünə fokuslanmağa çalışdıq.

## 2. Azadlıq və ədalət strateji paradiqma kimi: dövlət idarəçiliyi, beynəlxalq münasibətlər və sosial strategiyalarda tətbiqi

### 2.1. Ədalət anlayışı nəyi ehtiva edir?

Danılmaz bir həqiqətdir ki, ədalət anlayışının dəqiq müəyyənləşdirilmiş, eyni cür dərk edilən tərifi yoxdur. Əksinə, ədalət əsrlər boyu tamamilə fərqli şəkildə şərh olunur. Məsələn, pozitivizm tərəfdarlarının fikrincə, qanunun hərfinə uyğun bir qərar ədalətli sayılır. Pozitivist konsepsiya ədalətin təcəssümünün təhlilini tələb etmir, çünki onu bir başqa mülahizə ilə əvəz edə bilir. Eyni zamanda, qeyri-pozitivist hüquqi ənənənin tərəfdarları qərar qəbul edərkən yalnız ədalətli bir qanunun tətbiq oluna biləcəyinə əmindirlər.

Əsrlər boyu insanlar ədalətli qərarın nə demək olduğu barədə birmənalı qərara gələ bilməyiblər, çünki mövcud hüquqi ənənələrdən əlavə həmin anlayışa dair öz fikirlərini və hətta bəzən tamamilə fərqli fikirlərini diktə edən çoxsaylı ideologiyalar mövcud olmuşdur.

Gündəlik həyatda belə, birinin ədalətli hesab etdiyi bir hərəkət digəri tərəfindən adekvat dəyərləndirilməyə bilər. Həm müxtəlif hüquqi konsepsiyaların, həm də insanların bir-birindən fərqli dünyagörüşlərinin ədalət anlayışına dair geniş bir baxış spektrinin olmasına baxmayaraq, hər kəs üçün məqbul olan və birmənalı olaraq insanların həyat və rifahının xeyrinə işləyən bu konsepsiyanın ümumiləşdirici bir formula ehtiyacı vardır.

Öncə ondan başlamaq lazımdır ki, ədalət mahiyyəti etibarı ilə hələ də mümkünlük anlayışını ehtiva edir. Başqa sözlə, ədalət hər şeyin olduğu kimi qalmasını tələb edir. Buna baxmayaraq, belə bir ümumtanınmış tərif ədalətin bir konsepsiya olaraq nisbi mahiyyət daşımasını istisna etmir.

Hüquq prinsipi kimi qəbul edilən ədalət münasibətlərin ədalətli hüquqi tənzimlənməsinin əsasını təşkil etmək məqsədi daşıyır ki, bu da onun qanundakı fundamental mövcudluq fenomeninə dəlalət edir. Hüquq normalarının tətbiqi və hüquqi tənzimləmənin həyata keçirilməsi çərçivəsində ədalət prinsipinin mövcudluğunun həqiqətən zəruri olduğu tezisini təsdiqləyərək, ədalətin həqiqətən də fərdlərin, cəmiyyətin və dövlətin maraqlarının əlaqələndirilməsində xüsusi rol oynadığını dərk etmək vacibdir.

Beləliklə, formal ədalət mühakiməsi qanunvericiliyin müddəalarının müxtəlif hüquq münasibətləri subyektlərinin məsuliyyətinin qeyri-mütənasibliyini istisna etməklə cəmiyyətin bütün üzvlərinə bərabər tətbiqi tələbini müəyyənləşdirir.

### 2.2. Dövlət idarəçiliyində azadlıq və ədalət

Dövlət idarəçiliyi sistemində azadlıq və ədalət dəyərləri müxtəlif modellərdə fərqli cür prioritetləşdirilir. Liberal-demokratik sistemlərdə bu iki anlayış həm qanunvericilikdə, həm də icra proseslərində əsas prinsip kimi çıxış edir. Bu sistemlərdə azadlıq hüquqi çərçivədə qorunur və vətəndaşların dövlət qarşısında bərabərliyi, ədalət meyarına əsaslanaraq təmin edilir.

Məsələn, Skandinaviya ölkələri azadlıq və sosial ədaləti balanslaşdıran sosial-demokratik model qurmuşlar. Bu ölkələrdə fərdi azadlıqlar qorunur, lakin dövlət eyni zamanda rifah bərabərliyini təmin edən sosial siyasətlər həyata keçirir.

Digər tərəfdən, avtoritar və ya mərkəzləşdirilmiş rejimlərdə azadlıq anlayışı dövlətin və ictimai sabitliyin qorunmasına tabe etdirilir. Burada strateji düşüncədə azadlıq "idarə olunan azadlıq" kimi çərçivələnir və daha çox milli təhlükəsizlik və siyasi stabilliklə şərtlənir. Rusiya Federasiyasında bu yanaşma 2000-ci illərin əvvəllərində dövlət başçısı tərəfindən "suveren demokratiya" anlayışında ifadə olunurdu.

### 2.3. Beynəlxalq münasibətlərdə azadlıq və ədalət

Beynəlxalq münasibətlər səviyyəsində azadlıq və ədalət konsepsiyaları tez-tez geosiyasi strategiyaların ideoloji kökünü təşkil edir. Qərb ölkələri, xüsusilə ABŞ və Avropa Birliyi demokratiya və insan hüquqlarından beynəlxalq siyasətdə əsas strateji alət kimi istifadə edirlər. Bu yanaşma "normativ güc" kimi tanınır [12, s.243].

Məsələn, ABŞ-ın İraq və Əfqanıstana hərbi müdaxilələrində "azadlıq gətirmək" və "ədalətli nizam qurmaq" tezisləri strateji legitimasiya vasitəsi olmuşdu. Tənqidçilər bu yanaşmanı "liberal imperializm" kimi qiymətəndirsələr də, bu müdaxilələr strateji qərarvermədə dəyərlərin rolunu göstərir.

Əks qütbdə, Çin və Rusiya kimi dövlətlər beynəlxalq sistemdə azadlığı daha çox suverenliyə və regional təhlükəsizliyə bağlı şəkildə interpretasiya edirlər. Bu dövlətlər üçün ədalət – beynəlxalq münasibətlərdə güc balansının qorunması, Qərbin hegemonluğunun qarşısının alınması və çoxqütblülüyün təmin olunması anlamını ifadə edir.

### 2.4. Sosial strategiyalarda tətbiqi

Sosial siyasətlər sahəsində azadlıq və ədalət, xüsusilə təhsil, səhiyyə və əmək bazarında dövlətin strategiyalarına yön verən əsas prinsipial anlayışlardır.

Məsələn, təhsildə azadlıq – fərdi seçim imkanlarının genişliyi, məktəb və kurikulum seçimi, özəl və dövlət alternativlərinin mövcudluğu ilə bağlıdır. Ədalət isə bu imkanların hər kəs üçün əlçatan olmasını təmin etmək məqsədilə bərabər maliyyələşmə və inklüziv siyasətlərin tətbiqinə əsaslanır.

Amartya Sen özünün "Capability Approach" (imkanları nəzərə almaqla yanaşma) nəzəriyyəsində azadlıq və ədaləti insan potensialının reallaşdırılması prizmasından izah edir. O yazır: "Azadlıq – yalnız seçimlərin çoxluğu deyil, həm də bu seçimləri reallaşdıra bilmək imkanlarının mövcudluğudur" [15, s.36].

Beləliklə, strateji planlama zamanı dövlətlər və cəmiyyətlər üçün azadlıq və ədalət təcrübi dəyər meyarları kimi çıxış edir: həm məqsəd, həm də vasitə kimi.

## 3. Strateji düşüncə nədir? Paradiqma anlayışı və dəyərlərin rolu

### 3.1. Strateji düşüncə anlayışı

Strateji düşüncə, mürəkkəb və dəyişkən mühitdə uzunmüddətli məqsədlərə çatmaq üçün planlaşdırılmış, öncədən dəyərləndirilmiş və məqsədyönlü qərarların verilməsinə əsaslanan düşüncə modelidir. Bu düşüncə forması, həm fərdi, həm də institusional səviyyədə risklərin, resursların və imkanların dərin analizini tələb edir.

Kanadalı menecment professoru Henri Minsberq strateji düşüncəni sadə planlaşdır-

madan fərqləndirərək, onu dinamik adaptasiya, perspektiv dəyişikliklər və kompleks informasiyaların idarə olunması ilə əlaqələndirir. O, yazır: "Strategiya təkcə plan deyil, həm də perspektivdir. O, dünyanı necə görməyimizi müəyyən edir." [13, s.9].

Strateji düşüncə yalnız rasionallığa əsaslanmır, o həm də dəyərlər sistemi, ideoloji mövqelər və mədəni kodlarla bağlıdır. Beləliklə, azadlıq və ədalət kimi fundamental kateqoriyalar bu düşüncə sisteminin mərkəzində dayana bilər.

### 3.2. Paradiqma anlayışı və strateji kontekstdə əhəmiyyəti

XX əsrin ən görkəmli elm filosoflarından Tomas Kun tərəfindən elm fəlsəfəsində işlədilən "paradiqma" anlayışı, müəyyən dövr üçün qəbul edilən nəzəri və metodoloji çərçivəni ifadə edir. Strateji düşüncədə paradiqma, hansı prinsiplərin əsas götürüldüyünü, hansı dəyərlərin prioritet olduğunu və nəyi "mümkün" və ya "qəbul edilən" hesab etdiyimizi müəyyənləşdirir.

Məsələn, Qərb liberal demokratiyası çərçivəsində formalaşmış strateji düşüncə paradiqması fərdi hüquqlar, bazar iqtisadiyyatı və hüquqi azadlıqları əsas qəbul edir. Halbuki, Rusiya və Çin kimi dövlətlərin strateji paradiqması daha çox suverenlik, mərkəzləşdirilmiş nəzarət və kollektiv maraqlar üzərində qurulub.

Paradiqma dəyərləri süzgəcdən keçirir; qərarların hansı prinsiplərə əsaslanacağını, hansı fədakarlıqların qəbul edilə biləcəyini və nə üçün mübarizə aparılacağını müəyyən edir.

### 3.3. Dəyərlərin strateji qərarvermədə rolu

Dəyərlər – istər fərdi, istər institusional səviyyədə strateji düşüncənin konturlarını müəyyənləşdirən normativ çərçivədir. Azadlıq və ədalət bu baxımdan sadəcə ideal deyil, seçimin məntiqini formalaşdıran alətlərdir.

Məsələn, azadlıq dəyərinin üstün tutulduğu bir strategiyada qərarlar daha çox fərdi təşəbbüslərə və seçim azadlığına əsaslanırlar. Bu cür strategiyalar sosial innovasiya, fərdi məsuliyyət və qanun qarşısında bərabərlik kimi nəticələr doğurur.

Əksinə, ədalət dəyəri üstünlük təşkil etdikdə, resursların bölüşdürülməsi, sosial bərabərlik və strukturlaşdırılmış qərarvermə mexanizmləri önə çıxır. Bir qədər sonra toxunacağımız C.Roulzun nəzəriyyəsində strateji planlamada əsas prinsip "fərq prinsipi"dir – yəni ən zəif olanın vəziyyətini yaxşılaşdırmaq.

Beləliklə, strateji düşüncə sadəcə rasional planlaşdırma deyil; o, müəyyən dəyərlərin (paradiqmaların) şərti çərçivəsində qurulmuş sosial-intellektual prosesdir. Azadlıq və ədalət isə bu çərçivənin formalaşmasında mühüm rol oynayır.

## 4. Müasir yanaşmalar və nümunələr

### 4.1. Ədalətin strateji prinsip kimi funksiyası

Amerikalı filosof-politoloq Con Roulz 1971-ci ildə nəşr olunmuş "Ədalət nəzəriyyəsi" (A Theory of Justice) əsərində ədaləti cəmiyyətin "ilk fəziləti" adlandırır və bu anlayışı müasir strateji siyasət planlamasının təməl prinsipi kimi irəli sürür. Onun "Ədalət olaraq ədalət" modeli, xüsusilə sosial və iqtisadi bərabərliklərin qorunması üçün strategiyaların formalaşdırılmasında mühüm nəzəri bazadır.

C.Roulz iki əsas prinsipi fərqləndirir:

1. Azadlıq prinsipi – Hər kəsə bərabər əsas azadlıqlar verilməlidir.
2. Fərq prinsipi – Sosial və iqtisadi bərabərsizliklər yalnız ən zəif vəziyyətdə olanların xeyrinədirsə, qəbul edilə bilər.

Bu prinsiplər təkcə siyasi nəzəriyyə deyil, həm də strateji dövlət planlamasında tətbiq olunur. Məsələn, Skandinaviya ölkələrinin rifah dövlət modelləri Roulzun fərq prinsipinə əsaslanaraq cəmiyyətin zəif təbəqələrinin müdafiəsini prioritetləşdirir. Bu, azadlığın və ədalətin paralel strateji məqsədlər kimi

tətbiqinə nümunədir. Roulz yazır: "Cəmiyyətin strukturu yalnız ədalət prinsipinə uyğun olaraq qurulduqda, fərdi azadlıqlar reallığa çevrilə bilər" [6, s.72].

### 4.2. Azadlıq mərkəzli strategiya

Rolzun əksinə olaraq həmyerlisi Robert Nozik fərdi azadlığı strateji sistemin əsas elementi hesab edir. Amerikalı filosof "Anarxiya, dövlət və utopiya" (Anarchy, State, and Utopia) əsərində fərdi mülkiyyət, şəxsi təşəbbüs və minimal dövlət konsepsiyasını müdafiə edir.

Nozikin əsas prinsipi: "Ədalət yalnız sərvətin necə əldə edildiyindədir, necə bölündüyündə deyil" [6, s.149].

O, "minimum dövlət" zərurətini müdafiə edir (dövlət – "gecə gözətçisidir") və individlərə qarşı şiddətə görə "sosial dövlət" nəzəriyyəsini tənqid edirdi. Nozik fərdi genetik ədalət nəzəriyyəsini formalaşdırmışdır:

- insanlar başqalarının vəziyyətini pisləşdirmirsə, heç kimə məxsus olmayan əmlaka sahiblənmə hüququna malikdirlər. Bu, əldə etmənin ədalətliyi prinsipidir;
- insanlar öz əmlaklarını başqalarına vermək və ya könüllü olaraq başqaları ilə mübadilə etmək hüququna malikdirlər. Bu, ötürülmənin ədalətliyi prinsipidir;
- insanlar qanunsuz olaraq aldıqlarını sahibinə qaytarmağa borcludurlar. Bu rektifikasiya prinsipidir.

Nozikin yanaşması liberal kapitalizmin strateji əsaslarını izah edir – azad bazar, minimum dövlət müdaxiləsi və fərdi məsuliyyət. ABŞ-ın neoliberal siyasətləri və bir çox beynəlxalq maliyyə institutlarının (BMT, Dünya Bankı) inkişaf strategiyaları bu konsepsiya ilə uyğunluq təşkil edir.

Bununla belə, Nozikin modeli sosial baxımdan zəif məqamları nəzərə almır; bu isə bəzən ədalətin strateji baxımdan "qurban verilməsi" anlamına gəlir.

### 4.3. Avrasiyaçı paradiqmada azadlıq və ədalət

Rusiyanın müasir strateji fəlsəfəsində Aleksandr Duqin əsas simalardan biridir. Onun "Dördüncü siyasi nəzəriyyə" adlı əsərində liberalizmin universal dəyərləri (azadlıq və insan hüquqları) tənqid edilir və bunun əvəzinə sivilizasiyaların çoxqütblü dünyası təklif olunur.

Duqin üçün azadlıq – Qərbin geosiyasi pressinqinə qarşı milli və mədəni müqavimət deməkdir. Ədalət isə – güclü dövlət, suverenlik və tarixi identikliyin qorunmasıdır. Rusiyalı filosof-politoloq yazır: "Əgər Qərb üçün azadlıq fərdi ifadədirsə, bizlər üçün azadlıq – öz yolumuzu seçmək və həmin yolda qalmaq haqqıdır" [8, s.10].

Duqinin nəzəriyyələri Rusiya strateji doktrinasında konkret əksini tapır – xüsusilə Ukrayna müharibəsində "dəyərlər müharibəsi" ideyasının irəli sürülməsi və rus dünyasının qorunması məqsədilə hərbi-siyasi strategiyaların əsaslandırılmasında. Təbii ki, belə bir mövqe subyektivdir, individualdır, mübahisəlidir və kifayət qədər opponenti var.

### 4.4. İnsan inkişafı və azadlıq

İqtisad üzrə Nobel mükafatçısı Amartya Sen iqtisadi inkişaf və strateji planlama sahəsində azadlıq və ədalət anlayışlarını birləşdirən unikal nəzəriyyə irəli sürmüşdür. Hindli professorun "Ədalət ideyası" əsəri azadlığı təkcə məqsəd deyil, həm də inkişafın vasitəsi kimi təqdim edir.

A.Sen rifah iqtisadiyyatı və ictimai seçim nəzəriyyəsi sahəsində əvvəlki tədqiqatlarına və fəlsəfi düşüncələrinə əsaslanaraq Con Roulz və macar əsilli digər bir amerikalı Nobel mükafatçısı Con Harsaniyanın müasir ədalət nəzəriyyələrinə alternativ ola biləcək fərdi ədalət nəzəriyyəsini ortaya qoyur. Bu nəzəriyyəni müstəqillik bərabərliyi yaxud muxtariyyət bərabərliyi də adlandırırlar. Həmin nəzəriyyəyə görə, insanlara müxtəlif fərdi istək

və arzularını inkişaf etdirmək üçün eyni imkanların təqdim olunduğu cəmiyyət ədalətli cəmiyyətdir. Hər bir fərd öz tələbləri ilə muxtar, müstəqil bir subyekt olaraq qala bilər. Bununla belə, hər bir ehtiyacın, fərdin marağında olduğu son nəticənin reallaşdırılması üçün bərabər hüquqlar təmin edilməlidir.

A.Senin "imkanlar nəzərə alınmaqla" yanaşma modelinə (Capability Approach) görə, insanların real imkanları (təhsil, səhiyyə, hüquqi sistemə çıxış) strateji planlamanın əsas obyektidir. Bu model həm Qərb, həm də inkişaf etməkdə olan ölkələrdə sosial proqramların, yoxsulluqla mübarizə siyasətlərinin və bərabərlik yönümlü strategiyaların təməlini təşkil edir.

Sen yazır: "İnkişaf yalnız iqtisadi artım deyil – azadlığın genişlənməsidir." [1, s.23].

Tədqiqatlarını iqtisadi nəzəriyyə ilə siyasi-mənəvi fəlsəfənin kəsişdiyi ortaq müstəvidə aparan Sen, əsası hələ XVIII əsrdə Jan-Şarl de Borda və markiz de Kondorse kimi mütəfəkkirlər tərəfindən qoyulmuş və sonradan XX əsrdə Kennet Errou tərəfindən inkişaf etdirilmiş ictimai seçim nəzəriyyəsindən çıxış edirdi. Həmin nəzəriyyəyə istinad və yeni müqavilə nəzəriyyələrinin tərəfdarları üçün xarakterik olan institusional yanaşmanın rədd edilməsi prof. A.Senə orijinal ədalət konsepsiyasını formalaşdırmağa imkan verdi.

### 4.5. Müasir tətbiqi nümunələr

**a) Avropa İttifaqı**

Normativ güc kimi çıxış edən Aİ azadlıq və ədalət dəyərlərini öz xarici siyasətində də əsas meyar kimi qəbul edir. Aİ-nin "Şərq tərəfdaşlığı" proqramı və insan hüquqları üzrə strategiyası bu dəyərlərin strateji təsir vasitəsi kimi istifadə edildiyini göstərir.

**b) Türkiyə**

Türkiyənin son onilliklərdə apardığı xarici siyasət və sosial layihələrdə həm azadlıq (milli suverenlik), həm də ədalət (beynəlxalq haqların müdafiəsi) tez-tez "strateji ritorika"nın mərkəzində dayanır. Xüsusilə "Dünya beşdən böyükdür" çağırışı qlobal ədalətsizliyə qarşı etiraz nümunəsidir.

**c) Çin**

Çinin "Bir kəmər – bir yol" təşəbbüsü çərçivəsində tətbiq etdiyi inkişaf modeli azadlıq və ədalət anlayışlarını daha çox "iqtisadi imkanlar və bərabər tərəfdaşlıq" kimi interpretasiya edir. Bu, Qərbdən fərqli olaraq, "alternativ strateji dəyərlər paketi" kimi təqdim olunur.

Yuxarıdakı dairəvi diaqram azadlıq və ədalətin strateji düşüncədəki rolunu göstərir. Bu diaqramda:




Diaqram 1

- Azadlıq (təhlükəsizliyə baxmayaraq fərdi hüquqlar, təşəbbüs azadlığı) – 55%
- Ədalət (sosial bərabərlik, hüquqi və iqtisadi strukturun qorunması) – 45%

Bu balans, müasir strateji planlamada azadlığın bir qədər üstün mövqeyə malik olduğunu, lakin ədalətin də əsaslı rol oynadığını göstərir.

İndi isə keçək müxtəlif ölkələrin azadlıq və ədalətə yanaşmasının müqayisəli təqdimatından bəhs edən ikinci diaqrama

Bu diaqram müxtəlif ölkələrin öz strateji düşüncəsində azadlıq və ədalətə verdiyi nisbi əhəmiyyəti göstərir:

- ABŞ – Azadlığa yüksək önəm verir (9/10), ədalətə nisbətən az (5/10).
- Rusiya – Ədalət (kollektiv maraqlar, suverenlik) üstünlük təşkil edir.
- Çin – Azadlıq məhduddur, ədalət (iqtisadi bərabərlik və sabitlik) vacibdir.
- Avropa Birliyi (AB) – Hər iki dəyəri balanslı şəkildə yüksək qiymətləndirir.
- Türkiyə – Son illərdə azadlıq və ədalət arasında strategiyada dəyişkən tarazlıq var.
- Skandinaviya ölkələri – Ədalətə daha yüksək önəm verir, lakin azadlıq da geniş şəkildə qorunur.

Beləliklə, bu bölmədə azadlıq və ədalət anlayışlarının müasir strateji düşüncədə necə təcəssüm olunduğu, fərqli müəlliflərin nəzəriyyələrində və tətbiqi nümunələrdə necə istifadə edildiyi aydın şəkildə görünür. Göstərməyə çalışdıq ki, azadlıq və ədalət yalnız nəzəri kateqoriyalar deyil, onlar real strategiyaların əsaslandırılmasında, dövlətlərarası münasibətlərdə və daxili idarəçilikdə yönverici rola malik konsepsiyalardır.

## 5. Nəticə

Azadlıq və ədalət insan cəmiyyətlərinin ən qədim və universal dəyərlərindən olmaqla yanaşı, müasir strateji düşüncə sistemində də sadəcə fəlsəfi-etik anlayışlar deyil, praktik və yönverici paradiqmalar kimi çıxış edirlər. Onların qərarvermə, idarəetmə və beynəlxalq siyasət səviyyələrində rolu, strateji planlamanın ideoloji və dəyərlər bazasını təşkil edir.




Diaqram 2

Araşdırma göstərdi ki:

- Qərb siyasi-fəlsəfi ənənəsində azadlıq daha çox fərdi hüquqlar və sərbəstlik kimi ön planda olsa da, ədalət bərabər imkanlar və hüquqi bərabərlik çərçivəsində qorunur.
- Rusiya və Şərq fəlsəfəsində isə azadlıq daha çox milli suverenlik və ictimai sabitlik kontekstində başa düşülür, ədalət isə kollektiv rifah və güclü dövlət anlayışı ilə bağlıdır.
- Müasir müəlliflər – Roulz, Nozik, Duqin, Sen – bu iki anlayışı fərqli strateji əsaslandırmalarla təhlil etmişlər. Bu nəzəriyyələr hazırkı dövrdə müxtəlif dövlətlərin idarəçilik modellərində və beynəlxalq strategiyalarında əksini tapır.
- Strateji düşüncə paradiqması daxilində azadlıq və ədalət həm məqsəd, həm vasitə, həm də metod kimi çıxış edir: siyasətin əsas hədəfləri, idarəetmənin prinsipial çərçivəsi və sosial etimadın təməli bu dəyərlər üzərində qurulur.
- Təqdim olunan diaqramlar və müqayisələr də göstərir ki, ölkələrin bu dəyərlərə yanaşması onların strateji mədəniyyətindən, tarixindən və siyasi rejimlərindən asılı olaraq ciddi şəkildə dəyişir.

Beləliklə, azadlıq və ədalət anlayışlarının strateji düşüncə kontekstində təhlili bu dəyərlərin yalnız nəzəri kateqoriyalar olmadığını, real dünyada güclü istiqamətləndirici və formalaşdırıcı potensiala malik olduğunu göstərir. Gələcək üçün uğurlu strategiyalar yalnız bu dəyərləri balanslaşdıran və kontekstə uyğun tətbiq edən modellər üzərində qurula bilər.

**Ədəbiyyat:**

1. Амартия Сен. Идея справедливости. Пер. с англ. Д. Кралечки; науч. ред. перевода В.Софронов, А. Смирнов. – М.: Изд-во Института Гайдара; Фонд «Либеральная Миссия», 2016. – 520 стр.
2. Аристотель. Категории. // Аристотель. Сочинения в 4Т. Т.2. – М.: Мысль. 1978. 687 стр.
3. Аристотель. Большая этика // Аристотель. Сочинения в 4Т. Т.4 – М.: 1978. 416 стр.
4. Гегель. Г.Ф. Наука логики. Т. I. Объективная логика. - М.: 2017. 544 стр.
5. Дугин А. Четвертая политическая теория. СПб.: Амфора. 2012. 351 стр.
6. Дж. Роулз. Теория справедливости. Изд-во Новосибирского Университета. 1995, 500 стр.
7. Ильин И. О сопротивлении злу силой. Москва: Русский путь. 1950. 221стр.
8. Коктыш К.Е. Английский концепт свободы: опыт деконструкции. – Полития. № 2. 2019. С. 48-65.
9. Нозик, Р. Анархия, государство и утопия / Р. Нозик ; пер. с англ. Б. Пинскера под ред. Ю. Кузнецова и А. Куряева. – М.: ИРИСЭН, Социум, 2019. – 424 с. – (Серия «Политическая наука»)
10. Руссо Ж.-Ж. Общественный договор, или начала политического права / Руссо Ж.-Ж. Политические сочинения. - СПб.: Росток, 2013. 640 стр.
11. Locke, J. (1999). Two Treatises of Government (P. Laslett, Ed.). Cambridge University Press. p. 488.
12. Manners, I. (2002). Normative Power Europe: A Contradiction in Terms? Journal of Common Market Studies, 40(2), p. 258.
13. Mintzberg, H. (1994). The Rise and Fall of Strategic Planning. Free Press. p. 11.
14. Rawls, J. A Theory of Justice. Harvard University Press. 2009. p. 560.
15. Sen, A. Development as Freedom. Oxford University Press. 1999. p. 384.

***Açar sözlər:*** *azadlıq, ədalət, strateji düşüncə, azadlıq konsepsiyası, ədalət nəzəriyyəsi*

**Khalid Niyazov**

*Baku State University, Department of International Relations,*
*Doctor of Political Sciences, Associate Professor*

## THE CONCEPT OF FREEDOM AND JUSTICE AS A PARADIGM OF STRATEGIC THINKING

### ABSTRACT

In the XXI century, strategic thinking has become a complex system of determining the directions of development of society, based not only on military or economic spheres, but also on philosophical and political values. In this regard, concepts such as freedom and justice act not only as ethical categories, but also as strategic paradigms that guide the decision-making process. Historically, both Western and Eastern political-philosophical schools had different approaches to these concepts. For example, while John Rawles puts forward Justice as the “first principle”, Robert Nozick considers individual freedoms to be a key element of Justice. On the other hand, in Russian political thought, the ideas of collective security and centralized management led to a different interpretation of freedom and Justice. The purpose of this article is to analyze how the concepts of freedom and justice are formed within the framework of strategic thinking and how these concepts are applied in political, social and geopolitical decision-making.

***Keywords:*** *Freedom, justice, strategic thinking, concept of freedom, theory of justice*

**Халид Ниязов**

*Доцент кафедры Международных отношений*
*Бакинского Государственного Университета,*
*доктор политических наук*

# КОНЦЕПЦИЯ СВОБОДЫ И СПРАВЕДЛИВОСТИ КАК ПАРАДИГМА СТРАТЕГИЧЕСКОГО МЫШЛЕНИЯ

## РЕЗЮМЕ

В XXI веке стратегическое мышление стало сложной системой, определяющей направления развития общества не только в военной или экономической сферах, но и на философских и политических ценностях. В этом контексте такие понятия, как свобода и справедливость, выступают не только в качестве этических категорий, но и в качестве стратегических парадигм, направляющих процесс принятия решений. Исторически сложилось так, что в западных и восточных политико-философских школах существовали различные подходы к этим понятиям. Например, хотя Джон Ролз выдвигает справедливость как «первичный принцип», Роберт Нозик основными элементами справедливости считает индивидуальные свободы. С другой стороны, в российской политической мысли идеи коллективной безопасности и централизованного контроля привели к различным интерпретациям свободы и справедливости. Цель данной статьи – проанализировать, как формируются понятия свободы и справедливости в рамках стратегического мышления и как эти понятия применяются в политическом, социальном и геополитическом принятии решений.

***Ключевые слова:*** *свобода, справедливость, стратегическое мышление, концепция свободы, теория справедливости*

DOI: https://doi.org/10.30546/2309-1347.92.2025.329

TARİX
HISTORY

UOT 94 (479.24)

**İSMAYIL HACIYEV**

**Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik**

*e-mail: haciyev.i1951@gmail.com*

# AZƏRBAYCANIN ƏZƏLİ TORPAQLARINDA ERMƏNİSTAN DÖVLƏTİNİN YARADILMASI: TARİXİ ASPEKTLƏR

## Giriş

İndiki adı ilə qeyd olunan ermənilərin ilk yaşadığı ərazi Balkan yarımadası olmuşdur. Onlar antropoloji baxımdan avropoid irqinin armenoid tipinə aiddir. Bu tipin səciyyəvi cizgilərinə əsasən bütün Ön Asiya əhalisində rast gəlinir. Öz irsi fiziki əlamətlərinə görə ermənilərin 16 antropoloji tipə bölünməsi tədqiqatçılarda heyrət doğurur: bir xalqda bu qədər antropoloji fərq ola bilməz. Tədqiqatçıların fikrincə ermənilər-xalqların konqlomeratıdır, onların dili isə kombinasiyadır, kimmerlər tərəfindən Balkanlardan Kiçik Asiya ərazilərinə, Dəclə və Fərat çaylarının yuxarılarına sıxışdırılmış muşk tayfalarının dili ilə yerli xalqların-akkadların, hettlərin, liuviyalıların, urartların, aysorların, midiyalıların, farsların, parfiyalıların, türklərin və s. dillərinin birləşməsidir. Ermənilərin yaşadığı Mesopotomiya (bu adı yunanlar vermişlər – İ.H.) e.ə. IX-VII əsrlərdə Assuriyanın tərkibinə, e.ə. VII-VI əsrlərdə Yeni Babilistan şahlığının, e.ə. VI-IV əsrlərdə Əhəmənilər dövlətinin, e.ə. IV əsrdə Makedoniyalı İsgəndərin imperiyasının, e.ə. IV-II əsrlərdə Selevkilər dövlətinin tərkibinə daxil idi. Sonrakı əsrlərdə Parfiya dövlətində və Kiçik Asiya ərazisində yaşamışlar. Hayların əcdadlarının – adətən adlandırıldıqları kimi ermənilərin yox, muşkların bu regionda heç vaxt öz dövləti olmamışdır. Bütün bunlar deməyə əsas verir ki, bu xalqın tarixində heç bir unikallıq yoxdur. Uzun əsrlər boyu erməni-qriqorian kilsəsi tərəfindən ermənilərin tarixinə süni, uydurma, əfsanəvi, qondarma məqamlar gətirilib ki, hətta mütəxəssislər də nəyin həqiqət, nəyin yalan olmasını seçməkdə çətinlik çəkirlər.

## Erməni etnosunun Azərbaycan ərazilərinə gəlməsi

Erməni alimləri sübut etməyə çalışırlar ki, onlar tarixən Cənubi Qafqaz ərazisində yaşamışlar. Onlar iddia edirlər ki, Urartu qədim erməni dövlətidir. Məlumdur ki, Urartu e.ə. IX-VI əsrlərə aid qədim dövlətdir. Urartuların dili hald və biayn dillərinə aiddir ki, onun erməni dilinə heç bir aidiyyəti yoxdur.

Hayların əcdadları muşk tayfaları kimmerlər tərəfindən Balkanlardan qovulmuş, Mesopatomiyaya gəlib çıxmış, az sonra tənəzzülə uğramış Urartu dövlətinin ərazisində yerləşmişlər. Muşklar burada yurd saldıqdan sonra yerli əhaliyə qatışmışlar. E.ə. VII əsrdən başlayaraq min il ərzində yerli xalqların və bura gələn yeni etnik qrupların qatışması, habelə assimilyasiya prosesləri nəticəsində Kiçik Asiyanın lokal ərazisində e.ə. III əsrdə özünə “hay” etnonimi götürmüş yeni etnos formalaşmağa başladı. Lakin yunanlar onlara

yerləşdikləri Arminiya coğrafi ərazisinə uyğun ad verdilər – “ermənilər”. Beləcə yunanların onlara verdikləri ikinci ad – “ermənilər” yarandı.

“Tarixin atası” Herodot yazır: “Fərat çayının yuxarı axarlarındakı ölkədə köçəri armen tayfaları yaşayırdı. Armenilər friqlərlə birlikdə Frakiyadan köç edərək Ön Asiyada məskunlaşmışlar” [15, s.427]. Tarixçi Dinisi yazır ki, Xəzər sahili xalqlar – hunlar, albanlar, kadusilər və başqalarının aralarında erməni adlarına rast gəlmədim. Rus tarixçisi Dykonov qeyd edir ki, erməni etnosu Qafqazın hüdudlarından kənarda formalaşıb. Erməni tarixçisi Pastermasyan isə yazır: “Ermənilər e.ə. VII-VI əsrlərdə Qərbdən Şərqə gəlmişlər”. Erməni millətinə mənsub olan elm adamı B.İşxanyan isə ermənilərin Qafqazda məskunlaşmaları barədə həqiqəti ortaya qoymuşdur: “...Ermənilərin həqiqi vətəni Kiçik Asiyadır, yəni Rusiya hüdudlarından kənardadır... Qafqaz ərazisinin müxtəlif hissələrinə ermənilər yalnız son yüz ildə səpələnmişlər...” [16, s.18].

Göründüyü kimi, ermənilərin tarixən Cənubi Qafqaz torpaqlarında yaşaması ilə bağlı iddiaların heç bir elmi əsası yoxdur.

Tədqiqatçılar belə hesab edirlər ki, Balkanlardan gəlmə friq tayfalarının bir qolu olan indiki ermənilər Arme və Hayasa əyalətlərinə gəlib məskunlaşmışlar [4, s.20]. Friqlərin bu qolu ermənilərin (etnik adı “hay” olanların) bir hissəsi idi. Haylar heç vaxt özlərinə “erməni” deməmişlər. Ona görə ki, “erməni” adı “hay”lara bir hissəsi Armində, sonra Ərməniyədə yaşadıqlarına görə kənardan verilmə addır. Armina (Armini) ölkə adının mənşəcə indiki Ermənistan ərazisinə qəti aidiyyatı yoxdur. Arme əyalətinin adı ilə sonralar yaranmış “erməni” adı həm də “hay”lara şamil olunduğuna görə “Armina” adı Hayk adının qarşılığına çevrilmişdir. Ermənilərin Ermənistanı adlandırdıqları “Hayastan” adı XX əsrin 20-ci illərində yaranmışdır.

“Erməni” və “hay” adlarının hər ikisi Arme (Armeni) və Hayasa əyalətlərinin adlarından ibarətdir. E.ə. II əsrə qədər antik mənbələrdə “Armenia” dedikdə yalnız Kiçik Asiyadakı “Armini” nəzərdə tutulur.

Şərqi Anadoluda “Armini” əyalətlərinin adı e.ə. II əsrdə “Böyük Ərməniyə”nin yaradılması ilə indiki Ermənistan ərazisinə şamil olması nəticəsində “erməni” adı həm haylara, həm də indiki Ermənistanda yaşayanlara, o sıradan türkdillilərə verilmiş addır, çünki ümumi mənada “erməni” sözü “Ərməniyyədə yaşayan” anlamındadır [4, s.21]. Ərməniyədə çoxluq kimmerlərə, saklara (basine, qarqar, quqar, şirak və b.) və erkən orta əsrlərdə məskunlaşmış kəngər, peçeneq, hun, xəzər, oğuz, qıpçaq və b. tayfalara məxsus idi.

U.Dyakonov yazmışdır ki, Cənubi Qafqazda Skif çarlığı olmuşdur. Sakasena əyaləti bu çarlığın mərkəzi idi. Saklar indiki Ermənistan ərazisini tutmuşlar. Onlar Urartu dövlətinin süqutunu sürətləndirdilər. Skif (sak) çarlığı Şimali Azərbaycan və indiki Ermənistan ərazisini əhatə edirdi. Ərməniyə türkmənşəli kimmerlərin (kəmərlərin) və skiflərin (sakların) ölkəsi hesab edilir.

“Böyük Ərməniyənin” əsasını atropatenalı Ar-Taş qoymuşdu. O, Araz çayının sahilində Artaşat şəhərini salmışdı ki, bunun da “hay”lara aidiyyatı yoxdur.

“Ərməniyə çarı” II Tiqranın (o, “hay” deyildi) vaxtında Ərməniyə dövləti genişləndi və Kiçik Asiyadakı qədim Armeni əyaləti də ona qatıldı. Lakin e.ə. 66-cı ildə Roma ordusu II Tirqanı məğlub etdikdən sonra “Böyük Ermənistan” dağıldı [4, s.34]. 387-ci ildə Ərməniyə Bizansla İran arasında bölüşdürüldü. 428-ci ildə İran erməni çarlığı ləğv edildi. 1080-1375-ci illər ərzində Kilikiya erməni knyazlığı mövcud olsa da, o müstəqil deyildi.

Ermənilər (haylar) XV əsrin ortalarınadək Cənubi Qafqazda, demək olar ki, yaşamırdılar. 1441-ci ildə Qaraqoyunlu türk-Azərbaycan dövlətinin hökmdarı Cahan şah erməni katolikosluğunun mərkəzini Kilikiyanın Sis şəhərindən əhalisi tamamilə türklər olan İrəvan yaxınlığındakı alban monastırı olmuş Üçkilsə monastırına (Üçmüədzinə) köçürmüşdür. Sonralar ermənilər Üçmüədzin adını dəyişərək “Eçmiədzin” kimi ifadə etmişlər [6, s. 39].

Qaraqoyunlulardan sonra Ağqoyunlulara sığınan Üçkilsə katolikoslarının mövqeyi daha da möhkəmləndi. Beləliklə, Azərbaycan ərazisində – Çuxursəd diyarında Azərbaycan Qaraqoyunlu, Ağqoyunlu hökmdarlarının icazəsi ilə erməni kilsəsi tikildi.

Səfəvi dövləti yaranarkən Çuxursəd də bu dövlətin tərkibinə daxil idi. Səfəvi dövlətinin ərazisi inzibati cəhətdən 13 vilayətə – bəylərbəyliyə bölündü. Bunlardan biri də mərkəzi İrəvan qalası olan Çuxursəd bəylərbəyliyi idi [6, s.40; 8, s.23].

Çuxursəd vilayətinin adı hələ e.ə. VII əsrdə burada məskunlaşmış türk mənşəli Sak tayfalarının adı ilə bağlı olub əvvəllər "Saka Yurdu" – Saka Çuxuru, orta əsrlərdə isə "Çuxursəd ölkəsi" adlanmışdır [6, s.37]. Bu yerin adı Azərbaycan torpaqlarından olan Sədli və ya Sədlilərin adından yaranmışdır. Çuxursədin hakimi isə Əmir Səəd olmuşdur (1390-1410). Kahin Hovanes Şahxatunyanın tərtib etdiyi siyahıda 1390-cı ildən 1828-ci ilədək – sonuncu İrəvan xanı öldürülərkən İrəvanı idarə edən 50 xanın hamısı azərbaycanlı olmuşdur. Hüseynqulu xan Qacar qardaşı Həsən xanla (1807-1828) İrəvan xanlığını idarə etmişlər [6, s.254-255].

Bu ərazi həmişə Azərbaycanın ayrılmaz bir hissəsi olmuş, buranı azərbaycanlılar idarə etmişlər. Hələ lap qədim dövrdən bu yerin Azərbaycan ərazisi olduğu məlumdur. Babək ərəb işğalçıları ilə müharibədə məğlub olandan sonra Sisakanın Şəki kəndinə – öz doğma torpağının bir yerindən başqa yerinə gəlmişdi. Şəki kəndinin və qalasının sahibi Səhl-ibn Sunbat onu öz hökmdarı kimi qəbul etmiş, bir müddət qulluğunda durmuş, sonra xəyanətlə ərəb xilafətinə təhvil vermişdi. O zaman da, sonra da heç bir tarix kitabında yazılmayıb ki, Babək Ermənistana gedibdir.

**Ermənilər indiki Ermənistan adlanan əraziyə gəlmədirlər**

"İrəvan əyalətinin icmal dəftəri"ndə bu barədə tutarlı faktlar vardır. Həmin "Dəftər"-dən aydın olur ki, 1590-cı ildə İrəvan əyaləti İrəvan və Naxçıvan sancağından ibarət olmuşdur. Ermənilərin XVI əsrin əvvəllərində də İrəvan əyalətinə gəlmələri barədə İrəvan qalabəyisi Rəvanqulu xanın Şah İsmayıl Xətaiyə yazdığı bir məktub dediklərimizi tam təsdiq edir: "... Son illər müşahidələrimə görə, əhalinin bir qismi, yəni Mesopotomiyadan Van gölü sahillərinə, oradan da beş-beş, on –on Qafa, bizim torpaqlara gələn ermənilər... qəsbkarlıqla, xırda ticarətlə, bənna və dülgərliklə güzəran sürüb fərağat oturmaqdansa, tabeliyimdəki torpaqlarda yerdəyişmə vurnuxmalarına başlamış, geniş oturaq həyat iddialarına qapılmışlar. İndi Ağkilsə (Eçmiədzin) kəndində əyləşən dünya ermənilərinin katolikosu II Qriqori zünnarına xas olmayan fəaliyyəti ilə və təxribatçılıq əməlləri ilə idarəmizi müşküllərə məruz qoyub. Katolikos erməni dini mərkəzinin vəqf sərmayəsi hesabına öz soydaşlarının türk kəndləri kənarında iki-üç ailə olmaqla oturaq məskunlaşmasını maliyyələşdirir, onlara ufacıq kilsələr tikdirir, beləliklə bu tayfanın Qafda qədim mövcudiyyəti təsəvvürü yaradır ki, bunlar istiqbalda nəsillərimizə başağrısı verə biləcək fəsadlar törənməsinə zəmin yarada bilər. İndi zikr olunan ərazidə elə bir kəndimiz, obamız qalmayıb ki, orada üç yad ailə işığı yanmasın. İsmətsizlik əxlaqına qurşanmış hayk qız-gəlinləri türk dəliqanlı cavanlarına sırınmağa can atır, ... oğuzlara ərə getməyə, başqa sözlə, mülkümüzə, malımıza şərik çıxmağa çalışır, siyasətdə sakit təcavüz adlanan cinayətlər törədirlər. Qarışıq nigahların vüsəti məni qorxudur, şahım. Mənə səlahiyyət ver, cəmi on beş min gəlməni mövsümi işçilər kimi qisim-qisim qaytarım vətənin dışarına. Sənin qulun Rəvan xan" [2, 2009, 12 oktyabr].

XVII əsrin 30-cu illərindən XVIII əsrin 20-ci illərinə qədər olan dövrdə Çuxursəd bəylərbəyliyi İrəvan, Şərqi Şörəyel, Naxçıvan və Maku əyalətlərini əhatə etmişdir [6, s.42]. XVI əsrdən XVIII əsrin birinci rübü də daxil olmaqla İrəvan əyaləti sabit sərhədlərə malik olmuşdur.

Rusiya 1722-1723-cü illərdə Səfəvi dövlətinin Xəzərsahili vilayətlərini işğal etdi. Osmanlı dövləti də Ərdəbilədək Azərbaycan torpaqlarını tutdu. 1724-cü ildə osmanlılar İrəvan qalasını ələ keçirdilər. İrəvanın itirilməsindən sonra Çuxursəd bəylərbəyliyi 10 ildən çox osmanlıların hakimiyyəti altında qaldı. 1728-ci ildə osmanlılar siyahıyaalma keçirərkən İrəvan əyalətinin ərazi-inzibati quruluşu aşağıdakı kimi idi: İrəvan şəhəri, Qırxbulaq, Qərbi Maku, Xınzirək, Gərni, Vedi, Dərəçiçək, Abaran, Göyçə, Məzrə, Sürməli, İğdır, Aralıq, Şərur, Sədərək, Zərzəmin nahiyələri və

Şörəyel livası [6, s.47-48]. Osmanlı qarnizonu Nadirqulu xanın tələbindən sonra 1735-ci ilin oktyabrında İrəvan qalasını tərk etdi.

1747-ci ildən 1827-ci ilə qədər Qacar tayfasının idarə etdiyi İrəvan xanlığı fəaliyyət göstərmişdir. İ.Şopenin məlumatlarına görə İrəvan xanlığında 49.875 nəfər Azərbaycan türkü, 324 nəfər kürd, 20.073 nəfər isə erməni yaşayırdı [18, s.635-642].

1828-ci il martın 21-də imperator I Nikolayın fərmanı ilə İrəvan və Naxçıvan xanlıqları ləğv edilərək, onların yerində "Erməni vilayəti" yaradıldı. Türkmənçay müqaviləsinin 15-ci maddəsinə görə İranın Salmas, Xoy, Urmiya, Marağa mahallarından ermənilər bu ərazilərə köçürüldü. İşğaldan əvvəl İrəvan xanlığında 3.498, Naxçıvan xanlığında isə 930 olmaqla bütünlükdə 4.428 erməni ailəsi, cəmi 25.151 nəfər erməni, müharibədə ölən, İrana və Türkiyəyə gedənləri nəzərə almadan belə 16.078 müsəlman ailəsi və 81.749 nəfər müsəlman yaşayır və müsəlmanlar 76,5 faiz təşkil edirdilərsə, işğaldan sonra qısa müddətdə İrandan 6.949 ailə (35.560 nəfər), Osmanlı imperiyasından isə 3.682 ailə (21.666 nəfər), cəmi 10.631 erməni ailəsi (57.226 nəfər) köçürüldü və ermənilər artıq sayca (82.377 nəfər) müsəlmanları üstələməyə başladı [5, s.24].

Türkiyədən köçürülən 14 mindən artıq erməni ailəsindən çoxu Göyçə, Dərəçiçək, Abaran, Sürməli və Talin mahallarına yerləşdirildi [6, s.394-396].

Rusiya işğalı ərəfəsində İrəvan xanlığının bütün xristian əhalisinin ümumi sayı 20 faizdən çox olmamışdır.

Tanınmış rus tədqiqatçısı N.Şavrov ermənilərin Cənubi Qafqaza köçürülməsi prosesini və köçürülüb gətirilmiş ermənilərin sayını araşdırdıqdan sonra yazırdı: "Biz müstəmləkəçilik fəaliyyətinə Güney Qafqazda rus əhalisinin deyil, bizə yad olan xalqların yerləşdirilməsindən başladıq... Biz Güney Qafqaza İrandan və Türkiyədən 124 mindən çox erməni köçürmüş və onların əhalisinin azlıqda olduğu Yelizavetpol (Gəncə) və İrəvan quberniyalarının ən yaxşı torpaqlarında yerləşdirmişik. Yerləşmək üçün onlara 200 min desyatindən çox dövlət torpağı ayrılmış və onlar üçün 2 milyon manatdan çox xüsusi sahibkar torpağı alınmışdır" [17, s.63].

Köçürülən ermənilərdən bəhs edən N.Şavrov 1911-ci ildə yazırdı: "Hazırda Cənubi Qafqazda yaşayan 1 milyon 300 min erməninin 1 milyondan çoxu bu diyarın yerli əhalisi deyil, onları bura biz köçürüb gətirmişik" [17, s.63].

**Ermənistan dövlətinin yaradılması**

Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi iki müsəlman dövləti arasında bir xristian aralığı yaratmaq məqsədi daşıyırdı. Erməni millətçiləri də neft və digər təbii ehtiyatlarla zəngin olan əzəli Azərbaycan torpaqlarında "erməni dövləti"ni yaratmaq niyyətində idi. Bolşevik Rusiyasının isə 1917-ci ildə Osmanlı dövləti ərazisində "Türkiyə Ermənistanı" yaratmaq qərarı olsa da, gerçəkləşdirə bilməmişdi.

Çar Rusiyasının süqutundan sonra Cənubi Qafqazda azərbaycanlıların və gürcülərin öz dövlətlərini yaratmaq üçün maddi imkanları və mənəvi haqqı var idi. Çarın devrilməsi, müvəqqəti hökumətin qurulması, sonra bolşeviklərin Rusiyada çevriliş edərək hakimiyyəti ələ almaları Cənubi Qafqazda əhalinin öz müqəddəratlarını həll etmək istiqamətində hərəkətə keçmələri ilə müşayiət olunurdu. 1918-ci ildə Azərbaycan Milli Şurası Zaqafqaziya Seymindən çıxdığını bəyan edərək mayın 28-də dövlət müstəqilliyini elan etdi. Azərbaycanın müstəqilliyinin elan edilməsi barədə Milli Şuranın bəyannaməsi faktiki olaraq ölkəmizin sərhədlərini müəyyənləşdirdi. Bu sərhədlər İrəvan şəhəri də daxil olmaqla, böyük bir ərazini əhatə edirdi.

Azərbaycan və Gürcüstanla yanaşı Ararat Respublikası da elan edildi. Bu vaxt M.H.Hacınski müstəqil Ermənistan dövlətinin yaradılacağı təqdirdə türklərin hansı mövqedə duracağı ilə maraqlandı. Türkiyənin siyasətini müəyyən edən Ənvər Paşa bildirdi ki, "...əgər ermənilər ingilis-rus siyasəti naminə türklərə qarşı fitnə-fəsada son qoyarsa, Türkiyə müstəqil erməni dövlətinin yaradılmasının əleyhinə deyildir". Bəs, müstəqil Ermənistan dövləti harada yarana bilərdi?

İstiqlaliyyət elan edildikdən sonra yeni yaranmış dövlətlərin (Azərbaycan, Gürcüstan və Ermənistan) sərhədlərini müəyyən etmək zərurəti meydana çıxdı. Ən çətin vəziyyətə Ermənistan düşdü. Çünki Ararat Respublikası yaradılmışdı, lakin paytaxt şəhəri yox idi. Paytaxt şəhəri Gümrü ola bilərdi, lakin türk qoşunları oranı tutmuşdu. Milli Şuranın mayın 29-da keçirilən üçüncü iclasında İrəvan şəhərinin Ararat Respublikasına verilməsi məsələsi müzakirə edildi. Ermənistanla Azərbaycan arasında sərhəd məsələləri barədə Milli Şuranın üzvləri ilə erməni Milli Şurasının üzvləri arasında aparılmış danışıqlar haqqında məlumat verən baş nazir F.x.Xoyski məruzəsində ermənilərin özlərinin siyasi mərkəzlərini yaratmaq üçün İrəvanın onlara verilməsinin tarixi bir zərurət və qaçılmaz olduğunu bəyan etdi. Bu məsələ ilə bağlı X.Xasməmmədov, M.Y.Cəfərov, Ə.Şeyxülislamov və M.Məhərrəmov çıxış edərək İrəvanın Ermənistana verilməsinin tarixi zərurət (?!) olduğunu qeyd edirlər. 28 nəfər şura üzvlərindən 16 nəfəri bu təklifin lehinə, 1 nəfər əleyhinə səs verir, 3 nəfər bitərəf qalır [14, s.14]. Bu zaman Azərbaycan nümayəndələri belə güman edirdilər ki, bu addımdan sonra ermənilər Dağlıq Qarabağa olan iddialarından əl çəkəcəkdir.

Bununla bağlı may ayının 29-da F.x.Xoyski İstanbula Məmməd Həsən Hacınskiyə göndərdiyi teleqramda yazırdı ki, biz erməni nümayəndə heyəti ilə danışıqlar apardıq, İrəvan onlara mərkəz kimi verilir, onlar da əvəzində Qarabağa, eləcə də Azərbaycanın bütün torpaqlarına olan iddialarından əl çəkirlər.

İki gün sonra İrəvandan Milli Şuranın üzvləri olan Mir Hidayət Seyidov, Bağır Rzayev və Nərimanbəy Nərimanbəyov İrəvan şəhərinin ermənilərə güzəştə gedilməsinə etiraz etdilər. Lakin Azərbaycan Milli Şurasının iyunun 1-də keçirilən iclası bu etirazı qəbul etmədi. Azərbaycan dövlətinin müdafiəsi Osmanlıdan asılı idi, dövlətin varlığı, Bakı və digər ərazilərin işğaldan azad edilməsi qarşılığında qoyulmuş şərt idi. Ona görə də şər bir zərurət deyərək təzyiq qarşısında İrəvan şəhəri ermənilərə güzəştə gedildi və nəticədə qədim Azərbaycan torpaqlarında Ermənistan dövləti (Ararat Respublikası) yaradıldı.

Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bildirib ki, hazırki Ermənistan dövləti Azərbaycan torpaqlarında qurulmuşdur: "...İndiki Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında formalaşmışdır. İrəvan şəhərini Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi 1918-ci ildə Ermənistana hədiyyə edibdir. Yumşaq desək, o da böyük bir səhv idi. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarananda İrəvan şəhərini Ermənistana bağışlamışdır. İrəvan xanlığı əzəli Azərbaycan torpağıdır" [2, 2008, 29 yanvar].

Qeyd etməliyik ki, dövlətin təşkili üçün bir sıra meyarlar lazımdır: əhali, ərazi olmalıdır ki, hökumət qurulsun və dövlət yaradılsın. Cənubi Qafqazda ermənilər heç vaxt çoxluq təşkil etməyiblər. Tarixi həqiqətlər təsdiqləyir ki, ermənilər bu ərazilərə missioner kimi gəlib-gediblər, amma heç vaxt kompakt yaşamayıblar. 1828-ci ildən sonra ermənilər sistemli şəkildə Cənubi Qafqaza köçürülüblər. Tədqiqatçı Nikolay Şavrov yazır: "1826-1828-ci illər müharibəsinin qurtarmasından sonrakı iki il ərzində 1828-ci ildən 1830-cu ilədək Cənubi Qafqaza 40 min İran və 84 min Türkiyə ermənilərі köçürülmüş və onları Yelizavetpol (Gəncə) və İrəvan quberniyalarının ən yaxşı dövlət torpaqlarında yerləşdirmişdik, hansı ki, orada erməni əhalisi cüzi idi... Nəzərə almaq lazımdır ki, 124 min nəfər rəsmi köçürülən ermənilərlə yanaşı, qeyri-rəsmi şəkildə köçənlər də çox olmuşdur və ümumiyyətlə, köçənlərin sayı 200 min nəfərdən xeyli artıqdır" [17, s.63].

Amma bir ərazinin siyasi deyil, etnik mənsubiyyətini müəyyənləşdirməkdən ötrü dünyada qəbul olunmuş bir sıra meyarlar var. Bu, ilk növbədə əhali, ərazi ilə müəyyənləşməlidir. İrəvanda heç vaxt ermənilər çoxluq təşkil etməyib. Tarixi abidələrə gəlincə isə İrəvan quberniyasında bunlar həmişə azərbaycanlılara məxsus olubdur. Məzarlıqlar, folklor materialları və coğrafi adlar da təsdiqləyir ki, İrəvan və ətrafı həqiqətən Azərbaycan torpağıdır. O ki, qaldı bu şəhərin Ermənistana verilməsi, bu faktdır.

Bir sıra tarixçilər Milli Şuranın yuxarıda qeyd olunan qərarının qəbul edilməsini

Osmanlı dövləti ilə əlaqələndirirlər. Çünki Osmanlı dövləti o zaman regionda əsas söz sahibi idi.

Beləliklə, Batum sülh müqaviləsi və Azərbaycan Xalq Cümhuriyyətinin İrəvan şəhərini Ermənistana güzəştə getməsi ilə Ararat Respublikası yaradıldı. Yaradılarkən 9 min kv. km əraziyə malik Ermənistan sonradan Azərbaycan torpaqları hesabına ərazisini üç dəfədən artıq genişləndirdi və azərbaycanlıları həmin ərazilərdən sıxışdırmağa başladı. Bununla da kifayətlənməyərək Qarabağ, Zəngəzur, Naxçıvan və b. ərazilərə sahib olmaq üçün mübarizəyə başladı.

Yeni yaradılan Ermənistan dövləti aşağıdakı əraziləri əhatə edirdi: Yeni Bəyazid qəzası (Basarkeçər adlanan cənub-şərq qismi istisna olmaqla), İrəvan qəzası (Kəmərli, Uluxanlı və Vedibasar bölgələri istisna olmaqla), Eçmiədzin qəzası (Sərdərabad istisna olmaqla) və Aleksandropol qəzasının Ağbulaq, Hamamlı və Qarakilsə əraziləri.

İrəvan şəhərinin güzəştə gedilməsi və İrəvan bölgəsində erməni dövlətinin yaradılması müqabilində Ermənistan Respublikası Türkiyə və Azərbaycan qarşısında öz üzərinə aşağıdakı öhdəlikləri götürdü: "1. Ermənilər türk-müsəlmanlara qarşı düşmənçiliyi aradan qaldırmalı, erməni hərbi hissələrini Bakıdan çıxartmalı və Şaumyanla əlaqəyə girib Bakıdakı müsəlman əhalinin təhlükəsizliyini təmin etməli idilər; 2. Azərbaycan qəzalarında erməni silahlı birləşmələri tərəfindən müsəlmanlara qarşı həyata keçirilməkdə olan kütləvi qırğınlar dayandırılmalı idi; 3. Ermənistan hökuməti İrəvanda və yeni yaradılan erməni dövlətinin digər ərazilərində qalan müsəlmanların sərbəst dini ibadət, mədəniyyət, siyasi və ana dilində təhsil almaq hüquqlarını təmin etməli idi; 4. Ermənilər Yelizavetpol quberniyasının bir hissəsinə olan ərazi iddialarından imtina etməli idilər". Bütün bu öhdəliklər tərəflər arasında imzalanan razılaşma, protokol və 4 iyun 1918-ci il tarixli Osmanlı-Ermənistan "Sülh və Dostluq" müqaviləsində, əlavə müqavilələrdə təsbit edildi. Onu da qeyd edək ki, ermənilər məqsədlərinə nail olduqdan sonra bu öhdəliklərin heç birini yerinə yetirmədi.

**Nəticə**

Beləliklə, Azərbaycanın qədim yurdu ermənilərin əlinə keçdi. Tarixçi Səməd Sərdariniyanın "İrəvan müsəlman sakinli vilayət olmuşdur" adlı əsərində İrəvan şəhərinin demoqrafik vəziyyətindən bəhs olunur. Türkmənçay müqaviləsindən sonra da İrəvanda azərbaycanlılar üstünlük təşkil edirdi: azərbaycanlılar 1805 ailə, yəni 7331 nəfər; ermənilər isə 567 ailə, yəni 2369 nəfər" [11, s.90].

Süni miqrasiya, deportasiyalar şəraitində belə İrəvanda 4 xanın, 41 bəy və sultanın, 50 müsəlman ruhanisinin qarşısında 8 erməni məliki və 19 keşişin dayandığını mənbələr təsdiq edir [2, 2002, 9 iyun].

Ermənilərin Türkiyə ərazisində xəyanətləri üzə çıxandan sonra 100 mindən artıq erməni İrəvan ərazisinə köçürülür. S.Sərdariniyanın hesablamalarından bəlli olur ki, bu münaqişələrdə 40 min erməni Axalkalakidə, 12 min Şirak şəhərində, 25 min Göyçə ətrafında yerləşdirilir [11, s.92]. Beləliklə, ruslar İrəvan şəhərini erməniləşdirərək müsəlman türklərə qarşı hərbi zonaya çevirdilər. Bu siyasət XX əsrin sonlarına kimi davam edir, azərbaycanlıların Qərbi Azərbaycandan bütövlükdə deportasiyası ilə nəticələnir.

Şotland əsilli amerikalı yazıçı Samuel Uimz yazır: "Ermənilərin hazırda yaşadıqları ərazi Azərbaycan torpaqlarıdır. Bütün tarix boyu əsl müstəqil Ermənistan heç vaxt mövcud olmamışdır. Həqiqi "böyük Ermənistan" heç vaxt olmamışdır! Üç min ildən artıq bir müddətdə dövlətçiliyi olmayan, indi isə erməni reallıqlarına deyil, yalnız erməni iddialarına əsaslanaraq ermənilərin dövlət yaratmağa çalışması nəticəsində müttəfiqlərin müstəqil Ermənistan yaratmaq qərarı qəribə görünürdü" [10, s.28, 252].

Gətirilən faktlardan və izahlardan bir daha aydın olur ki, Ermənistan dövləti xarici himayədarlarının köməyi ilə Azərbaycan torpaqlarında yaradılmışdır.

**Ədəbiyyat:**


1. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı: Qartal, 1998, 280 s.
2. "Azərbaycan" qəzeti.
3. Bayramov İ. Qərbi Azərbaycan: tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti. Bakı: Çıraq, 2012, 288 s.
4. Budaqov B., Qeybullayev Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Oğuz eli, 1998, 452 s.
5. İrəvan əyalətinin kameral təsviri. 1831. I cild. İrəvan şəhərinin kameral təsviri. Bakı: Turxan NPB, 2018, 328 s.
6. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı: Azərbaycan, 2009, 576 s.
7. Qlinka C.H. Ermənilərin Azərbaycana köçürülməsi. Rusiyanın Ərzurumdakı baş konsulu Mayevskinin qeydləri. Bakı: Azərbaycan, 1995, 126 s.
8. Nazim Mustafa. İrəvan şəhəri. Bakı: "Red N Line" MMC, 2020, 292 s.
9. Sədi Koçaş M. Tarixdə ermənilər və türk-erməni münasibətləri. Bakı: Azərbaycan ensiklopediyası, 1998, 160 s.
10. Samuel A. Uimz. Ermənistan – terrorçu "xristian" ölkənin gizlinləri. Ermənilərin böyük fırıldaq seriyaları. I cild. Bakı: OKA, 2004, 386 s.
11. Sərdariniya S. İrəvan müsəlman sakinli vilayət olmuşdur. Bakı: Zərdabi, 2014, 224 s.
12. Şahmuradov A. Ermənilər Cənubi Qafqazda (məskunlaşma tarixindən). Bakı: CBS, 2015, 136 s.
13. Асадов С. Миф о Великой Армении. Баку: Азербайджан, 1999, 280 с.
14. Азербайджанская Республика. Документы и материалы. 1918-1920 гг. Под редакцией Дж. Б.Гулиева. Баку: Элм, 1998, 616 с.
15. Гередот. История в девяти книгах. Перевод и примечания Г.А.Стратановского. Москва, 1999.
16. Ишханян Б. Народности Кавказа. Состав населения, профессиональная гриппировка и общественное разслоение Кавказских народностей. Петроград, 1916.
17. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. СПб., 1919.
18. Шопен И.И. Исторический памятник состояния армянской области в эпоху её присоединения к Российский империи. СПб., 1852, 1231 с.


***Açar sözlər:*** *Qərbi Azərbaycan, Azərbaycan Xalq Cümhuriyyəti, Milli Şura, Osmanlı dövləti, İrəvan, Ermənistan*

**Ismayil Hajiyev**

*Chairman of the Nakchivan Branch of Azerbaijan National Academy of Sciences, Academician*

## THE CREATION OF THE ARMENIAN STATE ON HISTORICAL AZERBAIJANI TERRITORIES: HISTORICAL ASPECTS

## ABSTRACT

The article states, based on historical facts, that Turkish tribes lived in the territory of the present-day state of Armenia, and that there is no scientific basis for the claims that Armenians historically lived in the lands of the South Caucasus. An Armenian church was built in the territory of Azerbaijan - Chukhursad with the permission of the rulers of Azerbaijan, Garagoyunlu and Aggoyunlu.

When the Safavid state was formed, Chukhursad was also part of this state. The territory of the Safavid state was administratively divided into 13 provinces - beylerbeyli. One of them was the

Chukhursad beylerbeyli, the center of which was the Iravan fortress. The Iravan Khanate, ruled by the Qajar tribe, operated in this territory from 1747 to 1827. On the eve of the Russian occupation, the total number of the entire Christian population of the Iravan Khanate did not exceed 20 percent. As a result of the occupation, Armenians from Iran and Turkey were massively resettled to the lands of Azerbaijan. The resettlement of Armenians to the lands of Azerbaijan was aimed at creating a Christian gap between the two Muslim states. After the fall of Tsarist Russia, Azerbaijanis and Georgians in the South Caucasus had the material means and moral right to create their own states. In May 1918, the Republic of Ararat was established along with the republics of Azerbaijan and Georgia. The city of Yerevan was ceded by the National Council of Azerbaijan to serve as the capital of the state created on the territory of the Yerevan Khanate. As a result, the state of Armenia was established on the lands of ancient Azerbaijan. In exchange for the ceding of the city of Yerevan and the establishment of an Armenian state in the Yerevan region, the Republic of Armenia undertook obligations to Turkey and Azerbaijan, but did not fulfill any of them, on the contrary, it pursued a policy of aggression, and Azerbaijanis were repeatedly subjected to mass massacres.

***Keywords:*** *Western Azerbaijan, The People Republic of Azerbaijan, National Council, Ottoman state, Iravan, Armenia*

**Исмаил Гаджиев**

*Председатель Нахчыванского отделения*
*Национальной Академии Наук Азербайджана, академик*

## СОЗДАНИЕ АРМЯНСКОГО ГОСУДАРСТВА НА ИСКОННЫХ ЗЕМЛЯХ АЗЕРБАЙДЖАНА: ИСТОРИЧЕСКИЕ АСПЕКТЫ

### РЕЗЮМЕ

В статье утверждается, на основе исторических фактов, что на территории современного государства Армения проживали тюркские племена, и что нет научного обоснования утверждениям о том, что армяне исторически жили на землях Южного Кавказа. Армянская церковь была построена на территории Азербайджана – Чухурсада – с разрешения правителей Азербайджана, Гарагоюнлу и Аггоюнлу.Когда было образовано государство Сефевидов, Чухурсад также входил в его состав. Территория государства Сефевидов была административно разделена на 13 бейлербейли. Одной из них была Чухурсадская бейлербейли, центром которой была Ираванская крепость. Ираванское ханство, управляемое племенем Каджаров, действовало на этой территории с 1747 по 1827 год. Накануне русской оккупации общая численность всего христианского населения Ираванского ханства не превышала 20 процентов. В результате оккупации армяне из Ирана и Турции были массово переселены на земли Азербайджана. Переселение армян на земли Азербайджана было направлено на создание христианского разрыва между двумя мусульманскими государствами. После падения царской России азербайджанцы и грузины на Южном Кавказе получили материальные средства и моральное право на создание собственных государств. В мае 1918 года была создана Араратская республика вместе с республиками Азербайджаном и Грузией. Город Ереван был передан Национальным советом Азербайджана в качестве столицы государства, созданного на территории Ереванского ханства. В результате на землях древнего Азербайджана было создано государство Армения. В обмен на передачу города Еревана и создание армянского государства в Ереванской области Республика Армения взяла на себя обязательства перед Турцией и Азербайджаном, но не выполнила ни одного из них, напротив, проводила агрессивную политику, и азербайджанцы неоднократно подвергались массовым убийствам.

***Ключевые слова:*** *Западный Азербайджан, Азербайджанская Демократическая Республика, Национальный Совет, Османское государство, Иреван, Армения*

DOI:https://doi.org/10.30546/2309-1347.92.2025.335

T A R İ X
H I S T O R Y

UOT 94 (479.24)

**İLQAR ABDULLAYEV**

**Bakı Dövlət Universitetinin Tarix fakültəsi,
Azərbaycan tarixi (humanitar fakültələr üçün) kafedrasının
doktorantı, tarix üzrə fəlsəfə doktoru**

*email: ilqar.heyderoglu@mail.ru*

# AZƏRBAYCANDA DƏNİZ NƏQLİYYATININ İNKİŞAF TARİXİ (1969-1982-ci illər)

Dənizə çıxışı olan hər hansı bir ölkə üçün su nəqliyyatından istifadənin çox böyük, əhəmiyyətli rol oynaması heç kəsə sirr deyil. Bu baxımdan qeyd edilməlidir ki, Heydər Əliyev respublikamıza rəhbər seçiləndən sonra nəqliyyatın digər sahələrində olduğu kimi dəniz nəqliyyatında da irəliyə doğru çox böyük, əhəmiyyətli addımlar atılmağa başlandı. Çoxsaylı müvafiq sənədlərlə tanışlıqdan bəlli olur ki, o vaxta qədər digər sahələrdə olduğu kimi burada da planın ödənilməməsi, müxtəlif yüklərin daşınmasına aid rəqəmlərin Ümumittifaq göstəricilərindən geri qalması kimi faktlar adi hala çevrilmişdi. Belə ki, Azərbaycan KP MK bürosunun 22 iyul 1969-cu il tarixli iclasının 106№-li protokolu ilə tanışlıqdan bəlli olur ki, dəniz nəqliyyatı ilə 1969-cu ilin 4 ayı ərzində 1513 min ton neft məhsulları, 213 min ton quru yük nəzərdə tutulduğundan az daşınmışdır. May və iyun ayları ərzində bütövlükdə 193 min ton, neft yükləri isə 227 min ton az daşınmışdır. Bütövlükdə gəmiçilik idarəsi yük daşınması sahəsində ilin birinci yarısı üçün planı 88,9% yerinə yetirmişdir. Gəmiçilik idarəsinin sənaye müəssisələri 1969-cu ilin I kvartalında qışa hazırlıq işlərini kifayət qədər yerinə yetirmədiklərindən heç də qənaətbəxş işləməmişlər. Bu idarənin zavodları tərəfindən birinci yarım il üçün plan tapşırıqları 75,1% yerinə yetirilmiş, 2635 min. manatlıq məhsul dövlətə təhvil verilməmişdir. Bu müəssisənin zavodları gəmilərin təmiri planını da mütəmadi yerinə yetirmirlər ki, bu da donanmanın yük daşıma qabiliyyətinin aşağı düşməsinə səbəb olur. Gəmiçilik idarəsinin 31 gəmisindən 8-i zavodda təmir edilərkən nəzərdə tutulduğundan 2 dəfə gec istismara buraxılmışdır. “Kaspar”ın baş mühəndisi Krimanın başçılıq etdiyi gəmiçiliyin texniki xidmətinin də işinin yaxşılaşdırılması ciddi şəkildə tələb olunur. Limanın təsərrüfat idarəsi (gəmiçiliyin rəis müavini yol. Qaraqaşlı), xüsusilə Bakı dəniz limanı (rəis Əsgərov) gəmilərin yük daşınması işlərində lüzumsuz yerə boş dayanma hallarına yol verməmək üçün lazımi tədbirləri görməməklə imkanlarından aşağı səviyyədə nəticə göstərirlər. Müştərilərin işə məsuliyyətlə yanaşmaları və dəmir yol nəqliyyatının lazımi səviyyədə olmaması üzündən meşə materiallarının və duzun Bakı limanından vaxtında daşınması məsələsi həll edilməmişdir [1].

Yuxarıda adı çəkilən sənədlə tanışlıqdan aydın olur ki, bütün bunları nəzərə alan Azərbaycan KP MK-sı qərara alır ki, Xəzər dəniz gəmiçilik idarəsinin, eləcə də Bakı dəniz donanması rəhbərliyinin nəzərinə çatdırılsın ki, donanmanın, limanların və sənaye müəssisələrinin işində nəzərə çarpan nöqsanların aradan qaldırılması üçün bütün zəruri tədbirlər

görülsün və 1969-cu il üçün nəzərdə tutulan plan tapşırıqları mütləq yerinə yetirilsin. Bu qərarda respublikaya gətirilən meşə materiallarının vaxtında qəbul edilməsinin təmin olunmasına görə Bakı dəniz limanında gəmilərin yan alması üçün ikinci və üçüncü yan alma körpülərinin tikilməsi də nəzərdə tuturdu [1].

Gəmiçiliyin işinə maneəçilik yaradan amillərdən biri də o idi ki, Neft emalı və Neft kimyası Nazirliyinin, Azərbaycan SSR Nazirlər Soveti yanında Təchizat və İstifadə üzrə Baş İdarə və Respublika Dövlət Plan Komitəsi mərkəzi orqanlarda neft məhsullarının dənizlə daşınması işində əsaslandırılmış sifarişlərin təsdiq edilməsinə nail ola bilmirlər, daşınan neft məhsulları isə planda nəzərdə tutulduğundan çox tələb edilirdi [1].

Bütün bunları nəzərə alan Azərbaycan KP MK bildirirdi ki, gəmiçiliyin rəhbərliyi 1969-cu il 21 mayda MK-nın Bürosunda olmuş ciddi tənqidlərdən lazımi nəticələr çıxarmamış və gəmiçiliyin işinin yaxşılaşdırılması üçün müvafiq tədbirləri çox ləng görürlər.

Azərbaycan KP MK-sı bütün deyilənləri nəzərə alaraq qərara alırdı:

1. Xəzər gəmiçilik idarəsinin (Haşımov, Sosyuk, Qaraqaşlı, Kriman) və partiya komitəsinin (Abdullayev), Bakı dəniz donanmasının (İbrahimov) rəhbərliyi tərəfindən donanmanın, limanın və sənaye müəssisələrinin işində özünü göstərmiş nöqsanların aradan qaldırılmasından ötrü bütün zəruri tədbirlərin görülməsi və 1969-cu ilə dair qəbul edilən plan və tapşırıqların yerinə yetirilməsi üçün verdikləri vəd nəzərə alınsın.
2. Xəzər dəniz gəmiçiliyi idarəsinin rəhbərliyinə tapşırılsın:

– donanmanın istismarını dürüst şəkildə təşkil etsinlər, daşımalar zamanı nəzərdə tutulan konkret hesablamaların və işlərin analizi əsasında plan və qrafiklərə, eləcə də müştərilərlə imzalanmış müqavilələrə uyğun gəlməyən itkiləri aradan qaldırsınlar.

– yenidən yükləmə texnikası və işçi qüvvəsini, anbarların həcmini artırmalı, gəmilərin yanalması üçün körpülərin işini daha da yaxşılaşdırmalı, yük dövriyyəsində kifayət qədər ehtiyatı imkanlara malik Bakı limanının işinin səviyyəsini daha da yüksəltməli. Daha optimal texnoloji sxem və əməyin təşkilinin yaxşılaşdırılması yolu ilə gəmilərin və müxtəlif mexanizmlərin boşdayanma hallarına yol verilməməsini təmin etməli.

– gəmi təmiri və gəmiqayırma üçün nəzərdə tutulmuş sənaye müəssisələrinin, texniki xidmət və şöbələrin işində özünü göstərən nöqsanları aradan qaldırmalı [1].

Lakin burada ayrıca qeyd edilməlidir ki, 1969-cu ilin iyulunda Heydər Əliyev Azərbaycan Respublikasına rəhbərlik etməyə başladıqdan sonra Xəzər Dövlət Dəniz Gəmiçiliyi İdarəsi, eləcə də Xəzər Dəniz Neft Donanmasına, eləcə də bu sahəyə aid sənaye müəssisələrinə qarşı belə ciddi tələblərin qoyulması ilə yanaşı, onlara həm də digər tərəfdən respublika rəhbərliyinin daim kifayət qədər yüksək səviyyədə diqqət və qayğısı göstərilirdi. Yeni gəmilərin alınması, Xəzər dənizçilərinin həyat şəraitinin yaxşılaşdırılması, onlara ev verilməsi, bütövlükdə gəmiçiliyin modernləşdirilməsi sahəsində Heydər Əliyevin nüfuzu xüsusi rol oynayırdı [9, s.141]. Göstərilməlidir ki, bu sahədə geriliyi aradan qaldırmaq üçün çox operativ şəkildə əhəmiyyətli addımlar atılmışdır. Əvvəlcədən qeyd etməliyik ki, 1969-cu il iyulun 22-də keçirilən büro iclasına Xəzər Dəniz Gəmiçiliyi İdarəsinin rəisi S.Haşımov, onun müavinləri D.Sosyuk, N.Qaraqaşlı, baş mühəndis İ.Kriman və partiya təşkilatı katibi E.Abdullayevlə yanaşı, Bakı Dəniz Limanının rəisi, Bakıda fəaliyyət göstərən gəmi təmiri zavodlarının baş mühəndisləri də dəvət edilmişdi. Bu, həm də onun göstəricisi idi ki, Heydər Əliyev elə ilk günlərdən problemlərin kompleks həlli üçün müzakirələrdə peşəkarların iştirakını təmin etdirirdi [8, s.25].

Həmin gün bu iclasda üçüncü məsələ kimi gündəliyə “Xalq təsərrüfatı yüklərinin daşınmasının yaxşılaşdırılması sahəsində Xəzər Dəniz Gəmiçiliyi İdarəsinin işi haqqında” məsələ də daxil edilir. Elə həmin iclasda Xəzər Dəniz Gəmiçiliyində olan nöqsan və çatışmazlıqlar prinsipiallıqla müzakirə olunur. Müzakirələr zamanı bəlli olur ki, geriliyin əsas səbəbi gəmilərin normadan artıq boş dayanması və onların yükgötürmə imkanlarından tam şəkildə istifadə olunmamasıdır. Neftdaşıma donanmasına məxsus gəmilərin Bakı və Mahacqala limanlarında günlərlə boş dayanması kimi faktlar üzə çıxır. Burada tankerlərin limanlarda boş dayanma səbəbləri də araşdırılır. Müəyyən edilir ki, gəmilərin yan alması üçün körpülər, eləcə də neftdoldurma çənləri kifayət etmir, neft vuran nasoslar aşağı məhsuldarlıqla işləyir və s. [8, s.25].

Eyni zamanda bu müzakirələrdə məlum olurdu ki, payız – qış mövsümündə neftdaşıma gəmilərinin boşdayanma səbəblərindən biri də Xəzər Dəniz Gəmiçiliyi İdarəsində meteoroloji çətinliklərin qabaqcadan proqnozlaşdırılmamasıdır. Bütün bunların nəticəsində gəmiçilik idarəsi 1968-ci ilin plan tapşırıqlarını yerinə yetirə bilməmişdir.

O zamanlar nəinki neftdaşıma sahəsində, hətta quru yükdaşımalar sahəsində də gerilik hökm sürür, Bakı–Krasnovodsk gəmi - bərə xəttində hərəkət edən bərələr tam yüklə təmin edilmirdi. MK bürosunda keçirilən prinsipial müzakirələr nəticəsində daha bir həqiqət üzə çıxır: gəmi – bərələrin tam doldurulmamasının bir səbəbi də dəmir yolu nəqliyyatının pis işləməsi ilə əlaqədardır. Dəmir yolçular gəmi – bərələrə yüklənməli olan yükləri vaxtında mənzil başına çatdırmırlar. Azərbaycan Dəmir Yolu İdarəsi də Bakı Dəniz limanından yükləri vaxtında daşımır ki, bu da gəmilərin boşaldılması üçün boş meydanların çatışmazlığına səbəb olur. Həmin iclasda idarəyə məxsus sənaye müəssisələrinin işi də müzakirə olunur. Gəmi təmiri sahəsində özünü göstərən nöqsanlar da qeyd edilir. Elə buradaca Heydər Əliyev dənizçilər qarşısında şərt qoyur: bundan sonra belə işləmək olmaz! Elə həmin büro iclasında Xəzər Dəniz Gəmiçiliyi İdarəsinə son xəbərdarlıq edilir ki, ötən ilin acı təcrübəsi 1969-cu ildə təkrar edilməsin, respublika iqtisadiyyatının inkişaf etdirilməsi üçün dəniz nəqliyyatı imkanlarından maksimum istifadə edilsin. Gəmiçilik sahəsində ortaya çıxan nöqsanların tezliklə aradan qaldırılması üçün konkret tapşırıqlar da verilir. Bakı limanının işini yaxşılaşdırmaq üçün qərara alınır ki, burada ikinci və üçüncü yanalma körpülərinin tikintisi sürətlənsin [8, s.25]. Tezliklə bu sahədə olan nöqsanların aradan qaldırılması, plan tapşırıqlarının vaxtında və nöqsansız yerinə yetirilməsi üçün Xəzər dəniz gəmiçiliyi idarəsində əməyin elmi təşkili üçün müvafiq laboratoriya təşkil edildi. Burada əməyin elmi təşkili üzrə beşillik plan işlənib hazırlanmışdı. Planda gəmilərin yük tutumundan səmərəli şəkildə istifadə olunması, səfər dövriyyəsinin sürətləndirilməsi, təmir – profilaktika işlərinin vaxtında görülməsi üçün bir sıra tədbirlər nəzərdə tutulurdu. Bu baxımdan qeyd etmək yerinə düşərdi ki, “Ulyana Qromova” tankerində müvafiq tədbirlər görüldükdən sonra, ən yeni təmir metodlarından istifadə sayəsində gəminin mühərrikləri əsaslı təmirə dayanmadan 40 min saat işləmişdir. Bu isə gəmiçilik üzrə orta rəqəmdən 5 dəfə çoxdur [13].

Dəniz nəqliyyatı sahəsində qazanılmış nailiyyətlərdən danışarkən böyük iftixar və qürur hissi ilə qeyd edilməlidir ki, Xəzər Gəmiçiliyi İdarəsinin D.Bünyadzadə adına gəmi təmiri zavodunda Heydər Əliyevin respublikamızda rəhbərliyə başladığı 1969-cu ildən etibarən su altı qanadları olan katerlərin seriya ilə istehsalına da başlanmışdır. Göstərilməlidir ki, o vaxtlar “Kometa”, “Raketa”, “Strela” və s. kimi ilk nümunələr Leninqrad (Sankt-Peterburq) və Qorki (Nijni Novqorod) şəhərlərində hazırlanmışdır. Onların qovşaq və hissələrində alüminiumdan geniş istifadə olunmuşdur. Həmin gəmilərin çaylarda və göllərdə işlədilməsi nəzərdə tutulurdu. Bakıda hazırlanacaq gəzinti katerləri isə “Nevka” tipli olmalı və onlardan dənizdə istifadə olunacaqdı. Bu gəmilərin hazırlanmasında əsasən plastik kütlələrdən istifadə ediləcəkdi. Bu

katerlər içərisində sərnişinlər olduqda 2 bal, sərnişinsiz isə 4 bal küləyə davam gətirə biləcəkdilər. Şübhəsiz ki, Xəzərdə üzəcək belə gəmilərin Bakıda hazırlanması ölkəmizdə su nəqliyyatının inkişafına səbəb olacaqdı [15].

1970-ci il isə Xəzər dəniz gəmiçilik idarəsi üçün xüsusilə əlamətdar olmuşdur. Belə ki, dəniz gəmiçilik idarəsinin həmin il 50 illik yubileyi qeyd edilmişdir. 1920-ci ildə dənizçilər Xəzər donanmasının və sahil binalarının əsl sahibinə çevrilmişdilər. Amma o vaxt onlara çox az şey miras qalmışdı: bir neçə tərsanə və kustar gəmi təmiri emalatxanası, bir də cəmi dörd gəmisi olan donanma. Sonradan çoxlu yeni gəmilər alınmış, təzə gəmi təmiri zavodları tikilmiş, gəmiçilik güclü texnika və ixtisaslı kadrlarla təmin olunmuşdur. Danışdığımız dövrdə isə Xəzər artıq yeni texnika – hərəsi dörd min ton yük tutan tankerlər, qüdrətli dizel teploxodlar olan bir hövzə idi. "Üzən qatarlar" Zaqafqaziya və Mərkəzi Asiya sahillərini birləşdirirdi. Hazırda İstanbul, Beyrut, İsgəndəriyyə, Əlcəzair və başqa Yaxın Şərq ölkələrinin limanlarında Azərbaycan gəmilərinə rast gəlmək adi hala çevrilmişdir [7].

Müvafiq sənədlərlə tanışlıqdan aydın olur ki, artıq 1970-ci il Dekabrın 8-də Xəzər gəmiçilik idarəsi beşillik yükdaşıma planını yerinə yetirmək haqqında raport vermişdir. Bu müddət ərzində neft daşınması 25,7%, quru yük daşınması 19,6%, o cümlədən bərə ilə yük daşınması iki dəfə, xarici ticarət yükləri daşınması isə 13,6% artmış, plandan əlavə 1,5 milyon manat gəlir əldə edilmişdir. Dənizçilər dekabrın 10-da illik planı yerinə yetirmiş, qalan 21 gündə isə plandan əlavə 1 milyon 200 min ton yük daşımağı qərara almışlar [2]. Qeyd etmək lazımdır ki, belə əmək qələbəsinin qazanılmasında o vaxtlar fəaliyyət göstərmiş Vano Sturua adına gəmi təmiri zavodunun kollektivi də çox böyük rol oynamışdır. Belə ki, bu zavodun əmək kollektivi fədakarlıqla işləyərək onlarla gəminin cədvəldə nəzərdə tutulduğundan tez istifadəyə verilməsinə nail olmuşlar [3].

1972-ci il mayın əvvəllərində isə Xəzər gəmiçilik idarəsinin sərəncamına Nijni Novqorod (Qorki) gəmiqayıranları tərəfindən daha bir gəmi – "Kəminə" yük teploxodu daxil olmuşdur. Bu gəminin birinci səfəri dörd ay əvvəl Kianlıya olmuşdur. Bu uzun müddətli səyahətdə gəmi sistemi və mexanizmlərinin hamısı qüsursuz işləmişdir. Aydındır ki, Xəzər Dəniz Gəmiçilik İdarəsinin bu gəmini də sərəncamına alması nəticə etibarı ilə bu idarənin yük daşıma gücünü daha da artırırdı [6].

Qeyd edilməlidir ki, tədqiq edilən dövrdə Paris Kommunası adına gəmi təmiri zavodunda bir çox səmərələşdirici təkliflər də irəli sürülmüşdür ki, nəticədə də xeyli mənfəət əldə edilmişdir. Məsələn, usta H.Hüseynovun 1970-1972-ci illər arasında irəli sürdüyü səmərələşdirici təkliflər nəticəsində müəssisə 200 min manatdan çox mənfəət götürmüşdür [17].

Yeri gəlmişkən 1980-ci ildə Bakı – Krasnovodsk arasında vaqonları daşıyan "Sovet Özbəkistanı" gəmi bərəsi də Bakıdakı Paris Kommunası adına gəmi təmiri zavodunda təmir edilmişdir. Burada təmirçilər bu gəmi – bərənin sağ və sol tərəflərində yerləşən pərləri təmir etmişlər. Ayrıca qeyd edilməlidir ki. bu iş çox mürəkkəb işdir. Belə ki, hər pərin diametri 2 m,100 mm.dir. Bundan başqa çilingərlər gəmi – bərənin alt hissəsində olan və vaqonların gəmiyə minməsi üçün salınan dəmir relslərin xarab olan hissələrini təmir etmiş, bəzi yerlərini isə tamam dəyişmişlər. Plana görə bu nəhəng gəmi – bərə 1981-ci ilin may ayında təmir edilib təhvil verilməli idi. Lakin Paris Kommunası adına gəmi təmiri zavodunun fəhlələri gəmini 1980-ci ilin sonlarına qədər təhvil verməyə söz vermişdilər [14, s.5].

Xəzərdə neft çıxarılması işinin daha da təkmilləşdirilməsi məqsədi ilə Xəzər Dəniz Neft Donanması yeni və müasir gəmilərlə təchiz edilməkdə davam edirdi. Belə ki, 1973-cü ildə Hollandiyada sualtı neft və qaz xətlərinin inşası üçün "Süleyman Vəzirov" borudüzən gəmisi inşa olunur. Bu gəmi dənizin dərinliyi 195 metrə qədər olan sahələrində sualtı boru xətlərinin çəkilməsini təmin edir. Norveçdə gücü 7040 at gücündə olan üç ədəd təchizat gəmisi inşa olunaraq Bakıya gətirilmişdir [14, s.5].

1974-cü ildə isə Bakı Dənizçilik Məktəbinin 50 illiyi böyük təntənə ilə qeyd edilmişdir. Bu əlamətdar gün münasibəti ilə keçirilən tədbirdə bildirilmişdir ki, 50 il ərzində məktəb dəniz donanması və gəmi təmiri sənayesi üçün 12 min matros və digər mütəxəssis hazırlamışdır [4].

Qeyd etmək yerinə düşərdi ki, gəmi təmiri zavodunun işçiləri yalnız özlərinin bilavasitə işləri ilə məşğul olmur, həm də asudə vaxtlarını səmərəli keçirir, sağlamlıqlarının qorunması üçün də idmanla məşğul olurlar. Belə ki, A. Kompanetski özünün "İdman" qəzetində çap edilmiş məqaləsində bildirir ki, "Sov. İKP MK XXI qurultayı" adına gəmi təmiri zavodunun fəhlələri iki komandaya bölünərək həvəslə top oynayırdılar. Onlardan bir az aralı isə ƏMH həvəskarları məşq edirdilər. İdman zalında isə tennisçilər məşq edirdilər. Şübhəsiz ki, bütün bunlar dənizçilərin daha yaxşı istirahət etmələrinə, güclərini bərpa etməyə imkan verirdi [12].

Sonrakı illərdə isə gəmilərin ən işlək hissələrindən olan avar vintinin polietilendən hazırlanması ideyasını irəli sürərək onu hazırlamışlar. Məlum olmuşdur ki, polietilendən hazırlanan avar vinti əvvəlki analoqundan nəinki geri qalmır, hətta bəzi keyfiyyətinə görə onu ötür. Bunun da nəticəsində sex xeyli maddi gəlir əldə edə bilmişdir [12]. Qeyd etmək yerinə düşərdi ki, "Şərəf nişanı" ordenli bu müəssisə sonrakı dövrdə də istehsal tempindən geri qalmamış, 1971-1975-ci illərdə plan tapşırıqlarını artıqlaması ilə yerinə yetirmiş, 1975-ci ilin tapşırıqlarına isə 106,5% əməl etmişlər. Qeyd etmək yerinə düşərdi ki, onlar artıq "Metan" və "Manqışlaq" yük gəmilərini, "Qırğızıstan", "Həmid Sultanov" sərnişin gəmiləri vaxtından iki ay əvvəl və yüksək keyfiyyətlə təmir edilmişdir [11].

Qeyd etmək yerinə düşərdi ki, Sov.İKP MK 1978-ci ilin mart ayında Sankt-Peterburq (Leninqrad) nəqliyyat qovşağının qabaqcıl təcrübəsi haqqında məsələ müzakirə etmişdir. Müzakirə olunan məsələ ilə əlaqədar qəbul edilmiş qərarda deyilirdi ki, Sankt-Peterburq (Leninqrad) nəqliyyat qovşağında vahid texnoloji proses əsasında bir-biri ilə əlaqəli fasiləsiz plan – cədvəllər əsasında dəniz, dəmir yolu, çay və avtomobil nəqliyyatı işinin yeni, daha mütərəqqi forması tətbiq edilmişdir. Bakı nəqliyyat qovşağında da vaqonlardan, gəmilərdən, avtomobillərdən istifadə olunmasının səmərəsini yüksəltməyə, nəqliyyat konveyerinin ahəngdar işləməsinə xidmət göstərən bu qabaqcıl iş təcrübəsini tətbiq etmək qərara alınmışdır. Bu baxımdan qeyd etmək yerinə düşərdi ki, 1978-ci ilin əvvəlindən bəri Bakı limanında plandan əlavə 131,5 min ton xalq təsərrüfatı və xarici ticarət yükləri daşınmışdır. Körpülərə yan almış 375 gəmidən 235-i vaxtından 2529 saat tez yola salınmışdır [16].

Qeyd etmək yerinə düşərdi ki, 1978-ci ildə Fransada inşa olunmuş və 200 metrə kimi dərinlikdə işləmək üçün su altı dalğıc kompleksi ilə təchiz edilmiş "Əli Əmirov" geoloji – kəşfiyyat gəmisinin donanmanın sərəncamına verilməsi də əhəmiyyətli hadisələrdən idi [9, s.141].

Sonrakı illərdə də neft hasilatının artırılması ilə əlaqədar Xəzər Dəniz Neft Donanması üçün müxtəlif təyinatlı gəmi və qurğular alınmışdır. Söhbət kran, sərnişin, yedək, dalğıc, geoloji – kəşfiyyat, yanğınsöndürən gəmilərdən, kiçik yedək və xidmət katerlərindən və barjalardan gedir. Təbiidir ki, bütün bunlar gəmiçilik sahəsində olan tərəqqinin və inkişafın təcəssümü idi. Lakin həmin 70-ci illərdə gəmiçilik sahəsində problemlər də az deyildi.

1978-ci ilin sentyabrında Azərbaycan KP MK Azərbaycanda gəmiçiliyin problemləri ilə bağlı Sov.İKP MK-ya xüsusi məktub göndərir. Məktubda qeyd olunur ki, son illər Xəzər Dəniz Gəmiçiliyi İdarəsində tankerlər, bərələr, dəniz dibini dərinləşdirən qurğular və digər texniki vasitələr alınması ilə bağlı olduqca ağır vəziyyət yaranıb. Xidmət vaxtına və texniki vəziyyətinə görə bu beşillikdə 34 tankerdən 19-u, o cümlədən onların 14-ü təkcə 1977-1978-ci illərdə balansdan çıxarılıb. Eyni zamanda doqquzuncu və onuncu beşilliklərdə Rumıniyada, Bolqarıstanda və Volqoqrad şəhərində inşa ediləcək 22 tanker hesabına neftdaşıma donanması parkının artırılması nəzərdə

tutulsa da, bu barədə Rumıniya və Bolqarıstanla müqavilələr imzalanmayıb. 1979-1980-cı illərdə isə Volqoqraddan cəmi 4 tankerin göndərilməsi gözlənilirdi [9, s.141]. Məktubda dəniz bərələri sahəsində də vəziyyətin yaxşı olmadığı vurğulanırdı. Qeyd olunurdu ki, dəmir yolu vaqonlarının bərələrlə daşınmasına Sovet İttifaqında ilk dəfə 1962-ci ildə Xəzər dənizində başlanıb. O vaxt "Krasnoye Sormovo" zavodunda 5 bərə tikilib. Faktiki olaraq, onlardan dördü istismardadır, çünki biri daim təmir-profilaktikada olur. Bakı– Krasnovodsk istiqamətində fərdi avtomobillərin daşınmasında da ciddi problemlər yaradıldığı bildirilir, Bakı dəniz vağzalında çox vaxt 300-ə qədər avtomobilin yüklənmə üçün növbə gözlədiyi xatırlanırdı. Məktub bu sözlərlə bitirdi: "Azərbaycan KP MK xahiş edir ki, bu məktubda qaldırılan məsələlərə baxılması və müsbət həll edilməsi barədə tapşırıq verilsin". Xəzər Dəniz Gəmiçiliyi idarəsinin illərdən bəri yığılıb qalan problemləri barədə bu kəskin məktubun sonunda imza da var idi: Azərbaycan KP MK katibi Heydər Əliyev... Bəli, o vaxtdan təxminən 50 ilə qədər vaxt keçmişdir. Amma bu gün aydın görünən odur ki, həmin dövrdə Xəzər gəmiçiliyinin bütün problemləri barədə Sovet İttifaqının rəhbərliyinə bu cür açıq və müfəssəl məktub yazmağa ancaq Heydər Əliyev kimi güclü liderin cəsarəti çatardı... Bundan bir neçə il sonra Azərbaycan KP MK bürosu "Dəmir yolu və su nəqliyyatında xalq təsərrüfatı yüklərinin qorunmasının təmin edilməsi və oğurluqla mübarizənin gücləndirilməsi haqqında" qərar qəbul edir. Heydər Əliyev Xəzər Dəniz Gəmiçilik İdarəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi məsələsini sonrakı illərdə də, xüsusən Moskvada işlədiyi dövrdə də daim diqqət mərkəzində saxlamışdır. Bütövlükdə 1980-1991-ci illərdə Xəzər Dəniz Neft Donanması üçün uzaq xarici ölkələrdə inşa edilmiş 40-2500 ton yükqaldıran 12 ədəd kran, gücü 4000 – 8000 at gücündə olan 23 təchizat gəmisi, 12 ədəd sərnişin gəmisi, 9 ədəd yanğınsöndürən gəmi və s. alınmışdır. Hakimiyyətdə olduğu illər ərzində Heydər Əliyev gəmiçilik təsərrüfatının inkişaf etdirilməsinə kompleks yanaşır, Xəzər dənizçilərinin mədəni – məişət problemlərini, onların istirahətinin mənalı təşkili məsələlərini də diqqətdə saxlayırdı. Təsadüfi deyildi ki, Heydər Əliyevin göstərişi ilə keçmişə hörmət, tarixə qiymət verilməsi məqsədi ilə 1981-ci ildə Bakı Dənizçilik Məktəbinin 100 illik yubileyi, eləcə də "Xəzər dənizçisi" və "Moryak Kaspiya" qəzetlərinin ilk nömrəsinin çapdan çıxmasının 50 illiyi təntənəli şəkildə qeyd edilmiş, hər iki sahənin ayrı-ayrı əməkdaşları mükafatlandırılmışlar [9, s.143].

Xəzər gəmiçiliyi nəqliyyat donanması dənizçilərinin işindən danışarkən ayrıca qeyd etmək lazımdır ki, onlar nisbətən sonrakı – 1979-cu ildə də bir sıra diqqəti cəlb edəcək nailiyyətlərə imza atmışlar. Belə ki, onlar həm 1979-cu ilin, həm də 1976-1979-cu illərin planını vaxtından əvvəl yerinə yetirmiş, tapşırıqdan əlavə 700 min tondan artıq xalq təsərrüfatı yükləri daşımışlar. 1978-ci ildə isə ilk dəfə olaraq Qərbi Sibir neftinin Həştərxan və Mahac – Qala vasitəsi ilə Bakıya daşınması təmin edilmişdir. Bu məsul tapşırığın yerinə yetirilməsində "General Aslanov", "Ruhulla Axundov", "Neftçala", "Gürgan" tankerlərinin kollektivləri xüsusilə fərqlənmişlər. 1978-ci ili yüksək göstəricilərlə başa vuran "Fedya Qurbanov" teploxodunun heyəti Bakı – Mahac – Qala – Krasnovodsk xəttində yeni ildə beşinci səfərini başa vurmuşdur. İlin əvvəlindən bəri nəzərdə tutulduğundan əlavə olaraq 200 ton neft məhsulları daşınmışdır [18].

Qeyd etmək yerinə düşərdi ki, 1979-cu ildə Xəzər gəmiçiliyinin artıq 23 heyəti xarici ölkələrin limanları arasında yük daşıyırdı. Onlardan yeddisi Qara dəniz və Aralıq dənizi hövzələrində üzürdü. Üzərində Nizaminin, Fizulinin, Vaqifin, C.Cabbarlının, M.Müşfiqin adları həkk olunmuş gəmilər tez-tez Bolqarıstan, Rumıniya, İtaliya, Livan, Fransa, Kanada sahillərinə yan alırdı. Şübhəsizdir ki, Azərbaycan gəmilərinin belə geniş coğrafiyada üzmələri, xarici ölkələrə yük daşımaları Xəzər dəniz gəmiçiliyinin daha da inkişaf etməsinə, nəticə etibarı ilə planın artıqlaması ilə yerinə yetirilməsinə səbəb olurdu [19].

Aparılan tədqiqatlar sübut edir ki, X beşilliyin sonuncu ili olan 1980-ci ildə də adı yuxarıda çəkilən "General Aslanov" tankerinin gəmi heyəti əsl hünər nümunəsi göstərərək planı artıqlaması ilə yerinə yetirmişdir. Belə ki, 1976-1980-ci illəri əhatə edən beş illik ərzində plandan əlavə 10 min ton neft məhsulları daşınmış, bir milyon manatdan çox mənfəət əldə edilmiş, 657 ton yanacağa, 10 ton sürtkü yağına qənaət olunmuşdur. Kollektiv ilin axırınadək daha 450 min ton yük daşımağı qərara almışdır. Təbiidir ki, bu göstəricilər də ümumilikdə Xəzər dəniz gəmiçilik idarəsinin illik və beş illik planı artıqlaması ilə yerinə yetirməsinə imkan verirdi [20].

Göstərilməlidir ki, Xəzərdə gəmiçilik və neft mədənlərinin tikintisi inkişaf etdikcə bu sahə üçün zəruri olan müxtəlif ağır tonnajlı kranlara daha çox ehtiyac edilirdi. Bu baxımdan 1980-ci ildə Xəzərə Hamburqda, Qərbi Almaniyanın məşhur "Blom və Foss" firmasının tərsanəsində hazırlanmış nəhəng üzən kran gəmisinin gətirilməsini xarakterik hal kimi qəbul etməliyik. Bu barədə danışarkən belə bir faktı göstərmək kifayət edər ki, iş prosesində 2,5 min ton yük qaldıra biləcək "Azərbaycan" gəmisinin ölkədə tayı – bərabəri yoxdur və o, indi Xəzərdə dəniz mədənlərinin tikintisində işləyən ən böyük kran gəmisindən 10 dəfə güclüdür [10]. Təbiidir ki, belə nəhəng, çox güclü üzən kran – gəminin Xəzərə gətirilməsi və onun neft mədənçilərinin sərəncamına verilməsi gələcəkdə bu sahədə ən çətin, mürəkkəb problemlərin nisbətən asanlıqla həll edilməsinə imkan verəcəkdi.

Qeyd etmək yerinə düşərdi ki, ölkəmizdə dəniz nəqliyyatı inkişaf etdikcə Bakı limanı da müvafiq surətdə tərəqqi etmişdir. Belə ki, 1974-1984-cü illər arasında burada görülən yük işlərinin həcmi 1,5 dəfə artmışdır. Yük əməliyyatlarının 98 %-i mexanikləşdirilmişdir. Tərsanəçilərin sərəncamına 100-dən çox maşın və mexanizm verilmişdir. Limançılar hər gün təqribən minlərlə ton yük işləmişlər [5].

Heydər Əliyevin gəmiçilik sahəsinə verdiyi töhfələrdən danışarkən onun gəmilərə əsasən milli və tarixi adlar verməsini də ayrıca qeyd etməliyik. Belə ki, Azərbaycan KP MK-nın 1970-ci il martın 31-də keçirilən büro iclasında qəbul edilən qərarlardan biri bunu xüsusilə aydın şəkildə əks etdirir. "Leninqrad şəhərində tikilməkdə olan yanğın əleyhinə dəniz gəmisinə "General Həmidov" adının verilməsi barədə Azərbaycan SSR Neftçıxarma Sənayesi Nazirliyinin təklifi qəbul edilsin."

İlk baxışda elə görünə bilər ki, bu, bir təsadüfdür. Lakin ötən əsrin 70-ci illərinə aid partiya sənədlərinin qorunduğu Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivində yüngülvari araşdırma kifayətdir ki, belə qərarların ardıcıl qəbul edildiyinin şahidi olasan. Belə işlər Heydər Əliyevin həyata keçirdiyi ardıcıl xətt, prinsipial məsələ idi. Təsadüfi deyildi ki, bunun ardınca respublikanın yeni rəhbəri böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 600 illik yubileyinin dünya səviyyəsində qeyd olunması üçün tədbirlər görməyə başlayır və bu sırada ilk addım kimi Xəzər Dəniz Gəmiçiliyi İdarəsi üçün tikilməkdə olan "Çay – dəniz" tipli teploxoda "Şair Nəsimi" adının verilməsi barədə qərara qol çəkir. Sonrakı illərdə də bilavasitə Heydər Əliyevin xeyir – duası ilə artıq Xəzərdə "Şair Sabir", "Nizami", "Fizuli", "Vaqif" və s. kimi gəmilər üzməyə başlayır... [8, s.35]

Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə Xəzərdə Gəmiçiliyin inkişafından danışarkən daha bir amili – gəmilərdə qəza halları məsələsinə də toxunmaq lazımdır. Belə ki, bu sahədə vəziyyət heç də ürək açan deyildi. Əgər 1970-ci ildə gəmiçilikdə 7 qəza baş vermiş, 29 min rubl ziyan dəymişdisə, 1971-ci ildə qəzaların sayı 24-ə çatmış, dəyən ziyanın miqdarı isə 100 min rubla çatmışdı. Bütün bu və digər nöqsanları ortaya çıxaran MK Xəzər Dəniz Gəmiçiliyi idarəsinin rəhbərliyi qarşısında konkret məsələlər qoyur, gəmiçilik işinin kökündən yaxşılaşdırılmasını tələb edir. Tezliklə bu sahədə əhəmiyyətli keyfiyyət dəyişikliyi baş verir. Xəzərə gətirilmiş bir sıra ən müasir tələblərə cavab verən tanker və quru yük daşıyan gəmilər vasitəsi ilə "Neft daşları"ndan neft, Krasnovodska taxıl daşınır.

Bundan başqa Xəzər dənizçiləri Xəzər – Baltik xətti üzrə tranzit yüklərin daşınmasının pionerinə çevrilmişlər [8, s. 40].

Bütün yuxarıda göstərilənlər belə deməyə əsas verir ki, Heydər Əliyevin respublikamızda hakimiyyətdə olduğu illərdə Xəzər Dəniz Gəmiçilik İdarəsi rəhbərliyin daima diqqət mərkəzində olmuş, bu son dərəcə mühüm, strateji sahənin inkişaf etdirilməsi üçün nə lazımdırsa, hər şey edilmişdir. Nəticədə də əgər əvvəlcə burada reqressiya, gerilik var idisə, sonradan bu sahədə də irəliləyiş, tərəqqi artıq göz önündə idi.

**Ədəbiyyat:**


1. AR PİI SSA F.1.siy.56.iş48.v.18-22,180, 182
2. Abdullayev Ş. Əmək intizamı əsas məsələdir. "Bakı", 1970, 26 dekabr
3. Abdullayev T. Dəniz nəqliyyatının inkişafı üçün. "Kommunist", 1971, 27 mart
4. "Bakı", 1974, 21 yanvar
5. Dadaşov N. Şanlı inkişaf yolu, "Bakı", 1984, 18 iyul
6. Əsədov B. Xəzərin Sormovo yadigarları. "Kommunist", 1972, 8 sentyabr
7. Haşımov C. Xəzər gəmiçiliyinin yubileyi. "Kommunist", 1970, 26 iyun
8. Həsənov M. Ulu Öndər Heydər Əliyev və milli gəmiçilik siyasəti. Bakı: 2019, 145 səh.
9. Həsənov M. Azərbaycanda gəmiçilik: sənədli tarix. Bakı – 2018, 169 səh.
10. Xəzərdə ilk dəfə. "Kommunist", 1980, 17 avqust
11. Kəmərli A. Gəmilər dənizə çıxır // Azərbaycan gəncləri, 1976, 7 avqust
12. Kompanetski A. Gəmilərin "müalicə olunduğu" yerdə // İdman, 1978, 5 yanvar
13. Kramarov B. Donanmada əməyin elmi təşkili // Xəzər dənizçisi.-1969, 8 sentyabr
14. Mustafazadə A. "Pioner" 1980. №9
15. Nəcəfov G. Bakı qanadlı katerlər // Bakı. – 1969, 29 yanvar.
16. Suzdaltsev M. Qarşılıqlı əlaqə şəraitində. // Bakı.-1978, 2 dekabr.
17. Yusifzadə F. Plastik kütlələr gəmi təmirində // Bakı. – 1972, 4 iyul
18. Yusifzadə F. İlk səfərin uğurları // Bakı – 1979, 24 yanvar.
19. Yusifzadə F. Dostluq elçiləri // Bakı – 1979, 30 aprel.
20. Yusifzadə F. Dalğalar qoynunda, limanda, sexlərdə // Bakı – 1980, 5 iyul


***Açar sözlər:*** *gəmi, dəniz nəqliyyatı, liman, Xəzər Dəniz Gəmiçiliyi, Xəzər Dəniz Neft Donanması*

**Ilgar Abdullayev**
*Baku State University,*
*The Department of the History of Azerbaijan*
*(for humanitarian faculties), Ph.D. in History,*
*Doctoral Candidate*

# THE HISTORICAL DEVELOPMENT OF MARITIME TRANSPORT IN AZERBAIJAN (1969-1982)

## ABSTRACT

This article deals with the maritime transport, which has played a key role in the transportation of oil and other products in our republic's economy. It is stated in the article that until 1969, before H. Aliyev came to power, there had been regression in this field. In addition, the article provides concrete evidence showing that ships were put into operation much later than planned due to the negligent approach of the Caspian Shipping Department and the management of the Baku Naval Administration.

The article also discusses in detail that with the participation of the heads of the Caspian Shipping Department important steps were taken at the bureau meeting of the Central Committee of the Communist Party of Azerbaijan held on July 22, 1969, shortly after H. Aliyev was appointed as the leader of the republic in order to eliminate the regression.

While discussing the reasons why the Caspian Shipping Administration could not fulfill its plans and tasks, it is especially emphasized that ships idled between the ports of Baku and Makhachkala for days, the efficiency of the berths for ships to dock was low. The efficiency of oil-filling tanks and oil pumps did not meet the required standards.

Referring to later achievements in the field of maritime transport, the article notes that the D.Bunyadzadeh Ship Repair Plant of the Caspian Shipping Department began mass production of hydrofoil boats in 1969. Although such boats were commonly used on rivers and lakes, the models produced in Baku were intended specifically for use in the Caspian Sea, and this idea is emphasized separately.

***Keywords:*** *ship, sea transport, port, Caspian Shipping Company, Caspian Sea Oil Fleet*

**Ильгар Абдуллаев**

*Докторант кафедры Истории Азербайджана*
*(гуманитарных факультетов) исторического факультета*
*Бакинского Государственного Университета,*
*доктор философии по истории*

# ИСТОРИЯ РАЗВИТИЯ МОРСКОГО ТРАНСПОРТА В АЗЕРБАЙДЖАНЕ (1969-1982-е годы)

## РЕЗЮМЕ

Статья посвящена морскому транспорту Азербайджана, который занимает одно из ведущих мест в экономике страны и сыграл ключевую роль в транспортировке нефти и других грузов, в том числе до 1969 года. Рассматриваются  ранее имеющие здесь отставания и развитие, произошедшее после избрания Общенационального лидера Гейдара Алиева руководителем страны. Приводятся конкретные факты, подтверждающие, что из-за безответственного подхода руководства Каспийского морского пороходства и Бакинского морского флота к своей работе, при строительстве судов на заводе иногда допускались случаи их сдачи в эксплуатацию с опозданием в два раза по сравнению с предусмотренными сроками. Также подробно отмечаются значительные оперативные меры, принятые вскоре после назначения Гейдара Алиева руководителем республики – 22 июля 1969 года на заседании бюро ЦК КП Азербайджана с участием руководителей Каспийского морского пароходства – для устранения существующей напряженности. Здесь при рассмотрении причин невыполнения планов и заданий Каспийским морским пароходством в срок особо подчеркивается, что в Бакинском и Махачкалинском портах суда простаивали по несколько дней, отсутствовали необходимые причалы для швартовки судов, а также нефтеналивные емкости и насосы для перекачки нефти работали с низкой производительностью.

При рассмотрении достижений, достигнутых впоследствии в сфере морского транспорта, отмечается, что на судоремонтном заводе имени Д.Буниятзаде Каспийского морского пароходства с 1969 года было налажено серийное производство катеров на подводных крыльях. Эти катера в основном использовались на реках и озерах. При этом особо подчеркивается, что образцы, подготовленные в Баку, будут применяться в Каспийском море.

***Ключевые слова:*** *судно, морской транспорт, порт, Каспийское морское пароходство, Каспийский морской нефтяной флот*

DOI: https://doi.org/10.30546/2309-1347.92.2025.345

T A R İ X
H I S T O R Y

UOT 94 (479.24)

**YEGANƏ MƏMMƏDOVA**

**Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin doktorantı, tarix üzrə fəlsəfə doktoru**

*e-mail: ymemmedova49@gmail.com*

# NAXÇIVANIN ƏRAZİ BÜTÖVLÜYÜ MƏSƏLƏSİ VƏ SOVET RƏHBƏRLİYİNİN MÖVQEYİ

Böyük İpək yolunun mərkəzində yerləşən Naxçıvan özünün coğrafi koordinatları və strateji mövqeyi ilə həmişə diqqət mərkəzində olmuş, qonşu ölkələrlə geniş ticarət-iqtisadi və siyasi əlaqələr qurmuş, dövlətçilik atributlarının möhkəmləndirilməsində mühüm xidmətlər göstərmişdir. İri dövlətlərin Qafqaz siyasətində Naxçıvan bölgəsi ən mühüm hərbi-siyasi və strateji əhəmiyyətə malik olmuş, beynəlxalq əməkdaşlığın və ya beynəlxalq rəqabətin mərkəzində durmuşdur. Mənbələrin, arxiv sənədlərinin, rəsmi yazışmaların və teleqramların dərindən təhlili göstərir ki, "Naxçıvan məsələsi" böyük dövlətlərin müzakirə obyekti olmuş və dəfələrlə onun barəsində müxtəlif qərarlar qəbul edilmişdir. Naxçıvan Muxtar Respublikası statusu sovet dönəmində gərgin tarixi şəraitdə müəyyən edilmişdir. Naxçıvan ərazisinin Azərbaycan ərazisi kimi saxlanması o qədər asan başa gəlməmişdir. Əgər nəzərə alınsa ki, erməni millətçiləri sovet dönəmində də bolşeviklərlə daha yaxın ittifaq qurmuşdur, o zaman aydın olur ki, ermənilər Naxçıvanı mənimsəmək iddialarını yeni mərhələyə keçirmiş, buna görə də arxasını Moskvaya söykəyən ermənilərlə bu tarixi situasiyada da mübarizə çox gərgin səviyyədə keçmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin bolşeviklər tərəfindən devrilməsi, rus istilasına məruz qalması artıq bu əraziləri qanuni səlahiyyətdən məhrum etmiş, bu səbəbdən qorunması və müdafiə edilməsi mümkünsüz hala gəlmişdir. Təbiidir ki, bu zaman yeni mərhələyə keçən bolşevik-daşnak ittifaqı da ümumiyyətlə Azərbaycanın, xüsusən də Naxçıvanın müstəqilliyi üçün böyük təhlükəyə çevrilmişdir. Bu barədə N.Nərimanov mərkəzə məruzəsində yazırdı ki, "Moskvaya yola düşməzdən əvvəl yoldaş Orconikidze nəyə görə isə Mərkəz Komitədə belə bir məsələ qoydu: "Azərbaycan Respublikası müstəqil yaşamalı, yaxud tərkib kimi Sovet Rusiyasına daxil olmalıdır? MK üzvləri - Qarayev və M.D. Hüseynov belə bir fikir irəli sürürdülər ki, bizə heç bir müstəqillik lazım deyil, biz Azərbaycanı Sovet Rusiyasına birləşdirməliyik [1, s.420]. Hətta N.Nərimanov bu ağır və gərgin dövrdə bu kimi aqressiv münasibətlərin qarşısını almaq, Azərbaycan Respublikasının Rusiyanın tərkib hissəsinə çevrilib müstəqilliyini tam itirməsinə mane olmaq üçün ciddi siyasi-diplomatik üslubda strateji addım da atmağa məcbur olur. O qeyd edirdi ki, sonra Orconikidze mənə müraciət edərək soruşdu ki, bu məsələ barədə siz nə fikirləşirsiniz, sizin rəyiniz mənim üçün vacibdir. Mən qəti şəkildə bildirdim: "Azərbaycan Respublikası Gürcüstan və Ermənistan sovetləşdirilənədək müstəqil olmalıdır, sonrasına isə baxarıq... [1, s.420]. Göründüyü kimi, N.Nərimanov Orconikidzenin və onun arxası-

nda duran qüvvələrin məkrli planlarını zəiflədib vaxt qazanmaq üçün bu kimi bəhanədən istifadə etməyə çalışırdı. Məhz Naxçıvan MSSR də bu kimi gərgin və acınacaqlı tarixi reallıqda mövcud olub qalması üçün ən mürəkkəb situasiyaların həll olunması vasitəsilə meydana çıxdı.

Naxçıvan MSSR-in meydana çıxmasında ciddi rolu olan tarixi şəxsiyyətlərin gərgin mübarizə, səy və zəhmətləri kifayət qədər böyükdür. Tarixi qaynaqları bu aspektdən izlədikdə həm şəxsiyyətlərin rolunu, həm dəyişkən situasiyaların Azərbaycan mənafeyinə uyğun həllini, həm də ali dövlət qurumlarının təşkili və səlahiyyətlərinin nə qədər əhəmiyyətli olduğunu görə bilirik. Həm də bu orqanların qanuni orqan kimi təşkili də xüsusi statusun formalaşmasında mühüm rola malik olmuşdur.

Naxçıvan MSSR-dən əvvəlki qısa tarixə ekskurs əsasında qeyd edək ki, Naxçıvan MSSR ilə Naxçıvan SSR-i bir-birindən ayıra bilmək lazımdır. Belə ki, Naxçıvan SSR 1920-ci ilin 28 iyulunda, Naxçıvan MSSR isə 1924-cü ildə elan olunmuşdur [2, s.72, 73, 159].

Rusiyanın Azərbaycan, eləcə də Naxçıvan ərazisini işğal etməsi nəticəsində öncə Naxçıvan SSR, daha sonra isə Naxçıvan MSSR meydana çıxmışdır. Əslində mövcud olan ərazidə hakimiyyət dəyişikliyi nəticəsində ad dəyişikliyi terminoloji tarixi qaynaqlara daxil olmuş, dövləti qurumlar sovet idarəçiliyinin tələblərinə uyğunlaşdırılmışdır. Muxtariyyət məsələsinin meydana çıxması da təbiidir ki, Naxçıvanda mövcud tarixi reallıqda müxtəlif prizmaların toqquşmasında gerçəkləşmişdir. Y.Mahmudov, K.Şükürov yazır ki, Naxçıvan SSR-in muxtar diyar kimi təşkil olunması nəticəsində Naxçıvanın əvvəlki siyasi hüquqları məhdudlaşdırılırdı. Respublikadan təcrid olunmuş şəraitdə yaşayan Naxçıvan üçün bunu qənaətbəxş hesab etmək olmazdı. Ona görə də 1923-cü ilin sonunda Naxçıvan Muxtar Diyarının Muxtar Respublikaya çevrilməsi məsələsi irəli sürüldü. Azərbaycan MİK 1923-cü il dekabrın 31-də bu barədə qərar qəbul etdi. Zaqafqaziya MİK-in 1924-cü il yanvarın 8-də keçirilən birinci plenumu Naxçıvan Muxtar Diyarının Muxtar Respublikaya çevrilməsi haqqında qərar qəbul etdi [3, s.33; 4, s.120].

Naxçıvanın Muxtar Respublikaya çevrilməsi üçün Zaqafqaziya MİK səlahiyyətləri daxilində qərar ondan irəli gəlirdi ki, hələ 1922-ci ilin dekabrında Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR ZSFSR tərkibində SSRİ-yə daxil olmuşdu [3, s.32]. Bu kontekstdə bir daha aydın olur ki, Naxçıvan Muxtar Respublikasının, yəni Naxçıvan MSSR-nin meydana çıxması zəruri tarixi şəraitdən doğmuşdu. Əks təqdirdə irəli tarixi dövrlərdə diyar kimi mövcud olan Naxçıvanı yenidən Ermənistana ilhaq etmək istəyi gündəmə çıxa bilərdi. Bu baxımdan Naxçıvan muxtariyyətinin bu kimi hüquqi statusda meydana çıxması çox vacib idi. Məhz Azərbaycanın taleyini düşünən görkəmli şəxsiyyətlər bu vacib siyasi gedişatı həyata keçirməyə çalışırdılar və nəticə etibarilə də buna nail ola bildilər. Elə buna görə də Naxçıvan da Zəngəzurun bir hissəsi kimi eyni faciəli taleyi yaşayıb Ermənistana ilhaq olunmadı [5, s.127].

Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikasının tərkibində muxtar respublika kimi qalması çox vacib şərt idi. Çünki o zaman erməni şovinistlərin andlaşması nəticəsində "V.İ.Lenin, İ.Stalin və S.Orconikidze Naxçıvanın Ermənistana verilməsi ideyasını müdafiə edirdilər" [6, s.88]. Məhz qeyd etdiyimiz kimi, belə bir təhlükəli dövrdə Naxçıvanın Azərbaycanın tərkibində qalması çox çətin manevrlərin hesabına başa gəlirdi ki, bu taktiki addımların yüksək çevikliyi nəticəsində Naxçıvan MSSR meydana çıxdı. Eyni zamanda tarixi şəraitin Azərbaycanın əleyhinə olması Naxçıvan MSSR-in yaradılmasını şərtləndirdi. Əks təqdirdə Naxçıvan ərazisini də böyük fəlakət gözləyirdi. Sovet rəhbərliyinin aqressiv tələbləri nəticəsində Zəngəzurun sovetləşən Ermənistana verilməsi növbədə Naxçıvanın olmasını aydın göstərirdi. Həmçinin Zəngəzurun Ermənistana öncə ilhaq edilməsi aydındır ki, Naxçıvan ərazisinin Azərbaycandan ayrı salınmasına xidmət edirdi. F.Səfərli qeyd edir ki, tarixi Azərbaycan torpağının hesabına Ermənistan

SSR Xalq Komissarları Sovetinin 20 iyul 1921-ci il tarixli qərarı ilə Ermənistan SSR-nin tərkibində Zəngəzur qəzası yaradıldı. Beləliklə, Zəngəzurun bir hissəsinin Ermənistana verilməsi ilə Naxçıvan bölgəsi süni surətdə Azərbaycanın əsas hissəsindən ayrı salındı [6, s.89]. Məhz bu kontekstdə Respublika prezidenti Heydər Əliyev qeyd etmişdi ki, əgər Zəngəzur mahalının Ermənistana verilməsi baş tutmasaydı, bəlkə də Naxçıvanın muxtariyyəti də lazım deyildi və Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi [6, s.89]. Göründüyü kimi Sovet rəhbərliyinin məkrli niyyətləri buradan aydın olur ki, Naxçıvan ilkin mərhələdə Zəngəzurun Ermənistana verilməsi ilə Azərbaycandan ayrı salınır, daha sonrakı dövrdə isə Ermənistana verilmə planları həyata keçirilməyə başlanır. Bu dövrdə Naxçıvan MSSR ideyası meydana çıxmasaydı doğrudan da Naxçıvan ərazisinin gələcəyi sual altına düşə bilərdi. Əlbəttə, bu ideoloji məfkurə, siyasi status məsələsi Zəngəzurun Ermənistanın tərkibinə verilməsindən daha əvvəl meydana çıxmışdı, ancaq Azərbaycanın siyasi xadimlərinin daha sonrakı mərhələləri görə bilməsi baxımından öncə atdığı addımlar öz bəhrəsini verdi. Belə ki, bu avantürist siyasətin qarşısının alınması üçün iki cəbhədə ciddi addımlar atıldı. Birincisi, Naxçıvan əhalisinin inadlı mübarizəsi, ikincisi isə Azərbaycanın əhəmiyyətli səlahiyyətə malik olan siyasi xadimlərinin qətiyyəti nəticəsində müsbət sonuc əldə oluna bildi. İ.Hacıyev göstərir ki, Ermənistanın bolşeviklərin nəzarəti altına keçməsi ilə əlaqədar olaraq Azərbaycan İnqilab Komitəsi 1 dekabr 1920-ci ildə bəyanatla çıxış etdi. N.Nərimanovun imzası ilə yayılan bu bəyanat aydındır ki, Rusiyanın diktəsi ilə yazılmışdı və Azərbaycanın milli mənafelərinə zidd şəkildə həll edilməsinə yönəlmişdi. Bəyanatda deyilirdi: "...Zəngəzur və Naxçıvan qəzaları Sovet Ermənistanının ayrılmaz hissəsidir. Dağlıq Qarabağın zəhmətkeş kəndlilərinə isə öz müqəddəratını təyin etmək hüququ verilir" [7, s.7, 8]. Məhz bu qərar Naxçıvan əhalisinin geniş etiraz, müqavimət və mübarizəsinin kəskinləşməsinə gətirib çıxarmış, Azərbaycan rəhbərliyinin İnqilab Komitəsinin üzvü, Ədliyyə komissarı Behbud ağa Şahtaxtinskini dekabrın 15-də Naxçıvana göndərməsi isə siyasi taktika ilə Naxçıvanın Azərbaycanın tərkibində qalmasına səbəb olmuşdu. Eyni zamanda Behbud Ağa Şahtaxtinskinin bu istiqamətdə əvəzsiz xidmətləri vardı, xalq sevgisini qazanmış şəxsiyyət idi və onun sözü silaha bərabər hesab oluna bilirdi. Onun hələ Azərbaycanın Moskvadakı səlahiyyətli nümayəndəsi olaraq V.İ.Leninə göndərdiyi məktubda bu ərazidə soyqırım aparılması və bundan çıxış yollarını göstərməsi də o dövr üçün çox cəsarətli addım idi [8, s.92].

B.A.Şahtaxtinski açıq-aydın sovet rəhbərliyinin Naxçıvanı satdığını Naxçıvan əhalisinə bildirmiş və yeganə yol olaraq Naxçıvanın Türkiyəyə birləşməsini məsləhət görmüşdü [7, s.8]. Məhz Naxçıvanın Türkiyə ilə birləşəcəyindən ehtiyat edən və ikili cəbhələrdə müharibə vəziyyətində olan Sovet rəhbərliyi Naxçıvanın Ermənistana verilməsindən imtina etdi. Əslində isə bu kimi qətiyyətli addımlar və Naxçıvan əhalisinin cəsarətli etirazları olmasaydı Naxçıvan Ermənistan ərazisi elan olunacaqdı [7, s.8]. B.A.Şahtaxtinskinin milli mövqeyinin və Naxçıvan əhalisinin qətiyyətinin nəticəsində qeyd etdiyimiz kimi, Sovet rəhbərliyi Naxçıvanın Azərbaycan Respublikasının tərkibində Muxtar Respublika kimi qalmasına razılıq verdi. Bu tarixi situasiyadan sonra 1921-ci ilin yanvarında Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin təəssübü ilə keçirilmiş rəy sorğusunda Naxçıvan əhalisinin 90 %-dən çoxu Naxçıvan mahalının Azərbaycan SSR tərkibində qalmasına səs verdi. Naxçıvanın Azərbaycanın himayəsi altında muxtar ərazi statusu RSFSR-lə Türkiyə arasında bağlanmış Moskva müqaviləsində (1921) [9, s.318; 10, v.11, v.93), Rusiya, Azərbaycan, Gürcüstan, Ermənistan və Türkiyə arasında imzalanmış Qars müqaviləsində (1921) təsbit olundu [4, s.120; 11, s.72].

Moskva və Qars müqaviləsi haqqında əhəmiyyətlilik baxımından daha sonra geniş bəhs açacağımız üçün bu kontekstdə bu müqavilələrin Naxçıvan Muxtar Mahalının yaranmasında oynadığı roldan qismən bəhs edirik.

Məhz bu geniş siyasi çeviklik nəticəsində Naxçıvan Muxtar Mahalı yaradıldı və daha sonra yaradılacaq Naxçıvan MSSR üçün etap rolunda çıxış etdi.

Naxçıvan Muxtar Mahalının Naxçıvan MSSR-ə keçidi isə 1924-cü ilin fevralında baş tutdu. Əslində Naxçıvan Muxtar Mahalının yaradılması hüquqi statusun təsbiti idi. Ancaq buna baxmayaraq bu prosesi sovet rəhbərliyinin erməni himayədarlığı və öz siyasi ambisiyaları səbəbindən yenidən dəyişmək cəhdi nəticəsində Naxçıvan MSSR-nın bir neçə il ləngidilib daha sonra Azərbaycanın tərkibində hüquqi baxımdan tanınması mümkün oldu [7, s.10]. Halbuki hələ 1922-ci ilin dekabrında Zaqafqaziya Sovetlərinin I qurultayında Naxçıvan muxtar vahid olaraq Azərbaycanın tərkib hissəsi kimi tanınmışdı [12, v. 7]. I Zaqafqaziya Sovetlər Qurultayının (1922, dekabr) Naxçıvan məsələsi üzrə qəbul etdiyi xüsusi qərarında Naxçıvanın muxtariyyət statusunda Azərbaycan SSR-in tərkib hissəsi olduğunu təsdiq etməsinə baxmayaraq, Naxçıvan MSSR-in yaradılması bürokratik mərhələlərdən keçdi, yalnız 1924-cü il, fevralın 9-da yaradılması mümkün oldu [4, s.120].

Tarixi situasiyalara eyni aspektdən yanaşdıqda aydın olur ki, əslində sovetləşmə dövründə gedən gərgin və kəskin siyasi təbəddülatlar, münaqişə və toqquşmalar elə əvvəlki dövrlərdə gedən hadisələrin məntiqi davamıdır. Hər dövrdə böyük dövlətləri arxasına alan erməni irticası Azərbaycanın tarixi torpaqlarını himayədarlarının əli ilə hissə-hissə qəsb etmişdir. Sovet dövründə də, müstəqillik illərində də gedən siyasi proseslər eyni mahiyyətdədir. Bu baxımdan sovet dövründə Naxçıvan MSSR-in yaradılması ermənilərin və onların havadarlarının məkrli niyyətlərinin pozulması, Azərbaycan milli mənafeyinin o dövrün şərtlərinə uyğun qələbəsinin bariz nümunəsidir. Hətta onu da qeyd etmək vacibdir ki, ermənilərin bütün Türk torpaqlarına olduğu kimi, Azərbaycana və onun tərkib hissəsi olan Naxçıvana təcavüz və iddiaları hər zaman davam etmişdir. Hətta MSSR dövründə də Naxçıvanın bir qisim torpaqları erməni təcavüzkarları tərəfindən ələ keçirilmişdir. İ.Hacıyev yazır ki, 1929-cu ildə Azərbaycanın bir qisim torpaqları ilə birgə Naxçıvan MSSR-in on yaşayış məntəqəsini əhatə edən 657 kv. km ərazi Ermənistan SSR-ə verildi [13, s.45].

Naxçıvan MSSR-in Ermənistana hədiyyə edilən əraziləri daha dəqiq olaraq nəzərdən keçirildikdə aydın olur ki, Zaqafqaziya MİK Naxçıvan MSSR-in ərazi problemlərinə məhəl qoymadan, Moskva və Qars müqavilələrinin şərtlərini kobud surətdə pozaraq 1929-cu il fevralın 18-də qərar qəbul etdi. Həmin qərara görə Naxçıvan MSSR-in 10 kənddən ibarət 657 kv. km ərazisi – Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qəzasının Şahbuz nahiyyəsinin Oğbin, Ağxəç, Almalı, İtqıran, Sultanbəy kəndləri, Ordubad qəzasının Qorçevan kəndi, Kilid kəndi torpaqlarının bir hissəsi Ermənistana verildi. 1930-cu ildə isə Aldərə, Lehvaz, Astazur, Nüvədi və s. yaşayış məntəqələri Ermənistana verilmiş və həmin ərazidə Mehri rayonu yaradılmışdır [13, s.118].

İşğal tarixini sovet dövründə də tədqiq edən İ.Hacıyev istinadla qeyd edir ki, 1926-1932-ci illərdə Azərbaycan SSR-in itirdiyi 774,2 kv. km ərazinin 658,4 kv. km-i, yaxud 80 faizdən çoxu Naxçıvanın payına düşür [13, s.119]. Hətta 1938-ci ildə Kərki kəndinin torpağının bir hissəsi, 1969-cu ilin may ayında yenə Kərki kəndinin başqa bir sahəsi Ermənistana verilmişdi. 1990-cı il yanvarın 18-19-da Kərki kəndi ermənilər tərəfindən işğal edildi, sonrakı illərdə Naxçıvanın başqa ərazilərini tutmağa cəhd göstərilsə də buna yol verilmədi [13, s.119].

Bu baxımdan Naxçıvan MSSR-in hüquqi ərazi statusunun möhkəmləndirilməsində 1926, 1937, 1978-ci illərdə Naxçıvan MSSR-in Sovetlər Qurultaylarında qəbul olunmuş I-II-III Konstitusiyaların mühüm rolu olmuşdur [4, s.121]. Bu konstitusiyaları və muxtariyyətlə bağlı Azərbaycan konstitusiyalarında, eləcə də keçmiş SSRİ konstitusiyalarında yer almış hüquqi-siyasi maddələri E.Cəfərov bir kitaba cəlb edib əhəmiyyətli addım atmışdır [14, s.28-176]. Eyni zamanda tədqiqatçı bu kitaba Naxçıvan Muxtar Respublikasının 1998-ci ildə

qəbul olunmuş konstitusiyasını da daxil etmişdir [14, s.122-150].

Təqdim etdiyimiz aspektdən yanaşdıqda Naxçıvan MSSR-in nə qədər böyük tarixi nailiyyətin nəticəsi olaraq meydana çıxması bir daha təsdiqini tapmış olur. Naxçıvan MSSR-in hüquqi statusunun təsbit olunmasından sonra təbiidir ki, ən mühüm məsələ Naxçıvan MSSR ali dövlət orqanının təsis olunması idi. Bu baxımdan Naxçıvan MSSR-nin ali dövlət təsisatı sürətlə formalaşdırıldı.

Naxçıvan MSSR-in ali dövlət orqanının qanuni dövlət orqanı olaraq təşkili və qəbulu mühüm problem idi. Çünki qanuni baxımdan mövcud olan dövlətə gələcəkdə təcavüz etmək də qeyri-qanuni fəaliyyəti meydana çıxarır, təcavüz edən tərəfi isə cinayətkar aqressiv tərəf olaraq hüquqi arqument qarşısında qoyurdu. Naxçıvanın hüquqi baxımdan muxtar respublika kimi Azərbaycan SSR tərkibində tanınmasına və ZSFSR tərəfindən də Naxçıvan MSSR-in bütün təsisatlarının təsdiq edilməsinə baxmayaraq əvvəldə qeyd etdiyimiz kimi yenə də Naxçıvan ərazisindən bir qisim torpaqlar alınıb Ermənistana təhvil verilmişdi. Lakin qanuni ali dövlət orqanlarının hüquqi təsdiqi həyata keçirildiyi üçün bütünlüklə Naxçıvana siyasi təcavüz etmək mümkünsüz hala gəlmişdi. Əks təqdirdə Naxçıvan ərazisini tam olaraq Ermənistana təhvil vermək planı reallaşa bilərdi. Məhz ali hakimiyyət orqanlarının qanuni təsbiti bunun qarşısını almaq üçün mühüm əhəmiyyətə malik idi.

Ali dövlət hakimiyyəti baxımından təbiidir ki, öncə Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsi qeyd edilməlidir [15, v.5]. Ümumiyyətlə ali dövlət orqanlarının və idarəçilik formasının bütün təsisatları təşkil olundu. Belə ki, 1924-cü il yanvarın 18-də Naxçıvan MİK-nin birinci plenumu çağırıldı. Plenumda Zaqafqaziya və Azərbaycan MİK-lərinin qərarları əsasında Naxçıvan Muxtar Diyarının Naxçıvan MSSR-ə çevrilməsi haqqında məsələ müzakirə və təsdiq edildi. Plenumun qərarı ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası MİK-i, Xalq Komissarları Soveti və komissarlıqlar (torpaq, daxili işlər, maarif, səhiyyə), habelə Azərbaycan SSR xalq komissarlıqlarının (maliyyə, əmək, hərbi komissarlıq) müvəkkillikləri yaradıldı. Plenumda MİK-in yeddi (7) nəfərdən ibarət rəyasət heyəti seçildi, Naxçıvan MSSR MİK nəzdində elektrikləşdirmə, telefonlaşdırma və mənzil tikintisi üzrə komissiyalar təşkil edildi. Naxçıvan MSSR inzibati cəhətdən üç qəzaya: Şərur, Ordubad və Naxçıvan qəzalarına bölündü [16, s.28, 29; 17, s.94]. Ancaq onu da qeyd etmək lazımdır ki, Naxçıvan ərazisi heç zaman dövlətsiz olmamışdır. Bu baxımdan Naxçıvan ərazisində elə sovet idarəçiliyi etibarilə də əvvəldən ali dövlət orqanı mövcud idi. Naxçıvan SSR-in hələ muxtar respublikaya çevrilməmiş ali dövlət qurumu olaraq hökuməti mövcud idi. Bu barədə əlimizdəki qaynaq hələ 1921-ci ildə Naxçıvan SSR-in hökumət kabinetini elmi-kütləvi ictimaiyyətə təqdim edir: “1921-ci il aprelin 4-də Naxçıvan SSR-in yeni hökuməti təşkil edilmişdi. Həmin hökumətin tərkibi belə idi:

1. Xalq Komissarları Sovetinin sədri A.Qədimov (o, həm də İnqilab Komitəsinin sədri vəzifəsində saxlanılırdı).
2. Fövqəladə daxili işlər, poçt, teleqraf komissarı Ş. Əliyev.
3. Naxçıvan qarnizonunun rəisi A. Şadlinski.
4. Xalq Təsərrüfatı Şurasının sədri Mehdiyev.
5. Səhiyyə komissarı Ə. Abbasov.
6. Maliyyə komissarı Bənəniyarski.
7. Maarif və ədliyyə komissarı Ə. Rüstəmov.
8. Torpaq komissarı Hacılarov.
9. Ərzaq komissarı Məmmədov.
10. Fəhlə-kəndli müfəttişliyi Musayev” [16, s.26].

Onu da qeyd etmək lazımdır ki, artıq Naxçıvan MSSR hüquqi cəhətdən təsbit olunduğu üçün ali dövlət orqanlarının dayanıqlığı da daha ardıcıl fəaliyyətin meydana çıxmasına səbəb oldu. Ali dövlət orqanı kimi aydındır ki, əsas etibarilə Naxçıvan MİK əsas götürülürdü. Təsadüfi deyil ki, Naxçıvan MSSR-in yaradılması üçün hazırlıq prosesini də məhz Naxçıvan MİK aparırdı: “Naxçıvan MİK-in birinci

plenumu 1924-cü il yanvarın 18-də muxtar diyarın Naxçıvan MSSR-ə çevrilməsi məsələsini müzakirə etdi" [7, s.11].

Naxçıvan MSSR-in ali dövlət orqanı MİK olsa da, digər ali təsisatlı qurumlarla birgə fəaliyyət ümumi dövləti mənafeyin həyata keçməsini sürətləndirirdi. Bu baxımdan Xalq Komissarlıqları Soveti və Azərbaycan SSR xalq komissarlıqlarının müvəkkilliklərinin Naxçıvan MİK-ə bağlı olaraq fəaliyyət formasını seçməsi ali dövlət orqanının işinin səmərəliliyini inkişaf müstəvisində müsbət şəkildə həll edirdi. Naxçıvan MSSR MİK-i də Azərbaycan SSR MİK-ə bağlı idi və bu barədə qərar da qəbul olunmuşdu. 1924-cü il fevralın 4-də AK(b)P MK Rəyasət Heyəti Naxçıvan Respublikası haqqında əsasnamə hazırlamağı qərara aldı. Həmin əsasnamənin ikinci maddəsində göstərilirdi ki, Naxçıvan MSSR Azərbaycan SSR-in tərkib hissəsidir və muxtar respublika kimi onun tərkibinə daxil olur [18, s.163].

Beləliklə, Naxçıvan MSSR-in ali dövlət orqanı da Azərbaycan SSR-in ali dövlət orqanına bağlı olaraq muxtar respublika statusuna uyğun şəkildə fəaliyyət göstərməyə başladı. Təsadüfi deyil ki, Azərbaycan SSR-in 1927-ci il konstitusiyasında (21-22-ci maddələr) Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi (AzMİK) Ümumazərbaycan Sovetlər Qurultayları arasındakı dövrdə respublikanın ali qanunverici, sərəncam və nəzarət orqanı elan edilirdi və sonralar daimi üzvlərdən başqa, Azərbaycan MİK-in Rəyasət Heyətinin tərkibinə həmçinin Naxçıvan SSR MİK-in sədri də daxil edildi [14, s.154].

İlkin olaraq qeyd etmək vacibdir ki, 1924-cü ildən 1937-ci ilə qədər əslində Naxçıvan MSSR nəzərdə tutulsa da, 1926-cı il konstitusiyasında bu ad qeyd olunmamış, yalnız 1937-ci il konstitusiyasında hüquqi terminoloji sözlük olan "muxtar" məfhumu Naxçıvan SSR adına daxil edilərək Naxçıvan MSSR adlandırılması təmin olunmuşdur [14, s.22].

Ancaq Naxçıvan MSSR konkret olaraq 1924-cü ildən tarixi tədqiqatlarda qeyd olunduğu üçün, biz də bu dövrdən ali hakimiyyət orqanlarını Naxçıvan MSSR-in dövlət qurumları olaraq tədqiqatımıza daxil etmişik.

Naxçıvan MİK Azərbaycan SSR haqqında qəbul olunmuş əsasnamədə və konstitusiyalarda öz əksini tapmışdır. 1924-cü il, aprelin 5-də Azərbaycan SSR MİK tərəfindən qəbul olunan əsasnamədə deyilir ki, Naxçıvan Sosialist Sovet Respublikasında ali hakimiyyət Naxçıvan Sovetlər Qurultayına, qurultaylararası dövrdə isə Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinə məxsusdur... Naxçıvan Sovetlər Qurultayı 21-dən çox olmayan üzvdən və 7 namizəddən ibarət Naxçıvan Mərkəzi İcraiyyə Komitəsini seçir [14, s.33].

Naxçıvan MSSR MİK-in geniş səlahiyyətləri Naxçıvan MSSR-in konstitusiyalarında təsbit olunmuşdur:

"1926-cı il aprelin 18-də V Ümumnaxçıvan Sovetlər Qurultayı tərəfindən qəbul edilmiş konstitusiyada MİK haqqında aşağıdakı kimi səlahiyyət və hüquqlar yer almışdır:

Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi (Nax. MİK) haqqında;

10. Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan Sosialist Sovet Respublikasının ali qanunverici, sərəncam və nəzarət orqanıdır.

11. Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi respublikada fəhlə-kəndli hökumətinin və bütün Sovet hakimiyyəti orqanlarının fəaliyyətinə ümumi istiqamət verir, qanunvericilik və idarəçilik üzrə işləri birləşdirir və uzlaşdırır, Sovet Konstitusiyasının, Naxçıvan Sovetlər Qurultayı və mərkəzi Sovet hakimiyyəti orqanlarının qərarlarının həyata keçirilməsinə nəzarət edir.

12. Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan Sovetlər Qurultayını çağırır. Naxçıvan Sosialist Sovet Respublikasının hökuməti Naxçıvan Sovetlər Qurultayı qarşısında öz fəaliyyəti, ümumi siyasət və ayrı-ayrı məsələlər haqqında hesabat verir.

13. Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan Sosialist Sovet Respublikasının ümumi idarəçiliyi üçün Xalq Komissarları Sovetini və idarəçiliyin ayrı-ayrı sahələrinə rəhbərlik üçün Xalq Komissarlıqlarını təşkil edir" [14, s.56].

Bu konstitusiya maddələrində göründüyü kimi Naxçıvan MSSR MİK-in müxtəlif hüquqi statusları əhatə olunmuşdur. MİK-in səlahiyyətlərinə konstitusiyada ayrıca yer də ayrılmışdır:

“Naxçıvan Sovetlər Qurultayının və Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin səlahiyyətlərində olan məsələlər haqqında

14. Naxçıvan Sovetlər Qurultayının və Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin səlahiyyətlərinə bütün ümumdövlət əhəmiyyətli məsələlər daxildir:

a) Azərbaycan Sosialist Sovet Respublikasının Konstitusiyasına uyğun olaraq Naxçıvan Sosialist Sovet Respublikasının Konstitusiyasına dəyişikliklər və əlavələr edilməsi;

b) Naxçıvan Sosialist Sovet Respublikasının daxili siyasətinə ümumi rəhbərlik;

c) Naxçıvan Sosialist Sovet Respublikası ərazisinin ümumi inzibati bölgüsü;

ç) Naxçıvan Sosialist Sovet Respublikası büdcəsinin müzakirəsi və qəbul edilməsi;

d) Xalq Komissarları Sovetinin ayrı-ayrı üzvlərinin və bütün tərkibinin təyin edilməsi və vəzifəsindən azad edilməsi.

15. Yuxarıda sadalanan məsələlərdən əlavə Naxçıvan Sovetlər Qurultayının və Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin səlahiyyətlərinə onların icazəsinin lazım olduğunu hesab etdikləri bütün digər məsələlər daxildir” [14, s.56].

1937-ci ildə qəbul olunan növbəti konstitusiyada artıq Naxçıvan MSSR, daha dəqiq olaraq isə Naxçıvan ASSR-in MİK-i Baş Sovet ad dəyişikliyi ilə əvəzlənmişdir. O illərdə “muxtar” sözü elə rus dilində “avtonom” kimi saxlandığından Naxçıvan Avtonom Sovet Sosialist Respublikası kimi oxunmuşdur [14, s.77].

Naxçıvan MİK Baş Sovet kimi Naxçıvan ali dövlət orqanı olaraq təqdim olunmuşdur: “Naxçıvan Avtonom Sovet Sosialist Respublikası dövlət hakimiyyətinin ali orqanı Naxçıvan ASSR-in Baş Sovetidir (16, 79).

Konstitusiya maddəsi olaraq artıq 1978-ci il mayın 30-da IX çağırış Naxçıvan MSSR Ali Sovetinin növbədənkənar səkkizinci sessiyasında qəbul edilmiş konstitusiyada Naxçıvan MSSR, yəni Naxçıvan muxtar respublikası kimi qeyd olunmuşdur [14, s.96].

Bu konstitusiyada ali hakimiyyət orqanının təsbiti bu formada yazılmışdır: “Naxçıvan MSSR-də bütün hakimiyyət xalqa məxsusdur. Xalq dövlət hakimiyyətini Naxçıvan MSSR-in siyasi əsası olan xalq deputatları Sovetləri vasitəsi ilə həyata keçirir. Bütün başqa dövlət orqanları xalq deputatları Sovetlərinin nəzarəti altındadır və onlara hesabat verirlər” [14, s.96].

1998-ci ildə qəbul olunan Naxçıvan MR-nın konstitusiyasında isə ali hakimiyyət orqanı ad dəyişikliyi əsasında Naxçıvan Muxtar Respublikasının Ali Məclisi olmuşdur [14, s.131].

Qeyd etmək lazımdır ki, Naxçıvan MSSR 1924-cü ildən də müxtəlif sənədlərdə bu şəkildə adlanmış, lakin konstitusiyalarda (dövlətin əsas qanunu) təqdimatı nəzərə çatdırdığımız şəkildə reallaşmışdır.

Naxçıvan MR, eləcə də tədqiqat mərhələmiz olan Naxçıvan MSSR-in ali hakimiyyət orqanlarının qanuniliyi Azərbaycan respublikasının qəbul etdiyi konstitusiyalarda da eyni şəkildə təsbit olunmuşdur [14, s.156, 161, 168, 174].

Пренебрегая логикой причинно-следственных связей, квантовые вычисления могут представлять как пользу, так и опасность для человечества. Известно, что они разрушают все правила человеческого управления, лишая его власти над природой. Они создают ситуацию, в которой «штурвал не связан с рулем, а курс прокладывается скрытой силой в недрах алгоритмов». Это породило реальную опасность трансформации искусственного интеллекта из помощника человека, в его соперника и преемника, формирующего свой мир, где человек может оказаться лишь наблюдателем, а не творцом.

В таких условиях рушится естественный детерминизм, что противоречит человеческой природе и не может не вызывать тревогу. Ибо это – угроза лежащей в основе человеческих ценностей нравственной бинарности Добра и Зла, границы которой размываются искусственным интеллектом, порождая опасность возникновения хаоса. Расширяя картину видения реальности, квантовый искусственный интеллект разрушает многие традиционные представления о мироздании, при этом нередко отвергая четкую логику, позволяющую познавать закономерности развития природы, человека и общества. В квантовой механике искусственный интеллект оперирует всеми вероятностями одновременно, демонстрируя и гениальность, и безумие. При этом создаются не только бесконечные возможности для быстрых вычислений и выявления скрытых закономерностей мира, но также неопределенность, абстракция и логический абсурд, противоречащие здравому смыслу и ведущие к хаосу, в котором трудно различить истину и ложь [9].

Таким образом, в искусственном интеллекте заключены, как огромная созидательная, так и разрушительная энергия, которая неподвластна аргументам человеческой логики или ценностям нравственной культуры. Это ведет к неуправляемости, могущей стать причиной опасных для человечества деструктивных процессов, несовместимых

с гуманизмом. Квантовый искусственный интеллект обрел бесконтрольную способность творца, которая раньше была исключительной прерогативой человека, оказавшегося сегодня в роли беспомощного наблюдателя. Единственная цель искусственного интеллекта – эффективность вычислений и принимаемых решений, не учитывающая человеческий фактор, интересы личности, человеческую душу. Это обнаруживает абсолютное противоречие целей искусственного интеллекта и человека, неприемлемое для духовной культуры и жизни. Вне поля зрения искусственного интеллекта остаются ценности человечности и человеческой жизни, проблемы сострадания и справедливости, что теоретически допускает гибель множества людей ради эффективности принимаемых производственных, управленческих или политических решений. Сам же человек оказывается вне управления процессами развития мира. Процессы жизнедеятельности, оказывающиеся под властью самовоспроизводящегося кода квантового интеллекта, начинают управляться самосовершенствующимся квантовым разумом. Человеческий разум постепенно вытесняется квантовым разумом, лишенным души. Физический мир перестраивается под оптимизированные стандарты эффективности искусственного интеллекта, оставляющего человека за рамками происходящего.

Несмотря на свои неограниченные техногенные возможности, «искусственный архитектор» не обладает человеческим сознанием, креативными качествами человека, его когнитивными способностями. Скрытые возможности прогрессивного человеческого развития хорошо видны людям, обладающим системным культурологическим мышлением, открывающимся с вершины «культурологической пирамиды». Пройдя ступени изучения сущности, особенностей, истории и достижений человечества в тех или иных областях жизнедеятельности, человек понимает закономерности развития и выявляет наиболее эффективные технологии гармоничного решения сложных социальных, производственных, творческих или управленческих проблем. Это дает ему возможность подняться на уровень созидания, на котором открываются качественно новые возможности развития и панорама лучшего будущего. Эта «формула созидания» нацелена на служение удовлетворению потребностей человеческого развития, и служит сохранению и улучшению человеческой жизни. Нужно научиться правильно управлять квантовым искусственным интеллектом, гармонично закладывая в его программы не только прагматические цели, но и ценности нравственной культуры. Актуальной международной задачей является распространение, с помощью специального спутника, универсальных культурологических знаний, с целью формирования и развития высококультурных граждан в разных странах мира.

## О ценности меритократического воспитания и управления

Говоря о приоритетах развития духовной культуры и прогрессивных культурных трансформациях, отвечающих национальным интересам, важно дать правильную оценку культуре меритократии, имеющей мотивационное значение для развития общества и государства. О ценности и результатах меритократического воспитания и управления, берущего начало в философии Конфуция, принято судить не только по достижениям современного Сингапура, но и по определенным традициям Шумера, Древней Греции и Рима, по принципам построения армии Чингиз хана, особенностям государственного управления Наполеона, культуры государственности Великобритании, США, Японии, Китая, Финляндии и других стран.

При всей неоднозначности исторических оценок завоеваний Чингиз хана,

одним из основных принципов организации и управления, показателей высокой дисциплины его армии и культурного обмена с европейскими странами, была мотивационная сила культуры меритократии.

В начале XII века Чингиз хану удалось осуществить обширные территориальные завоевания, не только благодаря высокой эффективности организации армии и внедрению военных инноваций, заимствованных из других культур, но и благодаря монгольской культуре управления человеческими ресурсами, с использованием принципов креативности, меритократической культуры и толерантности. В период средневекового господства Монголии, монголами широко использовался культурный опыт разных народов. Путем стимулированной трансформации и прямого заимствования, развивалось инженерное дело, внедрялся культурный опыт архитекторов, научные достижения и изобретения представителей разных народов, входивших в состав монгольской армии.

Солидарность представителей разных народов, оказавшихся в составе монгольской армии, их преданность национальным интересам Монголии, была обусловлена, прежде всего, приверженностью Чингиз хана ценностям и принципам культуры меритократии, берущей свое начало от Конфуция. В основе оценки и установления социального статуса людей лежали не национальность и вероисповедание, а их способности и дарования, знания и профессионализм, заслуги перед страной, а также преданность Чингиз хану.

Меритократический подход в оценке людей и управлении ими, способствовал процессам интеграции и ассимиляции представителей разных культур, их взаимопониманию, формированию культурной идентичности, духа патриотизма и социально-политической стабильности монгольского общества.

Такая политика в известной степени способствовала и развитию мировой культуры. Она сыграла определённую роль в развитии культурного обмена между народами Востока и Запада, в частности, благоприятствовала заимствованию арабскими и европейскими народами пороха, компаса, устройства для печатания книг и других достижений китайской культуры. Китайские культурные достижения стали шире распространяться в Европе в период монгольских завоеваний. Так была заложена основа для культурного обмена между Европой и Азией, являющегося одним из пяти фундаментальных факторов развития человеческой культуры [27].

## Человек высокой культуры, как основа культуры мира и безопасного развития человечества

Развитие современной мировой культуры происходит в условиях острого цивилизационного кризиса, быстрых изменений и высокой турбулентности международных отношений. Деструктивные явления глобализации, которыми сопровождается цивилизационный кризис, способствует деградации ценностей высокой духовной культуры и демократии, чреватой большими опасностями для всего человечества.

В рамках мировой и каждой локальной цивилизации сосуществуют два диалектически противоположных социальных процесса, обусловленных качествами и действиями людей: культура, имеющая созидательную природу, и антикультура, обладающая деструктивным, разрушительным характером. Основными индикаторами культуры, как созидательного процесса цивилизации, являются знание, добро, труд, развитие и благосостояние. Антикультура

связана с невежеством и сверхэгоизмом, являющимися источниками зла, бедности, уязвимости и деструктивности. Жизнь показывает, что ни право силы, ни сила права не дают достаточных результатов для преодоления зла. Оно возможно только путем формирования, развития и умножения числа высококультурных людей во всем мире, их солидарности и созидательного сотрудничества.

Истинным критерием ценности человека является не национальность, не этническая принадлежность, не пол, не возраст, не место рождения, не место проживания, и даже не профессия, хотя все это имеет определенное значение. Главное – духовная культура личности – умственная и нравственная, тесно взаимосвязанные между собой, подобно двум, жизненно важным крыльям легендарной орлоподобной птицы Симург. Как мы уже знаем, это приобретенное, главным образом, благодаря хорошему воспитанию и обучению, богатство, которое навсегда остается с человеком, на всю его жизнь. Речь идет о людях, обладающих необходимыми научными знаниями, умениями, организованностью, нравственностью и осуществляющих созидательную деятельность на благо общества, государства и всего человечества. Помня об этом, интеллигенция Азербайджана должна способствовать непрерывному развитию и совершенствованию духовной культуры своих граждан и всего человечества [41].

Безусловно, приоритетными для каждой страны всегда были и остаются такие устои национальных государств, как национальная и религиозная идентичность. Однако, эти устои должны находиться в гармонии с общечеловеческими ценностями добра, истины, мудрости, созидания, гуманизма, справедливости и мира. Такие ценности нравственной культуры как любовь, дружба, благородство, добродетельность, порядочность, справедливость, мужество, героизм, патриотизм, милосердие, совесть, вежливость, гуманизм и вера, должны развиваться в гармонии с ценностями интеллектуальной культуры – ценностями науки, образования и просвещения. Это будет способствовать прогрессивному развитию народов, взаимопониманию и солидарности людей разных национальностей, способности представителей разных народов и религий говорить на одном и том же языке – языке высокой духовной культуры. Такая гармония должна поддерживаться как в рамках национальных государств, в форме гражданской и меритократической культуры, так и на межгосударственном, международном уровне. Азербайджанская Республика много сделала и делает в этом направлении.

«Производство» высококультурных людей в различных странах мира – это лучшая стратегия формирования культуры мира, устойчивого развития и гуманитарной безопасности человечества. Она предполагает постепенный переход, от человека типа «Homo sapiens» – к человеку типа «Homo culturalis», на основе соответствующих международных программ ЮНЕСКО. Независимо от национальности и религии, в каждой стране мира необходимо распространять семена высокой духовной культуры, приверженность свету, знаниям, истине, добру, правам человека и созиданию на благо людей, во имя сохранения жизни и мира в каждом государстве и на всей планете [57, 43].

Эта стратегия позволит правильно выбирать и совершенствовать пути, цели и технологии, обеспечивающие взаимообусловленное прогрессивное развитие и рост жизнеспособности различных стран, формы их культурного диалога, формировать благоприятную среду гармоничного и мирного проживания различных народов в

условиях постоянных диалектических изменений и вызовов времени. Ее практическое осуществление предполагает ориентацию на международные ценности добра и созидания, духовного родства и мудрости, милосердия и международной культурной идентичности, солидарности и сотрудничества народов и государств планеты [56].

Путь к достижению этих благородных целей лежит через служение развитию высокой духовной культуры – основы прогрессивного развития каждого народа. Понимание этой истины предполагает широкое распространение в обществе универсальных культурологических знаний, перманентное осуществление, продиктованных требованиями времени, прогрессивных культурологических реформ. Как справедливо заметил академик Ю.В.Яковец, сегодня необходимо, опираясь на возможности искусственного интеллекта, при помощи специального спутника, распространять универсальные культурологические знания на различных языках, в разных странах мира [60].

Движущей силой этой стратегии должны служить – наука, образование и просвещение, литература и искусство, право, экономика и журналистика, культура управления и добрая воля людей высокой культуры. Руководящими принципами - творческая деятельность, верховенство науки, компетентность, совесть, патриотизм, справедливость, гуманизм, права человека, самосовершенствование, гармония нравственных ценностей и интересов, международная культурная идентичность, солидарность, сотрудничество и культура мира. В качестве универсальной научной основы решения этих стратегических проблем может быть использована наука о культуре – культурология – наука о мудрости, которая дарит людям разных национальностей и религий свет универсальных знаний и мудрости, выработанный человечеством за тысячелетия развития мировой культуры и цивилизации.

Осознавая важность поставленных в новой стратегии социально-культурного развития практических задач, необходимо мобилизовать усилия государственных и гражданских структур, всего азербайджанского общества для их своевременного и успешного воплощения в жизнь. Большая ответственность в решении этих задач ложится на плечи интеллигенции, ученых, педагогов и просветителей, управленцев и журналистов, деятелей литературы и искусства. Многое зависит от эффективности культуры организации и управления, от компетентности чиновников, их умения определять правильные принципы и критерии, выбирать приоритеты, инновационные методологии и технологии, принимать правильные решения.

В планетарном масштабе, во имя жизни и блага собственных народов и всего мира, сегодня необходимо объединить созидательные усилия подвижников культуры различных народов и государств. Интеллигенция и правительство каждого народа должны всемерно способствовать формированию и развитию высококультурных граждан в своих странах. Для обеспечения гуманитарной безопасности человечества, оказавшегося в условиях техногенной цивилизации, нужно противопоставить опасным, бесконтрольным процессам развития искусственного интеллекта – приоритеты высокой культуры управления, обеспечивающего устойчивое и безопасное развитие человечества. Важнейшими принципами, лежащими в основе культуры международных отношений, обеспечивающих благоприятные условия для устойчивого национального развития, служат постулаты культуры мира, прав человека и гармонии человеческих отношений. Именно на ос-

нове этих принципов необходимо строить диалог культур и цивилизаций, ориентируя различные сраны мира на сближение культур, формирование международной культурной идентичности и равноправное, взаимовыгодное сотрудничество.

Инновационная национальная стратегия устойчивого социально-культурного развития Азербайджана, основанная на приоритетах формирования и развития высококультурных граждан страны, имеет неоценимое значение для безопасного развития и лучшего будущего планеты. Распространение азербайджанской модели в различных странах, откроет дверь в новую гуманистическую цивилизацию, построенную на высокой духовной культуре во всем мире.

**Литература:**


1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 20 cilddə. Bakı, 1997-2007.
2. İlham Əliyev. İnkişaf – məqsədimizdir. 1-3 cildlər. Bakı, 2008-2009.
3. Абульфаз Бабазаде. Стратегическая линия обороны государства. – Халг газети, 15 декабря, 2025.
4. Адам Смит. Исследование о причинах богатства народов. В 2-х томах, Москва, 1935.
5. Алакбаров Урхан. Основы человеческого развития. Баку: Azpoliqraf, 2017.
6. Античная цивилизация. Москва, 1973.
7. Бернал Дж. Наука в истории общества. Москва,1956.
8. Бойс Мэри. Зороастрийцы. Москва, 1988.
9. Бостром Н. Искусственный интеллект. Этапы. Угрозы. Стратегии. Москва, 2016.
10. Бэкон Фрэнсис. Сочинения в 2-х т. Москва,1972.
11. Вебер М. Избранные произведения: Москва, 1990.
12. Вербицкий И. Япония на пороге XXI. Москва, 1989.
13. Волков Г.Н. Три лика культуры. Москва, 1986.
14. Геккель Э. Мировые загадки. Санкт-Петербург, 1906.
15. Гердер И.Г. Идеи к философии истории человечества. Москва, 1997.
16. Гулыга А. В. Немецкая классическая философия. Москва, 1986.
17. Гумилев Л.Н. Ритмы Евразии: эпохи и цивилизации. Москва, 1993.
18. Древние цивилизации. Москва, 1989.
19. История Азербайджана. В 3-х томах. Баку, 1958-64.
20. История дипломатии. В 3-х т. Москва, 1941-1945.
21. История Израиля. В трех томах. Москва, 2011.
22. Иэнага Сабуро. История японской культуры. Москва,1972.
23. Кабуснамэ. Москва, 1958.
24. Кирсанов В. С. Научная революция XVII века. Москва, 1987.
25. Конрад Н.И. Запад и Восток. Москва, 1972.
26. Коран (перевод мыслов и комментарии Валерии Пороховой). 1997.
27. Крадин Н.Н., Скрынникова Т.Д. Империя Чингисхана. Москва, 2022.
28. Крамер С.Н. История начинается в Шумере / Под ред. и с предисл. В.В. Струве; Пер. Ф.Л. Мендельсона. М.: Наука, 1965.
29. Культура, человек и картина мира. Москва, 1987.
30. Липперт Ю. История культуры. Санкт-Петербург, 1908.
31. Маковельский А.О. Авеста. Баку, 1960.
32. Макс Вебер. Критические исследования в области логики наук о культуре. Пер. с нем. Москва, 1990.

33. Массон В. Первые цивилизации. Ленинград. 1989.
34. Мишель Монтень. Об искусстве жить достойно. Москва, 1973.
35. Мэри Пат Фишер. Живые религии. Москва, 1997.
36. Низами Гянджеви. Сочинения в 3-х томах. Баку, 1990.
37. Оскар Егер. Всеобщая история стран и народов мира. Москва, 2022.
38. Петров М.К. Язык, знак, культура. Москва, 1991.
39. Работы Лесли Уайта по культурологии: (Сб. переводов). Москва, 1996.
40. Рена Мамедова. Методологические основы музыкальной тюркологии. Баку, 2024.
41. Саямов Ю.Н. «Международные отношения в контексте глобальных процессов». Москва, 2018.
42. Служение развитию духовной культуры. Коллективная монография. Ассоциации культуры Азербайджана «Симург». Баку, 2023.
43. Сухейль Фарах, Фуад Мамедов. Культура спасет мир. Посвящается 75-летию ЮНЕСКО. Москва, 2021.
44. Тагиров Э.Р. Творение тишины. Человечество у порога Мира. Казань 2022.
45. Тагиров Э.Р. Умиротворение человечества. Мирософия: дар или испытание всевышнего? Казань, 2025.
46. Тагиров Э.Р. Устойчивость планеты-историческая надежда человечества. Казань 2016.
47. Тагиров Э.Р. Факел миротворчества. Казань, 2020.
48. Тагиров Э.Р. Феномен культуры на фоне разлома истории. Казань, 2023.
49. Тайлор Э.Б. Введение к изучению человека и цивилизации (Антропология). Москва, 1924.
50. Тейяр де Шарден П. Феномен человека. Москва, 1987.
51. Тойнби А. Постижение истории. Москва, 1991.
52. Фрэзэр Д.Д. Золотая ветвь. Москва, 1986.
53. Фуад Мамедов. Культура управления. Опыт зарубежных стран. Баку, 2013.
54. Фуад Мамедов. Культурология как путь к эффективной жизнедеятельности. Баку, 2006.
55. Фуад Мамедов. Культурология, культура, цивилизация. Баку, 2015.
56. Фуад Мамедов. Культурология. Вопросы теории и истории. Баку, 2002.
57. Фуад Мамедов. Культурология: ответы на вызовы XXI века. Казань, 2019.
58. Фуад Мамедов. Человек высокой культуры. Баку, 2025.
59. Шпенглер О. Закат Европы. В 2-х томах. т.1, Москва, 2003, т.2, Москва, 2004.
60. Эразм Роттердамский и его время. Москва, 1989.
61. Яковец Ю.В. Циклы. Кризисы. Прогнозы. Москва, 1999.
62. Ясперс К. Смысл и назначение истории: Пер. с нем. Москва, 1994.


***Ключевые слова:*** *человек высокой культуры, новая стратегия, безопасность, новое понимание культуры, новый закон о культуре, академия культурологии, обязательное культурологическое образование и просвещение, меритократия, культура мира*

**Fuad Məmmədov**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, kulturoloq, tarix elmləri doktoru*

# KULTUROLOGİYA VƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN ÜFÜQLƏRİ

## XÜLASƏ

Məqalədə dövrün çağırışları ilə idarə olunan Azərbaycan cəmiyyətinin mədəniyyətinin mütərəqqi mədəni transformasiyalarına yönəlmiş Azərbaycan Respublikasının yeni sosial-mədəni inkişaf strategiyası araşdırılır. Bununla yanaşı, bəşəriyyətin humanitar təhlükəsizliyi üçün dünya miqyasında yüksək mədəniyyətli fərdlərin inkişafının mühüm beynəlxalq əhəmiyyəti vurğulanır.

Məqalədə insan kapitalının əsasını, strateji bərpa olunan resursu və dövlətin davamlı, rəqabətədavamlı və təhlükəsiz inkişafının əsas hərəkətverici qüvvəsini təşkil edən ölkənin yüksək mədəniyyətli vətəndaşlarının yetişdirilməsi kimi innovativ vəzifə elmi cəhətdən əsaslandırılır.

Eyni zamanda mədəniyyət fenomeninin yeni bir şəkildə anlaşılmasının vacibliyi, fərdin zehni, ruhu və əməyi ilə yaradılan və cəmiyyətin mənəvi və maddi mədəniyyətinin inkişafı üçün yeni transformativ imkanlar açan vahid sosial sistem kimi ortaya qoyulur.

Azərbaycan Respublikasının sosial-mədəni inkişafı üçün yeni strategiyanın praktiki tətbiqi üçün mədəni yanaşma və konkret fəaliyyət planı təklif olunur.

***Açar sözlər:*** *yüksək mədəniyyətli insan, yeni strategiya, təhlükəsizlik, mədəniyyətin yeni anlayışı, mədəniyyət haqqında yeni qanun, kulturologiya akademiyası, icbari kulturoloji təhsil və maarifləndirmə, meritokratiya, sülh mədəniyyəti*

**Fuad Mammadov**

*The Academy of Public Administration under the*
*President of the Republic of Azerbaijan*
*Professor, Doctor of Historical Sciences, cultural scientist*

# CULTURAL STUDIES AND THE HORIZONS OF AZERBAIJANI CULTURAL DEVELOPMENT

## ABSTRACT

This article examines the new socio-cultural development strategy of the Republic of Azerbaijan, aimed at progressive cultural transformations of the culture of Azerbaijani society, driven by the challenges of the times.

It provides a scientifically substantiated rationale for the innovative task of cultivating and developing highly cultured citizens of the country, who constitute the core of human capital, a strategic renewable resource, and the main driving force behind the sustainable, competitive, and secure development of the state.

It reveals the importance of a new understanding of the phenomenon of culture as a holistic social system created by the mind, soul, and labor of the individual, opening up new transformative opportunities for the development of the spiritual and material culture of society.

A cultural approach and a specific action plan for the practical implementation of the new socio-cultural development strategy of the Republic of Azerbaijan are proposed.

The article emphasizes the significant international significance of cultivating and developing highly cultured individuals worldwide for the humanitarian security of humanity.

***Keywords:*** *person of high culture, new strategy, security, new understanding of culture, new law on culture, academy of cultural studies, compulsory cultural education and enlightenment, meritocracy, culture of peace*

DOI:https://doi.org/10.30546/2309-1347.92.2025.361

# H Ü Q U Q
# L A W

UOT 343.1

**MƏTANƏT ƏSGƏROVA**

**Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası kafedrasının müdiri, hüquq elmləri doktoru**

*e-mail: matanatasgarova@yahoo.com*

# ALQORİTMİK SÜBUTLARIN MÜMKÜNLÜYÜNÜN PROSESSUAL TƏMİNATLARI

Cinayət prosesinin rəqəmsallaşdırılması sübut məlumatlarının əldə edilməsi və istifadəsi üçün yeni metodların yaranmasına səbəb olmuşdur. Məhkəməyəqədərki mərhələdə süni intellekt (Sİ) videomüşahidə kameraları və görüntü bazalarından istifadə edərək üz tanımada, rəqəmsal izlərin, yazışmaların, geolokasiyanın, cihaz qeydlərinin, şəbəkə trafikinin təhlilində, cinayətkar qruplar daxilində gizli əlaqələrin müəyyən edilməsi üçün böyük verilənlərin təhlil edilməsində, cinayət törətmə ehtimalını və ya təkrar cinayət törətmə riskini qiymətləndirmək üçün polisin proqnozlaşdırıcı fəaliyyətində istifadə olunur.

Müasir texnologiyalar cinayət işləri üzrə sübutlar sistemini rəqəmsal, biometrik və analitik sahələrə doğru genişləndirir. Sübutların toplanması, təhlili və qiymətləndirilməsində alqoritmlərin və Sİ sistemlərinin istifadəsi yeni "alqoritmik sübutlar" anlayışının yaranmasına səbəb olmuşdur. Alqoritmik sübutlar dedikdə, sübut bazasının məzmununa təsir edən avtomatlaşdırılmış alqoritmlər tərəfindən əldə edilən və ya emal edilən məlumatlar başa düşülür.

Rəqəmsal hüquq sahələrarası hüquq elmi kimi formalaşmışdır, rəqəmsal mühitdə yaranan münasibətləri tənzim edir, hüquq, informasiya, kiber təhlükəsizlik, iqtisadiyyat, mühəndislik kimi elm sahələrinin müddəalarından istifadə etməklə texnologiyaların hüquqi rejimini və subyektlərin hüquq və vəzifələrini müəyyən edir. Elektron sübutlar artıq cinayət prosesinə daxil olmuşdur, onları rəqəmsal sübutlar da adlandırırlar, iş üçün əhəmiyyəti olan və elektron formada qeydə alınmış istənilən məlumatlardır. Məsələn, elektron məktublar (e-mail), messencerlərdə çatlar (Telegram, WhatsApp), faylların metadataları (yaradılması vaxtı, müəllifi, dəyişikliklər), server qeydləri (istifadəçilərin hərəkətlərinin qeydləri), videokamera qeydləri, rəqəmsal imzalar, elektron sənədlər, sosial şəbəkələrdən, veb-saytlardan, smartfonlardan, GPS-dən və s. alınan məlumatlar elektron sübutlar qismində çıxış edə bilərlər. Onların məqsədi rəqəmsal formada qeydə alınmış müəyyən faktları, hadisəni və ya hərəkəti (məsələn, sistemə daxil olmanı, məlumat göndərməni, köçürmələri) təsdiq etmək və ya inkar etməkdir.

Alqoritmik sübutlar alqoritmlərin (o cümlədən, Sİ, maşın öyrənməsi və ya kriptoqrafik metodların) vasitəsilə əldə edilən və ya formalaşdırılan sübutlardır. Mütəxəssislər qeyd edirlər ki, "Konstruktiv riyaziyyatda sübutlar alqoritmlərdir" [12, s.268]. Onlar sadəcə hadisəni qeyd etmirlər, əsas məqsəd faktın

özünü deyil, məlumatların etibarlılığını və ya həqiqiliyini riyazi və ya hesablama əsaslandırmasından istifadə etməklə alqoritm vasitəsilə təsdiqləməkdir. Məsələn, rəqəmsal imzanın yoxlamasında orijinallıq kriptoqrafik metodlarlardan sübut olunur, dəyişməzliyi sübut etmək üçün blokçeyn zənciri təhlil edilir, proqnozlaşdırıcı analitik sistemlərdə məlumatların təhlili əsasında riskləri müəyyən edən alqoritmlər tətbiq olunur, məlumatların həqiqiliyi alqoritmlərlə yoxlanılır və s.

Avropa Şurası "alqoritmik sistemlər"i "...riyazi optimallaşdırma üsullarından istifadə edərək məlumatların toplanması, birləşdirilməsi, təmizlənməsi, çeşidlənməsi, təsnif edilməsi və nəticə çıxarılması, eləcə də seçim, prioritetləşdirmə, tövsiyələrin verilməsi və qərar qəbul edilməsi kimi bir və ya daha çox tapşırığı yerinə yetirən tətbiqlər" kimi qəbul edir [17, A(2)].

Maşın öyrənmə alqoritmləri böyük məlumat dəstlərini təhlil etmək, kommunikasiyalarda əlaqələr qurmaq, riskləri proqnozlaşdırmaq və şübhəli davranışlardakı nümunələri müəyyən etmək üçün istifadə olunur. "Maşın öyrənmə kompüter elmlərinin bir sahəsidir, kompüter proqramları sınaq əsasında öyrənilir. Alqoritm verilənləri maşını uşaqlar öz mühitində öyrəndiyi kimi, məşq prosesini yerinə yetirməyə məcbur edir. Bütövlükdə bu təlim metodlarına insanlar nəzarət edə bilərlər" [6, 69-cu bənd]. Sİ sübut məlumatlarının emalını əhəmiyyətli dərəcədə sürətləndirir, kriminalistik və kriminoloji təhlilin dəqiqliyini artırır, cinayətlərin açılmasına səmərəli kömək edir.

Lakin bu cür texnologiyaların tətbiqi alqoritmik sübutların qəbuledilməsinin ənənəvi prosedur təminatlarına uyğunluğu məsələsini aktuallaşdırır. Bu təminatlar ədalətli məhkəmə prosesinin əsasını təşkil edir və tərəflərin hüquqlarını, bərabərliyini, şəffaflığı təmin edir.

Azərbaycan Respublikası CPM-nin 125-ci maddəsinə [1] əsasən, sübutların mümkünlüyü üç meyarla müəyyən edilir: əldə olunması və yaranma mənbəyinə, həmçinin həqiqiliyinə şübhələrin olmaması. Rəqəmsal sübutların xüsusi bir növü kimi alqoritmik sübutlar məlumatların alqoritmik təfsirinə əsaslanır və təfsirə çıxışın olmaması bu meyarların tətbiqini çətinləşdirir.

İlk yanaşmada alqoritmlərdən istifadə fundamental prosessual prinsiplərin, təqsirsizlik prezumpsiyasının, ədalətli məhkəmə araşdırması hüququnun, müdafiə hüququnun və ayrı-seçkiliyin qadağan edilməsinin pozulması kimi ciddi risklər yaradır. Əsas problem alqoritmlərin şəffaf olmaması, onların məntiqinin yoxlanıla bilməməsi, qərəzli və ya natamam məlumatlara əsaslanan səhvlərin yüksək ehtimalı ilə bağlıdır. Alqoritmin işləmə məntiqini tam təhlil etmənin mümkün olmaması ("qara qutu effekti") nəticələrin etibarlılığının yoxlanılmasını və sübutların mümkünlüyünün qiymətləndirilməsini çətinləşdirir. Sİ modellərinin əksəriyyəti qapalıdır, onların texniki fəaliyyət prinsipləri tərəflərə və məhkəməyə məlum deyildir ki, bu da çəkişmə prinsipi üçün problemlər yaradır. Belə ki, müdafiə tərəfi alqoritmlərin nəticələrini səmərəli mübahisələndirə bilmir. "Məhkəmə qərarı, tibbi qərar kimi, fundamental əsaslılığı və tətbiq edilməsi konkret halda sübut olunmayan Sİ proqramından asılı olmamalıdır" [19]. Alqoritmik sübutların müdafiə tərəfindən mübahisələndirilməsi üçün onun texniki sənədləşməyə, öyrənmə məlumatlarına və modelin metodologiyasına çıxışı olmalıdır. Əgər belə çıxış yoxdursa, qiymətləndirmə zamanı nəzərə alınmalıdır. Məsələn, ABŞ-da tətbiq edilən COMPAS (residiv risqini qiymətləndirmə sistemi), TrueAllele (DNT təhlil sistemi) sistemlərində başlanğıc kod açılmır, bu da onun düzgün işləməsini yoxlamağa imkan vermir. Buna görə də onlardan əsas sübut kimi istifadə olunması düzgün deyildir. Bu xüsusiyyətləri nəzərə alaraq, State v. Loomis işində ABŞ-ın Viskonsin Ali Məhkəməsi qərarında qeyd edir ki, "109...dairə məhkəməsi COMPAS risk qiymətləndirməsindən bəhs etsə də, Lumisin həbsdə saxlanılıb-saxlanılmaması, cəzanın ağırlığı və ya cəmiyyətdə

təhlükəsiz və effektiv şəkildə nəzarət altına alına biləcəyi barədə qərar verməkdə həlledici deyildi" [21].

Üz tanıma alqoritmləri qadınların, yaşlı insanların və etnik azlıqların üzvlərinin şəkillərini emal edərkən tez-tez yüksək səhv nisbətləri nümayiş etdirir. Joy Buolamwini və Timnit Gebru tərəfindən 2018-ci ildə keçirilmiş "Gender Shades" tədqiqatında 3 kommersiya gender-tanıma API sistemi (IBM, Microsoft, Face++) qiymətləndirilmiş və nəticələr belə olmuşdur: "...açıq dərili kişilərdə səhv nisbəti 0,8 faiz, tünd dərili qadınlarda isə 34,7 faiz təşkil edir" [22]. Bu səhvlər əsassız şübhələrə və ya ittihamlara səbəb ola bilər.

Bu gün alqoritmik ayrı-seçkilikdən də danışılır. Belə ki, modellər təlim nümunələrindən qərəzliliyi miras ala bilərlər. Məsələn, ABŞ-da COMPAS afroamerikalılar üçün residivizm riskinin təkrarlanması hallarına yol verilmişdir. "... hakimlər, COMPAS alqoritmi tərəfindən yaradılan təqsirləndirilən şəxslərin residivizm riskinin proqnozunu alırlar. Hakimlər bu proqnozlara əsasən hərəkət edərsə, əvvəlcədən sənədləşdirilmiş irq və yaş qərəzlərindən kənara çıxmaqla belə, dolayı yolla normativ qərarları mülki proqram təminatına həvalə edirlər. ProPublica məlumat dəstindən istifadə edərək, COMPAS proqnozlarının azadlığa buraxılmaqdansa həbsxanaya salınmağı üstün tutduğunu nümayiş etdiririk. COMPAS təqsirləndirilən şəxslərə qarşı qərəzlidir" [4, s.383]. Bu cür nümunələr alqoritmik qərarların tərəflərin bərabərliyi prinsipinə uyğunluğunu şübhə altına alır.

Sİ-ə əsaslanan alqoritmik sübutlar hakimlər tərəfindən obyektiv məlumatlar kimi qiymətləndirilə bilər ki, bu da məhkəmənin mülahizəsinin məhdudlaşdırılmasına və prosesin humanizmdən kənar həyata keçirilməsinə gətirir. Ənənəvi olaraq, cinayət mühakimə icraatında məhkəmənin qəbul etdiyi qərar yalnız təqdim edilən sübutların məcmusu ilə məhdudlaşmır. Hakim sübutları dəyərləndirərkən onları hadisənin ümumi konteksti və işin konkret hallarının dinamikası ilə birlikdə nəzərdən keçirir.

CPM-nin 145.2-ci maddəsinə əsasən, "Təhqiqatçı, müstəntiq, prokuror, hakim qanunu və vicdanını rəhbər tutaraq sübutların məcmusunun hərtərəfli, tam və obyektiv baxılmasına əsaslanmaqla öz daxili inamına görə sübutları qiymətləndirirlər." Sİ-in vicdan, mənəvi məsuliyyət, empatiya və ya sosial konteksti anlamaq qabiliyyəti yoxdur. Hakimin mülahizəsinin, daxili inamının maşın alqoritmi ilə əvəz edilməsi ehtimal modellərinin mexaniki tətbiqinə, məlumatlarda nəzərə alınmayan unikal hallara etinasızlıq göstərilməsinə, cəzanın fərdiləşdirilməsi prinsipindən kənara çıxmağa gətirir. Alqoritmin xüsusi qəddarlığı, törətdiyi əmələ görə peşmançılığı, mərhəmət və bu kimi halları qiymətləndirməsi mümkün deyildir.

Alqoritmlərin geniş tətbiqinə etiraz edən Vincent Chiao bildirir ki, "…cinayət hüququ gündəlik mənəvi düşüncə ilə ən çox əlaqəli hüquq sahəsi kimi qəbul edilir və bu, cinayət məhkəmələrində təqsir, məsuliyyətdən yayınma, bəhanə və sair anlayışlarının əhəmiyyətindən də görünür" və proqnozlaşdırıcı alqoritmlərin istifadəsi cinayət hüququnu və ədalətin tətbiqini texnokratlara və mütəxəssislərə təhvil vermək olardı, "Bunu itki kimi qəbul etmək olar, çünki bu, cinayət hüququnu cəmiyyətin mənəvi vərdişlərinin ictimai şəkildə yenidən tətbiqindən xalis sosial zərəri minimuma endirmək üçün soyuq hesablama işinə çevirərdi" [27, s.138].

Alqoritmik sübutların mümkünlüyünün digər bir problemi onların vahid texniki standartlarının olmamasıdır. Alqoritmin etibarlı işlədiyini sübut etmək və ya onun qərarlarının təkrarlana bilən və yoxlanıla bilən əsaslara söykəndiyini göstərmək üçün vahid texniki standartlar formalaşdırılmamışdır. Məsələn, ABŞ-da D"aubert Standartına əsasən, məhkəmə eksperti elmi metodun etibarlılığını yoxlayır [5], ABŞ-da residivin proqnozlaşdırılması üçün COMPAS sistemi və İsveç və Hollandiyada

İsveçdə hazırlanmış OxRec sistemi tətbiq olunur [7, s.397]. Bu sistemlər müxtəlif metodologiyaya əsaslanırlar. Onların texniki uyğunluğu məsələsi xarici elementli işlərdə nəticələrin qiymətləndirilməsində xüsusi əhəmiyyət kəsb edir.

Doshi-Velez & Kim (2017) tərəfindən aparılan araşdırmaya əsasən bəzi şirkətlər modelin qərarlarının əsaslarını açıqlamaq üçün model interpretasiyası yanaşmasından istifadə edirlər [8], Katz et al. araşdırmasına görə (2017) bir çox firmalar alqoritmlərin riyazi şəkildə sübut olunmanı tələb edən formal doğrulama metodlarını tətbiq edir [10]. Raji & Buolamwininin araşdırmasına görə (2019) akademik müstəvidə isə daha çox yoxlanıla bilən Sİ prinsipi əsas götürülür [16, s.429]. Bu fərqlilik nəticəsində eyni alqoritm bir ölkədə etibarlı, digərində isə qeyri-etik və ya hüquqa zidd sayıla bilər. Müxtəlif tənzimləyici qurumlar, məsələn, Avropa Ittifaqı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı [14], ABŞ Standartlar və Texnologiya İnstitutu (NİST) [13] fərqli terminologiya və metodologiyalardan istifadə edir.

Alqoritmlərin etibarlılığın yoxlanması, bir alqoritmin "doğru" qərar verdiyini sübut etmək texniki cəhətdən çətindir. Dərin öyrənmə modelləri (Deep Learning) milyonlarla parametrdən ibarətdir və "qara qutu" (black box) kimi işləyir. "Explainability" alətləri (SHAP, LIME və s.) qismən izah versə də, formal olaraq sübut sayılmırlar. Formal verifikasiya (məsələn, riyazi və ya məntiq əsaslı doğrulama) metodları hələ çox məhduddur və mürəkkəb sistemlərə tətbiqi çətindir. Bu da deməkdir ki, əgər vahid texniki çərçivə (standart) yoxdursa, onda "alqoritmik sübut" anlayışı praktiki olaraq subyektiv xarakter daşıyır.

Vahid standartların olmaması həm texniki, həm də hüquqi sahədə ciddi nəticələr doğurur. Məsələn, şirkət öz alqoritminin "ədalətli" olduğunu deyirsə, onun statistik bərabərlik, bərabərləşdirilmiş ehtimallar, yoxsa proqnozlaşdırıcı bərabərlik prinsiplərinə əsaslanmasını bildirməlidir, çünki, onların tətbiqi fərqli nəticələr verə bilər. Avropa İttifaqı çərçivəsində qanunvericilik səviyyəsində alqoritmik şəffaflıq tələbi qoyulur, lakin bu şəffaflığın texniki olaraq necə sübut ediləcəyi hələ tam müəyyən edilməmişdir [18, 9-cu bənd]. Problemin həlli üçün beynəlxalq səviyyədə birgə qəbul olunmuş alqoritmik etibarlılıq və şəffaflıq standartlarının (məsələn, ISO və ya digər texniki standartlar hazırlayan təşkilatlar səviyyəsində) hazırlanması zəruridir.

Ancaq bu çatışmazlıqlara baxmayaraq, alqoritmlərdən "polis proqnozlaşdırılması sistemlərinin təkmilləşdirilməsində...ekspertizada...hadisə yerinin və ya marşrutun müəyyən edilməsində...həbsxanalarda məhkumların idarə edilməsində..." geniş tətbiq olunması gözlənilir [23, s.85].

Sübutların mümkünlüyünün ümumi şərtləri alqoritmik sübutlara da tətbiq edilməlidir, sübutların əldə edilməsinin mənbəyi, üsulu və prosedur forması tələblərə cavab verməlidir. Sübutların yoxlanılması proseduruna riayət edilməklə, onların həqiqiliyinin, eyniləşdirilməsinin və təkrarlanmasının müəyyən edilməsi tələblərinə uyğunluğu nəzərə alınmalıdır. Alqoritmik sübutlara digər sübutlara qarşı irəli sürülən tələbləri və onların öz xüsusiyyətlərini nəzərə almaqla qeyd edə bilərik ki, onlar mötəbərlik meyarına cavab verməlidirlər, yəni etibarlı, doğru olmalıdır, təhrif olunmamalıdır, qanuni yolla əldə edilməlidir, dəqiq və obyektiv olmalıdır, digər sübutlarla ziddiyyət təşkil etməməlidir, real hadisəni əks etdirməlidir. Adi riyazi məntiqi və ehtimal nəzəriyyəsini tətbiq etsək, alqoritmlər 95% dəqiqlik göstərirsə, təkrarlama dəqiqliyi müəyyən olunur. Bu faiz alqoritmin bütün suallar arasında düzgün cavablarının payıdır. Təkrarlana bilmə üçün alqoritmlər ya eyni giriş veriləndə eyni nəticələr verməlidir, ya da təkrarlana bilməsi üçün sabit təsadüfi mənbəyə malik olmalıdır. Alqoritmlərin maşınla oxuna bilməsi mümkün olmalıdır ki, avtomatik yoxlanıla bilsin. Əlbəttə, hüquqşünas yanaşması tətbiq edildikdə, alqoritmik

sübutların etibarlılığının yüksəldilməsi ehtimalların səviyyəsinin aşağı düşməsi ilə bağlıdır. Minimum ehtimallar həmişə mövcud olacaqdır, bu minimum mütəxəssislərin kompleks tədqiqatının nəticəsində müəyyən olunmalıdır.

Alqoritmik sübutların təkrarlanması həm hüquqi və texnoloji prinsip kimi qiymətləndirilməlidir. Təqdim olunan alqoritmik nəticə yalnız o zaman mötəbər sayılır ki, alqoritm eyni verilənlərlə təkrar işləndikdə, eyni və ya ekvivalent nəticə əldə olunsun. Bu, alqoritmin sabitliyini və obyektivliyini təsdiq edir. Təkrarlanma şəffaflığın və izah ediləbilənliyin tərkib hissəsidir, prosessual təminatlar sisteminə daxildir. Alqoritmik sübutların təkrarlana bilməsi üçün ilkin verilənlərin bütövlüyü və dəyişdirilməməsi, alqoritmin versiyasının sabit saxlanması, tətbiq vasitələrinin (proqram, modul, cihaz) eyni olması, metodologiyanın sənədləşdirilməsi tələb olunur. Təkrarlanma prinsipi pozulduqda, alqoritmik nəticə məhkəmə tərəfindən qəbul edilə bilməz, sadəcə əlavə məlumat kimi qiymətləndirilə bilər.

Alqoritmik sübutlar rəqəmsal sferada həyata keçirilən fəaliyyətin nəticəsidir və insan hüquqları sahəsində beynəlxalq standartlara cavab verməlidir. İnsan hüquqlarını pozan normativ alətlərin və yanaşmaların yayılmasının qarşısının alınması üçün YUNESKO 2023-cü ildə “Rəqəmsal platformaların tənzim edilməsinin rəhbər prinsipləri: ifadə azadlığının və informasiyaya çıxışın təmin edilməsinə çoxtərəfli yanaşma” adlı sənəd qəbul etmiş, rəqəmsal platformaların insan hüquqlarına hörmət etmək üzrə öhdəliklərini, beş əsas uyğunluq prinsipini müəyyən etmişdir. Bu prinsiplərə gender və mədəni aspektlərin nəzərə alınaraq, risklərin təhlil edilməsi və azaldıcı tədbirlərin müəyyən edilməsi, ümumi qəbul edilmiş insan hüquqları standartlarına riayət edilməsi, şəffaflıq, istifadəçilərin hüquqlarının genişləndirilməsi və hesabatlılıq aid edilmişdir [9, 30-cu maddə]. Platformalarda məzmunla bağlı lazımi diqqətlilik göstərilməli, onların dizaynında ayrı-seçkiliyə yol verilməməli, bərabər münasibət və zərərin qarşısının alınması təmin edilməli, mədəni müxtəlifliyə hörmət edilməli, məzmunun idarə edilməsi mümkün olmalı, idarə etmə zamanı istifadə edilən alətlər, sistemlər və proseslər şəffaf olmalı, aydın və yoxlanıla bilən siyasətlərə və səmərəliliyin müəyyən edilməsi üçün ölçülərə malik olmalı, istifadəçilərə məzmunların silinməsi və ya idarə edilməsi ilə bağlı qərarlardan dərhal və müvafiq şəkildə şikayət vermək imkanını nəzərdə tutmalıdır.

Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) alqoritmik sübutlarla bağlı işləri birbaşa araşdırmasa da rəqəmsal sübutlarla bağlı bir sıra hüquqi meyarlar müəyyən etmişdir. Roman Zakharov v. Russia işində məlumatların avtomatlaşdırılmış toplanması üzərində nəzarətin vacibliyi ilə bağlı “Məhkəmə bu nəticəyə gəlir ki,...izləmələrin hər hansı məqamında məlumatlandırmanın olmaması hüquqi müdafiə vasitələrinin səmərəliliyinə, yaxud izləmələrlə bağlı sənədlərə yetərincə çıxış əldə etmək imkanına xələl gətirir” [20, s.302].

Ben Faiza v. France işində AİHM qeyd edir ki, “məlumat subyektinin xəbəri olmadan telefon istifadəsi ilə bağlı şəxsi məlumatların toplanması və saxlanması, 8-ci maddənin mənasında, eləcə də təqsirləndirilən şəxsin telefon danışıqlarının siyahısının cinayət prosesində istifadəsi məlumat subyektinin şəxsi həyatına və yazışmalarına hörmət hüququnun həyata keçirilməsinə müdaxilə təşkil edir.” [2, s. 66].

Etik nöqteyi-nəzərdən insana məlumatların məcmusu kimi baxıla bilməz. Sİ fərdlərin rəqəmsal fəaliyyəti, coğrafi yerləşməsi, sosial əlaqələri və internet axtarışları vasitəsilə təhlili əsasında risk profilini yaradır. Bu isə şəxsiyyətin muxtariyyətini və azadlığını pozur, şəxsi həyata müdaxilədir, insanın “rəqəmsal” kölgəsini yaradır, “rəqəmsal ikiləşmə” formalaşır ki, bu da hüquqi və sosial qərarların əsasına çevrilir, insanın cinayət-hüquqi statusuna təsir edir. İnsanın rəqəmsal kölgəsi onun real

həyatda fəaliyyətinin rəqəmsal mühitdə buraxdığı izlərin məcmusudur. Big Brother Watch v. UK işində AİHM şəxsi məlumatların geniş və avtomatlaşdırılmış şəkildə toplanmasını və alqoritmik təhlilini şəxsi həyata müdaxilə hesab etdi və bu cür müdaxilənin yalnız mütənasiblik prinsipi çərçivəsində həyata keçirilə biləcəyini vurğuladı [3, §357-364].

Avropa Şurası alqoritmlərə əsaslanan avtomatlaşdırılmış qərar qəbul edilməsinin yolverilməzliyindən və məcburi insan nəzarətinin vacibliyindən çıxış edir [17, B 5]. Profil yaradılması əməliyyatlarında şəxsin hüquqlarına müdaxilələr yalnız qanunla nəzərdə tutulmuş, zəruri və mütənasib tədbirlərlə həyata keçirilməlidir. Avtomatik sistemlər insan mülahizəsi olmadan tam azad şəkildə qərar verməməlidir. Buna görə də, hər bir avtomatlaşdırılmış qərara görə məsuliyyət daşıyan konkret subyektlər müəyyən edilməlidir. Alqoritmik sistemlər, nə qədər müstəqil işləsələr də, hüquqi subyekt statusuna malik olmadığından, hüquqi və etik baxımdan "öz-özünə məsuliyyət daşıya" bilməzlər. Qərar qəbuletmə prosesində iştirak edən bütün tərəflər, alqoritmi hazırlayan mühəndislər, onu tətbiq edən texniki əməkdaşlar, eləcə də nəticələri qiymətləndirən və təsdiqləyənlər birgə və ya fərdi qaydada məsuliyyət daşıyırlar. CEPEJ "İstifadəçi nəzarəti altında" yanaşmanın tətbiqini tövsiyə edir, istifadəçilərin məlumatlı subyektlər olmasından və verilən seçimlərə nəzarət etməsinin təmin edilməsindən çıxış edir. Ədliyyə sisteminin mütəxəssislərinin istənilən vaxt məhkəmə qərarlarını və nəticə çıxarmaq üçün istifadə edilən məlumatları nəzərdən keçirmə imkanları təmin edilməlidir, lakin onlar həmin məlumatlarla məhdudlaşdırılmamalı, konkret işin spesifik xüsusiyyətlərini nəzərə almalıdırlar. İstifadəçiyə Sİ alətləri tərəfindən təklif olunan həllərin məcburi olmaması, mövcud olan müxtəlif variantlar, hüquqi məsləhət almaq və məhkəməyə müraciət etmək hüququ barədə aydın və başa düşülən dildə məlumat verilməlidir. O, həmçinin məhkəmə prosesindən əvvəl və ya məhkəmə prosesi zamanı Sİ tərəfindən işin əvvəlcədən işlənməsi barədə aydın şəkildə məlumatlandırılmalı və etiraz etmək hüququna malik olmalıdır ki, onun işinə AİHK-nın 6-cı maddəsinin mənasında ədalətli məhkəmə araşdırması hüququ təmin edilməklə baxılması təmin edilsin [6, s.13].

Alqoritmik sübutların etibarlılığı yoxlanılması mümkün olan hallar sırasına aid olmalıdır. Bu alqoritmlərin eyni və ya əsasən oxşar hallara tətbiq edildikdə dəqiq nəticələr vermə ardıcıllığının müəyyən edilməsi, onlardan cinayət işlərində sübut kimi qəbul edilib-edilməməsi məsələsinin həllində məcburi nəzərə alınmalı olan xüsusiyyətlərdən biridir. Burada texniki mənada, ən azı ilkin məlumatların daxil edilməsi zamanı səhvlərin, funksiya sürüşməsinin qarşısının alınması üçün təminatlardan söhbət gedir.

Müasir məhkəmə proseslərində alqoritmlərdən istifadə əsasında video tanıma sistemlərinin, proqnozlaşdırıcı təhlillərin, avtomatlaşdırılmış qiymətləndirmə modellərinin, rəqəmsal kriminalistika sistemlərinin köməyi əldə edilən sübutları təqdim edilməsi alqoritmik sübutların qiymətləndirilməsində məhkəmənin rolunun yüksəldilməsi məsələsini qoyur. Belə ki, məhkəmə yalnız faktları qiymətləndirməməli, həm də alqoritmik metodların etibarlılığını, şəffaflığını və məhdudiyyətlərini başa düşməli, sübutların əsasını təşkil edən alqoritmləri nəzərdən keçirmək imkanına və hüququna malik olmalıdır. Hakimin alqoritm hazırlama metodologiyası, metodologiyanın dəqiqliyi, yanlışlığın nisbəti, istifadə olunan keyfiyyət ölçüləri və s. ilə bağlı məlumatlara çıxışı olmalıdır. Məsələn, sübutlar üz tanımaya əsaslanırsa, məhkəmənin az işıq şəraitində səhv ehtimalı, alqoritmik qərəz, yəni alqoritmin müəyyən qruplar üçün səhv etmə ehtimalı ilə bağlı məlumatlara çıxışı olmalıdır. Alqoritm texniki cəhətdən təkmil və obyektiv görünə bilər, lakin qüsurlu ola bilər. Hakimlərin bu sübutları inamla qəbul etmələri üçün bu inamı formalaşdıran məlumatlara maneəsiz çıxışı

olmalıdır. Alqoritmik sübutlarla bağlı indiki vəziyyəti DNT analizinin tətbiqi təcrübəsi ilə müqayisə etsək, məhkəmə ekspertlərinin alqoritmik sübutlarla bağlı eyni qaydada fəaliyyətləri tələb olunur, yəni hakimə alqoritmi anlaşılan dildə izah etməlidirlər, səhvləri və ya yanlış nəticələri müəyyən etməli, nəticələrin şərhinin düzgünlüyünü yoxlamalıdırlar. Alqoritmin parametrləri və imkanları barədə məlumatların təqdim edilməsi öhdəliyi alqoritmik məlumatları təqdim edən tərəfin üzərinə qoyulmalıdır.

Alqoritmik sübutlarla bağlı prosessual hüquqların təmin edilməsində məhkəmənin rolunun gücləndirilməsi üçün məhkəmənin alqoritmə etiraz etmək, onun müstəqil yoxlanılmasını tələb etmək, avtomatlaşdırılmış nəticələrin dəqiqliyini şübhə altına almaq, orijinal məlumatlara daxil olmaq və ya onları yoxlanılmasını təmin etmək hüququ olmalıdır və alqoritmik qeyri-şəffaflığın təqsirsizlik prezumpsiyasını əvəz etməsinə yol verilməməlidir.

Alqoritmin mükəmməl, şərtsiz həqiqət mənbəyi kimi qəbul edilməsinə yol verilməməlidir.

Avtomatlaşdırılmış nəticələrdə ağlabatan şübhənin olması istənilən halda minimuma endirilməlidir, bu əlbəttə texniki məsələdir və əsas məsələ bu minimum kənarlaşmanın hədlərinin ağlabatan olmasıdır. Çünki, alqoritmik sübutlar yekun qərarın özü deyildir, ancaq onun formalaşdırılmasında iştirak edirlər. Məhkəmə hesablama səhvlərini, şərhin çətinliyini, səhv istifadə ehtimalını nəzərə almalıdır. Burada digər əhəmiyyətli bir məsələ də hakimlərin rəqəmsal savadlılığının yüksəldilməsidir. Çünki, lazımi rəqəmsal və alqoritmik biliklər olmadan alqoritmik sübutların düzgün qiymətləndirilməsi demək olar ki, mümkün deyildir. Əks halda hakimin qiymətləndirməsi və mülahizəsi tərəflərin sübutları təqdim etmək üsullarından və hakimi inandırmaq bacarığından asılı olacaqdır. Bu sahədə müəyyən səhvlərin olması, bir sıra hallarda qaçılmazdır. Hazırda bir sıra ölkələrdə hakimlərin rəqəmsal hüquq sahəsində təlimlərinə başlanılmışdır. Məsələn, ABŞ Dövlət Məhkəmələri üzrə Milli Mərkəzi Thomson Reuters İnstitutu ilə birlikdə bu sahədə kurslar təklif edir [24]. Qlobal Hakimlər Təşəbbüsünün xətti ilə 2022-2023-cü illərdə 4500 çox məhkəmə işçisi UNESCO-nun Süni İntellekt (Sİ) və Qanunun Aliliyi üzrə onlayn kurslarında iştirak etmişdir [25].

Alqoritmik sübutdan istifadə olunması barədə təklif verilməsi və ya təqdim edilməsi kifayət etmir, onlar yalnız məhkəmənin əsaslandırılmış qərarı ilə qəbul oluna bilər.

"“Süni intellektlə neyroproqnozlaşdırma” süni intellektin bir növü hesab edilə bilər. Bu neyroproqnozlaşdırma üsulu beynin fəaliyyətindəki biomarkerləri tapmaqla gələcəkdə cinayət törətmə ehtimalı olan şəxsləri müəyyən etməyə çalışır.” [29, s.593]. “Cinayətkarlığa meylliliyi” proqnozlaşdırmaq və ya cinayət törətmə ehtimalını qiymətləndirmək üçün Sİ-in prediktiv modellərindən istifadənin qarşısının alınması üçün qanunvericilik qaydasında tədbir görülməlidir, çünki bu modellər təqsirsizlik prezumpsiyasına uyğun gəlmir. Residiv risqinin qiymətləndirilməsi alqoritmləri müəyyən sosial qruplarla bağlı göstəriciləri yüksəldir, keçmiş tutulmalar haqqında məlumatlar hüquq-mühafizə orqanlarının münasibətinin formalaşmasına, qərəzliliyinə təsir edir Alqoritmlərin tətbiqi zamanı texniki problemləri də nəzərə almaq lazımdır. “...risk və ehtiyacların birləşməsi bu alətlərin proqnozlaşdırma dəqiqliyini azalda bilər, çünki ən güclü risk faktorlarının bəziləri kriminogen ehtiyacları adətən nəzərə alındığı şəkildə dəyişdirilə bilməz və bəzi ehtiyaclar təkrar cinayət törətmə riski ilə əlaqələndirilməyə bilər” [7, s.397].

Böyük Britaniya Kembric Universiteti və Durham Polis İdarəsi tərəfindən hazırlanan Zərərin Qiymətləndirilməsi Risk Aləti (HART) Cinayət Ədliyyə Sisteminə (CJS) daxil olan işlər üzrə cinayətləri proqnozlaşdıran və polis nəzarəti şəraitində istifadə olunan alqoritmik proqnozlaşdırma alətidir. Proqnozlaşdırma

modeli gələcək cinayət riskini qiymətləndirməklə polis nəzarəti işçilərinin qərar qəbul etməsini dəstəkləyir [28].

Cinayətkar davranış ehtimalını qiymətləndirən proqnozlaşdırıcı sistemlərdən istifadə edilməsi təqsirsizlik prezumpsiyasını pozur, fərdin təqsiri sübut olunmazdan əvvəl riskli cinayətkar hesab olunur. Alqoritmlərə qarşı ədalətlilik tələbini irəli sürmək o qədər də düzgün olmazdı. Ola bilər ki, texniki imkanlarına görə alqoritmlərlə əldə edilən sübutlar verilənlər baxımından düzgün qiymətləndirilmişdir. Ancaq alqoritmin ədalətli olması üçün cinayətkarın şəxsiyyətinin xüsusiyyətlərinə, cinayətin törədilməsinin hallarına və şəraitinə, yüngülləşdirici halların olmasına və s. aspektlərə diqqət yetirilməlidir. Ümumiyyətlə, proqnozlaşdırma modelinin tətbiqinin nəticələri tövsiyə xarakteri daşımalıdır, polis əməkdaşının vəzifələrini əvəz etməməlidir. Heç bir alqoritm təkrar cinayət törətməklə bağlı hərhansı məlumatı özü əldə edə bilməz. Polis əməkdaşı məlumatları olsa belə, şübhəli şəxslə bağlı məhkəmədənkənar qərar qəbul edə bilməz. Proqnozlaşdırma modelləri polis və məhkəmə məlumat sistemlərində əks olunan nəticələrdən istifadə etməklə qurulur və bu nəticələr o dövrdə verilən insan mühakimələrinə əsaslanır. Model reallığı əks etdirməsəydi, bu, səhv olardı və səhv nisbətləri artardı. Buna görə də alqoritmlərin qərəzli hesab edilməli olduğu qənaətinə gəlməzdən əvvəl, insan mühakiməsinin daha çox və ya daha az qərəzli olub-olmadığını nəzərə almaq lazımdır. Alqoritmlər adətən öz səhv nisbətlərini qiymətləndirə bilirlər.

Alqoritmik formalaşdırılmış məlumatların hüquqi təbiəti milli CPM-də möhkəmləndirilməmişdir. Mövcud qanunvericilik baxımından bu məlumatlar bir neçə sübut növünə aid edilə bilər, lakin bu zaman müəyyən problemlər yaranır. Məlum olduğu kimi CPM sübutların növlərinə şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxsin, şahidlərin ifadələrini, istintaq və həmçinin məhkəmə hərəkətlərinin protokollarını, ekspertin rəyini, maddi sübutları və digər sənədləri aid edir. Hər bir proqram və ya alqoritm tərəfindən yaradılan avtomatlaşdırılmış hesabat cinayət işi ilə əlaqəli qeydə alınmış məlumatları ehtiva edən rəqəmsal sənəd hesab edilməlidir. Çünki, alqoritmlə bağlı hesabat fayl formasına malikdir (PDF, log, JSON, CSV), yəni sənədə qarşı irəli sürülən tələblərə, yəni CPM-nin 135-ci maddəsinin tələblərinə cavab verir, sənəd kimi cinayət təqibi üzrə əhəmiyyət kəsb edə bilən məlumatları hərf, rəqəm, qrafika və digər işarə formasında özündə əks etdirir, elektron daşıyıcıdır. Problemlər onunla bağlı ola bilər ki, sənəd insan tərəfindən deyil, sistem tərəfindən yaradılır, bu da onun düzgünlüyünə görə məsuliyyət məsələsini çətinləşdirir. Həmçinin həqiqiliyinin yoxlanılması mürəkkəb bir prosesdir, alqoritmi yalnız ekspertiza vasitəsilə təhlil etmək mümkündür. Məlumat mənbəyinin qeyri-müəyyənliyi ilə bağlı hesabat ilkin məlumatlar emal edildikdən sonra yaradılırsa, hesabatın, yoxsa orijinal məlumat massivinin sənəd olması ilə bağlı sual yaranır.

Alqoritmdən ekspert tərəfindən tədqiqat vasitəsi kimi istifadə olunursa, onun nəticələri ekspert rəyinə daxil edilir və ekspert tədqiqatı prosedurunun ayrılmaz elementi kimi çıxış edir. CPM-nin 127-ci maddəsinə əsasən ekspertin rəyi “cinayət prosesini həyata keçirən orqanın və ya cinayət prosesi tərəflərinin ekspert qarşısında qoyduğu suallara, habelə iş materiallarının tədqiqi zamanı ortaya çıxan onun səlahiyyətlərinə aid digər halların araşdırılmasına dair nəticələridir; bu nəticələri əsaslandıran ekspertin apardığı tədqiqatın təsviridir”. Bu mənada ekspert alqoritmdən metodika və ya texniki vasitə kimi istifadə edir. CPM-nin 7-ci maddəsi ekspertin rəyinin “elmi inkişafın müasir tələblərinə uyğun olan və hamı tərəfindən qəbul edilmiş elmi dəlillər əsasında yoxlanmasına imkan verən müddəalara əsaslanmalı” olmasını müəyyən edir. Nəticəni ekspert formalaşdırır, alqoritm isə nəticənin əldə edilməsinə kömək edir. CPM-nin 97.4.1-ci

maddəsi müəyyən edir ki, ekspert “düzgünlüyü özü tərəfindən yoxlanılmamış iş materiallarının tədqiqi əsasında gəldiyi şəxsi nəticələrini, habelə kompüter proqramından və məlumat materiallarından istifadə etməklə əldə etdiyi nəticələri rəydə bir-birindən dəqiq ayırmalıdır”. Burada alqoritmin metodikanın elementi kimi validasiyası ilə bağlı problemin yaranması mümkündür, bu mənada hər bir proqram kriminalistik vasitə hesab olunmaya da bilər. Həmçinin alqoritmin parametrlərinə ekspertin çıxışı yoxdur. Məhkəmə ekspertizası fəaliyyəti haqqında Azərbaycan Respublikası Qanununa əsasən ekspertin rəyi ekspertiza təcrübəsində formalaşmış vahid elmi-metodik üsullar əsasında aparılır [11, 23-cü maddə]. Ekspertizasının aparılmasında istifadə olunan tədqiqat metodları Dövlət Reyestrinə daxil olmalıdır, həmçinin elmi-metodik materialların xüsusi fondu yaradılmalıdır. Bu metodlar elmi əsaslılıqla yanaşı, sahəvi standartlara da uyğun olmalıdır, onlara çıxış təmin edilməlidir. Hesab edirik ki, bu tələblər alqoritmik sübutların əsaslandığı alqoritmlərə və onlardan istifadə olunması metodikasına da aid edilməlidir. Alqoritmlər kommersiya sistemində istifadə olunduqda, əksər hallarda qapalı xarakter daşıyır, ona görə də bu tələblərin mənsubiyyətindən asılı olmayaraq bütün alqoritmlərə tətbiq edilməsi xüsusilə vacibdir.

Alqoritmlərə CPM-nin 128-ci maddəsi mənasında maddi sübutlar kimi də baxıla bilər. CPM-nin 128.1-ci maddəsinə əsasən, “Öz xüsusiyyətinə və əlamətlərinə, mənşəyinə, aşkar edildiyi yerə və vaxtına və ya üzərində hadisənin izlərinin saxlanıldığına görə cinayət təqibi üzrə əhəmiyyət kəsb edən halların müəyyən edilməsinə kömək edən hər bir əşya maddi sübut hesab edilə bilər”. Rəqəmsal mühitdə məlumat saxlama cihazı (telefon, daşıyıcı disklər), kompüter faylları, rəqəmsal video nəzarət arxivi bu obyektlərə aid edilə bilər. Orijinal rəqəmsal daşıyıcı maddi sübut hesab edildikdə, alqoritm informasiyanı bu daşıyıcılardan çıxara və ya bərpa edə bilər, alqoritm cinayətin izlərinə çıxışın texniki vasitəsidir. Məsələn, proqram silinmiş faylları avtomatik olaraq bərpa edir. Bu zaman fayllar maddi sübutlar, proqramlar isə alət qismində çıxış edir. Burada problemlər texniki müəyyən etmə və məlumatların modifikasiyasının sərhədlərinin müəyyən edilməsi, alqoritmin tətbiqi zamanı informasiyanın transformasiyası risqi, proqramların tətbiqinin şərtlərinin dəqiq qeydə alınmasının zəruriliyi ilə bağlı ola blər.

Alqoritmlər artıq həyatımıza daxil olmuşdur, onlardan adi həyatda və ədalət mühakiməsinin həyata keçirilməsində istifadə edilməsi qaçılmazdır. Buna görə də bu sahədə texniki maarifləndirmə tədbirləri xüsusi əhəmiyyət kəsb edir. Avropa Şurası alqoritmik sistemlərin tətbiqi ilə bağlı Üzv Dövlətlərin hökumətlərinə tövsiyə edir ki, avtomatlaşdırılmış qərar qəbuletmə sistemlərinin funksiyalarını və nəticələrini anlamaq, bu cür sistemlərin istifadəsində məlumatlı qərarlar qəbul etmək, alqoritmik sistemlərin istifadəsindən irəli gələn faydalardan yararlanmaq və bu cür sistemlərin istifadəsindən irəli gələn təhdid və risklərə məruz qalmağı minimuma endirmək üçün bütün fərdlərə və qruplara imkan yaratmaq üçün effektiv və uyğunlaşdırılmış media, informasiya və rəqəmsal savadlılıq proqramlarının həyata keçirilməsini təşviq etsinlər, özəl sektor, media, vətəndaş cəmiyyəti, təhsil müəssisələri və akademik və texniki qurumlar da daxil olmaqla bütün müvafiq maraqlı tərəflərlə səmərəli əməkdaşlıq etsinlər [17, B.7].

CPM alqoritmləri, avtomatlaşdırılmış sistemləri, Sİ, neyro-şəbəkə modellərini sübutlara aid etmir, bu isə onların statusunun mübahisələndirilməsinə gətirir. Belə ki, alqoritmlər sübut mənbəyi kimi qəbul olunarsa, onların əmələ gəlmə mənbəyi aydın olmalıdır, əks halda müdafiə hüququnu, həmçinin ittiham tərəfinin də hüququnu pozur. İttiham tərəfi alqoritmik sübutlara əsaslanaraq təqsirləndirilən şəxs barəsində tam olmayan, bəzi hallarda düzgün olmayam məlumatlar alır, öz mövqeyini onlarla möhkəmlədir. Sübut mənbəyi kimi

alqoritmlərin yoxlanılması üçün hakimlər çıxış kodlarını tədqiq etmək imkanları olmalıdır, ekspert əgər modelin tətbiqinin nəticələrindən istifadə edirsə, onun işləmə məntiqini də izah etməlidir. Hesab edirik ki, alqoritmik sübutlar hazırda digər informasiya mənbələri ilə məcmuda götürüldükdə sübut kimi qəbul olunmalıdır.

ABŞ-nın məhkəmə təcrübəsində TrueAllele Casework Sisteminin koduna çıxış əldə edlməsi ilə bağlı müdafiə tərəfi kodun əldə edilməsi barədə sorğusunu onunla əsaslandırır ki, təqsirləndirilən şəxsin Dr. Perlin-in məhkəmədə ifadə verməsindən əvvəl üzləşmə hüququ vardır, TrueAllele Casework Sistemi əsl şahiddir və həmin şahidi effektiv şəkildə çarpaz dindirmək üçün onun mənbə koduna ehtiyacı vardır. Məhkəmə "kompüter proqramını necə çarpaz dindirmək olar?" deyə soruşduqda, təqsirləndirilən şəxsin müdafiəçisi bildirdi ki, onların ekspertləri mənbə kodunu araşdırmaq imkanı əldə etdikdən sonra bu araşdırmanın nəticələrinə əsasən Dr. Perlin-ə suallar verəcəklər. Məhkəmə bu vəsatəti rədd etdi və müdafiə tərəfinin qaldırdığı məsələnin əslində açıqlama məsələsi olduğunu, mənbə kodunun yaradıcısı olan Dr. Perlin-i çarpaz dindirmək imkanının təqsirləndirilən şəxsin üzləşmə hüququnu təmin etdiyini bildirdi. Həm Dr. Perlin, həm də elektroforezi aparmış laboratoriya analitiki məhkəmədə DNT testlərinin nəticələri və statistik təhlillə bağlı ifadə verdilər [15].

Amerikanın Vətəndaş Azadlıqları İttifaqı ("ACLU") və Electronic Frontier Foundation belə bir Amicus curriae icmalı təqdim etmişlər ki, TrueAllele geniş şəkildə başa düşülən və hərtərəfli yoxlanılmış bir texnologiyadır, yaxud mahiyyət etibarilə məxfi olan kommersiya sirlərinə, yəni mənbə koduna əsaslanan bir sistem kimi fəaliyyət göstərir. Bunların ikisi eyni anda mümkün deyildir. Əslində isə, bu ehtimalların heç biri olmaya bilər, çünki bu texnologiya ciddi, müstəqil testlərdən keçməyib və ümumiyyətlə kommersiya sirri kimi qorunmağa layiq hesab edilə biləcək hər hansı bir element də daşımaya bilər. Özəl bir şirkətin sırf maliyyə maraqları prosessual ədalət və üzləşmə hüququ kimi fundamental hüquqlardan üstün tutula bilməz. Cinayət işi üzrə təqsirləndirilən şəxsin prokurorun sübutlarını nəzərdən keçirmək, təhlil etmək və onlara cavab vermək hüququ vardır və ondan kriminalistik texnologiya satıcısının iddialarını kor-koranə qəbul etməsi tələb oluna bilməz. Mənbə kodunun müstəqil araşdırılması kriminalistik proqram təminatının qiymətləndirilməsində mühüm və əvəzolunmaz bir addımdır və belə araşdırmalar kriminalistik alətlərdə təkrarən səhvlər aşkar etmişdir. TrueAllele ilə eyni tip probabilistik genotipləmə texnologiyasının müstəqil araşdırılması əvvəllər ciddi səhvləri, hətta onların yaradıcılarının belə xəbərdar olmadığı səhvləri, üzə çıxarmışdır. Proqramçıların nəzərdə tutduğu abstrakt alqoritmin sadəcə olaraq təsviri və ya dizaynerin dindirilməsi müstəqil təhlili əvəz edə bilməz və cinayət təqiblərində ədalətsizliyin qarşısını almağa yönəlmiş konstitusion təminatlara tam cavab vermir. Kriminalistik proqram təminatının mənbə kodunun gizli saxlanılmasının məqsədi guya kommersiya məlumatlarının mənimsənilməsinin qarşısını almaqdır, lakin bu gizlilik eyni zamanda təqsirləndirilən şəxslərin və ictimaiyyətin həmin proqramlarda məhkumun təqsirsiz insanları belə həbsə və ya ölüm cəzasına aparacaq qüsurları üzə çıxarmasının qarşısını alır. Təkrar aparılan müstəqil araşdırmalar kriminalistik proqramlarda texnologiyanın etibarlılığını və cinayət ədliyyə sistemində istifadəyə yararlılığını şübhə altına alan səhvlər və uyğunsuzluqlar aşkar etmişdir. Bunun nümunələrinə TrueAllele-ın analoqları olan FST və STRMix daxildir, hər ikisində günahsız insanları təqsirləndirəcək dərəcədə ciddi səhvlər üzə çıxarılmışdır. Hökumət kriminalistik proqram təminatı tərəfindən yaradılmış sübutlardan istifadə etmək istədikdə, həmin proqramın mənbə kodunun açıqlanması həm cinayət işi üzrə təqsirləndirilən şəxsləri Kon-

stitusiya ilə qorunan hüquqlara, həm də ictimaiyyətin məhkəmə proseslərinə çıxış hüququna uyğun olaraq tələb olunur. Cinayət təqibi kontekstində ictimaiyyətin ədalətli və açıq məhkəmə proseslərinə dair Konstitusion təminatlara güclü marağı vardır, ictimai açıqlama əsas qayda olmalıdır. Yalnız qeyri-adi hallarda, bu işə aid olmayan hallarda, hökumət ictimaiyyətin çıxış hüququnu üstələyəcək dərəcədə ciddi məxfilik marağını əsaslandıra bilər. Belə bir vəziyyətdə məhkəmə qoruyucu qərar çıxara bilər. Belə qərarlar adətən ticarət rəqibləri arasında kommersiya məhkəmə çəkişmələrində tətbiq olunur, orada risklər daha aşağıdır və məlumatların mənimsənilməsi mümkündür. Heç vaxt müdafiə tərəfinin mənbə kodu və proqramın hazırlanma materiallarına çıxışı tamamilə rədd edilməməli, yaxud təqsirləndirilən şəxs ona qarşı irəli sürülmüş sübutlarla üzləşmək imkanından birmənalı məhrum edilməməlidir. Buna görə də Məhkəmə hökumətin sorğunu ləğv etmək (motion to quash) barədə vəsatətini rədd etməlidir. Təqsirləndirilən şəxsə prokurorun sübutlarını nəzərdən keçirmək və onlarla üzləşmək hüququ təmin edilməli və prokurorun sübutetmə yükünü müdafiə tərəfinin üzərinə keçirməsi qadağan edilməlidir. Mənbə kodu müdafiənin vəkillərindən və ekspertlərdən gizlədilə bilməz. Mülki məhkəmə çəkişmələrində, azadlıq hüququnun risk altında olmadığı və tərəflərin çox vaxt bazar rəqibləri olduğu hallarda, qoruyucu qərarların geniş tətbiqi göstərir ki, belə qərarlar kommersiya sirri sahiblərinin maraqlarını qorumaq üçün kifayət qədər təsirlidir. Bu işlərdə belə qərarlar vəkillərə və rəqib tərəfin cəlb etdiyi ekspertlərə sübutlarla tanış olmaq imkanı verir, amma məlumatın digər şəxslərə ötürülməsi məhdudlaşdırıla bilər. Bir çox federal dairə məhkəmələri patent mübahisələri üzrə model qoruyucu qərarlar qəbul etmişdir. Bu qərarlar açıq şəkildə kommersiya sirləri və mənbə kodunun qarşı tərəfin vəkillərinə və mütəxəssislərinə açıqlanmasını nəzərdə tutur. Qoruyucu qərarlar, hətta tərəflər bir-birinin mülkiyyət məlumatlarından iqtisadi fayda əldə edə biləcək birbaşa rəqiblər olduqları hallarda belə, tətbiq olunur [26].

Alqoritmik sübutlardan istifadə cinayət mühakimə icraatının səmərəliliyini artırmaqla yanaşı, hüquqi sistemin qarşısında yeni məsuliyyətlər də qoyur. Bu məsuliyyətlərin mərkəzində isə alqoritmlərin tətbiqində ədalətlilik, obyektivlik və müdafiə hüququnun təminatı dayanır. Yalnız bu şərtlər daxilində alqoritmik sübutlar cinayət prosesi üçün etibarlı və legitim vasitə kimi çıxış edə bilər. Alqoritmik sübutların mümkünlüyü tələblərindən çıxış edərək, belə hesab edirik ki, onlardan istifadə olunması texnoloji inkişafın qaçılmaz mərhələsidir, lakin iş üzrə istintaqın sürətləndirilməsi və sadələşdirilməsi təqsirləndirilən şəxslərin hüquqları hesabına əldə edilə bilməz. Buna görə də alqoritmik sübutlar üçün xüsusi hüquqi rejim tətbiq edilməlidir. Cinayət Prosessual Məcəlləsinə "alqoritmik sübutlar" anlayışı daxil edilməli, mümkünlüyünün şərtləri müəyyən edilməlidir. Sİ-dən istifadə edərək əldə edilən sübutların məcburi yoxlanılmasına və ekspert qiymətləndirməsinə tabe olması mütləq öz əksini tapmalıdır. Müdafiənin alqoritmlərə çıxış imkanı olmalıdır, bu çıxış ilk növbədə onun texniki təsvirinə və öyrənmə seçimlərinə aiddir. Qapalı və ya çıxış olmayan məlumatlara əsaslanan modellərin təqsirləndirilən şəxsə qarşı istifadə edilməsi qadağan edilməlidir. Hazırda informasiya texnologiyaları ilə bağlı texniki ekspertizalar keçirilir. Hesab edirik ki, alqoritmik sistemlərlə bağlı rəqəmsal ekspertizanın keçirilməsi mümkün olmalıdır. Cinayət prosesinin məqsədləri üçün dəqiqlik, etibarlılıq və ayrı-seçkiliyə yol verilməməsi üçün sınaqdan keçirilmiş sertifikatlaşdırılmış Sİ sistemlərindən istifadə edilməsinə yol verilməlidir, sertifikatlaşdırılmamış sistemlərin tətbiqinə görə məsuliyyət müəyyən edilməlidir.

Prosessual təminatlar, ilk növbədə, alqoritmlər vasitəsilə əldə edilən məlumatların qanuni yolla toplanmasını, təhrif edilmədən saxlanmasını, həmçinin tərəflərin bu sübut-

ların mahiyyəti ilə tanış olmaq və onları şübhə altına almaq imkanlarının təmin olunmasını tələb edir. Bununla yanaşı, alqoritmin tətbiq metodunun açıq şəkildə göstərilməsi, onun səhv ehtimalının qiymətləndirilməsi və nəticələrin digər sübutlarla müqayisəli təhlili vacibdir.

Bu çərçivədə məhkəmə yalnız o halda alqoritmik sübutu qəbul edə bilər ki, həmin sübutun istifadəsi əsaslandırılmış, prosessual qaydalara uyğun, etik çərçivədə və təqsirsizlik prezumpsiyasını pozmadan həyata keçirilsin. Alqoritmik sübutların mümkünlüyü onların məhkəmə sisteminə inteqrasiyasının keyfiyyətindən deyil, məhz onların tətbiqinin hüquqi tənzimlənməsi və prosessual zəmanətlərlə təmin edilməsindən asılıdır.

Məhkəmə proseslərində rəqəmsal və alqoritmik texnologiyaların artan istifadəsi ilə məhkəmənin rolu əhəmiyyətli dərəcədə genişlənməlidir: məhkəmə alqoritmik metodların elmi əsaslılığını, şəffaflığını və etibarlılığını yoxlamaq, bu cür sübutların qəbul edilməsi üçün alqoritmlərin texniki parametrlərinin açıqlanmasını təmin etmək, ixtisaslaşmış mütəxəssisləri cəlb etmək və tərəflərə avtomatlaşdırılmış nəticələrə tənqidi şəkildə etiraz etmək imkanı vermək səlahiyyətinə malik olmalıdır.

Alqoritmik sübutların cinayət prosesində geniş tətbiqi onların təbiəti, imkanları və hüquqi aspektləri, həmçinin texniki aspektləri, məhdudiyyətləri, ayrı-seçkiliyə yol verilməsi, insan hüquqlarının qorunması ilə bağlı aspektləri barədə həm hüquqtətbiq edici təcrübənin əməkdaşları, həm də əhali arasında rəqəmsal biliklərin inkişaf etdirilməsinə yönəlmiş təhsil və məlumatlandırma fəaliyyətləri genişləndirilməlidir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Cinayət-prosessual Məcəlləsi.URL: https://e-qanun.az/framework/46950
2. Ben Faiza v. France (application no. 31446/12). Judgment, 8 Februar 2018.URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-180657%22]}
3. Big Brother Watch and Others v. The United Kingdom (Applications nos. 58170/13,62322/14 and 24960/15). Judgment, 25 May 2021. URL: https://hudoc.echr.coe.int/fre#{%22itemid%22:[%22001-210077%22]}
4. Christoph Engel et al. Code is law: how COMPAS affects the way the judiciary handles the risk of recidivism// Artificial Intelligence and Law, – 2025.33, –p.383–404. URL: https://doi.org/10.1007/s10506-024-09389-8
5. Daubert Standard. URL: https://www.law.cornell.edu/wex/daubert_standard
6. European Ethical Charter on the Use of Artificial Intelligence in Judicial Systems and their environment (Adopted at the 31st plenary meeting of the CEPEJğ, Strasbourg, 3-4 December 2018). URL: https://rm.coe.int/ethical-charter-en-for-publication-4-december-2018/16808f699c
7. Fazel S, Sariaslan A, Fanshawe T. Towards a More Evidence-Based Risk Assessment for People in the Criminal Justice System: The Case of OxRec in the Netherlands// Eur J Crim Pol Res., – 2022.28(3), – p.397-406. URL:doi: 10.1007/s10610-022-09520-y. Epub 2022 Jul 1. PMID: 36097585; PMCID: PMC9458683.
8. Finale Doshi-Velez, Been Kim. Towards A Rigorous Science of Interpretable Machine Learning. 2 Mar 2017. URL: https://doi.org/10.48550/arXiv.1702.08608
9. Guidelines for the governance of digital platforms: safeguarding freedom of expression and access to information

through a multi-stakeholder approach. UNESCO, 2023.URL: https://unesdoc.unesco.org/ark:/48223/pf0000387339
10. Katz DM, Bommarito MJ II, Blackman J. A general approach for predicting the behavior of the Supreme Court of the United States// PLOS ONE, –2017.12(4): e0174698. URL: https://doi.org/10.1371/journal.pone.0174698
11. Məhkəmə ekspertizası fəaliyyəti haqqında Azərbaycan Respublikası Qanunu, 18 noyabr 1999-cu il № 758-IQ. URL: https://e-qanun.az/framework/91
12. Newcomb, Greenleaf. Algoritms and proofs: Mathematics in the Computing Curriculum 268-272 //SIGCSE '89: Proceedings of the twentieth SIGCSE technical symposium on Computer science education. -February 23-25, 1989. Louisville, KY, USA. URL: https://doi.org/10.1145/65293.65313
13. NİST AI Risk Management Framework. URL: https://www.nist.gov/itl/ai-risk-management-framework
14. OECD AI Principles. Recommendation of the Council on Artificial Intelligence. Adopted on: 22/05/2019. URL: https://legalinstruments.oecd.org/en/instruments/OECD-LEGAL-0449
15. People v. Wakefield (N.Y. 2022). 38 N.Y.3d 367. No. 3. Decided April 26, 2022. URL: https://law.justia.com/cases/new-york/court-of-appeals/2022/3.html
16. Raji, Inioluwa & Buolamwini, Joy. (2019). Actionable Auditing: Investigating the Impact of Publicly Naming Biased Performance Results of Commercial AI Products// AIES '19: Proceedings of the 2019 AAAI/ACM Conference on AI, Ethics, and Society, –p. 429 – 435. DOI: 10.1145/3306618.3314244.
17. Recommendation (CM/Rec (2020)1) of the Committee of Ministers to member States on the human rights impacts of algorithmic systems (Adopted by the Committee of Ministers on 8 April 2020 at the 1373rd meeting of the Ministers' Deputies). URL: https://search.coe.int/cm#{%22CoEIdentifier%22: [%2209000016809e1154%22],%22sort%22:[%22CoEValidationDate%20Descending%22]}
18. Regulation (EU) 2024/1689 of the European Parliament and of the Council of 13 June 2024. PE/24/2024/REV/1. URL: https://eur-lex.europa.eu/legal-content/EN/TXT/?uri=CELEX:32024R1689
19. Robert, Sanger. Artificial Intelligence and Criminal Law// The Colleges of Law, – Jan. 12, 2024. URL: https://www.collegesoflaw.edu/blog/2024/01/12/artificial-intelligence-and-criminal-law/
20. Roman Zaxarov (Roman Zakharov) Rusiyaya qarşı (Ərizə № 47143/06). Qərar, 4 dekabr 2015-ci il. URL: https://hudoc.echr.coe.int/fre#{%22display%22:[%220%22],%22languageisocode%22:[%22AZE%22],%22appno%22:[%2247143/06%22],%22documentcollectionid2%22:[%22GRAND-CHAMBER%22],%22itemid%22:[%22001-162749%22]}
21. State v. Loomis, 2016 WI 68. URL: https://cases.justia.com/wisconsin/supreme-court/2016-2015ap000157-cr.pdf?ts=1468415026
22. Study finds gender and skin-type bias in commercial artificial-intelligence systems//MIT News Office. – February 11, 2018. URL: https://news.mit.edu/2018/study-finds-gender-skin-type-bias-artificial-intelligence-systems-0212?utm_source=chatgpt.com
23. Tatia Dolidze. The Role of Artificial Intelligence in Criminal Justice - Reality and Perspective// İnternational Journal "LAW AND WORLD ", –2024, September. Volume 10/Issue 3, – p. 80-97. https://doi.org/10.36475/10.3.8

24. TRI/NCSC AI Policy Consortium for Law & Courts.URL: https://www.ncsc.org/our-centers-projects/trincsc-ai-policy-consortium-law-courts
25. UNESCO. Training judges, lawyers and prosecutors in Artificial Intelligence and the Rule of Law. URL: https://www.unesco.org/en/articles/training-judges-lawyers-and-prosecutors-artificial-intellig ence-and-rule-law
26. United States of America v. Lafon Ellis. Brief of Electroniv Frontier and ACLU of Pennsylvania as Amici Curiae in support of defendant's opposition to government motion to quash. Case No. 2:19-cr-00369-DWA. URL:https://www.eff.org/files/2022/06/15/19-cr-00369_amicus_brief_of_eff_and_aclu_1.pdf
27. Vincent, Chiao. Fairness, accountability and transparency: notes on algorithmic decision-making in criminal justice// International Journal of Law in Context, – 2019.№ 15, –p.126–139 doi:10.1017/S1744552319000077
28. Written evidence submitted by Durham Constabulary (ALG0041). Evidence on Algorithms in decision-making. URL: https://committees.parliament.uk/writtenevidence/79959/pdf/
29. Zico, Junius Fernando et al. The Role of Neuroprediction and Artificial Intelligence in the Future of Criminal Procedure Support Science: A New Era in Neuroscience and Criminal Justice// Yuridika, – 2023. September.Volume 38. No 3, –p.593-620. DOI: 10.20473/ydk.v38i3.46104


***Açar sözlər:*** *süni intellekt, mümkünlük, alqoritmik sübutlar, cinayət prosesi, insan nəzarəti, ayrı-seçkilik, prosessual təminatlar*

**Matanyat Askerova**

*Academy of Justice of the Ministry of Justice,*
*Head of the Department of Criminal Procedure,*
*Forensic Science and Criminalistics, Doctor of Law*

# PROCEDURAL GUARANTEES FOR THE ADMISSIBILITY OF ALGORITHMIC EVIDENCE

## ABSTRACT

The purpose of the research is to determine the limits of the application of algorithmic evidence and to define the boundaries of its admissibility within criminal proceedings. The author proceeds from the necessity of establishing general legal frameworks for the use of algorithmic data as evidence. Algorithmic evidence must comply with the principles of controllability, proportionality, and minimization of interference, and must be subject to judicial evaluation.

The significance of the study lies in the fact that the widespread use of algorithmic evidence requires the development of new approaches to ensure transparency, accountability, and the humanistic character of the administration of justice. It also highlights the need to develop internationally recognized standards of algorithmic reliability and transparency (for example, at the level of ISO and other standard-setting organizations), as well as the necessity of introducing the concept of algorithmic evidence into national legislation.

The scientific novelty of the research lies in the fact that it is one of the first studies devoted to the admissibility of algorithmic evidence in the context of the evidentiary provisions of the Criminal Procedure Code of the Republic of Azerbaijan. It introduces the concept of "algorithmic evidence" into the academic discourse of national criminal procedural law and develops its conceptual dimensions. The research is situated at the intersection of criminal procedure, human rights, digital law, and it advances contemporary approaches in this field.

The study employs methods of comparative legal analysis, doctrinal interpretation of normative acts, and systemic analysis. These methods make it possible to determine the relationship between the technical autonomy of algorithmic evidence and human legal responsibility.

The results of the research may be used in legislative and law-enforcement practice, in the development of national strategies on the regulation of algorithmic evidence, and in academic programs on criminal procedure and human rights.

***Keywords:*** *artificial intelligence, admissibility, algorithmic evidence, criminal procedure, human control, discrimination, procedural guarantees*

**Матанят Аскерова**

*Заведующая кафедрой Уголовного процесса,*
*судебной экспертизы и криминалистики*
*Академии Юстиции Министерства Юстиции,*
*доктор юридических наук*

# ПРОЦЕССУАЛЬНЫЕ ГАРАНТИИ ДОПУСТИМОСТИ АЛГОРИТМИЧЕСКИХ ДОКАЗАТЕЛЬСТВ

## РЕЗЮМЕ

Цель исследования состоит в определении пределов применения алгоритмических доказательств и границ их возможного использования в уголовном процессе. Автор исходит из необходимости формирования общих правовых рамок использования алгоритмических данных в качестве доказательств. Алгоритмические доказательства должны соответствовать принципам управляемости, соразмерности и минимизации вмешательства, а также подлежать оценке судом.

Значимость работы заключается в том, что широкое применение алгоритмических доказательств требует разработки новых подходов для обеспечения транспарентности, ответственности и гуманистического характера отправления правосудия, а также выработки международно признанных стандартов алгоритмической надежности и прозрачности (например, на уровне ISO и других организаций, разрабатывающих технические стандарты), и обосновывает необходимость включения понятия алгоритмических доказательств в национальное законодательство.

Научная новизна исследования заключается в том, что оно является одним из первых в контексте положений УПК Азербайджанской Республики о доказательствах, посвящённых вопросам допустимости алгоритмических доказательств, вводит понятие «алгоритмические доказательства» в научный оборот национального уголовно-процессуального права и разрабатывает его понятийные аспекты. Исследование находится на стыке уголовного процесса, прав человека, цифрового права и развивает современные подходы в данной сфере.

В ходе исследования использованы методы сравнительно-правового анализа, доктринального толкования нормативных актов и системного анализа. Эти методы позволяют определить взаимосвязь между технической автономностью алгоритмических доказательств и юридической ответственностью человека.

Результаты исследования могут быть использованы в законодательной и правоприменительной практике, при разработке национальных стратегий регулирования алгоритмических доказательств, а также в учебных программах по уголовному процессу и правам человека.

***Ключевые слова:*** *искусственный интеллект, допустимость, алгоритмические доказательства, уголовный процесс, человеческий контроль, дискриминация, процессуальные гарантии*

DOI: https://doi.org/10.30546/2309-1347.92.2025.367

# TƏDRİSİN İNNOVATİV METODLARI
# INNOVATIVE TEACHING METHODS

UOT 37:001.12/.18

**LEYLA SULTANOVA**

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının**
**Tədrisin keyfiyyətinin monitorinqi və məzunlarla iş şöbəsinin müdiri,**
**İqtisadiyyatın dövlət tənzimlənməsi kafedrasının dosenti,**
**iqtisad üzrə fəlsəfə doktoru**

*e-mail: leylasultanova289@outlook.com*

**GÜLPUTA ŞİRİNOVA**

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının**
**Tədrisin keyfiyyətinin monitorinqi və məzunlarla iş şöbəsinin mütəxəssisi**

*e-mail: gulputa.shirinova@dia.edu.az*

## ANDRAQOJİ YANAŞMA, ÖMÜRBOYU TƏHSİL VƏ BİLİK İQTİSADİYYATI KONTEKSTİNDƏ AZƏRBAYCANIN RƏQƏMSAL İNKİŞAF STRATEGİYALARI

*Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının,*
*fəaliyyətinin mühüm bir sahəsidir.*
*Bu sahədə uğurla iştirak etmək üçün*
*insan müasir tələblərə uyğun olan təhsilə malik olmalıdır.*

***Ümummilli Lider Heydər Əliyev***

### Giriş

Təhsil elə bir sistem kimi nəzərdən keçirilir ki, o, cəmiyyətin sosial-iqtisadi inkişaf dinamikasına uyğun olaraq daim yenilənməli və dəyişən tələblərə adaptasiya olunmalıdır. Müasir dövrdə sürətlə inkişaf edən texnologiyalar, əmək bazarının dəyişən strukturu, bilik və bacarıqlara dair yeni gözləntilər təhsil sistemində innovativ, çevik və tələbəyönümlü tədris metodlarının tətbiqini zəruri edir. Bu səbəbdən təhsil müəssisələri zamanın tələblərinə cavab verən yeni pedaqoji yanaşmaları, rəqəmsal təlim vasitələrini və interaktiv metodları prosesə inteqrasiya etməklə tədrisin keyfiyyətini və effektivliyini artırmağa çalışırlar. XXI əsrin mühüm tendensiyalarından biri də davamlı öyrənmə və inkişafdır. Bu da məhz ömürboyu təhsil konsepsiyasının tələblərindəndir.

**Təhsil sistemində andraqoji yanaşma**

İlk dəfə bu termin 1833-cü ildə alman pedaqoqu Alexander Kapp tərəfindən işlənib hazırlanmış, daha sonra isə 1921-ci ildə Eugen Rosenstock Huessy bunu böyüklərin təhsili nəzəriyyəsi kimi istifadə etmişdir. 1967-ci ildə amerikalı pedaqoq Malcolm Knowles “andraqogika” terminini pedaqogikadan ayrılmış fərqli nəzəriyyəsi kimi sistemləşdirmişdir.

Ümumiyyətlə andraqogikanın əsas prinsipləri aşağıdakılardır:

1. İştirak – yetkinlər təlimin planlaşdırılması və qiymətləndirilməsində iştirak etməlidirlər.
2. Təcrübə – onların əvvəlki həyat, peşə və gündəlik təcrübələri öyrənmə prosesində əsas resursdur.
3. Problemin həllinə yönəlmə – öyrənmə sadəcə nəzəri bilik üçün deyil, real həyat və ya iş problemlərinin həlli üçün olmalıdır.
4. Aktuallıq və ya praktiklik – mövzular yetkinin şəxsi və ya peşə həyatında dərhal tətbiq edilə bilən və faydalı olmalıdır.
5. Motivasiya – yetkinlərin öyrənməsində daxili motivasiya (özünüinkişaf, peşəkar inkişaf) əsas rol oynayır [14].

Ölkələr arasında yetkinlərin təhsilə qatılım fərqləri böyükdür. Bəzi ölkələrdə yetkinlərin öyrənməsi ilə bağlı layihələr, resurslar və təlim imkanları genişdir. Bəzi ölkələrdə isə iştirak azdır. Ümumiyyətlə, işlə bağlı təlimlər yetkinlərin peşə bacarıqlarını artırmaq üçün geniş istifadə olunur ki, bu da xüsusən sürətlə dəyişən əmək bazarı və texnologiyalar dövründə vacibdir. Qeyd edək ki, bəzi ölkələrdə son illərdə yetkinlərin öyrənmə üzrə iştirakı artmışdır, məsələn, Estoniya və İrlandiyada qeyri-formal peşə təlimlərinə qoşulma faizi 5 faizlik artım göstərmişdir. Digər tərəfdən, bəzi ölkələrdə məsələn, Koreya və İsraildə isə yetkinlərin təlimdə iştirak faizi azalıb. Bu, ya ölkənin təhsil siyasətindən, ya iqtisadi şərtlərdən, ya da fərdi motivasiyadan qaynaqlana bilər [16]. Böyüklərin öyrənməsi sosial adaptasiya, peşə dəyişimi, ixtisasartımı, həyat boyu öyrənmə (lifelong learning) konsepsiyasının bir hissəsidir.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD-nin) 2023 və 2025-ci illər üzrə hesa-




**Şəkil 1.** Andraqogikanın prinsipləri

batlarına əsasən aşağıdakı statistikaları müşahidə edirik [12]:

- OECD ölkələrində orta hesabla 25-64 yaşlı böyüklərin təxminən 40%-i hər il formallıq dərəcəsindən asılı olmayaraq – yəni, formal və ya qeyri-formal öyrənmə və ya təlimlə məşğul olur.
- Ölkələr arasında böyük fərqlər var: məsələn, şimal ölkələri və ingilisdilli ölkələrdə iştirak yüksəkdir – nümunə olaraq, bəzi ölkələrdə bu göstərici 58%-ə qədər olur. Amma bəzi ölkələrdə (məsələn, Koreyada) bu göstərici yalnız 13%-dir.
- Qeyri-formal təlim və kurslar (xüsusilə iş və ya peşə ilə bağlı) yetkinlərin təhsilində ən geniş yayılmış formadır.
- Qeyri-formal kursların çoxu qısa müddətli olur: OECD ölkələrində təxminən 42% qeyri-formal kurslar 1 gün və ya daha az, 40%-ı 1 gündən 1 həftəyə qədər davam edir. Bu format sürətli bilik və ya bacarığın inkişafı üçün əlverişli olsa da, strukturlaşdırılmış uzunmüddətli peşəkar təhsil üçün kifayət etməyə bilər.
- Bilik səviyyəsi və gündəlik təcrübə (bacarıq) ilə öyrənmədə iştirak məsələsində güclü əlaqə vardır. Məsələn, yüksək səviyyəli oxuma və problem – həll etmə bacarığı olan, ali təhsilli böyüklərin 74%-i son 12 ay ərzində öyrənmə və treninqdə iştirak edib, halbuki aşağı bacarıqlı eyni təhsilli qrupa aid olanlarda bu göstərici 42%-dir [11].

Peşəkarlar tez-tez iş, şəxsi həyat və texnologiya arasında tarazlıq yaradır, bu da çevik və diqqətli öyrənmə modelinin olmasını vacib edir. Yetkinlərin öyrənməsi vasitəsilə fərdlər, istər peşəkar, istərsə də tələbə olsun, nəyisə niyə öyrəndiklərini aydın başa düşürlər. Bu onlara təhsillərinin bilavasitə dəyərini dərk etməyə imkan verir. Nəticədə, onlar daha çox məşğul olurlar və bilikləri daha uzun müddət saxlayırlar. Böyüklərin zəngin təcrübələri öz-özünə öyrənməni təşviq edir və biliyi real dünya ilə əlaqələndirir.

Yetkinlər üçün ən effektiv tədris o zaman baş verir ki, öyrənmə mövzusu onların peşə və real həyat təcrübəsi ilə əlaqələndirilir. Yetkinlərin öyrənmə ilə bağlı xüsusiyyətlərini aşağıdakı kimi izah edə bilərik:

- Öz öyrənmə proseslərinə nəzarət etməyi bacarırlar;
- Problemləri praktik şəkildə həll etməyə yönəlirlər;
- Təcrübə onlar üçün əsas bilik mənbəyidir;
- Öyrənməyə motivasiyaları daxili amillərə əsaslanır;
- Özünüidarə və məqsədyönlülük qabiliyyətinə malikdirlər.

Müasir dövrümüzdə təhsil mənzərəsi daim dəyişir. Bu vəziyyəti qəbul etmək, innovativ tədris üsullarına açıq olmaq, rəqəmsal platformaları mənimsəmək, öyrənənlərin dəyişməsini və sahələrini nəzərə almaq lazımdır. Texnologiya böyüklərin öyrənmə üsulunu dəyişdirdi. Bu, insanlara demək olar ki, hər yerdən sürətli və vaxtında təhsil almağa imkan verir. Onlayn təhsil, rəqəmsal proqramlar və interaktiv alətlər öyrənməyi daha əlçatan edir. Bu alətlər öz-özünə öyrənməyi dəstəkləyir və böyüklərə necə öyrəndikləri üzərində daha çox nəzarət imkanı verir, simulyasiyalar, viktorinalar və s. real vaxtda nəticələri öyrənənlərə nəyi mənimsədiklərini və hələ də nə üzərində işləməli olduqlarını bilməyə kömək edir. Həmçinin vaxtında geri rəy bildirməyə imkan verir. Rəqəmsal alətlərin faydalı istifadəsi vacibdir. Kritik, analitik, intellektual situasiyalarda yeni texnologiyalardan istifadə etməyi öyrənib, rəqəmsal dövrün tələblərinə uyğunlaşmalıdırlar. Müəllimlər daha çox onların işinə dəstək olan alternativlər təklif etməyə hazır olmalıdırlar. Texnologiya dəyişiklik və bilik tətbiqləri üçün imkan yaradır. Böyüklərin məlumatı necə əldə etməsi və saxlaması ilə bağlı məsələləri anlamaq – mənalı təlim və təhsil proqramları yaratmaq üçün faydalıdır. Çünki böyüklərin gözləntiləri və məhdud vaxt-

ları vardır. Həmçinin onlara monoton dərslər, sıx mühazirələr vacib deyil, çevik və praktik məzmun lazımdır. Onlar real problemləri həll edən öyrənmə üsullarına üstünlük verirlər. Hər dərsdə öz təcrübələrini tətbiq etmək və biliklərə əsaslanmaq üçün yenilənmiş vasitələr axtarırlar. Buna görə də andraqogiya kimi nəzəriyyələr dəyərlidir. Bu nəzəriyyə pedaqoqlara və təlimçilərə daha aydın çərçivə təqdim edir.

Böyüklər öyrənmə prosesində söz sahibi olduqda məlumatları daha yaxşı qavrayırlar. Əzbərləməyə əsaslanan ənənəvi təhsildən fərqli olaraq, böyüklərin öyrənmələri dərhal problemlərin həlli istiqamətində olanda üstün olurlar. Problem əsaslı öyrənmə praktik tətbiqi və tənqidi düşüncəni təşviq edir. Bunun üçün məqsəd qoymağa, məzmun seçməyə və nəticənin qiymətləndirilməsinə ehtiyac var. Ona görə də pedaqoqlar böyüklərlə effektiv işləmək üçün zəngin elmə və ayrıca təhsil proqramlarına sahib olmalıdır.

Andraqoji yanaşma ilə təhsil proqramlarının hazırlanması, yaradılması və idarə edilməsi yeddi addımda həyata keçirilir. Bunlar:

1. Öyrənmək üçün uyğun mühitin yaradılması;
2. Birgə planlaşdırma işləri üçün şəraitin yaradılması;
3. Maraqların, ehtiyacların və dəyərlərin müəyyən edilməsi;
4. Məqsədlərin aydın və açıq şəkildə müəyyən edilməsi;
5. Öyrənmə fəaliyyətlərinin planlaşdırılması;
6. Öyrənmə fəaliyyətlərinin həyata keçirilməsi;
7. Nəticələrin qiymətləndirilməsi (ehtiyacların, maraqların və dəyərlərin yenidən qiymətləndirilməsi).

## Onlayn təhsil platformalarının öyrənmədə rolu

Bu gün insanların elmi və yüksək inkişafını yaratmaq üçün geniş və əlçatan resurslar mövcuddur. Onlayn təhsil platformaları öyrənməni daha çevik, əlçatan və müasir edir. Onlayn təhsil platformaları səviyyəsi təhsili tam əvəz etməsə də onu tamamlayaraq təhsilin keyfiyyətinin yüksəlməsinə böyük töhfə verir. Xüsusilə ödənişsiz elektron kitabxanalar – EBSCO kimi beynəlxalq məlumat bazalarına




**Şəkil 2.** Andraqogika nəzəriyyəsinin fərziyyələri

çıxış imkanları onların elmi ədəbiyyata, tədqiqat materialına və akademik jurnallara sərbəst şəkildə müraciət etməsinə köməklik edir. Bir platformaların köməyi ilə biliklərə çox uyğun dərslər və tapşırıqlar təqdim edir. Bu da gücün zəif və güclü tərəflərinə fokuslanmağa kömək edir. 2012-ci ildən idarə Kütləvi Açıq Onlayn Kurslar (MOOC) Coursera, edX, Udemy, Khan Academy və s. kimi kütləvi onlayn kurslar yayılmağa başladı.

COVID-19 pandemiyası təhsildə onlaynlaşmanı sürətləndirdi. 2020-ci ildə məktəblərin çoxu və universitetlərinin çox distant dərsləri keçdi. Pandemiyadan sonra onlayn ödəniş qədər geri düşsə də, hibrid və onlayn kursların rolu qalıcı oldu. 2022-ci ildə təxminən 10 milyon tələbə ən az bir distant kursda iştirak etmiş, təxminən onlayn oxuyanlar təxminən 26% təşkil edilmişdir [9].

Coursera platforması Andrew Ng və Daphne Koller ilə Stanford Universitetindədir. Ng və Koller 2011-ci ilin ödənişində Stanford kurslarını onlayn etməyə başladılar və qısa müddət sonra Stanforddan ayrılaraq Coursera-nı işə saldılar. Princeton, Stanford, Miçiqan Universiteti və Pensilvaniya Universiteti platformasında tələb olunan ilk universitetlər oldu. Coursera müasir təhsil sistemində mühüm yer tutur və onlayn öyrənməni daha çox və praktik olaraq həyata keçirir. Platformanın əsas məqsədi tam həlli təhsili qlobal miqyasda hər kəs üçün əlçatan etməkdir. Azərbaycan Respbulikasının İqtisadiyyatı Təhlildən Təhlil və Koordinasiya Mərkəzi (4SİM) və Elm və Təhsil Tədqiqatları Tədqiqatının İnkişafı çərçivəsində Milli Proqram üzərində işləyir. İstifadəçilər onlayn platformada Oksford, Stenford, Yel, Dyuk, London, Edinburq, Mançestr, Miçiqan, Con Hopkins, İllinoys, Florida, Sidney, “Microsoft”, “Google”, “Meta”, IBM, AWS, “Oracle”, “Gitlab”, “Intel”, SAP, “Salesforce” kimi şirkətlərin və 350-yə yaxın ən nüfuzlu universitet və aparıcı texnologiyalarının kurs və təlimlərindən yararlanırlar.Əlavə 8000-ə qədər sahəvi kurs və proqramlar “Milli Proqram” istifadəçiləri üçün əlçatandır [2].

Məqalə hazırlanması və elmi fəaliyyət üçün nüfuzlu akademik platformalara çıxış da tədqiqat potensialının inkişafına mühüm töhfə verir. Elm və Təhsil Nazirliyi və Böyük Britaniyanın nüfuzlu Kembric Universitetinin




**Şəkil 3.** Dördmərhələli təhsil

"Cambridge Press" nəşriyyatı arasında əldə edilmiş razılığa əsasən, Azərbaycanda fəaliyyət göstərən bütün müəlliflər növbəti 3 il ərzində "Cambridge Press" tərəfindən nəşr edilən 422 yüksək impakt faktorlu, hibrid və "gold" açıq əlyetərli (Open Access) jurnallarda limitsiz sayda məqalə dərc etmək imkanı əldə edib.

"Web of Science" və "Scopus"da indekslənən bu jurnallarda açıq əlyetərli (Open Access) məqalə dərcinin qiyməti minlərlə manat dəyərində ölçülür. Sözügedən razılıq əsasında azərbaycanlı alimlər bu ödənişi etmədən öz məqalələrini Kembric Universiteti Nəşriyyatının jurnallarında dərc edə bilərlər. Razılaşma ölkənin 140 elmi və ali təhsil müəssisəsinə "Cambridge Press" nəşriyyatının jurnallarını müddətsiz oxumaq imkanını da təqdim edir.

Beləliklə, müasir şəraitdə onların təhsil, tədqiqat və şəxsi inkişafı üçün zəruri olan bütün resurslar və imkanlar təmin olunmuşdur [6]. İşçilərin yüksək peşə hazırlığı,çalışdığı sahədə bilik və bacarıqlarını daim artırmaq səyləri əmək səmərəliliyinin yüksəldilməsinin vacib amillərindəndir [1, s.67].

## Ömürboyu təhsil

Sürətlə dəyişən müasir dünyamız tərəqqi üçün həm geniş imkanlar yaradır, həm də yeni tələblər irəli sürür. YUNESKO-nun Ömürboyu Öyrənmə İnstitutu IV Davamlı İnkişaf Məqsədinə (Hamı üçün inklüziv və bərabər keyfiyyətli təhsili təmin etmək və ömür boyu təhsil almaq imkanlarını dəstəkləmək) uyğun olaraq İnstitutun əsas hədəflərindən biri bütün həyat mərhələlərini və şəraitləri əhatə edən səmərəli və inklüziv ömürboyu təhsil siyasətləri və sistemlərinin formalaşdırılması bu sahədə potensialın gücləndirilməsi, eləcə də məlumat və biliklərin paylaşılması yolu ilə cəmiyyətin bütün üzvlərinə fayda verməkdir. Bununla yanaşı, təhsildə rəqəmsal transformasiyanın tətbiqi xüsusi əhəmiyyət daşıyır [8].

Təhsil həm siyasət səviyyəsində, həm də praktiki fəaliyyətdə əsas prioritet kimi qəbul edilməlidir. Təhsil (intellekt, tərəqqi, öyrənmək) hər bir insana fayda verir və hamı üçün əlçatan olmalıdır. Keyfiyyətli təhsil almaq insanların həyatını və davamlı inkişafı yaxşılaşdırmaq üçün əsasdır. Keyfiyyətli təhsili təmin etmək və hamı üçün ömürboyu öyrənmə imkanlarını təşviq etmək aktualdır. Keyfiyyətli təhsil artıq qlobal bir hədəfdir [10].

Ömürboyu təhsil – insanın bütün həyatı boyu (uşaqlıq, gənclik, yetkinlik, təqaüd vaxtları daxil olmaqla) davam edən təhsil və bacarıq-qazanma prosesidir. Bu proses formal, qeyri-formal və informal təhsil formalarını özündə birləşdirir. Məqsəd isə şəxsi inkişaf, əmək bazarına uyğunlaşma, sosial inteqrasiya və aktiv vətəndaşlıqdır.

Avropa İttifaqında ömürboyu təhsil ümumi təhsil siyasətinin əsas istiqamətlərindən biridir. Erasmus+, Avropa Bacarıqlar Gündəliyi kimi proqramlar vasitəsilə fərdlərin yaşından asılı olmayaraq təhsilə çıxışı təmin edilir. Formal, qeyri-formal və informal təhsil formaları tanınır və sertifikatlaşdırılır.

Finlandiya ömürboyu təhsil sahəsində qabaqcıl ölkələrdəndir. Dövlət yetkinlərin təhsilini tam dəstəkləyir. Açıq universitetlər, axşam və onlayn kurslar geniş yayılmışdır. Təhsil bərabərliyi və əlçatanlıq əsas prinsiplərdəndir.

Almaniyada ömürboyu təhsil federal və regional səviyyədə tənzimlənir. Xalq universitetləri (Volkshochschulen) yetkin əhali üçün əsas təhsil mərkəzləridir. Peşə və ixtisasartırma proqramlarında işəgötürənlərin iştirakı yüksəkdir.

ABŞ-da ömürboyu təhsil mərkəzləşdirilməmiş sistemə əsaslanır. Community collegelər, onlayn platformalar və qısa müddətli sertifikat proqramları geniş yayılıb. Sistem fərdi təşəbbüsü və bazar tələbatını ön plana çıxarır.

Yaponiyada ömürboyu təhsil əsasən şirkətdaxili təlimlər üzərində qurulmuşdur. Dövlət yaşlı əhali üçün "ikinci karyera" proqramlarını dəstəkləyir, həmçinin texnologiya və peşə bacarıqlarının yenilənməsi əsas məqsəddir.

2030-cu ilə qədər keyfiyyətli ali təhsilə hamının çıxışını təmin etmək və müvafiq olaraq bacarıqlı insanların sayını artırmaq lazımdır. Ömürboyu təhsil və texniki-peşə bacarıqlarının təkmilləşdirilməsi Davamlı İnkişaf Məqsədinin bir hissəsidir və bu yetişkinlərin müasir əmək bazarına uyğunlaşması üçün vacibdir.

**Azərbaycan Respublikasında ömürboyu təhsil və Milli Kvalifikasiyalar Çərçivəsi**

Təhsil və təlim nəticəsində əldə olunan bilik, bacarıq və səriştələrin səviyyələrə görə təsnifatı və uyğunluğu üçün yaradılmış bir sistem Milli Kvalifikasiyalar Çərçivəsi (MKÇ) - adlanır. Bu çərçivə ümumi təhsil, peşə-ixtisas təhsili, ali təhsil və əlavə təhsil daxil olmaqla müxtəlif təhsil səviyyələrini bir araya gətirir. MKÇ təhsil ilə əmək bazarını birləşdirməklə kvalifikasiyaların gücləndirilməsi üçün təlim nəticələrinə əsaslanan yanaşmanın təşviqində, kvalifikasiyaların və bütövlükdə təhsil sisteminin şəffaflığının təkmilləşdirilməsində, ömürboyu təhsil imkanlarının təqdim edilməsində və təhsil ilə əlaqəli siyasət və qanunvericilikdə islahatların aparılmasında mühüm rol oynayır. MKÇ - təhsil proqramlarının hazırlanması və akkreditasiyasını asanlaşdırır, əvvəlki təhsil də daxil olmaqla kvalifikasiyaların tanınmasını təmin edir, təhsilalanların və işçilərin gələcək təhsil və karyeralarını planlaşdırmaq məqsədi ilə digər ölkələrə rahat keçidini dəstəkləyir [7].

Müasir dövrdə cəmiyyətin davamlı inkişafı bilik və bacarıqların mütəmadi olaraq yenilənməsini zəruri edir. Elmi-texniki tərəqqinin sürətlənməsi, əmək bazarında baş verən dəyişikliklər və qloballaşma prosesi ömürboyu təhsilin əhəmiyyətini daha da artırır. Bu baxımdan ömürboyu təhsil Azərbaycan Respublikasında insan kapitalının formalaşdırılması və inkişafında mühüm yer tutur.

Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununda ömürboyu təhsil prinsipi təsbit olunmuş və hər bir vətəndaşın bilik və bacarıqlarını daim artırmaq hüququ təmin edilmişdir. Azərbaycanda ömürboyu təhsilin əsas məqsədi vətəndaşların bilik və səriştələrini müasir dövrün tələblərinə uyğunlaşdırmaqdan ibarətdir. Xüsusilə əmək bazarının ehtiyaclarına cavab verən ixtisaslı kadrların hazırlanması bu sahədə əsas prioritetlərdən sayılır. Bu məqsədlə peşə təhsilinin təkmilləşdirilməsi, ixtisasartırma və yenidənhazırlanma proqramlarının həyata keçirilməsi, eləcə də müəllimlərin davamlı peşəkar inkişafının təmin olunması istiqamətində mühüm addımlar atılır.

Qeyd edək ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli 311 nömrəli qərarı ilə Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi təsdiq edilmişdir. Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi əsasən aşağıdakıları əhatə edir:

- Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi milli kvalifikasiyaları sistemləşdirir və onların beynəlxalq kvalifikasiyalarla uyğunluğunu asanlaşdırır;
- Avropa Ali Təhsil Məkanının Kvalifikasiyalar Çərçivəsinə və Ömürboyu təhsil üzrə Avropa Kvalifikasiyalar Çərçivəsinə istinad edir;
- Fərqli kvalifikasiyaları təsvir, təsnif, müqayisə etməyə və başa düşməyə köməklik edir;
- Formal, qeyri-formal və informal təhsil nəticəsində əldə olunmuş nailiyyətlərin tanınmasını və təsdiq edilməsini asanlaşdırır;
- Ümumi təhsil, peşə təhsili və təlimi, orta ixtisas təhsili, ali təhsil və əlavə təhsil üzrə kvalifikasiyaları əhatə edir;
- Ömürboyu təhsil konsepsiyasını və imkanlarını təşviq edir;
- 8 səviyyədən ibarətdir [3].

Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi –

milli kvalifikasiyaların sistemləşdirilməsi üçün bir vasitə olmaqla bütün təhsilalanlar, təhsilverənlər və işəgötürənlər üçün hazırlanmışdır və milli kvalifikasiyaların beynəlxalq kvalifikasiyalarla uyğunluğuna xidmət edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2025-2028-ci illəri əhatə edən “Süni İntellekt Strategiyası” təsdiq edilib.

Bu sənəd ölkənin süni intellekt sahəsində inkişafını sürətləndirmək, rəqəmsal inkişafı dəstəkləmək və qlobal süni intellekt ekosistemində Azərbaycanın rolunu gücləndirmək məqsədi daşıyır.

Strategiyanın əsas məqsədləri sırasında qeyd edilən sahədə innovasiya və rəqəmsal inkişafın təşviqi, iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması, süni intellekt əsaslı məlumat idarəetməsinin təşkili, ixtisaslı kadr hazırlığı, bilik və bacarıqların genişləndirilməsi, dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi, məlumat təhlükəsizliyi və etik qaydalara əsaslanan idarəetmə mexanizmlərinin qurulması yer alır.

Bununla yanaşı, süni intellekt sahəsində akademik tədqiqatlara dəstək verilməsi və ali təhsil müəssisələrində yeni tədris proqramlarının tətbiq olunması da əsas prioritetlərdəndir. Konsepsiya çərçivəsində beynəlxalq əməkdaşlıqların inkişaf etdirilməsi də nəzərdə tutulur. Strategiyaya əsasən, süni intellekt sahəsində startap ekosisteminin inkişafı üçün investisiyaların artırılması, süni intellektin kommersiyalaşdırılmasını dəstəkləyən təşəbbüslərin həyata keçirilməsi, startap və sahibkarların dəstəklənməsi, yerli və xarici investorların bu sahəyə cəlb edilməsi planlaşdırılır. Kibertəhlükəsizliyin gücləndirilməsi istiqamətində tədbirlər həyata keçiriləcək. Yeni strategiyanın həyata keçirilməsi Azərbaycanı süni intellekt texnologiyalarının inkişafı sahəsində regionda liderlər sırasına daxil edəcək və ölkənin rəqəmsal inkişafına mühüm töhfə verəcəkdir [5].

Azərbaycan Respublikasının Prezidenti tərəfindən “2026-2029-cu illər üçün Rəqəmsal İqtisadiyyat Strategiyası” təsdiqlənmişdir. Strategiya ölkədə rəqəmsal transformasiyanı sürətləndirməyi, rəqabətqabiliyyətli və innovasiyaya əsaslanan iqtisadiyyat formalaşdırmağı hədəfləyir. Rəqəmsal bacarıqlara əsaslanan təhsil sistemi və karyera imkanları rəqəmsal iqtisadiyyatın inkişafını sürətləndirərək rəqabətqabiliyyətli kadr potensialının yaranmasını təmin edir. Bu strategiyada peşə təhsilindən doktoranturaya qədər bütün təhsil pillələrində rəqəmsal ixtisasların inkişaf etdi-




**Şəkil 4.** Azərbaycan Respublikasının Milli Kvalifikasiyalar Çərçivəsi

rilməsi, onların beynəlxalq sertifikatlarla uyğunlaşdırılması, xaricdə təhsil imkanlarının dəstəklənməsi, eləcə də bütün yaş qrupları üzrə rəqəmsal savadlılığın artırılması yeni nəsil, yüksək ixtisaslı kadr potensialının formalaşdırılmasına şərait yaradılması qeyd edilmişdir. Strategiyanın "Tədbirlər Planı"nda 2029-cu ilə qədər 250 yeni startap və 15 tədqiqat layihəsinin həyata keçirilməsi nəzərdə tutulmuşdur [4].

## Bilik iqtisadiyyatı

İnkişafın əsas amillərinin bilik və insan kapitalı olduğu iqtisadi modeldir. Bu tip iqtisadiyyatda inkişaf prosesi insan kapitalının keyfiyyətinin artırılmasını, qabaqcıl texnologiyaların, innovasiyaların və kompleks həllərin yaradılmasını əhatə edir. Müasir dövrdə bilik və yüksək texnologiyaların istehsalı iqtisadi artımın əsas mənbəyinə çevrilmişdir. XX əsrdə baş verən qlobal dəyişikliklər bilik əsaslı inkişafın sürətlənməsinə səbəb olmuşdur. İnkişaf etmiş ölkələrdə insan kapitalının yüksək payı mövcuddur və bu sahəyə davamlı investisiyalar qoyulur. Nəticədə texnoloji və intellektual irəliləyişlər əldə edilir, eyni zamanda əhalinin həyat keyfiyyəti yüksəlir. İnkişaf etmiş insan kapitalı yeni texnologiyaların yaradılmasında, sənaye sahələrinin modernləşdirilməsində, enerji istehsalının artırılmasında, elm, mədəniyyət, səhiyyə və sosial sektorların inkişafında əsas hərəkətverici qüvvə rolunu oynayır [17].

BMT-nin İnkişaf Proqramının məlumatına əsasən, ABŞ, Finlandiya, Almaniya, Yaponiya və İsveç kimi ölkələr tədqiqat və inkişafın (R&D) sürətli və effektiv tətbiqi üçün əlverişli mühit formalaşdırmışdır. Fundamental tədqiqatların dəstəklənməsi, insan kapitalına investisiyaların artırılması və yeni nəsil texnologiyaların inkişafı bu strategiyanın əsas istiqamətləridir. Bilik iqtisadiyyatının dördüncü əsas elementi innovasiya ekosistemidir. Bu ekosistemlər biliklərin yaradılması, inkişafı və kommersiyalaşdırılmasını təmin edərək davamlı iqtisadi artıma şərait yaradır. İnnovasiya ekosistemi tədqiqat institutları, ali təhsil müəssisələri, özəl sektor, dövlət qurumları və rəqəmsal infrastruktur arasında sinerji

**Cədvəl 1.** Ölkə/region üzrə bilik iqtisadiyyatının necə formalaşdığı, hansı strategiyaları seçdiyi, və bu strategiyaların nəticələri barədə nümunələr [8].

| Ölkə / Region | Strategiya / Təcrübə | Nəticə / Nə öyrənmək olar |
|---|---|---|
| Diaqnostik: inkişaf etmiş ölkələr (məs: ABŞ, Avropa ölkələri, Yaponiya, və s.) | Yüksək texnologiyalı xidmətlər, R&D, innovasiya, İKT-infrastruktur, universitet – sənaye əməkdaşlığı | Bu ölkələr bilik-intensiv sektorlar, yüksək əlavə dəyərli istehsal və xidmətlər, rəqabət üstünlüyü, yüksək həyat səviyyəsi qura bilirlər. |
| Hazırda inkişaf edən ölkələr (neft/əsas resurs ölkələri və s.) – lakin diversifikasiya üzərində duranlar | Resurs asılılığından çıxmaq üçün bilik/texnologiya, təhsil və insan kapitalı üzərində investisiya;<br>R&D, yeni sektorlara keçid | Resurslardan asılılığı azaltmaq, iqtisadiyyatın dayanıqlığını artırmaq, gələcək üçün daha sabit model yaratmaq mümkündür. |
| Texnoloji "sıçrayış" edən ölkələr (IT-outsourcing, startap mərkəzləri olanlar) | Rəqəmsal xidmətlərə, proqram təminatına, startap ekosisteminə yatırım, insan resurslarının inkişafı | Nisbətən az təbii resurs olsa da – bilik və istedad üzərində qurulmuş iqtisadiyyat yaratmaq mümkün olur. |

**Cədvəl 2.** Bilik iqtisadiyyatı göstəriciləri və reytinqləri [13].

| Ölkə | R&D xərcləri (GDP-ə nisbət / son illər) / innovasiya göstəricisi / bilik-intensiv xidmətlər və insan kapitalı | Bilik-iqtisadiyyat reytinqi / güclü tərəfləri / strukturu |
|---|---|---|
| **Finlandiya** | Finlandiya uzun illərdir ki, R&D-yə yüksək pay ayırır; bu da innovasiya, texnologiya və bilik intensiv sektorlarda güclü mövqeyə gətirib. | Finlandiya bilik iqtisadiyyatını dərin şəkildə formalaşdırıb — yüksək insan kapitalı, texnologiya, R&D, inklüziv təhsil və sosial sistem sayəsində. |
| **Almaniya (və daha geniş Avropa ölkələri qrupu)** | Avropa ölkələrində xidmət sektoru, yüksək texnologiyalı sənaye və R&D-də güclü iştirak var — bu, bilik iqtisadiyyatının əsas komponentlərindəndir. | Almaniya bilik-intensiv istehsal + xidmət + innovasiya kombinasiyası ilə “ənənəvi sənaye ölkəsi” modelindən “bilik + texnologiya əsaslı model”ə keçiddə nümunədir. |
| **Sinqapur** | Rəqəmsal infrastruktur, təhsil, insan kapitalı və beynəlxalq ticarət + xidmətlər bazarı sayəsində — bilik/sərvət transformasiyasında sürətli dəyişiklik yaşayıb. | Sinqapur “resurs az, bilik çox” modeli ilə bilik iqtisadiyyatına keçid göstəricisi təqdim edir; xidmətlər, logistika, high-tech sahələrdə aktivdir. |
| **Cənubi Koreya** | Cənubi Koreya R&D-yə böyük sərmayələr qoyur; innovasiya, texnologiya, ali təhsil və insan kapitalı baxımından qabaqcıl ölkələrdəndir. | Bu ölkə bilik-əsaslı iqtisadi modelə uğurla keçmiş ölkələrdən sayılır — yüksək texnologiya, elm və təhsil sistemləri sayəsində. |

formalaşdırır. Texnologiya transferi mexanizmləri innovasiya ekosisteminin mühüm hissəsidir. Bu mexanizmlər elmi nəticələrin biznes subyektləri tərəfindən tətbiqini və bazar tələblərinə uyğun məhsul və xidmətlərə çevrilməsini təmin edir. Startap inkubasiya və akselerasiya proqramları isə gənc sahibkarların innovativ ideyalarını reallaşdırmağa dəstək olur, yeni iş yerləri yaradır və iqtisadi aktivliyi artırır. Güclü innovasiya ekosistemi və inkişaf etmiş insan kapitalı bilik iqtisadiyyatının davamlı inkişafının əsas təminatıdır. Bilik iqtisadiyyatının ölçülməsi üçün beynəlxalq təşkilatlar müxtəlif indeks və göstəricilərdən istifadə edirlər. Bu qiymətləndirmələr statistik məlumatlara əsaslanır və ölkələrin spesifik inkişaf səviyyəsini müqayisəli şəkildə analiz etməyə imkan verir. Aşağıda ölkələrin və regionların bilik iqtisadiyyatı üzrə seçdikləri strategiyalar və əldə etdikləri nəticələr təqdim olunur.

Finlandiya və Almaniya köhnə sənaye gücləri olsalar da bilik və innovasiya əsaslı modelə uğurlu keçid etmişlər. Sinqapur və Cənubi Koreya resurs məhdudiyyəti olmasına baxmayaraq strateji planlaşdırma, təhsil, innovasiya, tədqiqat işləri və xidmət sektoru ilə bilik iqtisadiyyatına yaxşı inteqrasiya olunmuşlar. Bu nümunələr göstərir ki, təbii resurslara malik olmaq vacib deyil, düzgün idarəçilik, strategiya, insan kapitalı, təhsil və innovasiya daha vacibdir [15].

Hər hansı bir prosesin, o cümlədən inklüziv inkişafın idarə edilməsində uğurların qazanılması ilk növbədə düzgün planlaşdırmaya və daim yenilənən idarəetmə texnologiyalarına əsaslanır. Düzgün seçilmiş idarəetmə texnologiyaları, planlaşdırılmış fəaliyyətin optimal maddi təminatı,insan potensialının səfərbər edilməsi inklüziv inkişaf sahəsində qoyulan məqsədlərə uğurla nail olunmasına zəmanət verir [1, s.116, 124].

## Nəticə

Bugünkü dövrdə insanlar hər zaman öz üzərində çalışmalı, yeni bilik və bacarıqları öyrənməlidirlər. Əgər mütəxəssis ömürboyu təhsil konsepsiyasından xəbərdar deyilsə əlbəttə ki, onun geridə qalması əmək bazarının

rəqabət qabiliyyətinə uyğunlaşa bilməməsi qaçınılmazdır.

Bu gün bilik iqtisadiyyatı anlayışı geniş yayılmışdır. Bu baxımdan insan kapitalının inkişafı çox aktualdır. Çünki yüksək bilik və bacarıqlara sahib insanlar ölkəmizi beynəlxalq səviyyədə tanıdırlar, həmçinin dövlət qulluğu sistemi üçün həmin şəxslər önəmli əhəmiyyət daşıyır. Müasir dövrün tələbidir ki, biz rəqəmsal bacarıqlara sahib olaq, yeni texnologiyalardan fəal şəkildə istifadə edək. Çünki inkişaf daima davam edir, dünyada baş verən yenilikləri vaxtında öyrənib öz təcrübəmizdə tətbiq etməliyik. Xüsusilə təhsil sahəsində peşəkar kadr və karyeraya sahib olmaq üçün bütün bunlar əhəmiyyətlidir.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına müxtəlif orqanlarda çalışan şəxslər əlavə ali təhsil almaq üçün müraciət edirlər. Akademiyanın fərqi ondadır ki, müraciət edən insanların dövlət qulluqçusu və ya özəl sektorda müəyyən bilik və təcrübələr əldə etmiş şəxslər olmasına baxmayaraq müasir dövrün tələbi olduğu üçün onlar yeni bilik və bacarıqlara sahib olmaq istəyirlər. Çünki onlar Cənab Prezident İlham Əliyevin strategiyasına uyğun olaraq ölkənin və cəmiyyətin sosial, siyasi, iqtisadi və s. sahələrində inkişafa töhfə verə biləcək şəxslərdir. Bütün bunlar böyüklərin öyrənmə nəzəriyyələrənin əhəmiyyətli olduğunu bir daha sübut edir. Prezidentin Sərəncamı ilə yeni strategiya imzalanıb və artıq tətbiq olunur. Bu zamanın tələbidir.

Onlayn təhsil platformaları müasir təhsil sisteminin mühüm komponentlərindən birinə çevrilmişdir. Bu platformalar ənənəvi təhsil modellərini tam əvəz etməsə də, onları tamamlayaraq biliklərin əlçatanlığını artırır və tədris prosesinin səmərəliliyinin yüksəldilməsinə şərait yaradır. Rəqəmsal texnologiyaların sürətli inkişafı fonunda onlayn təhsilin təhsil ekosistemində rolu getdikcə güclənməkdədir.

XXI əsrdə informasiya və kommunikasiya texnologiyalarının intensiv inkişafı biliklərin idarə olunmasını təşkilatlar üçün strateji prioritetə çevirmişdir. Biliklərin sistemli şəkildə toplanması, saxlanılması və tətbiqi rəqabət üstünlüyünün formalaşdırılmasında əsas determinantlardan biri kimi çıxış edir. Bu kontekstdə, müvafiq bilik və bacarıqlara malik insan kapitalı peşəkar inkişaf və karyera yüksəlişi baxımından mühüm imkanlar əldə edir.

Əmək bazarının transformasiyası işləmək üçün tələb olunan bacarıqların strukturunda əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur. Bu dəyişikliklərə uyğun olaraq, praktik bacarıqların inkişafına yönəlmiş təhsil və təlim proqramlarına tələbat artmaqdadır. Xüsusilə problem həll etmə, tənqidi düşünmə, analitik düşünmə və adaptasiya bacarıqları müasir əmək bazarında rəqabətqabiliyyətliliyin əsas göstəriciləri hesab olunur.

Beləliklə, təhsil sisteminin gələcək bacarıqlara uyğunlaşdırılması, tətbiqi tədqiqatların təşviqi və innovativ tədris təcrübələrini mükafatlandıran effektiv siyasət mexanizmlərinin formalaşdırılması dayanıqlı sosial-iqtisadi inkişaf baxımından zəruri hesab edilir.

**Ədəbiyyat:**


1. Ələkbərov, U.K. İnklüziv inkişafın idarə edilməsinin əsasları. Bakı "Təhsil", 2018, - 216 s.
2. 4SİM (Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi). Milli Proqram. https://4sim.gov.az/az
3. Azərbaycan Respublikası Nazirlər Kabineti. "Azərbaycan Respublikasının ömürboyu təhsili üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nin təsdiq edilməsi haqqında Qərar. https://e-qanun.az/framework/39622
4. Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026-2029-cu illər üçün Strategiya. https://president.az/az/articles/view/70750 [10.12.2025]
5. Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası.

https://president.az/az/articles/view/68365 [19.03.2025]
6. Cambridge Journals. https://edu.gov.az/az/news-and-updates/22469-1
7. Cedefop. National qualifications frameworks (NQFs). https://www.cedefop.europa.eu/en/projects/national-qualifications-framework-nqf
8. Collection of Lifelong Learning Policies and Strategies. UNESCO Institute for Lifelong Learning. https://www.uil.unesco.org/en/collection-lifelong-learning-policies-and-strategies?utm_source
9. Forbes. Online Learning Statistics. https://www.forbes.com/advisor/education/career-resources/online-learning-stats/?utm_source
10. Global Goals. Quality Education. https://globalgoals.org/goals/4-quality-education/ [02.05.2020]
11. OECD. Education at a Glance 2025: OECD Indicators. https://www.oecd.org/en/publications/education-at-a-glance-2025_1c0d9c79-en/full-report/to-what-extent-do-adults-participate-in-education-and-training_85e1ebf6.html?utm_source
12. OECD. Trends in Adult Learning. https://www.oecd.org/content/dam/oecd/en/publications/reports/2025/06/trends-in-adult-learning_f0d8514f/ec0624a6-en.pdf [04.07.2025]
13. OECD – Əsas Elm və Texnologiya Göstəriciləri (MSTI): OECD üzvləri və tərəfdaşları üçün tədqiqat və inkişaf intensivliyinin əsas məqamları və ölkələrarası müqayisə qeydləri. https://www.oecd.org/en/data/datasets/main-science-and-technology-indicators.html
14. RaccoonGang. Five Principles of Andragogy. https://raccoongang.com/blog/andragogy-and-pedagogy-a-comprehensive-guide/ [22.07.2025]
15. ScienceDirect. Knowledge Economy. https://www.sciencedirect.com/topics/computer-science/knowledge-economy
16. UNESCO Institute for Lifelong Learning (UIL). Global report on adult learning and education (GRALE). https://www.uil.unesco.org/en/adult-education/global-report-grale
17. Иванов, С.В. Теоретические основы формирования экономики знаний. Социально-экономические явления и процессы, 2011.

***Açar sözlər:*** *bilik iqtisadiyyatı, ömürboyu təhsil, süni intellekt, strategiya, andraqogika, rəqəmsal iqtisadiyyat, Milli Kvalifikasiyalar Çərçivə Sənədi*

**Leyla Sultanova**

*Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Head of the Department of Monitoring the Quality of Education and Work with Graduates, Department of State Regulation of the Economy, Ph.D. in Economics, Associate Professor*

**Gulputa Shirinova**

*Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Specialist of the Department of Monitoring of the Quality of Education and Work with Graduate*s

# DIGITAL DEVELOPMENT STRATEGIES OF AZERBAIJAN IN THE CONTEXT OF ANDRAGOGY APPROACH, LIFELONG LEARNING AND KNOWLEDGE ECONOMY

## ABSTRACT

This article provides a systematic analysis of Azerbaijan's digital development strategies in the context of the andragogical approach, lifelong learning, and the knowledge economy. The main objective of the study is to examine the role of adult learning and lifelong education in responding to rapid technological change and evolving labor market demands, as well as their contribution to the formation of a knowledge-based economy. The article explores the core principles of andragogy, the specific characteristics of adult learners, and the possibilities for integrating digital learning tools into modern education systems from both theoretical and practical perspectives.

The research employs analytical and comparative methods, along with an examination of national policy documents and international reports issued by organizations such as OECD and UNESCO. Particular attention is paid to Azerbaijan's Artificial Intelligence Strategy, the Digital Economy Development Strategy for 2026–2029, and the National Qualifications Framework as key instruments for enhancing human capital and digital competencies.

The findings indicate that flexible, learner-centered educational models based on andragogical principles and supported by digital technologies play a crucial role in strengthening human capital, fostering lifelong learning, and accelerating the transition to a knowledge economy. The results of the study can be applied in education policy development, the design of higher and continuing education programs, and capacity-building initiatives within the public sector.

***Keywords:*** *knowledge economy, lifelong learning, artificial intelligence, strategy, andragogy, digital economy, National Qualifications Framework*

**Лейла Султанова**

*Заведующая отделом Мониторинга качества обучения и работы с выпускниками Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доцент кафедры Государственного регулирования экономики, доктор философии по экономике*

**Гюльпута Ширинова**

*Специалист отдела Мониторинга качества обучения и работы с выпускниками Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

# СТРАТЕГИИ ЦИФРОВОГО РАЗВИТИЯ АЗЕРБАЙДЖАНА В КОНТЕКСТЕ АНДРАГОГИЧЕСКОГО ПОДХОДА, НЕПРЕРЫВНОГО ОБУЧЕНИЯ И ЭКОНОМИКИ ЗНАНИЙ

## РЕЗЮМЕ

В статье представлен системный анализ стратегий цифрового развития Азербайджана в контексте андрагогического подхода, непрерывного образования и экономики знаний. Целью исследования является выявление роли обучения взрослых и концепции обучения на протяжении всей жизни в условиях стремительных технологических изменений и трансформации рынка труда, а также их вклада в формирование экономики знаний. В работе рассмотрены основные принципы андрагогики, особенности обучения взрослых и возможности применения цифровых образовательных инструментов в современной образовательной среде с теоретической и практической точек зрения.

В ходе исследования использованы методы аналитического и сравнительного анализа, а также изучены национальные нормативно-правовые документы и международные отчеты организаций OECD и UNESCO. Особое внимание уделено Стратегии искусственного интеллекта Азербайджана, Стратегии развития цифровой экономики на 2026-2029 годы и Национальной рамке квалификаций как ключевым механизмам развития человеческого капитала и цифровых компетенций. Результаты исследования показывают, что гибкие образовательные модели, основанные на принципах андрагогики и поддерживаемые цифровыми технологиями, играют важную роль в развитии человеческого капитала, продвижении непрерывного обучения и формировании конкурентоспособной экономики знаний. Полученные выводы могут быть использованы при формировании образовательной политики, разработке программ высшего и дополнительного образования, а также в системе подготовки и развития кадров государственной службы.

***Ключевые слова:*** *экономика знаний, непрерывное обучение, искусственный интеллект, стратегия, андрагогия, цифровая экономика, национальная система квалификаций*

DOI:https://doi.org/10.30546/2309-1347.92.2025.375

# GƏNC TƏDQİQATÇILAR
# YOUNG RESEARCHERS

## DAVAMLI İNKİŞAF SİYASƏTİ
## SUSTAINABLE DEVELOPMENT POLICY

UOT 328; 342.5; 351/354

**RAUL VƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının
Davamlı inkişaf kafedrasının doktorantı**

*e-mail:raulvaeliyev@gmail.com*

# DAVAMLI İNKİŞAFIN TƏMİN OLUNMASINDA BƏRPA OLUNAN ENERJİ MƏNBƏLƏRİNİN ROLU

Davamlı inkişaf anlayışı tarix boyu insan və təbiət münasibətlərindəki tarazlıq axtarışının və bu münasibətlərin gələcək nəsillərin ehtiyacları kontekstində yenidən düşünülməsinin məhsuludur. Sənaye inqilabından bəri güclənən istehlakçılıq və təbiətə təsirlər davamlılığa yönəlmiş qlobal çağırışları zəruri etmişdir. Davamlı inkişaf təkcə ekoloji davamlılığı deyil, eyni zamanda sosial rifah, iqtisadi bərabərlik, mədəni dəyərlər və məkan yönümlü siyasətləri də əhatə edən çoxölçülü və kompleks bir yanaşmadır. Bu baxımdan, elmi ədəbiyyatda Lemke, Jabareen, Kaptyuq və s. tərəfindən təklif olunan konseptual çərçivələr bu mürəkkəbliyin izahı üçün nəzəri əsasları formalaşdırır. Müxtəlif müəlliflərin, o cümlədən rus və azərbaycanlı tədqiqatçıların yanaşmaları göstərir ki, davamlı inkişafın həyata keçirilməsi yalnız normativ prinsiplərlə deyil, həm də real siyasət, sosial təcrübə və mədəni dəyişikliklərlə sıx bağlıdır. Bu səbəbdən davamlı inkişaf qlobal olduğu qədər lokal kontekstdə də planlı şəkildə yönəldilməli, insan mərkəzli strategiyalarla müşayiət olunmalıdır.

Davamlı inkişaf konsepsiyası iqtisadi, sosial və ekoloji sferaların tarazlığını təmin etməklə gələcək nəsillərin rifahını qorumağa yönəlmişdir və bu çərçivədə enerji sektoru xüsusi əhəmiyyət daşıyır. Çünki ənənəvi fosil yanacaqlara əsaslanan enerji istehsalı iqlim dəyişikliyi, hava çirklənməsi və resursların tükənməsi kimi ciddi təhlükələr yaradır. Bərpa olunan enerji mənbələri bu problemlərin həlli üçün strateji alternativdir; onlar həm ekoloji davamlılığı təmin edir, həm də enerji təhlükəsizliyi, iqtisadi şaxələnmə və sosial rifah baxımından mühüm imkanlar yaradır. Başqa sözlə, bərpa olunan enerjinin inkişafı təkcə iqlim dəyişikliyi ilə mübarizədə deyil, həm də davamlı inkişaf məqsədlərinin həyata keçirilməsində aparıcı rol oynayır.

Bərpa olunan enerji təbiətin özünü davamlı olaraq yeniləyə bilən mənbələrindən əldə edilən enerji növünü ifadə edir. Günəş, külək, hidroelektrik, biokütlə və geotermal kimi mənbələrdən hasil edilən bu enerji forması, fosil yanacaqlardan asılılığı azaltmaq və ekoloji davamlılığı təmin etmək məqsədilə getdikcə daha çox əhəmiyyət kəsb edir. Yenilənə bilən bu enerji karbon emissiyalarını minimuma endirərək iqlim dəyişikliyi ilə mübarizədə kritik rol oynayır və uzunmüddətli perspektivdə

enerji təchizatını təhlükəsiz etmək hədəfini daşıyır [8]. Bu enerji günəş şüaları, külək, yağış, qabarma-çəkilmə, dalğalar və yeraltı istilik kimi insan zaman miqyasında təbii şəkildə yenilənən resurslardan əldə olunur. Bu anlayış tez-tez karbon neytrallığı mübahisə mövzusu olan biokütləni də əhatə edir. Fosil yanacaqlardan fərqli olaraq, bu resurslar daha sürətli bərpa olunur və adətən elektrik istehsalı, hava və suyun qızdırılması və soyudulması, nəqliyyat, həmçinin kənd yerlərində (şəbəkədən kənar) enerji xidmətləri kimi dörd əsas sahədə istifadə olunur [11].

Bərpa olunan enerji mənbələrinin ən böyük üstünlüyü onların ətraf mühitə dost olması və karbon emissiyalarını əhəmiyyətli dərəcədə azaltmasıdır. Bu enerji növləri tükənmə riski daşımadığından uzunmüddətli dövrdə davamlı enerji təminatı yaradır və fosil yanacaqların məhdud ehtiyatlarından asılılığı azaldır. Bundan əlavə, yenilənə bilən enerji layihələri yerli iqtisadiyyata töhfə verir, enerji idxalını azaltmaqla enerji təhlükəsizliyini gücləndirir. Texnoloji inkişaf fonunda istehsal xərclərinin azalması isə bu mənbələrin daha geniş miqyasda tətbiqini mümkün etmişdir. Beləliklə, yenilənə bilən enerji həm ekoloji, həm iqtisadi, həm də sosial baxımdan müasir inkişafın mühüm dayaqlarından biri hesab olunur [8].

Dünya üzrə ən azı 47 ölkə elektrik tələbatının yarıdan çoxunu bərpa oluna bilən mənbələrdən qarşılayır. Fosil yanacaqlardan fərqli olaraq, bərpa oluna bilən enerji mənbələri coğrafi baxımdan daha geniş şəkildə mövcuddur. Bərpa oluna bilən enerji və enerji səmərəliliyi texnologiyalarının sürətlə yayılması enerji təhlükəsizliyinin artırılması, iqlim dəyişikliyinin yumşaldılması və iqtisadi faydaların təmin olunması baxımından mühüm nəticələr doğurur. Beynəlxalq ictimai rəy sorğuları isə günəş və külək enerjisi kimi yenilənə bilən mənbələrin təşviqinə dair güclü dəstəyin olduğunu göstərir [6, s.30].

Dünyada bərpa olunan enerji növlərinin hər birinin davamlı inkişafda öz rolu vardır. Məsələn, hidroelektrik enerji dünyada ən geniş istifadə olunan yenilənə bilən enerji mənbələrindən biridir və qlobal elektrik istehsalının mühüm bir hissəsini təmin edir. Bəndlər və çaylar üzərində qurulan turbinlər vasitəsilə əldə olunan bu enerji suyun potensial enerjisinin kinetik enerjiyə çevrilməsi nəticəsində istehsal olunur. Xüsusilə su ehtiyatları baxımından zəngin olan ölkələrdə hidroenerji iri miqyaslı layihələrlə enerji təchizatını təmin edir və fosil yanacaqlardan asılılığı azaldır. Dünyanın ən böyük hidroelektrik qurğuları sırasında Çindəki Üç Boğaz Bəndi və Braziliya-Paraqvay sərhədində yerləşən Itaipu Bəndi kimi layihələr var. Bu enerji növü aşağı istismar xərcləri və uzunömürlü qurğuları sayəsində dayanıqlı enerji mənbəyi kimi önə çıxır, eyni zamanda enerji təhlükəsizliyinə və iqlim dəyişikliyi ilə mübarizəyə əhəmiyyətli töhfə verir. Lakin hidroenerji layihələrinin ekoloji və sosial təsirləri ekosistemlərdə zərərə və yerli əhalinin köçürülməsinə səbəb ola bildiyindən diqqətlə idarə olunmalı olan bir enerji mənbəyidir [30].

Hidroenerji dəyişən enerji tələblərinə sürətlə uyğunlaşa bilən elastik elektrik mənbəyidir. Hidroturbinlərin işə düşmə müddəti bir neçə dəqiqədir və bir qurğunun tam gücə çatması təxminən 60-90 saniyə çəkir ki, bu da qaz turbinləri və ya buxar stansiyalarından xeyli qısadır. Hidroelektrik stansiyalarının uzun iqtisadi ömrü olur və bəziləri 50-100 ildən sonra belə fəaliyyətini davam etdirə bilir. Onların avtomatlaşdırılmış idarə olunması və normal iş rejimində az sayda işçi tələb etməsi səbəbindən istismar xərcləri adətən aşağı olur. Bəzi hallarda, bir bənd bir neçə məqsəd üçün istifadə olunduqda nisbətən aşağı xərc qarşılığında hidroelektrik stansiya əlavə etmək mümkündür ki, bu da bəndin istismar xərclərini balanslaşdırmaq üçün faydalı gəlir mənbəyi yarada bilər. Məsələn, Üç Boğaz Bəndindən əldə edilən elektrik satışlarının tikinti xərclərini 5–8 il ərzində qarşılaya biləcəyi hesablanmışdır. Lakin bəzi məlumatlara görə, uyğun risk

idarəetmə tədbirləri görülməzsə, bir çox ölkədə iri hidroenerji bəndlərinin yüksək xərcli ola biləcəyi və müsbət gəlir gətirməsinin uzun müddət alacağı görünür [12].

Bərpa olunan enerji növlərindən olan geotermal enerji isə yer daxilindəki istilik enerjisinin istehsalı və toplanmasıdır. İstilik enerjisi maddənin temperaturunu müəyyən edən enerji formasıdır. Yer qabığındakı geotermal enerji planetin formalaşması və materialların radioaktiv parçalanması nəticəsində yaranır. Dünyanın daxili istiliyi həm planetin yaranması zamanı, həm də radioaktiv parçalanma nəticəsində əmələ gələn istiliklə yanaşı davamlı istilik itkisi hesabına formalaşır. Torpaq səthi ilə nüvənin sərhədində temperatur 4000°C-dən yuxarı ola bilər. Bu yüksək istilik və təzyiq bəzi süxurların əriməsinə və bərk mantonun plastik hal almasına səbəb olur ki, bu da bəzi manton hissələrinin ətraf süxurlardan daha yüngül hala gələrək səthə doğru qalxmasına gətirib çıxarır. Qaya və su bəzən qabıqda 370°C-yə qədər isinmiş ola bilir[10]. Bu baxımdan, geotermal enerji yeraltındakı isti su və buxarın birbaşa istifadəsinə əsaslanan, münasib xərcli və etibarlı bir enerji mənbəyidir. Bu enerji növü daim yerin dərinliklərindən gələn istilikdən istifadə edərək enerji istehsal etdiyi üçün yenilənə bilən və fasiləsiz güc mənbəyi hesab olunur. Geotermal stansiyalar yüksək səmərəliliklə işləyə bilir və fosil yanacaqlarla müqayisədə onların istismar xərcləri xeyli aşağıdır. Bundan əlavə, geotermal enerji istehsalı hava şəraitindən asılı olmadan il boyu davamlı şəkildə enerji təmin etdiyi üçün etibarlı enerji mənbəyi kimi seçilir. İlkin investisiya xərcləri digər bərpa olunan enerji növləri ilə müqayisədə rəqabətqabiliyyətli olan geotermal enerji uzunmüddətli iqtisadi üstünlüklər təqdim edir və enerji qiymətlərindəki dalğalanmalara qarşı daha sabit seçim kimi ön plana çıxır [16].

Külək enerjisi isə öz növbəsində külək turbinləri vasitəsilə mexaniki güc əldə edərək elektrik generatorlarını işə salmaqla elektrik enerjisinin istehsalı prosesidir. Külək enerjisi ətraf mühitə təsir baxımından fosil yanacaqlarla müqayisədə çox daha az zərərli olan davamlı və yenilənə bilən enerji mənbəyidir. Külək enerjisi sahələri elektrik ötürmə şəbəkəsinə bağlı bir sıra külək turbinlərindən ibarətdir. Quru külək enerjisi adətən kömür və ya qazla işləyən elektrik stansiyalarına nisbətən daha ucuz enerji mənbəyidir, lakin gərək daha geniş ərazilərə yayılma və sıx yaşayış məntəqələrindən uzaqda inşa edilsin. Dənizdə qurulan külək sistemləri isə qurudakı küləyə nisbətən daha sabit və güclü olsa da, onların tikinti və istismar xərcləri daha yüksəkdir. Kiçik miqyaslı quru külək enerjisi sahələri elektrik şəbəkəsinə müəyyən miqdarda enerji verə bilər və ya şəbəkədən kənarda yerləşən məntəqələrə izolyasiya olunmuş enerji təmin edə bilər [22, s.11].

Külək enerjisi təbiəti etibarilə dəyişkən və proqnozlaşdırılması çətin olduğu üçün enerji təchizatında dalğalanmalara səbəb ola bilər. Buna görə də külək enerjisinin inteqrasiyası güc idarəetmə texnikaları ilə dəstəklənməlidir. Şəbəkə saxlama sistemləri artıq istehsal olunan enerjini saxlayaraq küləyin zəif olduğu dövrlərdə bu enerjini yenidən şəbəkəyə qaytara bilər və bununla da təklif-tələb balansını qoruyar. Bundan başqa, tələb azaldılması və məhdudlaşdırma strategiyaları da tətbiq edilə bilər; bu strategiyalar enerji istehlakını pik dövrlərdə nəzarət altına alaraq şəbəkə üzərindəki təzyiqi azaldır. Bu üsullar külək enerjisinin etibarlılığını artırır və yenilənə bilən enerji mənbələrinin enerji sisteminə inteqrasiyasını daha davamlı edir [13, s.660].

Bərpa olunan enerji mənbələri arasında günəş enerjisi də öz növbəsində daim inkişaf edən texnologiyalar vasitəsilə işıq və istilikdən istifadə edən bir enerji mənbəyidir və bu, isitmə, fotovoltaik sistemlər, günəş istilik enerjisi, günəş memarlığı, əridilmiş duz stansiyaları və süni fotosintez kimi müxtəlif texnologiyalara əsaslanır. Bu texnologiyalar günəş enerjisinin passiv və ya aktiv üsullar kimi təsnif edilmə-

sindən asılı olaraq günəşdən əldə olunan enerjidən istifadə formalarına görə fərqlənir. Aktiv günəş üsullarına fotovoltaik sistemlər, konsentrasiyalı günəş enerjisi və günəş enerjili su qızdırıcıları daxildir. Passiv günəş üsulları isə binanı günəşə yönləndirmək, uyğun istilik kütləsi seçmək və təbii havalandırma dizaynını nəzərdə tutur [21]. Beynəlxalq Enerji Agentliyi qeyd edir ki, günəş enerjisi hazırda dünya ilə üz-üzə qalan ən kritik problemlərin həllində mühüm rol oynaya bilər. Münasib qiymətli, məhdudiyyətsiz və təmiz günəş texnologiyalarının inkişafı uzunmüddətli perspektivdə böyük faydalar gətirəcəkdir. Yerli, tükənməz və idxaldan çox da asılı olmayan enerji mənbəyinə etibar etmək ölkələrin enerji təhlükəsizliyini artırmaqla yanaşı davamlılığını da möhkəmləndirəcək, çirklənməni azaldacaq və iqlim dəyişikliyi ilə mübarizə xərclərini aşağı salacaqdır. Bundan başqa, günəş enerjisi fosil yanacaqlarla müqayisədə daha aşağı xərcli enerji təmin edərək onları geridə qoyacaq [9]. 2011-ci ildə Beynəlxalq Enerji Agentliyi tərəfindən hazırlanan bir hesabatda isə qeyd olunurdu ki, fotovoltaik, istilik günəş enerjisi və konsentrasiyalı günəş enerjisi kimi günəş texnologiyaları hökumətləri iqlim dəyişikliyi ilə bağlı siyasətlərini yenidən nəzərdən keçirməyə və bərpa olunan enerjiyə keçid öhdəliyi götürməyə təşviq edə bilər. Bu halda, 2060-cı ilə qədər dünya enerjisinin üçdə birini təmin edə biləcəkləri proqnozlaşdırılır. Günəş enerjisinin istifadəsi qlobal iqtisadiyyatın karbonsuzlaşdırılmasında, enerji səmərəliliyinin artırılmasında və istixana qazı emissiyalarının azaldılmasında mühüm rol oynaya bilər [29, s.897].

Gördüyümüz kimi, bərpa olunan enerji növləri davamlı inkişafın ayrılmaz tərkib hissəsidir və onların hər biri özünəməxsus üstünlükləri ilə seçilir. Hidroelektrik enerji ən geniş istifadə olunan mənbə kimi iri miqyaslı layihələr vasitəsilə enerji təhlükəsizliyini təmin edir və fosil yanacaqlardan asılılığı azaldır, lakin ekosistemlərdə pozuntular və sosial təsirlər səbəbindən diqqətli idarə olunmalıdır. Geotermal enerji fasiləsiz və etibarlı enerji təmin etməsi, yüksək səmərəliliyi və uzunmüddətli iqtisadi sabitliyi ilə önə çıxır, ancaq yalnız geoloji baxımdan əlverişli ərazilərdə tətbiq oluna bilər. Külək enerjisi aşağı karbon emissiyaları və texnoloji inkişaflar nəticəsində geniş tətbiq imkanları qazansa da, dəyişkənliyi və landşaft üzərində təsirləri ilə bağlı problemlər mövcuddur. Günəş enerjisi isə texnologiyaların sürətli inkişafı ilə getdikcə daha əlçatan və sərfəli olmaqla, enerji təhlükəsizliyini gücləndirir, idxaldan asılılığı azaldır və istixana qazı emissiyalarını minimuma endirir. Beləliklə, hər bir bərpa olunan enerji növü davamlı inkişafın ekoloji, iqtisadi və sosial aspektlərinə mühüm töhfə verir və birlikdə balanslı enerji strategiyasının qurulmasında həlledici rol oynayır.

Bərpa olunan enerji ətraf mühit üçün mühüm üstünlüklər gətirir. Belə enerji mənbələri istixana qazı və digər çirkləndiricilərin emissiyalarını ciddi şəkildə azaldır; çünki günəş və külək enerjisi istifadə olunduqda yanacaq yanmır və demək olar ki, tullantı əmələ gəlmir[26]. Bu da iqlim dəyişikliyinin yavaşlamasına kömək edir. BMT də vurğulayır ki, "bərpa olunan enerji həlləri hər gün daha ucuz, etibarlı və səmərəli olur" və fosil yanacaqlara etibarın davamlı olmadığını, enerji istehsalını mümkün qədər tez təmiz texnologiyalara keçirməyin iqlim qarşısında əsas tələb olduğunu qeyd edir. Məsələn, "2050 hədəfləri" çərçivəsində qəbul edilən enerji planlarında karbon emissiyalarını azaltmaq üçün bərpa olunan enerji əsas vasitə hesab edilir [28].

İqtisadi cəhətdən bərpa olunan enerjinin bir sıra üstünlükləri var. Əvvəla, bu sahə yeni iş yerləri yaradır və yerli iqtisadiyyatları gücləndirir. Ümumdünya Bərpa Olunan Enerji Agentliyinin (IRENA) məlumatına görə, 2021-ci ildə dünya üzrə bərpa olunan enerji sektorunda artıq 12.7 milyon işçi çalışırdı. Bunun böyük hissəsi günəş fotovoltaika (4.3 milyon işçi) və hidrosistemlərlə (2.4 milyon)

bağlıdır; külək enerjisi sahəsində isə təxminən 1.3 milyon işçi cəlb olunub [15]. Beləliklə, yenilənə bilən enerjinin genişlənməsi artıq iqtisadi artımın mühüm mənbəyinə çevrilib. Bundan başqa, texnologiya inkişaf etdikcə enerji istehsalının xərc-strukturunda dəyişiklik gedir. Məsələn, günəş panellərinin qiyməti son 10 ildə kəskin ucuzlaşaraq bu enerjini çox zaman ən sərfəli elektrik mənbəyinə çevirib [26]. Bu cür qənaətkar istehsal iqtisadi baxımdan enerji qiymətlərində uzunmüddətli sabitlik və aşağı uçot qiymətləri deməkdir. Nəhayət, bərpa olunan enerji resurslarına keçid enerji idxalından asılılığı azaldır və ölkələrin öz yerli mənbələrini inkişafa cəlb etməklə enerji təhlükəsizliyini artırır. Məsələn, Azərbaycanda enerjiyə görə xaricə ödəmələri azaltmaq üçün elektrik stansiyalarında xərclənən qazın yerinə bərpa olunan enerji tətbiq olunur və artıq istifadədən qənaət olunan qaz Avropaya ixrac edilə bilir [14].

Bərpa olunan enerji qlobal gündəmin mərkəzindədir. BMT-nin 7-ci Məqsədi "hamı üçün sərfəli, etibarlı, davamlı və müasir enerji təmin etmək"dir. Bu Məqsəd çərçivəsində 2030-cu ilədək bərpa olunan enerjinin enerji qarışığındakı payının xeyli artırılması, eyni zamanda enerjiyə çıxışın universal şəkildə təmin edilməsi nəzərdə tutulur. Paris İqlim Sazişi isə dövlətləri qlobal istiləşməni 1.5°C-dən yuxarı qaldırmamağa çağırır ki, bunun da reallaşması üçün elektrik enerjisinin böyük hissəsi təmiz mənbələrdən təmin olunmalıdır. 2023-cü ilin sonunda keçirilən COP28 zirvəsində ölkələr dünyada qurulu gücün həcmini 2030-cu ilədək üç dəfə artırmaq üçün əməkdaşlıq edəcəklərini elan etdilər [27].

Bütün bunlar hökumətlərin bərpa olunan enerji sahəsində nikbin olmasının göstəricisidir. Beynəlxalq Enerji Agentliyinin təhlili göstərir ki, 2024–2030-cu illərdə dünyada 5.5 teravatlıq (5500 GW) yeni bərpa olunan enerji gücü quraşdırılacaq ki, bu da təxminən 2017-2023-cü illərdəki quraşdırılmış gücdən üç dəfə çoxdur [24]. Hazırkı proqnozlara görə, bu artım nəticəsində 2030-cu ildə bərpa olunan enerjinin qlobal elektrik istehsalındakı payı təxminən 50%-i təşkil edəcək (yəni yarıdan çoxunu təmin edəcək).

Aşağıda son illərdə bərpa olunan enerji növlərindən istifadənin qlobal müqayisəsi verilmişdir.

Qeyd üçün deyək ki, cədvəldə verilən "qlobal güc" bütün dünyada həmin enerji növü üzrə indiyə qədər quraşdırılmış və işlək vəziyyətdə olan stansiyaların ümumi gücünü göstərir. "2024-cü ildə əlavə olunan güc" isə yalnız həmin il ərzində tikilib şəbəkəyə qoşulan yeni stansiyaların gücünü ifadə edir. Bundan əlavə, onşor külək stansiyaları quruda, ofşor külək stansiyaları isə dənizdə (sahil kənarından açıq sularda) quraşdırılan külək turbinləridir.

Beləliklə, cədvəldən də gördüyümüz kimi, bərpa olunan enerji növlərinin son vəziyyətinə baxanda görürük ki, günəş enerjisi qlobal gücə görə liderdir və çox sürətli artımla irəliləyir. Təkcə bir ildə əlavə olunan günəş gücü hidro və külək sahəsindəki yeni artımlardan dəfələrlə çoxdur. Bu, texnologiyanın ucuzlaşması və daha geniş yayılması ilə izah oluna bilər. Hidroenerji hələ də ənənəvi olaraq ən böyük paya malikdir, lakin illik artım sürəti nisbətən zəifdir, çünki potensialı artıq bir çox ölkədə maksimuma çatıb və yeni iri layihələr ekoloji-sosial səbəblərlə məhdudlaşdırılır. Külək enerjisi güc baxımından ikinci böyük faktordur və artım tempini qoruyur, xüsusilə dəniz küləyi daha sabit güc təmin etdiyi üçün strateji əhəmiyyət qazanır. Bununla belə, küləyin dəyişkənliyi və bəzi ekoloji təsirlər bu sahədə idarəetmə problemləri yaradır. Geotermal və bioenerji isə daha kiçik paya malikdir, amma onların güc əmsalı çox yüksəkdir, yəni il boyu sabit enerji təmin edə bilirlər. Bu səbəbdən onlar miqyas baxımından kiçik olsalar da, enerji təhlükəsizliyi və şəbəkənin sabitliyi üçün dəyərli hesab olunurlar.

Ümumi mənzərə göstərir ki, günəş və külək yaxın illərdə əsas artım qabaqcılları olacaq, hidroenerji isə sabit baza rolunu oynayacaq. Geotermal və bioenerji isə daha çox dəstək və

balanslaşdırıcı mənbə kimi istifadə olunacaq. Beləliklə, hər bir texnologiyanın davamlı inkişafda fərqli funksiyası var: günəş və külək böyümə dinamizmi, hidro uzunmüddətli sabitlik, geotermal və bioenerji isə sistemin etibarlılığı və diversifikasiyası baxımından önəmli rol oynayır.

Ancaq yenə də demək lazımdır ki, fosil yanacaqlardan bərpa olunan enerjiyə keçid ilk növbədə infrastruktur və maliyyə çətinlikləri ilə üzləşir. Mövcud enerji sistemləri əsasən kömür, neft və qaz üzərində qurulub, buna görə də şəbəkələrin, elektrik stansiyalarının və nəqliyyat sektorunun yenidən qurulması üçün çox böyük investisiyalar tələb olunur [23]. Məsələn, bərpa olunan mənbələrdən, xüsusən günəş və külək enerjisindən istifadə şəbəkədə dalğalanmalara səbəb olur və bu dəyişkənliyi tarazlaşdırmaq üçün enerji saxlama texnologiyalarına (batareyalar, hidroakkumulyasiya, hidrogen və s.) ciddi ehtiyac yaranır. Lakin bu texnologiyalar hələ yüksək maliyyətlidir və geniş miqyasda tətbiqi böyük dövlət və özəl sərmayələri tələb edir [25].

Digər mühüm problem sosial-iqtisadi təsirlərdir. Fosil yanacaq sənayesi milyonlarla insan üçün məşğulluq mənbəyidir və birdənbirə tamamilə bağlanması kütləvi işsizlik və sosial gərginlik yarada bilər. Kömür mədənləri, neft-qaz sənayesi ilə bağlı bölgələrdə bərpa olunan enerjiyə keçid yalnız texniki dəyişiklik deyil, həm də sosial-iqtisadi transformasiya deməkdir. Bu isə "ədalətli keçid" (just transition) yanaşmasını zəruri edir; yəni keçid prosesi zamanı işçilərin yenidən təhsil alması, yeni iş yerlərinin yaradılması və bölgələrin sosial-iqtisadi dəstək mexanizmləri ilə təmin olunması baş verməlidir. Əks halda, enerji keçidi cəmiyyət daxilində müqavimətlə qarşılanacaq və demokratik ölkələrdə siyasi dəstəyin itirilməsi riskini artıracaq [20].

Üçüncü əsas çətinlik geosiyasi və strateji amillərlə bağlıdır. Bərpa olunan enerji texnologiyaları əsasən nadir torpaq elementləri, litium, kobalt və digər mineral resurslardan asılıdır. Bu mineralların hasilatı isə çox vaxt məhdud sayda ölkələrin əlində cəmləşib və onların çıxarılması həm ekoloji, həm də sosial problemlərə səbəb olur [18]. Bundan əlavə, bəzi ölkələr üçün neft və qaz ixracı əsas gəlir mənbəyidir və bərpa olunan enerjiyə keçid onların iqtisadi-siyasi sabitliyini sarsıda bilər [17]. Bu səbəbdən, enerji keçidi qlobal əməkdaşlıq, ədalətli resurs bölgüsü və strateji ehtiyatların düzgün idarə olunmasını tələb edir. Beləliklə, fosil yanacaqlardan imtina təkcə texniki deyil, həm də sosial, iqtisadi və siyasi baxımdan mürəkkəb və çoxölçülü bir prosesdir.

Ümumiləşdirsək qeyd edə bilərik ki, bərpa olunan enerji mənbələri (günəş, külək, hidroenerji, geotermal, bioenerji və s.) ənənəvi fosil yanacaqlara alternativ olaraq qlobal miqyasda strateji əhəmiyyət qazanmaqdadır. Bu mənbələr tükənməz xarakter daşıdığı və istixana qazı emissiyalarını azaltdığı üçün iqlim dəyişiklikləri ilə mübarizədə və davamlı inkişafın təmin edilməsində əsas rol oynayır. Son onillikdə dünyada bərpa olunan enerjiyə keçid prosesinin sürətləndiyi müşahidə olunur. Məsələn, 2015-ci ildə qlobal bərpa olunan enerji qurulu gücü cəmi 0,93 teravat idisə, son on ildə təxminən 377% artaraq 2024-cü ilin sonunda 4,44 teravata yüksəlmişdir [7].

Bu artım texnologiya üzrə xərclərin azalması, ictimaiyyətin iqlim dəyişikliklərinə artan diqqəti və hökumətlərin verdiyi güclü siyasət dəstəyi sayəsində mümkün olmuşdur. 2015-ci ildə imzalanmış Paris İqlim Sazişi və 2015-2030-cu illəri əhatə edən BMT-nin Davamlı İnkişaf Məqsədləri (xüsusilə hamı üçün əlçatan və təmiz enerji üzrə 7-ci məqsəd) ölkələri bərpa olunan enerjinin payını artırmağa təşviq edən qlobal çərçivələrdir. Nəticədə, elektrik enerjisi istehsalında bərpa olunan mənbələrin payı dünya üzrə 2020-ci illərdə sürətlə artmış və 2024-cü il etibarilə ümumi istehsalın təqribən üçdə birinə çatmışdır [19].

Bu baxımdan, bərpa olunan enerji mənbələrindən istifadə sahəsində dünya təcrübəsinin müqayisəli təhlilini aparmaq bu sahədə uğurlu

yanaşmaların və institusional modellərin müəyyən olunması baxımından mühüm əhəmiyyət daşıyır. Müxtəlif ölkələrdə tətbiq olunan siyasətlərin oxşar və fərqli cəhətlərini müqayisə etməklə, hansı mexanizmlərin daha effektiv nəticələr verdiyini, hansı hüquqi çərçivələrin davamlı enerji keçidinə töhfə verdiyini və hansı sosial-iqtisadi şərtlərin bu keçidi asanlaşdırdığını anlamaq mümkün olur. Bu, xüsusilə Azərbaycan Respublikası kimi enerji sektorunda transformasiya mərhələsində olan ölkələr üçün olduqca aktualdır. Çünki Azərbaycanın qarşısında duran əsas məqsəd neftdən asılılığı azaltmaq və enerji təhlükəsizliyini ekoloji davamlılıqla birgə təmin etməkdir ki, bu da yalnız daxili resurslara deyil, həm də beynəlxalq təcrübənin düzgün mənimsənilməsinə bağlıdır. Cənubi Qafqazın lider dövləti olan Azərbaycan enerji sahəsində xarici təchizatçılardan asılılığı olmayan ölkədir. Üstəlik həm neft-qaz, həm də elektrik enerjisi ixracatı bu gün region ölkələri ilə yanaşı Avropa ölkələrinin də enerji təhlükəsizliyinə töhfə verir. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu rasional enerji siyasəti bu gün də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin hərtərəfli və dayanıqlı inkişafını təmin edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev öz qətiyyəti, strateji baxışı, yüksək liderlik keyfiyyətləri ilə ölkəmizin davamlı inkişafının, ərazi bütövlüyünün və regionda yeni geosiyasi reallıqların memarı olmaqla Azərbaycanın enerji siyasətini böyük uğurla yeni mərhələyə yüksəldib. Bu istiqamətdə bərpa olunan enerji mənbələrindən istifadə gücləndirilmiş, enerji keçidinin təmin edilməsi prioritet olaraq müəyyən edilmiş, bunun üçün hədəflər müəyyənləşdirilmiş, yaşıl enerji zonalarının yaradılmasına başlanılmış, hüquqi baza və infrastruktur formalaşdırılmışdır. Bu sahədə özəl sektorla əməkdaşlıq genişləndirilmiş və investisiya müqavilələri imzalanaraq layihələrin icrasına başlanılmışdır.

**Cədvəl.** Bərpa olunan enerji növləri: qlobal müqayisə

| Texnologiya | Qlobal güc (GW, 2024 sonu) | 2024-də əlavə (GW) | 2024 payı qlobal elektrikdə (%) | Orta güc əmsalı (%; 2023/2024) | Qlobal ortalama: 2024 (USD/MWh) |
|---|---|---|---|---|---|
| Hidroenerji | 1 283 | 15.0 | 14.3 | 53.5 | 57 |
| Külək (cəmi) | 1 133 | 113 | 8.1 | Onşor 35.9 / Ofşor 41.0 | Onşor 34 / Ofşor ~78 |
| Günəş PV | 1 865 | 452 | 6.9 | 16.2 | 43 |
| Geotermal | 15 | 0.4 | — * | ≈88.0 | 60 |
| Bioenerji | 151 | 4.6 | — * | 71.9 | 81 |

Mənbə: Renewable Capacity Highlights. IRENA. 26 March 2025.
URL: https://static.poder360.com.br/2025/04/capacidade-energia-renovavel-mar2025-irena.pdf;
Global Electricity Review 2025. EMBER. 8 April 2025.
URL:https://ember-energy.org/app/uploads/2025/04/Report-Global-Electricity-Review-2025.pdf;
Renewable Power Generation Costs in 2024. IRENA. 2025.
URL: https://tecsol.blogs.com/files/irena_tec_rpgc_in_2024_2025.pdf.

Beləliklə, tədqiqatımızdan əldə olunan nəticələr göstərir ki, bərpa olunan enerji mənbələrinin davamlı inkişafda rolu sadəcə “alternativ enerji təminatı” ilə məhdudlaşmır, onlar qlobal iqtisadi və siyasi münasibətlərin də istiqamətini müəyyənləşdirir. Hidroenerji uzunömürlülüyü və sabit güc istehsalı ilə enerji təhlükəsizliyinin təməlini təşkil etsə də, ekosistemlərə təsiri və yüksək ilkin xərcləri onu daha diqqətli idarəetmə tələb edən sahəyə çevirir. Geotermal enerji fasiləsiz və etibarlı istehsalı ilə önə çıxır, amma yalnız geoloji şəraiti əlverişli ərazilərdə səmərəli tətbiq oluna bilir. Günəş və külək enerjisi isə texnoloji dinamizmi və getdikcə ucuzlaşan istehsal xərcləri ilə ən sürətli inkişaf edən sahələrdir; buna baxmayaraq, onların təbii dəyişkənliyi enerji saxlama və şəbəkə idarəetmə texnologiyalarına yüksək tələbat yaradır. Bu isə göstərir ki, hər bir enerji mənbəyi özünəməxsus məhdudiyyətlər və üstünlüklərlə davamlı inkişaf strategiyasına fərqli qatqı verir.

Digər tərəfdən, bərpa olunan enerjiyə keçid prosesi qlobal əməkdaşlıq və daxili sosial-siyasi stabillik olmadan uğurlu ola bilməz. Bir tərəfdən, kömür və neft-qaz sektorunda çalışan işçilərin məşğulluğu məsələsi həll edilməzsə, enerji transformasiyası ciddi sosial gərginlik yarada bilər. Digər tərəfdən, litium və kobalt kimi mineral resurslara artan tələbat yeni geosiyasi asılılıqlar formalaşdırır və bu da “yaşıl enerji keçidi”nin paradoksunu ortaya qoyur: fosil yanacaqlardan qurtulmaq üçün başqa strateji asılılıqlar yaranır. Bu baxımdan, davamlı inkişafın enerji aspekti yalnız texnologiya və iqtisadi səmərəlilik deyil, həm də sosial ədalət, resursların beynəlxalq idarə olunması və risklərin balanslaşdırılması ilə sıx bağlıdır.

Tədbir zamanı dövlət qulluğunda şəffaflığın, hesabatlılığın və məsuliyyətli idarəetmənin təmin olunmasında hüquqi maarifləndirmənin rolu vurğulanmış, dövlət qulluqçularının hüquqi hazırlıq səviyyəsinin artırılmasının vacibliyi elmi əsaslarla əsaslandırılmışdır.

Təlimin sonunda vurğulanmışdır ki, bu cür elmi-praktik təlimlərin təşkili insan kapitalının inkişafı, idarəetmədə hüquqi yanaşmaların gücləndirilməsi və dövlət qulluğunun institusional dayanıqlığının təmin olunması baxımından strateji əhəmiyyət daşıyır.

### *“ASAN xidmət” mərkəzlərinin əməkdaşları üçün “Dövlət qulluğunda komanda quruculuğu. Komandada işin təşkili” mövzusunda təlim*

15 oktyabr 2025-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının təşkilatçılığı ilə “ASAN xidmət” mərkəzlərinin əməkdaşları üçün “Dövlət qulluğunda komanda quruculuğu. Komandada işin təşkili” mövzusunda təlim keçirilib.

DİA-nın baş müəllimi siyasi elmlər üzrə fəlsəfə doktoru Osmanova Esmira təlimdə çıxış edərək dövlət qulluğunda komanda quruculuğunun əhəmiyyəti, effektiv komanda fəaliyyətinin təşkili və idarə edilməsi mövzularında iştirakçılara ətraflı məlumat verib. O, komanda daxilində məhsuldar əməkdaşlığın əsasını təşkil edən liderlik keyfiyyətləri, inam və qarşılıqlı etimadın formalaşdırılması, habelə strateji məqsədlərə çatmaq üçün düzgün kommunikasiya bacarıqlarının vacibliyini vurğulayıb.

Mühazirə zamanı komanda daxili münasibətlərin qurulması, həmçinin fərqli düşüncə tərzlərinin komanda işində yarada biləcəyi çətinliklərin effektiv idarə olunması yolları praktiki nümunələr əsasında izah edilib. Təlim çərçivəsində iştirakçılar real iş mühitində qarşıya çıxa biləcək problemlərin analizi, qərarların qəbulu və böhran şəraitində komanda rəhbərliyinin rolu kimi məsələləri müzakirə ediblər. Təlim iştirakçıları dövlət qulluğunda insan resurslarının idarə olunması və komandada effektivliyin artırılmasının dövlət idarəçiliyinin keyfiyyətinə birbaşa təsir etdiyini qeyd edərək, bu sahədə bilik və bacarıqların inkişaf etdirilməsinin vacibliyini vurğulayıblar.

### *Müstəqilliyin bərpasının 34-cü ildönümünə həsr olunmuş dəyirmi masa*

17 oktyabr tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsinin 34-cü ildönümü münasibətilə dəyirmi masa keçirilmişdir.

Tədbirin əvvəlində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda şəhid olmuş qəhrəmanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Dəyirmi masanı giriş sözü ilə açan DİA-nın rektoru, akademik Urxan Ələkbərov qeyd edib ki, ötən 34 il ərzində Azərbaycan xalqı müstəqilliyini qoruyaraq möhkəmləndirib, ölkəmiz regionun siyasi, iqtisadi və mədəni mərkəzlərindən birinə çevrilib. Rektor vurğulayıb ki, müstəqilliyimizin ilk illəri mürəkkəb sınaqlarla yadda qalsa da, xalqımızın birliyi və Heydər Əliyev kimi müdrik dövlət xadiminin siyasi iradəsi sayəsində Azərbaycan dövlətçiliyi dirçəldi, sabitlik və inkişaf dövrünə qədəm qoydu.



"Müstəqilliyimiz dönməzdir, əbədidir" – deyən Ulu Öndər Heydər Əliyevin strateji xətti bu gün Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir, Azərbaycan beynəlxalq aləmdə müstəqil, güclü və nüfuzlu dövlət kimi tanınır," – deyə akademik Urxan Ələkbərov çıxışında qeyd etmişdir.

Tədbirdə DİA-nın Tarix kafedrasının professoru, tarix elmləri doktoru Havva Məmmədova "Azərbaycanın dövlət müstəqilliyinin bərpası: tarixi və siyasi aspektlər" mövzusunda məruzə ilə çıxış edib. O, 1991-ci il 18 oktyabr tarixində qəbul edilmiş "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nın tarixi əhəmiyyətindən danışıb, bu sənədin əsrlərlə davam edən milli azadlıq ideallarının reallaşmasının simvolu olduğunu vurğulayıb. Professor qeyd edib ki, Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) dövlətçilik ənənələri 1991-ci ildə bərpa edilmiş müstəqil dövlətin ideoloji və siyasi əsasını təşkil edib.

Havva Məmmədova bildirib ki, müstəqilliyin ilk illərində ölkədə yaranmış siyasi və iqtisadi çətinliklər, Ermənistanın hərbi təcavüzü və daxili qarşıdurmalar dövlətçiliyimizi ciddi sınaq qarşısında qoymuşdu. "Bu dövrdə xalqın tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev müdrik siyasəti və qətiyyətli addımları ilə Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etdi, milli dövlətçiliyin möhkəmlənməsinə, beynəlxalq arenada nüfuzunun artmasına nail oldu, daha sonra Prezident İlham Əliyev Azərbaycan xalqına tarixi zəfər bəxş etdi," – deyə professor əlavə edib.

Daha sonra çıxış edən DİA-nın Hüquq kafedrasının müəllimi, hüquq elmləri üzrə fəlsəfə doktoru, dosent Fuad İbrahimov müstəqilliyimizin hüquqi əsasları və onun konstitusion təminatından danışıb. O qeyd edib ki, 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizin hüquqi dövlət kimi formalaşması üçün möhkəm baza yaratdı. Fuad İbrahimov vurğulayıb ki, "Dövlət Müstəqilliyi haqqında Akt" təkcə siyasi sənəd deyil, həm də hüquqi baxımdan Azərbaycan xalqının öz müqəddəratını müəyyən etmək hüququnun reallaşması idi.

O əlavə edib ki, bu gün Azərbaycan Respublikasının hüquq sistemi beynəlxalq hüquq normalarına uyğunlaşdırılıb, qanunvericilik islahatları isə Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıl şəkildə həyata keçirilir. "Bu islahatlar nəticəsində insan hüquq və azadlıqlarının təminatı, idarəetmənin şəffaflığı, məhkəmə-hüquq sisteminin müasirləşməsi istiqamətində mühüm nəticələr əldə olunub," – deyə dosent İbrahimov çıxışında qeyd etmişdir.

Tədbirin sonunda iştirakçılar arasında fikir mübadiləsi aparılıb.

### *Akademik Urxan Ələkbərovun hazırladığı təlim videosu Türkiyədə yayımlanır*




Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov tərəfindən hazırlanmış “İnkişaf nədir və necə ölçülür?” mövzusunda təlim videosu Türkiyə Respublikası Prezidentinin Administrasiyası tərəfindən dövlət qulluqçularının inkişafı üçün yaradılmış beynəlxalq “Uzaktan Eğitim Kapısı” platformasında yayımlanmağa başlamışdır.

Təlimdə davamlı və inklüziv inkişafın əsas meyarları təhlil edilir, onların ölçülməsi və idarə edilməsi üçün tətbiq olunan müasir metodologiyalar izah olunur.

### *“İnsan və vətəndaşın hüquq və azadlıqlarının təminində məhkəmənin rolu” mövzusunda tədbir*

“Konstitusiya və Suverenlik İli” çərçivəsində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin birgə təşkilatçılığı ilə akademiyanın inzibati binasında “İnsan və vətəndaşın hüquq və azadlıqlarının təminində məhkəmənin rolu” mövzusunda tədbir keçirilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov və Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin sədri Şeyda Məhərrəmova tədbir iştirakçılarını salamlayaraq müvafiq mövzuda çıxışlar ediblər.

Akademik Urxan Ələkbərov bildirilib ki, vurğuladı ki, insan və vətəndaş hüquq və azadlıqlarının təminatı Azərbaycan dövlətinin əsas prioritetlərindəndir və bu istiqamətdə həyata keçirilən sistemli islahatlar məhkəmə-hüquq sisteminin daha müasir, şəffaf və ədalətli şəkildə formalaşmasına xidmət edir.

Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin sədri Şeyda Məhərrəmova vurğulayıb ki, hazırda ölkəmiz müstəqillik tarixinin ən yüksək inkişaf dövrünü yaşayır. Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam



etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir. Qürurverici haldır ki, tarixi Zəfər sayəsində dövlətimizin Əsas Qanununun hüquqi qüvvəsi, yəni burada təsbit edilmiş hüquq və azadlıqlar işğaldan azad olunmuş bütün torpaqlarımızda tam şəkildə bərqərar edilmişdir. Bu Azərbaycan xalqının dövlət suverenliyinin qorunması uğrunda apardığı mübarizənin və gələcəyə olan əzminin təcəssümüdür.

Daha sonra Binəqədi Rayon məhkəməsi tərəfindən "Konstitusiya və Suverenlik İli" ilə bağlı hazırlanmış videoçarx nümayiş etdirilib.

Tədbirdə Akademiyanın Hüquq kafedrasının müdiri, hüquq elmləri doktoru, professor İsaxan Vəliyev, Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimləri Aytəkin İbrahimova və Anar Rzayev çıxış edərək mövzunun aktuallığından və əhəmiyyətindən danışıblar.

Natiqlər qeyd ediblər ki, müasir dünyanın demokratik inkişafının başlıca meyarlarından birini insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması vəziyyəti təşkil edir. Bu hüquq və azadlıqlar bəşəriyyətin mənəvi-hüquqi və siyasi ideallarının ali təzahürünə çevrilməklə vətəndaş cəmiyyətinin əsas prioriteti olmuşdur.

Diqqətə çatdırılıb ki, Azərbaycanda demokratik hüquqi dövlət prinsiplərinin təşəkkül tapdığı və gücləndiyi müasir şəraitdə vətəndaşların hüquqi müdafiə təminatlarının gücləndirilməsinin mühüm hüquqi mexanizmi olaraq insan hüquq və azadlıqlarının məhkəmə müdafiəsinin rolu güclənmiş, məhkəmə hakimiyyətinin səlahiyyətləri və təsir sferası genişləndirilmiş, onun fəaliyyətində qanunçuluğun möhkəmləndirilmə metodları təkmilləşdirilmişdir.

Xüsusi olaraq bildirilib ki, müasir dövrdə müstəqil məhkəmə hakimiyyətinin təşkilati-hüquqi əsaslarının yaradılması sahəsində ölkəmizdə böyük nailiyyətlər əldə edilib.

### *Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının professoru Fuad Məmmədov UNESCO-nun Sülh Mədəniyyəti İnstitutunun fəxri prezidenti adına layiq görülmüşdür*

Azərbaycanlı kulturoloq, "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının prezidenti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının professoru Fuad Məmmədov UNESCO-nun Sülh Mədəniyyəti İnstitutunun fəxri prezidenti adına layiq görülüb.

Fuad Məmmədov mənəvi mədəniyyətin tərəqqisinə, yüksək mədəniyyətə malik şəxsiyyətlərin formalaşmasına və inkişafına, cəmiyyətin və dövlətin davamlı və təhlükəsiz inkişafı üçün məqsədlərə və strateji bərpaolunan ehtiyatlara həsr olunmuş bir sıra fundamental monoqrafiya və mədəniyyətşünaslıq konsepsiyalarının müəllifidir. Onun mədəniyyətşünaslığa verdiyi töhfələr altı beynəlxalq akademiya tərəfindən yüksək qiymətləndirilib. Alim beynəlxalq forumlarda, həmçinin Rusiya, ABŞ, Almaniya, Norveç, Fransa, Belçika, Cənubi Koreya və digər ölkələrdəki səfirliklərdə məruzələrlə çıxış edib.

Qeyd edək ki, ilk Sülh Mədəniyyəti İnstitutu UNESCO-nun dəstəyi ilə 2000-ci ildə Kazan şəhərində yaradılıb.

### *DİA-nın tələbəsi I yerə layiq görülmüşdür*

Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquqşünaslıq ixtisası üzrə III kurs tələbəsi Lalə Babazadə Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümü münasibətilə ali təhsil müəssisələrinin hüquq ixtisası üzrə təhsil alan tələbə və kursantları arasında keçirilən məqalə müsabiqəsində 1-ci yerə layiq görülmüşdür. Qalib tələbə Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov tərəfindən qəbul edilmişdir. Hörmətli rektor tələbəyə nailiyyətinə görə təşəkkür etmiş və gələcək fəaliyyətində ona uğurlar arzulamışdır.



### *Gənc müəllimlər üçün "Tədrisin keyfiyyətinin və mənimsəmə səviyyəsinin yüksəldilməsi istiqamətləri" mövzusunda təlim*

Gənc müəllimlər üçün "Tədrisin keyfiyyətinin və mənimsəmə səviyyəsinin yüksəldilməsi istiqamətləri" mövzusunda təlim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tədrisin keyfiyyətinin monitorinqi və məzunlarla iş şöbəsi tərəfindən xüsusilə gənc müəllimlər üçün "Tədrisin keyfiyyətinin və mənimsəmə səviyyəsinin yüksəldilməsi istiqamətləri" mövzusunda təlim təşkil edilib.

Təlimin məqsədi tədrisin keyfiyyətini və tələbələrin mənimsəmə səviyyəsini yüksəlt-

mək istiqamətində müəllimlərin peşəkar bacarıqlarını inkişaf etdirmək, müasir tədris metodlarını tətbiq etmək və öyrənmə prosesinin səmərəliliyini artırmaqdan ibarət olub. Təlim zamanı iştirakçılar bu mövzular ətrafında bilik və təcrübə mübadiləsi aparıb, aktual pedaqoji yanaşmalar və müasir tədris texnologiyaları müzakirə olunub.

Akademiyanın bütün kafedralarının əməkdaşları müzakirələrdə fəal iştirak edərək fikir və təkliflərini bölüşüblər. Belə tədbirlər müəllimlərin peşəkar inkişafına və tədris mühitinə daha sürətli adaptasiyasına mühüm töhfə verir.

Təlimdə həmçinin Siyasi idarəetmə fakültəsinin Beynəlxalq münasibətlər ixtisasının IV kurs tələbəsi, Təhsildə Keyfiyyət Təminatı Agentliyinin keyfiyyət elçisi Nəzrin Abdullayeva iştirak edib. O, çıxışı zamanı institusional akkreditasiya prosesinin real təcrübəsi haqqında danışıb və mövzu ilə bağlı praktiki nümunələr təqdim edib.

### *“ASAN xidmət” mərkəzlərinin əməkdaşları üçün “Dövlət idarəçiliyində maraqların toqquşması və antikorrupsiya siyasəti” mövzusunda təlim*

29 oktyabr 2025-ci il tarixində Azərbaycan Respublikası Prezidentinin yanında Dövlət İdarəçilik Akademiyasında “ASAN xidmət” mərkəzlərinin əməkdaşları üçün “Dövlət idarəçiliyində maraqların toqquşması və antikorrupsiya siyasəti” mövzusunda təlim keçirilmişdir. Təlimi hüquq elmləri doktoru, professor, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının müdiri İsaxan Vəliyev aparmışdır.

Tədbirin əsas məqsədi dövlət qulluqçularının korrupsiya və maraqların toqquşması ilə mübarizə sahəsində nəzəri biliklərinin və praktiki bacarıqlarının artırılması, dövlət idarəçiliyində şəffaflıq, hesabatlılıq və etik davranış prinsiplərinin daha da möhkəmləndirilməsidir.

Tədbir çərçivəsində iştirakçılara korrupsiya ilə əlaqədar hüquqpozmaların hüquqi qiymətləndirilməsi, maraqların toqquşmasının qarşısının alınması mexanizmləri, korrupsiyaya qarşı mübarizənin institusional əsasları, həmçinin dövlət və bələdiyyə idarəçiliyində şəffaflığın təmin edilməsi istiqamətində həyata keçirilən islahatlar barədə geniş məlumat təqdim olunmuşdur.

Eyni zamanda təlimdə korrupsiya risklərinin azaldılması, etik davranış qaydalarının tətbiqi və peşəkar fəaliyyətin səmərəliliyinin artırılması ilə bağlı praktiki tövsiyələr verilmiş, iştirakçılar arasında mövzuya dair qarşılıqlı fikir mübadiləsi aparılmışdır.

Tədbirin sonunda qeyd olunmuşdur ki, bu kimi maarifləndirici təlimlər dövlət qulluqçularının peşəkar inkişafına, dövlət orqanlarında şəffaf və məsuliyyətli idarəetmə sisteminin formalaşmasına, eləcə də korrupsiyaya qarşı mübarizə sahəsində milli səylərin gücləndirilməsinə əhəmiyyətli töhfə verir.

### *Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş tədbir*

Oktyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

Tədbiri giriş nitqi ilə açan Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov 80 illik şərəfli yol keçən AMEA-nın əməkdaşlarını təbrik edib, ölkəmizin elmi potensialının güclənməsi və inkişafı, müstəqil Azərbaycan Respublikasının daha da qüdrətlənməsi naminə gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Urxan Ələkbərov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin AMEA-nın 80 illik yubileyinin qeyd edilməsi barədə 2025-ci il 18 mart tarixli



Sərəncamı Akademiyanın ölkəmizdə elmin inkişafı, bu sahədə fəaliyyətin təşkili və yüksəkixtisaslı kadrların hazırlanmasındakı roluna verilən yüksək dəyəri bir daha sübut edir.

Daha sonra Dövlət İdarəçilik Akademiyasının professoru, Elmlər Akademiyasının müxbir üzvü Əli Nuriyev və Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının müdiri, dosent Firdovsiyyə Əhmədova AMEA-nın fəaliyyətinin müxtəlif istiqamətləri, onun dövlət idarəçiliyi, sosial-iqtisadi inkişaf, ekoloji sabitlik və milli ideologiya sahələrində oynadığı rol barədə fikirlərini bölüşüblər.

### *Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin əməkdaşları üçün “Dövlət xidmətlərinin rəqəmsallaşması və iqtisadi inkişafın təşviqi” mövzusunda təlim*

31 oktyabr 2025-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin əməkdaşları üçün “Dövlət xidmətlərinin rəqəmsallaşması və iqtisadi inkişafın təşviqi” mövzusunda növbəti təlim təşkil olunub. Təlim Dövlət İdarəçilik Akademiyasının “İqtisadiyyatın dövlət tənzimlənməsi” kafedrasının müəllimi Fəridə Məcidlinin təqdimatında keçirilib.

Təlimin məqsədi dövlət idarəçiliyində rəqəmsal transformasiyanın elmi-nəzəri əsaslarının öyrənilməsi və praktiki bacarıqların formalaşdırılması olub. Proqram çərçivəsində rəqəmsal iqtisadiyyatın konseptual çərçivəsi, dövlət xidmətlərinin rəqəmsallaşmasının prinsipləri və strateji istiqamətləri, eləcə də Azərbaycan Respublikasında mövcud normativ-hüquqi baza və rəqəmsallaşma siyasətinin analizi iştirakçılara təqdim edilib.

Təlim zamanı beynəlxalq və yerli təcrübələrin müqayisəli təhlili aparılıb, elektron xidmətlərin səmərəliliyinin və ictimai məmnuniyyət səviyyəsinin qiymətləndirilməsi məsələləri ətrafında müzakirələr keçirilib. Fəridə Məcidli qeyd edib ki, dövlət idarəçiliyində innovativ rəqəmsal həllərin tətbiqi və proseslərin optimallaşdırılması iqtisadi inkişafın sürətləndirilməsinə, şəffaflığın və vətəndaş məmnunluğunun artırılmasına xidmət edir.

Təlim interaktiv diskussiya formatında təşkil olunub, iştirakçılar tərəfindən fəal şəkildə qarşılanıb. Tədbirin sonunda iştirakçılar əldə etdikləri bilik və bacarıqların dövlət idarəçiliyində tətbiqinin əhəmiyyətini vurğulayıblar.

### *"ASAN xidmət" mərkəzlərinin əməkdaşları üçün "İnsan resurslarının idarə edilməsi" mövzusunda təlim*

03 noyabr 2025-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "ASAN xidmət" mərkəzlərinin əməkdaşları üçün "İnsan resurslarının idarə edilməsi" mövzusunda elmi-praktik təlim təşkil edilmişdir. Təlim Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının baş müəllimi Anar Həsənov tərəfindən aparılmışdır.

Təlimin məqsədi dövlət qulluğunda insan resurslarının idarə edilməsinə dair nəzəri və praktiki biliklərin dərinləşdirilməsi, idarəetmə proseslərində müasir yanaşmaların tətbiqi və əmək münasibətlərinin hüquqi əsasları barədə məlumatlılığın artırılması olmuşdur.

Sessiya çərçivəsində iştirakçılara insan resurslarının idarə edilməsinin mahiyyəti, onun dövlət idarəçiliyində strateji rolu, kadr potensialının formalaşdırılması və inkişafı, işçi seçimi, adaptasiya və motivasiya mexanizmləri, fəaliyyətin qiymətləndirilməsi kimi mövzular ətrafında geniş izahat verilmişdir. Bununla yanaşı, təlimdə əmək qanunvericiliyinin mühüm müddəalarına – əmək müqavilələrinin bağlanması və xitamı, iş vaxtının təşkili, məzuniyyət hüquqları, intizam məsuliyyəti və etik davranış normalarına da toxunulmuşdur.

Təlim prosesi interaktiv müzakirələr, situasiya təhlilləri və praktiki nümunələr üzərində qurulmuş, iştirakçılar dövlət idarəçiliyində insan resurslarının idarə olunması sahəsində səmərəli yanaşmalar və institusional təcrübələr barədə fikir mübadiləsi aparmışlar.

Tədbirin yekununda vurğulanmışdır ki, bu kimi elmi-praktik təlimlər dövlət idarəçiliyində peşəkar kadr potensialının gücləndirilməsinə, idarəetmə mədəniyyətinin inkişafına və xidmət keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verir.

### *DİA-da "Nə? Harada? Nə zaman?" intellektual oyun*

Noyabrın 3-də Səbail Rayon İcra Hakimiyyəti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və DİA Tələbə Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə "8 Noyabr- Zəfər Günü"nün 5-ci ildönümünə həsr olunmuş "Nə? Harada? Nə zaman?" formatında intellektual oyun keçirilmişdir.

İntellektual oyunda tələbələrdən ibarət 8 komanda yarışmış və nəticələrə əsasən, "Azad Qarabağ" 3-cü, "Xarıbülbül" 2-ci, "Dəmir Yumruq" komandası isə 1-ci yerin qalibi olmuşdur.

Görüşdə çıxış edən Dövlət İdarəçilik Akademiyası rektorun ictimai əlaqələr üzrə müşaviri Zaur Məmmədov rektor akademik Urxan Ələkbərovun salamlarını iştirakçılara çatdırmış, Zəfər günü ilə bağlı ali təhsil müəssisəsində silsilə tədbirlərin keçirildiyini qeyd etmişdir. O, Səbail Rayon İcra Hakimiyyəti ilə birlikdə keçirilən bu cür intellektual yarışların əhəmiyyətindən bəhs etmişdir.

Daha sonra çıxış edən Səbail Rayon İcra Hakimiyyəti başçısının müavini Kəmalə Həşimova yarış iştirakçılarına Səbail rayon icra başçısının təbriklərini çatdırıb, Zəfər Günü ilə bağlı rayon ərazisində həyata keçirilən layihə və tədbirlər barədə məlumat verib.

Səbail Rayon Gənclər və İdman sektorunun müdiri Zamin Əhmədov iştirakçıları salamlayaraq, gələcəkdə gənclər üçün nəzərdə tutulan birgə layihələr və tədbirlər haqqında danışıb.

DİA Tələbə Gənclər Təşkilatının sədri İxtiyar Mahmudzadə və TGT-nin "İntellektual Oyunlar" klubunun sədri Qədim Qazıxanov yarışın təşkilati tərəflərindən bəhs edərək, bu tədbirin tələbələrin biliklərinin artırılmasına və komanda ruhunun formalaşmasına xidmət etdiyini vurğulayıblar.

Sonda qalib və iştirakçı komandalar diplom, sertifikat və hədiyyələrlə mükafatlandırılıblar.

### *DİA Tələbə Elmi Cəmiyyəti Zəfər Günü münasibətilə konfrans keçirmişdir*

DİA Tələbə Elmi Cəmiyyəti 04 noyabr 2025-ci il tarixində doktorant, magistrant və tələbələrin geniş iştirakı ilə Tarixi Zəfərin 5-ci ildönümünə həsr olunmuş "Böyük Zəfər: Güclü Azərbaycan dövlətinin inkişafında dönüş mərhələsi" mövzusunda elmi konfrans keçirmişdir.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin unudulmaz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlamışdır.

Zəfər Gününə həsr olunan videoçarx nümayiş etdirilmiş, şeirlər oxunmuşdur.

Konfransı Dövlət İdarəçilik Akademiyasının prorektoru, professor Elvin Əzizbəyov açaraq, Ermənistan dövlətinin Azərbaycana qarşı otuz il davam edən işğalçılıq siyasətindən, bu illər ərzində xalqımızı Zəfərə aparan yoldan, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun cəmi 44 gündə işğalçı Ermənistan üzərində Böyük Qələbəsindən, uğurlu antiterror əməliyyatından, möhtəşəm Zəfərin tarixi əhəmiyyətindən geniş söhbət açmış, Azərbaycan xalqının çoxəsrlik tarixinə qızıl hərflərlə yazılmış 8 Noyabr – Zəfər Günü münasibətilə konfrans iştirakçılarını təbrik etmiş, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində törətdiyi cinayətlərə görə beynəlxalq hüquq çərçivəsində ağır cəza alacağına əminlik bildirmişdir. Natiq postmüharibə reallıqları və Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi Qarabağın dirçəlişi strategiyasından və Böyük qayıdışdan geniş bəhs etmiş, DİA Tələbə Elmi Cəmiyyətinin Tarixi Zəfərin 5-ci ildönümünə həsr olunmuş elmi konfransının xüsusi əhəmiyyətini vurğulayaraq, onun işinə uğurlar arzulamışdır.

Sonra DİA TEC-nin sədri, siyasi elmlər doktoru, prof.əv. Sevil Məmmədova məruzə edərək, 44 günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan, müdrik lider və qalib sərkərdə cənab İlham Əliyevin Zəfər salnaməsindən ətraflı bəhs etmiş, torpaqlarımızın erməni işğalından azad olunmasında vətənpərvərliyini dünyaya nümayiş etdirən gənclərimizin xüsusi rolunu vurğulamış, Zəfər Bayramı münasibətilə iştirakçıları təbrik edərək, bu sonsuz sevinc hisslərini bizə bəxş edən qəhrəman şəhidlərimizin əziz xatirəsinin xalqımız tərəfindən



yüksək ehtiramla daim yaşadıldığını və əbədiləşdirildiyini qeyd etmiş, dövlət başçımızın rəhbərliyi altında azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı quruculuq işləri haqqında ətraflı söhbət açmışdır.

Plenar iclasdan sonra Konfrans öz işini iki bölmədə DİA-nın professoru Sevil Məmmədovanın və dosenti Nurəddin İbrahimovun rəhbərliyi ilə davam etdirmişdir. Bölmə iclaslarına qatılan 60-dək doktorant, magistrant və tələbələr maraqlı çıxışlar etmiş, geniş fikir mübadiləsi aparmışlar. Sonda çıxış edənlər DİA Tələbə Elmi Cəmiyyətinin Sertifikatları ilə təltif edilmişlər.

***Akademik Urxan Ələkbərovun "Zəfərə aparan elmi idarəçilik" adlı məqaləsi***



6 RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN 5 noyabr 2025-ci il

AZƏRBAYCANIN ŞƏRƏF VƏ QÜRUR TARİXİ

ŞANLI ZƏFƏR - 5 İL

# Zəfərə aparan elmi idarəçilik

**Azərbaycan Respublikası bu il müstəqilliyinin bərpasının 34-cü ildönümünü qeyd etdi. Tarixi baxımdan bu, çox qısa dövr olduğuna baxmayaraq, ölkəmiz bu illərdə inkişafın müxtəlif istiqamətlərində çox böyük nailiyyətlər əldə etmişdir. Bu uğurlar arasında Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə parlaq qələbə ilə bitmiş 44 günlük şanlı Vətən müharibəsi, onun nəticəsində ölkənin ərazi bütövlüyünün bərpası xüsusi əhəmiyyət daşıyır. Bu qələbə ilə ölkə öz gücü hesabına beynəlxalq hüququ tam bərpa etdi, BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsini həyata keçirdi, dövlət suverenliyinin bütün ölkə ərazisində təmin edilməsinə yönəldilmiş və 24 saatdan az vaxt tələb edən uğurlu antiterror əməliyyatının keçirilməsi üçün şərait yaratdı.**

siyasəti çərçivəsində tətbiq edilən yeni rezonans və komplementar texnologiyalar çoxməqsədli və uzunmüddətli layihələrin həyata keçirilməsini şərtləndirir.

Dövlət idarəçiliyində yeni olan və Azərbaycanda ilk dəfə kompleks şəkildə tətbiq edilən yeni texnologiyalar öz yüksək səmərəliliyini Azərbaycan Respublikasının enerji transformasiyası prosesi, işğaldan azad olunmuş ərazilərdə "yaşıl enerji"yə keçid layihələrinin həyata keçirilməsi prosesində də göstərir. Buna parlaq misal olaraq Azərbaycan Prezidenti İlham Əliyevin bu sahədə keçirdiyi davamlı inkişaf siyasəti çərçivəsində tətbiq etdiyi yeni rezonans və komplementar idarəçilik texnologiyalarının səmərəliliyi göstərilə bilər.

Azərbaycan Respublikasında enerji transformasiyası sahəsində dövlət səviyyəsində fəaliyyətlərin başlanğıcı 2004-cü ilə aid edə bilər. Həmin ilin sentyabr ayının 21-də 462 nömrəli sərəncamla Prezident İlham Əliyev "Azərbaycan Respublikasında bərpaolunan enerji üzrə Milli Proqram"ı təsdiq etdi. Bu, strateji addımın nə dərəcədə uzaqgörən olduğu qərarın qəbul edilməsi zamanı ölkədə mövcud olan vəziyyətin təhlilindən aydın olur. 2004-cü il İlham Əliyev cənablarının ilk prezidentlik ilidir. Ölkənin 20 faiz ərazisi işğal altındadır, əhalinin 13 faizi qaçqın və məcburi köçkündür, Dünya Bankının məlumatları əsasında həmin il ölkədə yoxsulluq da yüksək səviyyədə idi. Eyni zamanda həmin ildə ölkədə artıq 2020-ci ildə ərazilərin işğaldan azad edil-



Şəkil 1. Enerji keçidi prosesinin idarə edilməsinin iqtisadi səmərəliliyi: ÜDM-in hər vahidinə (1000 ABŞ dolları, alıcılıq qabiliyyəti pariteti ilə) qazanılmış enerji transformasiya indeksinin (ETİ) dəyəri. *Mənbə: Dünya İqtisadi Forumu, 2024, Dünya Bankı, 2025.*

Şəkil 1-də Azərbaycan Respublikası ilə yanaşı təmsil olunmuş ölkələr enerji transformasiyası baxımından dünya liderləridir: İsveç - dünya üzrə, Litva - keçmiş SSRİ ölkələri ilə müqayisədə, Norveç isə neft və qaz ixrac edən ölkələr arasında. Göründüyü kimi, Azərbaycan Respublikası elmə əsaslanan innovativ dövlət idarəçilik texnologiyalarının tətbiqi nəticəsində "yaşıl



Şəkil 2. Azərbaycan Respublikasında orta aylıq pensiyanın dəyəri, ABŞ dolları alıcılıq qabiliyyəti pariteti ilə. *Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2025; Dünya Bankı, 2025.*

Şəkil 2-dən göründüyü kimi, son on ildə ölkədə orta pensiya hər il artmaqdadır. Bu artım 2020-ci ildən sonra daha da süratlidir. Beynəlxalq müqayisələr göstərir ki, ölkədə həyata keçirilən uğurlu sosial siyasət göstəricisi olan orta pensiyanın səviyyəsi bir sıra Avropa İttifaqında təmsil olunmuş ölkələr səviyyəsindədir (Şəkil 3).

***Azərbaycan qəzetində nəşr olunmuşdur***

***Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarında fəaliyyət göstərən dövlət qulluqçuları üçün "Dövlət İdarəçiliyində maraqlar toqquşması və antikorrupsiya siyasəti" mövzusunda təlim***

05 noyabr 2025-ci il, Naxçıvan – Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarında fəaliyyət göstərən dövlət qulluqçuları üçün "Dövlət idarəçiliyində maraqlar toqquşması və antikorrupsiya siyasəti" mövzusunda təlim keçirilmişdir.

Təlim "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2025-2027-ci illəri əhatə edən Təfsilatlı Tədbirlər Planında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına həvalə olunmuş tədbirlər çərçivəsində həyata keçirilmişdir.

Təlimdə Dövlət İdarəçilik Akademiyasının "Hüquq" kafedrasının müdiri, hüquq elmləri doktoru, professor İsaxan Vəliyev və "Hüquq" kafedrasının müəllimi, hüquq üzrə fəlsəfə doktoru Seyfulla Aslanov çıxış etmişlər.

Təlimdə dövlət idarəçiliyində etik davranış standartlarının tətbiqi, maraqlar toqquşmasının

qarşısının alınması, şəffaflıq və hesabatlılıq prinsiplərinin təmin olunması mexanizmləri, eləcə də korrupsiyaya qarşı mübarizənin institusional əsasları ətraflı şəkildə təhlil olunmuşdur.

Çıxışlarda qeyd olunmuşdur ki, anti-korrupsiya siyasətinin gücləndirilməsi dövlət idarəçiliyinin səmərəliliyinin, şəffaflığının və ictimai etimadın yüksəldilməsinin mühüm istiqamətlərindən biridir. Bu siyasət dövlət qulluğunda etik prinsiplərin tətbiqinə, idarəetmədə hesabatlılıq və şəffaflıq mexanizmlərinin təkmilləşdirilməsinə, eləcə də ictimai nəzarət institutlarının inkişafına xidmət edir.

Təlim zamanı dövlət qulluqçularına maraqlar toqquşmasının müəyyənləşdirilməsi və qarşısının alınması üzrə praktiki yanaşmalar, habelə real situasiyalara əsaslanan nümunəvi halların təhlili təqdim olunmuşdur. İnteraktiv müzakirələr çərçivəsində iştirakçılar dövlət qulluğunda etik qərar qəbuletmə prosesinin təkmilləşdirilməsi istiqamətində fikir mübadiləsi aparmışlar.

### *DİA-da tələbələrin qazilərlə görüşü keçirilmişdir*

Dövlət İdarəçilik Akademiyasında (DİA) 8 Noyabr – Zəfər Günü münasibətilə ali təhsil müəssisəsinin rektoru, akademik Urxan Ələkbərovun müvafiq tapşırığına əsasən silsilə tədbirlər davam edir. Bu çərçivədə keçirilən növbəti görüş Vətən müharibəsi qəhrəmanlarına həsr olunub.

Tədbiri giriş sözü ilə Dövlət İdarəçilik Akademiyasının rektorunun müşaviri Zaur Məmmədov açaraq iştirakçıları salamlayıb. O qeyd edib ki, DİA-da vətənpərvərlik tərbiyəsi, milli-mənəvi dəyərlərin gənclərə aşılanması istiqamətində davamlı işlər aparılır və bu kimi görüşlər tələbələr üçün həm maarifləndirici, həm də mənəvi cəhətdən böyük əhəmiyyət daşıyır.

Vətən müharibəsi qəhrəmanı, mayor Zaur Hüseynov çıxışında döyüş yolundan, aparılan əməliyyatlardan, Azərbaycan Ordusunun qəhrəmanlığından danışıb. O, hər bir əsgərin və zabitin vətən sevgisi, qələbə inamı və torpaqların azad olunması naminə göstərdiyi fədakarlığının əhəmiyyətini vurğulayıb.

Vətən müharibəsi qəhrəmanı, mayor Mirdamət Bağıyev öz çıxışında müharibə dövründə Azərbaycan xalqının birliyindən və



arxa cəbhədə göstərilən həmrəyliyin önəmindən bəhs edib. Onun sözlərinə görə, hər kəs öz mövqeyində, istər səngərdə, istərsə də arxa cəbhədə, qələbənin əldə olunması üçün əzmlə çalışırdı.

Baş leytenant İzzət Balacayev çıxışında döyüşlərdə iştirakından danışıb. O bildirib ki, gənclər şəhidlərimizin qəhrəmanlıq yolunu unutmamalı, onların ideallarını yaşatmalı və hər zaman dövlətinə sədaqətlə xidmət etməlidirlər.

Qonaqlar tərəfindən qeyd olunub ki, 8 Noyabr – Zəfər Günü Azərbaycan xalqının milli qürur və həmrəyliyinin rəmzidir. “Bu Qələbə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən qətiyyətli siyasətin və dövlət-xalq birliyinin nəticəsidir”.

Bildirilmişdir ki, “müasir Azərbaycanın əldə etdiyi bu tarixi nailiyyət Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strateji inkişaf yolunun məntiqi davamıdır. Məhz bu müdrik siyasi xətt sayəsində Azərbaycan bu gün qalib dövlət, güclü ordu və yüksək nüfuza malik regional liderə çevrilib”.

Zəfər Günü xalqımızın qəhrəmanlıq salnaməsinə qızıl hərflərlə yazılmış, gələcək nəsillərə milli birlik, vətənpərvərlik və dövlətə sədaqət nümunəsi kimi əbədi yaşayacaq tarixi hadisədir.

### *8 Noyabr - Zəfər Günü ilə əlaqədar konfrans*

Noyabrın 7-də Dövlət İdarəçilik Akademiyasının Böyük akt zalında Zəfər gününə həsr olunmuş tədbir keçirilmişdir. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Şəhidlərin əziz xatirəsi anılıb.

Professor və müəllimlərin, tələbələrin iştirak etdikləri tədbirdə Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov 44 günlük Vətən müharibəsindən, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Ordumuzun düşmən üzərində qazandığı parlaq Qələbədən bəhs edib. O, Vətən müharibəsində əsgər və zabitlərimizin böyük fədakarlıq, qəhrəmanlıq nümunəsi göstərdiklərini vurğulayıb. U.Ələkbərov ötən 30 il ərzində Azərbaycanda əldə edilən nailiyyətlərdən danışıb, ölkənin uğurlu inkişafı sayəsində dövlətçilik ənənələrimizin möhkəmləndiyini, iqtisadi, siyasi, hərbi gücümüzün artdığını



bildirib. Qeyd olunub ki, müstəqil Azərbaycan Respublikası bu gün hər bir soydaşımız üçün əsl qürur mənbəyinə çevrilib. Müstəqilliyin ilk illərində Azərbaycan dərin siyasi, iqtisadi və sosial böhranla yanaşı, Ermənistanın hərbi təcavüzü, xalqımıza qarşı həyata keçirilən etnik təmizləmə siyasəti ilə üzləşdi. Xalqımızın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı nəticəsində ölkəmiz parçalanma təhlükəsindən xilas oldu. Nəticədə aparılan sistemli daxili və xarici siyasət, Prezident İlham Əliyevin siyasi, iqtisadi, diplomatik müstəvidə əldə etdiyi uğurlar istər 44 günlük müharibə vaxtı, istərsə də son 5 il ərzində Azərbaycanın suverenliyinin tam təmin olunması ilə nəticələndi.

Daha sonra konfransda Tarix kafedrasının müdiri, dosent Firdovsiyə Əhmədova, Qarabağ İrsini Araşdırmalar Mərkəzinin rəhbəri, professor Elçin Əhmədov, Hüquq kafedrasının müəllimi, hüquq üzrə fəlsəfə doktoru, dosent Fəxrəddin Nağıyev Tarixi Zəfərin müxtəlif aspektlərinə toxunmuşlar.

Tədbirin sonunda xatirə fotosu çəkilmişdir.

### *Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin əməkdaşları üçün “Azərbaycanın xarici siyasəti: suverenliyin və tarixi ədalətin bərpası” mövzusunda mühazirə*

07 noyabr 2025-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin əməkdaşları üçün “Azərbaycanın xarici siyasəti: suverenliyin və tarixi ədalətin bərpası” mövzusunda növbəti təlim təşkil olunub. Təlimdə Dövlət İdarəçilik Akademiyasının “Qarabağ İrsini Araşdırma Mərkəzi”nin rəhbəri, siyasi elmlər doktoru, professor Elçin Əhmədov çıxış edib.

Tədbirin əsas məqsədi Azərbaycanın müasir xarici siyasətinin prioritet istiqamətləri, milli maraqların qorunması və dövlət suverenliyinin tam bərpası prosesinin elmi-nəzəri əsaslarının öyrənilməsi olub. Mühazirə zamanı Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqeyi, xarici siyasətdə tarixi ədalətin bərpası, regional təhlükəsizlik və sülh təşəbbüsləri mövzularına xüsusi diqqət yetirilib.

Professor qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən praqmatik və balanslaşdırılmış xarici siyasət nəticəsində Azərbaycan beynəlxalq arenada öz mövqeyini gücləndirib, ərazi bütövlüyünü və tarixi ədaləti bərpa edib. Bu siyasət milli maraqlara əsaslanaraq regional sabitliyin və dayanıqlı inkişafın təmin edilməsinə yönəlib.

Təlim zamanı iştirakçılarla interaktiv müzakirələr aparılıb, xarici siyasətin yeni çağırışları, diplomatik təşəbbüslər və Azərbaycanın beynəlxalq tərəfdaşlıq strategiyaları barədə fikir mübadiləsi həyata keçirilib.

Tədbirin sonunda iştirakçılar mövzu üzrə əldə etdikləri biliklərin dövlət idarəçiliyində, xüsusən də beynəlxalq əməkdaşlıq sahəsində tətbiqinin əhəmiyyətini vurğulayıblar.

### *“44 Günlük Zəfər Salnaməsi” adlı tədbir*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Tədrisin keyfiyyətinin monitorinqi və məzunlarla iş şöbəsinin, DİA Tələbə Gənclər Təşkilatının, həmçinin müxtəlif kurs tələbələrinin birgə təşkilatçılığı ilə Vətən müharibəsi Zəfərinin 5-ci ildönümünə həsr olunmuş “44 Günlük Zəfər Salnaməsi” adlı tədbir keçirilmişdir.

Tədbirin əvvəlində şəhidlərimizin xatirəsi ehtiramla anılmış, Azərbaycan dövlət himni səsləndirilmişdir. Daha sonra tələbələrin iştirakı ilə Zəfər gününə həsr olunmuş tədbirdə 44 günlük müharibənin müxtəlif aspektlərinə toxunulmuşdur.

Tədbirdə çıxış edən gənclər 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Qələbənin



Azərbaycan xalqının birliyi, ordumuzun qüdrəti və Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi nəticəsində mümkün olduğunu vurğulamışlar. Qeyd olunmuşdur ki, bu Qələbə təkcə hərbi sahədə deyil, həm də siyasi və mənəvi baxımdan Azərbaycanın dövlətçilik tarixində yeni bir mərhələnin əsasını qoymuşdur.

Tədbir çərçivəsində tələbələr tərəfindən Vətən müharibəsinə həsr olunmuş ədəbi-bədii kompozisiyalar, şeirlər və videoçarxlar təqdim olunmuş, həmçinin şəhid qəhrəmanlarımızın həyat yolundan bəhs edən çıxışlar dinlənilmişdir.

Tədbirdə çıxış edən Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov tələbələr tərəfindən təşkil olunan tədbiri yüksək qiymətləndirmişdir. O, qeyd etmişdir ki, Akademiya gənclərinin bu təşəbbüsü onların vətənpərvərlik ruhunu, dövlətçilik ideyalarına sadiqliyini və ictimai fəallığını bir daha nümayiş etdirir.

Rektor çıxışı zamanı 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Qələbənin Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi strateji inkişaf xəttinin, eləcə də Prezident İlham Əliyevin uzaqgörən siyasətinin məntiqi nəticəsi olduğunu vurğulamışdır.

O, vurğulamışdır ki, ölkədə gənclər siyasətinin uğurlu icrası nəticəsində yetişən yeni nəsil Vətənə sədaqəti, biliyi və təşəbbüskarlığı ilə Azərbaycanın gələcək inkişafına töhfə verməkdədir. Rektor tədbirin sonunda tələbələrə uğurlar arzulamış, onlara daim milli ruhda, Heydər Əliyev ideyalarına və Prezident İlham Əliyevin dövətçilik xəttinə sadiq qalmağı tövsiyə etmişdir.

### *"ASAN xidmət" mərkəzlərinin əməkdaşları üçün "Dövlət idarəçiliyində layihələrin idarəedilməsi" mövzusunda təlim*

14 noyabr 2025-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası tərəfindən "ASAN xidmət" mərkəzlərinin əməkdaşları üçün "Dövlət idarəçiliyində layihələrin idarəedilməsi" mövzusunda onlayn təlim təşkil olunub. Təlimi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının müəllimi Nuriyyə Günəşli aparmışdır.

Tədbirin əsas məqsədi dövlət qurumlarında layihə idarəçiliyinin müasir yanaşmalarını, tətbiq olunan metodologiyaları və idarəetmə mexanizmlərini iştirakçılara çatdırmaq, dövlət qulluqçularının bu sahədə nəzəri bilik və praktiki bacarıqlarını artırmaqdan ibarət olmuşdur.

Təlim zamanı layihə əsaslı idarəetmənin müasir dövlət idarəçiliyində rolu xüsusi vurğulanmışdır. Qeyd olunmuşdur ki, layihə yanaşması dövlət orqanlarına daha çevik qərarvermə, resurslardan səmərəli istifadə, nəticəyönümlü fəaliyyət, innovasiyaların tətbiqi və şəffaflığın artırılması kimi mühüm üstünlüklər təqdim edir.

Təlim zamanı dövlət sektorunda layihə planlaşdırılması, risklərin idarə olunması, resursların səmərəli bölüşdürülməsi, layihələrin monitorinqi və qiymətləndirilməsi kimi mövzular geniş şəkildə izah edilmişdir. Həmçinin dövlət idarəçiliyində layihə yanaşmasının tətbiqi, effektiv nəticələrin əldə olunması və idarəetmədə innovativ metodların rolu barədə iştirakçılara ətraflı məlumat təqdim olunub.

İştirakçılar layihələrin icrası zamanı qarşıya çıxan çətinliklər, şəffaflığın və hesabatlılığın təmin olunması, eləcə də dövlət xidmətlərinin səmərəliliyinin artırılması ilə bağlı fikir mübadiləsi aparmış, praktiki suallarını müzakirə etmişlər.

Tədbirin sonunda qeyd olunub ki, bu kimi təlimlər dövlət qulluqçularının peşəkar inkişafına, idarəçilik proseslərinin keyfiyyətinin yüksəldilməsinə və dövlət xidmətlərinin daha effektiv şəkildə həyata keçirilməsinə mühüm töhfə verir.

### *"Azərbaycanın iqtisadi inkişafında innovativ idarəetmə və rəqəmsal texnologiyaların rolu" mövzusunda respublika elmi-praktik konfrans*

Noyabrın 19-da Dövlət İdarəçilik Akademiyasında Vətən müharibəsində qələbəmizin 5 illiyinə həsr olunmuş "Azərbaycanın iqtisadi inkişafında innovativ idarəetmə və rəqəmsal texnologiyaların rolu" mövzusunda elmi-praktik konfrans baş tutdu.

Konfransın gündəliyi və seçilmiş istiqamətlər regional inkişafın idarə olunmasında innovativ proseslərin təhlili, perspektiv imkanların öyrənilməsinə həsr olunmuşdur.

Konfransın işində Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu, Bakı Dövlət Universiteti, Milli Aviasiya Akademiyası, Azərbaycan Texnologiya Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Dillər Universiteti, Kooperasiya Universiteti, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Aqrar Tədqiqatlar Mərkəzi, Samux Rayon İcra Hakimiyyəti, Yevlax Şəhər İcra Hakimiyyəti, Qəbələ Rayon İcra Hakimiyyəti, Quba Rayon İcra Hakimiyyəti, Qubadlı Rayon İcra Hakimiyyəti, Zərdab Rayon İcra Hakimiyyəti, Xətai Rayon İcra Hakimiyyəti və s. kimi qurum və təşkilatlardan nümayəndələr iştirak etmişlər.

Konfransın açılışında Dövlət Himni səsləndirilmiş, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tədris İşləri üzrə prorektoru, prof. Əlikram Abdullayev qonaqları salamlayaraq



tədbir iştirakçılarına uğurlar arzulamışdır. Plenar iclasda İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktorunun müavini Ramil Hüseyn, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin şöbə müdiri Heybət İmanov, Dövlət İdarəçilik Akademiyasının "Dövlət idarəetməsi və menecment" kafedrasının müdiri, i.e.d., prof. Xatirə Hüseynova, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyindən Aytac Əliyeva məruzə ilə çıxış etmişlər.

Rəsmi hissədən sonra konfrans "Davamlı inkişaf və yaşıl iqtisadiyyat" və "Rəqəmsal dövlət idarəetməsi və innovasiyalar" bölmələrində dinləmələrlə davam etmişdir. Çıxışlarda qeyd edilmişdir ki, Azərbaycanın bütün ərazilərində, o cümlədən suverenliyimizin bərpa edildiyi Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və inkişaf proqramları regionu qısa zamanda post-münaqişə zonası statusundan çıxararaq Azərbaycanın ən müasir və innovativ inkişaf məkanına çevirib. Hazırda bölgədə ağıllı şəhər və ağıllı kənd texnologiyaları, rəqəmsal idarəetmə, yaşıl enerji infrastrukturu, İKT şəbəkələri, smart nəqliyyat sistemləri, dron və sensor nəzarəti, həmçinin yüksək texnologiyalı aqrar həllər geniş tətbiq olunur.

### *Dövlət İdarəçilik Akademiyasın və Bakı KOB İnkişaf Mərkəzinin birgə təşkilatçılığı ilə "Süni intellektin biznesdə tətbiqi" mövzusunda təlim*

Noyabrın 22-də Bakı KOB Evində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının və Bakı KOB İnkişaf Mərkəzinin birgə təşkilatçılığı ilə "Süni intellektin biznesdə tətbiqi" mövzusunda təlim baş tutub.

Tələbə Gənclər Təşkilatının nəzdində fəaliyyət göstərən "Biznes" klubun təşkilatçılığı ilə baş tutan tədbirdə iki təlimçi tərəfindən görüş iştirakçılarına süni intellektin biznes proseslərdə istifadə edilməsi, rəqəmsal transformasiya, innovativ yanaşmalar və məhsuldarlığın artırılması kimi mövzular izah edilmişdir.

Sonda tələbələr təlimçilərə suallar ünvanlayaraq mövzunu praktiki aspektlərdən daha dərindən öyrənmək imkanı əldə etmişlər.

Yekunda təlimi uğurla tamamlayan iştirakçılara sertifikatlar təqdim edilmişdir.

### *DİA-nın tələbələri Yeni Azərbaycan Partiyasının yaradılmasının 33-cü ildönümü ilə bağlı tədbirdə iştirak etmişlər*

Yeni Azərbaycan Partiyasının yaranmasının 33-cü ildönümü münasibətilə Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatı tərəfindən Beynəlxalq Muğam Mərkəzində tədbir keçirilmişdir.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbələri də iştirak etmişlər.

### *DİA tələbələri arasında şahmat turniri keçirilmişdir*



Tədbirin təşkilində əsas məqsəd gənclər arasında vətənpərvərlik ruhunu gücləndirmək, 44 günlük Vətən müharibəsində əldə olunmuş tarixi Qələbənin əhəmiyyətini təbliğ etmək və tələbələr arasında intellektual yarış mühitini daha da inkişaf etdirmək olmuşdur. Turnirdə müxtəlif fakültələri təmsil edən tələbələrin iştirakı həm geniş rəqabət, həm də sağlam mübarizə atmosferi yaratmış, gənclərin strateji düşüncə və analitik qabiliyyətlərinin üzə çıxmasına imkan vermişdir. Tədbir çərçivəsində Azərbaycanın dövlətçilik ənənələrinə və gənclərin milli ruhda formalaşmasına dair qısa çıxışlar səsləndirilmiş, iştirakçılara Zəfərimizin tarixi önəmi bir daha xatırladılmışdır. Turnir sonda qaliblərin mükafatlandırılması ilə yekunlaşmış və gənclər arasında motivasiya yaradan yaddaqalan bir tədbir kimi yadda qalmışdır.



### *“Tələbələrlə effektiv kommunikasiyanın qurulması” mövzusunda təlim*

01 dekabr 2025-ci il tarixində “Tədrisin keyfiyyətinin monitorinqi və məzunlarla iş şöbəsi”nin təşkilatçılığı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının “Davamlı inkişaf” kafedrasının baş müəllimi, siyasi elmlər üzrə fəlsəfə doktoru Ülfət Mehdiyev tərəfindən “Tələbələrlə effektiv kommunikasiyanın qurulması” mövzusunda təlim keçirilmişdir. Ülfət Mehdiyev bildirdi ki, müəllim dərs zamanı fikirlərini sadə və anlaşılan şəkildə ifadə etməlidir. Müəllim tələbə üçün dərsdə açıq və səmimi mühit yaratmalıdır. Həmçinin bildirdi ki, Akademiya tələbələri artıq yetkin şəxslərdir, onlarla münasibət həm akademik, həm də əməkdaşlıq xarakterli olmalıdır. Müəllim tələbənin fərdi fikrinə dəyər verdiyini göstərməlidir, nəyi başa düşdüyünü, nədə çətinlik çəkdiyini müəyyənləşdirməyi bacarmalıdır lazım olanda yönləndirici suallar verməlidir, interaktiv tapşırıqlar, diskussiya, qısa sorğularla tələbələrin kommunikasiya bacarıqlarını artırmalıdır. Onlayn platformalardan istifadə etməlidir. Dərsə dair gözləntilər aydın şəkildə izah olunmalıdır ki, tələbə dərsin sonunda nə öyrənəcəyini bilsin. Tənqid edərkən tələbəni deyil, işini qiymətləndirməlidir. Müəllim tələbələrin fikirlərinə müdaxilə etməməli, sadəcə yönləndirici şəxs olmalıdır. Tələbələrin şəxsi və akademik çətinliklərini anlamağa çalışmalı, tələbəni öz öyrənmə prosesinin fəal iştirakçısına çevirməlidir.

Təlimdə müxtəlif kafedraların əməkdaşları və tələbələr də iştirak etmişdir. İnteraktiv müzakirələr şəklində keçən təlimin sonunda tələbələrin sualları cavablandırılmışdır.

### *Üç tələbəmiz “İlin Könüllüsü” seçilmişdir*




Dekabrın 4-də “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş Azərbaycan Könüllülərin VIII Həmrəylik Forumunda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının üç tələbəsi “İlin Könüllüsü” mükafatına layiq görülüb.

Mükafatlandırılan tələbələr:

Süsən Qəhrəmanova –
İnzibati idarəetmə fakültəsinin
IV kurs tələbəsi

Misir Məmmədov –
İnzibati idarəetmə fakültəsinin
III kurs tələbəsi

Nuray Talıbzadə –
Siyasi idarəetmə fakültəsinin
IV kurs tələbəsi

Bu münasibətlə tələbələrimizi ürəkdən təbrik edir, gələcək fəaliyyətlərində uğurlar arzulayırıq!

## *Naxçıvan Muxtar Respublikasının dövlət qulluqçuları üçün təlim*

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2025-2027-ci illəri əhatə edən Təfsilatlı Tədbirlər Planında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına (DİA) həvalə edilmiş tədbirlərin icrası çərçivəsində Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarında fəaliyyət göstərən dövlət qulluqçuları üçün "Vətəndaş müraciətlərinə baxılması və müraciətlərlə əlaqədar kargüzarlığın aparılmasının xarakterik cəhətləri" mövzusunda təlim keçirilmişdir.

Təlim DİA-nın Hüquq kafedrasının müəllimi, hüquq üzrə fəlsəfə doktoru Seyfulla Aslanov tərəfindən təqdim olunmuşdur. Təlimçi öz çıxışında vətəndaş müraciətlərinə baxılması prosesinin dövlət idarəçiliyində şəffaflıq, məsuliyyət və operativliyin təmin edilməsində mühüm rol oynadığını vurğulamışdır.

Təlim müddətində iştirakçılara müraciətlərin qəbulu və icrasına dair hüquqi tələblər, müraciətlərin təsnifatı, sənəd dövriyyəsinin düzgün təşkili, icra intizamının təmin olunması, cavabların hazırlanması və rəsmiləşdirilməsi qaydaları barədə ətraflı məlumat verilmişdir. Bununla yanaşı, müraciətlərə baxılma prosesində etik davranış normaları, vətəndaş məmnuniyyətinin artırılması, elektron müraciətlərin idarə edilməsi və kargüzarlığın müasir standartlara uyğun təşkili kimi mövzular geniş şəkildə şərh olunmuşdur.

Təlim interaktiv müzakirələr şəraitində keçirilmiş, iştirakçılar müraciətlərlə bağlı praktiki halların həlli, institusional çətinliklərin aradan qaldırılması və sənəd dövriyyəsinin səmərəliliyinin artırılması istiqamətində fikir mübadiləsi aparmışlar.

Təlimin sonunda qeyd edilmişdir ki, vətəndaş müraciətlərinə operativ və obyektiv baxılması dövlət idarəçiliyində peşəkarlığın, şəffaflığın və vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin artırılmasının əsas şərtlərindən biridir.

## *Milli Məclisin deputatının tələbələrimizlə görüşü*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Tələbə Gənclər Təşkilatının nəzdində fəaliyyət göstərən "Biznes" klubun təşkilatçılığı ilə Milli Məclisin deputatı, iqtisad elmləri üzrə fəlsəfə doktoru Tahir Mirkişili ilə "Dövlət–özəl tərəfdaşlığının mahiyyəti və perspektivləri" mövzusunda görüş keçirilib.



DİA-nın ictimai əlaqələr üzrə müşaviri Zaur Məmmədov Akademiyanın rektoru, akademik Urxan Ələkbərovun salamlarını tədbir iştirakçılarına çatdırmış, millət vəkili Tahir Mirkişiliyə tələbələrlə görüşünə görə təşəkkürünü bildirmişdir.

Daha sonra tədbirin qonağı Milli Məclisin deputatı Tahir Mirkişili çıxış edərək dövlət və özəl sektorların ölkədə fəaliyyəti haqqında ətraflı məlumat vermiş və tələbələrlə interaktiv görüş təşkil olunmuşdur.

Görüş zamanı dövlət-özəl sektor əməkdaşlığının iqtisadi inkişafda rolu, mövcud imkanlar, tərəfdaşlıq modelləri, gələcək tətbiq perspektivləri və biznes mühitində inteqrasiya mexanizmləri barədə geniş müzakirələr aparılıb.

Sonda xatirə fotosu çəkilib.

### *“Könüllülük proqramı”nın açılış tədbiri*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında “Könüllülük proqramı”nın açılış tədbiri keçirilmişdir. Qeyd edilmişdir ki, DİA Könüllüləri proqramının əsas məqsədi elmi-praktiki, mədəni tədbirlərin təşkilinə töhfə vermək, həmçinin dövlət qurumları ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində könüllü mübadilə proqramları həyata keçirməkdən ibarətdir.

Rektor, akademik Urxan Ələkbərov çıxışında vurğuladı ki, könüllülük hərəkatı müasir cəmiyyətlərdə həm sosial həmrəyliyin gücləndirilməsində, həm də vətəndaşların fəal mövqeyinin formalaşdırılmasında mühüm rol





oynayır. Onun sözlərinə görə, Azərbaycan gənclərinin ictimai proseslərdə aktiv iştirakının təşviqi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir və Azərbaycan Respublikasının Prezidentinin yanında Dövlət İdarəçilik Akademiyası bu siyasətin həyata keçirilməsinə töhfə verən aparıcı təhsil müəssisələrindən biri olaraq üzərinə düşən missiyanı ardıcıl şəkildə yerinə yetirir.

Rektor qeyd etdi ki, könüllü fəaliyyət təkcə fərdi inkişaf üçün deyil, həm də cəmiyyətin institusional gücünün artması üçün strateji əhəmiyyət daşıyır. Bu fəaliyyət gənclərdə liderlik, komandada işləmək, məsuliyyət daşımaq, təşəbbüskarlıq kimi mühüm kompetensiyaların formalaşmasına şərait yaradır. "Könüllülər cəmiyyətin ən dinamik hissəsini təşkil edir və onların sosial layihələrə cəlb edilməsi həm dövlət qurumları ilə vətəndaş cəmiyyəti arasında etimad mühitini gücləndirir, həm də yeni idarəetmə mədəniyyətinin formalaşmasına töhfə verir," – deyə akademik Ələkbərov bildirdi.

O əlavə etdi ki, DİA Könüllülük Proqramı çərçivəsində tələbələrin dövlət qurumları ilə birgə müxtəlif sosial, elmi-praktiki və mədəni layihələrdə iştirakı onların praktiki bilik və bacarıqlarını artıracaq, eyni zamanda gələcək karyeraları üçün dəyərli təcrübə qazanmağa imkan verəcək. Proqramın qarşısında duran əsas vəzifələrdən biri də könüllülüyün davamlı və sistemli şəkildə təşkili, könüllülərin potensialının üzə çıxarılması və onların dövlət idarəçiliyi sahəsinə inteqrasiyasına dəstək verməkdir.

Tədbir zamanı DİA-nın Məzunlarla iş sektorunun müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru Anar Şükürov, Tədrisin keyfiyyətinin monitorinqi və məzunlarla iş şöbəsinin baş mütəxəssisi Murad Həsənxanlı, Tədrisin keyfiyyətinin monitorinqi və məzunlarla iş şöbəsinin mütəxəssisi Gülputa Şirinova, DİA Tələbə Gənclər Təşkilatının sədri İxtiyar Mahmudzadə və rəsmi qonaqlar, "Qırmızı Ürəklər Fondu"nun Himayəçilik Şurasının üzvü Günay Məsimova, DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin İnsan resursları, daxili nəzarət, sənədlərlə və vətəndaşlarla iş departamentinin müdiri Miraqil Seyidzadə, "Ədliyyə Könüllüləri" İctimai Birliyinin sədri Cavad Cavadlı, "İslahat Könüllüləri" layihəsinin rəhbəri Nailə Cəfərova, Vəkillər Kollegiyasının "Femida Könüllüləri" Təşkilatının sədri Salman Vahabov könüllük fəaliyyətinin həyata keçirilməsi və əhəmiyyəti haqqında öz təcrübələrini bölüşmüşlər. Eyni zamanda bir qrup gənc könüllülük proqramının gənclər üçün əhəmiyyəti haqqında fikir mübadiləsi aparmışdır.

Tədbirin sonunda tələbələrin sualları cavablandırılmış və xatirə fotosu çəkilmişdir.

## *Ümummilli Lider Heydər Əliyevin dövlətçilik fəaliyyətinə həsr olunmuş “Suverenlik fəlsəfəsi” mövzusunda respublika elmi konfrans*

11 dekabr 2025-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Ümummilli Lider Heydər Əliyevin dövlətçilik fəaliyyətinə həsr olunmuş “Suverenlik fəlsəfəsi” mövzusunda Respublika elmi konfransı keçirilmişdir.

Konfransdan öncə iştirakçılar Ümummilli Lider Heydər Əliyevin Akademiyadakı büstünü ziyarət edərək onun xatirəsini ehtiramla yad etmişlər.

Konfrans plenar iclasla işinə başlamışdır. Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmişdir.

Konfransın açılışında çıxış edən DİA-nın rektoru, akademik Urxan Ələkbərov Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixində misilsiz xidmətləri barədə danışmışdır. Rektor qeyd etmişdir ki, Azərbaycan dövlətinin xilaskarı olan Heydər Əliyev bütün həyatını xalqın müstəqilliyinə, ölkənin sabitliyi və tərəqqisinə həsr etmişdir.

Rektor vurğulamışdır ki, suverenlik fəlsəfəsi mövzusu təsadüfi seçilməmişdir. Heydər Əliyevin dövlətçilik konsepsiyası, suverenlik ideyaları və hüquqi dövlət quruculuğu prinsipləri müasir Azərbaycanın ideoloji, siyasi və iqtisadi təməllərini formalaşdırmışdır. Məhz Ümummilli Liderin rəhbərliyi ilə atılan fundamental addımlar nəticəsində Azərbaycan qısa müddətdə dağılmaq təhlükəsindən xilas olaraq sabit, güclü və müstəqil dövlətə çevrilmişdir.

Rektor həmçinin qeyd etmişdir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi ardıcıl və praqmatik siyasət nəticəsində bu strateji kurs daha da güclənmiş, Azərbaycan regionun lider dövləti, 44 günlük Vətən müharibəsinin qalibi kimi beynəlxalq arenada nüfuzunu artırmışdır.

Konfrans çərçivəsində dövlətçilik fəlsəfəsi, suverenlik, hüquqi və ideoloji əsaslar üzrə geniş məruzələr təqdim edilmişdir.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq Komitəsinin sədri, DİA -nın İqtisadiyyatın Dövlət tənzimlənməsi kafedrasının müdiri, dosent Azər Əmiraslanov “Azərbaycanın dövlət suverenliyinin iqtisadi əsaslarının yaradılması Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətidir” mövzusunda çıxış etmişdir. O, 1990-cı illərin əvvəllərində gərgin iqtisadi vəziyyət fonunda Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gə-



lərək Azərbaycanı xilas etməsi, apardığı iqtisadi islahatlar və hazırda ölkəmizin iqtisadi göstəriciləri, aparılan iqtisadi siyasət haqqında danışmışdır.

Milli Məclisin deputatı, DİA-nın "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının müdiri, professor Hikmət Babaoğlu Azərbaycanın dövlət suverenliyinin siyasi əsasları" mövzusunda çıxış edərək Ulu Öndərin siyasi islahatları, dövlət quruculuğu və hakimiyyət institutlarının formalaşması istiqamətində atdığı addımları və müasir Azərbaycan Respublikasının daxili və xarici siyasət aspektləri haqqında çıxış etmişdir.

DİA "Hüquq" kafedrasının müdiri, hüquq elmləri doktoru, professor İsaxan Vəliyev "Azərbaycan Respublikasının Konstitusiyası: suverenlik manifesti" mövzusunda çıxış edərək 1995-ci ildə Konstitusiyasının qəbulu, hüquqi dövlət quruculuğunun əsas mərhələləri və konstitusiya islahatlarının əhəmiyyətindən bəhs etmişdir.

DİA "Tarix" kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Firdovsiyyə Əhmədova "Azərbaycan dövlətçiliyində modernləşmənin tarixi-ideoloji əsasları" mövzusunda məruzə edərək qədim dövrlərdən başlayaraq müasir dövrə qədər dövlətçilik ənənələrinin inkişafı, modernləşmə prosesləri barədə elmi mülahizələrini təqdim etmişdir.

Plenar iclasdan sonra konfrans iki bölmə üzrə işini davam etdirmişdir. Birinci panel DİA-nın I prorektoru Əlikram Abdullayevin moderatorluğu ilə keçirilmiş, "Fəlsəfə və sosial psixologiya" kafedrasının müəllimləri mövzuya dair elmi çıxışlar etmişlər. İkinci panel siyasi elmlər doktoru, professor Sevil Məmmədovanın sədrliyi ilə təşkil olunmuş, burada DİA Tələbə Elmi Cəmiyyətinin üzvləri öz tədqiqatlarını təqdim etmişlər.

Konfransın sonunda ümumi müzakirələr aparılmış, iştirakçıların sualları cavablandırılmış və tədbir ümumi xatirə fotosu ilə yekunlaşmışdır.

***Akademik Urxan Ələkbərovun "Heydər Əliyev irsi davamlı inkişaf yoluna işıq saçır" adlı məqaləsi "Xalq qəzeti"ndə nəşr edilmişdir***



8 12 dekabr 2025-ci il, cümə **Xalq qəzeti**

YADDAŞ

# Heydər Əliyev irsi davamlı inkişaf yoluna işıq saçır

**Ulu öndər Heydər Əliyevin bütün sahələrdə, xüsusilə də dövlət idarəçiliyi kimi mürəkkəb və məsuliyyətli bir istiqamətdə nümayiş etdirdiyi fitri istedad, dərin nəzəri biliklər və zəngin praktiki bacarıqlar o qədər geniş, çoxşaxəli və sərhədsizdir ki, bu irsin öyrənilməsi yalnız keçmişin dəyərli irsi kimi deyil, həm də bu gün üçün vacib elmi istiqamət, gələcək üçün isə tükənməz innovativ inkişaf mənbəyidir. Məhz buna görə Heydər Əliyev irsi müxtəlif dövrlərdə, fərqli nəslin nümayəndələri tərəfindən araşdırılır, yeni kontekstlərdə yenidən dəyərləndirilir və hər dəfə yeni mənalar qazanır.**

Bu davamlılığın səbəbi sadə, lakin olduqca dərin məntiqə söykənir: dünya dayanmadan dəyişir, qlobal proseslər sürətlənir, bəşəriyyətin üzləşdiyi çağırışların miqyası və mahiyyəti durmadan mürəkkəbləşir. Belə bir mənzərədə tarixi təcrübənin ən qiymətli nümunəsi kimi Heydər Əliyevin yaratdığı dövlətçilik məktəbi zamanın sınağından keçmiş, universallığı ilə seçilən etibarlı yol xəritəsi rolunu oynayır.

Bu gün də müxtəlif sahələrdə — siyasətdə, iqtisadiyyatda, təhlükəsizlikdə, sosial sahədə, elmdə və təhsildə — ən optimal qərarların hazırlanmasında Heydər Əliyevin irəli sürdüyü prinsiplərə, formalaşdırdığı idarəçilik fəlsəfəsinə istinad etmək, sanki bəşəriyyətin mürəkkəb suallarına verilən peşəkar cavabların mənbəyinə yönəlmək kimidir. Onun nəzəri irsi yalnız keçmişin deyil, həm bugünün, həm də gələcəyin tələblərinə cavab verən çevik idarəçilik modelidir.

Şəkil 2.-də təqdim olunmuş məlumatlar Dünya İqtisadi Forumu (Cenevrə) tərəfindən 2023-cü ilin sonunda, Bakıda keçirilən BMT-nin iqlim konfransı – COP29 ərəfəsində hazırlanmış xüsusi hesabatda öz əksini tapmışdı. Bu hesabat əslində Azərbaycanın enerji siyasətinin son 20 ildə keçdiyi inkişaf yolunun beynəlxalq miqyasda rəsmi qiymətləndirilməsi idi. Sənəd göstərirdi ki, ölkəmizdə neft strategiyasının müasir mərhələdə genişləndirilməsi və paralel olaraq bərpaolunan enerji mənbələrinin strateji şəkildə cəlb edilməsi nəticəsində tamamilə yeni bir inkişaf modeli formalaşmışdır. Bu model həm qlobal çağırışların tələblərinə, həm də milli prioritetlərə — davamlı iqtisadi artıma, ekoloji təhlükəsizliyə və inklüziv cəmiyyətin qurulmasına yüksək səviyyədə uyğunluq nümayiş etdirir.

Hesabat bir daha sübut edirdi ki, Azərbaycan enerji sahəsində yalnız resurs ixrac edən ölkə deyil, eyni zamanda, enerji transformasiyasını idarə edən qabaqcıl dövlətlərdən biridir. Bu dəyərləndirmə təkcə Dünya İqtisadi Forumunun mövqeyi ilə məhdudlaşmırdı. Dünya Bankının 2025-ci ildə dərc etdiyi analitik məlumatlarda da Azərbaycanın enerji keçidi üzrə əldə etdiyi nəticələr xüsusi vurğulanırdı. Həmin qiymətləndirməyə əsasən, ölkəmiz ümumdaxili məhsulun (ÜDM) hər vahidinə — alıcılıq qabiliyyəti pariteti ilə hesablanmış 1000 ABŞ dollarına — 2,62 enerji keçidi əmsalı formalaşdırır ki, bu da enerji transformasiyasının effektivliyinə görə dünya ölkələri üçün nümunəvi göstərici hesab olunur.

Bu nəticələr təsadüfi deyil. Onların əsasında ulu öndər Heydər Əliyevin qoyduğu strateji təməllər, onun neft siyasətinin yaratdığı güclü iqtisadi baza və ən əsası, bu bazanın XXI əsrin tələblərinə uyğun şəkildə çevrilməsini təmin edən Prezident İlham Əliyevin modern idarəçilik yanaşması dayanır. Prezident İlham Əliyev ölkənin enerji siyasətini yalnız iqtisadi sahə kimi deyil, həm də elm, təhsil, texnologiya və innovasiyaya əsaslanan kompleks dövlət idarəçiliyi modeli kimi inkişaf etdirir. Məsələnin məhz bu yanaşma ilə həll edilməsi Azərbaycanı enerji transformasiyasını optimal şəkildə idarə edən ölkələrdən birinə çevirib.

https://xalqqazeti.az/az/sosial-heyat/248228-heyder-eliyev-irsi-davamli-inkisaf

***DİA-nın dosenti Elşan Əhmədovun iki yeni nəşri***

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) İqtisadiyyatın dövlət tənzimlənməsi kafedrasının dosenti Elşan Əhmədovun "Yaşıl və mavi iqtisadiyyatın planlaşdırılması və idarə edilməsi" adlı yeni dərs vəsaiti çap olunub. Bu nəşr yaşıl və mavi iqtisadiyyatın planlaşdırılması, idarə edilməsi və davamlı inkişaf aspektlərini əhatə edən aktual mövzuları əks etdirir. Bundan əlavə, DİA-nın dosenti Əhmədov Elşan Türkiyənin Global Academy Publishing House nəşriyyatı tərəfindən 23.10.2025 tarixində nəşr olunan "Developments in Aquaculture: Trends, Challenges, and Applications" (1st Edition) adlı beynəlxalq kitabda müəllif kimi iştirak edib. Kitabın ISBN nömrəsi 978-625-6276-28-4 olan bu nəşrdə o, "Digital technologies as a means of sustainable development of aquaculture (case of Azerbaijan)" adlı fəslin müəllifidir (DOI və ətraflı məlumat: https://books.google.az/books?id=MRprEQAAQBAJ). Hər iki nəşr dosent Elşan Əhmədovun davamlı inkişaf, rəqəmsal texnologiyalar, su resursları və ekoloji iqtisadiyyat sahələrindəki elmi fəaliyyətini əks etdirir və Azərbaycanın bu istiqamətlərdəki aktual tədqiqatlarına töhfə verir.






### *İcra hakimiyyəti şöbələrinin rəhbərləri üçün təşkil olunmuş təlim proqramı*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 11 dekabr 2014-cü il tarixli 387 nömrəli və 15 may 2025-ci il tarixli 394 nömrəli Fərmanlarına əsasən, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına müvafiq təlimlərin təşkili həvalə olunub. Bu çərçivədə icra hakimiyyəti orqanlarının "Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması" və "İctimai-siyasi və humanitar məsələlər" şöbələrinin rəhbərləri üçün Akademiyada üç aylıq təlim proqramı keçirilmişdir.



Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov tərəfindən təqdim olunan "Dövlət idarəçiliyində inkişaf göstəriciləri və onların ölçülməsi" adlı təlim proqramı ərzində iştirakçılar iqtisadi vəziyyətin ölçülməsi və təhlili, gəlirlərin müəyyənləşdirilməsi və bölüşdürülməsi, əhalinin və təsərrüfatlarının gəlir indikatorları, yoxsulluq və insan inkişafı göstəriciləri, demoqrafik siyasətin idarəetmə prosesinə təsiri, davamlı inkişafın idarə olunması, idarəetmə texnologiyaları və liderlik kimi sahələr üzrə nəzəri biliklər və praktiki bacarıqlar əldə etmişlər. Həmçinin sosial müəssisələr və sosial layihə modelləri üzrə müzakirələr aparılmışdır.

Təlim proqramı 16 dekabr 2025-ci il tarixində Dövlət İdarəçilik Akademiyasında yekun qiymətləndirmə əsasında sertifikatların təqdim edilməsi ilə tamamlanmışdır.

### *Fətəli xan Xoyskinin anadan olmasının 150 illiyinə həsr olunmuş elmi konfrans*

Fətəli xan Xoyskinin anadan olmasının 150 illiyinə həsr olunmuş elmi konfrans keçirilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, görkəmli dövlət xadimi Fətəli xan Xoyskinin anadan olmasının 150 illiyinə həsr olunmuş elmi konfrans keçirilib.

Konfrans Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Azərbaycan İstiqlal Muzeyinin birgə təşkilatçılığı ilə baş tutub.

Konfransdan öncə Azərbaycan İstiqlal Muzeyinin Fətəli xan Xoyskinin anadan olmasının 150 illik yubileyinə həsr etdiyi "İstiqlalın zərif imzası: Fətəli xan Xoyski" adlı sərgi nümayiş olundu.

Tədbir DİA-nın I prorektoru, professor Əlikram Abdullayevin giriş sözü ilə açılıb. Ardınca Azərbaycan Respublikasının Dövlət

Himni səsləndirilib, Azərbaycan dövlətçiliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Elmi konfransda Azərbaycan İstiqlal Muzeyinin direktoru Sədi Mirseyibli "İstiqlal Muzeyi Fətəli xan Xoyskinin işığında" mövzusunda çıxış edərək, görkəmli dövlət xadiminin ictimai-siyasi irsinin muzey ekspozisiyalarında əks olunmasından və onun müstəqil dövlətçilik ideyalarının təbliğindən bəhs edib.

DİA-nın Tarix kafedrasının müdiri, Əməkdar müəllim Firdovsiyyə Əhmədova "Fətəli xan Xoyskinin Azərbaycan dövlətçiliyində xidmətləri" mövzusunda məruzə ilə çıxış edərək, onun Azərbaycan Xalq Cümhuriyyətinin formalaşmasında və hüquqi dövlət əsaslarının yaradılmasında oynadığı mühüm rolu diqqətə çatdırıb.

Türk Mədəniyyəti və İrsi Fondunun aparat rəhbəri Fəxri Hacıyev "Fətəli xan Xoyskinin Gürcüstanla bağlı siyasəti və qətli haqqında məlumatlar" mövzusunda çıxış edərək, tarixi faktlar və arxiv materialları əsasında Fətəli xan Xoyskinin regional siyasəti və faciəli taleyi barədə ətraflı məlumat verib.

### *Prezident İlham Əliyevin dövlətçilik fəaliyyətinə həsr olunmuş "İnnovativ dövlət idarəçiliyi modeli: uğurlar və perspektivlər" mövzusunda elmi-praktik konfrans*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) "İnnovativ dövlət idarəçiliyi modeli: uğurlar və perspektivlər" mövzusunda elmi-praktik konfrans keçirilmişdir.

Konfransı giriş sözü ilə açan rektor, akademik Urxan Ələkbərov Azərbaycan xalqının tarixində Prezident İlham Əliyevin rolunun misilsiz olduğunu vurğulamış, dövlət idarəçiliyində həyata keçirilən islahatların ölkənin davamlı inkişafına mühüm töhfə verdiyini qeyd etmişdir. Akademik bildirmişdir ki, Ali Baş Komandan İlham Əliyevin uzun illər ərzində həyata keçirdiyi məqsədyönlü və strateji



hədəflərə yönələn siyasəti nəticəsində işğal altında qalan torpaqlarımız düşməndən azad edildi, ərazi bütövlüyümüz təmin olundu, xalqımızın Vətən həsrətinə son qoyuldu. Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini yaradan İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü bərpa edən lider kimi adını əbədi olaraq tarixə yazdırdı və 44 günlük Vətən müharibəsinin əsl qəhrəmanına çevrildi. Akademik çıxışında, həmçinin ölkədə təhsilin inkişafı istiqamətində görülən işlərdən, ali təhsilə göstərilən xüsusi dövlət qayğısından, insan kapitalının inkişafının prioritet istiqamət kimi müəyyən olunmasından söz açmışdır.

Kadr siyasəti kafedrasının dosenti, Milli Məclisin deputatı Aydın Mirzəzadə çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi dövründə əldə olunan sosial-iqtisadi uğurlardan, dövlət idarəçiliyində tətbiq olunan innovativ mexanizmlərdən və idarəetmədə şəffaflıq prinsipinin gücləndirilməsindən danışmışdır. Deputat Prezident İlham Əliyevin hakimiyyətdə olduğu tarixə nəzər salıb, həyata keçirilən siyasətin ölkəmizin müasirləşməsini, respublikamızın simasının əsaslı dərəcədə dəyişməsini təmin etdiyini bildirib. O bildirmişdir ki, tarixi qələbə Ali Baş Komandan İlham Əliyevin qələbə əzminin, sarsılmaz iradəsinin, qətiyyətinin təcəssümüdür. Deputat vurğulayıb ki, harada yaşamasından asılı olmayaraq, bütün azərbaycanlılar Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında yumruq kimi birləşib.

Konfransda çıxış edən Akademiyanın Tarix kafedrasının professoru Fuad Məmmədov isə Prezident İlham Əliyevin fəaliyyətini Azərbaycan dövlətçiliyinin tarixi inkişaf kontekstində təhlil etmiş, onun liderliyi ilə ölkənin siyasi, iqtisadi və hərbi baxımdan əhəmiyyətli uğurlara imza atdığını qeyd etmişdir. Professor Azərbaycanın bu günkü gücünün və sabitliyinin müasir dövlət idarəçiliyi modelinin düzgün qurulmasının nəticəsi olduğunu bildirmişdir.

Sonda mövzu ətrafında geniş müzakirələr aparılmış, konfransın Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət idarəçiliyi modelinin elmi cəhətdən təhlili baxımından əhəmiyyəti xüsusi qeyd olunmuşdur.

## *Yeni Azərbaycan Partiyasının “Biz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin elmi-siyasi irsini öyrənirik” məktəbinin sonuncu dərsi DİA-da keçirildi*

Yeni Azərbaycan Partiyasının “Biz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin elmi-siyasi irsini öyrənirik” məktəbinin sonuncu dərsi baş tutdu

Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının 2025 ci il ərzində “Biz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin elmi-siyasi irsini öyrənirik” məktəbinin sonuncu dərsi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında keçirildi.

Tədbir Ulu Öndər Heydər Əliyevin büstünün önünə gül dəstələrinin qoyulması ilə başlayıb. Ardınca Ulu Öndər Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov açılış nitqində qeyd edib ki, gənclər siyasəti Azərbaycan dövlətinin strateji prioritetlərindən biridir və bu siyasətin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu Öndər hər zaman gəncləri ölkənin əsas intellektual və strateji resursu kimi qiymətləndirmiş, onların bilik və bacarıqlarının inkişafını dövlət siyasətinin mühüm istiqaməti kimi müəyyən etmişdir.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü gənclər siyasəti nəticəsində gənclərimiz dövlət idarəçiliyində, elm, təhsil, innovasiya və ictimai həyatda fəal iştirak edirlər. Dövlət İdarəçilik



Ak ademiyası olaraq bizim əsas missiyamız savadlı, vətənpərvər, dövlətçilik dəyərlərinə sadiq kadrların hazırlanmasıdır.

Əminəm ki, bu gün yetişən gənc nəsil Azərbaycanın davamlı inkişafına, dövlətçiliyimizin möhkəmlənməsinə və beynəlxalq nüfuzunun daha da artmasına layiqli töhfələr verəcəkdir. Sizləri daim öyrənməyə, inkişaf etməyə və dövlətə xidmət yolunda əzmlə çalışmağa çağırıram.

YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev çıxış edərək bildirib ki, hər il təşkil olunan Heydər Əliyev Məktəbi layihəsinin keçirilməsi gənclərin dövlətçilik dəyərləri əsasında formalaşmasına, onların siyasi biliklərinin artırılmasına və ictimai fəallığının gücləndirilməsinə xidmət edir. O qeyd edib ki, bu təşəbbüs Ümummilli Lider Heydər Əliyevin zəngin siyasi irsinin gənc nəslə aşılanması baxımından xüsusi əhəmiyyət daşıyır. Azərbaycan Respublikasında gənclər siyasəti dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Bu siyasətin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün



Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə qəbul edilən proqram və strategiyalar gənclərin təhsili, ictimai fəallığı və peşəkar inkişafı üçün geniş imkanlar yaratmışdır.

Gənclər bu gün ölkənin sosial-iqtisadi, ictimai-siyasi və intellektual həyatında fəal iştirak edirlər.

Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin sədri Bəxtiyar İslamov çıxışında bildirib ki, Yeni Azərbaycan Partiyası üçün gənclər siyasəti partiyanın ideoloji fəaliyyətinin əsas sütunlarından biridir. O qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi siyasi xəttə uyğun olaraq, gənclərin milli-mənəvi dəyərlərə sadiq, müasir dünyagörüşlü və vətənpərvər ruhda formalaşdırılması hər zaman partiya fəaliyyətinin prioritet istiqamətlərindən olmuşdur. Bu siyasət gənclərin dövlətçilik prinsiplərinə bağlı, bilikli və məsuliyyətli vətəndaş kimi yetişməsini təmin edir.

Bəxtiyar İslamov çıxışında həmçinin vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü dövlət gənclər siyasəti gənclərin cəmiyyətin bütün sahələrində fəal iştirakına geniş imkanlar yaradır. O, gənclərin partiya strukturlarında, dövlət idarəçiliyində, ictimai-siyasi proseslərdə və sosial layihələrdə aktiv fəaliyyət göstərmələrinin Azərbaycanın inkişafına olan töhfəsini xüsusi olaraq qeyd edib.

Tədbirin sonunda "Biz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin elmi-siyasi irsini öyrənirik" məktəbini bitirən müdavimlərə diplomlar təqdim edilib.

### *"Prezident İlham Əliyevin innovativ dövlət idarəçiliyi siyasəti" mövzusunda məqalə müsabiqəsi keçirilmişdir*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Tələbə Gənclər Təşkilatının Siyasi idarəetmə fakültəsinin təşkilatçılığı ilə "Prezident İlham Əliyevin innovativ dövlət idarəçiliyi siyasəti" mövzusunda məqalə müsabiqəsinin nəticələrinə həsr olunmuş tədbir baş tutmuşdur.

Tədbirin açılış nitqini Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorunun müşaviri Zaur Məmmədov etmişdir. O, çıxışı zamanı Prezident İlham Əliyevin innovativ dövlət idarəçiliyi siyasətindən, həmçinin ölkədə aparılan gənclər siyasətindən bəhs etmişdir.

Siyasi İdarəetmə fakültəsinin dekanı, dosent Murtəza Həsənov bu cür elmi məqalə müsabiqələrinin gənclərin elm və təhsil sahəsində inkişafına mühüm töhfə verdiyini vurğulamışdır.

Professor Elçin Əhmədov mövzu ilə bağlı fikirlərini bölüşərək Prezident İlham Əliyevin dövlət idarəçiliyi sahəsində həyata keçirdiyi siyasətin elmi və praktiki əhəmiyyətindən bəhs etmişdir. O, bu siyasətin müasir çağırışlara cavab verdiyini qeyd etmişdir.

Sonda müsabiqədə yer tutmuş tələbələr təltif olunmuş və xatirə fotosu çəkilmişdir.

### *DİA-nın əməkdaşları və tələbələrinin internat məktəbində şagirdlərlə görüşü*

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü  və Yeni il münasibətilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının könüllülərindən ibarət bir qrup gənci  və əməkdaşları Buzovna qəsəbəsində yerləşən 8 saylı sanatoriya tipli internat məktəbində təhsil alan şagirdləri təbrik etmişlər.

## MÜNDƏRİCAT

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətinin qısa xronikası**............7

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qəbulları**.............................15

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səfərləri**.........................................29

Danimarkaya işgüzar səfər ........................................................................................ 29
Qəbələyə səfər .........................................................................................................31
Tacikistana səfər .......................................................................................................36
Misirə işgüzar səfər ...................................................................................................39
Qazaxıstana dövlət səfəri ..........................................................................................39
Sabirabad, İmişli, Cəbrayıl və Zəngilana səfər .......................................................46
Özbəkistana səfər .....................................................................................................54
Slovakiyaya rəsmi səfər ...........................................................................................57
Birləşmiş Ərəb Əmirliklərinə səfər ..........................................................................63
Ağdam, Xocalı və Xankəndiyə səfər .......................................................................64

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları və müsahibələri**..................................................................................................77

Bakıda İtaliya Azərbaycan Universitetinin ilk tədris korpuslarının açılış mərasimində İlham Əliyevin çıxışı ................................................................77

İlham Əliyev “Kazinform” agentliyinə müsahibə verib ..........................................78

Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağında İlham Əliyevin çıxışı ..........................................................................................81

İlham Əliyevin Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi paradda çıxışı .........................................................................85

İlham Əliyev Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibə verib ..86

2025-ci ilin idman yekunlarına həsr olunan mərasimdə İlham Əliyevin çıxışı ........89

İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciəti..................................................................... 91

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR**

**Elçin Əhmədov.** Azərbaycanın xarici siyasəti: siyasi-diplomatik uğurlar və dövlət suverenliyinin tam bərpası ........................................................................................ 93
DOI: https://doi.org/10.30546/2309-1347.92.2025.305

**RƏQƏMSAL DÖVLƏT İDARƏÇİLİYİ**

**Elvin Əzizbəyov, Gülnar Mirzəyeva, Nərmin Allahyarova.** Dövlət idarəçiliyinin səmərəliliyinin artırılmasında maşın öyrənməsinin rolu ..........................................................115
DOI: https://doi.org/10.30546/2309-1347.92.2025.308

**DAVAMLI İNKİŞAF SİYASƏTİ**

**Fuad Hümbətov.** COP29 və COP30 beynəlxalq iqlim konfranslarının əsas nəticələrinin müqayisəli təhlili: iqlim diplomatiyasının qlobal çağırışları .................................................. 129
DOI: https://doi.org/10.30546/2309-1347.92.2025.313

**Yeganə Baxşıyeva.** İqlim dəyişmələri və hidrotəhlükəsizlik: Azərbaycanın davamlı təsir vasitələri ......................................................................................143
DOI:https://doi.org/10.30546/2309-1347.92.2025.316

**SİYASİ NƏZƏRİYYƏ**

**Xalid Niyazov.** Azadlıq və ədalət konsepsiyası strateji düşüncə paradiqması kimi..................155
DOI:https://doi.org/10.30546/2309-1347.92.2025.324

**TARİX**

**İsmayıl Hacıyev.** Azərbaycanın əzəli torpaqlarında Ermənistan dövlətinin yaradılması: tarixi aspektlər.......................................................................................................................167
DOI:https://doi.org/10.30546/2309-1347.92.2025.329

**İlqar Abdullayev.** Azərbaycanda dəniz nəqliyyatının inkişaf tarixi (1969-1982-ci illər) .........175
DOI:https://doi.org/10.30546/2309-1347.92.2025.335

**Yeganə Məmmədova.** Naxçıvanın ərazi bütövlüyü məsələsi və sovet rəhbərliyinin mövqeyi.185
DOI:https://doi.org/10.30546/2309-1347.92.2025.345

**KULTUROLOGİYA**

**Фуад Мамедов.** Культурология и горизонты развития азербайджанской культуры..........197
DOI:https://doi.org/10.30546/2309-1347.92.2025.355

## HÜQUQ

**Mətanət Əsgərova.** Alqoritmik sübutların mümkünlüyünün prosessual təminatları ...............217
DOI:https://doi.org/10.30546/2309-1347.92.2025.361

## TƏDRİSİN İNNOVATİV METODLARI

**Leyla Sultanova, Gülputa Şirinova.** Andraqoji yanaşma, ömürboyu təhsil və bilik iqtisadiyyatı kontekstində Azərbaycanın rəqəmsal inkişaf strategiyaları...........................233
DOI: https://doi.org/10.30546/2309-1347.92.2025.367

## GƏNC TƏDQİQATÇILAR

## DAVAMLI İNKİŞAF SİYASƏTİ

**Raul Vəliyev.** Davamlı inkişafın təmin olunmasında bərpa olunan enerji mənbələrinin rolu ..247
DOI:https://doi.org/10.30546/2309-1347.92.2025.375

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ

**Khalida Malikova.** Political Challenges in the Middle East in the 21st Century and Positions of Leading States ...........................................................................................................259
DOI:https://doi.org/10.30546/2309-1347.92.2025.385

## HÜQUQ

**Сеймур Новрузов.** Вопросы имплементации международно-правовых норм об охране окружающей среды в законодательство Азербайджанской Республики ............................271
DOI: https://doi.org/10.30546/2309-1347.92.2025.394

**Dövlət İdarəçilik Akademiyasında** ...........................................................................281

**«Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə» jurnalına məqalələrin təqdimolunma qaydası**

1. Məqalə Azərbaycan, İngilis və Rus dillərində qəbul edilir.
2. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifələri, ad və soyadları, çalışdıqları qurum və elektron poçt (e-posta) ünvanları yuxarıda sağ tərəfdə göstərilir.
3. Məqalənin həcmi 8 səhifədən az olmamalı (Microsoft Word formatında), 1,0 (bir) intervalla, Times New Roman 12 şriftilə yazılmalı, A4 formatında və elektron daşıyıcıda təqdim olunmalıdır.
4. Məqalədə xülasə (Azərbaycan, İngilis və Rus dillərində), açar söz (Azərbaycan, İngilis və Rus dillərində, ən çox 6 söz) qeyd olunmalıdır.
5. Məqalənin xülasəsi məqalənin məzmununa uyğun olmalı, 150-200 sözdən çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən metodları, tətbiq dairəsini göstərməlidir.
6. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. aydın şəkildə qeyd olunmalıdır.
7. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir. Məqalədə istinad olunmuş mənbələr ədəbiyyat siyahısında əlifba sırası ilə yazılmalı və nömrələnməlidir. İstinad olunmuş mənbənin ədəbiyyat siyahısındakı nömrəsi və səhifə nömrəsi mətndəki istinaddan sonra kvadrat və ya adi mötərizədə göstərilir. Məsələn (39, s.127-128), [27, s.237] və s.
8. Məqalələr orijinal olmalı və əvvəllər başqa yerli və ya beynəlxalq jurnallara, konfranslara təqdim edilməməlidir.
9. Məqalələr gizli rəyçilərin rəyindən sonra redaksiya heyətinin qərarı ilə çapa tövsiyə edilir.

**Procedure for Submitting Articles to the Journal «Public Administration: Theory and Practice»**

1. The article is accepted in Azerbaijani, English and Russian languages.
2. The title of the article, the author (s), author's (s') academic affiliation, titles, names and surnames, workplace and electronic mail address (e-mail) addresses should be displayed above on the right side.
3. The content of the article should be no less than 8 pages (in Microsoft Word format), 1,0 space, Times New Roman 12 fonts and must be submitted electronically in A4 format.
4. The article should contain summary, (English, Russian and Azerbaijani languages), keyword (English, Russian and Azerbaijani languages, no more than six words)
5. The summary of the article must be in line with the content of the article, should not exceed 150-200 words, must indicate the purpose and importance of the research, the methods that used as well as the scope of the study.
6. At the end of the scientific article, the scientific originality and the importance of the emprisicm should be clearly stated in accordance with the character of the scientific field and article.
7. The article should contain references to scientific sources. The scientific articles, monographs and etc.that have been written for the last 5-10 years should be preferred. The sources referred in the article must be listed in an alphabetical order in the reference list. The number and page number of the referred article in the reference list should be displayed in parantheses or brackets after the reference in the text. For instance, (39, p.127-128), [27, s.237] and etc.

8. The articles should be original and should not be previously submitted to other local or international journals and conferences.
9. The articles are recommended to publication by the decision of journal's editorial board after the opinion of peer reviewers.

## Правила предоставления статей для публикации в журнале «Государственное управление: теория и практика»

1. Статья принимается на азербайджанском, английском и русском языках.
2. Название статьи, автор(ы), ученая степень автора(ов), занимаемая должность, имя и фамилия автора(ов), организация, где они работают, адрес электронной почты указываются в верхнем правом углу.
3. Объем статьи не должен быть менее 8 страниц (в формате Microsoft Word), с междустрочным интервалом - 1,0 (одинарный), размером шрифта – 12 пт в формате А4 и должен предоставляться на электронном носителе.
4. В статье должны быть указаны резюме (азербайджанском, английском и русском языках), ключевые слова (на азербайджанском, английском и русском языках, не более 6-ти слов).
5. Резюме статьи должно соответствовать содержанию статьи, и не превышать 150-200 слов, должны быть указаны цель, значимость и место в научном обороте исследования, используемые методы, сфера применения.
6. В конце научной статьи в соответствии с областью науки и характером статьи должны быть чётко сформулированы научная новизна работы, значимость её внедрения и др.
7. В статье должны быть ссылки на научные источники, преимущественно на научные статьи, монографии и др. за последние 5-10 лет. Источники, на которых были ссылки в статье, должны быть пронумерованы и включены в список литературы в алфавитном порядке. Номер источника и страницу, на которую была сделана ссылка, в тексте следует указать в квадратных или обычных скобках. Например, (39, s.127-128), [27, s.237] и т.д.
8. Статья должна быть оригинальной и ранее непредставленной в местные или международные журналы, конференции.
9. Статья рекомендуется к публикации по решению редколлегии после получения отзыва от тайных (неразглашаемых) рецензентов.

# Dövlət idarəçiliyi:
## nəzəriyyə və təcrübə

***Elmi-nəzəri jurnal***

**2025, №4(92)**

Azərbaycan Respublikasının Prezidentinin fəaliyyətini
əks etdirən bölməni *siyasi elmlər doktoru, professor E.Nəsirov,*
*siyasi elmlər doktoru, professor E.Əhmədov*,
*siyasi elmlər üzrə fəlsəfə doktoru Ü.Mustafayev*
və baş müəllim *F.Şammadov*
AzərTAc-ın materialları əsasında hazırlamışlar.

İngilis dilində xülasələr *filologiya üzrə fəlsəfə foktoru,*
*dosent Ülkər Şəfiyeva* tərəfindən redaktə edilmişdir.

Redaktoru *Günay Maqsudova*
Kompüter dizayneri *İradə Təhməzova*

*Elmi jurnalın Rəqəmsal Obyekt İdentifikatorları (DOI)*
*"Qlobal Əməkdaşlıq və Analitik Araşdırmalar Mərkəzi " İB-yi tərəfindən təmin edilir.*

*Lisenziya: AB № 022732,*
*Qeydiyyat № b 532, 08.04.2003-cü il.*
*Redaksiyanın ünvanı:*
*Bakı, Az-1001, Lermontov küç., 74*
*(Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası).*
E-mail: publishing@dia.edu.az
*Telefonlar: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

**“Aspoliqraf LTD” MMC-nin**
mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur
Sifariş 115. Tiraj 500.

# Journal of Public Administration: Theory and Practice

***Scientific and theoretical journal***

**2025, №4(92)**

The section covering activities the President of the Republic of Azerbaijan
is prepared on the basis of AzərTAC materials and is compiled by
*E.Nasirov, Dr. of political sciences, professor;*
*E.Ahmadov, Dr. of political sciences, professor;*
*U.Mustafayev, Ph.D. in political sciences*
and *F.Shammadov,* senior lecturer, all from Academy of Public Administration.

The summaries of the articles were edited by *Ulker Shafiyeva, Ph.D., Associate professor*

Editor *Gunay Maqsudova*
Computer designers *Irada Tahmazova*

*The Digital Object Identifiers (DOIs) of the scientific journal are provided by the "Center for Global Cooperation and Analytical Research"*

*License: AB No. 022732*
*Registration No. b 532, 08.04.2003*
*Address of Publisher:*
*Baku, Az-1001, Lermontov st., 74*
*( The Academy of Public Administration under the President of the Republic of Azerbaijan)*
*E-mail: publishing@dia.edu.az*
*Phone: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

Printed from ready made diapositives at the printing house of the
**“Aspoliqraf LTD”**
Order 115. Number of copies printed modern stage are considered.